SƏRDAR CƏLALOĞLU

ÜMUMİ METAFİZİKA

I CİLD

SƏRDAR CƏLALOĞLU

ÜMUMİ METAFİZİKA

2026

I Cild

MÜƏLLİFDƏN

Hörmətli oxucu! Oxumağa başladığın bu kitab vaxtilə tarixin dərinliklərində dəbdə olan, amma müasir dövrdə nadir hallarda gündəmə gətirilən və çox vaxt da tənqid üçün yada salınan xüsusi bir biliklər sistemi – bütün elmlərin atası adlandırılan metafizika haqqındadır. Metafizika insanlığın nəyinə lazımdır və nə üçün biz metafizikaya yenidən, amma daha ali səviyyədən qayıtmalıyıq?!

Qurani-Kərimin "Rəhman" surəsinin 33-cü ayəsində Allah-Təala buyurur:

> *"Ey cin və insan dəstəsi! Əgər göylərin və yerin hüdudlarından çıxmağa gücünüz çatırsa, çıxın. Amma siz buna yalnız bir qüvvə ilə nail ola bilərsiniz."*

Bu gün insan fiziki qüvvə və vasitələrlə yerin sərhədlərindən çıxmış və kosmosun ənginliklərinə yol almışdır. Amma göylərin sərhədlərindən – bu sərhədlər əbədilik və sonsuzluğa yaxın nəhəng ölçülərdə olduğundan – fiziki vasitələrlə çıxmaq mümkün deyil və heç vaxt da mümkün olmayacaqdır. Quran özü özünü təfsir etdiyindən, ayənin birinci hissəsini həyata keçirmək mümkün olubsa, onda qəbul etməliyik ki, onunla vəhdət təşkil edən ikinci hissəsini də reallaşdırmaq mümkündür. Bəs onda insan "göylərin sərhədlərindən çıxmağı" hansı qüvvə ilə həyata keçirə bilər?! Metafizika göylərin sərhədlərindən – sonsuzluğun və əbədiliyin hakim olduğu yeni ölçülük sisteminə keçməsi üçün insanlığa yardım edən bir qüvvə – idrak qüvvəsi kimi ortadadır.

Metafizika tarixin başlanğıcında insanın biliklənmə mərhələsinə keçiddə meydana gəldiyindən, özünə xas problemlərlə üzləşmişdir. Belə ki, mifoloji şüurdan sonra, fəlsəfi şüurdan öncə yaranan metafizik şüur öz dövrünün bilikləri ilə rəqabət apara bilməmiş, tarixin dərinliklərində ilişib qalmışdır. Halbuki həm metafizikadan əvvəl, həm də sonra yaranan şüur formaları bu gün də mövcudluqlarını qoruyub saxlamış və inkişaf etməkdədir.

Müasir dövrdə metafizika unudulmuş, idrakın bir küncünə sıxışdırılmış, dəbdən düşmüş bir bilik sahəsi kimi mövcuddur. Metafizikaya münasibət yeni və orijinal deyil və insanlıq tarixində eyni problemi teologiya, scientia (elm) və fəlsəfə də yaşamışdır. Zaman-zaman dövrün hakim dininə zidd baxışlar sərgiləyən teologiya, çoxluğun qəbul etməkdə çətinlik çəkdiyi bilgilər verən elmlər, eləcə də elmi bilikləri mütləqləşdirən və praktik məqsədlər güdənlər tərəfindən fəlsəfə gözardı edilmişdir.

Buna səbəb metafizikanı bir tərəfdən din (rasional teoloji baxışlara görə), digər tərəfdən fəlsəfə (ontoloji ideyalara görə), üçüncü tərəfdən isə elm (pnevmatoloji və kosmoloji ideyalara görə) inkar etməsi olmuşdur. Halbuki bu üç bilik sahəsinin hər biri mövcudluqlarına görə metafizikaya borcludurlar və metafizik statuslu obyektlərlə bağlı heç bir alternativ ortaya qoymamışdır.

Metafizika fəlsəfəni dünyaya gətirdikdən sonra nəinki unudulmuş, həm də elm, din və fəlsəfə tərəfindən təqiblərə sıxışdırılmış və təqibə məruz qalmışdır. Təəssüf ki, alim, filosof və teoloqlardan fərqli olaraq metafiziklərin də bəxti gətirməmiş, bəzən öz dövründə ideyaları, baxışları və verdikləri bilgilər hakim dinə, mövcud elmi-fəlsəfi yanaşmalara zidd olduğundan cəmiyyətdən kənarlaşdırılmış və ya edama məhkum edilmişlər. *Sokratın* taleyi buna canlı nümunədir.

Bir çox hallarda metafizika mifologiya, bəzən xurafat, bəzən də yalançı fəlsəfə kimi dəyərləndirilmişdir. Amma zaman-zaman bəzi mütəfəkkirlər elmi, fəlsəfi və dini yolla cavabı tapılmayan sualların cavabını axtararkən yenidən metafizikaya müraciət etməyə məcbur olmuşlar.

Bu gün metafizikaya əks cəbhədə duran – "metafizika təcrübə ilə yoxlanılması mümkün olmadığından" empirizmin məşhur təmsilçiləri Frensis *Bekon*, Con *Lokk*, Devid *Yum*; "yalnız müşahidə olunan fakt və qanunları" əsas götürən və buna görə metafizikanı "mənasızlıq"da ittiham edən Oqyust *Kont* kimi pozitivistlər; "metafizik cümlənin empirik yoxlanılmasının mümkünsüzlüyünə" və "metafizik ideyaları dil xətası" hesab etdiklərinə görə məntiqi pozitivizmin Rudolf *Karnap*, Morits *Şlik*,

A. C. Ayer kimi nümayəndələri; "metafizikanın mövcudluğunu qəbul edən, amma belə biliyin olmasını inkar edən" tənqidi fəlsəfənin banisi *İ. Kant*; "faydasız qəbul edib praktik nəticəsi olmadığını" düşündüklərinə görə onu inkar edən praqmatizmin Uilyam *Ceyms*, Con *Dyui* kimi nümayəndələri; metafizikanı "tarixi proseslərdən qoparılmış və sinfi münasibətləri gizlədən abstraksiya" hesab etdiklərinə görə marksistlər – *Marks* və *Engels*; "həyat əleyhinə uydurma olduğunu, həyatın özünə qarşı qurulmuş müdafiə mexanizmi" hesab edən nihilizmin banisi *Nitsşe*; "haqqında danışılması mümkün olmayan şey haqqında susmağı" vacib hesab edən və "problemi reallıqda yox, dildə" axtaran analitik fəlsəfə və dil tənqidinin *Vitgenşteynin* simasında tərəfdarlarından ibarət bütöv bir mütəfəkkir ordusu mövcuddur.

Stanislav Lem **"**Texnologiyaların məcmusu" kitabında yazır:

> *"O məlumatı metafizik məlumat adlandırırıq ki, empirik yoxlamaya tabe olmur – ya ona görə ki, belə yoxlama mümkün deyil, ya da bu məlumat ex definitione eksperimental yoxlamanın kriteriyalarına tabe olmur."*

Buna görə də metafizik bilgilər eksperimental yoxlama ilə təsdiq olunan elmi və nəqli yolla verilən və subyektiv əminliklə doğruluğuna inanılan dini bilgilərdən fərqli olaraq yalnız doğruluğu formal olaraq fikirləşmə prosesində subyektiv əminliklə qəbul edilə bilər.

Beləliklə, göründüyü kimi, ümumi şəkildə metafizikadan imtina 4 əsas ideyaya əsaslanır: təcrübəsiz bilik olmaz, yoxlanılmayan iddia mənasızdır, abstrakt varlıq anlayışları real problemləri ört-basdır edir və dil səhvləri "dərinlik" kimi təqdim olunur. Geniş izah vermədən demək olar ki, təcrübəsiz əldə edilmiş bir çox nəzəri biliklər, yoxlanılmasına ehtiyac olmayan və buna görə yoxlanılması mümkün olmayan aksiomatik bilgilər, biliyin məhz reallığın idrakda abstraksiyası yolu ilə əldə edilməsi və nəhayət, dil səhvlərinə əsaslanan çoxlu bilgilərin uzun müddət elmdə hakim olması metafizikanı inkar etməyin heç bir ciddi əsası olmadığını və

bu cür yanaşmanın biliyin generasiya məntiqinə uyğun olmadığını sübut edir.

Müasir elmi inkişaf yalnız klassik bilik formalarının – elmi, fəlsəfi və dini biliklərin generasiyasına əsaslanır. Halbuki bütün elmlərə atalıq etmiş metafizik biliklər bizim dünyagörüşümüzü – varlığın və idrakın dərin və uzaq qatlarındakı diqqətdən kənarda qalan və ya yanaşılması çətin olan, buna görə də xüsusi yanaşma və cəhd tələb edən nəsnələr haqqında bilikləri hesabına çox genişləndirə bilər.

Metafizikaya ögey münasibət tarixin yaranma yoluna da ziddir. Məlumdur ki, tarix köhnə əsasında meydana çıxanların vəhdətini özündə təqdim edir. Necə ola bilər ki, fəlsəfəyə və sonra da elmə atalıq etmiş metafizikadan onlarla vəhdətdən qoparılmış şəkildə imtina edilsin?!

İntibah dövrünün məşhur mütəfəkkiri *Piko* yazır: "O zaman ki, Allah razılaşdı ki, insan qeyri-müəyyən təbiətlə yaradılıb və onu dünyanın mərkəzinə qoydu, ona müraciət etdi:

'Ey Adəm! Biz sənə öz yerini, müəyyən obraz, xüsusi öhdəliklər verməyəcəyik ki, sən özün yerini, sifətini və öhdəliyini öz arzuna, öz iradənə və qərarlılığına uyğun əldə edəsən. Digər yaradılanların obrazı bizim qanunların hüdudlarında təyin edilmişdir. Sən isə heç bir hüdudla sıxışdırılmamışsan, öz obrazını öz qərarına və sənə verdiyimiz hakimiyyətə uyğun müəyyən edəcəksən. Mən səni dünyada nə var, daha yaxşı təsəvvür etməyin üçün indi dünyanın mərkəzinə qoyuram. Mən səni nə ilahi, nə yer, nə ölümlü, nə ölməz etməmişəm ki, sən özün azad və şöhrətli usta olaraq özünə istədiyin obrazı formalaşdırasan. Sən istəsən aşağı, şüursuz varlıq kimi, amma həm də istəsən öz ruhunun iradəsi altında 'ilahi varlıq' kimi yenidən doğula bilərsən.'"

Hər şeyi təcrübə ilə məhdudlaşdıran insan təcrübə sahəsində mövcud olan digər varlıqlardan çox da yüksəyə qalxa və özünə "ilahi" obraz yarada bilməz. Allah-Təala tərəfindən yaradılmış və dünyanın mərkəzinə yerləşdirilmiş insan yalnız metafizikanın köməyi ilə dünyaya və özünə yalnız onun daxilindən yox, həm də onun kənarından baxa və bu günədək

cavabını tapmaqda çətinlik çəkdiyi bir çox nəhəng suallara cavab tapa və nəhayət, "ilahi varlıq" kimi yenidən doğula bilər. İnsanın yalnız görünən təcrübə dünyası ilə məhdudlaşması onu şüursuz varlıqlardan "ilahi varlıq" olmaqdan uzaqlaşdırmasına tərs mütənasib şəkildə fərqləndirir.

Metafizika gah kosmosun – fizikanın sərhədlərindən kənara çıxmağı, gah idrakın öz sərhədlərini aşmasını, gah da əksinə idrakın dərinliklərinə – təhtəlşüura keçməklə bilik əldə etməyi tələb edir.

İnsan özü fiziki varlıqla (bədən) metafizik varlığın (ruh) vəhdəti kimi mövcud olduğundan, yalnız fiziki aləmi öyrənməsi həm təbiətə, həm özünə birtərəfli yanaşmaya gətirib çıxarıb. Halbuki insanın metafizik tərəfinin öyrənilməsi də insan üçün öz mahiyyətinə aydınlıq gətirmək baxımından zəruridir.

Öz metoduna, üsullarına, idrak obyektlərinə və fikri ifadə formalarına görə orijinal olduğundan, biz metafizikanı xüsusi bilik sahəsi kimi öyrənməliyik.

Bu kitabda biz metafizik bilgiləri xüsusi bir bilik növü kimi oxuculara təqdim etməyə cəhd etmişik. Kitabın birinci cildi ən ümumi metafizik problemlərə, ikinci cildi metafizikanın klassik ideyalarının şərhinə həsr olunmuşdur.

Kitabda biz metafizikanı sistem halına salmağa, strukturlaşdırmağa cəhd etmiş, metafizik terminologiya, metafizik anlayışlar, metafizik kateqoriyalar, metafizik ideyalar, metafizik prinsiplər, metafizik metodlar, metafizik yanaşma, metafizik qanunlar, metafizik sübutlandırma və metafizik diskurs və s. məsələlərə aydınlıq gətirməyə çalışmışıq.

Ümid edirəm və inanıram ki, metafizika digər bilik sahələri ilə yanaşı insanın ilahi obraz almasına, dünyada yerini düzgün müəyyən etməsinə xidmət göstərə biləcəkdir.

BÜTÜN ELMLƏRİN ŞAHI

"Təcrübədən Transsendensiyaya: Metafizik İdrakın Zərurəti"

"Biz təkcə fikirlərini bölüşdüyümüz filosoflara deyil,
bölüşmədiklərimizə də minnətdar olmalıyıq."
Aristotel

"Həqiqətin meyarı təcrübədir" müddəası nə qədər gözəl səslənsə də, bu mühakimə qədər insanın ağlını qandalayan, onun idraki sferasını daraldan, nəhayət, həqiqəti yalnız nisbi dərk etməyə məcbur edən ikinci bir mühakimə tapmaq çətindir. Doğrudanmı həqiqətin meyarı, həm də yeganə meyarı təcrübədir?

Əvvəla, təcrübə yalnız hissi qavranılan maddi şeylərdən həqiqətin qavranılmasında əhəmiyyət kəsb edir; qeyri-hissi qavranılan maddi şeylər və qeyri-hissi qeyri-maddi şeylərin həqiqətinin aşkarlanmasında ikincili iştirak edir və ya ümumiyyətlə iştirak etmir.

Digər tərəfdən, təcrübə hissi qavranılan maddi şeylərin "düşünən mən"ə – subyektə təsirini özündə təqdim edir ki, burada həqiqət birbaşa yox, təsirin qavranılması ilə ikincili, bir çox aralıq mərhələlərdən keçməklə – entropiyaya məruz qaldıqdan sonra aşkarlanır. Buradan da aşağıdakı məhdudiyyətlər çıxır:

- **Birincisi,** "düşünən mən" bədənlə şərtləndiyindən mütləq xalis düşüncə qabiliyyətinə – dərrakəyə malik deyil, yəni insan ağlının bütün həqiqəti mütləq idrak imkanı yoxdur.
- **İkincisi,** "düşünən mən" təcrübədə bütün hissi şeylərlə heç vaxt bilavasitə qarşılıqlı təsirdə olmur; sonsuz sayda hissi qavranılması mümkün olan şey təcrübədən kənarda, Kainatda saxlanılır, insan onları yalnız ümumiləşdirmədən abstrakt dərk edir.
- **Üçüncüsü,** "düşünən mən" hissi təsir edən şeylə eynizamanlı deyil; yəni insan obyektiv gerçəklikdən çox sonralar yaranmışdır və onlara

nisbətdə fanidir. Bu da daha böyük vaxt ərzində yaranacaq obyektiv gerçəkliklərin, o cümlədən idrakı üçün daha böyük vaxt tələb edən həqiqətlərin idrakını qeyri-mümkün edir.

- **Dördüncüsü,** "düşünən mən" ona olan hissi şeyin xarici təsirlərini olduğu həcmdə və dəqiqlikdə qəbul edə və ya qavraya bilmir.
- **Beşincisi,** hissi şeyin təsiri olduğu kimi mühitdən "düşünən mən"ə ötürülmür.
- **Altıncısı,** hissi şey mütləq şəkildə bütün fərdlərə eyni təsir etmir və heç bir fərdə tam həcmdə təsir etmir.
- **Yeddincisi,** hissi şeyin forması mütləq təsir yaratmaq imkanına malik deyil; forma obyektiv gerçəkliyin təsirlərini özündə entropiyaya məruz qoyur.
- **Səkkizincisi,** heç bir şeyin heç də bütün təsirləri "düşünən mən"ə təsir etmir, yəni gerçəkliyin bir çox təsirləri subyekt üçün "hesablanmamışdır".
- **Doqquzuncusu,** şeyin forması – təsirlərinin başlanğıcı – özündə öz mahiyyətini (həqiqətini) mütləq şəkildə təqdim etmir.
- **Onuncusu,** heç bir şeyin mahiyyəti mahiyyətin varlığı ilə – mütləq nisbi həqiqətlə – eyniyyət təşkil etmir və s.

Beləliklə, biz görürük ki, həqiqətin meyarı təcrübə ola bilməz, çünki həqiqətin nisbiləşməsinin səbəbi, onun aşkarlanmasının çətinliyi məhz bir tərəfdən də təcrübə ilə bağlıdır. İnsanlar lap qədimdən təcrübənin özü ilə həqiqət arasında bir sədd kimi durduğunu təhtəlşüur olaraq anlamış və bu səddi keçərək – onu bir kənara qoymaqla – birbaşa mütləq həqiqəti idrak etməyə cəhd etmişlər. Buradan da təcrübəyədək idrak forması – **ibtidai metafizika** və ya **mif** yaranmışdır.

Fəlsəfədə "təcrübənin həqiqətin meyarı olmasının" əksinə, "subyektin hər şeyin meyarı olması" müddəası irəli sürülmüşdür. *Protaqorun* məşhur deyiminin – *"İnsan bütün şeylərin ölçüsüdür: mövcud olanların mövcudluğunun, mövcud olmayanların isə mövcud olmamasının"* – əsa-

sında ali metafizika (ifadə bizə məxsusdur) və ya klassik metafizika meydana çıxmışdır. *Protaqorun* fikirlərindən çıxış edib demək olar ki, təcrübənin əsası metafizikada olduğu kimi, metafizik bilgilərin əsası da təcrübə sferasından əldə edilməlidir. *A. N. Uaythed* metafizikanın təcrübə ilə əlaqəsi haqqında yazmışdır: *"Metafizika təcrübənin bütün detallarına qoyulmuş ümumiliyin təsvirindən başqa bir şey deyil"*. Buradan da metafizika fəlsəfə ilə əlaqələnmiş və ali metafizika üçün əsas rolunda çıxış etmişdir. Öz növbəsində istənilən fəlsəfi təlim də metafizikadan başlamağa məcbur olduğundan, istənilən fəlsəfi təlimdə, o cümlədən ayrı-ayrı elmlərdə az və ya çox başlanğıc metafizik mühakimələrə rast gəlmək mümkündür. Beləliklə, real aləm insanın dərk etdiyi və dərk edə biləcəyi qədər gerçək, ehtimali aləm – metafizika – insanın keçə bildiyi və keçə biləcəyi qədər reallıq kimi qəbul edilməlidir.

İbtidai metafizikadan fərqli olaraq ali metafizika obyektiv gerçəkliyin dərkindən keçərək təbiətdən o tərəfə, təcrübənin mümkün olmadığı "təbiəti" dərk etməyə cəhd edir. Beləliklə, antik dövrlərdən başlayaraq mövcudluq və qeyri-mövcudluqların vəhdəti qəbul edilmiş, insan isə bunların arasına qoyularaq hər ikisinin meyarı hesab edilmişdir. Bununla da insan özü-özündə, özündə-şey kimi mövcud olan obyektiv gerçəklikdən fərqli olaraq, transsendental varlıq kimi mövcud olur.

İnsan bilikləri içərisində metafizik bilgilər qədər bəxti gətirməyən bilgi tapmaq çətindir. İlk dəfə antik fəlsəfədən bizə məlum olan *Aristotelin* "Metafizika"sının adı belə müəllif tərəfindən seçilməmiş və sonralar tələbələri tərəfindən *Aristotelə* aid edilən mətnlərə orijinal bir ad kimi verilmişdir. *Aristotelin* metafizikası fəlsəfənin ən ümumi anlayışlarının şərhinə həsr olunmuşdur. Məlumdur ki, hər hansı bir anlayışın çoxmənalılığından həqiqətin tapılması çətinlik törədir. *Aristotel* bu çətinliyi dəf etmək üsulu kimi anlayışları çoxmənalılıqdan birmənalılığa gətirməyi təklif etmişdir. Bunun üçün hər bir anlayışın mümkün mənalarına şərh vermişdir ki, bu mənalardan yalnız biri gerçəkliyin mövcud mənasına uyğundur. Mümkün mənalılıq mümkün varlığı özündə təqdim etdiyindən,

metafizik aləm mümkünlüklərdən təşkil olunduğundan, *Aristoteli* metafizikanın banisi kimi də qəbul etmək olar.

Aristotel öz metafizikasında bütün fəlsəfi təlimlərin idrakı üçün ümumi əsası müəyyən etməyə cəhd etmişdir. Anlayışlar xalis zəkanın məhsulu olduğundan, *Aristotelin* anlayışlara həsr olunmuş əsərini də metafizikaya aid ilk fundamental əsər hesab etmək olar. Lakin *Aristotelin* metafizikasında metafizik ideyalar xüsusi şəkildə təhlil olunmamış, metafizikanın bütün xüsusi noumenlərinə şərh verilməmiş, metafizik proseslər haqqında təsəvvürlər aşkarlanmamışdır. Beləliklə, əslində *Aristotelin* metafizikası özündə fəlsəfənin metafizikasını təqdim etmişdir. Bu zaman Kainatın, Varlığın, Ruhun və Allahın ideyalarının aşkarlanması arxa plana keçmişdir. Buna görə də *Aristotelin* fəlsəfəsini fəlsəfənin başlanğıcı və ya başlanğıc fəlsəfə kimi də təqdim etmək olar. Antik dövrün digər filosofları da öz təlimlərinin başlanğıcı kimi bəzi metafizik həqiqətlərə müraciət etməklə, baxışlarının formalaşdırılmasını onlardan başlamaqla kifayətlənmişlər. Biz məlumatın çoxluğundan burada antik dövr filosoflarının metafizik mühakimələri haqqında ayrılıqda şərh vermədən orta əsr fəlsəfəsinə keçərək, bu dövrün fəlsəfəsinə qısa da olsa baxmağı məqsədə müvafiq hesab edirik. Bu dövrün mütəfəkkirləri ya metafizikaya şübhə ilə yanaşaraq onu ümumiyyətlə həqiqi biliyin bir forması kimi qəbul etməmiş, ya da onun haqqında ciddi fikir söyləməkdən yan keçmişlər. Metafizikaya belə yanaşma bu günədək onun digər bilgilərə paralel inkişaf etdirilməsinə, sistemləşdirilib müstəqil idrak sahəsi kimi təqdim edilməsinə imkan verməmişdir.

Metafizikanın "ikinci baharı" Avropa fəlsəfi fikrinin inkişafı ilə bağlıdır. Metafizikanın yeni dövrü Avropada onun əsas ideyalarından birinin – Allah ideyasının prioritet şərhi ilə xarakterikdir. İlk olaraq biz bunu Rene *Dekartın* fəlsəfəsindən görürük. *R. Dekart* "Birinci fəlsəfə haqqında düşüncələr: Allahın necə sübut edilməsi və insanın ruhu ilə bədəni arasında fərq" və "Düşüncələrə möhtərəm insanların iradları ilə bağlı izah" adlı əsərində Allahın mövcudluğu, maddi şeylərlə (kosmologiya ilə) Al-

lahın əlaqəsi, ağılla bədənin münasibəti, ağılla Allahın əlaqəsi, bir sözlə, metafizikanın əsas ideyaları haqqında bir çox orijinal və yeni şərhlər vermişdir.

Dekartdan sonra Qotfrid *Leybnits* metafizika haqqında bir çox əsərlər yazmışdır. O, özünün "Metafizika haqqında mühakimə" əsərində *Dekartla* eyni mövqedə duraraq metafizik ideyalardan birini – Allah haqqında ideyanı – tədqiqat obyektinə çevirmiş; Allah, Allah və kosmologiya, Ruh, Ruh və Allah, Ruh və materiya, idrak və Allah kimi problemlərə toxunaraq Allahın mövcudluğunu sübut etməyə cəhd etmişdir. *Leybnits* öz metafizik baxışlarında Allahı mütləq Təkmil Varlıq kimi təyin edir. *Leybnitsə* görə, Allah ali və sonsuz müdrikliyə malikdir. O, təbii şeylərdə və ya ideyalarda (bəzi filosofların iddia etdiyi kimi Allahın olmamasını, Allahın öz yaratdıqlarından daha təkmilini yarada bilməməsini) Allahın fəaliyyətinin adi və qeyri-adi olmaqla iki cür olması, Allahın fəaliyyəti ilə təkmil şeylərin fəaliyyətinin bir-birindən ayrılmasının çətinliyi ilə bağlı bir çox orijinal mühakimələr irəli sürmüşdür. Avropada kifayət qədər tanınmış XVII əsrdə yaşamış digər bir filosof Benedikt *Spinoza* da metafizik ideyalara müraciət edərək "Allah, insan və onun xoşbəxtliyi haqqında qısa traktat" adlı əsərində Allah ideyasının mahiyyətini şərh edir, Allahın mövcudluğunu sübut edir, onu təkmil şeylərin immanent səbəbi kimi təyin edir. Öz fəlsəfi traktatında Allahın atributları, Allahın təbiəti idarə etməsi, Allahın idrak problemi kimi çox ciddi məsələlərə aydınlıq gətirir.

Metafizika, xüsusən onun metodu – transsendensiya haqqında sistemli fikirləri İmmanuel *Kanta* aid etmək olar. *Kant* "Xalis zəkanın tənqidi" əsərində transsendental fəlsəfənin qanunlarını şərh edərkən metafizik bilgilərə bu və ya başqa aspektdən toxunmuş və metafizika üçün müstəsna əhəmiyyətə malik çox qiymətli müddəalar irəli sürmüşdür. "Xalis zəkanın tənqidi"nin birinci nəşrinə ön sözdə o, metafizika haqqında yazır: *"İnsan ağlının payına onun idrakının formalarının biri kimi təəccüblü tale düşüb: onu yayına bilməyəcəyi suallar mühasirəyə alıb, belə ki, on-*

lar öz xüsusi təbiəti ilə ona bağlanıb; amma eyni zamanda o, onlara cavab verə bilməz, çünki onlar insan ağlının imkanlarını üstələyir. Bir vaxtlar metafizika bütün elmlərin şahı adlandırılmışdır, əgər arzunu gerçəklik kimi qəbul etsək, o, əlbəttə, öz predmetinin böyük əhəmiyyətinə görə bu fəxri ada layiqdir."

Həmin əsərin ikinci nəşrinə ön sözündə metafizika ilə bağlı fikirlərini inkişaf etdirərək *Kant* yazır: *"Bütünlüklə təcrübədən əldə edilən biliyin üzərinə qalxan, ağlın tamamilə təcrid olunmuş spekulyativ idrakı, məhz yalnız anlayışlara görə idrak və beləliklə, ağlın yalnız özü-özünün şagirdi ola biləcəyi Metafizika – bu günədək taleyin iltifatından istifadə etməmiş və elmin düzgün yoluna düşə bilməmişdir; baxmayaraq ki, bütün elmlərdən qədimdir və əgər digər bütün elmlər vəhşilər tərəfindən məhv edilməyə məruz qalsaydı, o saxlanılardı".*

Kantın metafizika ilə bağlı şərhi, dolayısı ilə transsendental fəlsəfənin əsaslarının şərhi ilə bağlı meydana çıxmış və buna görə də metafizika bütünlüklə *Kantın* tədqiqat obyekti olmamışdır. Amma buna baxmayaraq, metafizik metodu transsendental fəlsəfənin əsasına qoymaqla fəlsəfi fikir tarixində inqilabi nailiyyətlər qazanmışdır. Bununla yanaşı, *Kantda* bir çox metafizik suallar ya cavablandırılmamış, ya da həmin suallar transsendental fəlsəfənin prinsipləri çərçivəsində cavablandırılmışdır.

Kantdan sonra onun transsendental metodu əsasında digər alman filosofu Fridrix *Şellinq* metafizikanın əsas ideyalarından birini – Allah ideyasını (İdeal haqqında ideyanı) – özünün "Transsendental idealizmin sistemi" adlı traktatında tədqiq etmiş, özünün yazdığı kimi "transsendental idealizmi inkişaf etdirərək onu biliyin bütün 'sistemi'nə, onun bütün mümkün problemlərinə yaymağa" cəhd etmişdir. *F. Şellinq* fəlsəfə ilə metafizikanın əlaqələrini təhlil edərək bu nəticəyə gəlmişdir ki, *"təcrübi fəlsəfənin həqiqətləri yalnız transsendental idealizm üçün aralıq mərhələ ola bilər"*. *Şellinqə* görə Allahın ideyası insandadır, şeylər yalnız təkmil qanunlarla aşkarlana bilər, insan Allahın istəyinə uyğun həqiqəti aşkarlayır, insanın iradəsinə Allah təsir edir. *Şellinq* öz şərhində bədənlə ruhun

fərqlənməsinə və ruhun təbiətinə aydınlıq gətirməyə cəhd etmişdir. *F. Şellinq* digər bir əsərində, "*Bruno* və ya şeylərin ilkin və təbii başlanğıcı. Söhbətlər" adlı əsərində isə *Brunonun* "Başlanğıc və son" adlı əsərini təhlil edərək metafizikanın əsas predmetlərindən birinə – "ilk başlanğıc"a aydınlıq gətirməyə çalışmışdır.

F. Şellinqdən bir qədər sonra digər məşhur alman filosofu *Hegel* öz yaradıcılığında metafizik predmetlərə geniş yer ayırmış, "Ruhun fenomenologiyası" kimi möhtəşəm əsəri ilə metafizikanın pnevmatologiya bölməsinə bir çox qiymətli ideyalar vermişdir. *Hegel* "Məntiq elmi"ndə metafizikanı düşüncənin obyektivliyə birinci münasibəti kimi təyin etmişdir. O, metafizikanın predmetlərini "düşüncənin sadəlövh obrazları" kimi şərh etmişdir. *Hegelə* görə metafizika "idraka onu predmetlərə yaymaqla çatmaq" üsulundan istifadə edir, yəni subyekt "predmetə predikat yazmaqla" onu idrak edir. Düzdür, metafizika da totallıqdan idraka cəhd edir, amma *Hegelə* görə belə totallıq "ağlın özünə məxsus özü və özü üçün" totallıqdır. *Hegeldə* metafizik düşüncə qeyri-azad, sadəlövh inama əsaslanan, doqmatik və "sonuncu düşüncə" kimi dəyərləndirilir. *Hegel* metafizikanın dörd bölməsini ayırd etmişdir: ontologiya (mövcudluğun abstrakt təyini), pnevmatologiya (ruhun şey kimi təyini), kosmologiya (predmetlər dünyasının fiziki qanunlarla təyini), nəhayət, rasional teologiya (Allah və onun mövcudluğu ilə bağlı ideyaların təyini).

Kantdan çox sonralar başqa bir alman filosofu *F. Nitsşe* metafizika haqqında öz baxışlarını *Kantın* transsendental fəlsəfəsindən bizə məlum olan transsendensiyanın inkişafını özündə əks etdirən nihilizm haqqında fəlsəfə yaratmışdır. *Nitsşe* şüurun bütün formalarında nihilizmin xarakterik tərəflərini şərh edərək transsendensiyanı bir proses kimi təqdim etmiş və transsendensiyadan fərqli olaraq nihilizmi *"əvvəlki dəyərdən imtina, onun yerində daha ali dəyərin qəbullanmasının"* fəlsəfəsi kimi müəyyənləşdirmişdir. Bununla da *Nitsşe* mümkünlüyün – nəsənin fəlsəfəsinə aparan yolu işıqlandırmışdır. *Nitsşe* öz metafizik Allah ideyasını doqmatik, teistik Allah ideyasına qarşı qoymuş və xristianlığın "Allahının öldüyü-

nü" və Allahın insandan-insanüstü kimi yenidən təzahür etdiyini elan etmişdir. *Nitsşenin* metafizikasında pnevmatoloji ideya – Ruh haqqında ideya – insanüstü varlıq kimi şərh olunur və insandan (insanın mövcud varlığından) onun insanüstünə (Ruhun mümkün varlığına) keçidinin yolu – transsendensiya – özünəxas şəkildə tədqiq edilir.

Nitsşedən sonra metafizika ilə bağlı bir çox qiymətli fikirlərə həm də ingilis filosofu *A. N. Uaythedin* əsərlərində rast gəlinir. O, "Spekulyativ fəlsəfə" adlı əsərində fəlsəfə ilə metafizikanı qarşılıqlı tədqiq etmiş və metafizikanı fəlsəfədən fərqləndirən cəhətlərini müəyyən etməyə çalışmışdır. O, metafizik prinsip haqqında yazır: *"Birinci metafizik prinsip konkret nümunələrlə təsdiq olunmaya bilmir. Belə ki, biz gerçək dünyada təzahürlərə söz tapa bilmirik. Metafizikanı yaratmaq üçün əvvəlki müşahidələrin detallaşdırılmış fərqləndirmə əsasında ciddi sistemləşdirmə fikrinə gətirən metod yetərli deyil".*

Beləliklə, *Uaythed* səbəb-nəticə əlaqəsi ilə ardıcıl əməlgəlmədən meydana çıxan gerçək dünyanın idrakı ilə səbəb-nəticə əlaqəsində olmayan xalis təsadüflərin mövcud olduğu, paralel yaranan varlıqların təşkil etdiyi xaosu özündə təqdim edən metafizikanı idrak etməyin yetərsiz olduğunu qeyd edir. *Uaythed* daha sonra yazır: *"Metafizik doktrina istənilən yeniliyi cari fəlsəfi ədəbiyyatda tapılan fikirlərin təsdiqi ilə müəyyən dərəcə razılaşmamağı nümayiş etdirir. Razılaşmamaq dərəcəsi metafizik fərqlənmə dərəcəsini təsbit edir".*

Beləliklə, *Uaythed* fəlsəfə ilə metafizikanın digər bir fərqini metafizikanın fəlsəfi yenilikləri qəbul etməməsində, onunla razılaşmamasında görür. Bununla da metafizika ya mühafizəkar mövqedə duraraq öz predmetlərinin həqiqiliyini sübut etməkdə davam edir, ya da fəlsəfənin yeniliklərini kifayət hesab etməyərək, onların perspektiv inkişafının mümkünlüyündən çıxış edərək son, başa çatmış həqiqət kimi qəbul etmir. *Uaythed* "Kosmologiya ideyası" adlı əsərində isə metafizikanın digər bir bölməsinin problemlərini fəlsəfə və elmlə müqayisəli təhlil edir. *Uaythed* "Kosmologiya ideyası"nı belə bir sualın cavabı kimi şərh edir: *"Tədqi-*

qatla Allahı tapmaq olarmı?" Bu suala cavab vermək üçün *Uaythed* Təbiətin qanunlarının məcmusu kimi mövcud olan kosmoloji ideyanı şərh edərkən, qanunun çoxmənalılığından çıxış edərək tədqiqatla Allahı tapmağın mümkünlüyünə aydınlıq gətirməyə cəhd edir. O, əvvəlcə qanunun dörd mənasını – obyektlə immanent olması, obyektin sirri, təzahürlərin müşahidə olunan qaydaları, şərti şərh – izah edərək qanunun hansı mənasında kosmoloji ideyadan Allahı tapmaq olar sualını cavablandırmağa cəhd edir. *Uaythed* qanunun bir mənasından – qanun obyektiv münasibətlərdə xaricidir mənasından çıxış edərək Xarici Münasibətlərin alternativ metafizik doktrinası əsasında kosmoloji ideyadan Allahı tədqiqatla tapmağın mümkünlüyünü araşdırır. Bu doktrinaya görə "ayrılıqda tək bir şey götürülə bilər", hansı ki gerçək aləmdə bu doktrinanın tam əksinə hakim doktrinaya görə "Kainatın ümumi vəhdətindən kənarda ayrılıqda heç bir şey mövcud ola bilməz". Beləliklə, bu metafizik doktrina aktuallaşmamış mütləq fakt əsasında kosmoloji ideyadan Allahın tədqiqatla tapılmasının mümkünlüyünü sübut edir. Buradan da *Uaythed* belə qənaətə gəlir ki, *"təbiətin qanunları məsələsində metafizika ilə neqativizm ziddiyyətdədir. Metafizik təlim elə dəyişir ki, izah edilən təsviri təmin etməlidir, elmi izah isə öz nailiyyətləri ilə metafizikanın qəlibinə sıxılır"*. Başqa sözlə, metafizika öz ideyalarını inkişaf etdirməklə, onların təsvir etdiyi predmetləri dəqiqləşdirməklə elmi öz sərhədləri daxilində saxlamağa nail olur; bununla da tədqiqat yolu ilə Allahı tapmağın mümkünlüyü sübut olunur. *Uaythedə* görə *"heç bir mövcudluq kainatın bütün sistemində tam abstraksiyada baxıla bilməz"*. Halbuki metafizika Kainatın sərhədlərindən çıxdığına görə, öz predmetlərini tam abstraksiyada baxmağa məcburdur.

Uaythed fəlsəfəni zərurətə görə mövcud sistem kimi şərh edir, hansı ki metafizika özü-özündə yalnız təsadüfə görə sistem kimi meydana çıxır. *Uaythed* metafizikanın əsas çətinliyini – "metafizikanın ilk başlanğıcının formalaşdırılmasının çətinliyini" – intuisiyanın zəifliyində və söz çatışmazlığında görür. Hansı ki gerçəkliklər aləmində sintetik və dialek-

tik sözlə təcrübə sahəsini tam şərh etmək mümkündür. Bundan fərqli olaraq metafizika yalnız sintetik sözlə idrak edir və metafizik idrak üsulunda sözün dialektikasına yol verilmədiyindən söz çatışmazlığının çətinliyinə düşür. *Uaythed* yazır: *"Hər bir elm öz instrumentini ixtira etməlidir, fəlsəfə üçün bu dildir"*. Bəs metafizikanın instrumenti nə ola bilər? Biz metafizikanın instrumentini xalis fikir kimi təyin edirik; hansı ki fəlsəfədə xalis fikir dillə dolayısı ilə ifadə olunur və buna görə də dilin entropiyasına məruz qalır. Metafizik ideyalar isə entropiyasız həqiqətləri aşkarladığından yalnız xalis fikir varlığından öz ideyalarını aşkarlayır. Buradan da metafizikanın dilə münasibəti məsələsi əhəmiyyət kəsb edir, hansı ki *Uaythed* də metafizikanın təcrübi məqsədlərindən birini məhz *"cümlənin, həm də təkcə metafizik cümlənin yox, istənilən cümlənin dəqiq anlayışı"* kimi təyin edir. Cümlə bitmiş fikri ifadə edən dil elementi olduğundan və dil fikri entropiyaya məruz qoyduğundan, metafizika cümlədəki fikri entropiyadan təmizləməklə xalis fikri ifadə etməsinə cəhd edir. Buna görə də *Uaythed* haqlı olaraq yazır ki, *"ciddi dil başa çatmış metafizik biliyin təzahürünü gözləməlidir."*

Metafizika ilə daha fundamental tədqiqatlara *Nitsşenin* nihilizm fəlsəfəsini tədqiq edən *Martin Haydeqqerin* "Varlıq və Zaman" əsərində rast gəlmək mümkündür. Bu kitabında *M. Haydeqqer* yenidən metafizikaya qayıtmış və metafizik bilgilərlə bağlı xeyli orijinal fikirlər söyləmişdir. Əgər *Kant* metafizik baxışlarını ən ümumidən xüsusiyə doğru şərh etmişsə və bu zaman bilavasitə metafizikanı yox, transsendental fəlsəfənin əsaslarını şərh etmək məqsədi güdmüşsə, əksinə *Haydeqqer* bilavasitə metafizikanı öz tədqiqat obyektinə çevirmiş və *Kantdan* fərqli olaraq ayrı-ayrı metafizik sualların şərhindən, o cümlədən *Nitsşe* nihilizminin məhək daşı, əsas müddəası olan nihildən – "nəsə"dən metafizika haqqında ən ümumi bilgi əldə etməyə cəhd etmişdir. O, "Metafizika nədir" adlı məqaləsində yazır: *"Metafizika nədir? Sual belə meyl yaradır ki, söhbət metafizikadan gedəcək. Biz başqa cür çıxış edəcəyik. Ayrı-ayrı metafizik məsələləri araşdıracağıq. Bununla da biz, əgər bacarsaq, bilavasitə me-*

tafizikaya keçəcəyik. Yalnız beləliklə biz ona real imkan verəcəyik ki, özü-özünü təqdim etsin".

Haydeqqer öz metafizik mühakimələrini "nəsə" ilə başlayır və bunun əsasında "nəsənin" fəlsəfəsi kimi *Nitsşe* tərəfindən yaradılan nihilizmin kritikası əsasında metafizik problemləri şərh edir.

M. Haydeqqer "Metafizikanın dəf edilməsi" adlı əsərində yazır: "Dəf edilmə adı altında metafizikanın getməsi nəzərdə tutulur. Əlbəttə, bu yeni yalan təsəvvür yaradır. Burada getmək onun keçməsini və olan olduğunu bildirir. Gedərkən, metafizika keçmiş kimi vardır. Getmək istisna etmir, əksinə belə ehtimal edir ki, metafizika indi ilk dəfə olaraq predmetliyin və gerçəkliyin sonuncu qeyri-həqiqi obrazı kimi mövcudluqların arasında özünün hüdudsuz hakimiyyətinə başlayır. Özünün erkən başlanğıcının işığında metafizika o mənada eyni vaxtda keçmişdir ki, sona gəlmişdir. Son, metafizikanın əvvəlki tarixində olduğu kimi uzana bilər. Metafizikadan hansısa görüşdən ayrılan kimi uzaqlaşmaq olmaz. Onu heç bir vəclə, heç kəsin inanmadığı və arxasında heç kimin durmadığı təlim kimi arxada qoymaq olmaz".

Başqa sözlə, *M. Haydeqqer* əvvəlki metafizikanın yeni metafizika ilə əvəzlənməsinin zəruriliyini sübut etməyə cəhd edir; hansı ki əvvəlki metafizikanın başa çatması ilə onun əvvəlki dəyərlərindən imtina edib, onun yerində daha ali dəyərlər yaradılmalıdır. Biz bunu əvvəlki metafizikaya nihilistik yanaşma adlandırırıq. Metafizikaya nihilistik yanaşma onu xurafatdan təmizləmək, onun ideyalarını təkmilləşdirmək və onların daha ali dəyərləri özündə təqdim etməsini tələb edir.

Bu gün biz metafizikaya nə üçün müraciət edirik? Biz bu suala sualla cavab veririk: Yuxarıda şərh etdiyimiz böyük filosoflar tərəfindən, o cümlədən *Aristotel* tərəfindən başlanğıc fəlsəfə, *Kant* tərəfindən metafizik metod, *Haydeqqer* tərəfindən ümumi metafizik problemlər, digər mütəfəkkirlər tərəfindən metafizikanın xüsusi məsələləri bu qədər geniş və hərtərəfli tədqiq edilməsinə baxmayaraq, nə üçün metafizika digər bilgi-

lər kimi xüsusi metodu, predmetləri və problemləri olduğundan müstəqil bilik sahəsi kimi status ala bilməmişdir?

Bizcə, bunun üç səbəbi vardır:

- **Birinci səbəbi** metafizika ilə dinin ziddiyyəti kimi müəyyən etmək olar. Allah haqqında dinin doqmatik təsəvvürləri rasional teologiyanın inkişafına dözümsüz yanaşmışdır və bir qayda olaraq, rasional teologiya ilə teizm ziddiyyət təşkil etdikdə, dinin təzyiqi ilə rasional teologiya geri çəkilməyə məcbur olmuşdur.
- **İkinci səbəbi** metafizika ilə fəlsəfənin ziddiyyəti kimi müəyyən etmək olar. Hansı ki fəlsəfi ədəbiyyatda yenilikləri metafizika qəbul etməmiş və öz ideyalarını fəlsəfənin ümumi ideyalarına qarşı qoymuşdur və bu zaman gerçək aləmi idrak edən fəlsəfə insanlara daha yaxın və inandırıcı olduğundan bu ziddiyyət fəlsəfənin qələbəsi ilə başa çatmışdır.
- **Üçüncü səbəbi** metafizika ilə elmin ziddiyyəti kimi müəyyən etmək olar. Yəni elmin inkişaf səviyyəsindən asılı olaraq, ehtimallı dünyanın mövcudluğu ilə bağlı ideyalar irəli sürmək sadəcə mümkün olmamış və ya belə ideyaların irəli sürülməsinə şübhə ilə yanaşmışlar.

Amma bu ziddiyyət indi həll edilmişdir. Ontoloji Varlıq haqqında, o cümlədən pnevmatoloji Ruh haqqında fikir söyləmək kvant fizikasından, *Eynşteynin* nisbilik və digər alimlərin ehtimal nəzəriyyəsindən sonra mümkündür və belə mühakimələr əvvəllər olduğu kimi artıq şübhə yaratmır. Biz bu kitabda *Aristoteldən* başlayaraq bu günədək olan mütəfəkkirlərin fikirlərinin fonunda metafizikanı insanlığın xüsusi bilik sahəsi kimi şərh etməyə, onu fəlsəfədən, elmdən və xurafatdan fərqli həqiqətin xüsusi axtarış və tapılma yolu olduğunu sübut etməyə və bu zaman *Haydeqqerdən* fərqli olaraq ona özü-özünü təqdim etməyin öhdəsinə buraxmayacaq, əksinə onun təqdimatına cəhd edəcəyik.

Biz belə hesab edirik ki, metafizik bilgilər digər bilgilərdən fərqləndiyindən xüsusi bilik sahəsi kimi qəbul edilməlidir. Belə ki, metafizik bi-

liklər cari biliklərdən insanın heç bir gündəlik tələbatının ödənməsinə xidmət etməməsi, elmi bilgilərdən insanın heç bir xüsusi marağını ödəmək gücündə olmaması, nəhayət, fəlsəfi bilgilərdən təbiət haqqında heç bir təcrübi bilgiyə müraciət etməməsi ilə fərqlənir.

Biz metafizikanı təbiətdənkənar (təcrübədən kənar) sonsuz əsasların öyrənilməsi haqqında bilik sahəsi kimi təyin edirik. Metafizik suallar sonsuz olaraq kəsilmədiyindən, təbiətdənkənar sonsuzluq xarakteristikasına malik olduğundan, metafizikanın aşkarladığı həqiqətlər də sonsuz nisbi həqiqətlər kimi meydana çıxır, hansı ki səhvlərlə qonşuluqda mövcud olduğundan bəzən səhvlər nahiyəsinə daxil olur. Buna görə də, biz buradakı fikirlərimizin mütləq həqiqət olduğunu iddia etməkdən çox uzağıq. Metafizikanın öyrəndiyi əsaslar sonsuz olduğundan metafizika onların bilavasitə özünə yox, onların elə-belə idrak problemlərinə istiqamətlənir. Məsələn, Allahın mahiyyətinə dair suallardan yayınan metafizika onun idrak problemlərini həll etməyə cəhd edir. Metafizikanın əhəmiyyəti onun elmi və fəlsəfəni öz qəlibində saxlamasındadır, hansı ki bu qəlib nə qədər geniş və möhkəm olsa, elmi və fəlsəfi bilgilər bir o qədər dəqiq və geniş ola bilər. Başqa sözlə, təbiətin səbəbi öz hüdudlarından kənarda olduğundan, bu səbəblər nə qədər dəqiq öyrənilərsə, təbiət nahiyəsində aydınlaşan həqiqətlərin yəqinliyinə bir o qədər əmin olmaq mümkün olduğundan, metafizikanı nəinki bir kənara qoymaq lazımdır, əksinə, onu inkişaf etdirmək və müstəqil bilik sahəsi kimi formalaşdırmaq zəruridir. Buna görə də, biz belə hesab edirik ki, metafizikanı müstəqil bilik sahəsi kimi təyin etmək və metafizik bilgiləri zənginləşdirmək elmin və fəlsəfənin inkişafına böyük töhfələr verə bilər.

Metafizika nə qədər təbiətdənkənar əsasları öyrənirsə, bir o qədər təcrübədən aydınlaşan həqiqətlərin yəqinliyini müəyyən edir. Başqa sözlə, metafizik bilgilər fəlsəfi bilgilərin əsası kimi çıxış edir. Buradan da bəzən metafizikanı birincili və ya başlanğıc fəlsəfə də adlandırırlar. Metafizika elmdən və fəlsəfədən fərqli olaraq təcrübəni genişləndirməyə – həqiqətin aydınlaşmasının aydınlığının və yəqinliyinin aşkarlanmasına

cəhd etmir, o yalnız həqiqətin aşkarlanmasının sərhədlərini genişləndirməklə, təcrübədənkənar həqiqətləri idrak prosesinə təqdim edir. Nəticədə, insanın biliyinin sərhədlərini genişləndirir, bununla onun həcmini artırır, onu təbiətin məhdudiyyətindən, bununla onun əsarətindən azad edir.

Bizim Metafizikaya müraciət etməyimiz və onu müstəqil elm sahəsi kimi təqdim etmək cəhdimiz təsadüfən meydana çıxmayıb. Müasir dövrdə insanlığı öz bilgilərinin dəqiqliyinə tərəddüdə salan və hətta bəzən həqiqi bilginin əldə edilməsinin mümkünlüyü ilə bağlı onu ümidsizləşdirən, ənənəvi bilgilərə yenidən baxmağa vadar edən bir çox elmi kəşflər, ixtiralar meydana çıxmışdır. Fizika elmində *Eynşteynin* Nisbilik nəzəriyyəsi *Nyutonun* mexanikasını necə alt-üst etdisə, kvant fizikası eyni ilə *Eynşteynin* Nisbilik nəzəriyyəsini, ehtimal nəzəriyyəsi isə öz növbəsində kvant fizikasının müddəalarını eləcə alt-üst etmişdir; biologiya elmində klonlaşmanın kəşfi həyat haqqında mövcud elmi bilgiləri, xüsusən təkamül nəzəriyyəsini ciddi şübhə altına salmışdır. Genetikanın əldə etdiyi bilgilər ənənəvi təbabəti az qala xurafat səviyyəsinə endirmişdir, antimaddənin kəşfi isə Ruhun mövcudluğu ilə bağlı bütün şübhələri şübhə altına salmışdır. Beləliklə, sanki bu günədək bilik kimi qəbul edilmiş heç bir həqiqət qalmamışdır, insan yalanlar aləminə düşmüşdür və insanlıq dünyanı yenidən dərk etməyə məhkum edilmişdir. Əslində qeyri-adi heç nə baş verməyib. Bütün bunlar "insan ağlının təkmilləşməsi" və onun nisbi həqiqətdən mütləq nisbi həqiqətə doğru hərəkətinin adi məqamlarındandır, hansı ki *Nitsşenin* nihilist fəlsəfəsinin əsasını təşkil edir.

Fizikanın bütün qanunlarını alt-üst edən yeni faktlar istisnasız olaraq metafizik faktlardır və onlar başqa bir sistemə aid olduqlarından empirik sistemin heç bir qanununa tabe olmur. Məsələn, *Eynşteynin* Nisbilik nəzəriyyəsi fikrən təbiət ölçülərindən çıxmaqla meydana çıxmışdır. Məsələn, işığın sürətindən böyük sürət. Əgər təbiətdə ən böyük sürət işığın sürətidirsə, onda bizim fikrən qəbul etdiyimiz sonsuz sürət metafizik sürət kimi təyin edilməlidir. Eləcə də təbiətin ən ümumi əsasının – materiyanın

əksi olan antimateriya söz yox ki, metafizik predmetdir və bəzi elmi mülahizələrə görə ruhi enerjidir.

Elmin sərhədsiz inkişafının qarşısında yalnız təbiət durmamışdır, həm də metafizikanın təbiətə proyeksiyası kimi meydana çıxan sosiallaşma, yəni cəmiyyət durmuşdur. Cəmiyyətin strukturunda baş verən dəyişilmələr insanın metafizikaya keçidində önəmli tarixi məqamlardan biridir. Fəlsəfə doktoru Con Hagelin yazır: *"Hər bir nəsildə ətraf dünya haqqında öz təsəvvürləri mövcud olur – onlar çətinliyə salan düşüncəsiz onu mövcudluq kimi qəbul edirlər. Bu təsəvvürlər həqiqi və ya yalan ola bilər. Onlar o anda üstünlük təşkil edən ictimai dünyagörüşü paradiqması ilə təyin olunurlar və böyük çoxluqda tamamilə dəqiq olurlar. Beləliklə, tarixin istənilən anında, bizim müasir dünyanı təsvirinin özü-özündə ağıllı olması düz deyil"*.

İnsan bu günə kimi yer coğrafiyası ilə şərtləndiyindən onun ətraf aləm haqqında bütün təsəvvürləri təbiətlə şərtlənmiş şəkildə olmuşdur. Amma coğrafiyanın imkanları insan ağlının potensiallığına cavab vermir və o, coğrafiyadan (ona paralel təbiətdən) qopmaqla yeni aləmləri kəşf etməyə cəhd edir. İnsanın kosmosa çıxışı ilk vaxtlar onun təbiətdən kənara çıxışı kimi qəbul edilmişdir. Lakin kosmik tədqiqatlar təbiətdən fiziki üsullarla çıxmağın mümkün olmadığını ortaya qoymuşdur. Yəni insan anlamışdır ki, təbii sürətlə, fizikanın qanunları ilə təbiətdən kənara çıxa bilməz. Bu zaman təbiətdən kənara çıxmağın yeni üsulu – fikrən təbiətdən çıxmaq önə çıxır, hansı ki metafizikanın əsas üsuludur və *Kant* bu üsulu transsendensiya kimi adlandırmışdır. Transsendensiya da hərəkətin bir formasıdır, fiziki yox, zehni hərəkətdir. Onun sürəti, şərtləndiyi məkan və zaman ölçüləri təbii hərəkətin sürətinin ölçülülüyündən kəskin fərqlənir. Belə ki, transsendensiya işıq sürətindən böyük olub sonsuz məkanın əbədi zamana nisbətindən əldə edilir.

Hagelinin qeyd etdiyi "ətraf haqqında təsəvvürlərin cəmiyyətdə mövcud olan dünyagörüşündən asılı olması" həm də cəmiyyətlərin bir-birindən ayrılıqda mövcud olduğu vaxtlarda ətraf haqqında fərqli xalqların

fərqli təsəvvürlərə malik olmasını şərtləndirmişdir. Biz belə hesab edirik ki, Kainatda ümumi vəhdətdən kənarda ayrılıqda götürülmüş şey olmadığı kimi, insanlıqda ümuminsanlıqdan ayrılıqda götürülmüş cəmiyyət yoxdur. Amma siyasi sərhədlər cəmiyyətləri formal olaraq ayrılıqda götürülən etdiyindən, bu gün "dünya nədir?" sualına inkişaf etmiş avropalının verdiyi cavabla üçüncü dünyanı təşkil edən afrikalının verdiyi cavab özündə iki fərqli dünya haqqında təsəvvürlər kimi bir-birindən fərqlənəcəkdir.

Beləliklə, insanların irqlərə, millətlərə, xalqlara bölünməsi ilə yer kürəsinin müxtəlif idrak məskənlərinə ayrılması və buna uyğun təbiət haqqında fərqli təsəvvürlərin mövcud olması, belə təsəvvürlərin də öz növbəsində ayrı-ayrı bilgilərin müxtəlif xalqlarda müxtəlif səviyyədə inkişafına gətirib çıxarmışdır. İnsan idrakını məhdudlaşdıran, onu təbiətə həbs edən digər bir amil ümumiyyətlə biliyin sahələrə bölünməsi olmuşdur. Biliyin bölünməsi ilə insan nəinki təbiəti bir tam kimi öyrənmək imkanından məhrum olmuşdur, hətta ayrı-ayrılıqda götürülmüş tək bir şeyi bütöv kimi öyrənmək imkanından məhrum olmuşdur. Biliyin bu cür sahələrə ayrılması ona gətirib çıxarmışdır ki, təbiət haqqında məcmu bilik yaranmamış və bunun nəticəsi olaraq bu biliyə əks olan başqa məcmu biliklərin yaranması mümkün olmamışdır. Bu gün müasir dünyada artıq yeni bir proses – xalqların, dövlətlərin və cəmiyyətlərin sərhədlərini pozan qloballaşma, bilik sahəsində isə fakultativ elmlərin yerini ensiklopedik elmlərin tutması prosesi başlamışdır. Ensiklopedik elm Kainatda ayrılıqda götürülməsi mümkün olan şeyin ayrılıqda öyrənilməsinin mümkün olmamasından meydana çıxır. Artıq insanlar ayrı-ayrı toplumlar kimi yox, yer kürəsini məskunlaşdıran vahid bir çoxluq kimi – insanlıq kimi qloballaşmaya qədəm qoymuşdur və qlobal insan cəmiyyətinin ətraf haqqında qlobal təsəvvürə malik olması zərurəti meydana çıxmışdır. Lakin bir tam kimi ətraf haqqında tam təsəvvürləri yalnız onun əksiliyi ilə müqayisədə əldə etmək mümkün olduğundan, biz yenidən metafizikaya – fi-

zikanı sərhədləndirən "başqa təbiət" – metafizika haqqında bilgilərə müraciət etmək məcburiyyətindəyik.

Haşiyə: *Martin Haydeqqer*, "Avropada nihilizm": *"İstənilən dövr, istənilən insani çoxluq bu və ya başqa metafizikaya istinad edir və bundan şeylərin məcmusuna və bununla həmçinin özü-özü ilə müəyyən münasibətdə olur."*

M. Haydeqqerin fikirlərindən çıxış edərək demək olar ki, istənilən dövr, istənilən insan çoxluğu bu və ya başqa metafizikaya istinad etdiyi kimi, müasir dövr, bütün insanlıq – qloballaşma öz metafizikasına istinad etməyə və bundan şeylərin məcmusuna və özü-özü ilə bu günədək ola bilmədiyi müəyyən münasibətdə olmağa məcburdur. Bu məcburiyyət metafizikaya qayıtmağa, onun müstəqil bilik sahəsi kimi yaradılmasını şərtləndirir. Metafizikanı inkişaf etdirməyin digər bir ciddi səbəbi inamla əminliyin, yəni dinlə elmin minillər boyu davam edən ziddiyyətinin aradan qaldırılma zərurətidir. Əslində din metafizika haqqında doqmatik təsəvvürlərdən, elm təbiət haqqında kritik təsəvvürlərdən ibarətdir. Hər biri özünəxas mühakimə üsulu ilə mövcud olduğundan, dini bilgilər elm tərəfindən, elmi bilgilər din tərəfindən qəbul edilməmişdir və doqmatizm elmə tətbiq edildikdə elmin puçluğu, kritisizm dinə tətbiq edildikdə dinin puçluğu meydana çıxmışdır. Bununla da insanlıq iki böyük cəbhədə – din və elm cəbhələrində – cəbhələnmiş, nəticədə insanlıq bir tam kimi çox nəhəng potensiallığından məhrum olmuşdur.

İngilis riyaziyyatçısı, məntiqçisi və filosofu Alfred Nort *Uaythed* yazır: "Formal məntiqdə ziddiyyət mövcuddur – bu onun səhv olduğunu göstərir. Amma həqiqi biliyin inkişafında bu qələbəyə ilk addım olmuşdur". Din isə həqiqi biliyin əksinə qeyri-formal məntiqlə inkişaf etmiş və bu metodun bütün ziddiyyətlərindən doğan səhvləri də özündə əks etdirmişdir. "Dovşan yuvası" kitabının müəllifləri yazır: "Ruhaniyyət və elm Həqiqətin axtarılmasında insanlığın iki nəhəng yanaşmasıdır. Onlar bizə bizim haqqımızda və Kainat haqqında bilgi verir. Onlar nəhəng suallara cavab verir. Ruhaniyyət və elm bir medalın iki üzüdür". Beləliklə, bu

günə qədər öz məntiqlərinin ziddiyyəti üzündən bir-birinə düşmən olan elm və din bu gün barışmaq, bir-birinin məntiqinin ziddiyyətindən doğan səhvləri kənarlaşdırmaq və insana özü və Kainat haqqında tam həqiqi biliyi vermək məcburiyyətindədir. Bunun üçün dinin kritik, elmin isə doqmatik prinsiplərdən istifadə etməsi lazım gəlir. Elmdə doqmatizmin olmaması təbiətin sonsuzluğu haqqında yanlış təsəvvürlərin, bununla da metafizikanın inkarına; dində kritisizmin olmaması dini bilgilərin xurafata çevrilməsinə və bununla təbiətin inkarına gətirib çıxarır. Halbuki həqiqi bilgi hər iki metodun birgə tətbiqi ilə əldə edilə bilər. Maykl Ledvit də bunu təsdiq edərək yazır:

"Elmlə din arasındakı uçurum bu gün bizə böyük təsir edir. Rəsmi elmin nümayəndələri ruhani təlimlər haqqında olduqca çox az şey bilir. Onlar kilsə təlimlərindən götürülmüş müddəaları tənqid edir, onda kilsə kanonun izlədiyi kimi – ruhun inkişafının yalnız variantlarından biridir. Bədbəxtlikdən kilsə xidmətçiləri də müasir elmin nailiyyətləri ilə az maraqlanır. Ona görə də hər iki tərəf bir-birinə atəş açır. Baxmayaraq ki, dünyanın elmi görünüşü və həqiqətin ruhani dərki – sadəcə iki bir-birini tamamlayan reallığa baxma üsuludur".

Qeyd etmək lazımdır ki, xoşbəxtlikdən, kilsədən fərqli olaraq, məscid yarandığı gündən elmlə dinin birləşdirilməsini, elmin gözü ilə Allahın idrak edilməsinin mümkünlüyünü təlim edir.

Təbiət elmlərinin inkişafı ilə müqayisədə metafizika inkişaf etmədiyindən biz belə ikili yanaşma ilə Nəhəng Həqiqətləri aşkarlaya bilmirik. Bu zərurət bizdən sürətlə metafizikanı inkişaf etdirməyi tələb edir. Metafizika yalnız təbiətdənkənar aləmin öyrənilməsi üçün əhəmiyyətli deyil, o həm də təbiətin əsaslarını öyrəndiyindən təbiətin idrakı üçün önəmlidir. Bunun klassik nümunəsini biz *Nyuton* fizikasında – dünyanın mövcudluğunun fiziki qanunlarla təsəvvür edilməsində görürük. U. Arnts, B. Çeys, M. Visente özlərinin "Dovşan yuvası" kitablarında *Nyuton* fizikasının mənşəyi ilə bağlı yazırlar:

"*Nyuton* elmdə irəliyə doğru nəhəng addım atmışdır. O, əvvəlcə öz xələflərinin ideya və metodlarını sintez etmiş, sonra qəflətən dünyada hər şeyi öz yerinə qoyan belə nəticəyə gəlmişdir. Onun təsdiq etdiklərinin riyazi sübutu o qədər inandırıcı olmuşdur ki, 300 il ərzində alimlər demək olar ki, şübhə etməmişlər ki, o, təbiətin qanunlarını dəqiq təsvir etmişdir. Mexaniki yanaşma sürətlə bütün elmlərdə – astronomiyada, kimyada, biologiyada və s. tətbiq olunmuşdur".

Nyuton fizikası məhdud ölçülü sistem kimi dünyanı təsəvvür edir və bütün qanunlar məhz sonlu paradiqmalar əsasında aparılır. Nəticədə alınan nəticələr dəqiq qanunlar kimi meydana çıxır. Lakin bu paradiqmalardan birini sonsuz götürdükdə *Nyuton* dünyası darmadağın olur. Hansı ki ilk dəfə *Eynşteyn* sürəti sonsuz götürməklə *Nyuton* fizikasının bütün qanunlarını şübhə altına almış oldu.

Metafizika həm də belə bir suala cavab verir: Bizim malik olduğumuz fiziki aləm yeganə mümkün aləmdir, yoxsa bu aləm mümkün aləmlərdən biridir? Əgər mümkün aləmlərdən biridirsə, onda metafizika mümkünlüyün varlığından alternativ aləmlər haqqında məlumat əldə edə bilərmi və nəhayət, belə bir aləmin predmetlərini nümunə kimi yarada bilərmi? Artıq bu insanın yaradan səviyyəsinə qalxması və yoxdan var etməsi deməkdir. Hansı ki minillərdir Yaxın Şərqin əlkimyagərləri bu ideyanı fiziki dünyada reallaşdırmağa cəhd edirlər. Halbuki əlkimyagərlik yalnız metafizika elminin köməyi ilə mümkündür. Ruhani Elmlər İnstitutunun alimi Din Radin yazır: *"Dünya haqqında başqa cür düşünmək mümkündür: Onu kvant fizikası təyin edir"*. Kvant fizikası həm də əldə etdiyi nəticələri təcrübəyə tətbiq etməyə cəhd edir. Onda deyə bilərik ki, başqa dünya da mümkündür, onun necə yaradılmasını yalnız kvant fizikası müəyyən edə bilər.

Artıq *Aristotelin* "Metafizika"sının doğulduğu və dəbdə olduğu vaxtlardan minillər keçib və indi insan ağlı həqiqətin nəhəng həcmdə aşkarlanmış hissəsinin aydınlığında, onun qaranlıq tərəflərini idrak etməklə məşğuldur. Lakin, həqiqətin idrakı prosesində vaxtilə bəzən əhəmiyyətsiz

hesab edildiyinə görə diqqət edilməmiş, bəzən isə aşkarlanmış həqiqətlərdə çox cüzi şəkildə qaranlıq qalmış, bəzən də idrak prosesinə dirəniş göstərmiş elə məqamlar olmuşdur ki, uzun illərdən sonra onlar tədricən toplanaraq əhəmiyyət kəsb etməyə və insan idrakının aşkarladığı həqiqətlər üzərində yenidən qaranlıq salmağa başlayır. Bu zaman metafizika yenidən aktuallıq kəsb edir. Ola bilsin ki, kimlər üçün metafizikaya yenidən qayıtmaq ilk baxışdan mənasız və ya maraqsız görünsün. Amma bizcə, metafizika idrak forması kimi həmişəlik öz aktuallığını itirməyib və ola bilsin, çox güman belə də olacaqdır, gələcəkdə də insanlıq təkrar-təkrar metafizikaya müraciət etməli olacaq.

METAFİZİKA

“Birinci Fəlsəfə: Mütləq Bütünün və İlk Səbəblərin İdrakı”

> “Qoy heç kəs cavanlıqda fəlsəfə ilə məşğul olmağı təxirə salmasın, qocalıqda isə fəlsəfə ilə məşğul olmaqdan yorulmasın:axı heç kəs yetkinliyə qədər olmayan, ruhun sağlamlığı üçün vaxtı keçmiş deyil”.
>
> *Epikur*

Yaranışda meydana çıxan ilk Mütləq Bütün Aləmi biz Metafizika adlandırırıq. Metafizikanın predmetini müəyyənləşdirmək üçün “predmet” sözünün özündə hansı mənalara malik olmasını aydınlaşdırmaq lazımdır. Predmet sözünün bir mənası “nəyəsə münasibətdə olmaq” mənasını verir, bu mənada metafizikanın predmeti metafizikaya münasibətdə olan noumenlərdir. İkinci mənası, fikrin yönəldiyi şeydir; beləliklə, bu mənada metafizikanın predmeti qeyri-hissi qavranılan qeyri-maddi bütün şeylərdir, hansı ki təcrübədən kənardır. Predmetin üçüncü mənası “xüsusi təlim sahəsi” mənasını verir ki, bu mənada metafizika yalnız fikirlə tədqiq edilən təlim sahəsi kimi qəbul edilməlidir. Beləliklə, metafizikanın predmetinə metafizikaya münasibətdə olan noumenləri, fikirlə tədqiq edilən təlim sahəsi kimi metafizik aləmi aid etmək olar.

Metafizikanın predmeti dedikdə biz metafizik bilgilərin əldə edildiyi obyektlərin məcmusunu nəzərdə tuturuq. Yəni metafizikanın predmeti, başqa elmlərdən və fəlsəfədən fərqli olaraq, “nədən, necə əldə edilən və hansı bilgiləri öyrənir?” sualına cavab verən hər şeydir.

Təcrübə sahəsində olan istənilən şeyin iki tərəfini müəyyən edə bilərik:

1. Substansiya: Substansiya o xarakteristikadır ki, o yalnız varlığın özündən çıxır və buna görə də varlıqdan ayrılmazdır. Varlıqdan ayrılmaz iki məna verir: birincisi, varlığın əmələgəlməsi ilə təzahür edən, ikincisi, varlığın məhv olması ilə təzahürdən dayanan. Məsələn, hər hansı bir maddə əmələ gələn kimi onun xüsusi kimyəvi xassələrindən onu aşkarla-

maq olur. Əksinə, maddə parçalandıqda onun xüsusi kimyəvi xassələri də itir. Substansiyanın bir çox növləri vardır:

a. **İdeyaya görə substansiya:** İdeya varlıqların mahiyyətini təşkil edir və istənilən varlıq mahiyyətindən aşkarlanır. İdeyası olmayan varlığın mahiyyəti də yoxdur. Məsələn, kölgənin mahiyyəti yoxdur. Çünki kölgənin təşkilinin ideyası özündə deyil. O, işıqla predmetin ideyasından əmələ gəlir.
b. **Tərkib hissəyə görə substansiya:** Hər hansı mürəkkəb maddə sadə tərkib hissələrindən ibarətdir. Bu tərkib hissələrinin biri digər tərkib hissəsindən ayrıldıqda maddənin mövcud olması dayanır. Məsələn, xörək duzundan Na və ya Cl-u ayırsaq, onları başqaları ilə əvəzləsək, heç bir halda xörək duzu mövcud olmaz.
c. **Keyfiyyətə görə substansiya:** Hər bir varlıq özünəxas keyfiyyətlə təzahür edir. Buradan da ya varlığı keyfiyyətinə görə, ya keyfiyyəti varlığa görə təyin etmək olur. Məsələn, şüurlu insan. Burada şüur yalnız insanda təzahür etdiyindən insanı aydınlaşdırır və ya tərsinə, insan yalnız onda şüur olduğundan şüuru müəyyənləşdirir. Şüur və insan bir-birindən ayrılıqda və ya başqa predmetlərlə münasibətdə meydana çıxmır. Düzdür, insanı şüurdan başqa xarakteristika edən keyfiyyətlər vardır. Məsələn, canlılıq. Lakin bu keyfiyyət ümumidən çıxdığından aksidensialdır, yəni canlılıq həm də heyvanlara aiddir. Buna görə də, canlı insan ifadəsində canlılığa görə yalnız insan təyin olunmur. Eləcə də insan yalnız canlılığı təzahür etdirmir. Məsələn, ölmüş insanın cəsədi də onun insan olduğunu göstərir.
d. **Başlanğıca görə substansiya:** Yalnız özündən sonra nəticəsi olan substansiyadır. Yəni substansiya başlanğıc kimi çıxış edir və başlanğıc xarakteristikasını substansiyadan ayırmaq olmaz. Məsələn, forma emanasiyanın başa çatmasında meydana çıxır. Formadan nəticə meydana çıxmır. Çünki özündə başlanğıc yoxdur. Buna görə də forma xalis heçlikdir.

e. **Təkliyə görə substansiya:** Heç bir varlıq fakt kimi mövcud olmadıqca məkanda çoxluq kimi təkrarlanmır, eyni zamanda ayrılıqda tək bir şey mövcud ola bilmir. Buradan da təkliyi substansial qəbul etmək olar. Təkliyin varlıqdan ayrılması onun mövcud olmasını istisna edir. Məsələn, bir kitab. Əgər biz biri kitabdan ayırsaq, onda "kitab" sözü abstraktlaşır. Yəni yalnız anlayış kimi mövcud olur. Halbuki "bir kitab" artıq konkret mövcud varlığı ifadə edir və kitab bir kimi mövcud olmasa, kitablar mövcud ola bilməz. Yəni cəmlənmə üçün tək kimi mövcud olma xarakteristikası zəruridir.

Beləliklə, substansiya zərurətə görə şeylərə xasdır. Substansiya təbiət sferasında aydınlaşdığından və təbii şeylərdən ayrılmaz olduğundan metafizikanın predmetinə daxil olmur.

Haşiyə: *Corc Berkli*, "İnsan biliyinin prinsipləri haqqında traktat"

"Hamı razılaşar ki, bizim nə fikirlərimiz, nə ehtiraslarımız, nə təsəvvürlərlə yaranan ideyalarımız bizim ruhumuzdan kənarda deyil. Mənim düşünmək və ya təsəvvür etmək qabiliyyətim real mövcudluğun və ya qavrayışın imkanlarından uzağa getmir. Buna görə də, mən şeyin həqiqi hissiyyatı olmadan nəyisə hiss edə, görə bilmərəm, eyni dəqiqliklə hiss olunan şeyi və ya predmeti onların hisslərindən və ya qavrayışından kənar düşünmək qabiliyyətində deyiləm. Əsl həqiqətdə obyekt və hissiyyat bir və eynidir (are the same thing), ona görə də biri digərindən mücərrədləşdirilə bilməz. Kainat ruhdan kənar mövcudluğa malik deyildir. Deyilənlərdən aydındır ki, ruhdan və ya qavrayandan başqa substansiya yoxdur. İdeya ideyadan başqa heç nədə yerləşə bilməz. Şərtsiz düşünülməyən şey, mənadan məhrum və ya özündə ziddiyyət saxlayan sözün mahiyyətidir. Bizim bütün ideyalar, hissiyyat, anlayış və ya bizim tərəfimizdən qavranılan şeylər, bizim onları necə adlandırmağımızdan asılı olmayaraq, aktiv deyil, onlarda heç bir güc və fəaliyyət yoxdur."

C. Berklinin bu fikirləri ilə razılaşmaq olarmı? Şərhə keçmədən öncə qeyd edim ki, bizim mühakimələrimiz bizdən kənar və artıq bizədək mövcud olan bilgilər əsasında aparıldığından, bizim bilgilərimiz özündə

əvvəlki biliklərin səhvlərini və dolaşıqlıqlarını daşımağa məhkumdur. Bu baxımdan, *C. Berkli* də istisna təşkil etmir. Əvvəlcə *Berklinin* "bizim ideyalarımız bizim ruhumuzdan kənarda deyil" fikri özündə nəyi ifadə edir sualına cavab vermək lazımdır. "Bizim ideyalarımız"ın iki mənası vardır: Birincisi, yalnız bizim Ruhumuza xas anadangəlmə ideyalar. Doğrudan da bu ideyalar yalnız ruhdadır, ondan kənarda deyil. İkincisi, refleksiv ideyalardır, yəni bizdən kənar hissi qavranılan şeylərin və ya başqa şəxsin ruhuna xas ideyalardır. Belə ideyalar yalnız refleksiya ilə bizimkiləşir, əsasları isə bir qayda olaraq refleksiya edəndə saxlanılır. Əgər belə olmasaydı, bir şey müxtəlif şəxslərdə sonsuz sayda refleksiya edə bilməzdi.

C. Berklinin fikirləri şey haqqında bilginin qüsurlarından meydana çıxır. Əvvəlcə hissi qavranılan şey nədir? O necə mövcud olur? Bu, yaranış haqqında təsəvvürlərlə sıx bağlıdır. Biz daha geniş şəkildə rasional teologiyanı şərh edərkən yaranış haqqında bilgi verəcəyik. Burada sadəcə onu demək kifayətdir ki, hissi qavranılan maddi şey özündə mənbəyi özündə olan işığın, yəni ilahi nurun ikili təbiətinin vəhdətdə və bir-birinə keçmədən mövcudluğundan ibarətdir. Yəni hər bir şey dalğa funksiyası ilə hissəciyin vəhdətidir. Burada dalğa funksiyası şeyin substansiyası, həmin funksiyadan ikincili olaraq meydana çıxan hissəciklər şeyin formasıdır. Biz qavrayışı yalnız formadan – hissiyyatla dolayısı ilə həyata keçiririk. Yəni xarici görüntünü obrazlar kimi refleksiya etdikdən sonra, şeyin dalğa funksiyası təfəkkürdə ideya kimi refleksiya edir. Burada hissiyyat sadəcə təfəkkürdə reflektiv ideyanı şeyin substansiyası, onda olan ideya ilə əlaqələndirici, bağlayıcı rol oynayır. Beləliklə, qavramada hissiyyat yalnız vasitədir və heç bir müstəqil mənaya malik deyildir. Məsələn, "acı" daddır, amma "acı" sözü özündə heç bir şeyi təqdim etmir. Yalnız acı dadı olanın adı ilə işləndikdə konkret şey haqqında ideya yaranır. Məsələn, "acı bibər" – bu söz məna ifadə edərək bibərin növünü təyin edir. Əgər hissiyyat heç məna daşımırsa, onda qavrayış onunla sərhədlənə və ya başa çata bilməz. Hissiyyat sadəcə şeyin həqiqətinə nüfuz etmək üçün

yoldur. Digər tərəfdən, sonsuz çoxlu şeylər bir və eyni hissiyyata malik ola bilərlər. Məsələn, istənilən maddi şeyin xarici görüntüsü var. Buna görə də ayrıca bir hissiyyatdan şeyin həqiqətinə nüfuz etmək mümkün deyildir, yəni şeylə hissiyyat bir və eyni deyildir. Şey təkdir, hissiyyat çoxluq; təkin çoxluqla bir və eyni olması mümkün deyildir. Digər tərəfdən, heç bir obyekt hissi obyekt kimi bilavasitə çıxış etmir. Məsələn, xarici işıq olmadan obyektin xarici görüntüsü aşkarlanmır, yəni hissiyyat yalnız obyektdən yox, həm də ondan kənar başqa şeydən – işıq mənbəyindən asılı meydana çıxır. Buradan da məlum olur ki, obyektlə hissiyyat bir və eyni deyildir. Nəhayət, "şey aktiv deyil, onda heç bir güc və fəaliyyət yoxdur". Hər hansı bir şey başqa şeyin təsirini özündə inikas edir. İnikas bizdən kənar bir şeyin başqa şeyə təsirindən aşkarlandığından, şeylərin gücü və fəaliyyəti olduğunu göstərir. İşıq bütün şeylərə eyni düşsə də, bütün şeylərin fərqli xarici görüntüsü aşkarlanır. Bu onu göstərir ki, işıqlanmada yaranan müxtəliflik işıqla və ya dərk edən subyektlə bağlı deyil, əksinə bilavasitə işığa müqavimət göstərən şeyin öz daxili gücündən asılıdır, hansı ki bir-birindən fərqli müqavimət gücünə malik olduqlarından fərqli görüntü aydınlaşdırırlar. Hər bir şey öz mövcudluğunu sonsuzluğadək davam etdirməyə cəhd edir və ümumiyyətlə şeyin gerçək mövcudluğu yoxdur, yalnız mövcudolması – aktuallaşması vardır. Aktuallaşma isə aktivliyin təzahürüdür. Buradan da xülasə etmək olar ki, bizdən kənarda şeylərdə substansiya vardır və həmin substansiya ilə ruhun substansiyasının eyniliyi həqiqət kimi başa düşülür, hansı ki eyni bir ideya ilə ifadə olunur. Yəni şeyin həqiqəti ilə Ruhun özündə hissi qavrayışla əldə etdiyi fikir bir ideya ilə bildirilir. Buradan da səhv olaraq bəziləri ideyanı yalnız ya şeyə, ya da ruha aid edir.

2. Aksidensiya: Aksidensiya o xarakteristikadır ki, şeyə kənardan, başqasından verilir və buna görə də şeyin özündən yox, başqasından asılıdır və varlıqdan kənarlaşması varlığın mahiyyətini dəyişmir. Aksidensiyanın bir çox formaları vardır:

a. **Ümumiliyə görə aksidensiya:** Növün ən ümumi xarakteristikalarının fərdi varlıqda aşkarlanması kimi. Məsələn, məməlilər canlıdır, insan və meymun məməli olduğundan hər ikisi canlıdır. Burada insan məməlilər sinfinə aid olduğundan canlılıq xarakteristikasını alır.
b. **Hərəkətə görə aksidensiya:** Hərəkətin mənbəyi özündən olmayanda belə hərəkət aksidensial olur. Məsələn, mexaniki hərəkət. Mexaniki hərəkətin səbəbi xaricidir, ona görə də o, varlığın özündən yox, başqasından təyin olunur.
c. **Hissəyə görə aksidensiya:** Hissə tama münasibətdə aksidensialdır. Yəni istənilən tam hissələrə ayrılır və bu zaman hissə tamdan kənarda mövcud olur. Hissənin ayrılması tamın mahiyyətini dəyişmir.
d. **Kəmiyyətə görə aksidensiya:** Müxtəlif varlıqlar eyni bir kəmiyyətdə ola bilər və ya istənilən bir varlıq istənilən kəmiyyətdə ola bilər. Buradan da kəmiyyətin eyniliyi və ya fərqliliyi şeylərin mahiyyətinin eyniliyinə və ya fərqliliyinə gətirib çıxarmır. Məsələn, üç adam, üç kitab, üç quş və ya bir adam, iki adam, üç adam. Burada kəmiyyətlərin predmetlərdən ayrılması onların mahiyyətini dəyişdirmir.
e. **Nəticəyə görə aksidensiya:** Əmələgəlmədə bir şey başqa şeyə keçmədən əmələgəlmə baş verirsə, bu zaman nəticə səbəbə görə aksidensialdır. Məsələn, atanın övladlara münasibəti aksidensialdır. Yəni övladların neçə nəfər, oğlan və ya qız olmasının atanın mahiyyətinə təsiri yoxdur.

Aksidensiyanın xalis forması addır. İnsan əşyalara müxtəlif adlar verir. Adla şeyin bir-biri ilə yalnız şüurda bağlılığı vardır. Reallıqda isə şey konkret, ad abstrakt olduğundan ad şeylə vəhdət təşkil etmir. Vəhdət təşkil etmək üçün tərəflərin hər ikisi eyni təbiətli, ya hər ikisi konkret, ya da hər ikisi abstrakt olmalıdır. Buna görə də eyni bir şey müxtəlif dillərdə müxtəlif cür adlandırılır. Buradan da görünür ki, ad şeyə görə mütləq aksidensialdır. Beləliklə, təsadüfə görə şeyə aid edilənləri biz metafizikaya da aid edə bilərik.

Haşiyə: *Aristotel*, "Metafizika"

"Təsadüfi (aksidensial) xas olan onlar adlandırılır ki, şeydə olur, amma zərurətə görə ona məxsus olmur. Təsadüfinin heç bir müəyyən səbəbi yoxdur, tale nəyi göndərəcəksə, o olacaqdır. Nəyəsə aksidensial xas olmaq başqa mənada – məhz şeyə təbiətinə görə məxsus olan, amma onun mahiyyətinin tərkibinə daxil olmayana deyilir. Birinci mənada əbədi olmur, amma ikinci mənada əbədi ola bilər."

Aristotelin aksidensiallıq haqqında şərhindən görünür ki, o, aksidensiallığı təsadüfə görə mövcudluğa aid edir və bunun iki mənasını bir-birindən ayırd edir. Birinci mənada təsadüfilik ümumən təbiətdədir və buna görə də təbiətdə olan hər şeyə aid ola bilər. Belə aksidensiallıq keçicidir. İkinci mənada – təsadüfilik şeyin daxilindədir və şeyə təbiətinə görə aid olsa da, şeylərin mahiyyətinə daxil olmadığından təzahürü zəruri deyil, yəni təzahür edə də bilər, etməyə də. Aksidensiv olanlar – ümumilər, hərəkətlər, hissələr, kəmiyyət və ilkin səbəb – şeydən ayrıldığından, təbiətdən kənara çıxdığından və təsadüfilik prinsipi ilə mövcud olduğundan metafizikaya aiddir və biz metafizikanı aksidensiallıq (təsadüfilik) haqqında elm kimi də təyin edə bilərik.

Haşiyə: *A. N. Uaythed*, "Kosmologiya ideyası"

"Bizim metafizik bilgilərimiz hədsiz az, səthi və yarımçıqdır. Buna görə də o, yanılmalarla doludur. Amma metafizik anlama elə-belə öz arxasınca təsəvvürləri aparır və məqsədə haqq qazandırır. Metafizik müddəalarsız sivilizasiya mümkün olmazdı."

A. N. Uaythedin fikirlərinə qoşularaq biz də belə hesab edirik ki, fəlsəfəyə və ayrı-ayrı elmi sahələrə nisbətdə metafizika tam müəyyənləşməmiş, onun sərhədləri təyin olunmamış və buna görə də metafizik bilgilər az, səthi və yarımçıq olaraq qalmaqdadır. Metafizikanın sivilizasiyalardakı rolunu nəzərə aldıqda insanlığın yeni qlobal sivilizasiyaya keçidinin ərəfəsində metafizikaya yenidən qayıtmaq və metafizikanın qüsurlarını aradan qaldırmaq üçün metafizika – "təbiətdənsonra" terminin bütün mənalarına uyğun onun predmetini şərh və izah etmək zəruridir.

Metafizikanın predmetinə daxil olan metafizik statuslu tədqiqat obyektlərinə aşağıdakıları ayırd edə bilərik:

Təbiət qanunlarından fərqli qanunlara tabe olan Varlıq: Varlıq mövcudluğun əsasıdır. Hər bir mövcudluq buna görə də nəticə kimi "vardır". Varlıqla mövcudluq səbəb-nəticə əlaqəsindədir. Səbəb-nəticə əlaqəsində olmaq biri digərindən fərqli səviyyədə olmağı özündə təqdim edir. Səbəb nəticəni yaratdığına görə ondan əvvəl, ondan ali və ona münasibətdə mümkünlükdür. Səbəb özündə çoxlu potensial imkan saxlayır, nəticə sadəcə mövcud imkandır. Mövcud imkan konkret xarakteristikalara malik olmaq deməkdir, potensial imkan mücərrəd xarakteristikaları özündə saxlayır. Buna görə də, təbiətdə olan mövcudluqlara xas təzahürlər – xarici görüntü, hissi qavranılma, maddilik varlığa xas deyildir. Varlıq xalis "nə"dir. Nə – görüntüsü olmayan maddiliyin hissi qavranılmayan əsasıdır. Metafizikanın belə təyini "varlığın təməli, özü və anlamı" haqqında bilgiləri əhatə edən ontologiyanı – "nə"nin elmini – meydana çıxarır.

Təbiətdən fərqli olaraq forma ilə vəhdət təşkil etməyən və ya forma yaratmayan mahiyyət: *Kant* bunu "özlüyündə şey" adlandırır. Biz bunu xalis mahiyyət kimi təyin edirik. Xalis mahiyyət özündə "təbiətin arxasında gizlənən"dir, hansı ki metafizika məhz hissi qavranılmadan kənar obyektləri öyrəndiyindən, belə özlüyündə şey kimi – xalis varlıq təyininə malik olanları öyrənir. Belə obyektlər varlıqla eyni xarakteristikalara malik olub, "nə"yə malik olmamaları ilə varlıqdan fərqlənir. Bura sahə və ideyalar daşıyan dalğa funksiyaları aiddir. Belə mümkünlüyə həm də Ruhu aid etmək olar. Ona görə də bəziləri metafizikanı "varlıqdan bilən üçün – düşünən mənliyin bilgisi", yəni Ruhun bilgisi adlandırır. Ruh haqqında bilgini metafizikanın pnevmatologiya bölməsi öyrənir.

Təbiətdə olanlardan fərqli olaraq mövcud varlıq təyini olmayan, yəni nə mahiyyəti, nə forması olmayan və yalnız mahiyyətin varlığı kimi olanlar: Belə metafizik obyektlərə teo-obyektlər aiddir. Hansı ki insanlarda belə obyektlərin mahiyyəti haqqında heç bir dəqiq bilgi mövcud deyildir. İnsan yalnız nisbi həqiqət haqqında bilgiyə malik olmaq im-

kanına malik olduğundan, bunu "mütləq bilgi" və ya "mütləq həqiqət" kimi təyin etmək olar. Metafizikanın rasional teologiya bölməsi məhz bu cür mahiyyətin varlığını öyrənir. Varlığın mahiyyəti varlıqdan dolayısı ilə, mahiyyətin varlığı birbaşa həqiqətin özündən, vasitəsiz özü-özünə aydınlaşan həqiqətdən aşkarlanır.

Metafizika çoxmənalı mürəkkəb söz olduğundan müxtəlif mütəfəkkirlər metafizika altında ən müxtəlif bilgiləri təsəvvür etmişlər.

Haşiyə: *İ. Kant*, "Xalis zəkanın tənqidi"

"Bəzi bilgilər hətta hər cür mümkün təcrübənin sferasını tərk edərək anlayışların köməyi ilə, hansı ki təcrübədə uyğun predmet heç yerdə verilə bilməz, bizim mühakimələrin həcmini hər cür təcrübənin çərçivələrindən kənara genişləndirir. Təcrübənin nə rəhbərlik, nə yoxlama vasitəsi ola bilməyəcəyi, hissi qavranılan dünyanın sərhədlərindən çıxan bu növ bilgi sahəsinə bizim ağlın tədqiqatları aiddir; biz onların əhəmiyyətini daha mötəbər və təzahürlər nahiyəsində ağlın öyrənə biləcəyi hər şeydən, onların son məqsədinə görə daha yüksək hesab edirik. Bu zaman biz, hətta hansısa şübhəyə və ya ehtiyatsızlığa və onlara laqeydliyə görə belə mühüm tədqiqatlardan imtina etməkdənsə, yanılmaq riski ilə hər şeyə getməyə hazırıq. Bu qaçılmaz problemlər Allah, azadlıq və ölümsüzlükdür. Son məqsədi öz bütün vasitələrinin köməyi ilə yalnız bu problemləri həll etmək olan elm isə Metafizika adlanır."

Göründüyü kimi, *Kant* metafizikanın öyrəndiyi problemləri Allah, azadlıq və ölümsüzlüklə məhdudlaşdırır. *Kantdan* fərqli olaraq, biz belə hesab edirik ki, metafizika daha geniş problemləri əhatə edir. Bu problemlərin sərhədlərini yaranış xəritəsi əsasında təsəvvür etmək olar. Əgər idrak edən subyekt kimi biz Kosmosda mövcuduqsa, onda Kosmosdan metafizikanın yaranmasını aşkarlaya bilərik.

Fiziki təbiətin əsasını cisim-Telos təşkil etdiyindən biz əbədi ayrılıqda götürülmüş şeyi təbiətin əsas fenomeni hesab edirik. Telosdan əvvəl və sonra olanlar təbiətdən kənardır və buna görə də metafizikanın predmetinə daxil edilməlidir. Təbiəti təyin etdiyi kimi, metafizikanı da bütün

bilgiləri aşkarlayan "düşünən mən" – insan (ruh) təyin edir. Ona görə də, düşünən mənə görə metafizikanın predmetinə daxil olan obyektləri müəyyənləşdirmək daha düz olardı. Düşünən mənə görə yaranış xəritəsini istiqamətdən asılı olaraq aşağıdakı mənalarda təyin edə bilərik:

1. İdrak istiqamətində məkana görə fizikadan sonra – metafizika: Subyekt-obyekt münasibətində subyektə münasibətdə obyektdən sonra – obyektin özünə münasibətdə özündən əvvəl yaranan – Varlıq. Bu mənada metafizika real mövcudluğu dəf edərək fikirdə Varlığın həqiqətini tapmağa və bu həqiqət əsasında mövcudolmanın qanunlarını aşkarlamağa cəhd edir. Metafizika Dünya – Varlıq üzərində, Fikirdən – Ruhda qaldırılmış elmi bina olduğundan, istənilən metafizik həqiqət eyni vaxtda özündə həm ruhun, həm də varlığın həqiqətlərini ifadə etməlidir. Ruhla Varlığın eyni həqiqəti özündə aydınlaşdırması Varlığın və Ruhun vahid başlanğıca malik olmasını üzə çıxarır. Ona görə də metafizikanın əsas vəzifəsi "başlanğıc probleminin müzakirəsi, analizi və təsviri" (*M. Haydeqqer*) olmalıdır. Burada başlanğıc deyəndə həm Varlığın, həm Ruhun, həm də idrakın başlanğıcı nəzərdə tutulur. Varlıqla Ruh yalnız xalis varlıq təyininə görə eynilik təşkil etdiklərindən Varlığın və Ruhun başlanğıcı yalnız onların xalis varlıq təyinindən – xalis fikirdən aşkar oluna bilər. Sxematik olaraq bunu belə təsəvvür etmək olar:

Təbiət → Varlıq → Allah

2. Yaranış istiqamətində zamana görə fizikadan sonra – metafizika: Şüurlu insan təbiətin ən sonuncu varlığıdır, hansı ki özündən əvvəlki bütün varlıqlardan idrak qabiliyyətinə – Ruha malik olmasına görə fərqlənir. Bunu sxematik olaraq belə təsəvvür etmək olar:

Təbiət → Ruh → Allah

3. İdrak istiqamətində dərkolunma ardıcıllığına görə fizikadan sonra – metafizika: Belə fizikadansonra hər bir əşyanın idrak edilməsində idrak ardıcıllığına görə, başqa sözlə, idrak prosesində varlıq təyinləri-

nin ardıcıllığına görə təyin olunan metafizikadır. Biz bunu sxematik olaraq aşağıdakı kimi təsəvvür edə bilərik:

Özü-üçün – varlıq təyini (forma) → mövcud varlıq təyini (forma ilə mahiyyətin vəhdəti – fizika – esse exsistentiae) → sonra → xalis varlıq təyini (mahiyyət – esse essentiae) və ya xalis fikir.

4. Həqiqətin aşkarlanma dəqiqliyinə görə fizikadan sonra – metafizika: Təbiətdə hər bir tək şey hissi qavrayışda özündə orijinal həqiqəti aydınlaşdıran gerçəklik kimi mövcud olur. Görünən kaleydoskopik dünya belə orijinal gerçəkliklər çoxluğundan təşkil olunub. Gerçəkliklər müxtəlif sıralar təşkil edərək təbiəti – real varlıqları yaradırlar. Nəticədə hər bir varlıq sırasından həmin varlığın hər bir təkindən aşkarlanan xüsusi həqiqəti aşkarlamaq olur. Daha sonra müxtəlif real varlıq sıraları birbiri ilə vəhdətdə mövcudluqları təşkil edirlər, hansı ki özündə ümumi həqiqəti aydınlaşdırırlar. Mövcudluqlar özlərində real və potensial varlıqların vəhdəti kimi mümkünlükləri təşkil edirlər, hansı ki özlərində ən ümumi həqiqəti aydınlaşdırırlar. Daha sonra mümkünlüklərin vəhdətindən Varlıq təşkil olunur, hansı ki özündə nisbi mütləq həqiqəti aydınlaşdırır. Varlığın Yoxluqla vəhdətindən Mütləq Həqiqət aydınlaşır, hansı ki idrak üçün əlçatmazdır. Mütləq Həqiqət özündə Allahı refleksiya edərək başlanğıc kimi çıxış edir. Biz bunu aşağıdakı kimi sxematik təsvir edə bilərik:

- **Obyektə görə:** Gerçəklik → Reallıq → Mövcudluq → Mümkünlük → Varlıq → Yoxluq → Allah və ya
- **Subyektə görə:** Orijinal həqiqət → xüsusi həqiqət → ümumi həqiqət → sonra → ən ümumi həqiqət → mütləq nisbi həqiqət → mütləq həqiqət → Allah

Beləliklə, metafizikanı fəlsəfədən fərqləndirən əsas definisiyasını əldə etmiş oluruq. Fəlsəfə – təbiətin, cəmiyyətin və təfəkkürün ən ümumi qanunauyğunluqları haqqında elm, metafizika – təbiətin, cəmiyyətin (Ruhun), təfəkkürün əvvəli və ya başlanğıcı və ya ilkin səbəbi haqqında xü-

susi təsəvvürlərdən ibarət elmdir. Beləliklə, fəlsəfənin obyektləri xüsusi, əldə etdiyi bilgi ən ümumidir; metafizikanın obyektləri ən ümumi, onlardan əldə edilən bilgi xüsusidir. Buna görə də metafizikanın ideyalarını ümumiləşdirmə ilə idrak etmək mümkün deyildir. İnsan yaranış ardıcıllığına görə təbiət sferasında sonuncu varlıq olduğundan, özündən əvvəl yaranmış heç bir varlığın başlanğıcı haqqında təcrübədən bilik əldə etmək imkanına malik deyildir. Buna görə də, başlanğıc haqqında bütün metafizik bilgilər aprior olaraq əldə edilə bilər.

Beləliklə, metafizika mövcud varlığın sərhədlərindən kənarda – ondan əvvəl və sonra olan, həqiqətin aşkarlanmasına cəhd edir. Bura Allah, Varlıq, Kosmos, Ruh aiddir. Beləliklə, biz "fizikadan sonra" ifadəsi altında metafizikanı əsas dörd obyekti və onlar arasındakı əlaqələri öyrənən elm kimi təyin edirik. Metafizikanın bütün predmetləri üçün eyni kriteriyalar xasdır.

Haşiyə: *Martin Haydeqqer*, "Metafizika nədir"

"Sağlam insan mühakiməsi nöqteyi-nəzərincə, fəlsəfə – Hegelə görə "alt-üst edilmiş dünyadır". İstənilən metafizik sual həmişə metafizik problematikanı tam əhatə edir, o həmişə bu tamın özündən çıxır, istənilən metafizik sual yalnız onda verilə bilər ki, soruşan keyfiyyətində soruşanın özü də buna cəlb olunsun, yəni sualın altına düşsün. Bu bizə istiqamət göstəricisi ola bilər: bizim metafizik sualımız tama aid olmalıdır və bizim soruşan iştirakçılığımızdan, mahiyyətli yerindən yola çıxmalıdır. Biz sualı indi və burada, bizim üçün veririk."

M. Haydeqqerin metafizika ilə bağlı yuxarıdakı şərhindən görünür ki, metafizika insanın da – yalnız onun bədəninin yox, həm də Ruhunun – təşkil etdiyi tam haqqında həqiqətləri öyrənən şüur formasıdır. Burada tamı totallıq – Mütləq Bütün kimi nəzərdə tuturuq. Yəni metafizikanın öyrəndiyi obyektlər insan idrakına sığan totallığa malik obyektlərdən ibarətdir. Başlanğıclar yaranışda və əmələgəlmə proseslərində təzahür etdiyindən, başlanğıc haqqında bilgini yalnız yaranışdan və proseslərdən əldə etmək mümkündür. Buna görə də metafizika həm yaranışdan, həm Yara-

dandan – Allahdan, həm yaradılandan – Varlıqdan, həm də yaranışın özündən, Allahın Varlığı yaratmasından, onun qanunlarını idrak edəndən – Ruhdan, və həm də əmələgəlmə prosesində materiyadan, mövcudluqdan, mahiyyət və formadan – Kosmosdan bilgi əldə etməyə cəhd edir.

Aristotel metafizikanı "bütün mövcudluğun başlanğıcı və səbəbi" haqqında biliklərdən ibarət elm kimi təyin etmişdir.

Haşiyə: *Aristotel*, "Metafizika"

"Tədqiqatın predmeti bütün mövcudluğun başlanğıcı və səbəbidir, burada aydındır ki, o nə qədər mövcudluq kimi götürülür. İş ondadır ki, bəzi səbəblər sağlam və yaxşı əhvaldadır. Eyni dəqiqliklə həmçinin, riyazi predmetlərdə özünün başlanğıcı, elementləri və səbəbləri vardır və ümumiyyətlə istənilən mühakiməli və ya mühakimənin hansısa rol oynadığı idrak, öz predmeti ilə, bəzən kiçik, bəzən böyük dəqiqliklə göstərilən, müxtəlif səbəblərə, başlanğıclara malikdir. Amma bütün belə elmlər bu və ya başqa xüsusi varlıqla işi olur və özünə ayrıca sahə ayırır; onlar bu sahələrlə məşğul olur, sadəcə mövcudluqla yox və predmetlərin mahiyyəti üçün heç bir əsaslandırma vermir, amma onu hissi qavrayışın köməyi ilə izah edir. Buna görə aydındır ki, belə yanaşmanın nəticəsində mövcudluğun sübutu və ya predmetin mahiyyəti alınmır, amma burada – onların aşkarlanmasının bəzi başqa üsulları vardır; eyni dəqiqliklə bu elmlər onların məşğul olduqları növün mövcud olması və ya olmaması haqqında heç nə demirlər, məhz bir və eyni mühakimə fəaliyyəti predmet haqqında izah edə bilər ki, o var, ya yoxdur. İndi fizika da mövcudluğun bəzi sahələri ilə məşğuldur, aydındır ki, istənilən halda nə fəaliyyət, nə də yaradıcılıq haqqındadır: ona görə də, əgər istənilən dərk edən düşüncə ya insanın fəaliyyətinə, ya yaradıcılığına istiqamətlənib, ya da nəzəri xarakter daşıyırsa, fizika bəzi nəzəri fənləri görməli idi, amma o, hərəkət etmə qabiliyyətinə malik varlıqla və anlayışa uyğun gələn, ayrıca materiyadan ayrılıqda mövcud ola bilməyən mahiyyətlə işi olur. Riyaziyyat da nəzəri elmdir. Digər tərəfdən, əgər hərəkətsiz və ayrılıqda mövcud olan predmetlər haqqında elmdirsə, indi bu aydın deyil, baxmayaraq ki, bu-

nunla yanaşı şübhəsiz, bəzi riyazi elmlər öz predmetlərinə hərəkətsiz olduqları və ayrılıqda götürülə bildikləri qədər baxır. Əgər hansısa əbədi olan, hərəkətsiz və müstəqil mövcud olan varsa, onda onu nəzəri xarakterli elm dərk etməlidir, ancaq nə fizika, həmçinin nə riyaziyyat yox, bunların hər ikisindən irəlidə gedən elm öyrənməlidir. Əsl həqiqətdə, fizika müstəqil mövcud olan və hərəkətdən məhrum olmayan predmetlərlə məşğul olur, riyaziyyatın bəzi sahələri hərəkətsiz predmetlərlə məşğul olur, hansı ki belə obyektlər ayrılıqda mövcud olmur, materiyaya verilir; birinci fəlsəfəyə gəldikdə isə, o hərəkətsiz və ayrılmış obyektlərə baxır. Bu zaman bütün səbəblər əbədi olmalıdır, amma xüsusən onlar ki, hansı ki indi haqqında danışılır: məhz bu səbəblər bizə aydın olan ilahi predmetlərdir. Beləliklə, üç nəzəri fəlsəfi elm ayırmaq olar: riyaziyyat, fizika, Allah haqqında elm. Əgər təbiət tərəfindən tərkibi müəyyən olunandan başqa hər hansı bir başqa mahiyyət yoxsa, onda elmlər içərisində ilk yerə fizika qoyulmalıdır: əgər bəzi hərəkətsiz mahiyyət varsa, onda onlar haqqında elm öndə gedir, belə halda o birinci fəlsəfəni təşkil edir və birinci olduğundan, ən ümumidir."

Aristotelin fikirlərindən görünür ki, o, birinci fəlsəfəni – metafizikanı – ayrılıqda, vəhdətdən kənar, hərəkətsiz, səbəbləri əbədi olanı, yəni Allah haqqında elm kimi təyin edir. *Aristoteldən* sonra metafizikanın predmeti bir qədər də genişləndirilmişdir və onun obyektləri cərgəsinə Ruh, Məkan-Zaman və s. kimi predmetlər daxil edilmişdir. Metafizikanın predmetinə iki böyük problem aiddir. Biz bu problemləri metafizik problemlər adlandırırıq və belə hesab edirik ki, metafizika məhz bu iki problemin həlli əsasında öz predmetini tədqiq edir. Həmin problemlərə Başlanğıclar və Səbəblər aiddir.

METAFİZİK BİLİKLƏRİN FORMASI

"Ümumi və Xüsusi Metafizika: Biliyin Quruluşu və Təsnifatı"

İdrak adamı nəinki öz düşmənlərini sevməlidir,
həm də hətta öz dostlarına nifrət etməyi bacarmalıdır.
Fridrix Nitsşe

Biz metafizika haqqında bilgini iki böyük hissəyə ayırırıq. Birinci hissəni **"Ümumi metafizika"** adlandırırıq. Ümumi metafizika, ümumiyyətlə, metafizika haqqında ən ümumi təsəvvürlər yaradan ideyaların şərhindən ibarətdir. Bura metafizika anlayışı, metafizikanın müəyyənliyi, təyini, metafizik biliklərin tarixi formaları, metafizikanın metodologiyası, onun fəlsəfə və başqa elmlərlə əlaqəsi, metafizika ilə fizikanın əlaqəsi, metafizik statuslu obyektlərin – noumenlərin təyini, onların ümumi xarakteristikaları, metafizikanın predmeti və s. ilə bağlı məlumatları aid edirik.

İkinci hissəni **"Xüsusi metafizika"** adlandırırıq. Bura metafizikanın xüsusi ideyaları: Varlıq, Kosmos, Ruh və Allah haqqında metafizik ideyaların şərhi daxildir. Biz xüsusi bölməyə həm də "birincili fəlsəfə" və müxtəlif elmlərin metafizik əsaslarını da ayrıca ideya kimi daxil etməyi məqsədəuyğun hesab edirik.

ÜMUMİ METAFİZİKA METAFİZİKA HAQQINDA

"Metafizika" anlayışı özündə nəyi ifadə edir? Onun fəlsəfədən və elmdən fərqi nədir? Metafizika həqiqəti necə aşkarlayır? Metafizikanın predmetləri nədən ibarətdir? Bütün bu suallar Metafizika haqqında ən ümumi təsəvvürlərə aiddir.

Metafizikanın təbiəti ilə bağlı suallar müxtəlif dövrlərdə meydana çıxıb və demək olar ki, müxtəlif filosoflar öz fəlsəfi təlimlərindən çıxış edərək ona müxtəlif cavablar, həm də bir çox hallarda bir-birini təkzib edən cavablar veriblər.

Haşiyə: *Martin Haydeqqer*, "Varlıq və Zaman"

"Tarixşünaslığın köməyi ilə istiqamətlənərək biz dərhal metafizika ilə bağlı izahat almış oluruq. Biz üç məsələ ilə bağlı soruşa bilərik:"

'Metafizika' sözü haradan gəlir və onun ən yaxın mənası nədir? Bizə burada təəccüblü sözün təəccüblü tarixi təqdim olunacaq.

1. Biz sadə söz mənasına istinad edərək metafizika kimi təyin olunana nüfuz edə bilərik. Biz fəlsəfi fənlərdən biri ilə tanış ola bilərik.
2. Nəhayət, bu təyindən burada adlanan şeyə çata bilərik."

M. Haydeqqerin metafizika ilə bağlı suallandırması daha əhatəli və geniş olduğundan, biz metafizika ilə bağlı şərhimizi məhz həmin suallar əsasında aparacağıq. *M. Haydeqqerin* sualları bir-birindən fərqli aşağıdakı üç predmetə aiddir:

1. Metafizika anlayışı: Metafizik suallandırmanın birinci predmeti metafizika anlayışıdır. Metafizika anlayışı ilə bağlı sualı aşağıdakı kimi təyin etmək olar: Çoxmənalı "metafizika" sözünün ən sadə, ən ümumi və ən birinci mənası nədir ki, biz yalnız o məna əsasında mühakimə ilə metafizik biliklərə dəqiq istiqamətlənə bilərik?

2. Metafizik aləm: Metafizik aləm, metafizikanın predmeti kimi, onun müəyyənliyi ilə bağlı suallandırıla bilər. Metafizik aləmin müəyyənliyi bizim mövcud təbiətdən kənarda, ondan fərqli bir aləmin bilavasitə olub-olmaması ilə bağlıdır. Bununla bağlı sual belə qoyula bilər: Bizim mövcud təbiətdən kənarda metafizik aləm bilavasitə vardırmı? Varsa, bu aləm nələrdən təşkil olunub və bu aləmin təbiətlə əlaqəsi necədir?

3. Metafizika elmi: Metafizika elmi predmet kimi metafizikanın təyini ilə bağlı suallandırıla bilər. Metafizik elmin təyini ilə bağlı sual, bu elmin digər elmlərdən və fəlsəfədən fərqləri ilə bağlı verilə bilər. Yəni müstəqil bir elm kimi, həm də *İ. Kantın* təbirincə "bütün elmlərin şahı"

kimi, metafizika hansı bilgiləri, haradan və necə əldə etməlidir və bu bilgilər elmi və fəlsəfi bilgilərdən hansı xarakteristikasına görə fərqlənməlidir?

METAFİZİKA ANLAYIŞI HAQQINDA

Biz belə hesab edirik ki, Metafizika haqqında ümumi anlayış Metafizika anlayışının mənalandırılmasından başlamalıdır. Buna görə də, Metafizika haqqında hər hansı bir mühakimə aparmamışdan öncə bu anlayışın əsasında duran birinci mənanı aydınlaşdırmalıyıq. Çünki sözün çoxmənalılığı əsasında aparılan mühakimələr yalnız mümkünlük – *nəsə* – haqqında məlumat verə bilər, hansı ki qeyri-müəyyən və dolayısı ilə idraka təqdim edilən gizli həqiqətlərdən ibarətdir. Başqa sözlə, sözün çoxmənalılığında anlayış özündə heç bir aydın və bilavasitə həqiqəti ifadə etmək imkanına malik deyildir.

Haşiyə: *Epikur*, "Məktublar və fraqmentlər"

"Hər şeydən əvvəl, Herodot, sözün əsasında duran anlayışı ondan ötrü başa düşmək lazımdır ki, ona əsaslanarkən bizim rəyimiz, sözümüz, anlaşılmazlığımızı mühakimə edə bilək və bizdə sonsuz izahlar zamanı həll olunmamış heç nə qalmasın və ya biz boş sözlərə malik olmayaq. Əsl həqiqətdə, əgər biz həqiqətən anlaşılmazlığı, rəyi, deyimi nəticələndirən əsasa malik olmaq istəyiriksə, zəruridir ki, hər bir sözdə onun birinci mənası görünsün və o, əlavə izaha möhtac olmasın. Bundan başqa, hər şeyi hissi qavrayışa və xüsusən dərk etmənin mövcud imkanına – bilavasitə ağılla və ya mövcud affektə uyğunluğa bərabər, onun əsasında qabaqdan gələn və həqiqət olanı mühakimə etməyi bacarmaqdan yana elə nəyəsə malik olmaq üçün mühakimənin hansısa alətinə uyğun olanı – müşahidə etmək lazımdır."

Haşiyə: *Corc Berkli*, "İnsan biliyinin prinsipləri haqqında traktat"

"İnkar etmək olmaz ki, söz, bütün dövrlərin və xalqların tədqiqatçılarının birləşmiş səyi ilə əldə edilən biliyin bütün ehtiyatını hər bir ayrıca

adamın baxış dairəsinə gətirməkdən və onun nailiyyəti etməkdən ötrü yaxşı vasitə kimi xidmət edir. Amma biliyin böyük hissəsi sözün sui-istifadəsindən və dilin qəbul edilmiş dönmələrindən əmələ gələn elə təəccüblü dolaşmış və qaranlıqlaşmışdır ki, hətta sual əmələ gələ bilər: dil elmi nailiyyətlərə kömək etməkdən daha çox mane olmurmu?"

C. Berklinin fikirlərindən gördüyümüz kimi, dil həqiqəti entropiyaya məruz qoyan idrak vasitəsidir. Ümumiyyətlə, dilin həqiqətlə əlaqəsinə düzgün qiymət vermək üçün dilin əsas funksiyalarına diqqət etmək lazımdır. Dilin əsas aşağıdakı funksiyalarını ayırd etmək olar:

1. Adlandırma funksiyası: Adlandırma funksiyası sözün ən qədim və əsas funksiyalarından biridir. Adlandırma hər hansı xarici obyekt və ya hərəkəti xüsusi bir sözlə işarələməkdən ibarətdir. Bununla da obyektin mücərrədləşdirilməsi həyata keçirilir. Adlandırmada iki cür söz meydana çıxır:

a. Təsadüfə görə yaranan sintetik sözlər: Belə sözlərin mənası adlandırdığı əşyadan yox, təfəkkürdən çıxarılır və sözlə mexaniki əlaqələndirilir. Belə sözlər ilkin, sadə sözlərə aiddir. Məsələn, "alma" sözünün ayrılıqda alma meyvəsi ilə hər hansı bir əlaqəsi yoxdur və təsadüfən alma sözü konkret meyvənin adı kimi qəbul edilib. Buna görə də, ayrı-ayrı dillərdə eyni bir şeyin tamamilə fərqli adları vardır.

b. Zərurətə görə sözlər və ya dialektik sözlər: Dialektik sözlər ağlın inkişafından meydana çıxan sözlərdir. Belə sözlər sintetik sözlərin əsasında ikincili olaraq meydana gəlir və artıq qabaqcadan insan tərəfindən məna verilmiş sözlərdən yarandığından söz özü zərurətə görə məna daşıyır.

2. Ünsiyyət funksiyası: Vəhdətdə mövcud olan bütün varlıqlar öz sıralarına xas bir-biri ilə qarşılıqlı əlaqədədir. Cisimlərdə belə əlaqə təsir-əkstəsir əlaqəsi kimi reallaşdırılır. Canlılarda qarşılıqlı əlaqə həm müxtəlif efirlərin – iylərin vasitəsi ilə, həm də bədən dili siqnalları vasitəsi ilə həyata keçirilir. İnsan bunlardan fərqli olaraq dil vasitəsi ilə qarşılıqlı əla-

qəyə girir, hansı ki ünsiyyət kimi təzahür edir. Dil abstrakt vasitə olduğundan ünsiyyət özü subyektin abstrakt təbiəti səviyyəsində baş verir.

3. Xəbərləşmə funksiyası: Bütün canlılar vəhdətdə vahid həyatı yaratdıqlarından, bir-birinə yaşam haqqında ən müxtəlif xəbərləri – öz bədən tələbatları, xarici təhlükələr və s. haqqında məlumat ötürürlər. Bu məlumatlar müxtəlif canlılarda müxtəlif formalarda, insanda isə əsasən dillə ötürülür.

4. İdrak funksiyası: Dil həqiqətin idrakında mühüm abstrakt vasitədir. Biz həqiqəti sözlərin iştirakı ilə ideya kimi ifadə edirik və həmin ideyalar vasitəsi ilə daha mürəkkəb həqiqətləri idrak etməyə cəhd edirik.

5. Biliyin totallaşdırma funksiyası: Bir fərdin əldə etdiyi həqiqət digərlərinin əldə etdiyi həqiqətlə dil vasitəsi ilə əlaqələndirilir və tədricən biliyin vəhdətindən həqiqətin totallığına cəhd edilir.

6. Biliyin saxlanc funksiyası: Dil bilik saxlanan saxlanc kimi çıxış edir. Əgər dilin saxlanc funksiyası olmasaydı, insan öz biliyini inkişaf etdirə və əldə etdiyi biliyi bir nəsildən başqa nəslə ötürə bilməzdi. Beləliklə, dil ümumi insanlıq yaddaşı rolunda çıxış edir.

Dil söz siqnallarından ibarət mürəkkəb kommunikasiya vasitəsidir və bütün məlumatlar mühitdən keçərkən entropiyaya uğradığı kimi, dil də mühitin entropiya təsirinə məruz qalır. Dilin hər bir funksiyası mühitin entropiya təsirinə müxtəlif dərəcələrdə məruz qalır. Dilin entropiyaya məruz qalmasının aşağıdakı səbəbləri vardır:

a. **Dillərin bölünməsi:** Hər bir xalqın özünəməxsus dili vardır və eyni bir həqiqət müxtəlif xalqlarda müxtəlif sözlərlə simvollaşdırılır. Buradan da söz bir dildən başqa dilə keçərkən bəzən uyğun mənada işlədilmir, nəticədə sözün fərqlimənalılığı meydana çıxır.
b. **Dilin tarixi inkişafı:** Tarix dil üçün entropiya mühitidir. Dilçilik elmi sübut edib ki, hər 300 ildən bir dil özünün lüğət tərkibinin 30%-ni dəyişir. Beləliklə, bir tarixi dövrdə yaranmış söz uzun illər işlənərək başqa bir tarixi dövrə başqa mənada keçir, buradan mənanın inkişafı meydana çıxır.

c. **Söz yaradıcılığının məhdud olması:** Hər bir dil müəyyən lüğət fonduna malikdir. Təcrübə göstərir ki, varlığın sonsuz çoxluğu ilə müqayisədə dilin lüğət fondu sonsuz söz imkanlarına malik deyil. Yəni sözlərlə mövcud şeylər arasında nəhəng say fərqi vardır. Bu iki yolla həll edilir: ya ümumi söz yaradılır və həmin söz eyni sıradan olan obyektləri ümumi şəkildə adlandırır (məsələn, "cisim" sözü cisim keyfiyyətlərinə malik sonsuz şeyin ümumi bir adıdır), ya da bir söz müxtəlif sıradan olan bir çox şeyləri özündə ifadə edir. Buradan sözlərin çoxmənalılığı yaranır.
d. **Sözlə mənanın uyğunsuzluğu:** Hər bir söz konkret məna ifadə edir. Lakin bəzən sözlərlə ifadə etdikləri məna arasında ziddiyyət yaranır və ya söz mənanı tam və dəqiq ifadə etməyə yetərli olmur. Buradan da sözlə məna arasında fərq meydana çıxır.

Bütün bunlar *C. Berklinin* qeyd etdiyi qüsuru – dilin elmə mane olmasına gətirib çıxarır. Dilin biliyin dəqiqləşdirilməsinə mane olan və həqiqəti dolaşığa salan əsas qüsuru sözün çoxmənalılığından doğur. Çoxmənalı sözlərdə məna daxili iyerarxiya təşkil edir, yəni sözün ifadə etdiyi mənalar sözlə müxtəlif dərəcədə uyğunluq təşkil edir. Söz yalnız birinci, ən sadə və ya həqiqi məna ilə eynilik təşkil edir. Digər mənalarla fərqli dərəcədə fərqlilik daşıyır. Ona görə də sağlam mühakimə aparmaq və həqiqəti düzgün aşkarlamaq üçün sözün birinci mənasını müəyyən etmək vacibdir. Biz bunu sözün çoxmənalılıqdan azad edilməsi kimi təyin edirik.

Epikurun yuxarıdakı fikirlərindən də görünür ki, biz yalnız sözün əsasında duran anlayışın – sözün birinci mənasının özündə nəyi ifadə etməsini dəqiqləşdirməklə həmin anlayış əsasında düzgün mühakimə apara bilərik. Sözün birinci mənasının təyini isə ya hissi qavrayışla təcrübəyə, ya da ağlın mümkünlüyü kimi təcrübədən kənar xalis zəkaya uyğun aparılmalıdır. O anlayışlar ki, təcrübəni şərh etmək üçün mövcuddur və ya bilavasitə təcrübədən çıxarılıb, bu zaman onları hissi qavrayışa uyğun, o anlayışlar ki, bilavasitə təfəkkürün özü-özündən meydana çıxır və mücər-

rəd həqiqətləri aşkarlamaq üçün istifadə olunur, onları yalnız xalis zəkanın qanunlarına, yəni mühakimənin alətlərinə uyğun mənalandırmaq lazım gəlir. Qeyd etmək lazımdır ki, *Aristotelin* "Metafizika"sı da məhz fəlsəfənin əsas anlayışlarının həm təcrübi, həm də xalis zəka anlayışlarının birinci mənasının müəyyənləşdirilməsinə həsr olunub. Metafizika haqqında rəy söyləmək, metafizik həqiqətlərin anlaşılmazlığını dəf etmək və ya metafizik predmetləri suallandırmaq üçün ilk növbədə bu anlayışın birinci mənasını müəyyən etməliyik, hansı ki onun əsasında sonrakı və gizli həqiqətləri düzgün və dəqiq aşkarlaya bilək. Metafizika təbiətdənkənar – hissin iştirak etmədiyi – həqiqətləri aşkarlamağa cəhd etdiyindən, onun birinci mənası yalnız xalis zəkanın qanunlarına uyğun tapıla bilər.

Metafizika iki sözdən – "**meta"** və **"fizika"** sözlərindən ibarət mürəkkəb söz olub, hərfi mənada "fizikadan (təbiətdən) sonra gələn" mənasını verir.

Metafizika anlayışındakı **"meta"** sözü *sonra*, *ötən*, *üstü* və *kənar* mənalarına malikdir.

1) Meta sözünün mənalarından biri "sonra"dır. "Sonra" həm məkanda, həm zamanda sıralanma baxımından, həm aydınlaşma – təzahür etmə, həm də idrak prosesində aşkarlanma ardıcıllığı baxımından sonranı özündə ifadə edir.

Haşiyə: *Aristotel*, "Metafizika"

"'Əvvəl' və 'sonra' haqqında bəzi şeylərə münasibətdə cümlədə deyilir. Hər bir halda nəsə birinci və bir qədər başlanğıc vardır və 'əvvəl' sözündən işarə edilmə bilavasitə və ya təbiətdən və ya nəyəsə, harasa və kiminsə nöqteyi-nəzərinə münasibətdə bəzi müəyyən başlanğıclara böyük yaxınlığı nəticəsində olur. Məhz, bəzi şeylər yerə münasibətdə işarə edilir. Bəziləri sonra belə işarələnməni vaxta görə alır. Bəzən bu işarələnmə hərəkət nöqteyi-nəzərindən tətbiq edilir. Nəhayət, bəzi şeylərə bu işarələnmə onların sırasına görə tətbiq edilir. Başqa mənada idraka görə əvvəl haqqında deyilir. Sonra 'o ki əvvəldir' kimi o şeylərin xüsusiyyətləri işarələnir ki, hansı ki əvvəldir."

Aristotelin fikirlərindən görünür ki, başlanğıcın təbiətinə işıq salan digər bir ifadə "əvvəl" və "sonra" sözləridir. Buradan da görünür ki, meta dolayısı ilə özündə həm də başlanğıc mənasını verir, hansı ki metafizikanın araşdırdığı mühüm problemlərdən biridir. Biz *Aristotelin* təyin etdiyi mənaları və öz əlavələrimizlə birlikdə bütünlükdə aşağıdakı növlərə ayırırıq:

A. Məkanda sıralanma mənasında "sonra": Belə "sonra" məkanla şərtlənməyə görə əvvəl və sonranın münasibətindən, yəni məkanda əvvəl və sonra, şeylərin məkanda sıralanma ardıcıllığını ifadə edir. Məkanla şərtlənməyə görə əvvəl və sonra təsadüfə görə başlanğıc mənasına malikdir. Buradan aşağıdakı mənalarda "əvvəl və sonra" ayırd edə bilərik.

Biri "əvvəl", başqası "sonra": Bəzi təbii mövcud olanlardan saymaqla və ya şərti tətbiq edilən başlanğıc mənasında. Biz belə əvvəli məkana münasibətə görə əvvəl və sonra adlandırırıq. Belə əvvəl və sonra təsadüfə görə başlanğıc mənasında işlənir. Biz bunun iki növünü təyin edə bilərik:

a. *Məkanda bir-birinə münasibətdə təsadüfə görə sıralanmada əvvəl və sonra:* Məsələn, iki ədədlər sırasını götürək: 1, 4, 3, 6, 10, 5. və 4, 1, 4, 8, 4, 9. Burada birinci təsadüfi ədədlər sırasında bir 4-ə münasibətdə əvvəl, ikinci təsadüfi sıralanmada 4 birə münasibətdə əvvəldir. Kaleydoskopik dünya şeylərin təsadüfi sıralanmasından təşkil olunduğundan, reallıqlar aləmində əvvəl və sonra təsadüfə görə başlanğıc mənasına malikdir. Bu mənada "sonra" Metafizikanın birinci mənasına daxil olmur, yəni metafizika bir aləm kimi bizim mövcud olduğumuz aləmlə məkanda sıralanmır və məkan yalnız həqiqi aləmin ən ümumi şərti kimi çıxış edir.

Məkanda bütün mövcudluqlar sıralar şəklində mövcuddur, əks halda bir şey başqasının "üzərində" olardı. Bu zaman biri başqasını öz arxasında gizlətdiyindən bəzi mövcudluqlar təzahür etməzdi. Bu da mövcudluğun mövcud olmasına zidd olardı. Başqa sözlə, sıra nizamlanmış kainatın əsas xarakteristikasıdır. Fərdi tək şeylər sıralandığı kimi, bütünlükdə Kainat da sıralanır və məkanda sıralanma dedikdə Kainatın da daxil olduğu

dünyaların sırası başa düşülür. Kainat bütün məkanı tutduğundan metafizika təbiətdən sonrakı konkret məkanda yox, abstrakt məkanda, yəni ümumi məkanların sıralanmasına görə təbiətdən sonra "o dünya" haqqında bilgilərdən ibarətdir.

b. *Subyektə münasibətdə məkanda təsadüfi sıralanmaya görə başlanğıc mənasında əvvəl və sonra:* Belə mənada "əvvəl və sonra" subyektin idrak prosesində sıranın hansı istiqamətindən yanaşdığını göstərir. Məsələn, A, B, V, D hərflər sırasını götürək. Əgər subyekt A-dan başlayaraq sıranı aşkarlayırsa, bu zaman "A" digər hərflərə görə subyektə münasibətdə əvvəldir, amma bir-birinə münasibətdə əvvəl D-dir. Yox əgər subyekt D-dən başlayaraq hərflər sırasını D, V, B, A kimi aşkarlayırsa, onda subyektə münasibətdə "D" əvvəl, amma hərflərin bir-birinə münasibətində A əvvəl kimi çıxış edir. Belə başlanğıc mənasında əvvəl və sonra təsadüfə görə idraka münasibətdə müəyyən edilir. Metafizikanın birinci mənası subyektə münasibətdə sonranı özündə ifadə edir. Yəni subyekt əvvəl məkanda özünə ən yaxından bilavasitə idraka təqdim olunan mütləq hissi qavrayışla real aləmi idrak edir, yalnız bundan sonra metafizika haqqında bilgilərə yiyələnməyə cəhd edir. Metafizika bu mənada təsadüfə görə subyektə münasibətdə təbiətdən sonradır.

B. Zamanda sıralanma mənasında "sonra": Bu mənada meta sözü əməlegəlmədə və ya yaranmada ardıcıllıq mənasında sonranı bildirir. Metafizika bu mənada "sonra" deyildir; yəni əvvəl həqiqi dünya, sonra metafizika yaranmamışdır. Əksinə, metafizika əvvəl, həqiqi aləm sonra yaranan mənasındadır. Zamanda şərtlənmə mənasında da əvvəl və sonra xüsusi mənalara malikdir. Belə əvvəl və sonra fakt və hadisələrin zamandan asılılığını özündə ifadə edir. Zamanda geridönməzliyə görə biz belə əvvəl və sonranı zərurətə görə əvvəl və sonra kimi təyin edirik. Bunun aşağıdakı növlərini ayırd etmək olar:

1. *Canlıların tabe olduğu vaxta görə əvvəl və sonra:* Belə əvvəl və sonra zamanda sıralanan varlıqları xarakterizə edir. Məsələn, ata oğlundan əvvəl doğulur. Zamanda geridönməzlik olduğundan zamanda əvvəl

olan sonra heç bir halda sonra olmur. Biz bunu "mütləq əvvəl və sonra" adlandırırıq. Mütləq əvvəl başlanğıcı – səbəbi, mütləq sonra nəticəni özündə təqdim edir. Metafizika bu mənada təbiətdən sonra mənasında deyil.

2. *Ruhun tabe olduğu tarixə görə əvvəl və sonra:* Hadisə və faktların baş vermə vaxtının tarixdə sıralanmasına görə əvvəl və sonra. Məsələn, bizim eramızdan əvvəl və s. Tarixi ardıcıllığa görə də metafizika təbiətdən sonra mənasını daşımır. Belə ki, ibtidai metafizika təbiət haqqında həqiqi bilikdən əvvəl meydana çıxmışdır.

C. Hərəkətə görə əvvəl və sonra: Bir hərəkətin başqa hərəkət yaratması mənasını verir. Məsələn, böyümə hərəkətində uşaqlıq həddi-buluğdan əvvəldir. Belə əvvəl və sonra işarələnməsi varlığın zamandan asılılığını – zamanda yerini özündə ifadə edir. Metafizika bu mənada da təbiətdən sonra mənasını daşımır. Yəni metafizikanın səbəbi təbiətdə yox, əksinə təbiətin səbəbi metafizikadadır. Başqa sözlə, metafizikanın hərəkəti təbiətin hərəkətinin əsasında durduğundan ondan əvvəldir.

D. İdrak nöqteyi-nəzərindən "əvvəl" və "sonra": Və ya təfəkkürün varlığa münasibətinə görə əvvəl və ya sonra. İnsan dərk edən varlıq kimi varlığın sonuncu təzahürüdür. Yəni varlıq əvvəldir, insan sonradır. Metafizika təfəkkürün varlığa münasibətində sonra olan təfəkkürdən bilavasitə aşkarlandığından bu mənada təbiətdən sonradır, belə ki, təfəkkür özü varlıqdan sonradır. Eləcə də, idrak prosesində predmetə münasibətdə əvvəl xarici görüntü – forma, sonra daxili görüntü – mahiyyət idrak edilir. Forma konkret olaraq təbiətdən, mahiyyət forma əsasında təfəkkürdən aşkarlanır. Bu mənada "meta" idrakın sonunda aşkarlananı – mahiyyətin varlığını, yəni qeyri-hissi (hissüstü) və qeyri-maddi (şeyüstü) qavranılanları özündə təqdim edir. Metafizik idrak fəlsəfi və elmi idrakdan keyfiyyətinə görə fərqlənir. Metafizik bilgilər təbiətdən əldə edilən irrasional və ya neqativ bilgilərin əksinə olaraq rasional və ya pozitiv bilgilərdir. Yəni metafizik bilgi yalnız ağlın özündən – təfəkkürün özü-özündə refleksiyasından meydana çıxır.

E. Təzahür ardıcıllığına görə əvvəl və sonra: Bu mənada meta varlıqların təzahür ardıcıllığını özündə ifadə edir. Belə ki, şüurlu insanda əvvəl cisim (bədən), sonra can (həyat), daha sonra ruh (fəaliyyət) təzahür etdiyindən, və ruh metafizik varlıq olduğundan, bu mənada metafizika özündə ruhu, fəaliyyət sferasını ifadə edir. Yəni təbiəti cisimlə canın totallığı kimi qəbul etsək, onda "fizikadan sonra" – metafizika, cisimlə candan sonra gələnlərdən, ruhdan alınan bilgilərdən ibarət olur.

F. Keyfiyyətlərin iyerarxiyasına görə "əvvəl" və "sonra": Hər bir şey təcrübədə özündə eyni zamanda bir yerdə həm öz orijinal həqiqətini, həm aid olduğu sıranın xüsusi həqiqətini, həm digər sıralardan olan şeylərlə vəhdətdə ümumi həqiqəti ifadə edir. Şeylər ayrılıqda təzahür edərkən əvvəl ən orijinal xüsusiyyətdən başlayaraq ümumiyə doğru digər xüsusiyyətlərini təzahür etdirir. Məsələn, metal əşyalar bərkdir. Burada əvvəl metallıq, sonra bərklikdir. Deməli, bərklik metallığa münasibətdə sonradır. Mayelər də donanda bərkiyir. Beləliklə, burada əvvəl əsas, sonra ikinci mənalarında işlənir. Əvvəl o xüsusiyyətdir ki, yalnız konkret əşyanı xarakterizə edir. Sonra o xüsusiyyətdir ki, birinci ilə şərtlənmiş təzahür edir. Metafizika bu mənada təbiətlə şərtlənmiş təbiətdən sonrakı mənasını verir.

2) Meta sözünün digər bir mənası "ötən"dir. Buradan da metafizikanı "təbiəti ötən" mənasında təyin edə bilərik. Burada "ötən" sözü bir şeyi buraxıb və ya keçib başqa şeyə keçmək mənasını verir. Bu mənada metafizika təbiətdən aydınlaşan həqiqəti buraxıb ondan yan keçərək növbəti həqiqəti aşkarlamağı özündə təqdim edir. Beləliklə, metafizika – təbiətə laqeyd qalaraq və ya onu idrak etmədən, ondan keçməklə növbəti həqiqətlərin axtarılması mənasını verir.

3) Meta sözünün bir mənası "üstü" olmaqdır. Buradan metafizika – *təbiətüstü* mənasını verir. "Üstü" səviyyəni, dərəcəni göstərir. Yəni bu mənada metafizika təbiətdən daha üstün olanı və buna görə də təbiəti yaradanı, onu idarə edəni və ya həqiqətləri təbiətin həqiqətlərinə görə daha ali olanı özündə ifadə edir. Digər tərəfdən, "üstü" təbiətin də daxil oldu-

ğu, amma təbiətdən fərqli olanların ümumiliyini özündə təqdim edəni bildirir, hansı ki metafizikanı "bütün bilgi istəyi" kimi təyin etməyə əsas verir. Bütün bilgi təbiət, ruh və Allah haqqında ən ümumi bilgidən ibarətdir.

4) Meta sözünün bir mənası "kənar" mənasını verir. Buradan metafizika – *təbiətdənkənar* mənasına gəlir. "Kənar" mənası təbiətdə aşkarlanması mümkün olmayan və ya təbiətdə aydınlaşmayanı özündə təqdim edir. Təbiətdənkənar olduğundan belə həqiqətlər təzahürlərdən, təcrübədən və hissi yolla qavranılmadan məhrumdur. Təbiətdənkənar olmaq təbiətin tabe olduğu qanunauyğunluqlara tabe olmayanı və ya təbiətə xas xarakteristikaları olmayanı da ifadə edir. Əgər təbiətin əsas xarakteristikası dəyişilmə, inkişaf, təkamüldürsə, onda metafizikanı dəyişilməyən, inkişaf etməyən və təkamülə məruz qalmayan bilgilərdən ibarət təyin etmək olar. Metafizika dəyişilməyən obyektlərdən həqiqəti aşkarladığından, *Hegelin* dediyi kimi, "antidialektik" və ya xalis sintetik təsəvvürlərdən ibarətdir.

Beləliklə, meta sözünün birinci mənasına görə, metafizikanın birinci xüsusi anlayışını aşağıdakı kimi təyin etmək olar:

Metafizika – məkanların sıralanmasına görə mücərrəd məkanla şərtlənmiş, subyektə münasibətdə təsadüfə görə təbiətdən sonra gələn, idrakın sonunda, keyfiyyət iyerarxiyasında ən sonuncu keyfiyyətdən, təfəkkürün özü-özündən, təbiətdənkənar qeyri-hissi və qeyri-maddi aşkarlanan, təbiətüstü mütləq sabit biliklər haqqında elmdir.

Metafizika terminin ikinci hissəsi – **fizika** sözü yunan dilində təbiət mənasında işlənir. Beləliklə, **Meta-fizika** fizikadan (təbiətdən) böyük və ya fizikadan (təbiətdən) sonrakı (ölçülülüyünə görə fizikanı da (təbiəti də) öz içərisinə alan mövcudluq haqqında) elm mənasını verir.

Təbiət sözü də özlüyündə bir anlayış kimi çoxmənalıdır və buna görə də metafizikanın həqiqi mənasını yalnız təbiət sözünün birinci mənasından təyin etmək olar.

Haşiyə: *Aristotel*, "Metafizika"

"Bir halda doğulan şeylərin meydana çıxması təbiət adlanır. Başqa halda, doğulan şeyin tərkibindəki, bu şeyin doğulduğu əsası bildirir: hər bir təbii şeyin ilkin hərəkətini aldığı mənbəni bildirir. Təbiətdən mövcud olan, hansısa şeydən əmələ gələn və ya ibarət olan əsas material təbiət adlanır; bu halda bu material formalaşmağa və öz gücü ilə dəyişilməyə qabil deyil. Başqa mənada təbiətdən mövcud olan şeylərin mahiyyəti təbiət adlanır. Deyilənlərdən göründüyü kimi, birinci və əsas mənada təbiət mahiyyətdir – məhz, hərəkətinin başlanğıcı özü-özündə olan şeylərin mahiyyətidir: məhz materiya onun (şeylərin) nəticəsi kimi təbiəti bildirir ki, o bu mahiyyətdən (formal) təyin edilmə qabiliyyətinə qabildir, müxtəlif növlərin əmələ gəlməsi və yayılma isə bu mahiyyətdən çıxan hərəkəti özündə təqdim edir."

Göründüyü kimi, *Aristotel* öz "Metafizika"sında təbiətin yeddi mənada şərhini vermişdir. *Aristotelin* təbiət haqqındakı fikirlərini təbiətin ayrı-ayrı mənalarına uyğun aşağıdakı kimi şərh etmək olar:

1. **Doğulan şeylərin meydana çıxması kimi təbiət:** Şeyləri işığa çıxaran əmələgəlmə və ya proses. Belə təbiət əmələgəlmə başa çatandan sonra meydana çıxır. Məsələn, doğulan uşağın erkək olması. Metafizika əmələgəlmə prosesində yox, yaranma prosesindən aşkarlananda təbiətdən fərqli həqiqəti özündə aydınlaşdırır. Yəni metafizikadan aşkarlanan qanunlar təbiət qanunları ilə fərqlilik təşkil edir.
2. **Doğulan şeylərin tərkibindəki, bu şeyin doğulduğu əsas kimi təbiət:** Şeyin əmələ gəldiyi əsas tərkib hissə. Məsələn, təbiətdəki bütün duzların əsas tərkib hissəsi metallardır. Turşu qalıqları qeyri-əsasdır. Çünki turşu qalıqları qeyri-metallarla (hidrogenlə) birləşdikdə duz yox, turşu əmələ gəlir. Bu mənada metafizik predmetlər doğulan şeylərin doğulduğu əsaslar haqqında bilgiləri özündə təqdim edir.
3. **Hər bir təbii şeyin ilkin hərəkətini aldığı mənbə kimi təbiət:** İstənilən hərəkətin mənbəyi. Məsələn, mexaniki hərəkət öz mənbəyini mexaniki enerjidən aldığından mexaniki enerji onun təbiətidir. Eləcə də istilik hərəkətinin təbiəti istilik enerjisidir. Metafizik hərəkətlərin

heç birinin mənbəyi təbiətdə deyil, əksinə ümumi təbiətin bütün hərəkətlərin ilkin mənbəyi metafizikadadır.

4. **Təbiətdən mövcud olan, hansısa şeydən əmələ gələn və ya ibarət olan əsas material kimi təbiət:** Məsələn, misdən hazırlanmış qılıncın təbiəti onun tərkibindəki misdən ibarətdir. Belə ki, qılınc başqa təbiətli, məsələn simvolik qılınc kimi taxtadan hazırlana bilər. Bu zaman qılıncın təbiəti taxta olur. Hər iki halda "qılınc" olmaq insan tərəfindən təbiətdən mövcud olana proyeksiya edilmiş qeyri-təbii formadır. Bu mənada metafizika təbiətdən mövcud olmayan, hansısa şeydən yox, təfəkkürün özü-özündən əmələ gələn kimi təbiətdən kənardır.
5. **Öz xüsusi gücü ilə dəyişmək qabiliyyəti olmayan, təbii şeylərin müəyyənləşməmiş materiyası:** Cisimlər öz xüsusi gücü ilə dəyişmək qabiliyyətinə malik deyildir. Amma istənilən cisim maddəyə malikdir. Maddə özlüyündə qeyri-müəyyən anlayışdır. Beləliklə, cisim bu mənada təbiidir. Metafizika öz gücü ilə dəyişmək qabiliyyətinə malik, materiyanı yaradan qeyri-maddi varlıq haqqında elmdir.
6. **Təbiətdən mövcud olan şeylərin mahiyyəti:** Bura hər bir şeyin xüsusi mahiyyəti aiddir. Mahiyyət – ideya haqqında məlumat daşıyan dalğanın entropiyaya məruz qalması ilə onun formaya keçməsini özündə təqdim edir. Başqa sözlə, təbii şeylərin forması və obrazı ilə vəhdət təşkil edən xalis fikri mahiyyət kimi təbiəti özündə ifadə edir. Metafizika mümkün mahiyyətdən xülasə həqiqəti aşkarlayır.
7. Təbiət mahiyyətdir – məhz, hərəkətinin başlanğıcı özü-özündə olan şeylərin mahiyyətidir (ümumiyyətlə istənilən mahiyyət təbiətdir): Təbiətdə real mövcud olan hər bir şey forma ilə mahiyyətin vəhdətində gerçəkləşir. Xalis forma heçlikdir. Buradan da forma təbiət kimi çıxış etmir. Amma formasız mahiyyət xalis varlıq təyini kimi gerçəkliyi özündə təqdim edir. Buradan da mahiyyət təbiətdə təyinedici rolda çıxış edir, yəni forma mahiyyətdən asılı olaraq təzahür edir. Metafizika mahiyyətdən xalis fikri aşkarlayır, başqa sözlə metafizika xalis fikir-

dir və metafizik formanı fikir müəyyən edir (məsələn, sənət əsərləri subyektin fikri ilə meydana çıxır).

Aristotelin təbiətin mənaları haqqında fikirlərini ümumiləşdirsək, təbiəti bütünlükdə hissi qavranılması mümkün olan mövcudluqların – maddi şeylərin məcmusu kimi təyin edə bilərik. Lakin təbiətdə həm də qeyri-hissi qavranılan maddi varlıqlar mövcuddur. Belə varlıqları ikincili hissi qavranılan və ya vasitəli hissi qavranılan maddi varlıqlar kimi təyin etmək olar. Məsələn, mikroorqanizmlər hissi qavranılmır və mikroskop kəşf olunanadək bizim mikroblar haqqında heç bir məlumatımız olmamışdır – yəni insan mikroorqanizmləri hissi qavramaq imkanından məhrum olmuşdur. Lakin mikroskop kəşf edildikdən sonra onlar da hissi qavranılmaya daxil olmuşdur. Vasitəli hissi qavranılan maddi şeyə həm də müxtəlif sahələr aiddir. Məsələn, biz maqnit və ya elektrik sahəsini bilavasitə hissi qavraya bilmirik, amma müxtəlif cihazların köməyi ilə həmin sahələr haqqında dolayısı ilə məlumat əldə edirik. Əslində təbiətin ən müxtəlif mənaları özündə müxtəlifləşmə, fərqliləşmə və nəhayət formalaşmağa məruz qalmasından asılı olmayaraq, maddi mövcud olan şeyləri özündə təqdim edir.

Buradan da təbiətdən sonranı – metafizikanı təbiət sözünün birinci mənasına görə onun ikinci xüsusi anlayışını aşağıdakı kimi təyin etmək olar:

Metafizika – doğulmayan və buna görə də meydana çıxmayan, doğulan şeylərin doğulduğu başlanğıc əsası təşkil edən, təbiət hərəkətlərinin ən ümumi mənbəyi olan, təbiətdə mövcud olmayan, yalnız təfəkkürün özü-özündən yaranan şeylərin əsas materialı kimi, öz xüsusi gücü ilə dəyişmək qabiliyyəti olan, təbii şeylərin müəyyənləşməmiş materiyasının əsasını təşkil edən, mümkün varlıqdan xülasə həqiqət kimi əldə edilən xalis fikir kimi elmdir.

Nəhayət, metafizika terminini təşkil edən ayrı-ayrı sözlərin birinci mənasına görə təyin etdiyimiz metafizikanın hər iki xüsusi anlayışını bir-

ləşdirməklə onların məcmusundan metafizikanın əsas təyinini əldə etmiş oluruq. Beləliklə:

Metafizika – məkanların sıralanmasına görə mücərrəd məkanla şərtlənmiş, subyektə münasibətdə təsadüfə görə təbiətdən sonra gələn, idrakın sonunda, keyfiyyət iyerarxiyasında ən sonuncu keyfiyyətdən, təfəkkürün özü-özündən, təbiətdənkənar qeyri-hissi və qeyri-maddi aşkarlanan, doğulmayan və buna görə də meydana çıxmayan, doğulan şeylərin doğulduğu başlanğıc əsası təşkil edən, təbiət hərəkətlərinin ən ümumi mənbəyi olan, təbiətdə mövcud olmayan, yalnız təfəkkürün özü-özündən yaranan şeylərin əsas materialı kimi, öz xüsusi gücü ilə dəyişmək qabiliyyəti olan, təbii şeylərin müəyyənləşməmiş materiyasının əsasını təşkil edən, mümkün varlıqdan xülasə həqiqət kimi əldə edilən xalis fikir kimi təbiətüstü mütləq sabit biliklər haqqında elmdir.

METAFİZİKANIN MÜMKÜNLÜYÜ

İdrak təcrübədə müəyyənlik xarakteristikasına malik obyektlər əsasında baş tutur. Metafizika ilə bağlı belə bir sual meydana çıxır: Metafizikanın müəyyənliyi vardırmı?

Müəyyənlik həqiqətin aydınlaşma xarakteristikasına aiddir və mövcudluq və mövcudolma ilə şərtlənmişdir. Müəyyənlik sözü *müəyyənin* (isim kimi), *mövcudluğun* (mövcudolması, yəni vəziyyət) keyfiyyətidir. Biz müəyyəni özü-özü üçün mövcud olan, onun müəyyənləşməsini isə başqası – özündənkənar üçün mövcudolma kimi, yəni təzahür etmə, özündə həqiqəti aydınlaşdırma kimi izah edirik. Müəyyənlik sözünün aşağıdakı mənalarını ayırd etmək olar:

1. Məlum olmaq: Bu mənada müəyyənlik özündə idrak olunmuşluğu bildirir. Yəni təcrübədə obyekt-subyekt münasibətində müəyyən obyektin subyektdə hissi qavrama ilə refleksiyasının başa çatması onun məlumluğunu meydana çıxarır. Metafizik statuslu obyektlər hissi qavrama ilə təfəkkürdə bilavasitə refleksiya olunmadığından, məlum deyillər, yəni müəyyənliyə malik deyillər.

2. Dəqiq olmaq: Hər hansı bir şeyin forması ilə mahiyyətinin vəhdəti onun dəqiqliyini təmin edir. Forma ilə mahiyyətin fərqi qeyri-dəqiqlik kimi təzahür edir. Metafizik statuslu obyektlərin forması olmadığından biz bu obyektlərdən əldə etdiyimiz məlumatın dəqiqliyini təsdiq edə bilmərik. Yəni metafizik statuslu obyektlər dəqiqliyə malik deyil.

3. Səliqəli olmaq: Səliqəli olmaq öz sərhədlərinə malik olmaq, başqa sərhədlərə yayılmamaq, başqasını öz sərhədinə buraxmamaq keyfiyyətini bildirir. Sərhəd yalnız hissi qavranılan maddi şeylərə xasdır. Maddi şeylər öz hallarını dəyişdikcə səliqəlilikdən səliqəsizliyə doğru meyl edirlər. Məsələn, bərk maddənin konkret sərhədlərini təyin etmək mümkündür, amma mayelərin keçici sərhədi olduğundan yalnız töküldükləri qabın sərhədlərindən dolayısı ilə nisbi sərhəd kimi təyin olunur, qazların isə ümumiyyətlə sərhədi olmadığından biz qaz qarışığında onları bir-birindən ayıra bilmirik. Səliqəlilik təbii şeylərin halına bağlı olduğundan, metafizik statuslu predmetlər maddilikdən məhrum olduğundan, hər hansı səliqəlilik keyfiyyətinə malik deyildir.

4. Müsbət olmaq: Müəyyən bilavasitəliyi, yəni başqasının iştirakı olmadan özü-özünü idraka təqdim etmə xarakteristikasını ifadə edir. Müsbətlik bilavasitəliyin təzahürüdür. Təbiətdə mövcud fenomenlər bilavasitə özü-özündə mövcuddur, buna görə də mövcudluğu olmayan və ya mövcudluğu aktuallaşmayan nəsə müəyyən deyildir. Müsbətlik həqiqətin aydınlaşmasının artma meylini özündə göstərir ki, bu da mümkünlüyün aktuallaşma imkanının artıq reallaşmasını özündə təqdim edir. Metafizik statuslu obyektlər xalis mümkünlük olduqlarından, onların müsbətliyi, yəni bilavasitəliyi yoxdur.

Təcrübə sahəsində idrak olunan hər şey "düşünən Mən"ə münasibətdə ondan kənardır. Yəni təbii olan, hissi qavranılan obyektiv gerçəklik yalnız "düşünən Mən"dən kənarda olduğu qədər idrak obyekti statusuna malikdir. Eyni ilə, bütün hissi qavranılanlara münasibətdə "düşünən Mən" onlardan kənardır və yalnız buna görə subyekt statusunda çıxış

edir. Buradan aydın olur ki, "düşünən Mən" obyektiv gerçəkliklərə – təbiətə münasibətdə metafizik varlıqdır, yəni təbii olanlardan kənardır.

Haşiyə: *Martin Haydeqqer*, "Varlıq və Zaman"

"Nə üçün metafizika insan təbiətinə xasdır? Metafizik təsəvvürlərə ilk yaxınlaşmada başqa varlıqlar arasında qabiliyyətlərlə təmin olunmuş mövcudluqdur. Bu hansısa şəkildə qurulmuş mövcudluqdur, onun 'təbiəti', onun varlığı özü-özündə 'nə' və 'necə' metafizikdir: animal (hissiyyatlı) və rationale (hissiyyatsız). Metafizika daxilində belə sərhədlərlə cızılmış insan mövcudluqla varlıq arasındakı aydın olmayan fərqliliyə bağlıdır."

M. Haydeqqerin fikirlərindən də göründüyü kimi metafizika birincili olaraq insanın varlığı ilə bağlıdır. Yəni insan mövcudluq kimi təbiətdə, varlıq kimi metafizik aləmdədir. İnsanın bu cür ikili mənsubiyyəti ona imkan verir ki, həm hissi qavrama ilə obyektiv gerçəklərdən – mövcudluqdan, həm də varlıqdan – metafizikadan, yəni özü-özündən qeyri-hissi yolla həqiqəti aşkarlasın. Özü-özündən metafizikanı insan yalnız o halda aşkarlaya bilər ki, onun metafizik təbiəti ilə həmin metafizik varlıqların təbiəti arasında eynilik olsun. Buna görə də insan özü ilə digər mövcudluqlar arasında, *M. Haydeqqerin* qeyd etdiyi "naməlum fərqliliyi" aşkarlamağa və onu dəf etməklə özü ilə eynilik təşkil edən digər metafizik predmetlərə çatmağa cəhd edir. Buradan da Metafizikanın ikincili müəyyənliyi meydana çıxır. İkincili müəyyənlik bilavasitəlikdən məhrum, yalnız dolayısı ilə idrak edilməsi mümkün olan müəyyənlikdir. Başqa sözlə, metafizikanın müəyyənliyi – insanın təbiətində aydınlaşan, amma dolayısı ilə təbiətin əksiliyi kimi aşkarlanan müəyyənlikdir.

Beləliklə, müəyyənliyin heç bir mənasında metafizik statuslu obyektlər bilavasitə müəyyən deyildir. Müəyyənliyin əksi qeyri-müəyyənlik olduğundan biz metafizik statuslu obyektlərin bilavasitə qeyri-müəyyənlik xarakteristikasına malik olduğunu deyə bilərik. Qeyri-müəyyənlik həqiqətə malik olsa da, bilavasitə özü-özündə həqiqəti aydınlaşdırmadığından idraka özünü təqdim etmir. Belə obyektlərin "özü" haqqında fikir söylə-

mək buna görə də mümkün olmur. Biz yalnız təbiətin müəyyənliyinin əksi kimi fikirlə onları aşkarlaya bilərik. Buna görə də, metafizikanın bilavasitə qeyri-müəyyənliyi ilə bağlı belə bir sual doğur: "Təbiətdən fərqli qanunlara tabe olan başqa bir aləm mövcuddurmu və ya mövcud ola bilərmi?" "Mövcuddur" sözü özündə bizim onu özündən bilavasitə təsdiq edə biləcəyimiz mənasını verir, yəni metafizika əgər mövcuddursa biz onu hansısa yolla onun özündən bilavasitə təsdiq edə bilərik. "Mövcud ola bilər" müddəası bizim bilavasitə təsdiq etmək imkanımızın olmamasını, amma mövcud olanlardan dolayısı ilə mövcud ola biləcəyini, yəni təcrübi müqayisə ilə aşkarlamaq imkanımızın olduğunu bildirir.

Beləliklə, müəyyənliyin bütün mənalarından görünür ki, metafizik statuslu obyektlər qeyri-müəyyəndir. Biz qeyri-müəyyənliyi **mümkünlük** adlandırırıq. Mümkünlük – bir həqiqətin mövcudluğunun bilavasitə, təcrübə ilə müqayisə etmədən, təklikdə təfəkkürdən aşkarlanmasını özündə təqdim edir; yəni ayrılıqda götürülmüş biliyin digər bütün biliklərlə vəhdətdən kənar aydınlaşma ehtimalını özündə təqdim edir. Buradan da iki cür ehtimal meydana çıxır: *İnandırıcı* və *inandırıcı olmayan* ehtimal.

- **İnandırıcı olmayan ehtimal:** O ehtimaldır ki, onun yoxluğu tam həqiqətin idrakına mane olmur və o yalnız bilavasitə idrak edilən kimi təsəvvür olunur. Belə ehtimala xurafatı aid etmək olar. Xurafat heçliyi bilavasitə idrakla dərk olunan kimi təsəvvür olunan ehtimallardan təşkil olunur.
- **İnandırıcı ehtimal:** O zaman həqiqətə uyğundur ki, ehtimal olunanın çatışmaması tam həqiqəti dərk etməyə əngəl olur, amma onun mövcudluğunu biz bilavasitə idrak edilən kimi təsəvvür edə bilmirik. Biz metafizikanı *inandırıcı ehtimali aləm* kimi təyin edirik. Yəni metafizik biliklər olmadan həqiqət tam dərk olunmur, metafizik həqiqətləri isə özündən bilavasitə aydınlaşdıran obyektlər yoxdur, buna baxmayaraq eyni zamanda inandırıcı ehtimal olunandır.

Haşiyə: *Fridrix Nitsşe*, "İnsani, həddən ziyadə insani"

"Metafizik aləm haqqında o başqa dünyadır, əlçatmazdır, başqa varlıqla çatılmayandır; bu inkar keyfiyyətləri ilə şey ola biləcəyindən başqa heç nə demək mümkün deyildir. Nə qədər ki, bütün metafizika üstünlüklə substansiya və iradənin azadlığı ilə məşğul olmuşdur, onu insanın əsas yanılmalarını şərh edən elm kimi qeyd etmək olar – yalnız belə elə ki, guya bu əsas həqiqət olmuşdur."

Haşiyə: *Fridrix Nitsşe*, "Bütlərin toranlığı və ya necə çəkiclə filosofluq edirlər"

"Necə 'həqiqi dünya' təmsil oldu; həqiqi dünya müdrik üçün əlçatandır, o, özü bu dünyadır. Həqiqi dünya indi çatılmayan, amma müdrik üçün həsrəti çəkiləndir. Həqiqi dünya əlçatmazdır. Həqiqi dünya – istənilən halda çatılmayandır. Həqiqi dünya – lazım olmayan ideyadır, inkar edilən ideyadır, onu ləğv edək. Biz həqiqi dünyanı ləğv etdik – hansı dünya qaldı? Bəlkə ehtimal olunan? Yox! Həqiqi dünya ilə biz həmçinin ehtimal olunanı da ləğv etdik."

Nitsşenin fikirlərindən onun həm həqiqi dünyaya, həm də ehtimali dünyaya nihilistik yanaşdığını və bu aləmlərdən birinin iradəvi inkarının digərini spontan inkar etdiyini görmək mümkündür. *Nitsşe* həm həqiqi dünyaya, həm də metafizikaya inamsız yanaşır, hər iki dünyanın bilgilərinin insan üçün əlçatmaz olması qənaətinə gəlir. Beləliklə, əslində *Nitsşe* həqiqi dünya ilə ehtimal olunan dünyanı vəhdətdə görür və birinin ləğvinin, idrak olunmazlığının, digərinin idrak olunmazlığına gətirib çıxardığını qeyd edir, buradan da nihilizmin başlandığını, həqiqi dünya haqqında yenidən ideya yaratmağı və bununla da ehtimal olunan dünya haqqında bilgi əldə etməyin vaxtı gəldiyini bildirir. Bundan fərqli olaraq, inandırıcı olmayan ehtimali dünya həqiqi aləmlə heç bir vəhdət təşkil etmədiyindən, birinin inkarı digərinin spontan inkarına səbəb olmur və ya birinin təsdiqi digərini spontan təsdiq etmir. Yəni, hər biri ayrı-ayrılıqda təsdiq və ya inkar oluna bilir.

Ümumiyyətlə, həqiqi dünya ilə yanaşı ehtimali dünya varmı və ya ola bilərmi? Ehtimali dünya, təcrübədən kənar dünya olduğundan, biz onun mövcudluğunu hissi qavranılan dünyadan aşkarlanan həqiqətləri bir kənara qoymaqla, yalnız mühakimə yolu ilə xalis zəkadan təsdiq və ya inkar edə bilərik. Belə ki, ehtimali dünyanın – metafizikanın varlığını bilavasitə bizim hissi qavranılan dünyamızla nə təsdiq, nə inkar edə bilmərik. Digər tərəfdən, biz ehtimali dünyanı inkar etdikdə spontan olaraq həqiqi dünya özü-özünə inkar olunur. Bunun əksinə, həqiqi dünyanın mövcudluğunu təsdiq etdikdə, ehtimali dünya spontan özü-özünə təsdiq olunur. Metafizikanın ontologiya və kosmologiya bölmələri məhz bu yolla metafizik həqiqətləri aşkarlamağa cəhd edir. Burada "spontanlıq" vəhdətdə olan tərəfin digər tərəflə əlaqəli inkişafını özündə təqdim edir. Bunu Amerika sosioloqu *U. C. Mak-Qayrın* "İn və Yanın tərəqqisi" nəzəriyyəsi ilə izah etmək daha düzgün olar. Bu nəzəriyyəyə görə əksiliklərdən birinin tərəqqisi digərinin tərəqqisinə, tənəzzülü digərinin tənəzzülünə gətirib çıxarır.

Haşiyə: *Epikur*, "Məktublar və fraqmentlər"

"Bizim bu dünyaya oxşayan və oxşamayan dünyalar sayca sonsuzdur. Belə ki, sayı sonsuz atomlar, hətta olduqca uzağa gedir. Beləliklə, dünyaların onlardan əmələ gələ biləcəyi və yaradıla biləcəyi belə atomlar nə tək bir dünyaya, nə məhdud sayda bizimki kimi olan və ya bizim dünyadan fərqli dünyalara sərf olunmayıb. Ona görə də dünyaların sonsuz sayda olmasına maneə olan nəsə yoxdur."

Epikurun fikirlərindən görünür ki, bizim dünyanın bir və yeganə dünya olmasını təsdiq etmək və əksinə, bizim dünyadan fərqli, həm də sonsuz sayda əmələ gəlmiş və yaradılması mümkün olan dünyaların mövcud olma ehtimalını inkar etmək üçün heç bir ciddi əsasımız yoxdur. Buradan da belə nəticə çıxır ki, dünyalar sonsuz saydadır və ya ola bilər və bu dünyalar həm bizim dünyaya oxşar – material, həm də ondan fərqli – qeyri-material ola bilər. İndi astronomlar bizim qalaktikadan uzaqda, milyardlarla qalaktikaların mövcudluğu ilə bağlı elmi faktlar əldə etmiş-

lər. Bizim dünya təbii şəkildə mövcud olan şeylərdən ibarətdir. Amma kimya elminin təbii maddələrin atomlarının yerini dəyişməklə təbiətdə mövcud olmayan yeni maddələrin – yeni keyfiyyətlərə malik sintetik maddələrin kəşfi, *Epikurun* atomların sonsuz sayda dünya yarada bilməsi ilə bağlı fikirlərini təcrübi yolla sübut etmişdir. Gələcəkdə sintetik maddələrdən də fərqli yeni qeyri-təbii materialların alınacağı şəksizdir. Genetika elmi irsiyyətin tabe olduğu qanunları öyrənərək, bu qanunları dəyişdirməklə geni dəyişilmiş yeni qeyri-təbii məhsullar istehsal etməyə və yeni növ canlı yaratmağa nail olmuşdur. Buna paralel, fizika elmi fiziki biliklərin ənənəvi sərhədlərini xalis zəka ilə keçərək, kvant fizikasını – bizim dünyadan fərqli qanunlara tabe olan başqa bir dünyanın – hissəciklər aləminin qanunlarını nəzəri yolla kəşf etmişdir. Beləliklə, artıq bizim həqiqi dünya ilə paralel kvant təbiətinin – kvant dünyasının – mövcud olma ehtimalı təsdiq olunmuşdur. Biz kvant fizikasını metafizikanın mövcudluğunun təsdiqi kimi qəbul edirik və metafizika ilə bağlı sonrakı mühakimələrimizi həm də kvant fizikasının əldə etdiyi həqiqətlərə əsaslanmaqla aparmağa cəhd edəcəyik.

Beləliklə, əgər yaşadığımız və idrak etdiyimiz müəyyən dünya varsa, onda ehtimal olunan dünya – həqiqi dünyanın mümkünlüyü kimi mövcud olan və ya ola biləcək qeyri-müəyyən dünya da vardır. Biz mövcud həqiqi dünyanı, dünyaların mümkünlüyünün yalnız bir imkanının reallaşması kimi və necə ki, biz metafizikanı bilavasitə idrak imkanından məhrumuq, onda metafizikanı yalnız xalis zəkadan idrak olunan, ehtimali dünya haqqında elm kimi təyin edirik. Metafizik predmetlər mövcudluqlardan fərqli olaraq yalnız bizdə ideya kimi vardırlar və *özündəşeylikdən* məhrumdurlar; hansı ki bundan fərqli olaraq real mövcudluqlar həm bizdən kənar özündə şey kimi, həm də bizdə ideya kimi vardır.

Haşiyə: Devid *Yum*, "İnsan təbiəti haqqında traktat"

"Metafizikada belə müddəa ümumi qəbul edilmişdir: şüura aydın təqdim edilən hər şey mövcud olma imkanının ideyasını özündə təqdim edir və ya başqa sözlə, bizim heç nədən təsəvvür etdiyimiz mütləq qeyri-mümkünlük deyildir. Biz necə obrazlaşdırsaq da, istənilən ideya hansısa varlığın ideyasıdır; hansısa varlığın ideyası istənilən ideyadır, bizim necəsə obrazlaşdırdığımızdır."

Biz *Yumun* formalaşdırdığı metafizik müddəanı belə təyin edirik: İdeyanın mümkünlüyü özündə mövcudolmanın mümkünlüyünü təqdim edir. Yəni, nə ki insan ağlında ideya kimi mümkündür, o mövcudolan kimi mümkündür; nə ki mövcudolan kimi mümkündür, onu təfəkkürdə ideyalaşdırmaq mümkündür. Bu müddəadan çıxıb demək olar ki, metafizika bizim onun haqqında təsəvvürlərə malik olduğumuz – metafizik ideyaları aşkarladığımız qədər – mümkünlüyə çevrilir.

Burada ideya kimi mümkünlük sağlam ağılda ideya kimi mümkünlüyü özündə təqdim edir. Belə ki, qeyri-sağlam insan ağlında xeyli ideyalar meydana çıxır ki, bunların heç biri metafizikanın predmeti ola biləcək mövcudolma mümkünlüyünü özündə təqdim etmir və ən yaxşı halda xurafatı təşkil edir. "Sağlam ağıl" ifadəsi özündə aşağıdakı xarakteristikaların məcmusunu təqdim edir:

1. **Ağılda yaranan ideyanın başqa ideyalarla və başqa şəxsin ideyaları ilə assosiasiya – vəhdət yaratması:** Bizdən xaricdə bütün reallıqlar vəhdətdə mövcud olduğu kimi, sağlam ağılda bütün ideyalar bir-biri ilə vəhdətdə meydana çıxır. Əgər şeylərin vəhdəti spontan mövcudolma aktı ilə paralel yaranırsa, ağılda ideyalar vəhdət təşkil edəcəkləri ideyaların spontan yaranmasını stimullaşdırır. Assosiasiya – vəhdət yaratmaq – bir ideyanın başqa ideyanı yaratması və ya bir ideyanın başqa bir ideya ilə birləşib daha mürəkkəb vahid ideya yaratmasını özündə ifadə edir. Sağlam ağlın belə ideyaları eyni məntiqə uyğun meydana çıxır. Əgər bir ideya bir məntiqlə, digər ideya başqa məntiqlə və ya məntiqsiz meydana çıxırsa, həmin ideyalar bir-biri ilə

assosiasiya yaratmır, yəni hər bir ideya ayrılıqda tək bir ideya kimi ağılda mövcud olur. Mövcudluqlar aləmində ayrılıqda tək bir şey reallıq olmadığı kimi, sağlam ağılda da ayrılıqda tək bir ideya həqiqəti özündə ifadə etmir. Əgər ağılda belə bir ideya yaranırsa, onda o irreallığın ideyası kimi, qeyri-sağlam ağlın ideyası olur. Məsələn, şizofreniklərdə ağılda ideyalar bir-birindən ayrılıqda mövcud olur və buna görə də ruhi xəstələrin heç bir ideyası özündə həqiqət daşımır.

2. **Sağlam ağlın bütün ideyaları eyni qanunlara uyğun formalaşdırılır:** Bu zaman əsas kimi hissi qavrayışda əldə edilmiş ideyaların formalaşdırılmasının tabe olduğu qanunlar çıxış edir. Belə ki, *D. Yumun* qeyd etdiyi kimi, "bizim bütün ideyalarımız bizim təəssüratlardan kopyalanıb" və əlavə etmək lazımdır ki, bizim qeyri-hissi qavrama ilə əldə etdiyimiz ideyalar da öz tabe olduqları qaydaları təəssüratları kopyalayan ideyaların qaydalarından kopyalayır. Ona görə də, sağlam ağlın bütün ideyaları eyni bir ümumi qaydalara uyğun yaranır. Qeyri-sağlam ağılda hər bir ideya orijinal qaydada formalaşdırılır və bu ideyalar hissi qavrayışdan əldə edilən ideyaların formalaşdırılmasından fərqli xaosa tabe olur.
3. **Tənqidi olması:** Hər bir sağlam ağılda meydana çıxan ideya başqa şəxslər tərəfindən müstəqil şəkildə tənqid oluna, inkişaf etdirilə, şərh edilə və izah edilə bilər. Başqa sözlə, sağlam ağlın ideyaları tənqididir və ehkama xas əlamətləri özündə istisna edir. Qeyri-sağlam ağlın ideyaları ehkam kimi meydana çıxır və dini ehkamın ideyalarından onunla fərqlənir ki, dini ehkamın bütün ideyaları bir-biri ilə əlaqələnərək sistem təşkil edir. Qeyri-sağlam ağlın ehkamları arasında heç bir əlaqə olmadığından sistem yaranmır.
4. **Mənbəyi:** Sağlam ağıl ya hissi qavrayışdan, ya qeyri-hissi qavrayışdan əldə edilmiş ideyalara malik olur. Qeyri-sağlam ağlın ideyaları hissi və qeyri-hissi qavrayışın mexaniki aqreqasiyası kimi meydana çıxır. Bunun klassik nümunəsi xurafatdır. Xurafat hissi qavranılanlarla qeyri-hissi qavranılanların qurama ideyalarından təşkil olunur.

5. **İctimailik:** Sağlam ağlın ideyaları ictimai xarakteristikaya malik olduğundan ictimai şüurun ideyalarına çevrilir. Bununla da başqaları tərəfindən inkişaf etdirilir və başqalarının belə ideyaları ilə birləşərək daha mürəkkəb ideyalar yaradır və bu ideyalar tarixi inkişaf qabiliyyətinə malik olur. Qeyri-sağlam ağlın heç bir ideyası ictimai şüurun ideyası kimi çıxış etmir, tarixilikdən və başqaları tərəfindən inkişaf etdirilmə imkanından məhrumdur.

METAFİZİKANIN TƏYİNİ

İdrak olunmuş həqiqətin subyekt tərəfindən konkret obyektə müncər edilməsi təyin kimi meydana çıxır. Təyin etmək həqiqətin aşkarlanmasının əsas xarakteristikasıdır. Başqa sözlə, hər hansı bir obyektin özündə hansı həqiqəti aydınlaşdırmasının təfəkkürün özü-özündə aşkarlaması həmin obyektin təyini kimi meydana çıxır. Təyin etməyin əsası təyindir. Təyin – mahiyyət, onun nəticəsi və törəmələri; təyin etmək – həll etməyi, qərara gəlməyi, qərar hazırlamağı, hökmü, nəyinsə müəyyən əlamətlərinin mahiyyətinin qısa izahını, aydınlaşdırmanı, başa salmanı bildirir. Beləliklə, təyin mahiyyət, onun nəticəsi və törəmələri obyektlə, təyin etmək subyektlə şərtlənir. Təyin etməyin aşağıdakı mənalarını ayırd etmək olar:

1. **Nəyi nəyə aid etmək olar:** Bu mənada təyin etmək nəyinsə müəyyən əlamətlərini həmin şeyin mahiyyətinə aid etməyi bildirir. Yəni idrak prosesində hissi qavrama ilə bizə məlum olan əlamətlərdən həmin əlamətlərin şərtləndiyi mahiyyəti şeyə aid etməklə onu təyin edirik. Metafizik statuslu obyektlərin əlamətləri olmadığından bu mənada biz onları təyin edə bilmərik.
2. **Nəyi nəyə görə bilmək olar:** Bu yolla təyin vəhdətdən aşkarlanan həqiqətlərə aiddir. Belə ki, vəhdət təşkil edən şeylər təcrübədə bir-birindən izah oluna bilər. Bu mənada metafizik statuslu obyektləri təyin etmək olmaz.
3. **Kimi nəyə təyin etmək olar:** Belə təyin xalis subyektə aid təyin olduğundan metafizikanı belə təyin etmək olmaz.

4. Kimə harada və nəyə görə yer vermək olar: Bu da subyektlə bağlı təyindir.
5. **Nəyi nə ilə izah etmək olar:** Şüurun bütün formalarının özünə xas instrumentləri vardır və hər bir şüur forması nəyi məhz həmin instrumentə görə təyin edir. Cari şüurun instrumenti *ad*, elmi şüurun instrumenti *elmi anlayışlar-terminlər*, fəlsəfənin instrumenti *sözün mənası*, metafizikanın instrumenti isə *xalis fikirdir*.

Beləliklə, biz metafizikanı fikirlə təyin edə bilərik, yəni təfəkkürün özü-özündən aşkarlanan xüsusi fikirləri metafizik statuslu obyektlərə aid etməklə onları təyin etmiş oluruq.

Metafizikanın təyini belə bir suala cavab verməlidir: Metafizik həqiqətləri biz təfəkkürdə hansı həqiqət kimi yəqinləşdiririk? Təyin – idrakın predmetə uyğunluğunu özündə təqdim edir. Yəni metafizikanın təyini dedikdə biz metafizikanı onun necə təzahür etməsindən asılı olmayaraq, abstrakt şəkildə bizim onu necə təsəvvür etdiyimizi – aşkarladığımızı bildirir. Metafizika, fəlsəfə qədər, bəlkə də ondan da qədim anlayış olsa da, bu günə kimi onun fəlsəfə kimi dəqiq və birmənalı təyini verilməmişdir. Metafizika ayrıca bir bilik sahəsi kimi formalaşmadığından metafizika ilə bağlı ideyalar, bir qayda olaraq, fəlsəfi fikirlərlə birlikdə meydana çıxmışdır. Bəzi filosoflar metafizikanı həm dar mənada – yalnız Allah ideyası ilə eyniləşdirmiş və buna görə də metafizika haqqında biliyin əldə edilməsinin mümkünsüzlüyünü iddia etmiş, bəziləri onun sərhədlərini varlığa və mövcudluğadək genişləndirmiş, bəziləri isə metafizikanı xurafatla eyniləşdirərək ona ciddi yanaşmamışlar.

Metafizikanın az-çox ağlabatan təyini *İ. Kant* tərəfindən "Xalis zəkanın tənqidi" traktatında verilmişdir. *İ. Kanta* görə: "Xalis zəkanın fəlsəfəsi. xalis zəkanın (elmlərin sistemi kimi), yəni sistematik rabitədə xalis zəkaya əsaslanmış (həqiqi və ən azından) fəlsəfi bilik metafizika adlanır. Bundan başqa, bu terminlə, a priori dərk oluna biləcək, hər şeyi əhatə etmək və tədqiq etmək üçün, tənqid də daxil olmaqla, bütün xalis fəlsəfəni adlandırmaq olar". *Kantın* təyinində "xalis fəlsəfə" ifadəsini necə başa

düşmək olar? Fəlsəfə sözünün mənası aydın olduğundan "xalis" sözünün özündə nəyi ifadə etməsini dəqiqləşdirmək lazımdır. Ümumiyyətlə *Kantda* "xalis" sözü heç bir təcrübi qarışığı olmayan, yəni təcrübənin entropiyasından tam azad edilmiş mənasını verir. Beləliklə, xalis fəlsəfə – təcrübəni istisna etməklə, ən sadədən əldə edilən ən ümumi həqiqət haqqında bilgi mənasını verir; hansı ki klassik fəlsəfə bu bilgini entropiyaya və emanasiyaya məruz qalmış, təbiətdən, cəmiyyətdən və idrakın qanunlarından əldə edir. Şey nə qədər sadə, bəsit və adidirsə, bir o qədər onu ümumi və ayrıca qaydada təyin etmək çətindir. Metafizika bəsitliyin hüdudlarından da kənarda olduğundan ondan ayrıca təyin mümkün deyil. Ona görə də biz metafizikanı yalnız vəhdətdə təyin edə bilərik. Vəhdət çoxluğun vahid təşkil etməsini özündə təqdim edir. Buradan da metafizik ideyalar hamısı vəhdət kimi təyin oluna bilər. Buna görə də, xalis fəlsəfənin əldə etdiyi biliklər klassik fəlsəfənin əldə etdiyi bilgidən daha "xalis" olur. Metafizikanın əhəmiyyəti məhz onun belə "xalisliyi" ilə bağlıdır. Beləliklə, biz Metafizikanı vəhdətin, təkin, həqiqəti haqqında xalis elm kimi təyin edə bilərik. Tək kimi Allah, Ruh, Kainat (yəni Kosmos) və Varlıq çıxış etdiyindən metafizikanın təyini məhz özündə bu dörd təkliyin həqiqətlərini ifadə etməlidir.

METAFİZİK BİLİKLƏRİN ƏLDƏ EDİLMƏ CƏHDİNİN SƏBƏBLƏRİ HAQQINDA

Bu məsələni şərh etməmişdən əvvəl ümumiyyətlə insanın biliyə cəhdi ilə bağlı qısa şərh vermək lazım gəlir. İnsan, bütün digər canlılar kimi, bədən tələbatlarına uyğun müxtəlif instinktiv cəhdlər edir və bu zaman həmin cəhdlərin səbəbi özündə immanent meydana çıxır. Yəni insan aclıq, susuzluq hiss etdikdə qida axtarır və ya nəsilvermə tələbatı yarandıqda onu təmin etmək üçün xüsusi fəaliyyətdə olur. Bu cəhdlər bütün canlılar üçün xarakterik olsa da, insan heyvanlardan fərqli olaraq, bədən və ruhun ittifaqında mövcuddur və bu da ona gətirib çıxarıb ki, mövcud insanın bir tərəfi öz tələbatını ödədikdə digər tərəfi də ondan asılı olaraq öz

tələbatını ödəyir. Məsələn, qidalanma prosesində – qidanın axtarılıb tapılması, əldə edilməsi və onun qəbul edilməsində – Ruh bu prosesdən bir çox biliklər əldə edir. Əksinə, ruhun əldə etdiyi biliklər bədənin öz tələbatlarının daha geniş və tam dolğunluqla təmin edilməsində istifadə olunur. Məhz bu sonuncunun bariz nümunəsi elmdir. Elm insanlığın hansısa xüsusi marağını təmin edəcək biliklər əldə etməyə cəhd edən ictimai şüurun bir formasıdır. Biz bunu körpə uşaqların ilk tanış olduğu hər şeyi ağızlarına aparmasından da müşahidə edirik; belə ki, bu hərəkətlər başlanğıcda biliklə qidanın eyni yerdən və eyni zamanda qəbul edildiyini göstərir. Vital həyatın sonrakı dövrlərində, heyvanlardan fərqli olaraq, ağızla reallaşdırılan iki funksiyanın – biliklə qidalanmanın vəhdətinin pozulması və onların iki fərqli və bir-birindən ayrılıqda icra edilən hərəkətə bölünməsindən xüsusi bir funksiya – *xəbərləşmə funksiyası* (biliyin başqalarına ötürülməsi) inkişaf edir. Nəticədə, ağzın biliklənmədə iştirakı ilə heyvanlarda müşahidə edilən ağzın qidalanma ilə bağlı bir çox funksiyalarının insanda yuxarı ətraflara – ələ keçməsini stimullaşdırmışdır. Beləliklə, biliklənmə insanı heyvanlardan fərqləndirən xüsusi ruhi tələbatının təzahürüdür. İnsan biliklənməklə öz Ruhunu aktuallaşdırır. Ruhun aktuallaşması onun bədəndən fərqlənməsi, bədəni yadlaşdırması və özünə xas atributları daha təkmil təzahür etdirməsi kimi meydana çıxır. Beləliklə, Ruh bilik vasitəsi ilə mövcud olduğu təbiətdən, özünün mümkün varlığının müstəqil təzahür edə biləcəyi mümkünlüklər aləminə – bədənlə vəhdət təşkil etməmişdən əvvəl olduğu aləmə – qayıtmağa cəhd edir.

İnsanın biliyin ali formasının əldə edilmə üsulu kimi fəlsəfəyə, o cümlədən metafizikaya cəhdini *M. Haydeqqer* alman romantik şairi *Novalisin* **"Fəlsəfə, xüsusən, xiffətdir, evdə olmağa hər yerdə çəkməkdir"** fikri ilə izah etməyə cəhd etmişdir. Biz də əlavə fikrə müraciət etmədən *Novalisin* fikrini mənalandırmaqla metafizika haqqında təsəvvürlərimizi inkişaf etdirməyi məqsədəuyğun hesab edirik. Beləliklə, *Novalisin* fikrindəki iki məsələni şərh edək:

1. **“Hər yerdə evdə olmağa çəkmək”:** Fikrin bu hissəsindəki əsas ideya “ev” sözündə verilmişdir. Fikirdəki “ev” sözü bir neçə mənaya malikdir. Birinci mənada, ev insanın zərurətə görə həmişə olduğu və ya olmalı olduğu ocağı, yalnız təsadüfə və ehtiyaca görə tərk etdiyi başlanğıc və ya ilkin məkanı – məskəni, yeri bildirir. Filosofluq ruha xas olduğundan buradakı ev sözü də yalnız ruha aid ev kimi qəbul edilməlidir. Beləliklə, bunu nəzərə alaraq *Novalisin* fikrini belə şərh etmək olar ki, fəlsəfə insanın – Ruhun mümkünlük kimi azad mövcud olduğu və buna görə də zərurətə görə cəhd etdiyi metafizik aləmə xiffətindən yaranır; yəni insan metafizikaya qayıtmaq naminə biliklənir, o cümlədən fəlsəfə ilə məşğul olur. İkinci mənada ruh xalis mümkünlük kimi mümkünlüyün bir imkanının aktuallaşması ilə məhrum olduğu bilgini yenidən özünə qaytarmaq – özü-özündə tamlaşmaq naminə biliyə cəhd edir. Bu mənada ev özündə Ruhu – “özündə dünyanı” ifadə edir, hansı ki metafizik aləm kimi mövcuddur. Mövcudluq isə “hər yerdə” olandır, hansı ki ruh hər bir mövcudluqdan aldığı bilgini evə – ruha qaytarır. Üçüncü mənada “ev” yaxınlarla – ailə şəklində bir tam kimi yaşam formasını özündə təqdim edir, hansı ki cəmiyyətin sonrakı bütün birliklərinin prototipi kimi mövcuddur. Beləliklə, bu mənada “evə qayıtmaq” tama qayıtmaq, insan birliyinə daxil olmaq mənasını verir. Yəni burada ailə insanlıq ailəsi kimi yozulmalıdır. *M. Haydeqqer* də məhz evi “həmişə və başlıcası tamda” olmağı ifadə etdiyini qeyd etmişdir. Göründüyü kimi, *Novalisin* fikrindəki ev sözünün hər üç mənası metafizika ilə bilavasitə bağlıdır.
2. **Hər yerdə evdə olmağa çəkən “xiffət”:** Xiffət ruhun özü-özündən meydana çıxan qeyri-maddi qavranılan hissdir. Bu sözün də bir neçə mənası vardır. Birincisi, bu söz özündə əvvəli yada salmaqla, ora dartınmağı, həsrəti, qəribsəməyi ifadə edir. Əgər biliyin əldə edildiyi bu dünya sondursa, onda başlanğıc bilik sahəsindən kənardadır, yəni metafizik aləmdədir. Deməli, xiffət insanı metafizik aləmə qayıtmaq məqsədi ilə filosofluq etməyə məcbur edən hissdir. Başqa sözlə, xif-

fət başlanğıca qayıtmaq hissidir. İkincisi, xiffət qəribsəmək mənasını verir. Qəribsəmək öz doğma yerində – zərurətə görə olmalı yerdə təsadüfə görə olmamağın hissidir. Yəni insanın "ev üçün xiffəti" olmalı yerdə olmamağından, qəribsəməsindən doğur. İnsan nə üçün qəribsəyir? Mümkünlüyün bir imkanı kimi mövcud varlıq xalis mümkün varlıq üçün tamamilə yad və naməlumdur. O öz aləmindən bu yad aləmə düşdüyündən öz evi üçün darıxır və bu darıxmaqlıq onu naməlum dünyanı – mövcud dünyanı öyrənməyə məcbur edir. Beləliklə, xiffət Ruhun metafizik aləmə keçid cəhdinin hissidir, hansı ki insan bu hiss altında filosofluq edir.

İnsanın əbədi evi gəldiyi aləmdir, hansı ki sonda da o aləmə qayıdır. Amma əvvəl və son arasındakı ortada Ruh mövcud dünyada olduğundan, öz dünyasına yad olan bu dünya ilə mübarizə aparır, onun əsarətindən çıxmağa cəhd edir və bunu biliklənmə ilə reallaşdırır. Biliklənmə mücərrəd ölümdür. İnsan nə qədər çox biliyə malikdirsə, bir o qədər mövcud təbiətin ağasına çevrilir və ondan azad olur. Mövcud təbiətdən nə qədər azad olursa, bir o qədər metafizik aləmə, hətta yaşaya-yaşaya, keçə bilir. Bəs nə üçün insan təbiətdən əldə etdiyi biliklərlə kifayətlənmir və nəyə görə metafizik bilgilər əldə etməyə də cəhd edir? Bu sualın cavabı şüurlu insan varlığının təbiətindədir.

Var olmaq – məqsədi olmaq deməkdir. Hər bir varlığın əsas məqsədi özünün mövcud olmasıdır. Məqsədsiz heç bir varlıq mövcud deyil. Buna görə də, hər bir varlığın mövcudluq üsulu onun məqsədi ilə şərtlənmişdir. Mütləq məqsəd – sonsuz (məkanla şərtlənmədən azad) və əbədi (zamanla şərtlənmədən azad) nəhayətsiz mövcudolmaqdan ibarətdir. Mövcudluqlar məkan və zamanla şərtləndiyindən, onların məqsədi mütləq məqsəd istiqamətində nisbi məqsəddir. Nisbi məqsəd mütləq məqsəd istiqamətində – sonsuz və əbədi mövcudluğa cəhddən ibarətdir. Hər bir varlıq formasının özünə xas mövcudluq üsulu vardır. Biz, ümumiyyətlə üç müstəqil başlanğıca, amma ortaq mövcudluq formasına malik, üç mümkün varlıq – cisim, can və Ruh ayırd edirik. Mümkün varlıq anlayışı özündə varlığı ağıl-

la təsəvvür edilə bilən, ideyası şüurda fikir kimi formalaşdırıla bilən, istənilən idrak obyektini təqdim edir.

Mümkünlük anlayışının bir çox mənası vardır. Birinci məna – idraka münasibətdə mümkünlük. Belə mümkünlüklər ağılla təsəvvür olunmanı göstərir. İkinci məna – varlığa münasibətdə mümkünlük. Belə mümkünlük predmetin varlığa münasibəti ilə müəyyən olunur. Bunun da öz növbəsində üç forması vardır:

a. Hissi maddi varlığın əksiliyi kimi qeyri-hissi və qeyri-maddi varlığın mümkünlüyü (bura Ruh aiddir).

b. Hissi maddi varlığı istisna edən qeyri-hissi maddi varlığın mümkünlüyü (bura sahəni ayırd etmək olar).

c. Ümumi varlığı inkar edən mümkünlük (bu İlahi varlığın mümkünlüyü kimi mövcuddur).

Hissi maddi varlıqların mümkünlüyü də öz növbəsində bir neçə cürdür:

1. **Zamanla şərtlənməyə görə mümkünlük:** Cisimlər zamanla bir momentli şərtləndiklərindən zamanda mütləq mümkünlük – əbədi varlıqlar kimi mövcuddurlar. Canlılar zamandan çoxparametrli şərtləndiklərindən keçicidirlər və buna görə də keçici mümkünlüklər kimi mövcuddurlar. Ruh zamanla şərtlənmədiyindən, vaxta görə mümkünlük xarakteristikası yoxdur.
2. **Məkanla şərtlənməyə görə mümkünlük:** Konkret forması – sabit, özünə xas məkani ölçülüyü olan mümkünlük (bura bütün bərk cisimlər aiddir). Məkanla dəyişkən, başqasına xas (töküldükləri qabın forması kimi) məkan ölçülüyü olan mümkünlüklər (bura bütün mayelər aiddir). Konkret məkani ölçülüyü olmayan mümkünlük (bura bütün qazlar aiddir). Özündənkənar məkan ölçülüyü olan, yəni başqa predmetlərin ölçülüyünə proyeksiya edilmiş abstrakt ölçülüyü olan mümkünlük (bura ruh aiddir).

Cismin mövcudluq üsulu, yəni sonsuz və əbədi varolmağa cəhdi, özündə öz mövcudluğunu davam etdirməkdən ibarətdir. Mövcud olma

başqasında refleksiya etmək və başqasını özündə refleksiya etmənin vəhdətindən ibarətdir; yəni özünü başqasında refleksiya etməyən (yəni onda özünü inkar etməyən) və ya başqasını özündə refleksiya etməyən (yəni özündə başqasını istisna etməyən) və özü-özünü təsdiq etməyən heç nə mövcud olmur. Beləliklə, mövcud olmaq özünə və başqasına münasibətdə meydana çıxır. Cisimlər məkanla bir momentli, çoxparametrli, zamanla bir momentli, bir parametrli şərtləndiklərindən yalnız məkani şərtlərin dəyişilməsi onların mövcudluğuna təhlükə törədir. Ona görə də cisimlər məkandan gələn təsirlərə əks-təsir göstərərək öz mövcudluqlarını davam etdirirlər. Buna görə də, cismin daxili gücü öz varlığını saxlamaq naminə xarici gücləri dəf etməyə, məkanda başqa mövcudluqları sıxışdırmağa, onları istisna etməyə, yəni məkanla daha çox şərtlənməyə istiqamətlənib. Buradan da bizim həqiqi maddi dünya bir tam kimi özü-özünü təsdiq və metafizikanı inkar etməklə mövcud ola bilir.

Canlılar cisimlərin əsasında ikincili yaranışlar kimi mövcuddur və cisimlərdən mövcudluq üsuluna görə kəskin fərqlənirlər. Buna görə də, canlılar həm cisimlərin tabe olduqları qanunlara entropiyaya məruz qalmış formada tabe olur, həm də cisimlərdən fərqli olaraq məkanla bir momentli bir parametrli, zamanla bir momentli, çoxparametrli şərtləndiyindən, daha çox zamanda şərtlənməklə öz mövcudluqlarını davam etdirməyə cəhd edirlər. Canlıların zamandan çoxparametrli asılılığı həyat kimi təzahür edir. Bioloji varlıqların həyatı qısa olduğundan zamanla şərtlənmələri məhduddur, bu məhdudluq nəsil verməklə dəf edilir. Beləliklə, canlıların əbədi mövcudluğa cəhdi özündən olan başqa varlıqla – nəsillə aktuallaşır. Buradan da, canlılar transsendental mövcudluqlar kimi mövcud olurlar. Canlıların mövcudluğuna təhlükə həm məkandan – onunla eyni məkanı bölüşdürən digər canlılardan, həm də zamandan gəlir. Buna görə də, canlılar öz mövcudluqlarını təhlükəyə salan xarici güclərə daxili gücləri ilə cavab verirlər, həm də zamandan gələn təhlükələri dəf etmək üçün bir çox bioloji hərəkətlər – artma, böyümə, çoxalma və s. təzahür etdirirlər.

Ruh cismani olmadığından bilavasitə zaman və məkanla şərtlənməmişdir. Məkan və zamanla şərtlənmədiyindən bədəndən kənar Azad Ruhun heç bir qanunu yoxdur, yəni Ruh xalis mümkünlükdür. Heç bir qanunu olmadığından, biz bədəndən kənarda Ruhu idrak etmək imkanına malik deyilik. Ruh yalnız bədənlə şərtləndikdə bədəndən təzahürlərinə görə, dolayısı ilə aşkar olunandır. Beləliklə, Ruhun mövcudluq üsulu özündən – canlılıqla ortaq şərtləndiyi bədəndən – kənar təzahür etməyə cəhddən ibarətdir. Ruh bədəndən kənar təzahür üçün digər varlıqların – cisimlərin və canlıların özündən təzahür qanunlarına – onların həqiqətlərinə istinad edir. Yəni bədənlə şərtlənmiş Ruh yalnız təbiətdəki varlıqların qanunlarını özündə refleksiya etdirməklə özünü təsdiq, onları isə inkar etmiş olur, yəni mövcudluğa çevrilir. Ruhun mövcudluğu buna görə də dolayısı ilə insanın idrak prosesində əldə etdiyi bilgidən müəyyənləşir. Bilgi ruhun təzahür forması olduğundan, istənilən ruhlu insan biliyə malikdir və ya biliyə cəhd ruhun mövcud olmasının təzahürüdür.

Haşiyə: *Aristotel*, "Metafizika" *"Bütün insanlar təbiətdən biliyə cəhd edir."*

Təbiətlə bağlı cəhd istənilən varlığın əsas xarakteristikası hesab edilməlidir. Əgər *Aristotelin* yuxarıdakı fikirlərini qəbul etsək, həqiqətən də bu belədir, onda insanın heyvani təbiətindən fərqli və onu digər canlılardan fərqləndirən başlıca keyfiyyətini biliyə cəhd kimi dəyərləndirə bilərik.

Haşiyə: *Martin Haydeqqer*, "Varlıq və Zaman"

"Mövcudluğa istənilən münasibət beləliklə varlığın hansısa biliyini, amma eyni zamanda özü-özündə bu biliyin həqiqətinin qanununda durmaq qabiliyyətsizliyini sübut edir. Bu həqiqət mövcudluq haqqında həqiqətdir. Metafizika bu həqiqətin tarixidir."

M. Haydeqqerin fikirlərindən görünür ki, mövcudluğa bilik kimi münasibət tarixidir və bu biliyin tarixi metafizikadır. "Həqiqətin tarixi" özündə nəyi ifadə edir? Tarix – sürəkli aydınlaşan həqiqətin tamlığını özündə təqdim edən xüsusi şüur formasıdır. Başqa sözlə, insanlıq tarixi

insan ruhunun yaranması, onun tək bir varlığa çevrilməsini özündə əks etdirir. *Aristotelə* görə tam – əvvəli, ortası və sonu olandır. Əgər mövcud insan tam insan varlığının yalnız ortasını özündə təqdim edirsə, onda istənilən mövcud insanın təcrübədən aşkarladığı nisbi həqiqət yalnız tam həqiqətin ortası olacaqdır. Onda tam həqiqətin əvvəli və sonu təbiətdən kənarda, mövcud insanın bilavasitə dərk edə bilmədiyi aləmdə yerləşməsini qəbul etməliyik. Yəni, Tam Həqiqətin tarixinin əvvəli və sonu metafizikada, yəni təbiətdən kənarda, yalnız ortası təcrübədədir. Buna görə də, bir elm kimi metafizika həm təbiətdən əvvəli (yəni həqiqətin başlanğıcını), həm də təbiətdən sonranı (həqiqətin sonunu) öyrənməlidir, hansı ki təcrübədən əldə edilmiş bilgi ilə birlikdə tam həqiqətin mənzərəsini yaradır. Həqiqətin sonu idrakın başa çatmasını, əvvəli yaranışın başlanmasını özünə ifadə edir. Metafizika həqiqətin mövcudluğa münasibətinin təkamülünü özündə əks etdirən elmdir. Buna görə də, metafizika həqiqətin əvvəlini və sonunu öyrənməyə cəhd edərək, təbiət elmləri ilə birlikdə tam həqiqətin aşkarlanmasına kömək edir. Beləliklə, subyekt tam həqiqətin əvvəli və sonunu öyrənmək üçün təbiətdən metafizikaya keçməyə cəhd edir. Şüurun varlığın məlum-müəyyən hissəsindən, naməlum-mümkün hissəsinə keçidi transsendensiya kimi reallaşır.

İnsanın biliyə cəhd təbiətini biz Ruhi təbiət kimi təyin edirik. Beləliklə, bədənlə şərtlənmiş Ruh əldə etdiyi biliyin həcminə uyğun aktuallaşır, yəni mövcud olmağa başlayır. İnsan bütün biliklərə yiyələnmədiyindən Ruhun aktuallaşmasını başa çatmamış aktuallaşma kimi təyin etməliyik; hansı ki yalnız bütün insanlıqda və tarixin sonunda insanüstü kimi başa çatır. Tarixin başlanğıcında Ruh daha az bilik topladığından insan daha çox heyvani təbiətində təzahür edir, tarixin sonunda isə axırıncı insan tam biliyə nail olmaqla metafizikaya keçid edən azad ruh olur.

Təbiət qanunları Ruha yalnız təbiətdəki varlıqların mövcud olmasına uyğun aktuallaşmaya imkan verir. Əgər Ruh bununla kifayətlənsəydi, onda biliklənmənin sonunda təbii, cismani varlığa – mövcudluğa çevrilərdi. Amma Ruh təbii varlıq olmadığından, mümkün varlıq kimi özünə

xas aktuallaşmaya nail olmaq üçün həm də təbiətdən kənardan biliklər əldə etməyə cəhd etməyə məcburdur; hansı ki mümkünlüyün digər imkanları haqqında bilgini özündə saxlayır. Təbii biliklər məhduddur və mümkünlüyün yalnız ən sadə və zərurətə görə mövcud olma imkanıdır. Digər tərəfdən, Ruh qeyri-təbii olduğundan öz mövcudluğunu əbədiyyətə və sonsuzluğa qədər davam etdirmək üçün əbədi və sonsuz olan həqiqəti özündə refleksiya etməyə cəhd edir. Bu iki cəhd onu, əbədi və sonsuz mövcudluq naminə, təbiətin sərhədlərini dəf etməyə, onun sonsuzluqdan sonluluğa keçidinin əksinə olaraq, sonluluqdan sonsuzluğa keçməklə, təbiətdən sonrakı qanunları özündə refleksiya etməyə – idrakı genişləndirməyə sövq edir. Bunun üçün Ruh idrak prosesində ya varlığın daha dərin qatlarına enir və müəyyən həddən sonra material aləmin sərhədlərini keçərək başqa səviyyədən Varlığın həqiqətlərini mənimsəyir, ya da varlığı idrakdan bütünlüklə kənarlaşdıraraq təfəkkürün öz dərinliklərindən həqiqəti aşkarlamağa cəhd edir. Ruhun belə cəhdlərinin nəticəsində əldə edilən mücərrəd biliklər metafizikanı təşkil edir.

Haşiyə: *Corc Berkli*, "İnsan biliyinin prinsipləri haqqında traktat"

"Mən belə düşünmürəm ki, abstrakt ideyalar idrakın bildirilməsindən daha çox genişləndirilməsi üçün lazımdır."

C. Berklinin fikrindən görünür ki, o mücərrəd ideyaları idrakın genişlənməsi üçün yox, daha çox onun bildirilməsi, idrakın baş tutub-tutmaması üçün lazım bilir. Əgər insan bir obyektdən digərinə keçmədən idrakını genişləndirə bilsəydi, onda yalnız ayrılıqda götürülmüş bir şeyin idrakı kifayət edərdi və bu zaman konkret ideyalardan başqa mücərrəd ideyalara lüzum qalmazdı. Amma təcrübədən görünür ki, insan bir obyektdən digərinə keçməklə idrakını genişləndirir, onun daha çox həqiqəti əhatə etməsinə cəhd edir və belə cəhd təbiətlə məhdudlaşdığından, sonda insan təbiətdən metafizikaya keçməklə idrakını daha da genişləndirir və bunun üçün məhz mücərrəd ideyalardan istifadə edir, hansı ki əsası metafizikada olduğundan yalnız təfəkkürün özü-özündən əldə edilir.

METAFİZİK BİLİYİN TARİXİ FORMALARI

Metafizika özü həqiqətin tarixi olduğu kimi, metafizikanın özünün də həqiqəti əldə etmə formasına görə öz tarixi vardır. Metafizikanın tarixi metafizik bilgilərin formalaşması tarixindən ibarətdir.

Metafizikanın iki tarixi formasını ayırd etmək olar:

- **İbtidai və ya sadəlövh metafizika:** Belə metafizikaya biz elməqədərki metafizikanı aid edirik, hansı ki elmin sonrakı inkişafı ilə əksər müddəaları mif səviyyəsinə endirilmişdir. Bunu biz xurafat kimi də adlandıra bilərik.
- **Ali metafizika:** Ali metafizika elmin və fəlsəfənin son nailiyyətlərindən çıxış edərək öz həqiqətlərini aşkarlamağa cəhd edir. Buna görə də, "bütün elmlərin şahı" statusunda yalnız Ali metafizikanı qəbul etmək olar, amma bu zaman ibtidai metafizikanı da bütünlüklə bir kənara qoymaq olmaz, əksinə onun bəzi müddəalarına tənqidi yanaşmaqla inkişaf etdirmək lazım gəlir.

Haşiyə: *A. N. Uaythed*, "Elm və müasir dünya"

"Biz müasir elmin spesifik problemlərini unudub, detalların istənilən xüsusi tədqiqindən öncə gələn şeylərin təbiətinə soyuq baxışa diqqətimizi cəlb etməliyik. Belə nöqteyi-nəzər 'metafizik' adlanır. Əbədi obyektin metafizik statusu ondan ibarətdir ki, o özündə həqiqət üçün imkan təqdim edir. Hər bir həqiqi təzahürün xarakteri, bu imkanların bu təzahürlərdə necə aktuallaşması vasitəsi ilə, nisbi təyin olunmuşdur."

A. N. Uaythedin fikirlərindən görünür ki, metafizika xüsusi tədqiqatlardan istifadə etməklə detalları öyrənmir, əksinə detallara, hissələrə, ayrılıqda götürülmüş nisbi təkə laqeyd qalaraq, tamın totallığından ən ümumi tədqiqat üsulu ilə həqiqəti aşkarlamağa cəhd edir və bu zaman şeylərin detallarının əsasına "soyuq baxışla" nüfuz etməyə cəhd edir. Burada "soyuq baxış" ifadəsi bir tərəfdən subyektlə şərtlənmiş – ehtiraslardan, emosiyalardan təmizlənmiş sağlam düşüncə, xalis zəka ilə mütləq nisbi həqiqəti aşkarlamağı, digər tərəfdən obyektlə şərtlənmiş – qeyri-hissi,

qeyri-maddi qavrama ilə həqiqətin idrakını özündə ifadə edir. Qeyri-hissi qeyri-maddi obyektlər öz növbəsində real və irreal olmaqla iki qrupa ayrılır. Real qeyri-hissi qeyri-maddi olanlar özlərində həqiqət təzahür etdirmək imkanına görə təyin oluna bilər. Ona görə də *A. N. Uaythed* belə hesab edir ki, metafizik statusa malik obyekt özündə həqiqəti aydınlaşdırmaq imkanına malik olmalıdır. (Həqiqəti aydınlaşdırmalıdır yox, əgər metafizik statusa malik obyekt özündə həqiqəti aşkarlasaydı, onda o mövcud varlıq olardı, yəni təbii şey kimi çıxış edərdi; bu isə onun statusuna zidd olardı). Buna görə də, irreallıqlar metafizik statusdan məhrum olduqlarından onlar metafizik predmetlər kimi çıxış etmir, bununla da metafizika həqiqətin aydınlaşmasının xüsusi bir forması kimi çıxış edir. Metafizik obyektləri – həqiqəti aydınlaşdırmanı aktuallaşdırmadan yalnız imkan kimi özlərində saxladıqlarından mövcudolmasız mövcudluq kimi və ya xalis fakt kimi və ya da qeyri-hissi, qeyri-maddi predmetlər kimi təyin etmək olar. Yəni metafizik predmetlərin həqiqəti vardır, amma onlar öz həqiqətlərini təzahür etdirmir və buna görə də idrak xaricdən onlarda olan həqiqəti onlardan çıxarır. Bununla da metafizik həqiqətlər təbiətdən əldə edilən həqiqətlərdən fərqlənir. Təcrübi həqiqət şeylərin öz həqiqətlərini aydınlaşdırdığı qədər idrakı, metafizik həqiqətlər insanın metafizik obyektlərdən çıxara biləcəyi qədər idrakı özündə əks etdirir. Məhz buna görə metafizika ağlın tarixi inkişafından asılı olaraq müxtəlif tarixi formalarda meydana çıxır.

Haşiyə: *Hegel*, "Məntiq elmi"

"Obyektivliyə fikrin birinci münasibəti, özü-özünü özündə düşüncənin əksiliyini dərk etməyən, özündə bilavasitə düşüncə ilə həqiqəti dərk etməyə inam saxlayan, sadəlövh düşüncə obrazıdır və o şüurun qarşısında obyektlərin həqiqətin mahiyyəti olmasını aşkarlayır. Bu ölçüdə düşüncə birbaşa predmetə daxil olur, hissələrin mahiyyətini özündən reproduksiya edir və fikrin mahiyyətinin seyri kimi və onda həqiqət görərək bununla kifayətlənir. Fəlsəfənin bütün başlanğıc pillələri, bütün elmlər hətta gündəlik fəaliyyət və şüurun hərəkəti bu inamda yaşayır."

Hegelin fikrin obyektivliyə birinci münasibəti kimi təyin etdiyi metafizika ilə bağlı yazdığı fikirlərdən aydın olur ki, *Hegel* metafizikanı şüurun obyektə münasibətində *təbiətəqədərki* bilgi kimi təyin edir. Belə ki, belə halda şüur özünün əksiliyi kimi mövcudluğu vəhdətdə götürmür, o yalnız forma ilə məhdudlaşır; formadan onunla mövcud varlıqda vəhdət təşkil edən mahiyyəti yox, formanın təsirindən onda yaranan hissiyyatdan təfəkkürün özü-özündən mahiyyət müəyyənləşdirərək forma ilə vəhdətə gətirir və bununla da dünyanı metafizik anlayır. Bu cür metafizik yanaşma ibtidai insanın şüuruna, şüurun ibtidai vəziyyətinə və uşaq şüuruna xasdır və kollektiv şüur forması kimi meydana çıxır. Obyekt subyektin ona aid etdiyi mahiyyətlə – predikatla obyektin predikatı kimi ondan çıxarılaraq onunla eyniləşdirildiyindən *obyektli metafizik bilgi* – ayrılıqda götürülmüş fərdi şeyə xas orijinal metafizik bilgi meydana çıxır, hansı ki **mifin** mahiyyətini təşkil edir. Mif xarici obyektə düşünən mənin öz daxili predikatlarını aid etməklə onları canlandırmasıdır. Başqa sözlə, mifik şüura görə, "düşünən mən və məndən kənarda düşünən kənar şey vardır". Buna görə də *şeyəqədərki* metafizik bilgi daha çox xurafat kimi meydana çıxmışdır. Belə bilgidə ağıl xarici obyektin mahiyyətini özü-özündə yaradır, sonra onu özündən kənar şeyə müncər edir. *Kantın* transsendental fəlsəfəsi də *şeyəqədərki* metafizikanın prinsipinə uyğundur, sadəcə transsendental fəlsəfə ictimai şüurda, *şeyəqədərki* fəlsəfə kollektiv şüurda meydana çıxan metafizikanı təqdim edirlər. *Kant* transsendental fəlsəfəni "təbiətin metafizikası" adlandırmışdır. Biz də *şeyəqədərki* metafizikanı – *təbiətəqədərki* ibtidai metafizika kimi təyin edirik.

Bundan fərqli olaraq, *təbiətdənsonrakı* bilgi kimi qəbul edilən metafizika bunun tam əksinə, obyekti şüurun əksiliyi kimi qəbul edərək formaya laqeyd qalır və obyekti hissi qavramaqdan – onu artıq qavranmış kimi və sonrakı qavranılma üçün əsas qalmadığından və ya buna zərurət olmadığından – imtina edir; təfəkkürün özü-özündən başqa şeylər haqqında əvvəlki təcrübələrdən əldə edilmiş məlumatlar əsasında şeyin mahiyyətini aşkarlamağa cəhd edir. Son metafizik yanaşmada isə **dialektik**

metafizik bilgi meydana çıxır, çünki insanın əvvəlcədən əldə etdiyi bilgi özü nisbi olaraq mövcud olur. Digər tərəfdən, belə bilgi formaya laqeyd qalmaqla birbaşa mahiyyətdən əldə edildiyindən, mümkünlüyün totallıq xarakteristikasına uyğun olaraq ən ümumi – total metafizik bilgi kimi meydana çıxır.

Bu iki metafizik bilgi keyfiyyətcə fərqlidir. Belə ki, birinci bilgi insanın başlanğıc metafizik bilgisidir (hansı ki buna qədər insan heç bir biliyə malik olmur), ikinci bilgi sonuncu metafizik bilgidir (hansı ki belə bilgidən öncə insan şüurun digər formaları ilə bilavasitə təcrübədən hissi qavranılma ilə maddi şeylərdən əldə edilmiş kifayət qədər biliyə malik olur). Birinci forma metafizik təsəvvürlərdən ibtidai din – totemistik təsəvvürlər, ikinci forma metafizik təsəvvürlərdən rasional teologiya – Allah haqqında pozitiv bilgilər meydana çıxır.

TƏBİƏTLƏ METAFİZİKANIN ƏLAQƏSİ HAQQINDA

Metafizika ilə bağlı mühüm suallardan biri də fizika ilə metafizikanın hər hansı bir əlaqəsinin olub-olmamasıdır. Belə suallar ikidir:

1. Metafizik statuslu obyektlər mövcud təbiətə keçir, ya yox? Yəni təbiətdə metafizik statuslu obyektlər vardırmı?

2. Təbiətlə metafizika bir-birindən ayrılıqda təsəvvür olunandır, yoxsa onların təsəvvürləri bir-biri ilə vəhdət təşkil edir?

Biz metafizika anlayışını şərh edərkən onun məkanda sıralanma ardıcıllığına görə "təbiətdən sonra" mənası daşımadığını qeyd etmişdik. Digər tərəfdən, *Nitsşenin* fikirlərini inkişaf etdirərək qeyd etmişdik ki, əksiliklərin ziddiyyəti və vəhdətinə görə həqiqi dünya ehtimali dünya ilə vəhdətdə təsəvvür olunandır. Vəhdət sözü tək, vahid, bir olan, yəni çoxunluğu olmayan təklik mənasını verir. İki cür vəhdət forması ayırd etmək olar:

- Birincisi, azad (başqasından asılı olmadan), hissəsi olmayan, zərurətə görə vəhdət. Belə vəhdət mütləq tək olan başqasının və hissəsi olmadan var olmaqlığı bildirir. Bura Allah, Varlıq, Ruh aiddir.

- İkinci forma vəhdət, ayrıca tək kimi mövcud ola bilməyənlərin çoxluğunun birləşib bir əmələ gətirməklə mövcud olmasıdır. Bura Kosmos aiddir. Belə vəhdətdə bir mövcudluq digərinin mövcudluq şərti kimi çıxış edir. Məsələn, valideyn övladla vəhdət təşkil edir, belə ki, valideynsiz övlad, övladsız valideyn olmur.

Bizim həqiqi dünyada heç bir ayrılıqda tək şey mövcud deyil, yəni hər şey hər bir şeylə vəhdətdədir. Bəs təbiətlə metafizika bir-biri ilə hansı səbəblərə görə vəhdət təşkil edir? Biz fizika ilə metafizika arasında vəhdətin aşağıdakı səbəblərini ayırd edə bilərik:

1. **Subyektə münasibətlərinə görə təbiətlə metafizikanın vəhdəti:** İnsan həm fizikanı, həm də metafizikanı dərk edən eyni bir subyekt kimi çıxış edir. Beləliklə, metafizika fizika ilə və əksinə fizika metafizika ilə insandan keçməklə təfəkkürdə vəhdət təşkil edir. İnsan həm də fizikadan metafizikaya keçidi yalnız özündə xalis zəkadan reallaşdıra bildiyindən bu keçidlə hər iki aləm arasında rabitə yaradır.
2. **Səbəb-nəticə əlaqəsinə görə vəhdət:** Təbiətdə hər şey səbəb-nəticə əlaqəsi əsasında mövcuddur. Bir şey başqa bir şeyin səbəbi və öz növbəsində başqa şeyin nəticəsi olduğundan təbiətdə ilkin səbəb – özü nəticə olmayan səbəb yoxdur. Belə səbəb yalnız təbiətdən kənarda, təbiətin səbəb-nəticə əlaqəsinə tabe olmayan aləmdə ola bilər. Beləliklə, fizikanın ilkin başlanğıc səbəbini metafizikada, metafizikanın son nəticəsini də fizikada axtarmaq lazım gəlir. Metafizikanın təbiətdəki son nəticəsi ruh və bilavasitə ruhun fəaliyyətinə imkan verən təbiətdəki metafizik statuslu obyektlərdir. Beləliklə biz deyə bilərik ki, fizika ilə metafizika sanki üst-üstə qoyulmuş iki bir-birindən fərqli aləmdir. Yəni fizika metafizikanın və əksinə metafizika fizikanın üzərinə proyeksiya olunmuş şəkildə vəhdətdədirlər. Buna görə də, təbiətdən bəzi metafizik statuslu obyektlər aşkarlamaq mümkündür.
3. **Yaranışa görə vəhdət:** Bütün aləmlər bir və eyni başlanğıcdan yarandığından metafizika ilə fizika bir və eyni başlanğıcda vəhdət təşkil edirlər; bu vəhdətdən mahiyyətin varlığı meydana çıxır. Mahiyyətin

varlığı mümkün varlıq kimi metafizikanı, mövcud varlıq kimi təbiəti yaradır.

4. **Əksiliyin tərəfləri kimi vəhdət:** Fizika hissi qavranılan maddi şeylərdən – fenomenlərdən, metafizika bunun əksiliyindən – qeyri-hissi qavrama ilə qeyri-maddi noumenlərdən aşkarlanır. Subyekt qeyri-hissi qeyri-maddi qavramaq üçün hissi qavranılan maddilikdən uzaqlaşmalıdır. Belə uzaqlaşma məkanda məsafə kimi yox, idrakın səviyyələrində uzaqlaşmaqdan ibarətdir. Yəni subyekt nə qədər obyektin dərinliyinə nüfuz edirsə və bu zaman hissiyyatı arxada buraxırsa, bir o qədər öz idrakının dərinliyinə daxil olur, və nə qədər öz idrakının dərinliyinə çatırsa, bir o qədər metafizikaya keçir. Nəhayət elə bir həddə çatılır ki, təbiətlə metafizika eyni bir idrak səviyyəsindən aşkarlanır. Bu səviyyəni biz ideya səviyyəsi kimi təyin edirik. İdeya bir tərəfdən obyektiv gerçəkliklərin həqiqəti haqqında məlumatlardan təşkil olunur, digər tərəfdən həmin həqiqətin subyektdə refleksiya ilə yaratdığı fikri özündə təqdim edir. Məhz buna görə, təbiətlə metafizika yalnız ideya səviyyəsində analogiya təşkil edə bilər, hansı ki təcrübi bilikləri abstraksiyalaşdırmaqla onların əsasında metafizik biliklərə nüfuz edilir.

Haşiyə: *Ditrix fon Qildebrand*, "Məhəbbətin metafizikası"

"Biz heç bir halda hər hansı bir mövcudluğun dərkində analogiyanın mühüm əhəmiyyətini inkar etmirik. Biz şəxsi və ruhi mövcudluğu tədqiq edərkən məcburuq ki, fiziki dünyadan analogiyadan istifadə edək, dilin özü bizi daimi olaraq buna vadar edir. Beləliklə, şəxsi və ruhi təzahürləri tədqiq edərkən analogiyaya müraciət etmək – tamamilə qanuni və hətta qaçılmaz haldır. Amma birincisi, bu analogiya çıxış nöqtəsi olmamalıdır. İkincisi, bu analogiya tədqiq edilən obyekt qədər aydınlıqda verilməlidir. Üçüncüsü, müraciət etdiyimiz analogiya tədqiq olunan obyektə həqiqi və əhəmiyyətli analogiya olmalıdır. Dördüncüsü, analogiyaya xidmət etdiyindən artıq qiymət verməkdən çəkinmək lazımdır. Ancaq elə qeyri-qanuni analogiyalar vardır ki, və ya ən azı elə qeyri-müəyyən analogiya var-

dır ki, onlardan istifadə zamanı öyrənilən obyektin anlaşılmamasına gətirib çıxarır. Əgər biz iradənin mahiyyətini başa düşmək istəyiriksə, analoji fenomenlərdən çıxış etməyin heç bir mənası yoxdur. Analogiyaya baxmaq onda mənaya malikdir ki, biz artıq iradənin mahiyyətini, o bilavasitə verildiyi yerdə analiz etmişik – bu halda analogiya ona görə cəlb edilir ki, xüsusi iradənin bu analogiyadan fərqi qeyd olunsun. Analogiyadan çıxış edərək və onlara növ keyfiyyətində baxaraq, hesab etmək ki, bununla iradənin tədqiqi daha ümumi və 'daha metafizik' səviyyəyə gətirilir – bu düzgün olmayan üsul qabaqcadan onun mahiyyətini kölgələyəcək və onun həqiqi xüsusiyyətini görmək mümkün olmayacaq. Əgər başqa sferadan analogiya çıxış nöqtəsi keyfiyyətində istifadə edilərsə, ona cəmləşilərsə, sonra onun xarakteristikası tədqiq edilən obyektə gətirilərsə, onda bununla sadəcə bilavasitə öyrənilən obyektin idrakının yolu bağlanar."

D. fon Qildebrandın fikirlərinə əsaslanaraq demək olar ki, təbiətlə metafizika arasında analogiya aparmağın zəruriliyi metafizika ilə təbiət biliklərini eyni bir sözlə ifadə etmək məcburiyyəti ilə bağlıdır. Yəni biz təbiəti hansı sözlərlə şərh ediriksə, metafizikanın şərhində də daha çox o sözlərdən istifadə edirik. İkincisi, təbiəti şərh və izah edərkən istifadə etdiyimiz sözün özü metafizik təbiətlidir, yəni biz metafizik təbiətli sözlə təbiəti izah etmək məcburiyyətindəyik. Buna görə də, söz özü metafizika ilə təbiət arasında çıxış nöqtəsi olmamalıdır; bunun əvəzinə elə çıxış nöqtəsi aşkarlamalıyıq ki, o sözdən fərqli olaraq, tədqiq edilən obyekt qədər aydın və həmin obyektlə bilavasitə əlaqəli olsun. Bu məhz obyektlərin ideyaları ola bilər. Nəhayət, unutmaq olmaz ki, analogiya ilə əldə edilən həqiqətə mütləq həqiqət kimi yanaşmaq olmaz. *D. fon Qildebrandın* fikirlərindən görünür ki, prafenomenləri – daxili hisslərlə aşkarlananları (məsələn, iradə, məhəbbət, ədalət və s.) fenomenlərlə – xarici hissi təsirlə aşkarlanan predmetlərlə (məsələn, hər hansı bir şeylə) analogiya aparmaqla təhlil etmək olmaz. Başqa sözlə, mövcud varlıq (bizim nümunədə təbiətlə) ilə şəxsi varlıq (yəni Ruh, bizim nümunəmizdə metafizika) arasında analogiya aparmaq – birinin qanunları əsasında digərini anlamaq

mümkün deyildir. Təbiətlə metafizika arasında o zaman analogiya aparmaq olar ki, təbiət özünün fenomenliyindən azad edilib prafenomen səviyyəsinə gətirilsin. Bu zaman təbiətin prafenomenlərindən – mahiyyətin ideyasından, varlığın xalis fikir təyinindən – metafizik bilikləri analogiya ilə aşkarlamaq olar. Bu üsul metafizikanın ontologiya və kosmologiya bölməsinin əsas üsuludur, hansı ki ayrılıqda götürülmüş tək bir şeyin və ya Kainatın totallığından prafenomenlər almaqla onlardan metafizikanı aşkarlamağa cəhd edir. Təbiətin fenomenlərindən necə prafenomenlər əldə edilir?

Haşiyə: *Ditrix fon Qildebrand*, "Məhəbbətin metafizikası"

"Şəxsi mövcudluq istənilən impersonal mövcudluqdan iyerarxik olaraq müqayisə olunmaz alidir və əgər insan şəxsi mövcudluğa tələb olunan xüsusi xüsusiyyət verirsə, onda o mövcudluğa və həm də metafizikaya daha dərin nüfuz edir."

D. fon Qildebrandın bu fikirləri metafizika ilə fizikanın əlaqəsi haqqındakı məsələyə aydınlıq gətirmək baxımından çox illüstrativdir. Belə ki, *Qildebrand* təsdiq edir ki, "şəxsi mövcudluq" "impersonal mövcudluq"la iyerarxiyada müqayisə olunmaz dərəcədə alidir. Bu nə deməkdir? İmpersonal mövcudluq təcrübədə idraka təqdim edilən hissi qavranılan maddi şeylərdir və istənilən belə şey mümkünlüyün bir imkanı kimi zərurətə görə aktuallıqdır, hansı ki ən sadə, ibtidai qeyri-şərtsiz imkandır. Amma "şəxsi mövcudluq", yəni bədəndən fikrən ayrılıqda götürülmüş Ruh, xalis mümkünlük olduğundan bütün imkanları (artıq aktuallaşmış ən sadə imkan istisna olmaqla) ondan daha ali, bütün imkanları özündə saxlayır. Yəni şəxsi mövcudluqda impersonal mövcudluqda olan sadə imkan istisna olunur, əvəzində impersonal mövcudluqda olmayan, ən sadə imkandan daha ali digər bütün səviyyələrdən olan imkanlar təsdiq olunur. Məhz buna görə də, insan impersonal mövcudluqdan şəxsi mövcudluğa keçdikdə bir tərəfdən təbiətdən ayrılır (çünki ruh təbiət sferasında müstəqil mövcudluq deyil), digər tərəfdən metafizikaya daxil olur.

Təbiətdən uzaqlaşmanı subyekt yalnız ekstensiyanın əksinə **intensiya** ilə reallaşdıra bilər. İntensiya özünün – öz ruhunun dərinliklərinə enməkdir. Beləliklə, subyektlə obyekt arasında ən böyük uzaqlıq idrak olunan şeyin sonu ilə ruhun kamilliyinin sonu arasındakı məsafədir. Yəni ən kamil ruh şeyin ən son həqiqətini aşkarlamaqla təbiətdən metafizikaya daxil olur. Beləliklə insan şeyin sonuna doğru idrakı davam etdikcə öz ruhunun son kamilliyinə keçir və əksinə.

Təbiətlə metafizikanın vəhdətində biz metafizikadan əldə etdiyimiz ideyalarla təbiətin qanunlarına, və əksinə təbiətin qanunlarından metafizikanın ideyalarına nüfuz edə-keçə bilərik; hansı ki metafizik metod kimi *İ. Kant* tərəfindən transsendensiya kimi adlandırılmışdır.

Müasir dövrdə bir çox elmi kəşflər empirik təcrübənin kənarına çıxaraq elə həqiqətlər əldə etmişdir ki, həmin həqiqətlər metafizika haqqında olduqca dəqiq bilgilər verməkdədir. Məsələn, fizikada təbiətdən kənar başqa bir təbiətin – kvant təbiətinin mövcudluğu haqqında faktlar ortalığa çıxmışdır. Kvant fizikası (kvant təbiəti) bizim həqiqi dünyamızın tabe olduğu qanunlardan kəskin fərqli qanunlara tabe olur. Kvant fizikası özüözündə metafizik təbiətli olduğundan daimi transsendensiya – keçid vəziyyətindədir; hansı ki dalğa funksiyası hissəciyə, hissəcik dönər şəkildə dalğa funksiyasına keçir. Bu xalis işıq təbiətinin hakim olduğu təbiətdir. Biz, sonrakı fəsillərdə metafizika haqqında baxışlarımızı inkişaf etdirərək kvant fizikasından əvvəlki təbiətə, xalis dalğa funksiyası olan təbiət haqqında mühakimələr apararaq Ruhun təbiətinə işıq salmağa cəhd edəcəyik. Beləliklə, ruh bizim təsəvvürlərimizə görə, xalis dalğa funksiyasından ibarət metafizik obyekt olub, yalnız xalis fikir kimi – xalis ağlın azad şəkildə mövcud olduğu təbiətdən ibarətdir. Artıq bu bizim Allah ideyası altında anladığımızla bizim aramızdakı son həddir. Həmin hədd xaricdə xalis dalğa təbiətli aləmlə Allah arasında, daxildə Ruhla Allah arasında yerləşir. Biz bu aləmi **sakral aləm** kimi təyin edirik.

METAFİZİK PROBLEMLƏR

"Varlığın Fundamental Dilemmaları: Başlanğıc və Səbəbiyyət"

"Mənə elə gəlir ki, Allah bu Kainatı bizə tapmaca kimi yaradıb və bizim qarşımıza məqsəd qoyub ki, onun düzgün cavabını tapaq".

Albert Eynşteyn

A. Başlanğiclar

Metafizika, fəlsəfədən və elmlərdən fərqli olaraq, obyektləri hansı səviyyədən tədqiqata cəlb edir?

Haşiyə: *İ. Kant*, "Xalis zəkanın tənqidi"

"Bu günə qədər yaradılmasına cəhd edilən, hətta elm kimi baxılsa, baxmayaraq ki, insan ağlı elədir ki, metafizikasız ötüşə bilməz, metafizika özündə aprior sintetik bilgilərdən ibarət olmalıdır. Metafizikada biz a priori bizim bilikləri genişləndirməyə cəhd edirik və bunun üçün elə əsaslardan istifadə etməliyik ki, verilmiş anlayışa hələ onda olmayan nəyisə birləşdirsin; bu zaman biz aprior sintetik mühakimələrlə elə uzağa gedirik ki, təcrübənin özü onu izləyə bilmir, məsələn, 'dünyanın başlanğıcı olmalıdır' müddəası kimi."

Haşiyə: *F. Nitsşe*, "İnsani, həddən ziyadə insani"

"Bütün filosoflar eyni bir qüsura malikdirlər; onlar müasir insandan çıxış edir və onun analizi ilə məqsədə çatmağa cəhd edirlər. Kortəbii olaraq onlara 'insan' ümumiyyətlə nəsə aeterna veritas (əbədi həqiqət) kimi, ümumi axında dəyişməyən, bütün şeylərin əmin ölçüsü kimi verilir. Ancaq filosofun insan haqqında dediyi hər şey mahiyyətcə kifayət qədər məhdud vaxt çərçivəsində olan insan haqqındadır."

Kantın metafizika ilə bağlı yuxarıdakı fikirlərindən çıxış edərək demək olar ki, metafizikanın həll etməli olduğu problemlərə hər şeydən öncə ümumiyyətlə elə-belə başlanğıclar, xüsusən – ilk növbədə **başlanğıcların başlanğıcı** haqqında bilgilər aid edilməlidir.

Biz başlanğıclar haqqında ümumi mühakimə yürütmək üçün "başlanğıc" sözünün birinci mənasını aşkarlamalıyıq; hansı ki yalnız həmin məna başlanğıc anlayışının sərhədlərini düzgün müəyyən edə və bizi problemin həllinə düzgün istiqamətləndirə bilər.

Haşiyə: *Plotin*, "Birinci başlanğıcdan ondan sonra gələnin əmələgəlməsi və İlkvahid haqqında"

"Başlanğıc yalnız o ola bilər ki, özü törənən və ya baş verən deyil."

Plotinin başlanğıc haqqında fikrini şərh etmək üçün "başlanğıc" sözünün kökünün mənalarını şərh edək. Başlanğıc sözündə sözün kökü "baş" sözündən ibarətdir. "Baş" sözünün aşağıdakı mənalarını ayırd etmək olar:

1. **Öndə gələn:** Öndə gələn mənasında baş hər hansı sıranın birincisini özündə ifadə edir. Məsələn, əlifbanın baş hərfi "A"-dır. Bu o deməkdir ki, əlifba A hərfindən başlayır. Bu mənada baş daxil olmaq üçün qapı mənasını verir. Yəni əlifbanın digər hərflərinə keçid A-dan keçməklə mümkündür. Belə baş mənasında başlanğıc prosesə daxil olmanın, şeyə nüfuz etmənin əvvəli mənasını verir.
2. **Yüksəkdə olan:** Bu mənada baş yuxarıda olan strukturun zirvəsi mənasını verir. Məsələn, baş nazir nazirlərin hamısından yüksəkdə duran statusu müəyyən edir. Bu mənada başlanğıc ən ali, ən yüksəkdə duran mənasındadır.
3. **Əsas olan:** Hər hansı bir şeyin mövcudluğunun əsas hissəsi. Məsələn, insanın başı. Belə baş olmadıqda mövcudolma təzahür etmir. Bu mənada başlanğıc mövcudolmanın əsası mənasını verir.

Beləliklə, baş sözünün hər üç mənasından başlanğıcın məcmu mənasını – mövcudluğa nüfuz etməyə imkan verən, mövcudluğun ən ali hissəsinin mövcudolmanın əsasını təşkil etməsi kimi təyin edə bilərik.

Plotinin şərhindən göründüyü kimi, başlanğıc özü törənən deyil və buna görə də törədicidir. Başlanğıc həm də baş verən deyil, buna görə də başverənə *baş verəndir*. Baş vermək – başdan məhrum olmaq, başı özündə istisna etmək; *baş vermək* (digər mənada) isə başverənə özündən baş-

lıq vermək, başı olmayana başçılıq etmək deməkdir. Buradan da başlanğıc başı olmayana özündən baş verən və ya başçılıq etmək mənasını verir. Burada özündən baş verməklə başçılıq etmək bir-birindən fərqlidir. Özündən baş vermək özü-özündə qalmaqla, başı olmayana baş verməyi bildirir. Bu zaman "baş" başı olmayandan kənarda qalır. Başçılıq etmək başı olmayanla vəhdət təşkil edərək onunla birlikdə mövcudluğu təşkil etməyi özündə ifadə edir. Belə başlanğıc başverəndən kənarda özü-özündə müstəqil mövcud qalmır.

Haşiyə: *Aristotel*, "Metafizika"

"Başlanğıc adı ilə bir halda şeylərdə ilk hərəkət üçün çıxışa xidmət edən yeri bildirir. Başlanğıc şeyin hər şeydən əvvəl onun əmələgəlməsi gedən tərkib hissəsi adlanır. Bu adla, şeyin tərkibinə daxil olmadan, hər şeydən əvvəl şeyin meydana çıxdığı mənbə və ilk dəfə təbii şəkildə hərəkət və dəyişilmələrin başlanğıcı adlandırılır. Hərəkət edənin hərəkət etdirənə, dəyişənin dəyişməsinə münasibətdə başlanğıc haqqında o mənada danışılır ki, belə adlanmanı şəhərlərdə rəislər və hökmdarların hakimiyyəti mənimsəyir. Bundan başqa, son nəticədə predmetin idrakında çıxış olan şeyin başlanğıcı adlandırılır. Ümumiyyətlə desək, başlanğıc haqqında səbəb haqqında danışıldığı məna qədər danışılır. Başlanğıc həm təbiət, həm element, həm baxış, həm mahiyyət və nəhayət məqsəddən ibarətdir. Etiraf etməsək ki, ayrı-ayrı şeylərə aid edilən mənada mahiyyət müstəqil mövcudluqdur, onda bizim başa düşdüyümüz mahiyyət aradan qalxacaqdır. Yox əgər, qəbul etsək ki, mahiyyət ayrılıqda mövcud olur, onların başlanğıcına və elementlərinə hansı xarakteri vermək lazım gələcək? Əgər onlar, ümumi şəkildə yox, tək şeylər kimi verilirsə, onda elementlər qədər şeylər olacaqdır və elementlər idrak olunan olmayacaqdır. Əgər başlanğıc ümumi xarakterlidirsə, onda ya ondan alınan mahiyyət də ümumidir, ya da qeyri-mahiyyət mahiyyətdən əvvəldir. İstənilən elm ümumi xarakterlidir, ona görə də şeylərin başlanğıcı da ümumi olmalıdır. Əgər başlanğıc ümumi olmalıdırsa, onda onlardan alınanlar da həmçinin zəruri şəkildə ümumidir, bu halda ayrılıqda mövcud olan və

heç bir mahiyyət olmayacaqdır. Ancaq məlum mənada elm ümumi xarakterə malikdir, məlum mənada yox."

Metafizikanın əsas problemi kimi başlanğıc haqqında həqiqətləri *Aristotelin* başlanğıcın mənaları ilə bağlı yuxarıdakı fikirlərini bugünkü elmi biliklərin işığında şərh etməklə müəyyən edə bilərik. *Aristotel* başlanğıcla bağlı iki münasibətdə mühakimə yürüdür; biri hiss edilməyənlərə, biri bütün mahiyyətlər üçün ümumi olana münasibətdə.

Beləliklə, başlanğıcın *Aristotelin* təyin etdiyi aşağıdakı mənalarını şərh edək:

1. İlk hərəkət üçün çıxışa xidmət edən yer: Metafizika təbiətin sərhədlərindən kənara çıxaraq, ən ümumi başlanğıc haqqında bilgi əldə etməyə cəhd etdiyindən, Kainatın ilk hərəkətinə xidmət edən yer haqqında təsəvvürlərə malik olmalıdır. Bunu, formasından asılı olmayaraq ümumi ilk hərəkətə – mütləq hərəkətə şamil etsək, onda ümumi ilk hərəkətin başlanğıc yerini sükunətin – hərəkətsizliyin – mövcud olduğu yer kimi təyin etməliyik. Başqa sözlə, Mütləq Hərəkət yalnız **Mütləq Sükunətdən** başlaya bilər. Biz, Mütləq sükunət vəziyyətini *İlahi vəziyyət* kimi təyin edirik. İlahi vəziyyət heç bir hərəkətin, dəyişilmənin, inkişafın, tərəqqinin olmadığı vəziyyət kimi təsəvvür oluna bilər, çünki belə hərəkətə, dəyişilməyə başqa heç bir səbəb yoxdur. Çünki Səbəb yalnız İlahi istəkdən nəsə yaratmağa xidmət edir. Allah yaradan olduğundan səbəbi yoxdur. Beləliklə, ilk hərəkətin başlanğıcı İlahi sükunətdədir.

2. Əməlgəlmənin getdiyi tərkib hissə: Kimyadan məlumdur ki, maddələrin əmələ gəlməsi onların atomlarının xarici elektron təbəqələrində olan mütəhərrik elektronların iştirakı ilə baş verir. Buradan da, "əməlgəlmənin getdiyi tərkib hissə" kimi şeylərdə saxlanan Varlığı – şeyin ən kiçik hissəsi – *partes infinitesimae* (sonsuz kiçik hissə) olan atomlarının daha kiçik hissəciklərini – *infinitesimae infinitesimarum* (sonsuz kiçiklərin sonsuz kiçiyi) təyin edə bilərik. Yəni, şeyləri təyin edən ən kiçik hissəciklərin ən kiçik hissəciyi şeyin əməlgəlməsinin getdiyi tərkib hissəsidir. Biz bunu şeydə başlanğıc kimi saxlanan və onun varlığını müəy-

yən edən **Varlıq** adlandırırıq. Məhz buna görə, "bütün mövcudluqlar var"dır. Həmin hissəciklər şeydən kənarda, müstəqil şəkildə, materiya yarananadək Varlığın totallığını təşkil edirlər.

3. Şeyin tərkibinə daxil olmadan, şeyin meydana çıxdığı mənbə: Belə başlanğıc yalnız yaranma ilə bağlıdır. Yaranmanın üsulu *refleksiya* olduğundan, refleksiya edən refleksiya olunanın tərkibinə daxil olmur. Beləliklə də, ilk öncə Allah, yaratdığı heç bir şeyin tərkibinə daxil olmayan birinci başlanğıcı təşkil edir. Təfəkkürdə gerçəkliyin refleksiyasında gerçəklik təfəkkürdə yaranan obrazların, təsəvvürlərin və ideyaların tərkibinə daxil olmadığından, şeylərin xarici görüntüsü təfəkkürə münasibətdə gerçəkliklərin birinci başlanğıcını təşkil edir.

4. Hakimiyyətin başlanğıcı: Bir şeyin və ya halın başqa bir şeydən və haldan asılı olaraq mövcud olması və ya hərəkət etməsi hakimiyyət başlanğıcı kimi təyin oluna bilər. Təbiətdə heç bir şey başqasından asılı olmadan mövcud deyil, yəni mövcudolma vəhdətdə aktuallaşır. Buna görə də hakimiyyətin başlanğıcı başqaları ilə heç bir asılılıqda olmayanda ola bildiyindən, təbiətdə hakimiyyətin ilk başlanğıcı ola bilməz; deməli, belə başlanğıc yalnız metafizikadadır. Hakimiyyətin başlanğıcı özündə **İradə Gücünü** təqdim edir. Şeylərin iqtidarlığı kimi təzahür edən, hər bir şeydə refleksiya edən onu yaradan İlahi İradə olduğundan, biz hakimiyyət başlanğıcını **İradə** kimi təyin edirik. Bütün yaradılanlar İlahi İradə ilə yaradılıb. Bu o deməkdir ki, Yaradılış İlahi hakimiyyətdir. Yəni, yaradılanı yaradan və ya tabe olanı tabe etdirən güc ona münasibətdə başlanğıcı təşkil edir. Biz bura həm də idrak prosesində bədənin tabe olduğu Ruhu aid edirik. Yəni Ruh idrak prosesində şüurla bədənə hökm edən başlanğıcı təşkil edir. Şüuru Ruhun İradəvi Gücü kimi təyin edə bilərik. Bədən idrak prosesində yalnız Ruh üçün təbiətlə özü arasında vasitə rolu oynayır. Riyaziyyat elmində arqument-funksiya asılılığında "arqument" hakimiyyət başlanğıcını simvolizə edir.

5. Predmetin idrakında çıxış olan şeyin başlanğıcı: Hər bir şey özündə həqiqəti aydınlaşdıran vasitə kimi mövcuddur. Şey formadan –

xarici görüntüdən idraka cəlb olunur. Xarici görüntü şeyin mahiyyətindən çıxır. Buradan da, hər bir şeyin idrakında çıxış olan şeyin başlanğıcı kimi şeyin mahiyyətini, substansiyanı, yəni onun özündə aydınlaşdırdığı həqiqəti – **İlahi İstəyi** təyin edə bilərik.

Beləliklə, *Aristotelin* başlanğıclar haqqında verdiyi mənalardan görünür ki, ilkin başlanğıclar metafizikanın ideyalarında – Allahda, Varlıqda, Ruhdadır.

Biz başlanğıcları həm də varlıqların təyininə uyğun təsnif edə bilərik. Həmin başlanğıcları aşağıdakı kimi şərh etmək olar:

1. **Mümkünlüklərin, yəni xalis fikrin və ya xalis varlıqların başlanğıcı:** Xalis fikir və ya xalis varlıq özündə həqiqət haqqında ideyalardan ibarətdir. Beləliklə, mümkünlüklərin başlanğıcı insanlara məlum olan və olmayan bütün ideyaların Ali başlanğıcı kimi mütləq haqqında ideya və ya sadəcə mütləqlik çıxış edir. Biz bunu **İdeal – Allah – haqqında ideya** adlandırırıq.

Haşiyə: *Plotin*, "Birinci başlanğıcdan ondan sonra gələnin əmələgəlməsi və İlkvahid haqqında"

"Birinci başlanğıcdan sonra gələn hər şey ya bilavasitə, və ya dolayısı ilə ondan əmələ gəlir və özündə varlığın müxtəlif sıralarını təqdim edir, belə ki, ikinci sıranın başlanğıcı birincidə, üçüncünün başlanğıcı ikincidədir. Əsl həqiqətdə, belə hesab etmək zəruridir ki, hər şeydən əvvəl və ali mövcud olan başqa hamısından fərqli olan başlanğıcdır; hansı ki həmişə özü-özündə olmaqla eyni zamanda hər şeyə xasdır, mövcudluğun özündən və mahiyyətindən yüksək, mütləqin vəhdəti kimi heç nə ilə qarışmır, buna görə bizim ağlımız onu əhatə etməyə, söz isə ifadə etməyə qabil deyil. Əgər bu varlıq, hər cür birləşməyə və qarışığa yad olan, tamamilə sadə olmasaydı, əgər sözün həqiqi və mütləq mənasında tək olmasaydı, onda o başlanğıc da olmazdı, və. ilk başlanğıc həmişə birdir və o öz mahiyyətinə görə təkdir."

Plotinin fikirlərindən göründüyü kimi, birinci başlanğıc ikinci başlanğıca əsas verməklə sonrakı determinasiyadan qalır. Artıq üçüncünün

başlanğıcı kimi ikinci çıxış edir və s. Birinci başlanğıc buna görə də digər bütün determinik başlanğıclardan fərqlidir. Birinci başlanğıc təbii şeylərin məkan və zaman şərtlənməsinə, "burada və indi" prinsipinə tabe olmur; buna görə də özü-özündə qalmaqla eyni zamanda hər şeyə xas olur. Birinci başlanğıc heç nəyə qarışmadığından biz hissi və qeyri-hissi qavranılan heç nə ilə onu dərk edə bilmirik və dərk edə bilmədiyimiz üçün onu şərh və izah edən sözə də malik olmuruq. Belə başlanğıc ən sadə olduğundan mütləq tək başlanğıcdır. Birinci başlanğıcın sadəliyi ona birləşməni və ona qarışmanı istisna edir. Ən sadəyə birləşmə ona görə mümkün deyildir ki, ona bərabər və ondan da sadə olan yoxdur ki, onunla eyniliyə görə birləşsin. Ona görə heç bir şeyə qarışmır ki, o dərəcədə sadədir ki, bütün şeylərə qarışır və bu zaman onun qarışması seyr edilmir.

2. **Mövcudluqların başlanğıcı:** Belə başlanğıc yalnız mövcud varlıqların ən ümumi başlanğıcıdır. Biz bunu **Materiya** kimi təyin edirik. Materiya mümkün varlığın ən sadə mümkünlüyünün aktuallaşma imkanıdır və metafizika ilə təbiəti bir-birindən sərhədləndirir.
3. **Reallıqların başlanğıcı:** Reallıq hissi qavranıla bilən istənilən şeydir. Hissi qavranılma reallığı təşkil edən maddədən meydana çıxdığından biz **maddəni** reallığın başlanğıcı kimi təyin edə bilərik.
4. **Gerçəkliklərin başlanğıcı:** Hər bir reallıq təcrübədə hissi təfəkkürə təsir etməklə gerçəkləşir. Buradan da, hissi təsiri gerçəkliklərin başlanğıcı kimi təyin edirik.
5. **Formanın başlanğıcı:** Hər bir reallıq gerçəkləşərkən təfəkkürdə xarici görüntü ilə refleksiya etdiyindən biz formanın başlanğıcı kimi xarici görüntünü təyin edə bilərik.

Başlanğıclar həm də kateqoriyalara görə təsnif edilə bilər:

a. **Əksiliklərin ümumi başlanğıcı:** Həqiqətin hər iki meyli – həqiqətin aydınlaşmasının artma və azalma meyli – özündə Nisbi Mütləq Həqiqətin Mütləq Həqiqəti refleksiyasını təqdim edir. Buradan da Mütləq Həqiqəti əksiliklərin ümumi başlanğıcı hesab etmək olar. Məsələn, riyaziyyatda sıfır həm müsbət, həm də mənfi ədədlərin başlanğıcıdır.

Sıfır riyaziyyatda özündə Mütləq Həqiqəti simvolizə edir. Əksiliklərin ümumi başlanğıcı yalnız İdeal haqqında ideyadan aşkarlana bilər.

b. **Əksiliklərin yalnız bir tərəfinin başlanğıcı:** Nisbi Mütləq Həqiqət özündə həqiqətin meyllərinə uyğun olaraq bir-biri ilə əksilik təşkil edən ikiliyi yaradır. Burada artma meylinin bir, azalma meylinin başqa fərqli başlanğıcı vardır. Biz azalma meylinin başlanğıcı kimi mənfi yükü, artma meylinin başlanğıcı kimi müsbət yükü təyin edə bilərik.

c. **Cəmin başlanğıcı – əksiliklərin bir tərəfinin bir sırasının başlanğıcı:** Belə başlanğıc müxtəlif şeylər üçün ümumi başlanğıc rolu oynayır. Məsələn, kaleydoskopik dünyanı təşkil edən sonsuz sayda şeyin ümumi başlanğıcı maddədir.

d. **Təkin başlanğıcı – əksiliklərin bir tərəfinin bir sırasının bir şeyinin başlanğıcı:** Ayrılıqda götürülmüş hər bir şeyin ilk başlanğıcı vardır. Məsələn, kimyada maddənin ən kiçik hissəsi – başlanğıc kimi atom qəbul edilmişdir. Atom hər bir tək şeyin başlanğıcı kimi təyin edilə bilər. Atomun parçalanmasından alınan hissəciklər ümumi başlanğıcı təşkil edirlər.

Başlanğıcları həm də münasibətə görə təyin edə bilərik:

a. Özü-özünə münasibətdə başlanğıc: Biz yalnız Allahı özü-özünə münasibətdə başlanğıc kimi təyin edirik. Allahdan başqa heç bir şey özü-özünün başlanğıcı kimi çıxış etmir.

b. Başqasına münasibətdə başlanğıc: Belə başlanğıc ən müxtəlif səviyyələrdən meydana çıxdığından çoxsaylıdır. Ən ümumi formada Varlığa münasibətdə belə başlanğıc **Yoxluqdur**. Kainata münasibətdə belə başlanğıc **Varlıqdır**. Mövcudluqlara münasibətdə belə başlanğıc **Materiyadır**. Reallıqlara münasibətdə ilk başlanğıc **maddədir**. Gerçəkliklərə münasibətdə başlanğıc **təsirdir**. Ayrılıqda götürülmüş hər bir şeyə münasibətdə belə başlanğıc hər bir şeyin mahiyyəti – **ideyasıdır**. Ruhun bədənə münasibətində ilk başlanğıc **şüurdur**. Şüurun materiyaya müna-

sibətində idrak obyektinin başlanğıcı özü-üçün-varlıq təyini, yəni **xarici görüntüdür**.

Biz başlanğıc anlayışını həm də aşağıdakı qaydada təsnif edə bilərik:

a. **Özündə sonralılıq saxlamamağa görə başlanğıc:** Gerçək dünyada mövcud varlıqlar həm məkan, həm zaman üzrə müxtəlif sıralar təşkil edir. Bu sıralarda, səbəb-nəticə əlaqəsində hər bir mövcudluq həm başqa mövcudluq üçün əvvəl, həm də özünə görə sondur. Özündə yalnız əvvəllik saxlayanlar və sonralılığı istisna edənlər başlanğıcı təşkil edir. İstənilən mütləq başlanğıc tək kimi təzahür edir. Təklik metafizik olduğundan, istənilən başlanğıc da metafizik mahiyyətə malikdir. Məsələn, çevrədə istənilən nöqtə həm əvvəl, həm sonradır. Buna görə də, biz çevrənin başlanğıcını ayırd edə bilmərik. Amma düz xətdə birinci nöqtə yalnız əvvəl, axırıncı nöqtə yalnız sonradır. Yalnız əvvəllə və yalnız sonranın arasındakı bütün nöqtələr isə həm əvvəl, həm sonradır. Buradan da eyni bir xətti təşkil edən nöqtələr bir-birinə münasibətdə fərqli olduqlarından iyerarxiya təşkil edirlər. Bu iyerarxiyanın əsası – yalnız əvvəli olan başlanğıcı təşkil edir. Beləliklə, özündə sonralıq xarakteristikası saxlamayan düz xəttin birinci nöqtəsini başlanğıc kimi qəbul etmək lazımdır. Buradan da birincilik-lə başlanğıc eyniyyət təşkil edir.

b. **İştirakçılığa görə başlanğıc:** Hər hansı tək bir şeyin əmələgəlməsində tərkib hissə kimi iştirakçılığa görə başlanğıc təkin başlanğıcı kimi meydana çıxır. Belə başlanğıc başlanğıc kimi öz müstəqil mövcudluğundan məhrum olmaqla yeni mövcudluğun yaranmasına xidmət edir. Təbiətdə mürəkkəb maddələr müxtəlif sadə maddələrdən əmələ gəlir. Bu sadə maddələrdən biri və ya hamısı əmələgəlmə prosesində iştirak etmədikdə yeni maddə əmələ gəlmir və mürəkkəb maddəni əmələ gətirən sadə maddələrdən heç biri öz müstəqil mövcudluğunu itirmir. Amma sadə maddələrin öz aralarında birləşib mürəkkəb maddə əmələ gətirməsi zamanı tərkib hissələrin hamısı öz müstəqil mövcudluqlarından məhrum olurlar. Beləliklə əmələgəlmə prosesində

başqa bir maddəni əmələ gətirməklə öz müstəqil mövcudluğundan məhrum olan başlanğıclar tərkib hissələri təşkil edirlər. Tərkib hissələr yalnız ayrılıqda tək bir şeyin başlanğıcı kimi çıxış edir. Məsələn, Na və Cl-un iştirakçılığı ilə yalnız NaCl əmələ gəlir. Heç bir halda, heç bir şəraitdə bilavasitə yalnız Na-la Cl-un iştirakçılığından başqa maddə əmələ gəlmir. Belə başlanğıclar özündən sonraya keçərək öz müstəqil mövcudluqlarından məhrum olurlar; nəticədə yeni maddədə əvvəl və sonra vəhdət təşkil edir. Yəni xörək duzunda əvvəl kimi Na və Cl, son kimi NaCl çıxış edir. Tərkib hissə kimi başlanğıclar paralel sıralar təşkil edir və bu sıraların hər hansı birinə xas olan digər sıra üçün başlanğıc rolu oynamır.

c. **Başlanğıcın başlanğıcı:** Hər bir tək şeyin özünə xas iştirakçılığa görə xüsusi başlanğıcı vardır. Bununla yanaşı istənilən bütün şeylərin də bir və ümumi başlanğıcı mövcuddur. Əgər belə başlanğıc olmasaydı, onda birincisi, vəhdət yaranmazdı; ikincisi, ümumi həqiqətlər mövcud olmazdı. Buradan da deyə bilərik ki, mütləq ən ümumi həqiqət başlanğıcların başlanğıcının olmasıdır. Çoxluğun eyni zamanda başlanğıcı bütün təklərin başlanğıcının eyni zamanda başlanğıcı kimi meydana çıxır. Biz bunu sonsuz çoxluğun yaranmasında iştirakçılığa görə başlanğıc adlandırırıq. Əməlegəlmə prosesi paralel sıralar üzrə baş verdiyindən hər bir sıranın əvvəli və sonu vardır. Məsələn, elementlər hidrogendən başlayıb uran elementində qurtarır. Mürəkkəb maddələr oksidlərdən başlayıb mürəkkəb duzlarda qurtarır. Canlılar ibtidailərdən başlayıb məməlilər sinfində qurtarır və s. Amma sonsuz çoxunluğun yaranmasında iştirakçılıq bundan fərqli olaraq bütün sıralar üçün bir və eynidir. Məsələn, bir nöqtədən çıxan ixtiyari şüa üçün eyni bir nöqtə vahid başlanğıcı təşkil edir. Belə başlanğıclar, bir qayda olaraq, yaratdığı istənilən hər bir ayrıca başlanğıcdan eyni məsafədə və onların ayrı-ayrı hər birinə münasibətdə kənarda yerləşir. Məsələn, bir nöqtədən çıxan bütün şüalar üçün həmin nöqtə ümumi məsafədədir və hər bir ayrıca şüaya münasibətdə ondan kənardır, çünki ay-

rıca bir şüada olsaydı eyni zamanda başqa şüanın başlanğıcı olması istisna olunardı. Biz belə başlanğıcı mütləq ən ümumi başlanğıc və ya başlanğıcların başlanğıcı kimi təyin edə bilərik. Bütün mövcud başlanğıclar əmələgəlmə prosesində meydana çıxdığından, təbiət sferasındadır; buna görə də bütün başlanğıcların vahid başlanğıcı onların hamısına münasibətdə onlardan kənarda olmalı olduğundan, təbiət sferasından yox, yalnız metafizikadan aşkarlamaq olar.

Başlanğıcların bir çox formaları vardır:

1. **Özündə başlanğıc:** Hər bir şeyin maddəsi həmin şeyin özündə başlanğıcdır. Özündə başlanğıc özündə şeyin əsasıdır. Belə başlanğıc olmadan özündə şey mövcud olmur. Yəni maddəsiz şey meydana çıxmır. Özündə başlanğıcdan bilavasitəlik xarakteristikası yaranır. Bütün obyektiv gerçəkliklərin əsas xarakteristikası bilavasitəlikdir.
2. **Özü-özündə başlanğıc:** Tamı əmələ gətirən hissələrin sıralanmasında özündə sonralıq saxlamayan əvvəlin özündə saxlanması özü-özündə başlanğıca malik olmağı meydana çıxarır. Məsələn, düz xəttin başlanğıc nöqtəsi həmin düz xəttin özündədir.
3. **Özündənkənar başlanğıc:** Hər hansı bir şey tərkib hissə kimi iştirakçılığa görə başlanğıc təşkil etmirsə belə başlanğıc özündənkənar başlanğıcdır. Məsələn, valideyn öz övladlarının özündənkənar başlanğıcıdır. Yəni onları əmələ gətirir, amma bu zaman bilavasitə onlara keçmir, yəni həm öz müstəqil mövcudluğunu hifz edir, həm də onlara mövcudolmaqlıq verir. Biz, şeylərin sonsuz çoxluğunun yaranmasında iştirakçılığa görə özündənkənar başlanğıc kimi Varlığı, Kosmosun özündənkənar başlanğıcı kimi metafizik aləmi – Kosmologiyanı, insanın özündən kənar başlanğıcı kimi Ruhu, və bütün bu başlanğıcların başlanğıcı kimi Allah ideyasını təyin edirik.

Başlanğıcların sayına görə aşağıdakı başlanğıcları ayırd etmək olar:

1. **Tək başlanğıclıq:** Hər hansı bir şey yalnız bir başlanğıca malikdirsə belə şeyləri təkbaşlanğıclı şeylər kimi təyin etmək olar. Məsələn, bütün canlılar bədənlərinə görə bioloji başlanğıca malikdir və ya bütün

fiziki cisimlər yalnız bir başlanğıca – maddi başlanğıca malikdir. Tək başlanğıclıq nizamlılığı, özündə hər hansı bir qanuna tabe olmaqlığı təzahür etdirir. Yəni tək başlanğıca malik istənilən şey nizama tabedir.

2. **Çoxbaşlanğıclıq:** Hər hansı bir varlıqda eyni zamanda bir neçə başlanğıc varsa belə varlıq çoxbaşlanğıclıdır. Çoxbaşlanğıclıqdan çoxmahiyyətlilik yaranır. Maddi aləm tək başlanğıclıq əsasında təşkil olunduğundan fiziki dünyada birmahiyyətlilik hakimdir. Bundan fərqli olaraq metafizik aləmdə çoxbaşlanğıclıq olduğundan metafizik predmetlər çoxmahiyyətlidir. Mahiyyətin çoxluğu onların təzahüründə pərakəndəlik yaradır, nəticədə belə şeylər nizama tabe olmur, yəni özündə xaosu təqdim edirlər.

Başlanğıcın tərkibinə görə də iki cür başlanğıc vardır:

1. **Sadə başlanğıc:** Hər hansı bir şeyin başlanğıcı yalnız eyni bir iştirakçılıq varsa, belə başlanğıc sadə başlanğıcdır. Məsələn, oksigen qazı yalnız oksigen atomlarından əmələ gəlir.
2. **Mürəkkəb başlanğıc:** Hər hansı bir şeyin başlanğıcı iki və daha artıq eyni çəkili başlanğıcdan ibarətdirsə, belə başlanğıc mürəkkəb başlanğıcdır. Mürəkkəb başlanğıclarda tərəflərin biri iştirak etmədikdə mövcudolma meydana çıxmır. Mürəkkəb varlıqların başlanğıcı mürəkkəb başlanğıcdır. Məsələn, NaCl həm Na-dan, həm də Cl-dan eyni dərəcədə asılıdır; və ya ata və ana uşaq üçün bərabərçəkili başlanğıcdır.

İlkin Başlanğıc necə və nədən aşkarlana bilər?

Haşiyə: *Dekart*, "Ağlın rəhbərliyi üçün qaydalar"

"Yalnız o predmetlərlə məşğul olmaq lazımdır ki, bizim ağlımız aydın şəkildə dəqiq və şübhəsiz çatmaq qabiliyyətinə malikdir. Müzakirə olunan predmetlərə toxunanları başqalarının düşündüklərindən və ya bizim özümüzün ehtimal etdiyimizdən yox, ondan axtara bilərik ki, biz aydın dəqiq baxa və ya dəqiq şəkildə çıxara bilərik, belə ki, bilik başqa cür alınmır."

Dekartın qeyd etdiyi – "Bizim ağlımızın aydın şəkildə və şübhəsiz çatmaq qabiliyyətinə malik olduğu predmet" – hansı predmetdir? Ağıl predmetlərə iki yolla – hissi və qeyri-hissi yolla aydın və şübhəsiz çatmaq qabiliyyətinə malikdir:

a. Hissi yolla predmetə çatmaq qabiliyyəti: Hissi yolla predmetə yalnız o halda çatmaq olar ki, predmet maddi olsun. Maddi olmaq – özündə hiss yaratmaq xarakteristikasına malik olmağı özündə ifadə edir. Hiss yaratmaq qabiliyyəti kütlədən çıxdığından maddi olmaq həm də kütləyə malik olmağı özündə ifadə edir. Maddi olmaq, eyni zamanda forma ilə mahiyyətin vəhdətdə olmasını özündə təqdim edir. Hər bir forma ilə mahiyyət bəlli enerji hesabına vəhdət təşkil edir. Forma strukturlaşmadan meydana çıxır və hər bir strukturlaşma bəlli miqdar enerji hesabına reallaşır. Burada enerjinin miqdarı ilə hissi qavranılma arasında əlaqə aşkarlamaq mümkündür. Yəni hissi qavranılan maddi şey o zaman aktuallaşır ki, o hissi qavranılmağa imkan verən minimum enerji miqdarına malik olsun. Biz bunu maddiliyin minimal əsası və ya başlanğıcı kimi təyin edirik; hansı ki bu miqdardan az enerjidə maddə meydana çıxmır və buna görə də ağıl bu həcmdə enerjiyə malik şeyi hissi qavraya bilmir.

Haşiyə: *A. N. Uaythed*, "Elm və müasir dünya"

"Sonrakı bölünməyə məruz qalmayan, enerjinin minimum miqdarı vardır. Mahiyyətinə görə, enerji kütlədir."

Enerjinin, *A. N. Uaythedin* qeyd etdiyi minimum miqdarı minimum kütləyə bərabərdir. Kimyadan məlumdur ki, hər bir maddəni təşkil edən molekullar müəyyən atomlardan, hər bir atom isə bəlli sayda elektron, proton və neytrondan ibarətdir. Hər hansı bir molekuldan bir atomun qoparılması və ya hər hansı bir atomdan protonlardan birinin və ya bir neçəsinin ayrılması ilə konkret növ maddə yox olur və onun yerində başqa maddə meydana çıxır. Belə bölünməni "H" atomuna, yəni bir elektron və bir protondan ibarət ən kiçik atoma qədər bölmək olar. Hidrogendən elektronun və ya protonun ayrılması ilə maddilik xarakteristikası itir və hissəcik xarakteristikası yaranır, hansı ki maddi aləmdən fərqli qanunlara

tabe olur. Hidrogenin kütləsi vahiddir. "Bölünməyə məruz qalmayan enerji miqdarı" bir tərəfdən özündə maddiliyin başlanğıcını, digər tərəfdən hissəcikliyin sonunu özündə təqdim edir və buna görə də metafizikanın predmetinə daxil edilməlidir. Buradan istənilən minimum metafizik anlayış kimi təyin olunmalıdır. Beləliklə, bizim ağlımızın aydın şəkildə və şübhəsiz çatmaq qabiliyyətinə malik predmeti, sonrakı bölünməyə məruz qalmayan minimum enerjiyə malik predmet kimi təyin edirik.

b. Qeyri-hissi yolla predmetə çatmaq qabiliyyəti: İnsan ağlı yalnız hissi yolla predmetə çatmaq qabiliyyətinə malik deyil, o həm də predmetlərə qeyri-hissi yolla – nəzəri yolla çata bilir. Qeyri-hissi yolla predmetə çatmaq da özlüyündə iki yolla baş verir:

1. Əsası təcrübədə olan, hissi qavranılmanın təfəkkürdə sonrakı abstrakt davam etdirilməsi ilə predmetin daha dərin həqiqətlərinə çatmaq.
2. Bilavasitə əsası təcrübədə olmayan, təfəkkürün özü-özündə refleksiyası ilə həqiqətə çatmaq. Belə yolla qeyri-hissi qeyri-maddi predmetlər qavranılır. Məsələn, hissəciklər aləmi bu yolla qavranılır.

Bəs, "qeyri-hissi yolla çatılan predmet" hansı zəruri şərtə malik predmet hesab edilməlidir? Əgər hissi yolla çatılan predmeti "sonrakı bölünməyə məruz qalmayan minimum enerjiyə malik olan" kimi təyin ediriksə, onda qeyri-hissi yolla çatılan predmeti özündə "sonrakı nisbiləşməyə məruz qalmayan həqiqətə malik olan" kimi təyin edə bilərik. Həqiqətin nisbiləşməsi – emanasiya prosesində meydana çıxdığından, biz belə predmeti emanasiyaya məruz qalmayan kimi təyin edə bilərik. Emanasiya formanın təkmilləşməsi ilə müşayiət olunur. Deməli, belə predmet formaya malik olmayan və buna görə də – özü-üçün-varlıq təyini olmayan, yalnız xalis varlıq təyini olan, buna görə də mövcudluq kimi çıxış etməyən predmetlərə (Varlıq, Ruh, Allah və Kosmos) aiddir.

Bəs, başlanğıcların başlanğıcını necə aşkarlamaq olar? Bizim idrakımız seyrlə başlayır və seyrin obyekti idrakın sərhədlərini müəyyən edir; yəni biz diqqət etdiyimiz şeyi idrak edərkən biz onun sərhədlərindən kənara çıxmırıq. Şeyin bizim idrakımızı öz sərhədlərində saxlaması idrak

prosesinin xarici səbəbi kimi çıxış etməsi ilə bağlıdır, hansı ki hissi idrak kimi təzahür edir. *Kant* bunu *transsendental estetika* adlandırır, hansı ki hissiyyat bu cür seyrdə təcrid olunur. Metafizikada xarici seyr mümkün deyil. İnsan metafizik olaraq idrakı daxili seyr kimi reallaşdırır. Yəni obyekt haqqında təsəvvürlər ruhda özü-özündən yaradılır, sonra həmin yaradılan daxili seyrlə idraka cəlb olunur.

Nitsşenin diskurs etdiyimiz fikrinə əlavə edək ki, bütün filosoflar həm də bütün şeyləri "burada və indi" prinsipi ilə götürür və nəticədə zamandan və məkandan kənar həmin şeyin mahiyyətinə nüfuz etmir. Uzun illər elm də eyni üsulla inkişaf etmişdir. Yalnız elmin müasir inkişafı nəticəsində vəziyyəti dəyişdirmək mümkün oldu. Məsələn, biologiyada genetikanın inkişafı nəticəsində mövcud varlıq meydana çıxmamışdan, onun mahiyyətini qabaqcadan müəyyən edən *Mendelin* qanunları kəşf olundu. Astronomiyada göy cisimləri xarici seyr edilmədən, nə vaxt, harada, hansı göy cisminin seyr edilməsinin mümkünlüyü ilə bağlı dəqiq elmi məlumatlar yaranmağa başladı. *Mendeleyev* qabaqcadan məlum olmayan kimyəvi elementlərin bütün xassələrini elan etdi və s. Beləliklə, ənənəvi elm aktuallaşmadan, yeni elm – nəzəri elmlər potensiallıqdan, yəni mümkün varlıqdan həqiqətin əldə edilməsinə cəhd edir. Mümkünlüklər metafizik mahiyyətli olduğundan biz yeni elmlərlə metafizik həqiqətləri aşkarlayırıq.

Beləliklə, həqiqətin yalnız mövcud olan təbiətdən aşkarlanmasının yeganə düzgün yol hesab etmək artıq qəbul edilə bilməz. Başqa sözlə, biz təbiət mövcud olana qədərki vəziyyətdə Varlıqdan aydınlaşan həqiqətləri, mövcudluğun dağılması ilə onu əvəzləyən vəziyyətin həqiqətlərini və mövcudluqdan sonra təzahür edən varlığın qanunlarını aşkarlamaq vəzifəsini yerinə yetirməliyik ki, bu da metafizika elminin əsas vəzifəsi olmalıdır. Məhz təbiətdən əvvəl və mövcudluğun dağılmasından sonrakı vəziyyətdən aşkarlanan həqiqətlər Kosmosun – təbiətin və şeyin – mövcudluğun başlanğıcını təşkil edir. Mövcudluqdan sonrakı həqiqətlər isə özündə Ruh və Allah ideyası haqqında məlumatları aydınlaşdırır.

MÜDRİKLİYİN BAŞLANĞICI

Fəlsəfədə həqiqətin axtarılması – müdrikliyün instrumenti sözdür. Sözlər tarixi inkişaf prosesində bir tarixi dövrdən başqasına və ya idrakın bir sahəsindən digər sahəsinə və ya da bir dildən başqasına keçdikdə özlərində bir çox əlavə mənalar daşımağa başlayır. Beləliklə, söz nə qədər qədimdirsə, nə qədər bir dildən təkrar başqasına və nə qədər bir idrak sahəsindən başqasına keçmişdirsə, bir o qədər çox mənaya malik olur. Çoxmənalı sözlər həqiqətin aşkarlanmasında çətinlik törətməklə yanaşı, belə sözlər özlərində qarışıq və dumanlı həqiqətləri ifadə edirlər.

Haşiyə: *Corc Berkli*, "İnsan biliyinin prinsipləri haqqında traktat"

"Ağlın özündən az yayılan hər hansı bir şey, fikrin ümumi yayılmasının mənbəyi ola bilməz. Əgər dil və ya ümumi işarələr kimi predmetlər olmasaydı, heç vaxt fikirlər mücərrədlikdən meydana çıxmazdı. Mücərrəd ideyalar haqqında təlimin söz hansı şəkildə meydana çıxmasına gətirib çıxarıb, qeyd etmək lazımdır ki, belə bir yayılmış fikir var ki, guya dilin bizim ideyaları bildirməkdən başqa məqsədi yoxdur, və guya hər hansı bir şeyi bildirən ad ideya bildirir. Amma biliyin böyük bir hissəsinin belə təəccüblü dolaşığa düşməsi və qaranlıqlaşması sözdən sui-istifadəyə və dilin ümumi qəbul edilmiş dönmələrinə görə olub, hansı ki onlardan meydana çıxır. Hətta sual meydana çıxa bilər: dil elmlərin nailiyyətinə kömək etməkdən daha çox onlara mane olmurmu?"

C. Berklinin fikirlərindən görünür ki, bir tərəfdən söz ağlın yayıla bilməyəcəyi dərəcədə fikrin yayılmasının və fikirlərin mücərrədləşdirilməsinin yeganə vasitəsidir; eyni zamanda, bu prosesdə söz həqiqətin entropiya vasitəsi, dil isə entropiya mühiti kimi çıxış edir. Söz yalnız çoxmənalılığına görə həqiqəti entropiya edir. Yəni biz hər hansı bir həqiqəti çoxmənalı sözlə ifadə etdikdə həmin sözü eşidən insan özündə sözün ona məlum olan mənasının daşıdığı ideyanı başa düşür. Beləliklə, çoxmənalı sözün daxilində bir həqiqət digəri ilə kortəbii əvəzlənir. Nəticədə həqiqət dolaşığa düşür. Ona görə, həqiqətin dəqiqliyi sözün birmənalılığından aşkarlana bilər. Bu baxımdan fəlsəfi anlayışların mənalarının şərh edilməsi

və hər bir sözün başlanğıc mənasını tapmaq lazım gəlir. Çoxmənalı sözlərdə mənalar sözün daxilində iyerarxiya təşkil edirlər. Sintetik sözün başlanğıc mənası ən sadə, ən qədim, yarandığı şeyə münasibətdə şeyə ən yaxın və yarandığı birinci dilə uyğun olan məna hesab edilə bilər, hansı ki konkret obyektlə bilavasitə təmasda meydana gəlir. Əgər söz dialektikdirsə, onda həmin sözü yaradan şəxsin o sözlə ifadə etdiyi birinci mənaya istinad etmək lazımdır.

Əslində, *Aristotelin* "Metafizika"sı fəlsəfənin – həqiqətin şüurlu axtarılmasının, yəni müdrikliyün başlanğıcı haqqında müddəalardan ibarətdir. Bəzi müəlliflər fəlsəfənin başlanğıcını *birinci fəlsəfə* adlandırır. Fəlsəfənin başlanğıcı fəlsəfi idrakın əsasında duran hər bir anlayışın başlanğıcının müəyyən edilməsindən ibarətdir. Belə ki, fəlsəfədə istifadə edilən hər bir anlayış ən müxtəlif mənalar daşıya bilir. Məhz hər bir anlayışın yalnız bir mənası həmin anlayışın başlanğıc mənasını təşkil edir. Beləliklə, fəlsəfi anlayışların başlanğıc mənalarının aşkarlanması da birinci fəlsəfəni və ya Metafizikanın predmetinə daxil olur. Buna görə də biz, Metafizikanı fəlsəfi anlayışların başlanğıc mənası əsasında başlanğıcların başlanğıcını aşkarlayan elm kimi təyin edirik.

Haşiyə: *A. N. Uaythed*, "Düşüncə üsulu"

"Fəlsəfi girişin birinci fəsli özündə bizim gündəlik həyatımızın təbii əmələ gələn anlayışlarını, bəzi başlanğıcların azad tədqiqini özünə daxil etməlidir."

A. N. Uaythedin şərhindən görünür ki, birinci fəlsəfəyə həm də fəlsəfənin şərhində iştirak edən, cari şüurla sintetik yolla əldə edilmiş "gündəlik həyatın təbii əmələ gələn anlayışları"nın şərhi də daxil olmalıdır. Çünki bir çox sözlər cari şüurdan fəlsəfəyə keçməklə anlayış rolunda çıxış edir. Məsələn, şey, tək, söz, tam, hissə, hüdud, yalan, şər, xeyir, fərq və s, hansı ki *Aristotelin* metafizikasında fəlsəfi anlayışlarla yanaşı belə sintetik anlayışların birinci mənasının müəyyənləşdirilməsinə cəhd edilmişdir. Müxtəlif şüur formalarından fəlsəfəyə keçmiş sözlər həmin formaların idrak instrumentləri kimi çıxış etdiyindən, həmin sözlərlə idrak ümumi

həqiqətin idrakına gətirib çıxarmır. Buna görə də, belə sözlərin yaranışdan birinci yox, subyektin obyektə münasibətində birinci mənasını, yəni qeyri-fəlsəfi sözlərin son mənasını axtarmaq lazımdır.

Sözün çoxmənalılığı ilə yanaşı sözün oxşarlığa görə istifadə olunması da həqiqətin dərkinə mane olur. Biz bunun iki formasını ayırd edə bilərik: birincisi, iki müxtəlif təzahürün zahiri oxşarlığına görə eyni bir sözlə ifadə edilməsi; ikincisi, oxşar sözlərlə bir və eyni təzahürün ifadə edilməsi. Elmdə ümumiyyətlə həqiqi oxşarlığa görə sözlərdən istifadə *analogiya* adlanır.

Haşiyə: *Ditrix fon Qildebrand*, "Məhəbbətin metafizikası"

"Hər cür mümkün dumanlı analogiyaya hər yerdə rast gəlmək olar. Təcrübəsiz insanları aldadan, yalan uyğunluqlarla yanaşı, tədqiq olunan obyekti yalan işıqda görünməyə gətirib çıxaran analogiyalar mövcuddur. Bu xüsusən o yerlərdə olur ki, bir və eyni termin iki müxtəlif şeyə münasibətdə işlənir və iki analoji təzahürə bir növün iki forması kimi baxılır."

D. fon Qildebrandın fikirlərindən görünür ki, analogiyalar bir tərəfdən sadəlövh insanları aldadır, digər tərəfdən bir çox hallarda tədqiq edilən obyekti idraka yalan işıqda təqdim etməklə hətta müəyyən biliyi və təcrübəsi olan insanları da çaşdırır. Metafizika haqqında mövcud səhv düşüncələrin əsas qaynaqlarından biri məhz təbiət təzahürləri ilə metafizika arasında analogiya aparılmasıdır, hansı ki buradan iki nəticə çıxır: birincisi, bir çox insanlar metafizik biliklərin dəqiqliyinə şübhə edir; ikincisi, metafizika özü insanlara elə yalan işıqda təqdim edilir ki, metafizikanın dərkedilməzliyi ilə bağlı fikirlər meydana çıxır və ya ən yaxşı halda belə yalan işıqda idraka təqdim edilən metafizika xurafat kimi qavranılır. Bu baxımdan elmi terminlərin də onların şeyə münasibətdə həqiqi mənasını təyin etmək zərurəti yaranır.

Qeyd etdik ki, metafizikanın əsas instrumenti fikirdir. Əgər sözlər çoxmənalılığından azad edilib onların ilkin mənasının aşkarlanması münasibətdə olduğu şeyləri yəqinləşdirirsə, ideyaların birfikirliliyindən həqiqətə münasibətdə dəqiqliyi müəyyənləşir. Məsələn, azadlıq ideyasının

sonsuz sayda izahı mövcuddur. Amma azadlıq ideyasının birinci fikri təsadüfə görə mövcudluqdur, yəni şərtsiz təzahür imkanıdır. Buna görə də biz metafizikanı mütləq azadlıq dərəcəsində mövcud olan aləm kimi təyin edirik.

Beləliklə, birinci fəlsəfəyə həm də fəlsəfi təlimlərin hamısı üçün zəruri olan ideyaların birinci fikrinin dəqiqləşdirilməsi aid edilməlidir. Bura fəlsəfi sistemin əsasında duran – fəlsəfi doksa, fəlsəfi ideya, fəlsəfi fikir, fəlsəfi təlim aid edilməlidir.

B. Səbəblər

Metafizikanın ikinci problemi kimi səbəbləri müəyyənləşdirmək olar. Səbəb, nəticə ilə vəhdətdə həqiqətin aşkarlanmasında mühüm əhəmiyyət kəsb edən kateqoriyalardandır. Təcrübədə şüura təqdim edilmiş hər bir reallıq özü-özündə son nəticəni təqdim etdiyindən, nəticə ilə vəhdət təşkil edən hər bir səbəbi həmin reallıqdan kənarda axtarmaq lazım gəlir. Buna görə də, əgər təbiəti total tam şey kimi təsəvvür etsək, onda sonuncu total nəticə olan təbiətin birinci total səbəbini də təbiətdən kənarda axtarmaq lazım gələcək. Bununla da, birinci səbəb metafizikanın predmetinə çevrilir. Səbəb metafizik olduğundan yalnız düşüncə ilə aşkarlanandır.

Haşiyə: Devid *Yum*, "İnsan təbiəti haqqında traktat"

"Bütün mühakimə növləri üst-üstə düşmədən (comparison) və bir-birinin yanında olan iki obyektin daimi və ya müvəqqəti münasibətlərindən başqa bir şey deyil. Biz bu müqayisəni, hər iki obyekt hisslə qavranılanda və ya heç biri qavranılmayanda, və ya onlardan biri üzdə olanda apara bilərik. Eyniliklər və ya zaman və yer münasibəti üzərində müşahidəni düşüncə hesab edə bilmərik, belə ki, bu müşahidələrin heç birində ağıl bilavasitə hisslə verilənin sərhədlərindən çıxa və ya obyektlər arasındakı münasibəti və ya real mövcudluğu aşkarlaya bilmir. Yalnız səbəbilik belə rabitə yaradır, ona görə biz hər hansı bir obyektin mövcudluğundan və ya təsirindən onun arxasınca və ondan əvvəl başqa mövcudluq və ya təsirin olmasına inamı tükəndiririk. Obyektlərdə onların həmişə bir-birindən

ayrı olmasına və ya həmişə qarışıq olmasına bizi inandıran heç nə yoxdur. Təcrübənin və müşahidənin köməyi ilə biz həmişə belə nəticəyə gəlirik ki, onları birləşdirən və ya ayıran hansısa gizli səbəb vardır. Beləliklə, ideyaların özündən asılı olmayan üç münasibətdən – eynilik, zaman və məkana görə vəziyyət və səbəbilik – yeganə münasibət səbəbilikdir ki, bizi hisslərimizin sərhədlərindən çıxara və bizi bizim görmədiyimiz və hiss etmədiyimiz obyektlərlə tanış edə bilər. Səbəbilik ideyası obyektlərarası münasibətdən əmələ gəlir: birincisi, bütün obyektlər qarışıqdır, heç bir obyekt zamandan və məkandan ayrılıqda təsir göstərə bilməz. İkincisi, təsirin səbəbindən vaxta görə öncəgəlməklik münasibəti. Üçüncüsü, zəruri rabitə. Baxmayaraq ki, səbəb və təsir ideyası yalnız hissiyyatın təəssüratından əmələ gəlmir, həm də refleksiyanın təəssüratından əmələ gəlir, qısalıq xatirinə bu ideyanın mənbəyi yalnız birincini xatırladıram: qoy mənim birinci haqqında bütün dediklərim, ikinciyə də tətbiq olunsun. Xarici cisimlərin öz aralarında birləşməsinə uyğun, ehtiraslar da öz obyektləri və bir-biri ilə birləşmişdir. Beləliklə səbəb və təsirin birinə aid münasibətlər ümumi və hamısı üçün olmalıdır."

Burada *D. Yumun* səbəblə bağlı şərhlərinə belə uzun-uzadı istinad etməmiz təsadüfi deyil. Belə ki, səbəbiliyin mahiyyəti ilə bağlı *D. Yum* qədər aydın, sonra isə səbəbiliyin zəruriliyini şübhə altına alan bir o qədər bulanıq fikirlər söyləmiş ikinci bir filosof tapmaq çətindir. *D. Yumun* fikirlərindən görünür ki, səbəbilik bizi (ağlı) şeyin sərhədlərindən çıxarıb, həmin şeylə eyni zamanda təcrübədə şüura hissi qavrayış üçün verilməmiş digər şeylə tanış edən prinsipdir. Bu baxımdan bütünlükdə təbiətin sərhədlərindən kənarda olan həqiqətləri aşkarlamaq məqsədi güdən metafizika üçün səbəbilik, eyni qaydada bizi təbiətin sərhədlərindən kənardakı həqiqətləri aşkarlamağımıza kömək edən ilk başlanğıc qədər əhəmiyyətlidir. Yəni səbəb təbiətdə olanlarla təbiətdən kənarda olanlar arasında rabitəni özündə təqdim edir. Səbəb həm təbiətdən əvvəl, həm də sonra arasında rabitə yaratdığından universal prinsip kimi çıxış edir. *D. Yuma* görə səbəb "obyektlərdə onların həmişə bir-birindən ayrı olmasına və ya həmi-

şə qarışıq olmasına bizi inandıran heç nə olmadığından" təcrübə və müşahidənin köməyi ilə onların ayrı və ya qarışıq olmasını müəyyən edən prinsipdir. Başqa sözlə, *Yumun* bu fikri səbəbin xalis reflektiv anlayış olduğunu göstərir; hansı ki obyektlərdən yox, onların təfəkkürdə refleksiyasından onlar arasındakı ikincili ideya kimi aşkarlanır. Nəhayət, *Yum* səbəbin zəruriliyi ideyasının şeylərin eyni məkan və zamanla şərtlənmə zərurətindən, onların zamana görə ardıcıllığından və nəhayət onlar arasında rabitənin zəruriliyindən əldə edildiyini göstərir. Yəni səbəbin zəruriliyi özündə digər münasibətlərin zəruriliyini refleksiya edir. *Yum* haqlı olaraq xarici obyektlərin birləşməsinə uyğun ehtirasların (hissi qavrayışın) bir-biri və obyektlərlə birləşdiyini qeyd edir və əlavə etmək lazımdır ki, ehtirasların bir-biri və obyektlərlə birləşdiyi kimi, həmin ehtiraslardan doğan ideyalar da həm bir-biri ilə (ideyaların assosiasiyası) və həm də ehtiraslarla – hissi qavrayışdan yaranan təəssüratlarla birləşir. Buradan da səbəbilik xalis reflektiv ideya kimi yox, qarışıq, həm reflektiv həm də hissi təsirdən yaranan ideya kimi meydana çıxır.

Haşiyə: *F. Nitsşe*, "İnsani, həddən ziyadə insani"

"Metafizik fəlsəfə 'nəsə necə özünün əksiliyindən əmələ gələ bilər' çətinliyini bir şeydən başqasının əməlgəlməsini inkar etməklə dəf etmişdir və daha ali dəyərləndirilən şeylərin möcüzəvi mənşəyini 'özündə şey'in mövcudluğundan və bilavasitə nüvəsi qəbul etmişdir."

Nitsşenin fikirlərindən göründüyü kimi metafizika fəlsəfədən fərqli iki yolla inkişaf etmişdir. Birincisi, bütünlükdə şeylərin paralel əməlgəlmə prinsipini qəbul etmiş; ikincisi, bəzi şeyləri digərlərindən ayıraraq, "özündə şeyin" – mütləq faktın mövcudluğunda xüsusi səbəbə malik olduqlarını elan etmişdir. Buradan da metafizika ardıcıl əməlgəlmə prinsipi ilə mövcud olan təbiətdən çıxaraq yaranış aləminə paralel əməlgəlmələr aləminə daxil olmuş və təbiətin iyerarxiya prinsipindən imtina etməsinə baxmayaraq, yaranış aləminin iyerarxik prinsipini kəşf etmişdir.

Fəlsəfədə səbəb hadisələrin, təzahürlərin, proseslərin bir-birini şərtləndirməsi kimi təyin olunub. Nəzərə alsaq ki, hadisələr, proseslər və tə-

zahürlərin ümumi məcmusu özündə mövcudolmanı təqdim edir, onda demək olar ki, hər hansı bir şeyin mövcudolmasının başqa şeyin mövcudolması ilə şərtlənməsi **səbəb** kimi təyin oluna bilər. Səbəblə bağlı fəlsəfədə ümumi qəbul edilmiş müddəaya görə, bütün hər şey nə ki mövcud olmağa başlayır, mövcudluq üçün səbəbi olmalıdır. Nə üçün mövcudolmalar bir-birini mütləq şərtləndirir, yəni səbəb zəruri prinsip kimi çıxış edir? Birincisi, təbiətdə heç bir mövcudluq ayrılıqda tək mövcud olmadığından, biz mövcudluqların vəhdətdə mövcud olmasını təmin edən gücü səbəb kimi təyin edirik. Yəni səbəb yoxdursa, vəhdət yoxdur; vəhdət yoxdursa, ayrılıqda tək mövcud olmaq mümkün olmadığından, ümumiyyətlə mövcudolma mümkün deyil. İkincisi, səbəbin zəruriliyi həm də onunla bağlıdır ki, heç bir mövcudluq (fakt) öz-özünə mövcudolana (akta) çevrilmir (aktuallaşmır). Faktın aktuallaşması faktdan kənardan ona yönəlmiş təsirlə baş verir, yəni mövcudolma mövcudluğu məhv etməyə, onu sıxışdırmağa cəhd edən təsirlərə mövcudluğun əks-təsiri kimi təzahür edir. Beləliklə, aktuallaşma mütləq faktın həqiqətinin entropiyaya məruz qalması nəticəsində meydana çıxan real nisbi faktı özündə təqdim edir. Yəni mövcudolma – akt – xarici təsirin nəticəsi kimi meydana çıxır. Burada təsir ifadəsi özündə səbəbiliyi ifadə edir. Əgər nəzəri olaraq belə hesab etsək ki, ayrılıqda götürülmüş yalnız bir fakt vardır, onda həmin fakta heç bir xarici təhlükə olmadığından o mövcud ola bilməz, yəni nəticə kimi çıxış edə bilməz, bununla da o yalnız xalis səbəb olaraq qalar. Beləliklə, səbəb faktı aktuallaşdıran mövcudluqdankənar xarici amildir; başqa sözlə, səbəb – başlanğıc kimi çıxış edən başqa mövcudluqda olan, amma vəhdətdə olduğu mövcudluğa təsir edərək onun vəziyyətini dəyişən, yəni onu aktuallaşdıran aktiv gücdür. Əgər səbəb xarici yox daxili olsaydı və ya ümumiyyətlə səbəb olmasaydı, onda mövcudluq (fakt) olmazdı, çünki daxili səbəbiliyə görə yalnız mövcudolma olardı. Mövcudluqsuz mövcudolma və ya faktsız akt absurddur; belə ki, fəlsəfədə iddia edildiyi kimi, hər şeyin səbəbi olmalıdır, əgər hər hansı bir şeyin səbəbi yoxdursa, o

özü-özünü yaradardı, yəni mövcudolanaqədər (fakt olana qədər) mövcudolardı (akt olardı), bu da mümkün deyil.

Haşiyə: *D. Yum*, "İnsan təbiəti haqqında traktat"

"Belə ehtimal olunur ki, 'hər şeyin mövcudolması üçün səbəb olmalıdır' müddəası intuisiyaya əsaslanır və o müddəaların sırasına aiddir ki, baxmayaraq ki, insanlar sözdə inkar etsələr də real olaraq qəlblərində şübhələnmir. Əgər biz bu müddəanı bilik ideyasının köməyi ilə tədqiq etsək, onda biz onda heç bir belə növ intuitiv yəqinliyin heç bir əlamətinə rast gəlmərik, əksinə onun öz təbiəti etibarı ilə tamamilə bu növ inamlılığa yad olduğunu taparıq."

Göründüyü kimi, fəlsəfədə ümumi qəbul edilmiş səbəbin zəruriliyi prinsipi *D. Yum* tərəfindən şübhə altına alınır və o səbəbin zəruriliyi haqqında fəlsəfədə hakim olan fikirləri səhv hesab edir və öz fikirlərini onunla sübut etməyə cəhd edir ki, **birincisi**, bilik ideyasının köməyi ilə tədqiq edildikdə "hər şeyin mövcudolması üçün səbəb olmalıdır" müddəası intuitiv yəqinliyə malik deyil.

Təkzib: *D. Yuma* görə, yeddi fəlsəfi münasibətdən – oxşarlıq, eynilik, zaman və yer münasibəti, miqdari və ya say nisbəti, keyfiyyətin hansısa dərəcəsi, əksilik və səbəblik – istisnasız olaraq ideyalardan asılı olan yalnız dördü – oxşarlıq, əksilik, keyfiyyət dərəcəsi, miqdari və ya say nisbəti – biliyin və ya yəqinliyin predmeti ola bilər. Bunlardan üçü ilk baxışdan aşkarlana bilər və intuisiya nahiyəsinə aid edilə bilər, nəinki demonstrasiya nahiyəsinə. *Yumun* fikirlərindən görünür ki, səbəbilik nə intuitiv – iki ideyanın münasibətinə ağlın bilavasitə baxışı, nə də demonstrativ – təcrübədən asılı olmadan sübutların ciddi zəruri məntiqi gedişi – nahiyəsinə aid deyil. Səbəbiliyin intuitiv nahiyəyə aid olması üçün ağıl onu iki ideyaya bilavasitə baxışından əldə etməlidir. Bizcə, səbəbilik hər iki ideyaya aiddir. Belə ki, ağıl səbəb və nəticə ideyalarına birgə baxışından birindən digərini aşkarlayır və bu zaman təcrübə və müşahidə rol oynamır. Buna görə də, intuitiv nahiyəyə aid edilməlidir. Səbəbilik həm də demonstrativ nahiyəyə aiddir, çünki *D. Yumun* da qeyd etdiyi kimi, səbə-

bilik ideyası refleksiyadan yaranır. Bilavasitə hissi qavrayışla yalnız əbədi şeylərin ayrı-ayrılıqda sadə ideyaları aşkarlanır, sonra təfəkkürdə abstraksiya ilə həmin ideyaların qarşılıqlı rabitəsindən ikincili – reflektiv ideyalar meydana çıxır. Səbəb və nəticə ideyası da belə meydana gəlir. Digər tərəfdən, səbəb ən ümuminin idrakına kömək edən hipotetik konstruktordur. Ən ümumi isə hissi təcrübədən yox, yalnız təfəkkürün özüözündə refleksiyasından abstrakt yolla aşkarlanır. Bizim təcrübədə ən ümumini aşkarlamaq imkanımız yoxdur.

İkincisi, "bütün yəqinliklər ideyaların müqayisəsindən və ideyalar dəyişmədikcə dəyişilməz qalan belə münasibətlərin aşkarlanmasından əmələ gəlir. Bu münasibətlər oxşarlıq, miqdar və ya say, nisbət, keyfiyyətin dərəcəsi və əksilik aiddir. Bunlardan heç biri səbəbiliyin zəruriliyi haqqındakı müddəaya daxil olmur. Beləliklə bu müddəa intuitiv (iki ideyanın münasibətinə ağılla bilavasitə baxılması) yəqin deyil."

Təkzib: *D. Yumun* bu müddəası ona görə qəbul edilə bilməz ki, bütün münasibətlər yalnız mövcudolanlar arasında meydana çıxır. Beləliklə, səbəbsiz mövcudolma, mövcudolmasız münasibət meydana çıxmadığından, məntiqin məlum prinsipinə görə, səbəbsiz münasibət meydana çıxa bilməz. Bu da bütün münasibətlərin səbəbin zəruriliyi prinsipinə dolayısı yolla, mövcudolma ilə daxil olduğunu sübut edir.

Üçüncüsü, "biz hər bir yeni mövcudolma üçün və ya mövcudluğun hər bir yeni dəyişilməsi üçün səbəbin zəruriliyini, eyni zamanda istənilən şeyin nə vaxtsa yaradıcı prinsip olmadan mövcud olmağa başlayacağının mümkünsüzlüyünü sübut edə bilmərik; əgər sonuncu müddəa sübut oluna bilməzsə, biz birincinin sübutunun nə vaxtsa mümkün olacağından ümidimizi itirməliyik. İkinci müddəanın demonstrativ (təcrübədən asılı olmadan sübutunun ciddi zəruri məntiqi gedişi) sübut olunmasının tam mümkünsüzlüyünə, bütün aydın ideyaların bir-birindən ayrıla bilməsini nəzərə aldıqda əmin ola bilərik: beləliklə səbəb və fəaliyyət ideyası çox güman ki, bir-birindən fərqlidir, onda bizə, səbəbin aydın ideyasını və ya yaradı-

cı prinsipi birləşdirmədən, indiki məqamda mövcud olmayan və növbəti məqamda mövcud olacaq hansısa obyekti təsəvvür etmək asan olacaq."

Təkzib: Doğrudanmı *D. Yumun* qeyd etdiyi kimi, yaradıcı prinsip olmadan yaradılan ola bilər? Əgər bir şeyin yaradılması yaradıcı prinsiplə reallaşırsa, onda həmin prinsip olmadan həmin şeylə eyniyyət təşkil edən yaradılanı yaratmaq mümkün deyil, çünki eyni prinsiplə yalnız eyni şey yarana bilər. Yox əgər mümkündürsə, onda yaradıcı prinsiplə yaradılanla, bu prinsipsiz yaradılması mümkün olan bir-biri ilə eynilik təşkil edə bilməz. Məsələn, irreallıqlar yaradıcı prinsiplə yaradılmadığından, onların mövcudluğu yaradıcı prinsiplə yaradılan reallıqların mövcudluğundan fərqlənir. Beləliklə, biz yaradıcı prinsip olmadan mövcudolmaya başlamağın mümkünsüzlüyünü sübut etmiş oluruq, bununla da, deməli, birinci prinsip də – hər şeyin mövcud olması üçün səbəb olmalıdır prinsipi də – avtomatik sübut olunmuş olur. Digər tərəfdən "aydın ideyaların bir-birindən ayrılan olması" yalnız fikrən mümkündür. Belə ki, özündə aydın ideyaların həqiqətini təzahür etdirən əbədi şeylər reallıqda yalnız vəhdətdə – bir-birindən ayrılmaz şəkildə mövcud olduğundan, onların ideyaları da bir-birindən ayrılmazdır. Biz ayrılıqda tək şeyi yalnız fikrən götürə bildiyimizdən aydın ideyaların bir-birindən ayrılan olması da yalnız fikrən doğrudur. Ona görə də, həqiqətdə aydın ideyalar bir-birindən ayrılmadığından səbəb və təsir ideyası da bir-birindən reallıqda ayrılan və fərqli deyil, onda deməli ikinci ideyanın – yaradıcı prinsip olmadan mövcud olmağa başlayacağının mümkünsüzlüyünü sübut edə bilərik. Səbəbin aydın ideyası və ya yaradıcı prinsip ayrılmayan olduğundan, indiki məqamda mövcud olmayan və növbəti məqamda mövcud olacaq hansısa obyekti təsəvvür etmək mümkün deyil.

Dördüncüsü, "hər şey səbəbə malik olmalıdır, belə ki, hər hansı bir şeyin səbəbi yoxdursa, o özü-özünü yaratmalıdır, yəni öz mövcudluğuna qədər mövcud olmalıdır, bu da mümkün deyil. Demək ki, hər hansı şey səbəbsiz yaranır və ya daha dəqiqi səbəbsiz mövcud olur – bu onun özü-özünün səbəbi olduğunu təsdiq etmək demək deyil; əksinə, bütün xarici

səbəbləri istisna *a fortiori* yaradılmış şeyləri istisna edir. Mütləq şəkildə heç bir səbəbsiz mövcud olan obyekt, əlbəttə, özü-özünün səbəbi deyil."

Təkzib: *D. Yumun* bu müddəası ilk baxışda doğrudur, belə ki, əgər ümumiyyətlə səbəb inkar olunursa onda onun "özündənkənar və ya özündə olması" da avtomatik inkar olunur. Burada *Yum* əvvəlcə ehtimali olaraq fikrən səbəbsiz mövcudolmanı qəbul edir, sonra səbəbsiz mövcudolmanın özü-özünün səbəbi olmadığını "sübut" edir. Əgər *D. Yumun* dediklərini həqiqət kimi qəbul etsək, yəni səbəbsiz yaradılma inkar olunmursa, onda səbəbli yarananlarla səbəbsiz yarananların təbii rabitəsini – *connection* – vəhdətini təsəvvür etmək mümkün deyil. Əgər belə bir vəhdət yoxdursa onda onlar eyni sistemə daxil deyillər. Məsələn, hissəciklər hissi qavranılan maddi şeylər sferasına daxil olmadığından, onlar fərqli qanunlara tabe olur və buna görə də eyni məntiqlə hissəciklər və maddi şeylər haqqında mühakimə yürüdülmür. Bu baxımdan səbəbsiz mövcud olmayanlarla səbəbsiz mövcud olanlar eyni məntiqlə müqayisə oluna bilməz. Əgər bütün xarici səbəbləri təsdiq yalnız prior yaradılmış şeyləri təsdiq edirsə, onda *D. Yumun* dediyinin əksinə, bütün xarici səbəbləri istisna prior şeyləri istisna *a fortiori* (daha güclü əsasla) yaradılmış şeyləri təsdiq edir. Təbiətdə *a fortiori* yaradılmış şey olmadığından, çünki hər şey eyni güclü əsasla yaradıldığından paralel mövcudolma meydana çıxıb, prior şeylərlə xarici səbəbsiz yaradılan *a fortiori* şeylər arasında müqayisə aparmaq düz deyil.

Beşincisi, "səbəbsiz yaranan hər şey heç nədən yaranır və ya başqa sözlə öz səbəbi heç nədir. Heç nə heç vaxt səbəb ola bilməz. İstənilən səbəbi istisna etmək, biz həqiqətən onları istisna edirik və nə heç nənin, nə obyektin özünü mövcudluğun səbəbi keyfiyyətində tanımırıq, deməli, istisnanın özünün absurdluluğunu sübut edə bilsək, ehtimal olunan arqumenti absurdluqdan çıxara bilmərik. Əgər hər şey səbəbə malik olmalıdırsa, onda buradan belə çıxır ki, başqa səbəbləri istisna etməklə biz ya heç nənin, ya da obyektin səbəbini etiraf etməliyik."

Təkzib: *D. Yumla* razılaşmaq lazımdır ki, həqiqətən səbəbsiz yaradılma özündə istənilən səbəbi, o cümlədən heç nəni və obyekti də səbəb keyfiyyətində istisna edir. Bizim ideyalarımız ya nədən – Varlıqdan, ya da heç nədən – Yoxluqdan çıxır. Amma heç bir halda heçlikdən çıxmır. Varlıqdan çıxan ideyalar hissi qavranılan maddi şeylərdən, heç nədən çıxan ideyalar ruhun özündən aşkarlanır. Onda, "səbəbsiz yaradılma ideyası" haradan əldə edilir? Bu suala cavab vermək mümkün olmadığından *D. Yumun* fikirləri özü absurddur. İstisna bir prinsip kimi absurd ola bilərmi, hansı ki mövcudluğun və mövcudolmanın əsas xarakteristikasıdır? İstisna təbii rabitənin bir forması olduğundan absurd ola bilməz. Məsələn, hər bir şey özündə başqa şeyi istisna etməklə mövcud olur. Əgər istisna ümumiyyətlə absurd deyilsə, onda istənilən səbəbi istisna etmək absurd olaraq qalır.

Səbəb – həqiqətin özünü aydınlaşdırma cəhdi olduğundan, səbəbsiz heç bir şeydə və ya hadisədə həqiqət – mövcudluğun mənası olmazdı. Nəticədə, reallıq təzahür etməzdi. Səbəb mövcudluğa təsir edərək onu mövcudolana çevirdikdə xarici gücdən mövcudluğun daxili gücünə çevrilir və necə ki, həmin güc mövcudolanda saxlanır, aktuallaşma davam edir. Beləliklə, səbəb aktuallaşmanın sürəkliliyini təmin edən daxildəki xarici güc kimi təzahür edir. Səbəbin bu cür ikili xarakteristikası onu metafizikanın əsas predmetlərindən birinə çevirir. Metafizika təbiətdənkənar həqiqətləri aşkarladığından, metafizik səbəb kimi, başlanğıc səbəb kimi təbiətdən kənarda yalnız fikrən aşkarlanan səbəbləri təyin edə bilərik. Səbəb fəlsəfədə nəticə ilə bilavasitə vəhdət təşkil edən, nəticəni doğuran, nəticədən əvvəl olan, nəticənin təzahürlərini şərtləndirən kimi təyin olunmuşdur.

Haşiyə: Devid *Yum*, "İnsan təbiəti haqqında traktat"

"Səbəbilik, ideyaların özündən asılı olmayan elə yeganə münasibətdir ki, bizi hisslərimizin sərhədlərindən çıxara və bizim tərəfimizdən görünməyən və hiss edilməyən predmet (existences) və obyektlərlə tanış edə bilər. Mühakimə etdiyimiz ideyanın kamilliyini başa düşmədən düzgün

mühakimə etmək və onu mənbəyinə doğru izləmədən hər hansı bir ideyanı təkmilliyində və onların əmələ gəldiyi ilkin təəssüratlara baxmadan, başa düşmək mümkün deyildir. Təəssüratlara baxış ideyalara, ideyalara baxış isə bizim bütün mühakimələrimizə aydınlıq verir."

D. Yumun fikirlərindən görünür ki, metafizika səbəbilik zənciri ilə bizim hissi qavrayışımızın sərhədlərindən kənarda olan, görünməyən və hiss edilməyən və buna görə də metafizik olan predmet və obyektləri aşkarlamaq və onlar haqqında məlumat əldə etmək imkanına malikdir. Buna görə də, başlanğıc səbəbi aşkarlamaq metafizikanın başlıca vəzifələrindən biri kimi təyin olunmalıdır. Metafizik ideyalara qədər bizdə təəssüratlardan alınmış, onları "kopyalayan" ideyalar mövcud olur, hansı ki həmin təəssüratlara baxış ideyalara aydınlıq gətirir. Metafizika isə öz növbəsində belə ideyalara baxmaqla metafizik predmet və obyektlər haqqında mühakimələrə aydınlıq gətirir.

Haşiyə: *Cordano Bruno*, "Səbəb, başlanğıc və tək haqqında"

"Mən xarici səbəb onu adlandırıram ki, fəaliyyət göstərən səbəb keyfiyyətində mürəkkəb və əmələ gələn şeylərin hissəsi deyildir. O daxili səbəbdir, necə ki, materiyaya və ondan xaricə təsir etmir, amma belə, yalnız indi deyilən kimi olmuşdur. Buradan o öz mövcudluğuna görə, nəticənin substansiyasından və mahiyyətindən fərqli xarici səbəbdir, və buna görə də onun mövcudluğu əmələ gələn və məhv olan şeylər kimi deyil, baxmayaraq ki, o, onlarda fəaliyyət göstərir; o, öz fəaliyyət aktına münasibətdə daxili səbəbdir. Fəaliyyət göstərən səbəb formal səbəbdir, hansı ki fəaliyyət göstərənlə əlaqədədir; intellektual qaydalara uyğun fəaliyyət göstərən, istənilən yaradıcıya müyəssər olur ki, məlum niyyətə uyğun nəticə yaratsın; sonuncu isə hansısa şeyi qabaqcadan düşünmə ilə təklif edir; bu isə, şeyin edilməli olan formasından başqa bir şey deyildir. Bununla, bütün növləri yaratmaq qabiliyyəti olan və belə gözəl ölçülülükdə materiyanın mümkünlüyündən həqiqətə çıxaran bu intellekt mütləq onların hamısını məlum formal anlayışa uyğun tərənnüm etməlidir, hansı ki bunsuz öz fəaliyyətinə keçə bilməz, necə ki, heykəltaraş əvvəlcə fikrində

müxtəlif formalar düşünmədən müxtəlif heykəllər yarada bilməz. İki cür forma ayırd etmək zəruridir: biri səbəbdir, amma fəaliyyət göstərməyəndir, amma ona görə fəaliyyət göstərən fəaliyyətdə olur və digəri başlanğıcdır hansı ki fəaliyyət göstərən səbəbi fəaliyyətə oyandırır və materiyada yerləşir. Yaradıcının özünə ehtimal etdiyi məqsəd və son səbəb – bu kainatın təkmilləşməsidir; sonuncu isə ondan ibarətdir ki, materiyanın müxtəlif hissələrində bütün formalar aktual mövcudluğa malikdir. Bu məqsədlə intellekt o dərəcədə fəxr edir və həzz alır ki, o heç vaxt materiyadan bütün formaların çıxarılmasından yorulmur. Bu fəaliyyət göstərən səbəb kainatda universal, onun üzv və hissələrində xüsusi və spesifik xarakter daşıyır, eyni dəqiqliklə onun forması və məqsədi də belə xarakterə malikdir."

Göründüyü kimi, *C. Bruno* səbəbləri iki qrupa ayırır: **xarici səbəb, daxili səbəb.**

1. *C. Brunonun* yuxarıdakı izahından görünür ki, o **xarici səbəb** kimi o səbəbi təyin edir ki, bu səbəb sürəkli, sərhədsiz fəaliyyət göstərəndir; mürəkkəb və əmələ gələn şeylərin hissəsi deyil, onların hissəsi olmadığından materiyada yerləşmir, onlarla eyni mahiyyətli olmadığından onlar kimi yaranmır və məhv olmur; şeylə əlaqəsi fəaliyyəti ilə bağlıdır, yəni şeyi yaratmasına görə onunla əlaqələnir və bu zaman şeydə fəaliyyət göstərdiyindən, şey onun vasitəsi kimi çıxış edir. Xarici səbəb intellektual qaydalara uyğun səbəbdir, hansı ki bu qaydalara uyğun universal olduğundan, istənilən mövcudluğu materiyadan çıxarır. Biz xarici səbəbi *mahiyyət yaradan səbəb* kimi təyin edirik və buna görə də belə səbəb xalis varlıq təyinindən aşkarlana bilər. Xarici səbəb reflektivdir, hansı ki şeylərin mahiyyətlərini yaradır, amma ona keçmir, buna görə də nəticədən təzahür etmir və nəticənin təzahürlərini şərtləndirmir. Xarici səbəb materiyaya təsir edir, onu ölçüləndirir və özü ondan xaricdə yerləşir. Xarici səbəb yaranma prosesində fəaliyyət göstərdiyindən biz bunu *yaradıcı səbəb* adlandırırıq. Xarici səbəb bütün mahiyyətləri yaratdığından, ümumidir, universaldır və istənilən formanın materiyadan çıxarılmasını təmin edir.

Biz xarici səbəb keyfiyyətində olan səbəbi *ilkbaşlanğıcla eyniyyət təşkil etməyən səbəb* kimi təyin edirik.

2. Daxili səbəb şeydən əvvəldir, buna görə həm də başlanğıcdır. Daxili səbəb əmələgəlmədə fəaliyyət göstərir. Şeylə eyni məqamlı təzahür etdiyindən başlanğıcdan ayrıdır. Biz bu səbəbi *forma yaradan səbəb* kimi də təyin edə bilərik. Yaranan hər bir mahiyyət hansısa forma ilə vəhdət təşkil edərək həqiqi mövcudluqları əmələ gətirir. Belə vəhdəti yaradan səbəb isə daxili səbəb kimi təyin oluna bilər. Daxili səbəb materiyada yerləşir, ondan aksidensiya etmir, sürəkli olaraq mahiyyətlə formanı vəhdətə gətirir. Daxili səbəb yalnız mövcudluğun sərhədləri daxilində fəaliyyətdədir və xarici səbəblə şərtlənmişdir. Daxili səbəb mahiyyətin vəhdət yarada biləcəyi bütün formalarını eyni bir tək şeydən çıxarır və buna görə də xüsusidir. Daxili səbəb keyfiyyətində səbəb başlanğıcla eynidir.

Biz burada ilkbaşlanğıc olmayan ilk səbəb – **səbəblər səbəbi** haqqında şərh veririk. Başlanğıc olmayan səbəb xalis fəaliyyətdir, hansı ki başlanğıcdan nəticəyə hərəkət və ya proses yaradır və bu zaman özü ilkbaşlanğıca münasibətdə xarici olur, amma nəticəyə münasibətdə daxili olana çevrilir.

Haşiyə: Devid *Yum*, "İnsan təbiəti haqqında traktat"

"İdeyaların əhəmiyyətinə görə bu qədər istisnasız onları yaradan təəssüratları açmaq üçün, səbəb və təsir adlandırdığımız istənilən iki obyekt götürək və onlara hərtərəfli baxaq. İlk baxışdanca mən görürəm ki, bu təəssüratı hər hansı xüsusi obyektdə axtarmaq mənə lazım deyil, belə ki, bu keyfiyyətlərdən mən hansını seçsəm də, mən həmişə buna malik olmayan, xüsusən səbəb və təsir adı altına düşən bəzi obyektlər tapıram. Həqiqətən, bizdən kənarda və bizdəki kimi mövcud olanlar ya səbəb kimi, və ya təsir kimi baxılmaya bilməz, baxmayaraq aydındır ki, ümumiyyətlə bütün mövcudluqlara xas və onlara belə adlanmaq hüququ verən heç bir keyfiyyət yoxdur. Səbəbilik ideyası obyektlərarası hansısa münasibətdən əmələ gəlməlidir."

D. Yumun fikirləri bir daha təsdiq edir ki, təbiətin sərhədləri daxilində vəhdətdə olan istənilən şeyin yaratdığı təəssürat yalnız ondan qaynaqlanmır. İstənilən təəssürat obyektlərarası münasibətdən yarandığından, bütün obyektlər vəhdətdə bir-biri ilə münasibətdə olduğundan səbəbilik bütün obyektlərə ümumi baxışdan aşkarlanır.

Yum səbəbiliyin mahiyyəti ilə üç suala cavab verməyi vacib hesab edir:

1. Nə üçün biz zəruri hesab edirik ki, mövcudluğunun başlanğıcı olan istənilən şey, həmçinin səbəbə malik olmalıdır?
2. Nə üçün biz bu nəticəyə gəlirik ki, hansısa xüsusi səbəb hansısa xüsusi təsirə malik olmalıdır?
3. Birindən digərinə keçdikdə, həmçinin onunla nəticəyə münasibətdə olduğumuz o inamla gəldiyimiz nəticənin təbiəti necədir?

Bu sualların düzgün cavabı ümumiyyətlə elə-belə səbəb haqqında mühakimələrin dəqiqliyindən asılıdır.

Haşiyə: *Aristotel*, "Metafizika"

"Səbəb haqqında dörd mənada söz gedə bilər: belə səbəbin biri kimi mahiyyəti və varlığın mənasını; ikincisi, substratın əsasında olan materiyanı; üçüncüsü, hərəkətin gəldiyi yeri; dördüncüsü, şeyin nəyə görə mövcud olması çıxış edir. Şeylərin səbəbi – nə birbaşa ardıcıl sıraya görə, nə növə görə sonsuz deyil. İki mənada demək olar ki, biri başqasından əmələ gəlir. Birinci halda şeylər qarşılıqlı olaraq bir-birinə keçmir. İkinci halda keçid əksinə baş verir, hər ikisində sonsuzluğadək getmək olmaz. Eyni zamanda əbədi olan çıxış varlığı məhv etmək mümkün deyil, belə ki, yüksələn sıranın əmələgəlməsi sonsuz deyil, onda ilki mənbə kimi nəsə onun məhvindən əmələ gələn kimi əbədi olmur. 'Nə üçünsə olan' – bu başqası üçün mövcud olmayan, amma bütün hamı üçün məqsəddir; ona görə də əgər hansısa belə son moment olacaqsa, sərhədsiz – birindən digərinə hərəkət olan olmayacaq, əgər belə son moment olmayacaqsa məqsəd də olmayacaq. Kim ki sərhədsizi təyin edir, bilinmədən özü üçün xoşbəxtliyin təbiətini ləğv edir: sona gəlməyi nəzərə almayan heç bir iş baş-

laya bilməz. Belə adamlarda ağıl da olmaz, belə ki, kimdəki ağıl var, o nəyə görəsə həmişə fəaliyyət göstərir: bu hüduddur, belə ki, məqsəd hüduddur. Belə halda predmet haqqında təsəvvür əldə etmək olmaz: o ki sərhədsizdir, bu mənada onu necə düşünmək olar? Bir mənada, səbəb – şeyin əmələ gəldiyi şeyin tərkibinə daxil olanı (materialı) bildirir. Başqa mənada, forma və ya nümunə belə adlanır, başqa sözlə, varlığın mahiyyətinin anlayışı və bu anlayışların növləri. Səbəb – dəyişilmələrin və ya sakitləşmənin öz başlanğıcını götürdüyü mənbədir. Səbəb haqqında həm də məqsəd mənasında danışılır; məqsəd – bu nəyinsə naminə olandır. Səbəb haqqında çoxlu mənalarda danışıldığından bu səbəblərin bir neçəsi bir və eyni şeydə, həm də təsadüfi yox, mahiyyətə görə ola bilər. Bundan başqa fərqli şeylər bir-birinin səbəbi ola bilər. Bundan başqa bir və eyni obyekt əks şeylərin səbəbi ola bilər. Bütün göstərilən səbəblər dörd aydın qrupa bölünür. Hərflər hecalar üçün, material incəsənət məmulatları üçün, od, hava, su, torpaq bütün belə elementlər bədən üçün, hissələr tam üçün, müddəalar nəticə üçün – bütün bunlar səbəblərdir."

Aristotelə görə "bütün səbəblər başlanğıcın mahiyyətidir". Buradan da səbəblər də başlanğıclar kimi metafizikanın predmetinə daxil olur. Səbəblərin mahiyyətini şərh etmək üçün, *Aristotelin* səbəblərlə bağlı fikirlərini ayrı-ayrılıqda şərh edək:

1. **Şeyin əmələ gəldiyi şeyin tərkibinə daxil olanı (materialı) bildirən səbəb (substratın əsasında olan materiya):** Materiya formanı yaradır. Buna görə də, belə səbəbi *formanın səbəbi* kimi dəyərləndirə bilərik. Materiya səbəb kimi müxtəlifləşmənin əsasını təşkil edir. Xörək duzu Na və Cl atomlarının birləşməsindən əmələ gəlir. Bu zaman Na və Cl şey kimi xörək duzunun səbəbləri olaraq xörək duzunun daxilinə keçir. Belə səbəb material dünyada mövcuddur və əmələgəlmə prosesində başlanğıc kimi çıxış edən səbəblərdir.
2. Forma və ya nümunənin səbəb kimi adlanması və ya mahiyyətin anlayışı və anlayışların növləri kimi səbəb (varlığın mənası kimi səbəb): Bu şeylərin mahiyyətidir. Hər bir şeyin səbəbi ilk növbədə həmin şe-

yin özündə aydınlaşdırdığı həqiqət haqqında məlumat daşıyan dalğanın öz uzunluğunu saxladığı hissədir; hansı ki həmin uzunluğun sonsuz qısalması ilə həqiqətin bir hissəsi formanın əsası olan hissəciyə çevrilir. Beləliklə, varlığın mənası onun mahiyyəti və formasından aydınlaşan həqiqətidir. Buradan varlığın mənası kimi səbəbi şeyin həqiqəti kimi təyin edə bilərik. Mahiyyət səbəb kimi eyniliklərin əsasını təşkil edir. İki üçbucağın birləşməsindən kvadratın əmələ gəlməsi; burada üçbucaqlar kvadratın səbəbi kimi meydana çıxır. Əslində bu səbəb də birinci səbəb kimi eyni mənalıdır. Və səbəb kimi çıxış edən forma öz nəticəsinə daxil olur. Riyaziyyatda ədədlərin müxtəlif nisbətləri, məsələn 2:1 kimi, belə səbəblərdəndir.

3. **Dəyişilmələrin və ya sakitləşmənin öz ilk başlanğıcını götürdüyü mənbə kimi səbəb (hərəkətin gəldiyi yer):** Hərəkətin mənbəyi enerjidir. Hər bir şey iki cür enerjidən – tangensial və radial enerjidən təşkil olunur. Tangensial enerji mübadilə olunmur. Xarici hərəkət üçün radial, daxili hərəkət üçün tangensial enerji səbəb kimi çıxış edir. Məsələn, Yer kürəsində cazibə qüvvəsi sərbəst düşmə təcilinin səbəbidir, hansı ki belə qüvvə olmadıqda sərbəst düşmə "0"-a bərabər olur. Çəkisizlik belə qüvvənin olmaması ilə meydana çıxır. Yaxud, təbiətdə iqlim şərtlərinin bitkilərdə modifikasiya yaratması belə səbəblərdəndir. Burada, ətraf iqlim şərtləri modifikasiyanın səbəbi kimi çıxış edir və s.
4. **Məqsəd kimi səbəb:** Hər bir şeyin məqsədi mövcud olmaqdır. Məqsəd səbəb olduğundan şey mövcud olmağa görə məqsədə malik olur. Şüurlu insanın mövcudluğu onun idrak qabiliyyətinə malik olması ilə digər varlıqlardan fərqlənir. Buradan da, idrakı insanın məqsədi kimi təyin edə bilərik.

Bütün bunları ümumiləşdirərək şeyin ayrı-ayrı tərəflərinin fərqli səbəblərə malik olmasını və bu səbəblərin məcmusunu isə şeyin başlanğıcını təşkil etdiyini demək olar.

Biz səbəblərin aşağıdakı formalarını ayırd edə bilərik:

1. **Bütün mümkün səbəblərin və nəticələrin bir vahid Səbəbi:** Biz bunu **Səbəblərin Səbəbi** kimi təyin edirik. Səbəblərin Səbəbi özü nəticə olmayan və özü-özünə münasibətdə səbəb olan Xalis Səbəbdir. Belə Səbəb kimi biz Allahı müəyyən edirik. Allah bütün mövcud səbəb və nəticələrin bir və vahid səbəbidir.
2. **Eyniliklərin səbəbi:** Belə səbəb iki qrupa ayrılır:

a. *Eyniliklərin eyni səbəbi:* Məsələn, bütün məməlilər daxili mayalanma ilə çoxalır. Burada, məməlilər bir-biri ilə eynilik təşkil etdiyi kimi, onların çoxalma səbəbi də bir və eynidir. Yəni daxili mayalanma eyni sinif canlıların çoxalmasının eyni səbəbi kimi çıxış edir.

b. *Eyniliklərin müxtəlif səbəbi:* Tərkibin sabitlik qanununa görə eyni tərkibli maddə ən müxtəlif üsullarla alına bilər. Burada alınma üsullarının müxtəlifliyi eyni zamanda səbəblərin müxtəlifliyini özündə təqdim edir. Riyaziyyatda eyni bir rəqəm ən müxtəlif yollarla əldə edilir.

Məsələn, $2 + 2 = 4$; $2 \times 2 = 4$; $8 : 2 = 4$.

3. **Müxtəliflikərin səbəbi:** Müxtəliflikərin səbəbini də iki qrupa ayırmaq olar:

a. *Müxtəliflikərin eyni bir səbəbi:* Məsələn, canlılar eyni əlverişsiz ətraf şərtlərinə ən müxtəlif cavablar verirlər. Məsələn, soyuğun təsirindən (eyni bir səbəb) bəzi canlılar qalın xəzə malik olur, bəzi canlılar isti ölkələrə köçür, bəzi canlılar qış yuxusuna gedir, bəzi canlılar qalın dərialtı piy təbəqəsinə malik olur, insan örtülü məskənlərdə yaşayır və ya qızdırıcılardan istifadə edir.

b. *Müxtəliflikərin müxtəlif səbəbləri:* Məsələn, cisimlər (müxtəliflikər) məkani şərtlərin (səbəb) dəyişilməsinə görə dəyişirlər. Canlılar (müxtəliflikər) zaman şərtlərinin (səbəb) dəyişilməsinə görə inkişaf edirlər.

İlk Başlanğıc və Səbəb haqqında bilgi necə və nə üçün əldə edilir? Fəlsəfə təcrübədən başlayıb, ondan kənara çıxırsa, metafizika təcrübədən kənardan başlayıb təcrübəyə daxil olur. Başqa sözlə, metafizika yaranışın insan beynində modelləşdirilməsi kimi meydana çıxır. Beləliklə, metafizika elə bilgilər əldə etməyə çalışır ki, sanki yaranış həmin bilgi

əsasında baş vermişdir. Biz metafizikanı başlanğıcı – düşüncənin başlanğıcı ilə dərk edilməsi kimi təyin edirik. Yəni istənilən metafizik bilik hansısa başlanğıc haqqında və düşüncənin ilkin başlanğıcında əldə edilənlərdən ibarətdir, buna görə sintetik və spekulyativdir. İnsan başlanğıcdan çox-çox sonra yarandığından və özü də yaradılan olduğundan, öz yaranışını seyr edə bilmədiyindən, mütləq şəkildə metafizik bilgi təcrübədən kənar əldə edilən bilgilərdən ibarətdir.

SƏBƏBLƏRİN TƏSNİFATI

Səbəbin başlanğıca keçməsi ilə proses başlayır. Hər bir proses başlanğıcdan və ona keçən səbəbin təbiətindən asılı olaraq müxtəlif cür təzahür edir. Səbəblər eyni dərəcəli, eyni səviyyəli və eyni mürəkkəblikdə olmadığından, ən müxtəlif mənalarda meydana çıxır. Biz səbəbləri aşağıdakı kimi təsnif edirik:

1. **Birincili səbəb:** Belə səbəblər zərurətə görə səbəblərdir və prosesin mahiyyətini müəyyən edir; hansı ki başlanğıca keçməməsi ilə prosesi istisna edir. Birincili səbəb əlavə səbəblərlə birlikdə prosesi tam kimi təqdim edir. Əlavə səbəblər başlanğıca keçmədikdə proses istisna olunmur, amma tam kimi təzahür etmir.
2. **İkincili səbəb:** İkincili səbəblər təsadüfə görə səbəblərdir. Belə səbəblər prosesin formasını müəyyən edir. Əlavə səbəblər dəyişkəndir və buna görə də eyni bir birincili səbəb müxtəlif ikincili səbəblərlə eyni bir prosesin fərqli formalarda təzahüründə iştirak edir.
3. **Nəticəyə keçən səbəb:** Belə səbəblər iştirakçı səbəblərdir, hansı ki prosesin sonunda alınan nəticəyə keçərək onda saxlanır və xüsusi şərtlərdə yenidən prosesə təkan verir. Başqa sözlə, nəticəyə keçən səbəb tam realizasiya olunmamış səbəbdir, hansı ki potensiallıq kimi nəticədə saxlanır. Bütün şeylərin əmələgəlməsinin səbəbi həmin şeylərə keçmişdir, buna görə də təbiətdəki hər şey əbədi proseslərdə iştirakçı kimi çıxış edir.

4. **Nəticəyə keçməyən səbəb:** Nəticəyə keçməyən səbəb başlanğıca keçməklə onu birdəfəlik tam aktuallaşdıran səbəblərdir. Belə səbəblər nəticədən kənarda qalır. Əgər təbiət nəticədirsə, onda təbiətin səbəbi ona keçməyən səbəb kimi metafizikadadır.

Səbəblə nəticənin kəmiyyət əlaqəsinə görə səbəbin aşağıdakı növlərini ayırd etmək olar:

1. **Bir səbəb – bir nəticə:** Sadə mövcudluqlar bir səbəb-bir nəticə prinsipi ilə meydana çıxır.
2. **Çox səbəb – çox nəticə:** Çox səbəb-çox nəticə xaosu, nizamsızlığı özündə təqdim edir, çünki çox səbəb çox nəticəyə keçməklə çoxsəbəbiliyin potensiallığını hifz edir.
3. **Çox səbəb – bir nəticə:** Xaosdan nizama keçid çoxsəbəb-bir nəticə prinsipinə tabe olur. Belə səbəb-nəticə əlaqəsi mürəkkəb varlıqlar üçün xarakterikdir. Təbiətdə bütün mövcudluqlar vəhdət təşkil etdiyindən istənilən prosesdə çoxsəbəblilik saxlanılır. Çoxsəbəb-bir nəticə nizamlılığı özündə təqdim edir. Səbəblər bir nəticəyə keçərək birbiri ilə əlaqələnir və nizam yaradır. Beləliklə, mürəkkəbləşmə artdıqca nəticə kimi onun səbəbi daha da artır.
4. **Bir səbəb – çox nəticə:** Səbəb nə qədər alidirsə, bir o qədər çox sadə nəticə verir. Əgər bütün ağla gələn hər şeyi nəticələrin sonsuz çoxluğu kimi qəbul etsək, onda bütün bu nəticələrin ən Ali səbəbi Allah ideyasına daxil olur. Beləliklə bir səbəb-çox nəticənin Ali forması yaranma prosesini özündə təqdim edir. Belə səbəbi *Səbəblərin Səbəbi* kimi təyin edirik.

Səbəb-nəticə əlaqəsinin pozulmasına görə də müxtəlif səbəblər meydana çıxa bilər:

1. **Nəticəsiz səbəb və ya potensial səbəb:** Nəticə təbiət sferasında meydana çıxdığından, nəticəsiz səbəblər yalnız metafizikada xalis şəkildə mövcuddur. Məsələn, xalis güc nəticəsiz səbəbdir, hansı ki gücün nəticələri təbiət sferasında qeydə alınır.

2. **Səbəblərin səbəbi:** Metafizik aləmdə nəticəsiz səbəblərin hamısı üçün bir ümumi səbəb mövcuddur. Bu səbəb İlahi İstək – yaradılışdır, hansı ki yaradılışa görə xalis səbəblər mövcud dünyanın yaranmasında iştirak edərək səbəb-nəticə əlaqəsini yaradırlar. Yəni metafizika ilə təbiət bir-biri ilə əlaqələnir.

Səbəbin başlanğıca münasibətinə görə aşağıdakı formaları vardır:

1. **Özü-özünün səbəbi:** Səbəbin meydana çıxdığı yer özü-özünün səbəbidir. Real aləmdə heç bir şey özü-özünün səbəbi deyil, çünki özü-özünün səbəbi yalnız təklik kimi mövcudluq ola bilər. Bu mənada yalnız Allah özü-özünün səbəbidir. Təbiətdəki bütün mövcud olan hər bir şey başqa bir şeyin səbəbi və öz növbəsində başqa bir şeyin də nəticəsidir. Təbiətdəki real mövcudluqlar özlərində həm səbəb, həm də nəticədirlər; buna görə də, məcmu şəkildə özlərində çoxbaşlanğıclığı və çoxsəbəbiliyi təqdim edirlər.

Haşiyə: *Cordano Bruno*, "Səbəb, başlanğıc və tək haqqında"

"İlkin başlanğıc və ilkin səbəb olmayan istənilən şey başlanğıca və səbəbə malikdir. Yaxın səbəb və başlanğıc asan deyil; amma çox böyük çətinliklə insan ali səbəbin və ilkin başlanğıcın heç olmasa izlərini dərk edir. Bütün asılı şeylərin dərk edilməsi birinci başlanğıcın və səbəbin biliyini yox, yalnız izlərini verir, belə ki, hər şey onun iradəsindən əmələ gəlir; bütün nəticələrin çıxdığı sonuncu onun fəaliyyətinin prinsipidir."

Beləliklə, *Brunonun* fikirlərindən görünür ki, hissi qavranılan maddi dünyada hər şey özləri ilk başlanğıc və ilk səbəb olmadıqlarından ilk başlanğıca və səbəbə malikdirlər. Başqa sözlə, həm səbəb, həm də nəticə kimi çıxış edən hər bir şey özündə yalnız səbəb kimi çıxış edən və özündən kənarda müxtəlif nəticələr verən ilkin səbəbdən yaranır. İlkin səbəb özündə nəticəni istisna edən xalis səbəbdir, hansı ki özündə nəticə olmadığından öz səbəbi yoxdur və buna görə də özü-özünün səbəbidir. Burada özü-özünün səbəbi artıq yalnız idraka münasibətdə meydana çıxır. Yəni Allahın özü-özünün səbəbi olması o deməkdir ki, biz Allah ideyasını məhz onun özünə görə dərk edirik; yəni Allah özünün dərk edilməsinin

səbəbi kimi çıxış edir. Çünki Allah hissi qavranılmır və buna görə də bilavasitəlikdən məhrumdur.

2. **Özündə səbəb:** Özü nəticə kimi çıxış etməyən səbəblər özündə səbəbdir. Belə səbəblər nəticə ilə vəhdət təşkil etməyən səbəblərə aiddir. Varlıq aləmi özündə səbəb kimi mövcuddur.
3. **Özündənkənar səbəb:** Hər hansı bir şeyin başqa şeyə təsir edərək proses yaratması özündənkənar səbəbdir, hansı ki real gerçəkliklərdəki bütün səbəblər məhz özündənkənar səbəb kimi çıxış edir.

Bu səbəblərarası əlaqəyə görə, *özü-özünün səbəbi* (Allah), *özündə səbəbə* (Varlıq aləminə – metafizikaya) refleksiya edərək özündə səbəbi yaradır. Özündə səbəb özünün səbəbiliyini istisna edir. Sonra özündə səbəb başlanğıclara keçməklə əməlgəlmə prosesinə təkan verir və özündənkənar, yəni metafizikadan kənar təbiəti yaradır. Beləliklə, Allah başlanğıcların başlanğıcı, səbəblərin səbəbi kimi təsəvvür oluna bilər.

İlk Başlanğıc bir çox hallarda həm də ilk səbəb ola bilər, həm də ilk səbəbdən fərqli ola bilər.

Haşiyə: *Cordano Bruno*, "Səbəb, başlanğıc və tək haqqında"

"Başlanğıc səbəbdən daha ümumi ifadədir. Baxmayaraq ki, bir ifadə bəzən başqasının yerinə işlənir, buna baxmayaraq, sözün həqiqi mənasında heç də başlanğıc olan hər şey səbəb deyil, belə ki, nöqtə xəttin başlanğıcıdır, amma onun səbəbi deyil; başlanğıc altında daxili şəkildə şeyin qurulmasına yardım edən və nəticəsində qalan başa düşülür."

Beləliklə, başlanğıc bir çox hallarda səbəbdir, bir çox hallarda səbəbdən fərqlidir. O başlanğıc həm də səbəb hesab oluna bilər ki, həm səbəbdə, həm də nəticədə olsun. Yalnız səbəbdə olan başlanğıc səbəblə eyniyyət təşkil etmir. Məsələn, valideynlər övladlarının həm başlanğıcıdır (çünki hər iki valideynin cinsi hüceyrələrindən əmələ gəlirlər və məhz həmin hüceyrələrin inkişafı nəticəsində müstəqil fərdə çevrilirlər), həm də səbəbidirlər (çünki həmin cinsi hüceyrələrin birləşməsində fəaliyyət göstərirlər). Beləliklə, fəaliyyət ilkin materialdan mahiyyətcə fərqli olduğundan, valideyn həm səbəb, həm də başlanğıcdır. Bundan fərqli olaraq,

iki maddənin birləşməsindən üçüncü maddənin istiliyin təsirindən əmələ gəlməsində səbəb – istilik, başlanğıc isə şeyi əmələ gətirən ilk maddələrdir. Yəni istilik əmələgəlmədə iştirak edən başlanğıcla bağlı olmadığından səbəb başlanğıcdan fərqlənir, ona görə də metafizikada başlanğıcla eyniyyət təşkil etməyən ilkin səbəb ayrılıqda öyrənilməlidir. Təbiətdəki mövcudluqlardan birinci başlanğıcı və səbəbi aşkarlamaq mümkün deyil. Əgər reallıqlar aləmində ilkin başlanğıc və səbəbi dərk etmək mümkün deyilsə, onda o təbiətdən kənarda aşkarlana bilər ki, belə aşkarlanma metafizik bilgilərdən ibarət olur. Birinci səbəb və birinci başlanğıc yalnız yaranışın təbiətəqədər səviyyəsindən aşkarlana bilər. Təbiətdəki mövcudluqlar özündə yalnız başlanğıc və səbəb kimi çıxış etmədiyindən, çoxsəbəbilikdən əsas səbəbi, çoxbaşlanğıclılıqdan ilkin başlanğıcı (yəni birinci başlanğıcı) və ilk səbəbi aşkarlamaq naminə – yəni bütün mövcudluqların başlanğıcını və səbəbini aşkarlamaq üçün – təbiətin sərhədlərindən kənara çıxmağa – metafizikaya çıxmağa məcburdur.

METAFİZİK SUALLANDIRMA

“Heyrətdən Doğulan İdrak: Düşüncənin Başlanğıc Stimulu”

“Həqiqətə məhəbbət vacibdir.”
Heç kim hər şeyi bilməyə borclu deyil.
Bilik və elm – ümumiyyətlə o şəxslərin məşğuliyyətidir ki,
onlar məmnunluqla və asudə vaxtda ondan istifadə edirlər”.
Con Lokk

Ümumiyyətlə, elə-belə düşüncə necə başlayır? Düşüncəni hərəkətə gətirən başlıca stimul-səbəb sualdır. Sual, obyekt-subyekt münasibətində, subyekti obyektdə aydınlaşan həqiqətə istiqamətləndirən və konkret obyektlə şərtlənmiş şəkildə subyektdə meydana çıxan qeyri-müəyyən həqiqətdir; hansı ki sualın cavabının tapılması ilə müəyyənləşir. Sual subyektdən çıxdığından xalis metafizikdir. Bunun əksinə, cavab həm obyektdən, həm də subyektdən əldə edildiyindən ikili təbiətlidir, yəni həm təcrübi-posterior, həm də apriordur. Sual vermək – metafizikadan təbiətə keçmək, cavab vermək – ya metafizikada qalmaq, ya da təbiətdən metafizikaya keçməyi özündə təqdim edir.

Haşiyə: *İ. Kant*, “Xalis zəkanın tənqidi”

“Ağıllı sual qoymaq bacarığı ağlın mühüm və əhəmiyyətli əlaməti və ya bəsirətidir. Əgər sual özü-özündə mənasızdırsa və xeyirsiz cavab tələb edirsə, onda, sual verəni utandırmaqdan başqa, o, bəzən həm də ehtiyatsız dinləyicini axmaq cavablar verməyə oyandıran və gülünc tamaşa yaradan çatışmazlığa malik olur.”

İ. Kantın sualla bağlı fikirlərindən görünür ki, ağıllı sual bilavasitə bəsirətin təzahürüdür və bir ağlın bəsirətindən çıxıb, başqa ağlın bəsirətini oyandıraraq onunla müştərək həqiqətin aşkarlanmasına xidmət edir. Bunun əksinə, axmaq sual ya gülünc tapmaca yaradır, ya da axmaq cavabların verilməsini oyandırmaqla insanı həqiqətdən uzaqlaşdırır.

Sual, obyekt-subyekt münasibətində, təfəkkürün varlığa başlanğıc münasibətidir. Beləliklə, sual-cavab həqiqətin qeyri-müəyyənliyindən onun müəyyənliyinin əldə edilməsinin üsulu kimi çıxış edir.

Haşiyə: *F. Nitsşe*, "Şən elm" *"Eşitməyimizin sərhədləri: yalnız o sualları eşitmək lazımdır ki, onlara cavab tapmaq vəziyyətindəyik."*

Nitsşenin şərhindən görünür ki, suala cavab tapmaq vəziyyəti – həqiqətin aşkarlanma imkanı ilə bilavasitə bağlıdır və yalnız belə vəziyyətə uyğun verilmiş suala cavab tapmaq mümkündür.

Cavab obyektdə, sual təfəkkürdə qabaqcadan mövcud olan həqiqətin iki formasıdır. Başqa sözlə, idrakın dərk edə biləcəyi istənilən həqiqət sual kimi təfəkkürdə qabaqcadan mövcuddur.

Haşiyə: *Martin Haydeqqer*, "Varlıq və Zaman"

"Metafizika suallandırmadır, hansı ki biz öz suallarımızla məcmu tam mövcudluğu əhatə etmək istəyirik və onun haqqında elə soruşuruq ki, sual verənin özü sual altında qalır."

Nə üçün "metafizikada sual verən sual altında qalır"? Bunun iki səbəbi vardır. Birincisi, metafizik suallandırma "məcmu tam mövcudluğu" suallandırdığından, sual verənin özü bu məcmu tama daxil olduğundan, spontan olaraq sualın altına düşür. Məsələn, biz "bütün insanlar şüurlu varlıqlardır" dedikdə, spontan olaraq, özümüzü də insan olduğumuzdan şüurlu varlıq olduğumuzu təsdiqləmiş oluruq. İkincisi, əgər obyekt-subyekt münasibətində sual subyektdən, cavab obyektdən çıxırsa, subyekt-subyekt münasibətində – metafizik aləmdə həm sual, həm cavab subyektdən çıxır. Belə ki, subyekt-subyekt münasibətində təbiəti ruhun "özündə dünyası" – metafizika əvəz edir. Subyektin metafizikanı suallandırması "özündə olan dünyanı" suallandırması kimi meydana çıxır. Buradan da metafizika, təbiəti suallandırmanın əksinə, qeyri-müəyyənlikdən – qabaqcadan müəyyənliyi olmayandan, həqiqətin müəyyənliyinə cəhd edir. Ruh "özündə dünya" olduğundan, bizim üçün metafizik aləmi Ruhda olan dünya əvəzləyir, nəticədə sual verənin özü öz ruhi mahiyyətini metafizik

cavabın saxlandığı obyekt kimi – özündə olan dünya kimi – ona istiqamətlənir.

Beləliklə, obyektin qeyri-müəyyənliyi ilə metafizik qeyri-müəyyənlik bir-birindən fərqlənir. Obyektin qeyri-müəyyənliyində müəyyənlik idrakdan qabaq subyektdənkənar – obyektdə verilir və yalnız subyektə münasibətdə qeyri-müəyyənliyə çevrilir, idrak prosesində isə qeyri-müəyyənlikdən azad olaraq yenidən, amma bu dəfə subyektdə müəyyənlik əldə edir. Amma metafizikada qeyri-müəyyənlik qabaqcadan verilmir, o, bilavasitə idrak prosesinin özündə yaranır və eyni zamanda da onda müəyyənləşir. Ona görə də, metafizika yalnız təfəkkürün özü-özündən yaranan təsəvvürlərlə idrak oluna bilər.

Sualla cavab əksiliyin iki tərəfidir. Əksilik təşkil etməyən heç nəyə sual vermək mümkün deyildir. Sual yaratmayan heç bir təsir ya özündə həqiqət haqqında məlumat daşımır, ya da həmin təsirin daşıdığı həqiqət idrak üçün əlçatmazdır, yəni idrak üçün hesablanmamışdır. Bu mənada istənilən bilgi – gerçəkliyə ünvanlanmış suallandırmanın cavabları kimi əldə edilir və əldə edilmiş bilginin dəqiqliyi-müəyyənliyi suallandırmanın dəqiqliyindən asılı olur. Yəni, sual nə dərəcədə həqiqətin aydınlaşdığı obyektə dəqiq ünvanlanırsa, cavab da eyni dəqiqliklə həmin obyektin həqiqətini özündə təqdim edir.

Haşiyə: *Leybnits*, "Kəşf sənəti haqqında"

"Kəşf sənətində mən iki hissəni görürəm: kombinatorika və analitika. Kombinatorika sualı tapmaq sənətindən, analitika sualın cavabının həllini tapmaq sənətindən ibarətdir. Amma çox vaxt bəzi məsələlərin həllində özündə analitikadan daha çox kombinatorika saxlayır. Sintetika və ya kombinatorika ondan ibarətdir ki, şeyi izah etmək üçün, onda olmayan şeyin izahı üçün başqalarını cəlb edirik."

Leybnitsin yuxarıdakı fikirləri elmi tədqiqatlarla bağlı olan kombinatorika haqqındadır; hansı ki elmdə verilən sualın cavabını tapmaq üçün elmi obyekt prosesə cəlb edilir, onun üzərində əməliyyat aparmaqla (elmi tədqiqat) ondan cavab alınır. Amma fəlsəfi suallandırmada – kombinato-

rikada cavabın alınmasına başqa adamlar və ya filosofun öz daxili ikinci "Mən"i – filosofda olan abstrakt "hamı" cəlb olunur. Yəni, fəlsəfi sual-cavabın həqiqətin aşkarlanmasında rolu ondan ibarətdir ki, sual, cavab tələb etdiyi başqasını həqiqətin aşkarlanmasına cəlb edir. Hər hansı bir sual nə qədər çox insandan cavab tələb edirsə, yəni idrak prosesinə nə qədər çox sayda insan qoşulursa və ya cavab verən nə dərəcədə "hamı" kimi çıxış edirsə, aşkarlanan həqiqət bir o qədər ümumi olur. Buradan da deyə bilərik ki, istənilən fəlsəfi suallandırma hamıdan – hər bir adamda ayrılıqda təzahür edən "hamılıqdan" – cavab tələb edən suallandırmadır. Hamı son insanın dünyaya gəlməsi ilə qurtaracağından, fəlsəfi suallandırma bütün insanlığa verilmiş suallar kimi meydana çıxır və tarixi inkişaf prosesində insanlar bu sualların cavabını axtarmaqla mütləq həqiqəti aşkarlamağa cəhd edirlər. Buradan da, istənilən fəlsəfi mühakimənin kritik olması zərurətə çevrilir.

Sual – qabaqcadan müəyyən ideyaya malik olmaqlığın təzahür formasıdır. Əvvəl sual, sonra cavab yarandığından, ümumi şəkildə sualı cavaba münasibətdə ilk başlanğıc kimi qəbul etmək olar. Sualın verilməsinə səbəb, yəni ilk səbəb, cavabın qabaqcadan müəyyənliyidir. Yəni biz yalnız o zaman sual veririk ki, cavab ala biləcəyimizə inanırıq. Buradan, subyektdən xaricdə cavabın qabaqcadan obyektdə mövcudluğu ilkin səbəb kimi çıxış edir. Yəni cavab kimi həqiqət özünün aydınlaşmasının aşkarlanmasına cəhd edir. Heç bir ideyaya malik olmayan obyekt suallandırıla bilməz, buna görə də, irreallıqları suallandırmaq mümkün deyil. Digər tərəfdən, əgər hər hansı bir şey haqqında dəqiq sual vermək mümkündürsə, onda mütləq ona düzgün cavab vermək də mümkündür. Yəni, suallandırma ruhun bir ideyası kimi mövcud varlıqdakı ideyanı aşkarlamaq üsuludur. Hər bir sual bir ideya ilə bağlı olduğundan, ideyanın səbəbi ağıldan kənarda olduğundan, hər bir cavabın da ideyası nəticə kimi ağıldan kənarda, təbiətdə – təcrübədə aşkarlanandır. Beləliklə, sual-cavab subyektdən xaricdə, onun iştirakı olmadan, səbəb-nəticə əlaqəsində olan ideyanın – həqiqətin üzə çıxarılmasına xidmət edir.

Beləliklə, ideya kimi mövcud olan hər şey həqiqətdir, real mövcud olan hər şeyi həqiqəti kimi ideyalaşdırmaq olar.

Hər bir sual ideya kimi meydana çıxır və buna görə də mümkün gerçəkliyin mövcudluğunu subyektlə, dərk edən ağılla və ya insan ruhu ilə şərtləndirir. Eləcə də, hər bir cavab şeydəki həqiqətin ideyalaşdırılması kimi meydana çıxır və real gerçəkliyin həqiqətini təfəkkürdə təsdiqləyərək onun mövcudluğunu şərtsizləşdirir – konkret şeyin formasından asılı olmadan mövcud olmasını təmin edir.

Bəs sual necə yaranır?

Hissi qavramada sualın meydana çıxması dərk edilən obyektin subyektdə yaratdığı hisslə bağlıdır. İdrakın başlanğıcında hissi qavranılan şeyin hissi – şeylə ayrılmaz olan hiss – prafenomeni şeysiz hissi – ruhla ayrılmaz olan hissi oyandırır. Nəticədə, istənilən sual təcrübə sahəsində subyektin tanış olmadığı və onda təəccüb hissi yaradan obyektə ilk münasibətinin əvvəlində meydana çıxır.

Haşiyə: *Aristotel*, "Metafizika"

"İnsanlar heyrət nəticəsində həm indi, həm də ilk olaraq filosofluq etməyə başlamışlar, bu zaman onlar başlanğıcda bilavasitə qarşılarında duran çətin şeylərə görə təəccüb hiss etmişlər, sonra bu yolla bir qədər irəliləmişlər və daha iri sualların çətinliyi ilə tanış olmuşlar. Kim ki təəccüb və anlaşılmazlıq keçirir, özünü bilməyən hesab edir (buna görə insanlar mifləri sevir, müəyyən dərəcədə filosof olurlar, belə ki, miflər təəccüb yaradan şeylərdən təşkil olunur)."

Beləliklə, *Aristotelə* görə insanlar onda filosofluq etməyə – düşünməyə, yəni həqiqəti axtarmağa – başlayır ki, çətinliyə heyrət edir, ondan təəccüblənir, nəticədə özünün biliksizliyini aşkarlayır. Burada heyrətlənmək, təəccüblənmək, çətinlik və biliksizlik hissləri xalis hiss, yəni əşyasız hiss – prafenomen kimi çıxış edir. Biz bu anlayışların mənasını şərh etməklə suallanmanın mahiyyətinə daha dərindən nüfuz edə bilərik.

1. Çətinlik: Çətinlik idrakın mümkünlüyü ilə mümkünsüzlüyü arasındakı nisbəti ifadə edən anlayışdır. Yəni çətinlik anlayışı idrakı müm-

kün olanın idrak olunma imkanını özündə təqdim edir. Biz buna *nisbi çətinlik* deyirik. Nisbi çətinlik – idrakın müvəqqəti olaraq həqiqətə nüfuz edə bilməməsindən yaranır. Çətinliyin mənalarını iki böyük qrupa bölmək olar.

a. Obyektdən asılı olan çətinlik: Obyektdən asılı olan çətinlik obyektin məkan və zaman şərtləri ilə bilavasitə bağlı meydana çıxır. Buradan məkandan asılı çətinliklərə aşağıdakıları aid etmək olar:

***Birinci məna**:* Mühitdən asılı olan çətinliyi ifadə edir. Belə çətinlik həqiqətin obyektdə aydınlaşmasının qeyri-yəqinliyini özündə ifadə edir. Həqiqətin aydınlaşmasının yəqinliyi bir tərəfdən təzahürlərin orijinallaşması, digər tərəfdən təzahürlərin aydınlığı ilə bağlıdır. Belə ki, obyektin təzahürü nə qədər orijinaldırsa və həqiqətin aydınlaşması nə qədər qaranlıqdırsa və ya mühit həqiqəti nə qədər entropiyaya uğradırsa, həmin obyektdən ümumi həqiqət bir o qədər çətin idrak olunur. Məsələn, hava səsə nisbətən işığı daha az entropiyaya uğradır, ona görə də görmə ilə obyektə daha asan və dəqiq istiqamətlənmək mümkün olur, nəinki eşitmə ilə.

İkinci məna: Obyektin subyektlə məsafəsindən doğan çətinliyi özündə təqdim edir. Obyekt subyektdən nə qədər uzaqlaşırsa, onun idrakı bir o qədər çətinləşir. Bunun səbəbi həqiqət haqqında siqnalların müxtəlif məsafələrə yayılması ilə bağlıdır. Məsafə çətinliyinin əksiliyi hər beş analizatorla hissi qavranılma məsafəsində olmaqdır. Yəni insan gördüyü, səsini eşitdiyi, iyini duyduğu, taktil hiss etdiyi və dadına baxdığı şeydən həqiqəti daha asan aşkarlayır. Məsafənin uzaqlığı subyektin obyektə istiqamətlənməsinin mümkünsüzlüyünü özündə ifadə edir. Məsələn, kosmosun ənginliklərindəki uzaq ulduzlara çatmaq onların təbiəti haqqında bilgilərin əldə edilməsini çətinləşdirir.

Üçüncü məna: Obyektin mürəkkəbliyi ilə bağlıdır. Məlumdur ki, həqiqət ən sadə obyektlərdən daha asan və dəqiq aydınlaşır. Obyekt nə qədər mürəkkəbləşirsə, onda həqiqət bir o qədər emanasiyaya məruz qalır və buna görə də onu aşkarlamaq bir o qədər çətinləşir.

Dördüncü məna: Xaosda olandan həqiqəti aşkarlamağın çətinliyini özündə təqdim edir. Xaos – ifrat hərəkətliliyi, dəyişkənliyi bildirir. Həqiqət sabitlikdə daha asan aşkarlandığından, obyekt nə qədər hərəkətli və dəyişkəndirsə, onda həqiqəti aşkarlamaq bir o qədər çətinləşir.

Beşinci məna: Təsadüfə görə çətinliyi bildirir. Hər hansı bir təsadüfdən həqiqəti aşkarlamaq çətindir. Belə ki, həqiqət məkan və zamanda təkrarlanan obyektlərdən daha tez və dəqiq aşkarlanır. Əgər obyekt məkanda təkrarlanmırsa – yəni məkanda konkret yer tutmursa və zamanda təkrarlanmırsa, yəni aktuallaşmırsa (başqa sözlə, hissi qavrayışda subyektlə obyekt sürəkli olaraq "indi-burda" prinsipi ilə şərtlənmirsə, zərurətə görə münasibət yaranmırsa), onda ondan həqiqəti aşkarlamaq çətin olur.

Zamanla bağlı çətinlik də bir çox mənalara malikdir:

Birinci məna, vaxta görə çətinlik: İdrak prosesi həqiqəti müəyyən vaxt ərzində aşkarlayır. Əgər tələb olunan vaxtdan az müddətdə idrak baş verirsə, həqiqətin aşkarlanması çətinləşir. Vaxta görə çətinlik bir tərəfdən obyektdən aydınlaşan həqiqətin vaxtının idrak vaxtına uyğun olmaması, digər tərəfdən idrak prosesinin vaxtının obyektdən həqiqətin aydınlaşma vaxtına uyğun olmamasını özündə təqdim edir. Vaxta görə çətinlik seyrlə bilavasitə bağlıdır. Seyr üçün vaxt nə qədər çoxdursa, idrak ehtimalı bir o qədər çoxdur. Biz çox qısa an içərisində seyr etdiyimiz şeyi idrak edə bilmirik.

İkinci məna, tarixə görə çətinlik: İnsan hissi qavrayışda indiyə münasibətdə həqiqəti aşkarlayır. Obyekt indidən keçmişə və gələcəyə nə qədər uzaqlaşırsa – yəni tarixilik xarakteristikası əldə edirsə – onun idrakı da bir o qədər çətinləşir. Belə tarixilik həqiqətin aydınlaşması ilə onun idrakının tarixin müxtəlif dövrlərində baş verməsi ilə bağlıdır. Məsələn, hələ də insanlar 4-5 min il bundan öncə yaradılmış Misir piramidalarının sirrini tam açа bilməyib. Eləcə də müasir insanlar min il sonra təzahür edəcək həqiqətləri indi aşkarlamaqda çətinlik çəkir. Tarixə görə çətinliyin digər bir mənası həqiqətin tarixi aydınlaşması və aşkarlanmasıdır. Həqi-

qətin tarixi aydınlaşmasına ruhda aydınlaşan həqiqəti aid etmək olar. Belə ki, ruh bəşər tarixində tədricən aydınlaşaraq öz həqiqətini özünə təqdim edir. Cəmiyyətin həqiqəti də məhz tarixi aydınlaşan həqiqətdir. Tarixi həqiqətlər o həqiqətlərdir ki, onların aydınlaşması tarixin başlanğıcından başlayır, tarixin sonunda başa çatır. Həqiqətin tarixi aşkarlanması ictimai şüurla dərk olunmanı özündə təqdim edir. Belə ki, elə həqiqətlər vardır ki, onlar heç bir halda konkret bir fərd və ya bir nəsil tərəfindən yox, bütün insanlıq tərəfindən aşkarlana bilər. İctimai şüurun bütün formaları həqiqəti məhz bu yolla tarixi aşkarlama ilə dəqiqləşdirir. Tarixi aydınlaşan və aşkarlanan həqiqətlərin hamısı metafizik həqiqətlərdir.

Üçüncü məna, zamana görə çətinlik: Varlıqlar zamanla fərqli şərtlənir. Cisimlər zamanla bir momentli, bir parametrli – sadə şərtlənir. Ona görə də, cisimlərin həqiqəti digər varlıqların həqiqətindən əvvəl və asan idrak olunur. Canlılar zamandan bir momentli, çox parametrli şərtləndiyindən, şərtlənmə mürəkkəbləşdiyindən (mürəkkəblərdən həqiqətin aşkarlanması çətin olduğundan), zamandan çox parametrli şərtlənən canlıların həqiqətini idrak etmək çətinlik törədir. Buna görə də, canlıların həqiqəti cisimlərin həqiqətinə görə sonralar və çətinliklə, həm də ayrıca bir canlı fərddən yox, onun nəslindən aşkarlamaq mümkün olur. Ruh zamanla pulsativ, yəni xaotik şərtləndiyindən ümumiyyətlə ruhun həqiqətini dərk etmək insan üçün çətin olaraq qalmaqdadır. Allah zamanüstü olduğundan Allahdan həqiqəti aşkarlamaq özündə mütləq çətinliyi – idrak olunmazlığı bildirir.

b. Subyektdən asılı olan çətinlik: Belə çətinliyin də bir çox növü vardır.

Birincisi: Əvvəlki idrak üsulu və vasitələri ilə obyektdən həqiqətin aşkarlanmasının mümkünsüzlüyündən meydana çıxan çətinlik. Məsələn, insan başlanğıcda yalnız bədən analizatorlarının imkanı daxilində həqiqəti aşkarlamağa cəhd etmişdir. Sonra elə həqiqətlərlə qarşılaşmışdır ki, onları aşkarlamaq üçün əlavə üsul və vasitələrə ehtiyac yaranmışdır (məsələn, teleskopla əvvəllər aşkarlanması çətin olan səma cisimlərinin öyrə-

nilməsi və ya mikroskopla mikrobların boyanması ilə onların öyrənilməsi).

İkincisi: Hər hansı bir sahəyə aid həqiqəti dərk etmək üçün həmin sahəyə aid ilkin zəruri biliyin olmaması. Məsələn, fizika elmi haqqında elementar biliyi olmayan şəxs daha mürəkkəb fiziki hadisələrdən həqiqəti dərk edə bilməz və ya elementar cəbrdən xəbəri olmayan şəxs mürəkkəb misal və məsələləri həll edə bilməz.

Üçüncüsü: İdrakın ümumi səviyyəsindən – ictimai şüurdan doğan çətinlik. Ayrı-ayrı tarixi dövrün insanlarının həqiqəti dərk etmələrinin qarşısında duran çətinlik həm də həmin dövrün insanlarının şüurunun ümumi səviyyəsi ilə bağlı olur. Məsələn, ibtidai dövrdə ən güclü fərdi idrak qabiliyyəti olan şəxs sonrakı dövrlərdəki hər bir adam, o cümlədən hətta uşaq üçün asan olan ən sadə həqiqəti belə dərk etməkdə çətinlik çəkmişdir.

Dördüncüsü: Fərdi idrak səviyyəsindən doğan çətinlik.

Haşiyə: *A. N. Uaythed*, "Elm və müasir dünya"

"Subyektin fərdi təcrübəsi bütün reallığın total dramını arxa plana sıxışdırmışdır; müasir filosoflar soruşur: 'Mən biliyi necə alıram?' Aksent təcrübənin subyektinə keçirilmişdir. Hər bir insan varlığı öz əhəmiyyətliliyinin təbii mühafizəçisidir."

A. N. Uaythedin fikirlərindən də görünür ki, aksent təcrübənin subyektinə – fərdi idraka keçirildiyindən, ən ümumi həqiqətin isə hamı tərəfindən və ya hamı kimi çıxış etmək qabiliyyəti olan fərd tərəfindən aşkarlanması tələb olunduğundan, təcrübə subyektinə aksent həqiqətin idrakında çətinlik yaradır. Fərdi idrak səviyyəsi hər bir fərdin orijinallığından, situasiyanın təsadüflüyündən və dəyişkən paradiqmaların konkret kombinasiyalarından asılıdır. Bu baxımdan fərdilik həqiqətin idrakının nisbilik xarakteristikasına daxil olur. Eyni ümumi şüura malik fərdlər bir-birindən fərqli xüsusi idrak qabiliyyətinə malikdir. İdrak qabiliyyəti nə qədər zəifdirsə, həqiqəti dərk etmək bir o qədər çətin olur.

2. Heyrət: Heyrət, hissi qavrayışda idrak prosesi önü çətinlik qarşısında meydana çıxan ilkin xalis hissdir – prafenomendir və özündə bir çox məna ifadə edir.

- *Birinci mənası:* İnsanın əvvəllər gördüyü bütün şeylərdən kəskin fərqlənən ilk dəfə bir şey görməsində meydana çıxan hiss kimi təyin olunur. Belə heyrət hissi ümuminin yaratdığı hissi təsirin əksiliyi kimi təkdən yaranan hissdir. Məsələn, insanlarda başqa planetdən gələnlər haqqında bilgilər belə heyrətə səbəb olur.
- *İkinci mənası:* İnsanın əvvəllər gördüyü şeyin onun əvvəlki formasından kəskin fərqli formada görməsində yaranan hissi bildirir. Burada müşahidə obyekti özü-özü ilə əksilik təşkil edir. Məsələn, ikibaşlı heyvan görəndə insan heyrətlənir.
- *Üçüncü mənası:* İnsanın əvvəllər gördüyü şeyin məkanla şərtlənməsinin – ölçülülüyünün dəyişilməsində – normadan kəskin fərqlənməsindən yaranan hissdir. Məsələn, 3 və ya 0,5 metr boylu insan onu görənləri heyrətləndirir.
- *Dördüncü mənası:* Məkanda təkrarlanma qaydasının kəskin dəyişməsindən yaranan hissi bildirir. Məsələn, insan bir milyon insanı bir yerdə gördükdə heyrətlənir.
- *Beşinci mənası:* Yaradıcılığın yaratdığı heyrətdir. Belə heyrət də öz növbəsində iki cürdür: a) hər hansı bir əsər reallığı özündə eynilik kimi əks etdirdikdə insanda yaranan heyrət (məsələn, *Rafaelin* yaratdığı insan obrazları öz realizmi ilə insanı heyrətləndirdiyi kimi); b) əsərin reallıqdan kəskin fərqlənməsindən yaranan heyrət (məsələn, *Dalinin* yaratdığı sürrealist obrazlar kimi). Heyrət hissi idrakönü hiss olduğundan həqiqətin axtarılmasına səbəb olmur.

3. Təəccüb: Heyrətin intellektuallaşması ilə təəccüb meydana çıxır. Təəccüb hissi sualın başlanğıcıdır. İnsanda həqiqət haqqında sual təəccübdən yaranır. Təəccüb hissi, çoxluqla vəhdətdə olan şeyin ayrılıqda tək kimi təsirinə təfəkkürün münasibəti kimi meydana çıxır. Təəccübün də iki mənası var.

- *Birinci məna, obyektə münasibətdə təəccüb:* İnsanın artıq idrak etdiyi hesab edilən şeyin onda yeni sual yaratması kimi təəccüb. Belə təəccüb həqiqətin idrakına yenidən baxılmasını tələb edir. Buradan dialektik və ya kritik idrak yaranır.
- *İkinci məna, insanın idrak etmədiyi şeyin yaratdığı təəccüb:* Belə təəccüb insanı obyektin ilkin idrakına istiqamətləndirir. Buradan sintetik idrak və ya doqmatik idrak meydana çıxır.

Təəccüblə sual arasında nə kimi əlaqə vardır? Biz təəccübü hissi reaksiya ilə intellektual münasibətin müştərək təzahürü kimi təyin edirik. Ayrılıqda hissi reaksiya və ya intellektual münasibət təəccüb yaratmır. İnsan təcrübə sahəsində münasibətdə olduğu və haqqında səhv və ya düz məlumat əldə etdiyi istənilən şeylə təkrar münasibətə girdikdə, həmin şeyə ilk xüsusi münasibətdən fərqli (ilk münasibət daha çox səy tələb etdiyindən orqanizmdə daha böyük reaksiya yaranmasını tələb edir), nisbətən hissi kütləşmiş münasibət göstərir və təcrübənin təkrarlanması obyektə xüsusi münasibətin tamamilə itməsinə, əvəzində bütün şeylərlə eyni ümumi münasibətin yaranmasına səbəb olur. İnsan ümumi münasibətdə olduqlarına laqeyd-sakit yanaşır. Beləliklə, biz təəccübü *birincili xüsusi münasibət* kimi təyin edə bilərik; insan yalnız ilk dəfə münasibətdə olduğu və ya əvvəllər münasibətdə olduğu şeydə yeni bir təzahür müşahidə etdikdə, həmin yenilik-naməlumluq onda xüsusi hissi-intellektual reaksiya yaradır ki, bu da təəccüb kimi meydana çıxır. Beləliklə, insanın yeniliyə-innovasiyaya verdiyi reaksiya kimi təəccüb intellektualın fəallaşmasına səbəb olur. Bunu intellektin əsas xarakteristikalarından biri kimi ayırd etmək olar. Təəccüblənmədən dərhal sonra hissi reaksiya zəifləməyə başlayır, çünki idrak prosesində hissin təkrarlanması eyni reaksiya yaratmır, intellektual oyanma isə davam edir. Hisslə intellektual oyanmanın fərqli müddətlərə davam etməsi ilə hissi reaksiyanın intellektual münasibətdən ayrılması baş verir. Hissdən intellektin ayrılmasının əlaməti *spontan sual* kimi meydana çıxır. Məsələn, biz qəflətən hər hansı bir səslə, işıqlanma ilə və ya başqa təsirlə qıcıqlandıqda qeyri-iradəvi və spontan olaraq "bu

nədir?" sualı veririk. Spontan suallandırma – ən ümumi, ən sadə və sintetik suallandırmadır. Belə ki, qeyri-iradəvi meydana çıxdığından, istənilən vaxt, istənilən şərtlərdə, istənilən mövcudluqla bağlı öz-özünə avtomatik meydana çıxır və bu zaman mövcudluğun ən sadə, ən birinci və ən ümumi həqiqətini anlamaq üçün verilir. Belə sualın verilməsində düşüncə iştirak etmədiyindən sintetik suallandırmaya aid olur. Belə suallar sırf metafizik suallardan ibarətdir. Bundan fərqli olaraq, intellektual münasibətdə sual iradəvi olaraq, ayrılıqda götürülmüş konkret bir şeyə, şeyin idrak edilməsi mümkün olan ən son həqiqətinə verilir və belə sual düşüncə prosesində meydana çıxdığından kritik suallandırmaya aid olur. Kritik suallandırmanın ali forması fəlsəfi suallandırmadır.

4. Biliksizlik hissi – özünü bilməyən hesab etmək: Çətinlik qarşısında insanda yaranan təəccüb onu yalnız obyektə istiqamətləndirmir, həm də daxilə – özünə istiqamətləndirir. Bu zaman insan qarşılaşdığı çətinliklə əldə etdiyi məlumatla özündən əvvəlki təcrübədən əldə etdiyi bilikləri tutuşdurur. Əgər insan belə tutuşdurma zamanı yeni məlumatla əvvəlki arasında eynilik aşkarlaya bilmirsə, onda özünün bilmədiyini meydana çıxarır. Özünün bilmədiyi prafenomen kimi biliksizlik hissi kimi təzahür edir. İnsanın özünü bilməyən hesab etməsi sual vermək üçün əsas yaradır. Beləliklə, özünü bilməyən hesab etməni – biliksizlik hissini sualın daxili səbəbi hesab etmək olar.

Haşiyə: *Dekart*, "Fəlsəfənin başlanğıcları"

"Həqiqəti tədqiq edən insan, həyatında heç olmasa bir dəfə mümkün olduğu qədər hər şeyə şübhə etməlidir. Bütün şübhəli olanları yalan hesab etməliyik. Biz şübhəli şeylərlə razılaşmayaraq və beləliklə yanılmalardan qaçmaq üçün seçim azadlığına malikik. Biz, necə ki şübhələnirik, mövcuduq, bu haqda şübhələnə bilmərik; bu – filosofluqda dərk etdiyimiz birincidir. 'Mən düşünürəm, deməli, mövcudam' müddəası – filosofluğun gedişində kimsə təqdim olunan, birinci və hər şeydən ən həqiqi olandır."

Dekartın yuxarıdakı fikirlərindən üç hissəni bura aid etmək olar:

1. Şübhə: Şübhə idrakın ümumiyyətlə mümkünlüyü, onun başlanıb-başlanmamasını, idrak nəticəsinin – aşkarlanmış həqiqətin dəqiq olub-olmamasını müəyyən edən prafenomendir. Başlanğıcda şübhə idrak obyektinin düşünən "Mən" olmaması ilə bağlı meydana çıxır, hansı ki *Dekartın* təsdiq etdiyi kimi, "düşünən Mən" "hər şeydən ən həqiqi olan" olduğundan, düşünən "Mən"in əksiliyi məndən ən yalan olandır. Başqa sözlə, düşünən "Mən"in bir yeganə mütləq həqiqəti özünün "düşünən Mən" olmasıdır, bütün yerdə qalan düşünülənlər düşünən "Mən"in həqiqətinə münasibətdə nisbi həqiqətdir. Bu cür nisbilik heçlikdən mütləq həqiqətə qədər ən müxtəlif dərəcəli həqiqətləri özündə cəmləşdirir. Yəni başlanğıcda idrak xarici obyektiv gerçəkliyin "düşünən Mən" olmaması ilə bağlı yaranır və bu zaman bütün xarici şeylər düşünən "Mən"ə görə şübhə altına alınır. İdrakın mümkünlüyü ilə bağlı şübhə reallığın irreallıqdan ayırd edilməsini tələb edir. İnsan yalnız reallıqları dərk etdiyindən, şübhə onu reallıqlara istiqamətləndirir. İdrakın başlanması hissiyyatın təzahür etməsi ilə bağlı şübhəni yaradır. Əgər bizdə idrak obyektinin təsirindən hər hansı bir hiss yaranmırsa, bu, idrak prosesinin başlanmaması ilə bağlı şübhəni meydana çıxarır. Nəhayət, həqiqətin aydınlaşmasının aşkarlanmasının dəqiqliyi, özündə aşkarlanmanın aydınlığa uyğunluğu ilə bağlı şübhəni meydana çıxarır. Metafizik şübhə – idrakın başlanması haqqında başlanğıc şübhədir; hansı ki idrak başlamadıqca digər şübhələr meydana çıxmır.

2. Bütün şübhəli olanları yalan hesab etmək: Yalan həqiqətin əksiliyidir. İdrak prosesində biz həqiqəti onun əksiliyi ilə vəhdətdə idrak edirik və bu zaman təfəkkürdə onların vəhdətini pozaraq yalanı həqiqətdən ayırırıq. Şübhəli olanı yalan hesab etmək onun idrakının yenidən başlanmasını tələb edir. Başlanğıcda insan heç bir həqiqətə malik olmadığından, əslində o, heç bir yalanı müəyyən edə bilməz. Buna görə də, o, bütün yalanları həqiqət kimi qəbul edir. Məsələn, ibtidai insan, uşaq bu prinsipə tabe olduğundan onlar hər şeyi həqiqət kimi qəbul edir və onların idrakı yalanı həqiqətdən ayıra bilmir. Amma biliklənmə başlandıqdan

sonra insan idrak prosesinin gedişində yalanları şübhə altına alaraq həqiqətdən ayırır. Buradan da demək olar ki, idrak bütün yalanların həqiqət kimi qəbul edilməsindən başlayır, hansı ki heç bir şübhəyə yer qoymur.

3. Seçim azadlığına malik olmaq: İnsanın həqiqəti suallandırması üçün seçim azadlığı olmalıdır.

Haşiyə: *Nikola Abbanyano*, "Ekzistensializmə giriş"

"Filosof azadlığı ya hamıya məxsusdur, və ya heç kimə; ona görə də hər bir insan filosofluq etmək imkanına malik olmalıdır."

N. Abbanyanonun fikirlərindən görünür ki, filosofluq hər şeydən öncə filosofluq etmək azadlığından başlayır. Başqa sözlə, azad düşüncə olmadan düşüncənin ali forması olan fəlsəfi düşüncə aktuallaşmır. Beləliklə, biz fəlsəfi düşüncəni düşüncənin ali səviyyəsi kimi dəyərləndirə bilərik, hansı ki düşünən insan yalnız azad düşünmə imkanına görə düşüncənin sadə formasından onun ali formasına doğru hərəkət edə bilir. *N. Abbanyanonun* fikirlərindəki "hamı" "hər bir fərdin" daxil olduğu hamını nəzərdə tutur, ona görə də belə nəticəyə gəlir ki, filosofluq etmək azadlığı ya hamıya məxsus olmalı, ya da heç kimə məxsus olmamalıdır. Əgər hamı "burada və indi" prinsipi ilə hər bir adamdan ibarətdirsə, onda keçmişdə və gələcəkdə filosofluq edən insanlar hamıya daxil olmur. Yox əgər hamı həm keçmişdə, həm də gələcəkdə yaşamış və yaşayacaq insanlardan təşkil olunursa, onda filosofluq hər bir fərdə xas ola bilməz. Biz belə hesab edirik ki, filosofluq özündə "hamı" kimi mövcud olan hər bir adama məxsusdur. Yəni filosof o adamdır ki, o öz fərdiliyindən azad olub "hamı" kimi çıxış edə bilir. Fərdilik insanı tələbat və maraqlara uyğun biliklənməyə istiqamətləndirdiyindən, fəlsəfi biliklər isə yalnız həqiqət xatirinə əldə edildiyindən fərd filosofluq edə bilməz. Fərdilikdən azad olub "hamı" kimi çıxış etmək ekstensiyanın mahiyyətini təşkil edir. Yəni insan nə qədər bədən tələbatlarından və şəxsi maraqlarından azad olur, o bir o qədər gerçək aləmdən metafizik aləmə transsendensiya edə bilir. Başqa sözlə, hər bir adamda ruh konkret bədənlə şərtlənmişdir, amma "hamı" konkret bədənlə şərtlənmir, buna görə də o, hər bir adamda azad

mövcud olan insanlıq kimi çıxış edir. Yəni fərd özündə "hamı" olanda azad olur, ekzistensiya edir. Ekstensiya etmək – daxili hamının xarici hamıya qoşulmaq cəhdidir. İnsan yalnız "hamı" kimi olanda seçim azadlığına malik olur, hər bir adamın seçim azadlığı onun "bir adam" olması ilə məhdudlaşır.

Burada, **seçim azadlığı** üç mənanı ifadə edir:

1. **Başqa şəxsdən asılı olmadan azadlıq:** Başqa şəxsdən asılı olmamaq iradəvi düşüncəni – fərdi düşüncəni özündə təqdim edir. Fərdi düşüncə bir tərəfdən kollektiv düşüncə ilə, yəni yalnız "hamının" düşüncəsi ilə – bir şəxsin özündə hamı kimi düşünməsi, digər tərəfdən ictimai düşüncə – xarici hamının düşüncəsi ilə, yəni fərdi düşüncələrin ən ümumi tərəflərini özündə əks edən düşüncə ilə məhdudlaşır. Buna görə də, insan ictimai və kollektiv düşüncədən nə qədər fərqli düşünə bilirsə, bir o qədər düşüncədə seçim azadlığına malik olur.
2. **Öz tələbatlarından asılı olmayaraq seçim azadlığı:** Öz tələbatlarından asılı olaraq düşünmə yalnız xüsusi həqiqətlərin, konkret tələbatların ödənməsinə xidmət edən ən nisbi həqiqətin, o cümlədən yalanın əldə edilməsinə səbəb olur. İnsan nə qədər öz tələbatlarından azad şəkildə düşünə bilirsə, bir o qədər yalandan uzaqlaşır və ən ümumi həqiqətə istiqamətlənə bilir.
3. **İdrak obyektini seçməyə görə azadlıq:** Təcrübə sahəsində insan sonsuz çoxluqda obyektlə əhatə olunmuşdur. İdrakın sonluluğu obyektiv çoxluqla əksilik təşkil etdiyindən, o, ya eyni zamanda hər şeylə münasibətdə ola bilmir, və ya da idraka cəlb etdiyi hər hansı bir şeyin mütləq və tam həqiqətini dərk edə bilmir. Belə azadlıq dərk olunan obyektə müstəqil istiqamətlənməni özündə təqdim edir. Əgər insanın belə azadlığı yoxdursa, o ya dərk edilməsi çətin olanı dərk etmək məcburiyyətində qalır, ya da başqa idrak obyektlərini seçim azadlığı olmadığından, həqiqəti yalandan müqayisə nəticəsində ayırd edə bilmir. Bu baxımdan biz deyə bilərik ki, metafizik suallandırma –

özündən, başqasından və obyektdən tam azad insan tərəfindən verilə bilər.

Hər bir fəlsəfi təlimin yaranması da konkret fəlsəfənin predmetinin filosof tərəfindən suallandırılması ilə başlayır. Filosof alimdən fərqli olaraq, bilavasitə konkret gerçəkliyin özünü, formanı (müxtəlifliklәri) yox, onun özündə təqdim etdiyi abstrakt həqiqəti – mahiyyəti (eynilikləri) suallandırır. Həqiqət ümumi və abstrakt olduğundan, bütün fəlsəfi təlimlərin predmeti də ümumi və abstraktdır. Və buna görə də fəlsəfi suallandırma ümumidir; yalnız bu sualların cavabının xüsusi olmasına görə fərqli fəlsəfi sistemlər meydana çıxmışdır. Suallandırmanın eyniliyi vəhdətin əlaməti olduğundan, konkret predmetin mahiyyətinə çatmaq üçün ağlın vəhdəti tələb olunur. Ağlın vəhdəti onun keyfiyyət xarakteristikası kimi bəsirəti meydana çıxarır. Bəsirətlə suallandırma ən ümumi suallardan ibarətdir. Buradan da, metafizik suallandırmanı xalis zəkadan – bəsirətdən meydana çıxan suallandırma kimi dəyərləndirə bilərik.

Haşiyə: *İ. Kant*, "Xalis zəkanın tənqidi"

"İnsan ağlının dərketmə növlərindən birinin payına təəccüblü tale düşmüşdür: onu yayına bilməyəcəyi suallar mühasirəyə alır, belə ki, onlar ona öz xüsusi təbiəti ilə sırınmışdır; eyni zamanda o onlara cavab verə bilməz, belə ki, onlar insan ağlının imkanlarına üstünlük təşkil edir. Ağıllı sual vermək bacarığı ağlın mühüm və zəruri əlamətidir və ya bəsirətliliyidir."

Kantın bu fikirləri əsasında deyə bilərik ki, metafizika bəsirəti və onun tabe olduğu qanunauyğunluqları aşkarlamalıdır. Bəsirət həqiqətin – dünyanın gizli görünüşünün mahiyyətinin – mühakimədən keçmədən, filosofda avtonom aydınlaşma qabiliyyətidir. Bu baxımdan metafizik sualın cavabı subyektdə fərdi mühakimə ilə tapılmır, bəsirətlə ona verilir və subyektin işi ona verilmiş həqiqəti izhar etməkdən ibarət olur. Buna görə də əgər düşüncə hər bir adama xasdırsa və istənilən adam filosofluq edə bilərsə, metafizik yalnız ayrı-ayrı seçilmiş insanlar ola bilər, hansı ki metafizik biliklər onda spontan və avtonom aydınlaşır. Birbaşa metafizik

aləmdən məlumat əldə edən peyğəmbərlərin tək-tək şəxslər olmasının səbəbi də məhz bununla bağlıdır.

Sual yalnız cavabın xeyirliliyini və ya ağıllılığını şərtləndirmir, həm də onun formasını müəyyənləşdirir. Bu mənada ayrı-ayrı bilikləri əldə etmək üçün müxtəlif cür suallandırma lazım gəlir.

Haşiyə: *Aristotel*, "Metafizika"

"Bizim məqsədimizi təşkil edən elm üçün hər şeydən öncə bizə zəruridir ki, hansı suallar üzrə bizə lazımdır ki, ilk növbədə çətinliyi düşünək: çətinliyi yaxşı düşünmək müvəffəqiyyətli nəticə əldə etmək istəyənlər üçün olduqca xeyirlidir. Düşüncədə çətinlik hazırkı işə tətbiqdə bağlılığı göstərir: bizim düşüncəmiz nə qədər çətinlikdədirsə, bir-biri ilə bağlanmış insanların irəli hərəkət edə bilməməsi vəziyyətinə oxşar vəziyyətdədir."

İnsan nə üçün "ilk növbədə çətinliyi düşünmək" məcburiyyətindədir? Belə çətinliklərə hansı sualları vermək olar? Beləliklə, *Aristotelin* fikirlərindən görünür ki, suallandırma çətinliyi həqiqətin aydınlaşmamış vəziyyəti ilə subyektin əlaqələnməsi – bağlanması deməkdir. Belə bağlanma sualla reallaşdırılır. Beləliklə, metafizik sual metafizik varlıq olan subyekti metafizik aləmlə bağlayan əlaqədən ibarətdir. Məhz bu bağlılığa görə biz gerçək aləmdən transsendensiya edərək metafizik aləmə keçə bilirik və gerçəkliklərdən əldə etdiyimiz həqiqətlə metafizik bilgiləri bir-birindən ayıra bilirik. Belə olmasaydı, insan təkrar-təkrar artıq onun üçün aydın olan həqiqətə istiqamətlənərdi və belə halda düşüncə sadəcə təkrarlanan həqiqəti aşkarlayardı, nəticədə idrak prosesi irəliləməzdi və ya da insan gerçək aləmin sərhədlərindən çıxa bilməzdi.

Fəlsəfə iki cür suallandırmanın vəhdəti kimi meydana çıxır: a) Fəlsəfənin öyrənməyə cəhd etdiyi gerçəkliyin suallandırılması; məsələn, bu nədir? nə üçün budur? nədən ötəri budur? nə üçün başqası deyil? nə üçün özüdür? və s. b) Fəlsəfi fikrin konstruksiyasının – arxitektonikasının (*Kant*) suallandırılması. Məsələn, fəlsəfi təlimin zəminini nə təşkil edir? fəlsəfi təlim hansı mühakimə ilə inkişaf etdirilir? başqa fəlsəfi təlimlərlə

necə uzlaşır? özündə hansı yenilikləri təqdim edir? hansı yaşantının məhsuludur? Təlimi təşkil edən ideyalar necə bir-biri ilə assosiasiya təşkil edir? konkret fəlsəfi anlayışın mənası nədir? və s.

Fəlsəfi konstruksiyanın suallandırılması fəlsəfənin obyektinin suallandırılmasının forma və istiqamətini müəyyən edir. Başqa sözlə, fəlsəfi bilginin təbiətini bilməklə gerçəkliyin fəlsəfəsi yaradılır. Bu zaman fəlsəfə gerçəkliyin fəlsəfi idrakında metod rolu oynayır. Buradan analitik düşüncə meydana çıxır. Bundan fərqli olaraq, fəlsəfi vəhdətin pozulması ilə yalnız birtərəfli olaraq fəlsəfənin özünün bilavasitə suallandırılmasında onun forma və istiqamətini müəyyən edən vasitə olmur. Beləliklə, biz gerçəkliyin xüsusi həqiqətinin idrakını vasitəli, gerçəkliyin ümumi həqiqətinin idrakını vasitəsiz həyata keçiririk. Buradan da sintetik düşüncə meydana çıxır. Beləliklə, metafizika özündə fəlsəfi fikrin arxitektonikasından – konstruksiyasından həqiqəti aşkarlamağa cəhd edir.

Başqa sözlə, əgər *Hegelin* obrazlı ifadə etdiyi kimi, fəlsəfə alt-üst edilmiş dünyadırsa, onda metafizika – alt-üst edilmiş fəlsəfədir. Yəni, əgər fəlsəfə mövcudluğun totallığından – mövcud olanların arxasındakı ən ümumi həqiqəti öyrənirsə, metafizika ən ümumi həqiqətdən – mövcud aləmdən kənarı – ehtimali aləmi, yaranışın totallığı haqqında metafizik bilgilər haqqında təsəvvürlər əldə edir. Yəni fəlsəfə obyektiv gerçəkliyin təfəkkürdə refleksiyasından yaranan təsəvvürlərdən varlığın ideyasına çatmağa cəhd edir, metafizika ideyalardan metafizik təzahürlər əldə etməyə, ehtimali dünyanı təsvir və şərh etməyə cəhd edir. Beləliklə, fəlsəfi idrakın istiqaməti real aləmdən – mövcudluqdan mütləq nisbi həqiqətə, metafizik idrakın istiqaməti mütləq nisbi həqiqətdən Var(lığa) doğru təyin etmək olar.

Haşiyə: *Martin Haydeqqer*, "Metafizika nədir?"

"Metafizika – bu varlıqüstünün, onun hüdudlarından kənarda elə suallandırılmasıdır ki, bundan sonra biz tamlıqda olduğu kimi anlamaq üçün varlığı alırıq. Fəlsəfə ağacı metafizikanın kök torpaqlarından göyərir. Metafizika Birinci fəlsəfə olaraq qalır. İnsan özünü canlı mövcudluq

kimi adlandırdıqca, metafizika, Kantın təbirincə, insan təbiətinə məxsus olur. Metafizika heç yerdə mövcudluğun həqiqəti haqqında suala cavab vermir, ona görə ki, ona heç vaxt bu sual verilmir. O, mövcudluğu tam kimi düşünür və varlıq haqqında danışır."

M. Haydeqqerin fikirlərindən görünür ki, metafizika mövcudluğun kənarlarına çıxmaqla Var(lıq)dan həqiqəti aşkarlamaq vəzifəsini yerinə yetirir. Mövcudluqlar sonsuz çoxluqda mövcud olur. Amma Varlıq təklik kimi var olur, ona görə də varlığın idrakında mövcudluğun idrakında istifadə edilən fərqlilik, oxşarlıq, eynilik kimi hipotetik konstruktorlardan istifadə edilmir. Mövcud olmaq var olmaqdan nə ilə fərqlənir? Mövcudluq – düşünən "Mən"dən kənarda avtonom və spontan olandır; yəni subyekt mövcudluğun olmasına müdaxilə edə bilmir. Amma bundan fərqli olaraq Varlıq düşünən "Mən"də, yəni daxildə düşünən "Mən"lə şərtlənmiş şəkildə olandır. Ona görə də subyekt Varlığa müdaxilə edə bilir. Elm və fəlsəfədə mövcudluq qabaqcadan kənardan subyektə verilir və subyekt sonra obyekti suallandırma ilə onunla bağlanır və ondan onun həqiqətini tapmağa çalışır. Metafizik isə qabaqcadan ona verilməmiş metafizik obyekti özündə, daxildə müəyyən edir, təsəvvürə gətirir, sonra onu suallandırmaqla daxili vəhdətdən metafizik həqiqətləri aşkarlayır. Fəlsəfədə obyekt xarici olduğundan istənilən şəxs ona sual verə və bununla ona bağlana bilər. Amma metafizikada sual obyekti daxili olduğundan yalnız metafizik bilgi əldə edən şəxs onu suallandıra bilir. Beləliklə, fəlsəfə suallandırmada hər şeyin hər bir adamla obyekt-subyekt münasibətindən ümumi həqiqəti, metafizik suallandırmada tək bir şeyin tək bir adamla subyekt-subyekt münasibətindən tam həqiqəti aşkarlamağa cəhd edir. Buradan da, metafizik həm Allah kimi yaradıcı, həm subyekt kimi idrak edən rolunda çıxış edir.

Sanki metafiziklə filosof varlığa münasibətdə üz-üzə durmuşlar. Metafizik təfəkküründə varlığın ən ümumi həqiqətini aşkarlamaqla, onu özündə aydınlaşdıran vasitəni kəşf etməyə, filosof gerçəkliyi təcrübədən kənar, təfəkküründə abstraksiya edərək, varlıqda aydınlaşan həqiqəti aş-

karlamağa cəhd edir. Metafizika – xalis zəkada aydınlaşan həqiqəti aşkarlamaqla metafizik varlıqlara nüfuz etməyə, elm – təcrübədən həqiqəti aşkarlamaqla xalis zəkaya nüfuz etməyə, fəlsəfə xalis zəkadan aşkarlanan həqiqətlərlə gerçək aləmə nüfuz etməyə cəhd edir. Buna görə də, metafizik filosofdan fərqli olaraq, mütləq özünü də öyrəndiyi predmetə daxil etmiş olur. Bu baxımdan, *Kantın* söylədiyi kimi, "metafizika öz məqsədinə görə, istisnasız olaraq, aprior sintetik müddəalardan ibarətdir".

Metafizika öz obyektlərini necə suallandırır, başqa sözlə metafizika hansı suallara cavab tapmalıdır?

Haşiyə: *Martin Haydeqqer*, "Metafizika nədir?"

"Bizim özünəxas yanaşmamız uyğun ilkin xarakteristika tələb edir. Biz onu istənilən metafizik suallandırmadan ikili xüsusiyyətindən alırıq. Birincisi, istənilən metafizik sual həmişə metafizik problematikanı tam-bütünlüklə əhatə edir. O, həmişə bu tamın özündən gedir. İkincisi, istənilən metafizik sual yalnız elə verilə bilər ki, soruşan – soruşan keyfiyyətində – həmçinin ona cəlb olunur, yəni həmçinin sualın altına düşür. Bu bizə istiqamətlənməyə xidmət edir. Bizim metafizik sual tama aid olmalıdır və bizim soruşan iştirakçılığımızın mahiyyət yerləşməsindən yola çıxmalıdır. Biz, bizim üçün, burada və indi sualları veririk. Bizim iştirakçılığımız isə – elmlə təyin olunur."

M. Haydeqqerin fikirlərini bir qədər geniş şərh edək. Soruşan (düşünən Mən – subyekt) təcrübə sahəsində obyektə (düşünən Məndən kənarda olan şey) sual verərkən özünü subyekt kimi obyektə əks qoyur və bu əksiliklərdən təcrübədən həqiqəti aşkarlayır. Təcrübədə obyektlə subyektin fərqi mahiyyət varlığının emanasiyaya məruz qalaraq mövcud varlığa çevrilməsi ilə, subyektdə mümkün varlığa çevrilməsi arasındakı fərqi özündə refleksiya edir və ikinci birinciyə nisbətdə daha emanasiyaya məruz qaldığından özünə uyğun olanı həqiqət kimi aşkarlayır. Metafizikada mahiyyətin varlığı mövcud varlığa keçmədiyindən, yalnız mümkün varlıqdan fərqləndiyi qədər, hissəvi həqiqətin tam həqiqətdən fərqi aşkarlanır. Tam həqiqət mümkünlüyün tamlığını özündə təqdim etdiyindən ruh-

da mümkünlük kimi ona daxil olur. Yəni düşünən Mən özü-özündə metafizik predmet kimi metafizik predmetlərə verilən istənilən sualın altına düşür.

Beləliklə, metafizik suallandırma digər suallardan onunla fərqlənir ki, bir qayda olaraq, başqa şüur formalarında düşünən Mən düşünüləni – özündənkənar şey kimi suallandırır, bu zaman subyekt xarici obyekt üzərində şəxsi hökmranlığını yaradır, yəni o, həqiqəti aşkarlamaq naminə tədqiqat obyekti ilə istənilən cür davranmaq hüququ əldə edir. Metafizik suallandırmada isə sual özündə olana, düşünən Mənin də daxil olduğu metafizik varlığa verilir. Buna görə də subyektlə tədqiqat obyekti eynihüquqlu olur; subyekt nə qədər metafizik predmet üzərində hakimiyyətə malik olursa, həmin predmet də öz növbəsində subyekt üzərində eləcə hakimiyyətə malik olur. Yəni Allahın təbiətini aşkarlayan subyekt bir tərəfdən Allah ideyasına hakim olmağa cəhd edir, amma özü də öz növbəsində onun yaratdığı olduğundan onun hakimiyyəti altına düşür. Eləcə də Ruha verilən suallandırmada düşünən Mən Ruh kimi Ruha sual verərkən onunla bərabərhüquqlu olur. Yəni insanın metafizika ilə bağlı əldə etdiyi istənilən bilgi həm də bilavasitə onun öz düşünən Məninə aid bilgi olur və ya əksinə düşünən Mənin tədqiqindən əldə edilən istənilən bilgi metafizik varlıqların bilgisi kimi meydana çıxır. Məhz buna görə, insan ya Allahın onu özünə oxşar yaratması, yəni Allahın insan simasında olması fikrinə gəlir, ya da dində olduğu kimi Allah insaniləşdirilir (Ona insani feillər müncər edilir; məsələn, "Allah eşidir", "Allah görür" və s.).

METAFİZİK SUALLANDIRMANIN TƏYİNİ

Təbiətdə həqiqət qradasiyaya məruz qaldığından onun ayrı-ayrı dərəcələri – orijinal, xüsusi, ümumi, ən ümumi, səhv, yalan və s. kimi formaları – ayrı-ayrı üsul və metodlarla fərqli şüur formalarından aydınlaşır. Buradan da, obyektiv gerçəkliklər özlərində həqiqətin ümumilik xarakteristikasına görə təyin olunurlar. Metafizik varlıqlar isə tək kimi var olduqlarından onlardan yalnız həqiqətin tamlıq xarakteristikasına uyğun

həqiqət əldə edilə bilər. Beləliklə, tamlığa münasibətdə biz iki cür metafizik həqiqət ayırd edə bilərik:

Hissəvi və ya yarımçıq həqiqət: Belə həqiqət metafizik obyekti – ideyanı – tam suallandıra bilməməkdən qaynaqlanır. Məsələn, biz Allahı tam suallandıra bilmirik. Buna görə də bizdə Allah haqqında yalnız natamam həqiqət mövcuddur.

Tam həqiqət: Metafizik ideyanın tam suallandırılmasından əldə edilən həqiqət belə həqiqətə aiddir. Biz Varlığı tam suallandıra bilərik və nəticədə varlığın tam həqiqətini əldə edə bilərik.

Qeyd etdik ki, tam həqiqət yalnız təkdən aşkarlana bilər. Ona görə də, tamın mənasına təkin əhəmiyyətindən çatmaq olar. Tək anlayışı ümumi şəkildə özündə ya vəhdətdən kənarda mütləq ayrıca var olanı və ya vəhdətdə mövcudolanların hamısının birlikdə var olmasını özündə ifadə edir. Məsələn, kosmos sonsuz çoxluqda vəhdətdə mövcud olanların tək kimi var olmasını özündə təqdim edir, ona görə də Kosmos metafizikanın predmeti kimi idrak olunur. Allah hər hansı vəhdətdən kənarda mütləq ayrılıqda var olan təklikdir.

Haşiyə: *Aristotel*, "Metafizika"

"Özü-özünə, təsadüfi olmadan tək mənası alana münasibətdə dörd başlıca mənada işlənə bilər. Belə xarakter fasiləsizlik – ya ümumiyyətlə fasiləsizlik, ya da başlıca olaraq – xarakteri daşıyır; o şey ki, təmasla və rabitə ilə yox, təbiətinə görə fasiləsizdir. O şey ki, özündə tamı təqdim edir və məlum formaya və şəklə malikdir. Xüsusən, zorakılıqla yox, təbiətdən belə olandır. Hərəkəti bir olan və məkan və zamana görə parçalanmayan şey. Beləliklə, bəzi şeylər o mənada təki özündə təqdim edir ki, fasiləsizliyə və ya tama, başqaları – onların anlayışları tək kimi veriləndə təkə malikdir. Belələri onlardır ki, onlar haqqında fikir bölünməzdir; o zaman o halda ola bilər ki, predmeti görünüşə və saya görə bölünməz olsun. Beləliklə, tək haqqında bu qədər mənada danışmaq olar: bu – təbiətdən fasiləsiz olan, tam, tək şey, ən ümumi və bütün bunlar özündə təki təqdim edir, ona görə ki, birində hərəkət bölünməzdir, digərində – onun

haqqında fikir və ya anlayış. Təkin özü, elə-belə, ayrıca mövcudolan mahiyyəti təqdim etmir, əksinə, belə mahiyyəti tək mahiyyətdən fərqli olaraq, müstəqil kimi başa düşmək düz olar. Tək çoxla bir-birinə bölünməz və bölünən kimi əks qoyulur."

Aristotelin tək haqqında şərhindən görünür ki, hər şeydən əvvəl tək fasiləsiz olandır. Bu mənada biz tək kimi o şeyləri təyin edirik ki, o şey məkanı və zamanı, eləcə də idrakı fasiləsiz olaraq tutur. İkincisi, tək özündə tamı təqdim edəndir. Tam iki cürdür. Birincisi mütləq tam, yəni hissəsi olmayan (məsələn Allah hissəsi olmayan təkdir); ikincisi, bütün hissələrin iştirak etdiyi tam (məsələn Kosmos bütün hissələrin iştirakı ilə təkdir). Təkin üçüncü mənası, məkan və zamana görə şəkli və forması parçalanmamağı özündə təqdim edir. Belə tək o təkdir ki, o, kəmiyyətə və keyfiyyətə bölünmür. Varlıq aləmində hər bir hissəcik bir keyfiyyətin daşıyıcısıdır, ona görə də keyfiyyətə bölünmür, eləcə də kvant xalis kəmiyyətdir, ona görə də kəmiyyətə bölünmür. Nəhayət, tək o şeydir ki, onun haqqında fikir bölünməzdir. Ruhun özü-özü haqqında fikri bölünməzdir. Belə ki, hər bir insan məhz buna görə "düşünən Mən"dir.

Obyektiv gerçəkliklərin idrakında sual subyektdə, cavab obyektdə olduğundan obyektiv gerçəkliklərin suallandırılmasında yalnız cavabı özündə saxlayan suallandırılır. Amma metafizikada sual və cavab vəhdətdə eyni bir yerdə – subyektdə olduğundan, metafizik suallandırma həm də sualı suallandırır. Beləliklə, metafizik suallandırma, birincisi, ritorik suallandırmadır, çünki cavabı yalnız sual verən həm də özü-özündən tapır. İkincisi, metafizik suallandırma mürəkkəb suallandırmadır. Belə ki, obyektiv gerçəkliklər suallandırılarkən, mürəkkəb varlıqlardan ən sadə həqiqət əldə edilməyə cəhd edildiyindən, ən mürəkkəb şeyə ən sadə sual verilir (məsələn, kosmos nədir? Şey nədir? və s.) və buna uyğun cavab da mümkün sadəliyə malik olur. Amma metafizik predmetlər öz-özlərində ən sadə olduqlarından, onlardan həqiqəti dərk etmək üçün, əksinə onların fikrən mürəkkəbləşdirilməsi tələb olunur. Beləliklə, sual mürəkkəbləşir. Məsələn, "Bu nədir?" sualındakı "nə" özündə nəyi ifadə edir? Üçüncüsü,

metafizik suallandırmada qeyri-müəyyənlik istisna olunur. Buradan da, inam idrakın əsasına keçir. Məsələn, Allahın varlığına inam olmadan Allahın varlığı ilə bağlı suallandırma mümkün olmur. Buradan da metafizikanı müəyyənliyin (düşünən Mən kimi) müəyyənləşdirilməsi, məsələn müstəqil Ruhun varlığının aşkarlanması kimi təyin edə bilərik. Məhz buna görə metafizik suallar başlanğıcların başlanğıcına, səbəblərin səbəbinə verilir.

Haşiyə: *İ. Kant*, "Xalis zəkanın tənqidi"

"Metafizikaya gəldikdə, əvvəllər pis inkişaf etdiyindən, hər kəs onun düzlüyünə şübhə edə bilər və əgər söhbət onların əsas məqsədlərindən gedirsə, təklif edilən sistemlərdən heç biri onu həqiqətən mövcud olan kimi etiraf etməyə xidmət etmir. Ancaq biliyin bu formasına məlum mənada mövcud bilik kimi baxılmalıdır, əgər metafizika elm kimi mövcud deyilsə, ən azı insanın təbii meyilliliyi kimi mövcuddur. Buna görə də ona münasibətdə sual qoyulmalıdır: metafizika necə təbii meyillilik kimi mümkündür? Yəni ümuminsanlıq ağlının təbiətindən xalis zəkanın özünə verdiyi suallar necə əmələ gəlir və öz xüsusi tələbatının oyandırmasına görə mümkün qədər ona cavab verməyə cəhd edir?"

Kantın metafizik suallarla bağlı qoyduğu sual metafizik bilgilərin mənbəyinə işıq salmaqda mühüm əhəmiyyət kəsb edir. Biz yuxarıda təcrübədə sual-cavab əlaqəsini şərh edərkən göstərdik ki, istənilən sual yalnız subyektdə yerləşir. Belə ki, sualı istənilən halda subyekt verir. Cavab isə həmin sualın verilməsinə səbəb olan xarici təsir göstərən obyektdən çıxır. Nə qədər ki, metafizika təbiətdənkənar obyektləri öyrənir, metafizik suallandırma və ona uyğun cavab da təbiətdənkənar obyektlərdən əldə edilə bilər. Beləliklə metafizik suallandırmada suala cavab vəhdət təşkil edir. Metafizik obyektlər real gerçəkliklərdən fərqli olaraq mümkün varlıqdan, yəni mövcud varlığı olmayan varlıqlardan ibarət olduğundan, formaları olmadığından, belə obyektlər emanasiyaya məruz qalmadığından metafizik cavab xalis həqiqəti özündə ifadə edir. Yəni metafizik

bilgi mütləq həqiqət haqqında nisbi bilgidir, halbuki obyektiv gerçəklik haqqında bilgi yalnız mütləq nisbi bilgidən ibarətdir.

Bəs insan necə metafizik suallar verir və həmin suallara cavab tapır? Qeyd etdik ki, metafizikanın öyrəndiyi predmetlərdən biri də Ruhdur. Ruh mümkün varlıq kimi mövcuddur və öz təbiətinə görə təbiətdə müstəqil bilavasitə maddi mövcud olmadığından metafizikdir. Bu baxımdan metafizik cavablar da ruhda yerləşir və ruh özü-özündən digər metafizik varlıqlara verilmiş sualların cavabını tapır. Yəni metafizik suallandırma digər suallandırmalardan onunla fərqlənir ki, həm sual, həm cavab eyni bir yerdə – daxildə, Ruhda yerləşir. Sualla cavabın daxildə bir yerdə yerləşməsinə görə, metafizik bilgiyə heç bir hissiyyat qarışmır. Belə vəziyyətində ağlı *İ. Kant* təcrübi biliklərdən asılı olmayan prinsiplərə malik olduğundan *xalis zəka* adlandırmışdır. Beləliklə, xalis zəka – həm sualın, həm də cavabın birlikdə mövcud olduğu, hissi təsirdən uzaq, ağlın xüsusi vəziyyətidir. Beləliklə, metafizik suallandırma mümkün varlığın mümkün və mahiyyətin varlığına Ruhun özü-özündə verdiyi suallardır; hansı ki cavablarını da yalnız özü-özündən tapmağa cəhd edir. Bu cür sual-cavabda ruh yalnız mücərrəd anlayışlardan, heç bir təbii, obyektiv olanla heç bir əlaqəsi olmayan, yəni *a priori* anlayışlardan istifadə edir. Metafizik anlayışlar digər anlayışlardan onunla fərqlənir ki, elmi və fəlsəfi anlayışlar mütləq hansısa xarici obyektlə bağlanır, buna görə də ağıl anlayışların sərhədlərini onların bağlandığı obyektlərin hüdudları daxilində müəyyən edir. Amma metafizikada anlayışlar ağlın özünün "yaratdığı" – ağılda avtonom və spontan yaranan təbiətdənkənar obyektlərlə bağlandığından, həmin obyektlər isə hüdudsuz olduğundan, belə anlayışların konkret sərhədləri olmur və onlar hər şeyi əhatə edir. Məsələn, "var", "yox" anlayışı istənilən mövcud və mümkün varlığı özündə ifadə edən anlayışdır.

METAFİZİKANIN KONKRET SUALLARI

Aristotelin metafizik suallandirmalari – APORIYALAR

Metafizik suallandırmada sualla cavab bir yerdə olduğundan digər suallandırma formalarından fərqlənməlidir. Belə ki, metafizika başlanğıcları və səbəbləri öyrəndiyindən, metafizik suallandırma bir tərəfdən başlanğıc suallardan, ikinci tərəfdən digər sualların səbəbi kimi çıxış edən suallardan, üçüncü tərəfdən isə başlanğıca və səbəblərə verilmiş suallardan ibarət olmalıdır.

Başlanğıc sual – konkret şeyin və ya elmi predmetin başqa şeylərdən və predmetlərdən fərqliliyini özündə ifadə edən suallara aiddir. Əgər hər hansı bir sual eyniliyi özündə ifadə edirsə, heç vaxt fərqli şey və ya predmet haqqında verilə bilməz. İlk başlanğıc digər başlanğıcların başlanğıcı olduğundan, konkret predmetə dair verilmiş ilk sual başlanğıc sual olmalıdır (məsələn, "bu nədir?"). İlk səbəb digər bütün səbəblərin səbəbi olduğundan, metafizik sual sualların sualı kimi verilə bilər (məsələn, "«bu nədir?» sualı nə üçün məhz bu cür verilir, başqa cür yox?"). Nəhayət, ilk başlanğıcı və ilk səbəbi aşkarlamaq üçün metafizik suallar ilk başlanğıca və ilk səbəblərə verilmiş suallar olmalıdır. Məsələn: "mövcudluğun başlanğıcı nədir?", "şeyin başlanğıcı nədir?", "idrakın başlanğıcı nədir?" və s.

Biz burada konkret metafizik sualların nümunəsi kimi *Aristotelin* metafizikasındakı aporiyaları nümunə kimi şərh etməklə metafizik suallandırmanın təbiətini aydınlaşdırmağı məqsədəuyğun hesab edirik.

Haşiyə: *Aristotel*, "Metafizika"

1-ci aporiya: Bütün növ səbəblərə baxılma bir elmin predmetini təşkil edirmi, və ya hər bir növ üçün öz xüsusi elmini yaratmaq lazımdır? Onda bu zaman sual doğur, bu elmlərdən hansı müdriklik kimi qəbul edilə bilər?

2-ci aporiya: Mahiyyətə və sübutların əsas başlanğıclarına baxılması bir və eyni elmin işidir, yoxsa bu müxtəlif elmlərin predmetidir?

3-cü aporiya: Bütün növ mahiyyətlərə bir elm və ya bir neçə elm baxmalıdır?

4-cü aporiya: Mahiyyətlərə və mahiyyətlərlə bağlı xüsusiyyətlərə baxış bir elmin işi olmalıdır, yoxsa müxtəlif elmlərin?

5-ci aporiya: Yalnız hissi varlıqlar, yoxsa başqaları da mövcuddur? Bir növ (qeyri-hissi) mahiyyət qəbul edilməlidir, və ya bir neçə?

6-cı aporiya: Şeylərin təşkil olunduğu tərkib hissələri şeylərin başlanğıcı qəbul etmək olarmı?

7-ci aporiya: Başlanğıcları birinci, ən ümumi növ, o cümlədən vahid və mövcud hesab etmək, və ya əksinə – bilavasitə fərdi şeyləri göstərən sonuncu növlər hesab etmək olarmı?

8-ci aporiya: Yalnız tək-tək predmetlər mövcuddur və ya onlardan başqa nə isə? Tək predmetlərdən başqa heç nə qəbul etməmək mümkündürmü? Əgər yox, onda hansı hallarda onlardan fərqli nəsə verilir, o hansı xarakterə malikdir (ümumi, yoxsa fərdi)? Ayrıca şeylər belə elementləri özündə əlaqələndirir?

9-cu aporiya: Başlanğıc özündə nəsə vahidi təqdim edir – yalnız növə görə, yoxsa saya görə?

10-cu aporiya: Keçici və əbədi şeylər üçün bir və eyni başlanğıc qəbul etmək olarmı?

11-ci aporiya: Varlığın substansial xarakterini və vahidi inkar etmək olarmı?

12-ci aporiya: Ədədlər və həndəsi ölçülər özlərində nə qədərsə mahiyyət təqdim edirlərmi və ya onlar mahiyyət ola bilməzlər?

13-cü aporiya: Nə üçün hissi şeylərdən başqa riyazi predmetlərə ideya vermək zəruridir?

14-cü aporiya: Bir tərəfdən elementlər aktual varlıq kimi götürüldüyü halda, başqa tərəfdən – əgər onlar potensial şəkildə mövcud olurlarsa çətinlik əmələ gəlir.

15-ci aporiya: Başlanğıc universal xarakter daşıya bilərmi? Ona fərdi mövcudluq aid edilə bilərmi?

1. Bir və ya bir neçə müdriklik var? (1-ci aporiyaya uyğun)
2. Sübutların başlanğıcına bir və ya bir neçə elm baxır? (2-ci aporiyaya uyğun)
3. Bütün mahiyyətin öz predmetinə malik bir elm var, ya yox? (3-cü aporiyaya uyğun)
4. Bu elm yalnız mahiyyətlərlə, yoxsa onların xüsusiyyətləri ilə də məşğul olur? (4-cü aporiyaya uyğun)
5. Hissi mahiyyətlərə ali elm baxır, yoxsa başqaları? (5-ci aporiyaya uyğun) Hansı elm riyazi predmetlərin materiyası haqqında məsələni araşdırır?
6. Şeylərin tərkib elementlərini ali elm öyrənir, yoxsa şeylərdə olan ümumini öyrənir? Bu halda o öz predmeti ilə ən ümumi növə malikdir və ya əksinə sonuncu, məntiqi olaraq artıq bölünməyənlərə? (6-7 aporiyalara uyğun)
7. Fərdi şeylərdən başqa nəsə hesab etmək olarmı? Əgər olarsa, onda başqa hansı hissi mahiyyətlər? (8-ci aporiyaya uyğun)
8. Əbədi və keçici predmetlər üçün ümumi olan başlanğıc varsa, onda nə üçün onlardan biri əbədi, digəri keçicidir? Bu və ya başqası üçün müxtəlif başlanğıclar qəbul etmək çətinlik yaradır. (10-cu aporiyaya uyğun)
9. Mövcudluğu və vahidi şeylərin başlanğıcı qəbul etmək olarmı? (11-ci aporiyaya uyğun)
10. Xətt və səth başlanğıc ola bilərmi? Nə üçün nöqtə başlanğıc qəbul edilə bilməz? (12-ci aporiyaya uyğun)
11. Biliyin ümumi xarakterini şeylərin fərdi təbiəti ilə necə uyğunlaşdırmaq olar? (15-ci aporiyaya uyğun)
12. Öz tərkibində materiya olandan fərqli, hansısa predmet mövcuddurmu? (Ayrıca aporiya)

13. Başlanğıc növə və ya saya görə eyniliyə malikdirmi? (9-cu aporiyaya uyğun)

Aristotelin metafizika ilə bağlı verdiyi suallar bir tərəfdən metafizikanın elm və fəlsəfədən fərqini nümayiş etdirir, yəni həmin suallarla heç bir elmi və ya fəlsəfi bilik əldə etmək mümkün deyildir. İkincisi, bu suallar əsasında metafizik biliklərin hardan və necə əldə etməyin mümkünlüyünü göstərir. Biz, *Aristotelin* aporiyalarından metafizik bilginin – elmin əldə edilmə yeri kimi obyekt, şey-subyekt və forma-mahiyyət arasındakı münasibətə verilmiş suallar kimi təyin edirik. Bütün bu suallardan görünür ki, *Aristotelin* aporiyaları mahiyyətin şeyə, təfəkkürün mahiyyətə münasibətini bu və ya başqa formada özündə suallandırır. Buna görə də, bu aporiyaları – metafizik sualları – predmetinə görə üç qrupa ayırmaq olar.

1. ŞEYƏ MÜNASİBƏTDƏ SUALLAR – APORİYALAR

Bura *Aristotelin* müəyyən etdiyi 5, 6, 7-ci aporiyalar, ayrıca aporiya və 1, 6-7, 8, 11, 12, 15-ci aporiyalara uyğun suallar aiddir. Şeylə bağlı hər bir aporiyanı ayrılıqda şərh etməmişdən qabaq şey haqqında ən ümumi şəkildə şərh verək.

Varlıqlar hissi qavrayışa münasibətdə hissi və qeyri-hissi olmaqla iki yerə ayrılır. Hissi varlıqlar təcrübəyə daxil olan və obyekt-subyekt münasibətində hissi qavranılması mümkün olan mövcudluqlardan ibarətdir. Hissi varlıqların idrakda aşkarlanması, onların idrak edən subyektə nisbətdə məkan və zaman şərtlənməsi ilə mümkün olur. Mövcudluqlar subyektə – fərdə münasibətində şey kimi çıxış edir. Buna görə də, deyə bilərik ki, istənilən hissi qavranılan maddi varlıq idrak prosesində ayrılıqda götürülən şeydir. Qeyri-hissi varlıqlar şey statusunda çıxış etmir və şeyin yuxarıda təsvir etdiyimiz xarakteristikalarına əks xarakteristikalara malikdir. Yəni materiyası yoxdur, məkanla şərtlənmir, formasızdırlar, xarici vəhdət təşkil etmirlər, yalnız zərurətə görə daxili vəhdətdədirlər.

Şey idrak prosesində ayrılıqda, digər şeylərlə vəhdətdən abstrakt yolla kənarlaşdırılmış və hissi qavrayışa təqdim edilmiş obyektiv gerçəklikdir. Hər bir konkret şey – fərdi şeydir. Fərdi şey – əmələgəlmənin sonu, idrak prosesinin başlanğıcının ayrılıqda götürülmüş maddi əsasıdır. Şeyin fərdiliyi həmin şeyə münasibətdə subyektin fərdiliyini özünə refleksiya edir. Eyni vaxtda, hamının malik olduğu və ya hamı ilə münasibətdə olan eyni bir fərdi şey mövcud deyil. Beləliklə, şeydə iki proses – təbii proseslə ruhi proses – bir-biri ilə əlaqələnir və əmələgəlmə prosesi şeydən keçərək, ağılda idrak prosesinə çevrilir. Əmələgəlmədə konkret şeylərdən, idrak prosesində abstrakt şeylər – obrazlar, ideyalar, fikirlər və s. meydana gəlir. Buradan da, konkret şeyi abstrakt şeyin başlanğıcı kimi qəbul etmək olar. Biz şeyi həm də sonrakı inkişafı mümkün olmayan, yəni emanasiyanın başa çatdığı mövcudluq kimi təyin edirik. Əgər şey başa çatmamış olsaydı, onda onun idrak prosesinə daxil olması da başa çatmış olmazdı, nəticədə idrak sonsuz prosesə çevrilərdi, bu idrakın baş tutmaması demək olardı. Bu mənada canlıları şey hesab etmək olmaz, çünki onların inkişaf potensialı var. Bundan fərqli olaraq, onların cəsədi şeydir, çünki inkişaf potensialını tam itirmişdir. Buna görə də, şey kimi yalnız cisimlər götürülə bilər. Şey cisimləri təşkil etdiyindən bütün cisimlər üçün ən ümumi xarakteristikadan şeyi şərh edə bilərik.

a. Bütün fiziki cisimləri əmələ gətirən ən ümumi əsas materiyadır. Materiya şeyin məkanla şərtlənməsinin əsasıdır. Hissi qavranılma materiya ilə bağlıdır. Belə ki, hissi qavrama yalnız məkanla şərtlənmədə mümkün olduğundan, materiya məkanla şərtlənmənin əsasını təşkil etdiyindən həm də hissi qavranılmanın əsası kimi çıxış edir. Materiyası olmayan predmetlər məkanla şərtlənmir.

b. Hər bir şey özündə fakt və akt kimi mövcuddur. Şeyin faktlığı onun mövcudluğu, şeyin aktı onun mövcudolmasını özündə təqdim edir. Şeyin mövcudluğu onun məkanla şərtlənməsindən, mövcudolması zamanla şərtlənməsindən meydana çıxır. Beləliklə, məkan və zaman şərtində şey mövcudluğun mövcudolmasını özündə ifadə edir.

c. Hər bir şey forma və mahiyyətin vəhdəti kimi mövcuddur. Forma idrak prosesində özündə ən pis, yəni ən nisbi həqiqəti – heçliyi təqdim etdiyindən ayrılıqda götürülmüş formadan həqiqəti aşkarlamaq mümkün deyil. Məsələn, kürə. Bir forma kimi kürə özündə heç bir mahiyyətə malik deyildir. Forma heçlik olduğundan, mahiyyətə münasibətdə onun dəyişilməsi şeyin başqa şeylə əvəzlənməsinə səbəb olmur. Məsələn, dəmirin kürə, silindr və ya piramida formasında olması dəmirin mahiyyətinə təsir etmir. Eyni zamanda formadankənar mahiyyət hissi qavrayışa daxil olmadığından, təfəkkürdə müstəqil aşkarlanmayandır. Beləliklə, şeydə həqiqətin aşkarlanması formadan keçməklə mümkün olur. Forma emanasiyanın sonu olduğundan, özündə mütləq fərqlilik təqdim edir. Mütləq fərqlilik həqiqətin olmamasını özündə ifadə edir. Formadan mahiyyətə keçməklə fərqlilik tədricən dəf edilərək eyniliklə əvəzlənir. Nəticədə, şeylərin müxtəlifliyinin əksinə, onların mahiyyətindən eyniliyi aşkarlamaq olur ki, bu da keyfiyyətli həqiqət kimi – nisbi həqiqət kimi meydana çıxır. Məsələn, müxtəlif həndəsi formalarda olan şeydə formaların kənarlaşdırılması ilə şeyin fiziki xassələrini, sonra fiziki xassələrin fərqliliklərini dəf edərək onların kimyəvi xassələrini öyrənirik və kimyəvi xassələrindən şeylərin mahiyyətini aşkarlayırıq. Kimya elmində analitik üsulla naməlum maddələrin tərkibi belə müəyyənləşir. Şeylərin mahiyyətinin dərinliklərinə endikcə eyniliyin dərəcəsi artır və son eynilik bütün şeylərin hamısı üçün bir və vahid olan ümumi mahiyyət kimi aşkarlanır.

Şeylər özlərində iki cür ümumini təqdim edirlər.

Birincisi, daxili ümumilik: Daxili ümumilik mahiyyətin eyniliyində meydana çıxır. Məsələn, istənilən formalı dəmir parçası eyni dəmir atomlarından təşkil olunduğundan həndəsi formasından, sayından, rəngindən və hərəkətindən asılı olmayaraq eyni bir mahiyyətdədir.

İkincisi, xarici ümumilik: Xarici ümumilik özündə iki cürdür. Birincisi, eyni mahiyyətli şeylərin xarici ümumiliyi. Belə ümumiliyin qanunauyğunluqlarını riyaziyyat elmi öyrənir və kəmiyyət kimi təyin olunur.

İkincisi, müxtəlif mahiyyətli şeylərin ümumiliyi. Belə ümuminin qanunauyğunluqlarını kimya elmi öyrənir və keyfiyyət kimi təyin olunur.

Ümumilik vəhdətin başlanğıcını təşkil edir və şeylər daxili ümumilik əsasında zərurətə görə vəhdətdə, xarici ümumilik əsasında təsadüfə görə vəhdətdədir. Təsadüfə görə vəhdətdə xaotik həqiqət (aydın və dəqiq olmayan həqiqət), zərurətə görə dəqiq və aydın həqiqət aşkarlanır.

Şey haqqında bu qısa şərhdən sonra əvvəlcə *Aristotelin* aporiyalarının özünü, sonra bunlara uyğun aporiyaları ayrılıqda şərh etməklə metafizik suallandırmanın təbiətinə aydınlıq gətirək. *Aristotelin* aporiyaları arasında şey haqqında olanlara aşağıdakıları aid etmək olar:

5-ci aporiya: "Yalnız hissi varlıqlar, yoxsa başqaları da mövcuddur? Bir növ (qeyri-hissi) mahiyyət qəbul edilməlidir, və ya bir neçə?"

Şərh: "Hissi varlıqlar" – hissi qavrayışla idrak edilən bütün maddi şeyləri əhatə edir. Hissi varlıqlar hiss üzvlərinə təsir imkanlarına görə təyin olunur. Hissi varlıqlar hissi orqanlarına təsirinə görə təyin olunduğundan, əksiliklərin vəhdəti prinsipinə görə hissi orqanların təsirinə görə təyin olunmayan varlıqları *qeyri-hissi varlıqlar* kimi təyin edə bilərik. Belə varlıqları iki böyük qrupa ayırmaq olar:

A. Qeyri-hissi maddi varlıqlar:

Birincisi, maddi mövcud olub, amma bilavasitə hissi varlıq kimi çıxış etməyən mövcudluqlar. Məsələn, mikroblar hissi varlıqlar deyil, amma onlar maddi mövcudluqlardır və onların mövcudluğu orqanizmdə yaratdıqları xəstəliklərdən aşkarlanır.

İkincisi, sənət əsərləri formasında maddi varlıqlar. Qeyri-hissi varlıqlara hissi varlıqlara proyeksiya edilmiş sənət əsərlərini aid etmək olar. Məsələn, hər hansı bir hissi varlığın proyeksiya olunduğu əsər özündə həmin varlığın xalis formasını təqdim edir. Həmin əsərdən bilavasitə əsərdəki varlığın mahiyyətini yox, əsərin proyeksiya olunduğu hissi varlığın mahiyyətini aşkarlamaq olar. Başqa sözlə, sənət əsərlərində forma ilə mahiyyət vəhdət təşkil etmədiyindən, onlarda hissi qavranılan varlıqlara xas mahiyyət yoxdur.

Üçüncüsü, keçici hissi maddi varlıqlar. Belə varlıqlar müvəqqəti olaraq müəyyən vaxt ərzində hissi varlıq kimi çıxış edir, sonra hissi varlıq olmaqdan çıxır. Məsələn, NaCl-da Na və Cl keçici hissi varlıqlardır. Onlar xörək duzunda ayrıca hissi varlıq kimi çıxış etmir. Xörək duzu isə yalnız onların birləşməsində hissi varlıq kimi çıxış edir. Amma tərkib hissələrinə ayrıldıqda xörək duzu hissi varlıq kimi çıxış etmir, əksinə Na və Cl ayrı-ayrılıqda hissi varlığa çevrilir.

B. Qeyri-hissi, qeyri-maddi varlıqlar: Belə varlıqlar da iki cürdür.

Birincisi, sahə. Sahə materiyanın bir forması kimi mövcuddur, amma qeyri-maddidir və qeyri-hissidir. Sahənin forması yoxdur, ona görə də yalnız forması olan digər şeylərdən aşkarlamaq mümkündür.

İkincisi, sosial mövcudluqlar: ailə, qrup, dövlət, cəmiyyət mövcudluqdur, amma nə maddidirlər, nə də hissidirlər. Bunlar ruhun müxtəlif atributlarının aktuallaşmasını özündə təqdim edir və buna görə də konkret mahiyyətə malikdirlər.

Mahiyyət formadan keçməklə idrak olunur və bu zaman hissi qavranılan forma olur; təfəkkürdə formadan abstraksiya yolu ilə onunla vəhdətindən mahiyyət aşkarlanır. Qeyri-hissi varlıqlar isə ya vasitəli-instrumental (qeyri-hissi maddi varlıqların aşkarlanmasında olduğu kimi), və ya da nəzəri yolla (qeyri-hissi qeyri-maddi varlıqların aşkarlanmasında olduğu kimi) müəyyən olunur. Ona görə də demək olar ki, yalnız bir qeyri-hissi mahiyyət vardır, o həm hissi qavranılanlardan, həm də qeyri-hissi qavranılanlardan aşkarlanır, buna görə də ümumidir.

6-cı aporiya: "Şeylərin təşkil olunduğu tərkib hissələri şeylərin başlanğıcı qəbul etmək olarmı?"

Şərh: Tərkib hissə hissədən fərqli mənaya malikdir. Hissə – eyni tərkibli tamı təşkil edən, tamla və digər hissələrlə eyni keyfiyyətlərə malik, tama münasibətdə müstəqil hissi qavranılan mövcudluqdur. Tərkib hissə isə hissələri tərtibləyən, digər tərkib hissələrindən və tamdan fərqli keyfiyyətlərə malik, və onlara münasibətdə ayrılıqda tam kimi çıxış edən hissədir. Bu aporiyanı şərh etmək üçün tərkibin təşkilinə baxaq. Məsələn,

NaCl – xörək duzu. Xörək duzu iki tərkib hissəsindən, Na və Cl-dan ibarətdir. Na və Cl-u xörək duzunun başlanğıcı qəbul etmək olarmı? Əgər Na və Cl-u xörək duzunun başlanğıcı qəbul etsək, onda onların digər heç bir şeyin başlanğıcı olduğunu, yəni başqa maddələrin tərkib hissəsi olduğunu inkar etməliyik. Lakin təcrübədə bu özünü doğrultmur. Məsələn, HCl və NaOH: göründüyü kimi, xlorid turşusunda Cl həm də xlorid turşusunun, Na isə natrium qələvisinin tərkib hissəsidir. İkincisi, istər Na, istər Cl da öz növbəsində ayrı-ayrı atomlardan təşkil olunub, hansı ki elektron, proton və neytrondan ibarət tərkib hissələrinə malikdir. Buradan da çıxış edib demək olar ki, şeyləri təşkil edən tərkib hissələrini şeylərin başlanğıcı hesab etmək olmaz. Üçüncüsü, şeylər əmələgəlmə prosesində meydana çıxdığından hər bir şey və onu təşkil edən tərkib hissələri həm nəticə, həm başlanğıcdır. Şeylərin başlanğıcı yalnız yaranma prosesində aşkarlana bilər ki, tərkib hissələri yaranmada meydana çıxmır.

7-ci aporiya: "Başlanğıcları birinci, ən ümumi növ, o cümlədən vahid və mövcud hesab etmək, və ya əksinə – bilavasitə fərdi şeyləri göstərən sonuncu növlər hesab etmək olarmı?"

Şərh: Emanasiyaya görə eyni başlanğıc ən müxtəlif səviyyələrdə birbirindən fərqli şeylər təzahür etdirir. Məsələn, sadə və mürəkkəb maddələr. Mürəkkəb tərkibə malik şeylər bir emanasiya dərəcəsini, sadə maddələr başqa emanasiya dərəcəsini özlərində təqdim edirlər. Emanasiya dərəcəsi artdıqca şey özündə daha pis həqiqəti aydınlaşdırır. Həqiqət nə qədər keyfiyyətli aydınlaşırsa, şey bir o qədər başlanğıca yaxındır və buna görə də, ondan başlanğıcı daha dəqiq aydınlaşdırmaq olar. Buna görə də, fərdi şeylərdə forma daha təkmil şəkildə meydana çıxdığından mahiyyət başlanğıcdan ən uzaq və ya ən pis keyfiyyətli olur. Yəni fərdi şeyləri göstərən sonuncu növ başlanğıc ola bilməz. Şeylər orijinallıqdan ümumilik istiqamətində özlərində daha ümumi həqiqəti aşkarlayırlar, ona görə də başlanğıcı birinci və ən ümumi növ hesab etmək lazım gəlir.

8-ci aporiya: "Yalnız tək-tək predmetlər mövcuddur və ya onlardan başqa nə isə var? Tək predmetlərdən başqa heç nə qəbul etməmək müm-

kündürmü? Əgər yox, onda hansı hallarda onlardan fərqli nəsə verilir, o hansı xarakterə malikdir (ümumi yoxsa fərdi)? Ayrıca şeylər belə elementləri özündə necə əlaqələndirir?"

Şərh: Burada "tək predmet" anlayışında təklik bir çox mənaları özündə ifadə edir.

Birincisi, fakt kimi tək. Hər hansı bir şeyin faktı iki cür mövcud olur: zamanda sıralanmaqla, məkanda sıralanmaqla. Məkanda sıralanmadan faktın çoxluğu – kəmiyyət, zamanda sıralanmadan akt – keyfiyyət meydana çıxır. Kəmiyyətlə keyfiyyət qarşılıqlı bir-birinə keçdiyindən aktual olan çoxluq kimi, çoxluq olan aktual kimi təzahür edir. Beləliklə, fakt kimi tək reallıq deyil.

İkincisi, aktuallaşma kimi tək. Hər hansı bir şey yerdə qalan bütün şeylərlə bir məkanda və zamanda aktuallaşdığından onlarla vəhdətdədir. Vəhdətdən kənarda tək şey reallıq deyil. Yəni şey başqa şeylərin aktuallaşdığı məkan və zamandan fərqli məkan və zamanda aktuallaşmır.

Üçüncü məna, subyektə münasibətdə tək. Yalnız tək bir fərddə, obyekt-subyekt münasibətində aşkarlanan şey reallıq deyil. Reallıqlar istənilən fərdlə, yəni bütün insanlarla obyekt-subyekt münasibətində olan və ya belə imkana malik olan şeylərdir.

Predmetlərin tək-tək mövcud olmasının iki mənası vardır. Birincisi, predmetlər yalnız hissi qavrayışa münasibətdə tək-tək mövcuddur, yəni biz yalnız idrak prosesində mövcudluqlardan birini tək kimi götürüb, onu hissi qavrayırıq; bu zaman onunla çoxluq təşkil edən eyni növ bütün mövcudluqların da mahiyyətini qavramış oluruq. Buna görə də, təkdən qavranılan cəmin ümumi mahiyyəti olur. Bundan fərqli olaraq, qeyri-hissi qavranılan maddi və qeyri-maddi predmetlər və özü-özündə mövcud olan maddi predmetlər tək-tək mövcud deyil. Məsələn, biz tək bir almanı götürüb "bu almadır" kimi qavrayırıq. Bu zaman alma bizim qavramımızdan kənarda qalan, sonsuz sayda, müxtəlif növ və sortu olan almaların cəminin mahiyyətini özündə təqdim edir. Beləliklə, biz cəmin mahiyyətini özündə ifadə edəni tək kimi qəbul edirik. Əgər təkdən aşkarlanan

mahiyyət özündə cəmin ümumi mahiyyətini təşkil etmirsə, belə tək irreallıqdır. Məsələn, biz almanın mulyajını götürsək, ondan almanın mahiyyətinə aid heç bir bilgi əldə edə bilmədiyimizdən, həmin mulyaj qeyri-real alma olur. Ona görə də, hər bir tək özündə cəmin ümumi mahiyyətini ifadə etdikdə real olur. Bu mənada biz bir almadan ümumiyyətlə sonsuz sayda, müxtəlif növ və formalı almalar haqqında ən ümumi bilgi əldə etmiş oluruq. İkincisi, bütün predmetlər vəhdətdə mövcud olduğundan, istənilən tək vəhdətdən kənarda irreallıqdır. Vəhdət qarşılıqlı refleksiya edən şeylərin birliyidir. Tutaq ki, biz almanın nə olduğunu qavramaq istəyirik. Əgər biz almadan başqa ondan əvvəl heç bir predmet haqqında heç bir təsəvvürümüz yoxdursa, onda heç vaxt almanın nə olduğunu dərk edə bilmərik. Beləliklə, şeylər bir-biri ilə ya eyniliyindən, ya fərqliliyindən, ya da oxşarlığından dərk olunur ki, hər üç xarakteristika – eynilik, oxşarlıq və fərqlilik – vəhdətin xarakteristikaları kimi çıxış edir.

10-cu aporiya: "Keçici və əbədi şeylər üçün bir və eyni başlanğıc qəbul etmək olarmı?"

Şərh: Bu aporiyanı şərh etmək üçün "əbədi və ya keçici predmetlər" ifadəsində "əbədi və keçici" sözlərinin mənalarını müəyyənləşdirmək lazımdır.

Haşiyə: *Aristotel*, "Metafizika"

"Nəyinsə sonuncu, nəyinsə əvvəlki olduğu sıradakı ortaya münasibətdə əvvəlki zəruri olaraq özündən sonra gələn üçün səbəb olmalıdır. Əgər bizə üç mərhələdən birinə səbəb demək lazımdırsa, onda biz sıranın birinci üzvünü göstərməliyik, hər halda sonuncunu yox, belə ki, o, sonda durur və heç bir səbəb deyil; ortadakı da səbəb deyil, belə ki, o, yalnız birinin səbəbidir (sonuncunun). Bu formada sərhədsiz sıralarda və ümumiyyətlə hissələrin bütün hüdudsuzluğunda – indiki məqama kimi orta hissələr eynidir, ona görə də əgər heç bir birinci yoxdursa, onda heç bir səbəb yoxdur. İki mənada – birinin digərindən əmələ gəldiyini demək olar: biri o birisindən, biri digərindən sonra mənasında; və ya o mənada ki, əmələ gələn əmələ gələndən əmələ gəlir və ya da biri digərini məhv et-

məklə ondan əmələ gəlir mənasında. Birinci halda təzahür edən şeylər qarşılıqlı bir-birinə keçmir, ikincidə əks keçid baş verir. Hər ikisində sonsuzadək getmək olmaz."

Aristotelin fikirlərindən görünür ki, o, keçici şeyləri bir neçə mənada təyin edir. Birincisi, əmələgəlmə prosesində sıralanmaya görə keçici: Belə sıralanma düzxətli sıralanmadırsa, onda xəttin başlanğıcındakı əbədi, sona qədər olan ortadakılar keçici, sonda olan isə özündən sonra gələn olmadığından sonu olmayan sonuncudur və ya başlanğıclıq xarakteristikası olmayandır. Beləliklə, xətti sıralanmada şeylər fərqli başlanğıclara malik olduğundan keçici və əbədi şeylər üçün bir və eyni başlanğıc qəbul etmək olmaz. Əgər şeylər çevrə üzrə sıralanıbsa, onda çevrənin istənilən nöqtəsindəki şey özündən əvvəlki üçün son, sonrakı üçün başlanğıcdır. Belə sıralanmada bütün şeylər keçici olduğundan onlar üçün bir və eyni başlanğıc qəbul etmək olmaz. Başqa sözlə, *Aristotelin* təbirincə "birinci yoxdursa, səbəb də yoxdur". Əmələgəlmənin özünün formasına görə *Aristotel* iki cür keçicilik aşkarlayır. Birincisi, özündən əvvəlkini məhv etməklə əmələgəlmə, yəni biri digərindən əmələ gəlir. Na və Cl birləşməsindən NaCl əmələ gəlir. Nəticədə xörək duzu öz başlanğıclarını (Na və Cl) məhv etdiyindən xörək duzunda özünün başlanğıclarının heç birinin özəlliyini təqdim etmir. Biri digərini məhv etməklə əmələgəlmə dönər prosesdir. Yəni həmin şey də məhv olmaqla onu əmələ gətirənləri əmələ gətirir. Buradan bir və eyni başlanğıc aşkarlamaq olmaz. İkinci məna, vaxta görə əmələgəlmə. Yəni zamana görə bir şey başqasından sonra əmələ gəlir. *Aristotel* bunu "əmələ gələndən əmələ gələn" adlandırır. Məsələn, ata babadan, oğul atadan əmələ gəlir. Bu zaman baba başlanğıc, ata orta, nəvə son varlıqdır. Başlanğıc babadır. Oğulda və atada babaya xas başlanğıc yoxdur. Belə əmələgəlmədə qarşılıqlı yox, ardıcıl keçid baş verir. Yəni baba ataya, ata nəvəyə, o da nəticəyə və s. keçir. Belə keçid sonsuza qədər getdiyindən sonsuzluqdan başlanğıc aşkarlamaq mümkün deyil.

"Əbədi və keçici" ifadələri əmələgəlmə prosesinə münasibətdə müxtəlif mənalarda meydana çıxır. Əbədi keçicinin əksiliyi olduğundan, keçicinin mənasının əksiliyi kimi əbədilik müəyyənləşdiyindən, burada yalnız keçicinin müxtəlif mənalarını şərh edirik. Həmin mənaların əksiliyi avtomatik olaraq özündə əbədiliyin xarakteristikası olacaqdır.

Birinci mənada, *ümumiyyətlə yaranma və əmələgəlmə prosesinə münasibətdə keçicilik:* Belə ki, əbədilik yaranmadan, keçicilik əmələgəlmə prosesində meydana çıxan varlıqları və mövcudluqları xarakterizə edir. Əbədi olmaq Yoxluqdan Varlığa çevrilmək deməkdir, hansı ki bunun əksinə Varlıq Yoxluğa çevrilmir. Əmələgəlmə prosesində proses dönərlidir; yəni bir şey başqasından əmələ gəldiyi kimi, başqası da ondan əmələ gəlir və ya da əmələ gəldiyi şeyləri əmələ gətirir. Əbədilik həm də özündə emanasiyanın başa çatmasını ifadə edir. Başqa sözlə, tam formalaşmış predmetlər əbədi predmetlər (məsələn, cisimlər), formalaşmaqda olan predmetlər (məsələn, canlılar) keçici predmetlərdən ibarətdir. Başqa sözlə, əbədi predmet özündə ilk başlanğıcla son nəticənin vəhdətini təqdim edir, keçici predmetlərdə ilk başlanğıc son nəticə ilə vəhdət təşkil etmir. Buna görə də, yalnız əbədi predmetlərdən səbəb-nəticə əlaqəsinə görə son nəticədən başlanğıc səbəbə çatmaq olar. Həmin predmetlərdən aşkarlanan həqiqət dəyişməz, təkrarlanan nisbi mütləq həqiqətlər olduğundan, yalnız belə həqiqətlərdən dəyişməz və təkrarlanan başlanğıc səbəbə baxmaq mümkündür; hansı ki bu xarakteristikalar yalnız başlanğıc səbəb üçün xarakterikdir. Keçici predmetlər emanasiya prosesində olan və əmələgəlmənin davam etdiyi proseslərdir. Belə predmetlər özlərində son nəticə kimi çıxış etmədiyindən özlərində son nəticə ilə vəhdət təşkil edən ilk başlanğıca malik deyillər. Keçici predmetlər məkan və zamanda təkrarlanmadığından onlardan təkrarlanan həqiqət aşkarlamaq mümkün deyil və predmetinin keçiciliyinə uyğun ondan aşkarlanan həqiqət də dəyişkəndir. Dəyişkən həqiqətlərdən dəyişməz başlanğıc səbəbi aşkarlamaq mümkün deyil.

İkinci mənada, *zamanla şərtlənməyə görə keçicilik:* Belə ki, "əbədi və keçici" sözləri özündə zamanla şərtlənməni ifadə edir. "Keçici predmetlər" zamandan çoxparametrli asılılığı, "əbədi predmetlər" zamandan bir parametrli asılılığı təqdim edir. Yuxarıda qeyd etdik ki, canlılar zamandan çoxparametrli asılı olduğundan vaxt keçdikcə müxtəlif forma və mahiyyətdə təzahür edirlər. Vaxt keçdikdə onların forma və mahiyyəti dəyişir və bu dəyişilmənin müəyyən səviyyəsində belə predmetlər başqa predmetlərə çevrilir. Məsələn, modifikasiyanın mutasiyaya keçməsi nəticəsində bir varlıq başqa varlığa çevrilir, bu zaman yeni forma və mahiyyət meydana çıxır. Canlılar keçici olduğundan özlərində daimi həqiqət aydınlaşdırmırlar, onların daimi mahiyyəti fərdlərdə yox, nəsildə aydınlaşır; nəsil isə konkret kimi fərdi şeydə (individdə) yox, abstrakt kimi onların ümumiliyindən aşkarlanır. Buna görə də, heç bir canlı fərddən canlıların ümumi başlanğıcını aşkarlamaq mümkün deyil. Cisimlər zamandan bir parametrli asılıdırlar, vaxtdan asılı olmayaraq sabit forma və mahiyyətə malikdirlər. Buna görə də, canlı fərdlə (keçici predmet kimi) fərdi şeydən (əbədi predmet kimi) onların hər ikisi üçün eyni ümumi başlanğıcı aşkarlamaq mümkün deyil.

Üçüncü məna, *məkanla şərtlənməyə görə meydana çıxır.* Zamanla şərtlənmənin əksinə cisimlər məkanla bir momentli, çox parametrli asılıdırlar və məkan parametrlərinin dəyişilməsi ilə cisimlərin forması və mahiyyəti dəyişir. Nəticədə məkanla şərtlənməyə görə cisimlər keçici olur. Bunun əksinə, canlılar məkanla bir momentli şərtləndiklərindən məkan parametrlərinin dəyişilməsindən asılı olmayaraq onların mahiyyəti (mahiyyət nəsildə aydınlaşdığından məkan parametrləri nəslə yox, fərdə təsir etdiyindən) sabit qalır. Zamanla şərtlənmədə olduğu kimi məkana görə keçici və əbədi olan predmetlərdən eyni başlanğıc aşkarlamaq olmaz.

Dördüncü məna, *formaya görə keçicilik:* Elə predmetlər var ki, onların mahiyyəti bir yox, bir neçə forma ilə şərtlənmişdir, ona görə də onların konkret bir formasından mahiyyətlərini aşkarlamaq mümkün deyildir. Məsələn, kəpənək dörd formada – yumurta, tırtıl, pup və kəpənək forma-

larında mövcud olur. Bu formaların hər biri digər formalarla əksilik təşkil edir, heç bir formadan ayrılıqda kəpənəyin mahiyyəti aşkarlanmır, yalnız dörd formanın vəhdətindən kəpənəyin mahiyyəti aydınlaşır.

Beşinci mənada, *hala görə keçicilik:* Cisimlərin bir çox halları vardır və hər hal özünəməxsus qanunauyğunluqlara tabe olur. Halın tabe olduğu qanunauyğunluqdan predmetin mahiyyəti aşkarlanmır. Əksinə haldan həmin halda olan bütün şeylərin halla bağlı ümumi mahiyyəti aşkarlanır və ayrı-ayrı halların qanunauyğunluqları bir-birini istisna etdiyindən heç biri ayrılıqda predmetin mahiyyətini özündə ifadə etmir.

Altıncı məna, *təsadüfə və zərurətə görə keçicilik:* Əbədi predmetlər zərurətə görə mövcud olanlardır. Keçici predmetlər təsadüfə görə mövcud olanlardır. Yuxarıda təsadüfi olanların özündə xaosu təqdim etdiyini, xaosda isə dəqiq və aydın həqiqəti aşkarlamağın mümkünsüzlüyünü qeyd etmişdik. Bütün bunlar əsasında demək olar ki, əbədi və keçici olanlar üçün bir və eyni başlanğıc qəbul etmək olmaz.

14-cü aporiya: "Bir tərəfdən elementlər aktual varlıq kimi götürüldüyü halda, başqa tərəfdən – əgər onlar potensial şəkildə mövcud olurlarsa çətinlik əmələ gəlir."

Şərh: Hər bir mümkünlük yalnız bir imkana uyğun mövcud varlığa çevrilərkən özündə sonsuz sayda imkana uyğun mümkünlüyünü saxlayır ki, bu da hər bir elementin potensial şəkildə mövcudluğunu özündə təqdim edir. Element – aktuallaşmış mütləq fakt, potensiya şəklində mövcud olandır; hansı ki aktuallaşmadan xalis potensiallıqdır. Metafizika aktuallaşmayan varlıqdan – xalis potensiallıqdan həqiqəti öyrəndiyindən idrak üçün heç bir çətinlik törətmir. İkincisi, aktla fakt vəhdətdə olduğundan potensial şəkildə mövcud olmayan element aktual varlıq kimi götürülə bilməz. Bu da onların vəhdət təşkil etdiyini göstərir. Əgər vəhdətin bir tərəfi çətinlik törətmirsə, digər tərəfi də çətinlik törədə bilməz.

Ayrıca aporiya: "Öz tərkibində materiya olandan fərqli, hansısa predmet mövcuddurmu?"

Şərh: Varlıqların xarakteristikasına görə iki böyük qrupa ayırmaq olar: Mümkünlük və reallıq xarakteristikası olan varlıqlar – şeylər. Reallıq xarakteristikası varlığın material əsası ilə bağlıdır, hansı ki onu hissi qavranılan edir. Mümkünlük varlığın ideyalaşdırılmasına aiddir, hansı ki onu nəzəri qavranılan edir. Beləliklə, mümkün varlıqlar şeylərdən materiyaya görə fərqlənir. Məsələn, Ruh materiyaya malik olmayan idrak predmetidir və materiyadan təşkil olunmadığından şeyin əksiliyi kimi çıxış edir.

Aristotelin şeylə bağlı aporiyalarına uyğun gələn suallar:

1-ci aporiyaya uyğun sual: *Aristotelin* birinci aporiyası bilavasitə şeyə aid olmasa da, hər bir şey özündə səbəbə malik olduğundan, dolayısı ilə səbəblər şeylərdən aşkarlandığından, şeylə bağlı sual da mahiyyətcə birinci aporiyaya uyğundur. Başqa sözlə, şeylə bağlı sual şeydə – forma ilə vəhdət təşkil edən mahiyyətə, birinci aporiya isə formadan kənar abstrakt götürülmüş mahiyyətə verilmiş sualdır. Birinci aporiyanı *Aristotel* belə ifadə edir: *"Bütün növ səbəblərə baxılma bir elmin predmetini təşkil edirmi, və ya hər bir növ üçün öz xüsusi elmini yaratmaq lazımdır, onda bu zaman sual doğur, bu elmlərdən hansı müdriklik kimi qəbul edilə bilər?"* Hər bir şey özündə bir səbəb təqdim edir. Əgər bütün növ səbəblərə baxılmaya ayrı-ayrı elm baxsaydı, onda şeylərin növü qədər elm meydana çıxardı. Elm sahələri nə qədər müxtəlifdirsə, onların baxdığı məsələlər də bir o qədər orijinallaşır; orijinal həqiqətlər ən pis həqiqət kimi onlardan yalnız sonu müəyyən etmək olar. Müdriklik başlanğıc həqiqətlərin aşkarlanması ilə bağlı olduğundan belə həqiqəti buna görə müdriklik hesab etmək olmaz. Deməli, buradan belə nəticə çıxara bilərik ki, bütün növ səbəblərə baxılma bir elmin işidir və həmin elm bütün növ səbəblərə tək bir elm kimi baxdığından, müdriklik elmi də məhz həmin elm hesab edilə bilər.

10-cu aporiyaya uyğun sual: *Aristotel* 10-cu aporiyaya uyğun müəyyən etdiyi digər sual belədir: "Əbədi və keçici predmetlər üçün ümumi olan başlanğıc varsa, onda nə üçün onlardan biri əbədi, digəri keçicidir?

Bu və ya başqası üçün müxtəlif başlanğıclar qəbul etmək çətinlik yaradır.” “Keçici predmet” anlayışı özündə bir neçə məna ifadə edir.

Birinci məna: Bir yerdən başqa yerə keçmək. Bu məna özündə hərəkəti ifadə edir. Hərəkət edən bütün şeylər məkanda bir yerdən başqa yerə keçir və bu zaman başqa şeylərlə təsadüfi vəhdət təşkil edirlər (hansı ki yuxarıda şərh etmişdik ki, təsadüfi vəhdətdən həqiqət aşkarlamaq çətindir).

İkinci məna: Bir vaxtdan başqa vaxta keçmək. Canlılar bir vaxtdan başqa vaxta keçərək inkişaf edir. Bu zaman onların mahiyyətində nisbi dəyişilmələr baş verir. Ona görə də canlıların fərdindən başlanğıc həqiqət aşkarlanmır.

Üçüncü məna: Bir haldan başqa hala keçmək. Maddələr müxtəlif aqreqat hallarında mövcuddur və maddə bir haldan digər hala keçərkən həmin halın qanunlarına tabe olur.

Dördüncü məna: Başqa şeyə keçmək. Şeylər keçirilməzlik xarakteristikasına malikdir və bərk şeylərin daxili həcmi keçirilməzdir. Mayelər birlikdə ortaq həcmə keçirlər, qazlar bir-birinin daxilinə keçirlər. Bir-birinin daxilinə keçməklə qarışıqlar meydana çıxır. Qarışıqlardan ümumi həqiqət aşkarlamaq çətindir.

Beşinci məna: Bir mahiyyətdən başqa mahiyyətə keçmək. Yaranma prosesində bir mahiyyət başqa mahiyyətə keçməklə fərqli varlıq sıraları təşkil edirlər.

Altıncı məna: İdraka münasibətdə keçici olmaq. Hissi qavranılan şeyin müvəqqəti olaraq təcrübədə olmasını özündə ifadə edir. Keçici şey varlıqdan yoxluğa keçir və idrak yoxluqdan həqiqəti aşkarlamaq imkanına malik deyil. Yoxluq Varlığın başlanğıcıdır və yoxluqla varlığın eyni başlanğıcı olmadığından yoxluğa keçən şeylərlə əbədi şeylərin eyni bir başlanğıcı ola bilməz.

6–7-ci aporiyalara uyğun sual: *Aristotel* yuxarıda şərh etdiyimiz 6 və 7-ci aporiyalara uyğun aşağıdakı sualı verir: “Şeylərin tərkib elementlərini ali elm öyrənir, yoxsa şeylərdə olan ümumini öyrənir? Bu halda o

öz predmeti ilə ən ümumi növə malikdir və ya əksinə sonuncu, məntiqi olaraq artıq bölünməyənlərə?" **Şərh:** 6-cı aporiyanın şərhində qeyd etdik ki, şeylərin tərkibini təşkil edən hissələrdə ilk başlanğıc yoxdur. Əgər tərkib hissələrdə başlanğıc yoxdursa, deməli, onlarda ali həqiqət yoxdur. Əgər ali həqiqət yoxdursa, deməli şeylərin tərkib hissələrini adi elm öyrənir. Müasir dövrdə bu elm kimya adlanır. 7-ci aporiyanın şərhində belə nəticəyə gəldik ki, başlanğıcı birinci və ya ən ümumi hesab etmək lazımdır. Fərdi şeylər forma ilə mahiyyətin vəhdətindən təşkil olunduğundan, forma heçlik olduğundan, belə vəhdətdən yalnız orijinal həqiqət aşkarlanır. Orijinal həqiqət cari şüura aşkarlanır. Cari şüur yalnız ən adi həqiqətləri dərk edir. Buna görə də, ali şüur ən ümumi həqiqəti öyrənməlidir.

8-ci aporiyaya uyğun sual: *Aristotel* 8-ci aporiyanı belə müəyyənləşdirmişdir: "Yalnız tək-tək predmetlər mövcuddur və ya onlardan başqa nə isə var? Tək predmetlərdən başqa heç nə qəbul etməmək mümkündürmü? Əgər yox, onda hansı hallarda onlardan fərqli nəsə verilir, o hansı xarakterə malikdir (ümumi yoxsa fərdi)? Ayrıca şeylər belə elementləri özündə necə əlaqələndirir?" **Şərh:** Birincisi, Mövcudluq ümumi anlayışdır və buna görə də istənilən tək-tək şeyin mövcudluğu da ümumidir. Ona görə də demək olar ki, tək şey ayrılıqda mövcud deyil. İkincisi, bütün şeylər məkan və zamanla şərtlənmişdir; məkan və zaman bir və eyni olduğundan, bizim idrakımız üçün fərqli məkanlar və fərqli zamanlar mövcud olmadığından, bütün şeylər bir-biri ilə vəhdətdədir. Bu vəhdətdən kənarda yalnız başqa məkan və zamanla şərtlənmiş şey və ya məkan və zamanla şərtlənməyənlər ola bilər. Birincilərə irreallıqlar, ikincilərə İlahi təbiətli varlıqlar aiddir. Şey ilahi olmadığından və real olduğundan təklikdə mövcud olmur. Bəs onda bizim tək kimi baxdığımız şey nədir? Hər bir şey başqa şeyin refleksiyası kimi mövcuddur, başqa şey də öz növbəsində onun refleksiyasıdır. Beləliklə, təklik idraka münasibətdə meydana çıxan abstraksiyadır. Konkretlikdə isə idraka tək formalarda təqdim olunan ümumi vardır. Bu aporiyaya uyğun şeylə bağlı *Aristotel* belə bir sual verir: "Fərdi şeylərdən başqa nəsə qəbul etmək olarmı, əgər

olarsa onda başqa hansı hissi mahiyyətlər?" Şeyin fərdiliyi illüziyadır və hissi qavranılmada meydana çıxır. Əslində şey özü-özündə hər cür fərdilikdən uzaqdır. Hər bir fərdi şey özündə onunla mahiyyətinə görə eynilik təşkil edən başqa sonsuz sayda şeyin mahiyyətini təqdim edir. Beləliklə fərdi şeydən aşkarlanan ümumi mahiyyət olur.

11-ci aporiyaya uyğun sual: *Aristotelin* 11-ci aporiyası belədir: *"Varlığın substansial xarakterini və vahidi inkar etmək olarmı?"* **Şərh:** Substansiya varlığın vəhdətdə olan iki başlıca xarakteristikasından biridir və bu vəhdətdən kənarda substansiya hissi qavrayışla idrak olunmur. Lakin substansiyanı inkar etmək formanı xalis hala gətirir ki, xalis forma heçlikdir; heçlik isə irreallıqdan ibarətdir, hansı ki idrak üçün mənasızdır. Beləliklə, "varlığın substansial xarakterini inkar etmək" onun reallığını inkar etmək, yəni idrak prosesindən çıxarmaq demək olardı. Substansiya anlayışı fəlsəfədə "özünün bütün formalarının, insan və onun şüuru da daxil olmaqla təbiət və tarix hadisələrinin vəhdətində götürülmüş obyektiv reallıq və buna görə də elmi idrakın, konkretin nəzəri inikasının əsaslı kateqoriyası" kimi təyin olunub. Substansiyanı inkar etmək inkar edəni – insanı və onun şüurunu inkar etmək olardı ki, insan özü-özünü inkar etməklə, özünün inkarını inkar etmiş olur. Beləliklə, varlığın substansial xarakterini inkar etmək olmaz. *Mövcudluğu və vahidi şeylərin başlanğıcı qəbul etmək olarmı?*

15-ci aporiyaya uyğun sual: "Başlanğıc universal xarakter daşıya bilərmi? Ona fərdi mövcudluq aid edilə bilərmi? Biliyin ümumi xarakterini şeylərin fərdi təbiəti ilə necə uyğunlaşdırmaq olar?"

2. Aristotelin Mahiyyətlə Bağli Aporiyalari

Bura 9, 11, 12, 13 və 15-ci aporiyaları aid etmək olar.

9-cu aporiya: "Başlanğıc özündə nəsə vahidi təqdim edir – yalnız növə görə, yoxsa saya görə?"

Şərh: Növ əmələgəlmə prosesində, say məkanda sıralanmanı təqdim edir. Əmələgəlmə prosesində meydana çıxan hər bir şey sonrakı üçün

başlanğıc, əvvəlki üçün sondur. Beləliklə, əmələgəlmə prosesindəki şey özünə görə nə son, nə başlanğıcdır. Bir şeyin başqası üçün olanı özündə təqdim etməsi onun özündə vahidi təqdim etməsinə imkan vermir. Lakin, yaranma prosesində özündə nəticə saxlamayan başlanğıc nəsə vahidi təqdim edir və bütün nəticələrin ayrı-ayrı növlərinin başlanğıcı məhz bu vahid başlanğıcın nəticəsi kimi mövcud olur. Ona görə də növdən başlanğıcı aşkarlamaq olar. Say faktın məkanda təkrarlanmasından meydana çıxır. Başlanğıc tək bir şeydən aşkarlandığından həmin şeyin sayından asılı olmayaraq eyni başlanğıc aşkarlanır.

11-ci aporiya: "Varlığın substansial xarakterini və vahidi inkar etmək olarmı?"

Şərh: Varlığın vəhdət prinsipi ilə mövcud olmasından, hər bir təkin özündə belə vəhdətin bir səviyyəsini təqdim etməsindən çıxış edib bütün varlığın bir mütləq vəhdət-vahidi təşkil etdiyini demək olar. Varlıq vəhdətdə vahid olduğundan bütün şeylərin substansial xarakterə malik olduğunu demək olar.

12-ci aporiya: "Ədədlər və həndəsi ölçülər özlərində nə qədərsə mahiyyət təqdim edirlərmi və ya onlar mahiyyət ola bilməzlər?"

Şərh: Ədədlər konkret yox, abstrakt anlayışlardır. Heç bir ədəd mahiyyətə malik ola bilməz. Məsələn, biz "3" dedikdə həm üç adamı, həm üç kitabı, həm də üç ideyanı nəzərdə tuta bilərik; hansı ki kitab, insan və ideya bir-birindən fərqli mahiyyətlərə malikdir. Bir şey özündə bir mahiyyət saxladığından eyni bir ədəd müxtəlif mahiyyətlərə malik ola bilməyəcəyindən, ədədlərin mahiyyəti yoxdur. Həndəsi ölçülülük həndəsi formanı yaradır. Həndəsi forma xalis formadır və mahiyyətdən ayrılan formadır. Forma mahiyyətsiz heçlik olduğundan həndəsi ölçülülükdə mahiyyət yoxdur. Məsələn, kürə. Kürə ayrılıqda özündə heç bir mahiyyət aşkarlamır və abstrakt varlıq kimi yalnız konkret predmetlə birlikdə onun mahiyyətini özündən aydınlaşdırır, yəni vasitəyə çevrilir.

13-cü aporiya: "Nə üçün hissi şeylərdən başqa riyazi predmetlərə ideya vermək zəruridir?"

Şərh: Hissi şeylərin ideyası o şeylərin özündən çıxır. Riyazi predmetlər mücərrəd varlıqlar kimi düşünən Mən tərəfindən yaradıldığından, onların elə-belə özü-özündə ideyası olmur; onlara yalnız subyekt ideya verir (necə ki, təbiətdə bütün yaradılanların ideyası yaradıcı tərəfindən verilir). Riyazi predmetlər refleksiv predmetlərdir. Həqiqət refleksiya yolu ilə təfəkkürdə aşkarlandığından hər bir riyazi predmetin ideyası olmalıdır ki, həmin ideya əsasında refleksiya edən həqiqət aydınlaşsın. Məsələn, riyazi predmet kimi "məchul" özündə qeyri-müəyyən həqiqəti, "məlum" müəyyən həqiqəti ifadə edir. İdrak prosesi məlum həqiqətdən çıxış edərək naməlumu aşkarlayır. Bunun abstraksiyası riyazi predmetlərlə aparıldığından hər bir predmetin konkret ideyası zəruridir ki, riyazi əməliyyat zamanı həqiqətin aşkarlanması mümkün olsun.

15-ci aporiya: "Başlanğıc universal xarakter daşıya bilərmi? Ona fərdi mövcudluq aid edilə bilərmi?"

Şərh: Fərdi mövcudluq orijinal xarakter daşıyır. Universal xarakter isə ən ümumiyə xasdır. Ümumi ilə orijinallıq əksilik təşkil etdiyindən universal fərdi mövcudluğa aid edilə bilməz. Yalnız ümumi mövcudluq universal xarakteristika ilə müəyyən oluna bilər.

Aristotelin mahiyyətlə bağlı aporiyalarına uyğun gələn suallar:

- **1-ci aporiyaya uyğun sual:** *"Bir və ya bir neçə müdriklik var?"* **Şərh:** Müdriklik ağlın həqiqəti tapmaq qabiliyyətidir. Ağıl birdir, müxtəlif ağıllar olmadığından bir ağlın müdrikliyi də bir ola bilər. İkincisi, *Aristotel* müdrikliyi həqiqəti axtarmaq qabiliyyəti kimi müəyyənləşdirib; əgər həqiqət birdirsə və müdriklik həqiqəti tapmaq qabiliyyəti olduğundan biri yalnız bir tapa bilər.
- **9-cu aporiyaya uyğun sual:** *"Başlanğıc növə və ya saya görə eyniliyə malikdirmi?"* **Şərh:** Növ ayrı-ayrı fərdi fərqliliklərin bir ümumidə birləşməsini özündə təqdim edir. Say fərqliliklərin özü-özü ilə eyniyyət təşkil edənlərin birliyini ifadə edir. Beləliklə, sayda fərqliliklər dəf edilmir, ona görə də başlanğıc saya görə eyniliyə malik ola bilməz və yalnız növə görə eynilik təşkil edir.

Haşiyə: *Aristotel*, "Metafizika"

"Aydındır ki, hər halda bəzi başlanğıclar vardır və şeylərin səbəbi nə birbaşa ardıcıl sıraya, nə də növə görə sonsuz deyil."

Birincisi, tək-tək şeylər sondur. Son olduqlarından özlərində başlanğıca malik deyillər. Yəni sonuncu şey özündən sonra gələn olmadığından başlanğıc xarakteristikasından məhrumdur. Yalnız onların təşkil etdiyi cəm eyni növü təşkil edir. İdrak cəmdən ümumini aşkarladığından, eynilik yalnız ümumidən – növdən aşkarlana bilər. İkincisi, eyni tək-tək şeyin məkanda təkrarlanmasından say meydana çıxır. İstənilən say buna görə eyni bir şeydən aşkarlanan sonu özündə aydınlaşdırır. Ona görə də, başlanğıc saya görə eyniliyə malik deyildir. Bunun əksinə say növlərin təkrarlanmasından meydana çıxmır, buna görə də başlanğıc yalnız növə görə eyniliyə malikdir. Üçüncüsü, say ən müxtəlif növlər üçün eynilik təşkil edir, başlanğıc isə eyni şeylərdə eyniliyə malik ola bilər; müxtəlif şeylərin başlanğıcı müxtəlif olduğundan saya görə başlanğıclar eynilik təşkil etmir. Dördüncüsü, yuxarıda qeyd etdik ki, saya mahiyyət vermək mümkün deyildir və xarici görüntünün elementi kimi xalis heçlikdir. Mahiyyəti olmadığından başlanğıca da malik deyil. Başlanğıcı olmadığından başlanğıca görə eyniliyə də malik deyil.

12-ci aporiyaya uyğun sual: *"Xətt və səth başlanğıc ola bilərmi? Nə üçün nöqtə başlanğıc qəbul edilə bilməz?"*

Şərh: Xətt nöqtələrin məkanda sıralanması, səth məkanın xətlə hüdudlanmasından meydana çıxır. Əgər xətt nöqtələrin sıralanmasıdırsa, onda xəttin başlanğıcı kimi nöqtə qəbul olunmalıdır. Nöqtə xəttin başlanğıcı olduğundan, xətlə hüdudlanmış səthin başlanğıcı ola bilməz.

3. Aristotelin elm haqqinda (həqiqətin bilgi formasinda aşkarlanmasi) aporiyalari

Bura 1, 2, 3, 4-cü aporiyaları aid etmək olar.

1-ci aporiya: "Bütün növ səbəblərə baxılma bir elmin predmetini təşkil edirmi və ya hər bir növ üçün öz xüsusi elmini yaratmaq lazımdır?

Onda bu zaman sual doğur, bu elmlərdən hansı müdriklik kimi qəbul edilə bilər?"

Şərh: Elm həqiqətin xüsusi tərəfini və konkret marağa görə öyrənir. Ən ümumi həqiqət isə yalnız həqiqəti tapmaq naminə aşkarlanır. Ona görə də hər bir elm yalnız bir səbəbə baxır. Məsələn, kimya tərkibə, fizika təzahürə, həndəsə həndəsi formaya, riyaziyyat kəmiyyətə və s. baxır. Fəlsəfə elmlərin (ayrı-ayrı səbəblərə baxan) əldə etdiyi xüsusi bilgilərdən ən ümumi bilgi əldə edir. Buna görə də fəlsəfə bütün növ səbəblərə baxmaqla həqiqəti aşkarlayır. Müdriklik kimi yalnız bütün növ səbəblərə baxan elm – fəlsəfə aid edilə bilər.

2-ci aporiya: "Mahiyyətə və sübutların əsas başlanğıclarına baxılması bir və eyni elmin işidir, yoxsa bu müxtəlif elmlərin predmetidir?"

Şərh: Əsas özündə eynilik təşkil etdiyindən eyni bir əsasa müxtəlif elmlər baxa bilməz. Mahiyyət şeyin həqiqətidir. Həqiqət bir şeydə bir və eyni olduğundan bir olan həqiqətə yalnız bir elm baxa bilər.

3-cü aporiya: "Bütün növ mahiyyətlərə bir elm və ya bir neçə elm baxmalıdır?"

Şərh: Hər bir elm bir növ mahiyyətə baxır. Məsələn, biologiya canlı varlıqları öyrənir, fizika cisimləri, sosiologiya cəmiyyətin tabe olduğu xüsusi qanunları öyrənir. Eyni bir elm bütün növ mahiyyətlərə baxmır, çünki hər bir mahiyyət bir elmi metodla aşkarlanır. Fərqli elmi metodlarla eyni bir həqiqət aşkarlanmadığından bütün növ mahiyyətlərə ayrı-ayrı elm baxır.

4-cü aporiya: "Mahiyyətlərə və mahiyyətlərlə bağlı xüsusiyyətlərə baxış bir elmin işi olmalıdır, yoxsa müxtəlif elmlərin?"

Şərh: Mahiyyət və onunla bağlı xüsusiyyətlər – təzahürlər bir-birindən fərqlidir. Mahiyyətin xüsusiyyətləri formadan aydınlaşdığından, forma hissi qavranmanın əsasını təşkil etdiyindən formaya baxılma, hissi qavranılmayan, yalnız nəzəri qavranılan mahiyyətdən fərqli baxış tələb edir. Digər tərəfdən mahiyyət öz xüsusiyyətlərindən aydınlaşır. Ona görə

də, aydınlaşdıranla – vasitə ilə, aydınlaşana – məqsədə baxmaq bir elmin işi ola bilməz.

Aristotelin elmlə bağli aporiyalarina uyğun gələn suallar

2-ci aporiyaya uyğun sual: *"Sübutların başlanğıcına bir və ya bir neçə elm baxır?"* **Şərh:** Sübutlar eynilik təşkil etmədiyindən və hər sübutun öz müstəqil başlanğıcı olduğundan fərqli başlanğıclara fərqli elmlər baxdığından sübutların başlanğıcına bir neçə elm baxır. Məsələn, hər hansı bir şeyin cisim olması həm onun fiziki xassələrindən, həm tərkib hissəsindən, həm həndəsi formasından aşkarlanır. Burada fiziki xassələri fizika, tərkibi kimya, həndəsi formanı həndəsə elmi ayrı-ayrılıqda öyrənir.

3-cü aporiyaya uyğun sual: *"Bütün mahiyyətin öz predmetinə malik bir elm var, ya yox?"* **Şərh:** Mahiyyətin predmeti həqiqətdir. Həqiqət bir və eyni olduğundan bütün mahiyyətin öz predmetinə malik bir elm vardır.

4-cü aporiyaya uyğun sual: *"Bu elm yalnız mahiyyətlərlə, yoxsa onların xüsusiyyətləri ilə də məşğul olur?"* **Şərh:** Bütün mahiyyətlərin öz predmeti bütün mahiyyətlər üçün eynidir. Amma hər bir mahiyyətin xüsusiyyətləri fərqlidir. Buradan da bu elm yalnız mahiyyətlərə baxır. Xüsusiyyətləri fərqli elmlər öyrənir.

5-ci aporiyaya uyğun sual: *"Hissi mahiyyətlərə ali elm baxır, yoxsa başqaları? Hansı elm riyazi predmetlərin materiyası haqqında məsələni araşdırır?"* **Şərh:** Hissi mahiyyətlər müxtəlif varlıqlardan təşkil olunub. Hər bir varlıq fərqli üsul və metodlarla dərk olunduğundan və xüsusi qanunlara tabe olduğundan özünəxas elm tərəfindən baxılır. Riyazi predmetlərə yalnız ideya vermək olar. Onların materiyası olmadığından heç bir elm riyazi predmetlərin materiyasını öyrənmir.

15-ci aporiyaya uyğun sual: *"Biliyin ümumi xarakterini şeylərin fərdi təbiəti ilə necə uyğunlaşdırmaq olar?"* **Şərh:** Elm fərdi şeylərdən xüsusi həqiqəti aşkarlayır. Şeylərin fərdiliyi yalnız orijinal həqiqəti ay-

dınlaşdırdığından belə aşkarlama yalnız cari şüurun işidir. Digər tərəfdən, elmlər fərdi şeylərin yalnız bir xüsusi tərəfinə baxır. Onların fərdiliyi isə müxtəlif tərəflərdən meydana çıxır. Beləliklə, elm fərdiliyi tərəflərinə ayırmaqla onları xüsusiləşdirir.

ƏN ÜMUMİ METAFİZİK SUALLAR

Aristotelin aporiyalarından əlavə metafizikanın ən ümumi suallarına aşağıdakıları aid etmək olar:

1. Əməlgəlmənin əsasında duran Yaranış necə baş vermişdir – səbəblərin səbəbi nədir?

Cavab: Yaranış məkan və zamanla şərtlənməmişin məkan və zamanla şərtlənməsindən ibarətdir. Yalnız Yoxluq məkan və zamanla şərtlənmədiyindən, deyə bilərik ki, yaranış İlahi İstək əsasında və İlahi iradə ilə Yoxluğun Varlığa keçidi kimi baş vermişdir. Əməlgəlmə çoxlu keyfiyyətlərin məcmusunu özündə təqdim edən şeylərin çevrilmələrindən ibarətdir. Yaranış keyfiyyətlərin birləşməsindən konkret şeyin yaranmasıdır. Əməlgəlmədə əmələ gələnlə əməlgətirən eyni məntiqi qanunlara tabe olur. Yaranmada yaradanla yaradılan fərqli qanunlara tabedir.

2. Gerçəkliklər nədən əmələ gəlmişdir – mənbələrin mənbəyi necədir?

Cavab: Gerçəklik şeylə hissiyyatın vəhdətidir. Hissiyyatın bir hissəsi bilavasitə şeydən, bir hissəsi ondan kənar səbəblə bağlıdır. Məsələn, iyin səbəbi şeyin özüdür, amma xarici görüntünün səbəbi ondan xaricdədir. Gerçəklik həm də subyektlə – hissi qavrayanla bağlıdır. Subyektdən kənarda gerçəklik reallığa çevrilir. Təbiətdə hər bir şey başqasından əmələ gəlmişdir. Ona görə də, heç bir şey yalnız başqasının mənbəyi kimi çıxış edə bilməz. Onda belə qəbul etməliyik ki, hər bir şeyin mənbəyi ondan kənarda yox, onun özündən aşkarlana bilər. Biz gerçəkliklərin əmələ gəldiyi və gerçəkliklərdə saxlanan mənbəni *minimum* kimi təsəvvür edirik. Məsələn, hüceyrə canlıların minimumudur, yəni canlılığın mənbəyi hüceyrədir. Mənbələrin mənbəyi müstəqil mövcud olan ən əvvəlki mənbə-

dir, hansı ki özündən əvvəl müstəqil mövcudluğu istisna edir. Mənbələrin mənbəyi öz mənbəyi olmayandır.

3. Allahın təbiəti necədir – başlanğıcların başlanğıcı necədir?

Cavab: Allahın təbiəti idrak prosesinin başa çatmasından sonra aydınlaşır. Ona görə də, insan ağlı ilə Allahın təbiətini aşkarlamaq mümkün deyil.

4. İdrakın minimumu nədir – "bilavasitə" və ya "mövcud olan" şey nədir?

Cavab: İdrakın minimumu idrakın özüdür, yəni şüurlu insanda olan ağıldır. Ağıl olmadan heç bir idrak baş vermir. Şeydə olan idrakın minimumu onda ağılla formalaşdırılan başlanğıc ideyadır. Beləliklə biz idrakın minimumu kimi xalis fikri qəbul edə bilərik. Bilavasitə mövcud olan şey – xalis fikirlə *özü-üçün varlıq* təyininin vəhdətindən ibarətdir; hansı ki forması onun mövcud şeyi kimi təzahür edir.

5. Allahın məkanı varmı? – başlanğıc harda yerləşir?

Cavab: Allah məkana münasibətdə əvvəl olduğundan, Allahın məkanı yoxdur, yəni başlanğıc mövcudluq olmadığından, onun məkanla şərtlənməsi mümkün deyil.

6. Mütləq həqiqət niyə dərkedilməzdir – nədən mahiyyətə "sadəcə baxılmır, nə mane olur?"

Cavab: Həqiqət vasitəli – ya gerçəkliklərdən, ya da abstrakt olaraq təfəkkürün özündən vasitəli aydınlaşır. Həqiqətin vasitəsiz aydınlaşması təbiətəqədər baş verdiyindən, təbiətdə vasitələr mahiyyətə baxılmağa mane olur. Mütləq həqiqət insandan ən uzaqda olan həqiqətdir. İnsan ağlı ona ən yaxın həqiqətdən başlayaraq onu dərk edir. Mütləq həqiqət idraka münasibətdə sonuncu həqiqətdir, yəni – sonradır. Ona görə də dərk olunmur. Başqa sözlə, mütləq həqiqətə çatmaqla idrak prosesi dayanır, yəni idrak özünü istisna edir; idrakın istisnası yaddaşı, təsviri və ifadəni də ləğv edir. Ona görə də mütləq həqiqətdən öncə yaddaş, təsvir və ifadə mümkün olmadığından mütləq həqiqət dərkedilməzdir.

7. "Xalis zəka – Ruh mövcuddurmu? – mövcudluqlara əməliyyatlarsız bilavasitə görünməyə nəsə mane olurmu?"

Cavab: Ruh – bədənlə, mövcudluq – mühitlə şərtlənmişdir. Bədən və mühit mövcudluqların bilavasitə görünməsinə mane olur. Xalis zəka – mümkünlükdür. Onun mövcudluğu yalnız bədənlə şərtlənmiş formadadır. Bilavasitə görünmək formaya malik olmağı tələb edir. Forma xarici görüntünü yaradır. Xarici görüntü olmadan mövcudluqlar görünmür.

8. Ruhun mövcudluğu Varlığın mövcudluğu ilə necə əlaqələnmişdir – idrakın məqsədi nədir?

Cavab: Ruhla Varlıq *xalis varlıq təyinini* – xalis fikrə görə vəhdət təşkil edirlər. Bu vəhdət onları əlaqələndirir və mövcud varlıq təyinində bu vəhdət idrakın mahiyyətini təşkil edir, yəni idrak bu vəhdətə çatmağa cəhddən ibarətdir.

9. İdrak necə başlayır? – bu sualların düzgün cavablarının tapmaq üçün birinciyə hərəkət verməsi üçün "əməliyyatlara" hansı tələblər var?

Cavab: İdrak özü-özündən başlayır. İlk öncə subyekt özünü düşünən mən kimi İdrak edir. İdrakın başlanması onun həqiqətin aydınlaşmasının aşkarlamaq hazırlığından ibarətdir. Yəni idrakın başlanğıcı daxildə özü-özündədir. İdrak həm də xarici stimulla şərtlənmişdir. Xarici qıcıq olmadan idrak prosesi aktuallaşmır. Beləliklə idrak faktının başlanğıcı özündə aktuallaşması hissi obyektlərdədir.

10. İdrak prosesi nə ilə şərtlənmişdir – kim və nə bu sualları verir?

Cavab: Suallar varlığın xalis fikrinin *özü-üçün-varlıq* təyini ilə gizlənməsindən ibarətdir, hansı ki birbaşa həqiqətin aşkarlanmasına mane olur. Suallar idrak obyektlərinin həqiqətinin gizliliyi kimi meydana çıxır. Beləliklə şeyin gizli həqiqəti təfəkkürdə sual kimi refleksiya edir.

11. İdrak niyə mövcuddur – bu suallar nə üçün mövcuddur? Cavablar haradan meydana çıxır?

Cavab: İdrak ruhun mövcudluq üsuludur. Hər bir varlıq özünə xas mövcudluq üsulu ilə aktuallaşır. İdrakın mövcudluğu ruhun aktuallaşma

cəhdini özündə təzahür etdirir. Təfəkkürdə refleksiya edən sual – gizli həqiqət – idrak prosesində gizlilikdən çıxarılır. Həqiqətin gizlilikdən çıxarılması ruhun xalis fikrində varlığın xalis fikrindəki ideya ilə eynilik təşkil edən ideyanın yaradılmasından ibarətdir. Beləliklə, şeydən refleksiya edilən həqiqətin təfəkkürdə eyni ideyanı doğurması cavabları yaradır.

12. Vəhdətin mənası nədir – nə üçün ayrılıqda, vəhdətdən kənar mövcudluq mümkün deyil?

Cavab: Birincisi, gerçəkliklər iki tələblə – özündə-özünü təsdiqlə və özündə başqasını istisna ilə aktuallaşır. Vəhdət özündə başqalarını istisnadan doğur. Başqası olmadan, buna görə də, aktuallaşma baş vermir; deməli vəhdət mövcudolmanın şərtidir, bu şərtsiz yalnız aktuallaşmamış mütləq fakt ola bilər. İkincisi, vəhdət – bir-birindən ayrılıqda olmaq imkanının istisnası deməkdir. Şeylərin bir-birindən ayrılıqda olması məkanın və zamanın ayrı-ayrı olması halında mümkündür. Lakin məkan və zaman bir olduğundan şeylər eyni məkana və zamana görə vəhdət təşkil edirlər. Üçüncüsü, vəhdət həm də eyni bir başlanğıcın olmasının nəticəsi kimi meydana çıxır. Əgər müxtəlif başlanğıclar mövcud olsaydı, onda müxtəlif aləmlər mövcud olardı. Vəhdət eyni bir başlanğıcın mövcudluqların aktuallaşmasında refleksiyasıdır.

13. Forma ilə mahiyyətin əlaqəsi necədir – həqiqət mövcud olanla necə əlaqələnir və onun harasında yerləşmişdir?

Cavab: Forma və mahiyyət şeyin həqiqətini təşkil edən vəhdətdə olan iki tərəfdir. Forma – xalis emanasiyaya məruz qalmış həqiqət, mahiyyət – entropiya olunmuş həqiqətdir. Hər ikisinin məcmusu özündə şeyin həqiqətini təqdim edir. Forma mahiyyətdən ayrılıqda heç nədir, yəni heç bir həqiqəti özündə işıqlandırmır. Mahiyyət formasız özünü təzahür etdirə bilmir. Mahiyyət yalnız formadan təzahür etdiyindən onunla ayrılmaz vəhdətdədir. Formadan ayrılıqda mövcud olan mahiyyət xalis fikrə çevrilir və vasitəsi (forması) olmadığından təzahür imkanı yoxdur. Mahiyyət – nisbi həqiqət, formaya – emanasiya olunmuş həqiqətə münasi-

bətdən aşkarlanır. Beləliklə, həqiqət şeyin mahiyyəti ilə formasının vəhdətindədir.

Burada metafizikanın suallarına verdiyimiz qısa cavablar sonrakı fəsillərdə daha geniş şərh ediləcəkdir.

METAFİZİK
METOD – TRANSSENDENSİYA

“Təcrübədənkənar Həqiqətə Keçid: İdrakin Sərhədlərini Aşmaq”

Metafizika öz obyektlərini hansı üsulla suallandırır? Metafizik biliklər özündə nəyi ifadə edir? Həmin bilgilər hansı instrumentlərlə əldə edilir? Biz burada metafizik metodu – metafizik obyektlərin suallandırılması və onlardan cavabın alınmasının ən ümumi qaydalarını – şüurun digər formalarının metodlarının müqayisəli təhlili əsasında müəyyən etməyə cəhd edirik.

Bilik – obyektiv olanın ideyası ilə subyektiv olanın ideyasının üst-üstə düşməsi kimi şüurun müxtəlif formalarından müxtəlif üsullarla əldə edilir. Məsələn, cari şüur bilavasitə qavranılan şeylə, elmi şüur metodlarla, fəlsəfə sözlə öz predmetlərini tədqiq edir. Bəs metafizika öz predmetini nə ilə tədqiq etməlidir?

Obyektiv olan – mahiyyətin varlığının emanasiya nəticəsində mövcudolanın varlığına çevrilməsidir. Bilik bu çevrilmənin (yəni yaranmanın) əks istiqamətdə fikrən çevrilməsi kimi, mövcudolanın varlığından mahiyyətin varlığına keçid kimi meydana çıxır. Burada emanasiyanın səviyyəsini formanın təkmilliyi müəyyən edir. Forma nə qədər təkmildirsə, emanasiya bir o qədər dərindir; nəticədə mahiyyət bir o qədər keyfiyyətsizdir, nisbidir və ondan dəqiq, ümumi və tam bilik əldə etmək mümkün deyil.

Buna görə də, heç bir obyektiv reallıqdan sonuncu həqiqət kimi (təbiətdən alınan həqiqət əvvəlki, metafizikadan alınan həqiqət buna görə sonuncu olur) mütləq nisbi həqiqəti – mahiyyətin varlığını, yəni xalis fikri, başqa sözlə, metafizik bilgiləri idrak etmək mümkün olmadığından, belə həqiqətlər yalnız formanı istisna edən xalis mahiyyətdən – xalis varlıqdan, fikir varlığından əldə edilə bilər.

Hər bir fikir özünün təşkilində iştirak edən anlayışların çoxmənalılığına görə özü-özündə çoxlu mənalara malikdir. Təcrübədən yaranan hər bir fikrin ilk mənası sintetik məna olub, özündə bilavasitə təbiət haqqında həqiqəti ifadə edir. Fikrin digər mənaları isə tədricən təbiəti ifadə etməkdən uzaqlaşır və sonda yalnız aprior təsəvvür kimi metafizikanı ifadə edən sonuncu mənasına çatır. Beləliklə, metafizik həqiqətlər yalnız fikir varlığından son məna kimi aşkarlana bilər; buna görə də metafizikanın instrumenti kimi yalnız mənanı təyin etmək olar. Buradan da görünür ki, təbiət haqqında həqiqətdən metafizik həqiqətlərə keçid fikrin daxilində, onun əvvəlki mənasından son mənasına keçməklə mümkündür.

Fikrin son mənasını necə aşkarlamaq olar? *İ. Kant Platonun*, *Lokkun*, *Yumun* ayrı-ayrı fikirlərini şərh və tənqid edərək əldə etdiyi yeni mənalarla mühakimə apararaq onların əsasında özünün transsendental fəlsəfəsini yaradıb. *Nitsşe İ. Kantın* fəlsəfəsinin tənqidi əsasında özünün nihilistik fəlsəfəsində ehtimali dünya – metafizika haqqında təsəvvürlərə gəlib çıxıb. *M. Haydeqqer* isə *Nitsşenin* nihilizmini inkişaf etdirərək, onun tənqidi əsasında metafizikanın əsasları haqqında dünyada əksər filosoflar tərəfindən etiraf edilən çoxlu yeni ideyalar verib. *Nikola Abbanyano* isə öz növbəsində "Ekzistensializmə giriş" adlı traktatında öz fəlsəfi baxışlarını *Kantın*, *Haydeqqerin* fikirlərinin tənqidi əsasında formalaşdırıb. İndi isə biz Metafizikanı xüsusi bilik sahəsi kimi təqdim etməyə cəhd etdiyimiz zaman *N. Abbanyano* da daxil olmaqla, adı çəkilən filosofların ya bilavasitə ideyalarını, ya da həmin ideyaların tənqidinin tənqidi əsasında öz yeni baxışlarımızı izhar etməyə cəhd edirik.

Tənqid, ümumiyyətlə, mühakimənin ümumi formalarından biridir. Ona görə də metafizik tənqidlə digər tənqid formalarını bir-birindən fərqləndirmək lazım gəlir. Metafizik tənqid fəlsəfi tənqiddən sonra yarandığından, fəlsəfi tənqidin metafizik tənqiddən necə fərqlənməsini ayırd etməklə metafizikanın metodologiyasını aydınlaşdırmaq olar. Fəlsəfi tənqidlə metafizik üsulun fərqi ondadır ki, fəlsəfədə tənqid paralel təlimlərin yaranmasına xidmət edir. Məsələn, *Aristotel Platonun* idealizminin tənqi-

di ilə ondan imtina edərək özünün xüsusi təlimini – forma ilə materiyanın vəhdəti haqqında təlimini (hilemorfizmi) yaratmışdır, amma metafizikada fikir inkar olunmur, əksinə, eyni bir fikrin yeni ardıcıl mənalarının aşkarlanmasına xidmət edir. Ona görə də, antik dövrdən bu günədək metafizik fikirlərin mənalarının ardıcıl inkişafı ilə bu gün metafizika elmini tam təsəvvür edə bilirik. *Haydeqqer* metafizikanı həqiqətin tarixi kimi şərh etmişdir. Biz isə metafizika elminin məhz metafizik ideyaların tarixi inkişafından əmələ gəldiyini deyə bilərik; hansı ki həqiqətin tarixi ilə metafizik ideyaların tarixi inkişafı vəhdət təşkil edir.

Haşiyə: *Martin Haydeqqer*, "Varlıq və Zaman"

"Metafizika insan varlığında fundamental hadisədir. Onun əsas anlayışları anlayışın mənasıdır, sonuncu isə – məntiqdə qəbul edildiyi kimi deyil – biz özümüz üçün nəsə ümumi və ya nəsə ümumiyyətlə, nəsə çoxlu şeylərin öz aralarında əlaqəli olduğu universallıq aspektində xəyala gətirilmiş kimi təsəvvür edirik. Anlayışlar təyin edən təsəvvürlərin növüdür. Belə əsas anlayışlar metafizika və fəlsəfədə aydın şəkildə olmayacaq."

M. Haydeqqerin fikrindən görünür ki, o, metafizikanın anlayışını "anlayışın mənası" kimi təsəvvür edir və bu mənanı "nəsə ümumi və ya nəsə ümumiyyətlə, nəsə çoxlu şeylərin öz aralarında əlaqəli olduğu universallıq aspektində xəyala gətirilmiş" təsəvvür kimi dəyərləndirir. Bu fikri necə başa düşmək olar? Nümunə kimi "məkan" anlayışını götürək. Məkan anlayışı bütün mövcud sonsuz çoxluqda vəhdət təşkil edən şeylərin öz aralarında əlaqələnməsini ifadə edən universallıqdır. Biz məkanı heç bir ayrıca şeydən dərk edə bilmirik. Məkan müstəqil şəkildə də idraka təqdim olunmur. Yalnız şeylərin vəhdətindən, onların hamısının ümumi xarici şərti kimi spontan olaraq idraka implikasiya olunur.

Anlayışın mənası onun xarakteristikaları kimi aşkarlanır. Beləliklə, məkan anlayışının son mənası, yəni onun başlıca xarakteristikası özündə metafizik anlayış kimi çıxış edir. Məkan anlayışının sonuncu xarakteristikası "sonsuzluq"dur. Yəni biz məkanı yerdən, ölçülülükdən, sərhədlilikdən, məsafədən və s. kimi mənalarının sonuncusu kimi məhz sonsuzluqla

xarakterizə edirik. Beləliklə, sonsuzluğu məkan anlayışının son mənası kimi təyin edə bilərik. Buradan da, sonsuzluq öz növbəsində metafizik anlayış kimi çıxış edərək metafizik obyektləri xarakterizə edir. Beləliklə, belə bir nəticə alınır ki, istənilən metafizik predmet sonsuzluq xarakteristikasına malikdir və ya sonsuzluq anlayışı ilə ifadə olunan hər şey metafizikdir. Eləcə də, zamanın son mənası kimi əbədilik metafizik anlayış kimi metafizik predmetləri xarakterizə edir; beləliklə də, istənilən metafizik predmet əbədilik xarakteristikasına malikdir və əbədi olan hər şey metafizik predmet kimi təyin olunur.

M. Haydeqqerin fikirlərindəki "xəyala gətirilmiş" ifadəsi fikrən yaradılan şeyləri – apriorları özündə təqdim edir. Beləliklə, metafizika fikrən yaradılan anlayışların mənasından idraka cəhd edir, hansı ki belə məna "nəsə"nin ümumiliyindən və universallığından əldə edilir, çünki "nəsə" məhz metafizik varlığın xüsusiləşməsindən və orijinallaşmasından yaranır. Əgər fəlsəfə gerçəkliklərin müəyyənliyindən anlayışları təyin edirsə, metafizika anlayışların təyinindən metafizikanın mümkünlüyünü aşkarlayır. Məsələn, metafizika əbədi, sonsuz anlayışları ilə anlayışlarla təyin olunan predmetləri mümkünlük kimi aşkarlayır.

Bəs istənilən fikir metafizikanın instrumenti ola bilərmi? Əgər fəlsəfə sözlərin birinci mənasına istinad etməklə həqiqətin idrakına – dəqiq mənalı fikrin yaranmasına cəhd edirsə, metafizika fəlsəfi fikrin son Ali mənasını tapmaqla metafizik aləmə keçid edir. Çünki fikir nə qədər qeyri-təkmildirsə, bir o qədər ibtidai mənalıdır və belə fikir yalnız təbiət sferasını idrak etməyə yararlıdır. Təcrübəni şərh edən ən mənalı və ya sonuncu Ali mənalı fikir ən ümumi həqiqəti özündə ifadə edən fəlsəfi fikirdir. Bəs ən ümumi həqiqət necə əldə edilə bilər?

Haşiyə: *Martin Haydeqqer*, "Varlıq və Zaman"

"Metafizik fikir iki mənada anlayışları əhatə edən düşüncədir: tama istiqamətlənmiş fikir və ekzistensiyanı tutan fikir."

M. Haydeqqerin fikrindəki "tama istiqamətlənmə" və "ekzistensiyanı tutma" metafizik bilginin iki əsas xarakteristikası olduğundan, hər iki mənanı şərh etməklə metafizik metodun təbiətinə işıq salmaq olar.

1. "Tama istiqamətlənmiş fikir": Bu ifadədəki "tam" özündə hansı mənaya malikdir?

Haşiyə: *Aristotel*, "Metafizika"

"Tam o adlanır ki, təbiətdən tərkiblərindən tam kimi olanı təşkil edən hər bir hissə çatışır, həmçinin – həcmləni həcmləndirir və beləliklə, bu sonuncu nəsə vahidi yaradır; belədə isə onlar iki şəkildə əmələ gətirir: ya belə ki, bu şeylərdə vardır, ya da belə ki, onlar hamısı birlikdə vahidi əmələ gətirir. Fasiləsiz və məhdud tam onda olur ki, əgər bir neçə tərkib hissədən birlik məlumdursa, bununla hissələr üstünlüklə potensial verilir, əgər yox, gerçək reallıq kimi. Bununla belə birləşmədə təbii olanlar daha çox bura aid olur, nəinki süni olanlar (hərfən 'bu və ya başqası olmağa qadir', yəni formadan, ya da – olması ona xas olan aydın olmayan formadan real təyin olunan), göstərdiyimiz kimi, vahidə münasibətdə tamlıq məlum növ vəhdətdir. Başlanğıcı, ortası və sonu olan kəmiyyət götürüldükdə, onda belə hallarda hissələrin vəziyyəti fərq yaratmır, belə kəmiyyət haqqında 'hər şey' deyirik; o yerdə ki onlar fərqliliyə gətirir, biz tama malik oluruq. Əgər hər hansı bir şeydə birbaşa həm bu, həm o vardırsa, onda onlar həm 'tamı', həm də 'hər şeyi' özündə təqdim edir: bu o şeylərdə olur ki, təbiətləri, hissələrin vəziyyəti eyni qalır, forması isə yox. Öz növbəsində 'hər şey' o şeylər haqqında deyilir ki, 'hər şey' tək halda bir şey haqqında deyilir – bu şeylər haqqında 'hər şey' bir-birindən ayrı işlədilir."

Aristotelin şərhindən görünür ki, "tam" həm də "hər şey" sözü ilə bəzən birgə, bəzən ayrı mənalarda işlədilir. Beləliklə, sonuncu həqiqəti üç yolla – ya "tam"dan, ya "hər şey"dən, ya da "hər ikisinin vəhdətindən" əldə etmək mümkündür.

- **a. "Tamdan" əldə edilən sonuncu həqiqət:** *Aristotel* "tam"ı iki mənada şərh edir.

Birinci mənada, tərkib hissəsinə görə tam: Tərkib hissə "vəziyyəti fərq yaradan" hissədir. Belə tam onu təşkil edən bütün hissələrin zərurətə görə bir-biri ilə vəhdət təşkil etməsi mənasını verir. Tərkib hissə, tərkibi əmələ gətirən mənasında o hissədir ki, maddənin növünü yaradır. Məsələn, təbiətdə ayrı-ayrı maddələr müxtəlif elementlərdən təşkil olunmuşdur. Burada maddəni təşkil edən elementlər tərkib hissəsidir. Belə hissələrdən birinin çatışmazlığı konkret növ maddənin mövcudluğunu istisna edir. Bu mənada tam, mövcud olan real gerçəklik mənasını verir.

İkinci mənada tam, struktur hissəyə görə tam mənasını verir: Struktur hissə "vəziyyəti fərq yaratmayan" hissədir. Struktur hissə tamı təşkil edən tərkib hissələrin özü-özündə təkrarlanaraq hissi qavranılan şeyi əmələ gətirməsini özündə təqdim edir. Belə hissənin çatışmazlığı şeyi istisna etmir, çünki şeyin maddəsinin tamlığı belə çatışmazlıqdan istisna olunmur. Məsələn, hər hansı bir şeydən bir parça ayrıldıqda şeydə fərq yaranmır, yəni o, başqa şeyə çevrilmir. Beləliklə, tamdan əldə edilən sonuncu ümumi bilik tərkib hissələrin çatışmazlığı istisna olunan tamlıqdan əldə edilir.

- **b. "Hər şeydən" əldə edilən sonuncu həqiqət:** *Aristotelə* görə, başlanğıcı, ortası və sonu olan kəmiyyət kimi götürülən, hissələrin vəziyyəti fərq yaratmayan "hər şeydir". Başqa sözlə, keyfiyyətinə görə yox, təsadüfə görə kəmiyyəti ilə vəhdət yaradanlar hər şeyi özündə təqdim edir. Kainat sonsuz sayda şeydən təşkil olunmuşdur. Buna görə də sonuncu ümumi həqiqət bir-biri ilə fərqlilik təşkil edən "hər şeyin" vəhdətindən, vahid kimi Kainatdan əldə edilir.
- **c. "Tamdan" və "hər şeydən" əldə edilən sonuncu həqiqət:** *Aristotelin* şərhinə görə, tamdan və hər şeydən ibarət olana o şeylər aiddir ki, onların təbiətləri, hissələrin vəziyyəti eyni qalır, forması isə yox. Təbiətdə şeylərin forması ya məkan, ya zaman şərtlərinə görə dəyişir; məsələn, təbii şeylərin həndəsi forması dəyişsə də, mahiyyətləri sabit qalır. Beləliklə, "tamdan və hər şeydən" sonuncu həqiqət məkanda və ya zamanda dəyişən varlıqlardan, formaya laqeyd qalmaqla mahiy-

yətdən həqiqətin aşkarlanmasını özündə təqdim edir; hansı ki elmdən və fəlsəfədən fərqli olaraq metafizika, forma təbiət sferasında olduğundan, ona laqeyd qalaraq və ya onu fikrən inkar edərək xalis varlıqdan və ya fikir varlığından həqiqəti aşkarlayır. Canlıların mahiyyəti bu yolla aşkarlanır. Əslində bu üsul subyektiv idealizmin də əsasını təşkil edir.

2. "Ekzistensiyanı tutan fikir": Ekzistensiya haqqında pnevmatoloji bölmədə daha geniş şərh verəcəyik. Burada yalnız bu anlayışın qısa izahını verməklə kifayətlənirik. Ekzistensiya – öz müstəqil mövcudluğu olmayan, buna görə də mövcud olmaq üçün mövcudluğu olan mövcudluqlarla münasibətdə, onların mövcudolmasından dolayı münasibət kimi təzahürü özündə ifadə edir. Ruhun öz xüsusi mövcudluğu olmadığından, mövcud olmaq üçün mövcudluğu olan istənilən şeyin mövcud olmasına münasibətə girir və bu zaman özü bu münasibətə münasibət kimi aşkarlanır. Ruh üç cür ekzistensiya edir:

1. Bədənin mövcudluğuna münasibətdə münasibət kimi – buradan Mən;
2. Mövcudluğun mövcudluğuna münasibətdə münasibət kimi – buradan bilik;
3. Nəhayət, cəmiyyətə münasibətdə münasibət kimi – buradan şəxsiyyət kimi aşkarlanır.

Beləliklə, ekzistensiya – düşünən Məndən, bilikdən və şəxsiyyətdən ibarət ruhun "təzahür" forması kimi təyin oluna bilər. Ruh bədəndən ekzistensiya etmədikcə bədənin kölgəsində qalır və qavranılmır.

Bəs "ekzistensiyanı tutan fikir" necə yaranır? *Aristotelin* tamla bağlı şərhindən aydın olur ki, o həm də tamı fasiləsiz və məhdud olma mənasında iki yerə ayırır.

- *Birinci mənada, fasiləsiz tam:* O tamdır ki, tərkib hissələrindən vəhdət məlum olur. Bütün təbii olanlar bura aiddir. İstənilən hissi qavranılan gerçək reallıq fasiləsiz tamdır, çünki özündə fasiləsiz vəhdət təqdim edir və buna görə də fasiləsiz hissi qavranılandır, yəni aktuallaşmış mövcud varlıqdır.

- *İkinci mənada, məhdud tam:* Məhdud tamda tərkib hissələrindən vəhdət məlum olmur, bununla hissələr üstünlüklə potensial verilir. Belə tama həm təbii, həm süni olanlar aid olur. Süni olan hərfən "bu və ya başqası olmağa qadir", yəni formadan, ya da olması ona xas olan aydın olmayan formadan real təyin olunan mənasını verir. Belə xüsusiyyətə mümkün varlıqlar aid edilə bilər. Təbii və süni olanlardan təşkil olunmuş belə tam – insan, insanın yalnız təbii olandan təşkil olunması – fərd, yalnız süni olandan təşkil olunmuş tamlığı – Ruh və ya insanlıq və ya da şəxsiyyətin varlığıdır.

İnsanı təşkil edən hissələrdən bədən – aktuallıq, ruh – potensiallıq kimi insanı özündə təqdim edir, amma Ruhla bədəndən vəhdət məlum olmur. Ona görə də, biz insandan Ruhu hissi qavraya bilmirik. Eləcə də şəxsiyyət müxtəlif fərdlərdə eyni vaxtda olan Ruhu təşkil etsə də, biz şəxsiyyətdən potensial hissələrdən təşkil olunduğu üçün məlum vəhdəti, Ruhun tamlığını aşkarlaya bilmirik.

Metafizika məhdud tamdan, yəni ruhla bədənin təşkil etdiyi vəhdətdən – məlum olmayan tamdan – insandan, sonuncu həqiqəti əldə edir. İnsandan metafizik həqiqət onda aşkarlanır ki, məlum olmayan vəhdətdən Ruhu aşkarlamaq olsun; hansı ki ruh bədənlə məlum olmayan vəhdətdən aşkarlanması ekzistensiya vasitəsi ilə olur. Başqa sözlə, biz mövcud insanın mövcudolmasının təzahürlərindən bütün təbii olanları fikrən istisna etdikdə, xalis ekzistensiyanı tutmuş oluruq.

Beləliklə, metafizik fikirlə bağlı şərhi yekunlaşdıraraq deyə bilərik ki, metafizika sonuncu həqiqəti tam kimi Kainatdan və ayrılıqda götürülmüş mütləq faktdan və ya ekzistensiyadan (yəni Ruhdan) və onların hər üçünün başlanğıcından – Allah ideyasından aşkarlamağa cəhd edir.

Sonuncu həqiqət həm də tamdan əldə edildiyindən tam həqiqətdir. Tam həqiqət mütləq həqiqət anlayışından fərqli mənaya malikdir. Mütləq həqiqət – həqiqətin dəqiqliyini, tam həqiqət onun aydınlığının əhatəliliyini özündə ifadə edir. Buna görə də, tam həqiqət mütləq olmaya da bilər, eləcə də mütləq həqiqət tam həqiqət olmaya da bilər. Beləliklə, metafizi-

ka mütləq tam həqiqəti aşkarlamağa istiqamətlənmiş nisbi tam həqiqətin idrak cəhdini özündə ifadə edir.

"Tam həqiqət" deyimindəki "tam" sözünün də özü-özündə üç mənası vardır:

1. **Hissi qavranılan obyektlərin hamısından əldə edilmiş tam həqiqət:** İdrak olunan gerçək aləm sonsuz sayda müxtəlif obyektiv gerçəkliklərdən təşkil olunmuşdur. İnsanın obyektiv gerçəklikdən biliklənməsinin sərhədləri mövcud olan bütün şeylərin ən ümumi sərhədi ilə eyniyyət təşkil edir. Beləliklə tam həqiqətə cəhdin birinci mənası Kainatı təşkil edən hər şeyin bir tam kimi idrak edilməsi mənasını verir.
2. **Ayrılıqda götürülmüş hissi qavranılan tək şeyin tam həqiqəti:** İnsan hissi qavranılan hər bir şeyin həqiqətini tədricən, hissə-hissə dərk edir və biliklənmənin sonunda insan hissi qavranılan şeyi tam şəkildə idrak edib həqiqətin əldə edilməsini başa çatdırır. Bütün elmlər şeyin hissəvi həqiqətinin idrakı əsasında meydana çıxır. Buradan da, konkret şey haqqında bütün elmlərin əldə etdiyi müxtəlif biliklərin məcmusu özündə şeyin tam həqiqətini ifadə edir. Tam həqiqəti yalnız ensiklopedik elm – fakültələrə ayrılmayan elm – öyrənə bilər. Belə elm eyni zamanda həm də metafizik elm kimi çıxış edə bilər.
3. **Müxtəlif varlıq formalarının – mövcud və mümkün varlığın vəhdətinin tam həqiqəti:** Belə həqiqət həm gerçək real varlıqdan (varlığın aktuallığından), həm də ruhdan (ruhun potensiallığından) alınmış həqiqətin tamlığını özündə təqdim edir. Mümkün və mövcud varlıqların vəhdətinin tam həqiqəti mahiyyətin varlığından aşkarlanır; hansı ki özündə bilavasitə Allahın həqiqətini – Mütləq həqiqəti refleksiya edir. Beləliklə, metafizikada sonuncu tək kimi Allah ideyası çıxış edir.

Həqiqətin mütləqlik, tamlıq xarakteristikası həm də ümumilik xarakteristikası ilə bağlıdır. Ümumilik hər şeydən aşkarlanması mümkün olan mənasını verir. Real gerçəkliklər potensial varlıqdan fərqli həqiqətə ma-

lik olduğundan, onların ayrılıqda öyrənilməsi elə ümumi həqiqətlərin aşkarlanmasına imkan vermir ki, həmin həqiqətlərdən həm də Ruhun həqiqətini aşkarlamaq mümkün olsun. Eləcə də, Ruhu öyrənən psixologiyanın əldə etdiyi həqiqətlərdən real gerçəkliklər üçün ümumi həqiqəti aşkarlamaq mümkün deyildir. Fəlsəfə ən ümumi həqiqəti axtardığından o elə həqiqətləri aşkarlayır ki, ayrı-ayrı sıralar üçün ən ümumi olsun. Yəni fəlsəfə varlığın, cəmiyyətin və idrakın ən ümumi qanunauyğunluqlarını ayrı-ayrılıqda öyrənir, buna görə də heç bir fəlsəfi təlim tam həqiqət haqqında ümumi bilgi vermək imkanına malik deyil; yəni fəlsəfə varlıq, cəmiyyət və idrak üçün ümumi olan qanunauyğunluqlara nüfuz edə bilmir. Bu, yalnız metafizika ilə reallaşdırıla bilər. Bu mənada, fəlsəfənin ali həqiqətləri metafizika üçün bazis rolu oynayır, hansı ki həmin həqiqətləri əlaqələndirib inkişaf etdirməklə hər şey üçün ümumi olan həqiqəti aşkarlamaq olar. Hər şey üçün ümumi həqiqət hər şeydən bərabər səviyyədə uzaqlaşmaqla mümkündür. Hər şeydən – mövcudluqdan və mümkünlükdən bərabər səviyyədə uzaqlıq metafizikadır.

TRANSSENDENSİYANIN NÖVLƏRİ

Biz metafizik transsendensiyanın iki formasını – xüsusi və ümumi formalarını ayırd edirik.

1. **Ümumi, tam transsendensiya – intellektual transsendensiya:** Belə transsendensiya təcrübədən bütünlüklə – həm hissi, həm maddi sferadan kənara çıxmaqla – yəni hissi qavranılan şeyi vəhdətdə inkar etməklə məlumat əldə etməkdən ibarətdir. Bu yolla xalis metafizik ideyalar əldə edilir.
2. **Xüsusi transsendensiya – hissəvi transsendensiya:** Xüsusi transsendensiya şeydə vəhdət təşkil edən tərəflərdən yalnız birinin inkarı ilə metafizik bilgi əldə etməyi özündə ifadə edir. Belə transsendensiyanın iki növünü ayırd etmək olar:

A. Yalnız hissi sferadan transsendensiya: Hissi sferada transsendensiya bir hissi qavranılan predmetin hissi təsiri əsasında başqa maddi

şeyə keçməklə onu aşkarlamaqdan ibarətdir. Hissi sferada belə transsendensiyanı biz **ilham** adlandırırıq. İlhamın hissi əsası təcrübədə, mücərrəd maddi əsası metafizikada yerləşir. Belə transsendensiyanın klassik nümunəsi romantizmdir. *Jan Pol* romantik poeziyanı "poetik nihilizm" adlandırmışdır. Beləliklə, deyə bilərik ki, poetik nümunələr özlərində təbiətlə metafizikanı əlaqələndirən noumenlər kimi mövcuddur. Hissin sərhədlərindən çıxmaq konkret obyektiv maddi gerçəkliyə özündən hisslər əlavə etmək və ya əksinə, onun bəzi hisslərini ixtisar etməklə noumen yaratmağı özündə ifadə edir. Poetik noumenlər – poetik ideyalar – hissi sferada transsendensiya kimi yaranır. Poetik transsendensiya bir neçə üsulla həyata keçirilir:

- **a. Bənzətmə (Metafora):** Bənzətmə hissi qavranılan şeyi fikrən ona oxşar başqa şeylə əvəz etməkdən ibarətdir. Bunun ali forması metafizikanı təcrübəyə bənzətməklə metafizik aləmə transsendensiyadır. Bənzətmə ilə transsendensiyada hissi qavranılma birbaşa təfəkkürdə ya tam, ya hissəvi olaraq başqa maddi şeyə köçürülür. Bəzən bir neçə hissi qavranılma başqa eyni bir şeyə köçürülür. Belə poetik noumenlər özlərində ən müxtəlif mövcudluqların "qarışığı" kimi təsəvvür edilir. Məsələn, azərbaycan şairi *M. P. Vaqifin* "Boyun sürahidir, bədənin büllur, Gərdənin çəkilib minadan, pəri" misralarında gözəl – həm bitki, həm mineral, həm də insandan ibarət üçlü mövcudluq kimi təsvir olunur. Bu üsulla ayrı-ayrı obyektiv mövcudluqların hissələrindən ibarət metafizik noumen yaradılır.

  Haşiyə: *Aristotel*, "Poetika"

"Bənzətmə uşaqlıqdan insanlara xasdır; onlar başqa canlılardan onunla fərqlənirlər ki, ali dərəcədə bənzətməyə meyillidirlər və insanın ilk dərketməsi bilavasitə bənzətmə ilə alınır. Bənzətmə hamıda zövq yaradır. Bənzətmə, harmoniya və ritm təbiətə görə bizə xas olduğundan, insanlar – uşaqlıqdan buna xüsusən meyilli olan insanlar – onu azacıq improvizasiyadan inkişaf etdirərək poeziya yaradıb. Şairin vəzifəsi baş vermişlər haqqında yox, baş verə biləcək, ehtimala və ya zərurətə görə

mümkün olanlar haqqında danışmaqdır. Bunun nəticəsində tarixə nisbətən poeziya özündə daha çox fəlsəfi və ciddi elementlər saxlayır: o daha ümumini, tarix isə xüsusini təqdim edir."

Aristotelin fikirlərindən görünür ki, bənzətmə idrakın başlanğıcıdır. İdrak özü metafizik təzahür olduğundan, onun başlanğıcı da yalnız metafizik ola bilər. Buradan da bənzətmənin məhz başlanğıc metafizik həqiqətlər əldə etmə üsulu olduğu aydınlaşır. İbtidai insanlar mifləri – ibtidai metafizik bilgiləri – məhz bu üsulla yaratmışlar.

- **b. Canlandırma:** Canlandırma əvvəlki təcrübəni təkrar, təcrübədənkənar təfəkkürdə yenidən yaratmağı özündə təqdim edir. Başqa sözlə, təcrübədən əldə edilmiş həqiqətlər canlandırma ilə metafizikaya köçürülür, nəticədə formaca təbii, mahiyyətcə metafizik varlıqlar yaradılır. Məsələn, xəyal metafizik varlıqlardan ibarət xüsusi idrak formasıdır.

  Haşiyə: *Aristotel*, "Poetika"

  "Fəaliyyətin canlandırılması – fabuladır. Fabulanı mən hadisələrin birləşdirilməsi adlandırıram. Xarakter – odur ki, ona görə biz fəaliyyət göstərən insanın keyfiyyətini təyin edirik. Fikir – odur ki, bilavasitə danışan nəsə sübut edir və ya sadəcə öz rəyini bildirir. Fikir – bilavasitə nəyinsə mövcudluğunu və ya mövcud olmamasını sübut edir və ya nəsə deyir. Mətn – fəaliyyətin sözlə izahıdır."

Aristotelin fikirlərindən görünür ki, təbii hadisələrin fikrən metafizik birləşdirilməsi canlandırmanın mahiyyətini təşkil edir. Bu üsul bənzətməyə yaxındır, sadəcə bənzətmədə şeylər, canlandırmada hərəkətlər fikrən yaradılır. Canlandırma cansız hər şeyə can vermək, həyat vermək deməkdir. Sadəcə təbiətdə canlandırılan varlıqlar obyektiv, fikrən canlandırılan varlıqlar subyektiv-metafizik olur.

- **c. Peripetiya – əksiliklərin əvəzlənməsi:** Təcrübədə əksiliklərin vəhdəti və mübarizəsi qanunu hökm sürür. Bu qanuna görə əksiliklər bir-biri ilə vəhdət təşkil etdiyi kimi bir-biri ilə mübarizə aparır və bir-birini inkar etməyə əbədi cəhd edir. Buna görə də əksiliklər bir-birinə

keçmir. Amma poeziyanın peripetiya üsulunda bir əksilik digər əksiliklə əvəzlənir. Yəni onlar arasında mübarizə olmur və onlar bir-birində vəhdətdə mövcud olurlar. Başqa sözlə, bir-birindən ayrılmırlar; hansı ki təcrübədə obyektiv gerçəkliklər məhz əksiliklərin mübarizəsi əsasında bir-birindən ayrılırlar. Əgər təcrübədə hər bir obyektiv varlıq öz əksiliyi ilə əvəzlənsəydi, onda predikatın obyektlə əlaqəsi keçici olardı, yəni bir şey başqa şey kimi təzahür edərdi və ya idrak edilən həqiqətlə şey arasında sürəkli əlaqə olmazdı, yəni şeylər əbədilikdən məhrum olardı.

Cənnətdə mövcud olan varlıqlar haqqında məlumat peripetiyanın klassik nümunələridir. Belə ki, cənnət haqqında dini baxışlara görə cənnətdəki Ruh istədiyi şeyləri dərhal bir şey kimi əldə edir. Yəni cənnətdəki çoxluq təklik kimi təzahür edən çoxluqdur. Bütün sonsuz çoxluq təkin içində vəhdətdədir. Buna görə cənnətdəki ruhun malik olduğu əvvəlki istəyi dərhal yeni istəyinə uyğun şeyə çevrilir və insan arzularına uyğun eyni bir şeyi sonsuz çoxluqda şey kimi qavraya bilir. Məsələn, cənnət alması cənnət əhlinin arzusuna uyğun arzulanan anda istənilən şeyə, o cümlədən öz əksiliyinə belə çevrilir. Möcüzələr də məhz peripetiya nümunələrindən ibarətdir. Məsələn, *Musa* peyğəmbərin əsasının əjdahaya çevrilməsi klassik peripetiya nümunəsidir.

Haşiyə: *Aristotel*, "Poetika"

"Peripetiya – əksiliyə doğru, həm də dediyimiz kimi ehtimala və ya [zərurətə] görə baş verən dəyişilmədir."

Peripetiya özündə nəyi ifadə edir? Metafizik aləmdə varlıqlar yalnız mümkünlük kimi vardırlar. Mümkünlük özündə sonsuz imkanlardan ibarətdir və hər bir imkanın mövcudluğu fərqli şərtlər tələb edir. Mümkünlüklər ali səviyyəyə qalxdıqca imkanların şərtləri mürəkkəbləşir. Əgər təbiətdə mümkünlüyün istənilən imkanını reallaşdıra biləcək şərtləri təmin etmək mümkün olsaydı, onda möcüzə yaratmaq adi bir iş olardı. İndi mümkünlüyün elə imkanları insan tərəfindən reallaşdırılmağa başlanıb ki, belə reallaşdırmalar həqiqətən möcüzədir. Məsələn, bioloji varlıqların

klonlaşdırılması, geni dəyişdirilmiş mövcudluqların yaradılması və s. kimi. Uzaq gələcəkdə isə ola bilsin mümkünlüklərin elə imkanlarının reallaşdırılması mümkün olacaq ki, həqiqətən cansız şeyi canlı varlığa çevirmək mümkün olacaqdır. Mümkünlüyün imkanları ehtimal kimi mövcuddur. Kvant fizikasının tabe olduğu həqiqət ehtimal olduğundan, təbiətlə kvant fizikasının həqiqətlərini müqayisə etdikdə kvant fizikasının həqiqətən möcüzələrdən ibarət olduğu aşkarlanır. Beləliklə, kvant fizikasını poetik peripetiyaya uyğun elmi peripetiya kimi qiymətləndirmək olar.

- **d. Tanıma:** Biz ətrafımızdakı istənilən şeyi adla işarələyirik və sonra onları adla tanıyırıq. İlkin sintetik adların, yəni sadə adların heç birinin mənası bizə aydın deyil. Məsələn, nə üçün biz almaya armud yox, məhz alma adı vermişik? "Alma" sözü ilə alma adında tanıdığımız meyvənin nə kimi əlaqəsi vardır? İlk dəfə alma sözü necə meydana çıxıb? Bütün bu sualların cavabları metafizika ilə təbiətin idrakda əlaqələnməsinin təbiətindədir. Tanıma da poetik transsendensiyanın xüsusi formasıdır. Tanıma bir addan bir şeyə, bir şeydən başqa şeyə, bir insandan başqasına və ən ümumi şəkildə təbiətdən metafizikaya keçməklə reallaşır.

  Haşiyə: *Aristotel*, "Poetika"

"Tanıma – Tanıma biliksizlikdən biliyə, taleyin xoşbəxtliyə və ya bədbəxtliyə məhkum etdiyi insanlarla dostluğa və ya düşmənçiliyə keçmədir. Tanıma. cansız əşyalarla və müxtəlif təsadüflərlə baş verə bilər. Tanımanın növlərinə gəldikdə: birincisi və ən süni olmayanı – əlamətlər üzrə tanımadır; ikincisi, şairin uydurduğudur; üçüncüsü, xatırlama yolu ilədir... dördüncü – əqli mühakimə ilədir."

Aristotelin şərhindən görünür ki, tanımanın bir növü şairin uydurduğu, özündə uydurma noumenlər kimi mövcuddur. Poeziyanın əsas vasitəsi sözdür, söz xalis metafizik varlıqdır; çünki təbiətdə insandan başqa heç bir canlı söz ifadə edə bilmir və söz müstəqil mövcudluğun təzahür üsulu deyil. Ona görə hətta realizmin özündə belə fikir sözlə ifadə olunduğundan metafizikadan azad deyil.

Aristotelin tanımanın növləri ilə bağlı fikirlərini bir qədər geniş şərh edək:

Biliksizlikdən biliyə keçmə: Biliksizlik sual kimi subyektdə saxlanılır. Bilik cavab kimi obyektdədir. Beləliklə biliksizlikdən bilikliliyə keçmə metafizikadan təbiətə keçmə kimi tanımanı özündə ifadə edir.

Xoşbəxtlikdən bədbəxtliyə keçmə: Xoşbəxtlik mövcudluğun öz ideyasına uyğun ideal mövcudluğudur. Bədbəxtlik əksinə, mövcudluqla ideyasının ziddiyyətidir. Təbiətdə belə ziddiyyət dağılmaya, canlılarda ölümə, ruhda bədbəxtlik hissinin yaranmasına səbəb olur.

Dostluqdan düşmənçiliyə keçmə: Dostluq iki ruh arasında eyniliyə görə əlaqədir, hansı ki eyniliyə görə əlaqədən ruhun təkliyi təzahür edir. Düşmənçilik əksiliyə görə əlaqədir, hansı ki ruhun çoxluğunu özündə təqdim edir, bu isə ruhun təkliyi ilə inkar olunur. Ona görə də düşmənlər bir-birini məhv etməyə, Ruhu süni çoxluqdan azad etməyə cəhd edirlər.

Əlamətlər üzrə keçmə: İdeyaların bir-biri ilə assosiasiya təşkil etməsi özündə şeyin müxtəlif təzahürlərinin bir-biri ilə vəhdət təşkil etməsini özündə refleksiya edir. Biz bir ideyanın digər ideya ilə assosiasiyasından həqiqəti dərk etdiyimiz kimi, şeyin bir təzahüründən digərinə keçməklə onların vəhdətindən şeyi tanıyırıq.

Uydurulma ilə tanıma: Bu üsul bənzətmə ilə bir təzahürdən digərinə keçməklə tanımanı özündə təqdim edir.

Xatırlama ilə tanıma: Xatırlama eyni bir şeyin indiki məhdud təsəvvürlərindən bundan əvvəlki həmin şeydən əldə edilmiş geniş təsəvvürlərə keçiddir.

Əqli mühakimə ilə tanıma: Belə tanıma bir mühakimədən başqasına keçməklə baş verir, yəni bir təzahürdən başqasına keçməklə şeyin tanınmasına uyğun, amma ondan fərqli olaraq, sadəcə şeyin belə üsulla tanınması hissi sferada mühakimədən mühakiməyə keçidlə tanınma qeyri-hissi qavrama ilə reallaşdırılır.

- **e. Metafora:** Metafora sözün sərhədləri daxilində transsendensiyadır.

Haşiyə: *Aristotel*, “Poetika”

"Sözün dəyişilmiş məna ilə cinsdən növə, növdən cinsə və ya növdən növə, və ya analogiya üzrə keçirilməsidir. Əgər cümlə metaforadan ibarətdirsə, bu tapmacadır; qlossdan ibarətdirsə, – barbarizmdir. Tapmacanın mahiyyəti odur ki, həqiqət haqqında danışarkən onunla qeyri-mümkünlük birləşdirilir. Bu yalnız metafora ilə həyata keçirilə bilər."

Beləliklə, *Aristotelin* fikirlərindən görünür ki, mövcud varlıqla potensial varlığı birləşdirməklə mümkün varlıq haqqında məlumat əldə etmək mümkündür; hansı ki sonuncu metafizik varlıqlardan ibarətdir. Metafora – söz vasitəsi ilə sözün daxilində onun bir mənasından başqa mənasına keçiddən ibarətdir. Belə keçiddə sözün forması sabit qalmaqla bir mənadan başqa bir mənaya keçirilməsi poetik transsendensiyanın bir forması kimi metaforaları meydana çıxarır. Məsələn, "Gözüm səndən su içmir" cümləsindəki "gözüm su içmir" ifadəsi metaforadır; hansı ki təbiətdə mövcud varlıq kimi göz su içmir, amma metafizikada gözün hansısa mümkünlüyündə onun su içə bilməsi həqiqətdir. Beləliklə də, metafora sözdə transsendensiya ilə mövcudluğun əhəmiyyətini mümkünlüyün mənalarından birinin əhəmiyyəti ilə əvəzləyir. Metafora həm də mümkünlüyün əksiliyi ilə, yəni mümkünsüzlüklə mövcudluğun əhəmiyyətini birləşdirir ki, buradan da tapmaca meydana çıxır. Tapmaca həqiqətin metafizikada gizlədilməsini özündə təqdim edir, buna görə də, tapmacanı tapmaq üçün mütləq transsendensiya etmək lazım gəlir; hansı ki məhz transsendensiya vəziyyətində gizlədilmiş həqiqət aşkarlanır, sonra təbiət nahiyəsinə qayıdaraq onun uyğun gəldiyi gerçəklik tapılır.

B. Yalnız maddilikdən transsendensiya: Maddilikdən transsendensiya eyni hissi qavranılan maddi şeyin hissi təsirləri çərçivəsində özündən onun maddi əsasına nəsə əlavə etməklə və ya ixtisara salmaqla noumen yaratmağı özündə təqdim edir. Belə transsendensiya ilə miflər meydana gəlir. Məsələn, qədim yunan mifologiyasında kentavr (yarı insan, yarı at obrazı) belə transsendensiya ilə meydana çıxıb. Bu cür nümunələr qədim dövr dünyagörüşü üçün xarakterik olduğundan, həmin dövrün istənilən xalqının mifologiyasında qırmızı xətt kimi keçir.

TRANSSENDENTAL KEÇİD – NİHİLİZM

Transsendensiya metodu xalis zəkanın keçidini özündə ifadə etdiyindən, bu keçidin necə baş verməsi və hansı mərhələlərdən keçməsi əhəmiyyətə malikdir. Transsendensiya ilk növbədə zəkanın keçid qabiliyyəti ilə bağlıdır; hansı ki ruhun nüfuz etməsini – hər şeyin substansial aləminə daxil olub, dalğa funksiyasının özündə daşıdığı məlumatı mənimsəməsini özündə təqdim edir. Biz həqiqətin bir səviyyəsindən başqa səviyyəsinə keçidində, *M. Haydeqqerin* təbirincə, "aralıq vəziyyət"də meydana çıxan həqiqəti nihilizm kimi dəyərləndiririk.

Haşiyə: *F. Nitsşe*, "Kosmoloji dəyərlərin qəzaya uğraması"

"Ümumiləşdirici baxış – faktiki olaraq istənilən nəhəng artım özü ilə həmçinin dəhşətli parçalanma və ölüm gətirir: əzab, qürubun simptomları irəliyə doğru nəhəng addımlar vaxtına xasdır: insanlığın istənilən məhsuldar və nəhəng hərəkəti eyni zamanda nihilistik hərəkat yaradır. Dünyaya pessimizmin son hüdudi forması gəlir. Həqiqi nihilizm, ola bilsin, müəyyən vəziyyətdə kəskin və aydın mövcud artımın əlaməti, mövcudluğun yeni şərtlərinə keçid ola bilər."

Nitsşenin nihilizmin şərhi ilə bağlı fikirlərindən görünür ki, nihilizm istənilən nəhəng artımın, o cümlədən idrakın, dünyagörüşünün artımında meydana çıxır və mövcudluğun yeni şərtlərə keçidindən xəbər verir. Başqa sözlə, nihilizm ölçülülüyün dəyişilməsini özündə təqdim edir. Metafizika da özündə belə nəhəng artımı – bir tərəfdən mövcud aləmin sərhədlərindən kənardakı varlığın idrakına istiqamətlənmə kimi və təcrübədən çıxaraq xalis zəkada idrakın imkanlarını qat-qat artıraraq mövcudluğun yeni şərtlərinin – mümkünlüyün idrakına cəhd kimi – təqdim etdiyindən nihilizmsiz bu cəhdi uğurla reallaşdıra bilməz.

Nihilizmin ümumi qəbul edilmiş mənası özündə "həqiqətən yalnız hissi qavrama ilə, yəni öz təcrübənlə əlçatan mövcudluq mövcuddur, ondan başqa heç nə" dünyagörüşünü təqdim edir. Beləliklə, nihilizm idrakın məhdudluğunun dağıdılması, dəf edilməsi prosesindən ibarətdir. Çünki "yalnız hissi qavrama ilə əlçatan həqiqət" həm qeyri-dəqiq, həm yarım-

çıqdır. Ona görə də nə ki "yalnız hissi qavrama ilə əlçatan mövcudluğa aiddir", o nihilizmə məruz qalmağa məhkumdur. Nihilizm idrakın özü öz sərhədlərini genişləndirmək cəhdində meydana çıxır. *M. Haydeqqer* nihilizmi "mövcudluğun əvvəlki məqsədlərinin büdrəməsi haqqında həqiqətin hökmranlığa gəlməsi" kimi dəyərləndirmişdir, yəni "əvvəlki dəyərlərdən, bütün dəyərlərin yenidən dəyərləndirilməsi üçün azad olmaq". Beləliklə, nihilizmi gerçək kimi qəbul edilmiş həqiqətə şübhə, onun mütləq olmaması ilə bağlı həqiqət kimi təyin etmək olar. Nihilizm termini müxtəlif mütəfəkkirlər tərəfindən müxtəlif mənalarda işlənsə də, fəlsəfə tarixində əsasən *Nitsşenin* adı ilə bağlıdır.

Nitsşenin Avropa nihilizmi (nihilizm ən ümumi proses olduğundan əsl həqiqətdə onu Avropa, Asiya, xristian və ya islam nihilizmi kimi adlandırmaq dəqiq deyil) adı altında şərh etdiyi nihilizm məhz transsendensiyanın mahiyyəti ilə bağlıdır. Nihilizmin mahiyyəti qısa şəkildə təbiətin inkarı əsasında idrakı təqdim edir. Ona görə də, nihilizm kosmologiyanın ən əsas kateqoriyalarının – məqsəd (hər bir şeyin mövcudluğunun əsası (özündə şey) kimi), vəhdət (bütün mövcud olanların təsadüfə görə birbiri ilə əlaqələnməsi kimi) və varlıq (bütün mövcudluqların zərurətə görə mövcud olmalarını şərh edən kateqoriyalarının) dəyərsizləşdirilməsini, yəni onların əhəmiyyətinin istisna edilməsini və onun əvəzində təcrübədən kənar xalis zəkadan aşkarlanan dəyərlər kateqoriyası – inam, iradə, düşüncə, zəka və s. ilə uydurulma dünyanın yaradılmasını şərh edir. Beləliklə biz nihilizmi obyektdən imtina edilərək subyekt əsasında metafizik dünyanın yaradılmasına keçid kimi təyin edirik.

Nihilizm olmadan transsendensiya yalnız transsendental fəlsəfi dünyagörüşünü meydana çıxarır; hansı ki subyekt təcrübədən çıxaraq xalis zəkadan kateqoriyalar-dəyərlər müəyyənləşdirir, sonra həmin dəyərlər əsasında təcrübəni təyin edir və bu zaman müəyyənliklə təyinlik arasındakı fərqi qeyri-həqiqət şkalasına aid edir. Məhz nihilizmə görə xalis zəkaya transsendensiya edən subyekt təcrübədən bir daha ona qayıtmamaqla qopur və metafizikanın dərinliklərinə istiqamətlənir. Buradan da, nihi-

lizmi təcrübənin evtanaziyası kimi təyin etmək olar. Nihilizmin inkar etdiyi əslində obyektiv gerçəkliyin həqiqəti – mütləq dəyərlər deyil, çünki idrak prosesində mütləq həqiqətə çatmaq mümkün deyil, deməli qiymətsizləşdirilmiş dəyərlər o dəyərlərdir ki, nisbi həqiqəti özündə təqdim edir, hansı ki əvvəlki təcrübədən əldə edilmişdir və yeni həqiqətin əldə edilməsində əsas rolu oynamışdır. Ona görə də, nihilizm köhnə dəyərlərin istisnasında onları birdəfəlik atmır – belə olsaydı ümumiyyətlə idrak olmazdı, çünki Ruh idrak prosesində hər dəfə yenidən anadangəlmə vəziyyətinə, təcrübəyəqədərki vəziyyətinə – düşüncəsiz vəziyyətə düşərdi, nəticədə metafizikaya keçid baş tutmazdı.

Haşiyə: *M. Haydeqqer*, "Varlıq və Zaman"

"İndiyədək bizim üçün dünyanı qiymətli etməyə cəhd etdiyimiz bütün dəyərlər nəhayət bununla onları qiymətsizləşdirmişdir, nə zaman ki onlar verilən olmur – psixoloji hesablamada, bütün bu dəyərlər insan ağalığının əmələ gəlməsinin artması və saxlanması üçün onların xeyirliliyinin müəyyən perspektivinin nəticəsinin mahiyyətidir: və yalandan şeylərin mövcudluğuna proyeksiyalaşdırılıb. Bu insanın o hiperbolik sadəlövhlüyüdür ki, özü-özünü şeylərin mənası və ölçüsü kimi qoyur."

M. Haydeqqerin fikirlərindən görünür ki, bizim nisbi həqiqət kimi qəbul etdiyimiz əslində şeylərin bizim üçün xeyirliliyinə görə bizim onlara "özümüzdən" proyeksiya etdiyimiz həqiqətlərdir, onların perspektivi bu xeyirliliklə müəyyən olunub, hansı ki buradan "insan hər şeyin ölçüsüdür" müddəası meydana çıxıb. Buradan, "bizim tərəfimizdən proyeksiya olunub" ifadəsi heç də onu göstərmir ki, biz xurafatda olduğu kimi özümüz uydurulma həqiqəti şeyə müncər etmişik. Bu onu göstərir ki, biz şeyin idrakını onda başa çatmış hesab edirik ki, artıq onun bizim üçün xeyirliliyini kəşf edirik və bu xeyirlilik qurtardıqdan sonra yenidən eyni şeyi idraka başlayırıq və şeyin yeni xeyirliliyinə çatdıqda əvvəlki kimi yenə də idrakı dayandırırıq. Buradan belə alınır ki, bizim guya həqiqətə çatdığımıza görə dayandırdığımız idrakda son məlumat bizim şeyə proyeksiya etdiyimiz həqiqət olur, hansı ki idrakın davam etməsi ilə "yalan"

olduğu aşkarlanır. Beləliklə, bir tam kimi insan kosmosa proyeksiya etdiyi kosmoloji dəyərlərdən – "yalan"lardan imtina etdikdə metafizikaya keçid zərurəti yaranır, hansı ki kosmoloji həqiqətlərin yalanı özünün həqiqət olduğunu təsdiq edir.

Metafizik idrakın məqsədi varlığın vəhdətini aşkarlamaqdır. Varlığın vəhdəti müxtəlif səviyyələrdən müxtəlif genişlikdə – dolğunluqda aydınlaşdığından metafizika bir vəhdətdən digərinə keçməklə, son vəhdəti – məqsədi ifadə edən mütləq dolğun vəhdəti aşkarlamağa cəhd edir. Hər bir vəhdət müxtəlif dəyərlər kombinasiyası ilə idrak olunur. Beləliklə, metafizik bir vəhdəti təşkil edən dəyərlər sistemindən imtina edərək, növbəti vəhdəti təşkil edən dəyərlər sisteminə keçməyə cəhd edir. Bu prosesi *Nitsşe* nihilizm kimi şərh edir. Nihilizm nədir? Onu necə başa düşmək olar? Dərk edilmiş vəhdət müəyyəndir – mövcudluq, "*nə"* kimi aktuallaşmadır. Dərk edilməmiş vəhdət qeyri-müəyyəndir, potensiallıqdır, mümkünlükdür – "nəsə"dir. Beləliklə, nihilizm müəyyənlikdən qeyri-müəyyənliyə, aktuallaşmadan potensiallığa, mövcudluqdan – "nə"dən mümkünlüyə – "nəsə"yə keçiddir. Zəkanın aktuallaşandan imtina edib mümkünlüyə çatmaması nihilizmi təzahür etdirir, hansı ki heç vaxt tam həcmdə "*nəsə"* insan üçün açılmır.

Nihilizmin aşağıdakı formalarını ayırd etmək olar:

1. **Tarixi nihilizm:** İctimai şüurun bir tarixi formasından başqa tarixi formasına keçiddə meydana çıxır.

   Haşiyə: *M. Haydeqqer*, "Varlıq və Zaman"

   "Nihilizm, Nitsşenin düşündüyü kimi, dəyərlərin yeni ehtimalının prinsipinin axtarılmasının baş verdiyi, əvvəlki dəyərlərin yenidən dəyərləndirilməsinə keçid kimi əvvəlki ali dəyərlərin qiymətsizləşdirilməsinin tarixidir."

M. Haydeqqerin fikirlərindən görünür ki, nihilizm özü əvvəlki dəyərlərin yenidən dəyərləndirilməsi üçün, əvvəlki dəyərlərin qiymətsizləşdirilməsi ilə dəyərlərin (*Nitsşe* dəyərləri nöqteyi-nəzər kimi şərh edir) yeni ehtimalının axtarılmasının tarixidir. Nihilizmin tarixiliyi iki səbəbdən

meydana çıxır: birincisi, əvvəlki dəyərləri yenidən dəyərləndirməsinə görə tarixidir. İkincisi, nihilizm başa çatmış, birdəfəlik idrak vəziyyəti deyil və indi əvvəlkiyə çevrildikcə insan yenidən indinin dəyərlərini artıq əvvəlki dəyərlər kimi yenidən dəyərləndirməyə cəhd edir. Eləcə də, gələcək dəyərlər indiki dəyərlərə və əvvəlki dəyərlərə çevrildiyindən, nihilizm tarixilik keyfiyyəti qazanır. Bəs yeni ehtimal harada saxlanır və insan onu harada axtarır? Nihilizm dəyərlərin yeni ehtimalını yalnız metafizikada axtara bilər, hansı ki ehtimal nəzəriyyəsi məhz metafizikanın qanunauyğunluqlarının dərki kimi meydana çıxır. Ehtimal mümkünlüyün təzahür forması – imkan kimi olduğundan, yeni ehtimal prinsipləri də yalnız mümkün varlığın özündən – metafizikadan axtarılıb tapıla bilər. Ona görə də, *Nitsşe* nihilizmi "ruhun artan gücü və ya ruhun gücünü itirməsi" kimi dəyərləndirir. Ruhun gücünün artması onun transsendensiyasına gətirib çıxarır, hansı ki yeni ehtimal prinsiplərini axtarır. Ruhun təcrübədən qopması, onu istisna etməsi ruhun hakimiyyət əzmini, onun bədəndən və obyektiv mövcudluqlardan üstə qalxmaq, öz mümkünlük sferasına daxil olaraq azad olmaq cəhdini özündə təqdim edir; hansı ki *Nitsşe* bu cəhdi "dəyərlər və onların dəyişilməsi, dəyərləri təklif edənin hakimiyyətinin artmasına münasibətdən ibarətdir" kimi təyin edib. Başqa sözlə, metafizika ruhun hakimiyyət əzminin artmasından əldə edilən həqiqətləri özündə təqdim edir, hansı ki belə artım olmadan insan metafizikaya transsendensiya edə bilmir.

Tarixi nihilizm sosiologiyada nəsil problemi kimi şərh olunur. Nəsil problemi tarixi nəsillər arasında müdafiə olunan dəyərlər arasındakı fərqdən meydana çıxır. Belə ki, əvvəlki nəsil artıq idrak edilmiş vəhdətin dəyərlərini müdafiə edir, gənc nəsil özünün qəbul etdiyi vəhdətin yeni dəyərlərini aşkarlamağa cəhd edir. Bu iki dəyərlər sisteminin ziddiyyətindən nəsil problemi yaranır. *Nitsşe* tarixi nihilizmi əvvəlki dövrlərə nüfuz edən şərhin tarixi hərəkəti kimi izah etmişdir.

2. **Cari nihilizm:** Fərdi şüurun bir formasından başqa formasına keçiddə meydana çıxır. Fərdi şüurda şüurluluqdan şüursuzluğa və ya təh-

təlşüurdan şüurluğa keçiddə fərqli vəhdət səviyyələrinə keçid baş verir, nəticədə fərdi şüurun ayrı-ayrı formaları ilə çatılan vəhdətlərin dəyərləri bir-biri ilə ziddiyyət təşkil edir və fərd özü-özündə şüurun bir formasından digərinə keçiddə belə nihilizmə məruz qalır.

3. **Psixoloji nihilizm:** Sağlam zəkadan xəstə zəkaya və ya əksinə keçiddə meydana çıxır.

Haşiyə: *F. Nitsşe*, "Kosmoloji dəyərlərin qəzaya uğraması"

"Nihilizm psixoloji vəziyyət kimi onda meydana çıxmalıdır ki, birincisi, 'mənanın' olmadığı yerdə onu axtarırıq; ikincisi, baş verən hər şeydə və baş verən hər şeyin arxasında tamlıq, sistemləşdirmə, hətta təşkilatlanma durur; üçüncüsü, qurulma heç bir məqsədə gətirmir və bütün qurulmalar fərdlərin ali dəyərlərin kortəbiiliyində tam boğula biləcəyi böyük vəhdətə gətirmir – onda bütün dünyanın yalan kimi qurulmasını mühakimə etmək və o tərəfdə həqiqi dünya kimi olan o dünyanın ixtirası qalır. Nə zaman ki insan o biri dünyanın insan psixologiyasının tələbatlarından ibarət olduğunu dərk edir və bizim ona heç bir hüququmuzun olmadığını başa düşür, onda dərhal üçüncü forma nihilizm başlayır: özünə həqiqi dünyaya inanmağı qadağan edən metafizik aləmə inamsızlıq."

Nitsşenin şərhindən görünür ki, psixoloji vəziyyətlə bağlı nihilizm məhz sağlam zəkanın prinsiplərinə zidd, məna olmayan yerdə mənanın axtarılmasından, hər şeyin arxasında tamlığı aşkarlamaq cəhdindən və bu dünyadan imtina edib o dünyanı qəbul etməkdən, sonra da o dünyadan imtina etməkdən meydana çıxır. Birinci səbəb – mənasızlıqda məna axtarmaq – xəstə ağlın əlamətlərindəndir, hansı ki ağlı antinomiyaya salaraq, *Kantın* dili ilə desək, onu evtanaziya edir, yəni öz razılığı ilə ağlı öldürür. İkincisi, ayrılıqda götürülmüş tək əbədi şeylərin idrakından tamlığı dərk etmək, yəni transsendensiya etmədən gerçəkliklərdən ən böyük vəhdəti – o cümlədən Allahı – görmək cəhdi; hansı ki təbii olaraq Allahı buradan tapmadığından Allahı öldürür. Nəhayət, o dünyanın puçluğuna əmin olmaqla bu dünyanın yalan kimi qəbul edilməsində hər iki aləmin öldürülməsi, yəni insanı yadlaşdırma, onu tənhalaşdırma, bununla da onu

bütün dünyadan və insanlardan qoparma baş verir və insan psixoloji varlıq kimi ölür. Buradan da, insanın təbii vəziyyəti – dəlilik başlayır.

Normal psixoloji vəziyyətdə zəka nizamlı, psixi xəstəliklərdə xaotik vəziyyətdə olur və bu zaman aşkarlanan vəhdətlər də bir-birindən fərqlənir. Xəstə zəkanın aşkarladığı vəhdətin dəyərləri xaotik olduğundan, sistemsiz olur, hətta bəzən bir-birinə zidd dəyərlərdən və ya bir-biri ilə heç bir əlaqəsi olmayan dəyərlərin aqreqasiyasından vəhdət yaradılmağa cəhd edilir. Belə idrakdan xurafat, mif meydana çıxmışdır. Bunun əksinə, sağlam zəkanın aşkarladığı vəhdətin dəyərləri bir-biri ilə sıx rabitədə və uyğun cədvəl üzrə sistemləşdirilmiş şəkildə mövcud olur. Beləliklə, psixoloji nihilizmə sağlam mühakimənin xəstə mühakimə ilə əvəzlənməsində və ya, əksinə, xəstə mühakimənin sağlam mühakimə ilə əvəzlənməsində rast gəlmək olar. Psixoloji nihilizm ilk olaraq tarixin başlanğıcında insanın təbii vəziyyətdən sosial vəziyyətə keçidində meydana çıxdığından biz bunu **başlanğıc nihilizm** kimi təyin edirik. Başlanğıc nihilizm uşaqlarda idrakın başlanğıcında meydana çıxdığından, ibtidai insanın, uşağın və psixoloji nihilizm vəziyyətində aşkarlanan vəhdətlər demək olar ki, eyniyyət təşkil edir. Necə ki ibtidai insan cansız əşyalarda ruhun olduğuna və, əksinə, ruhun cismi olduğuna inanmışsa, eləcə də hər bir uşaq ətrafındakı bütün predmetləri canlı kimi dərk edərək onlarla münasibətə girir, eləcə də psixi xəstələr üçün hallüsinasiyalar reallıq kimi qəbul edilir və canlılar cansız, cansızlar canlı kimi dərk olunur və onlarla uyğun qaydada münasibətə girməyə cəhd olunur.

4. **Metafizik nihilizm:** Mümkünlüyün bir ehtimalından digər ehtimalına keçiddə meydana çıxır. Metafizik nihilizmi biz "nə"dən "nəsə"yə keçid şüurunun vəziyyəti kimi təyin edirik, hansı ki subyekt idrakını başa çatdırdığı müəyyən *"nə"dən* mümkünlüyün digər imkanlarını aşkarlamağa cəhd edir, bu zaman bütün mümkün *"nə"lərin* məcmusunu özündə "*nəsə"* kimi təqdim edən mümkünlük bir tam kimi onun qarşısında durur. Buradan da, "*nəsə"* metafizik nihilizmin başlıca obyektinə çevrilir, hansı ki *Nitsşe* də öz nihilizmini məhz *"nəsə"yə* mü-

nasibət üzərində şərh edir. Qeyd etmək lazımdır ki, *Nitsşe* nihilizmi xalis metafizik nihilizm deyil, biz *Nitsşedə* həm də psixoloji nihilizmin əlamətlərinə rast gəlirik. *Nitsşe*, məlum olduğu kimi, ağır ruhi xəstəliyə mübtəla olmuş və öz fəlsəfi yaradıcılığını remissiya dövrlərində davam etdirmişdir. Nəticədə, biz *Nitsşe* nihilizmində bir-birindən fərqli üç cür nihilizm aşkarlaya bilərik:

Remissiya dövrlərində aşkarlanan nihilizm: Bu, *Nitsşenin* hamı tərəfindən birmənalı qəbul edilən və ümumi fəlsəfi fikirlərindən müşahidə olunan nihilizmidir; hansı ki *Nitsşe* digər filosoflar kimi məqsədə cəhd edərkən, yeni nizamlı dəyərlər sistemini özündə ifadə edən vəhdəti aşkarlamağa cəhd edir.

Xəstələnmə ərəfəsində aşkarlanan nihilizm: Nitsşenin sağlam zəkadan xəstə zəkaya keçiddə – əsasında nizamlı dəyərlərin durduğu xaotik dəyərlərin aqreqasiyasını özündə təqdim edən vəhdətin aşkarlanmasında üzə çıxan nihilizmdir. Belə vəziyyətdə üzə çıxan nihilizm nizamla xaosun qarışığından ibarət dəyərlər sisteminin özündə vəhdəti təqdim etməsində aşkarlanır, hansı ki əsas ideyalar sağlam zəkaya, ikincili ideyalar xəstə zəkaya aiddir.

Sağalma ərəfəsində aşkarlanan nihilizm: Nitsşenin xəstəlikdən sağlamlığa keçiddə əsasında xaotik ideyaların durduğu ikincili ideyaların nizamlı dəyərlər sistemi təşkil edərək vəhdət yaratmasında aşkarlanan nihilizm. Belə nihilizmdə əsas ideyalar şübhə doğursa da, ikincili ideyalar sağlam sistem təşkil edərək özlərində həqiqəti təqdim edirlər.

Beləliklə, *Nitsşenin* nihilizmi həm metafizik nihilizmdir (hansı ki *Nitsşe* hər dəfə metafizikaya keçid edərək özündə aşağı səviyyəli ideyaların vəhdəti kimi aşkarlanmış Allah ideyasını yeni, daha ali dəyərlər sistemi kimi dərk etməyə cəhd edir), həm də psixoloji nihilizmdir (hansı ki *Nitsşe* ya sağlam əsasdan xaotik ideyalardan vəhdəti dərk etməyə və ya xaotik əsasda nizamlı ideyalar sistemindən vəhdəti aşkarlamağa cəhd edir). *Nitsşenin* çətin anlaşılması, onun birmənalı qəbul edilməməsi və

kritikaya açıq olması, xüsusən *Nitsşenin* bütün fəlsəfi ehkamlara, o cümlədən doqmatizmə meydan oxuması da buradan qaynaqlanır.

Nizamlı dəyərlər anlayışı özündə nəyi ifadə edir? Nizamlı dəyər xaotik dəyərlərdən fərqli olaraq "eyni ölçülü" dəyərlərdir. Nizamlı dəyərlərin iki ölçüsü mümkündür:

1. **Subyektiv ölçülülük:** Belə ölçülülüyün ölçüsü insandır. *Protaqor* demişdir: *"İnsan bütün şeylərin – mövcudluqların: onlar mövcuddurlar, qeyri-mövcudluqların: onlar mövcud deyillər – ölçüsüdür"*. Subyektiv ölçülülük insanın azadlığından, idrakın səviyyəsindən və keyfiyyətindən (dəqiqliyindən) asılıdır.

   Haşiyə: *Martin Haydeqqer*, "Varlıq və Zaman"

"Düşüncə – təqdim olunana (idea perceptio kimi) münasibəti müəyyən edəni qabağına qoymaqdan ibarətdir. İbarət olmaq burada müstəqil şəkildə nəsəni öz qabağına qoymaq və elə-belə qabağa qoymaqla kifayətlənmək deməkdir. Belə kifayətlənmə hesabsız ola bilməz, yalnız təqdim olunmanın hesablaması qabaqcadan ona qiyabi və daimi inama zəmanət verir, nə olursa olsun – həyəcan, rəy, hissiyyat, istənilən münasibət hər şeydən əvvəl, lap başlanğıcdan təqdim olunandır, cogitatio (lat. dilində co-agitatio – yığma, bir yerə toplama), hansı ki düşüncə kimi tərcümə olunur. Subyekt, bu əsas gerçəklikdir, hər dəfə insanı təqdim edənlə bir sırada təmin olunan birgə təqdimedilməkdir, yəni insanı predmetləşmiş və qeyri-insani mövcudluqdur. Əsas gerçəklik hər dəfə şübhəsiz təqdim olunanla təqdim edilənin bərabərliyi – me cogitare = me esse (mənim şüurumun fəaliyyəti = mənim varlığım). Subyektin subyektliyi və insan, potensial əşyalaşdırma sferasının sonsuz genişləndirilməsi və onun haqqında qərar vermək hüququ xas olan subyekt kimi. İndi aydın olur ki, hansı mənada insan subyekt kimi varlığın, indi deməli – obyektlərin, predmetlərin – ölçüsü və dəqiqliyi olmaq istəyir və olmalıdır. İnsan subyekt keyfiyyətində co-agitatio-dur, hər şeyi öz eqosunun ətrafına toplayandır. İnsan özü-özünə bütün ölçülərin qanunvericisini təsis edir, hansı ki ölçür və hesablayır, gerçək hesab etmək hüququ vardır."

M. Haydeqqerdən gətirdiyimiz bu sitatdan insanın ölçülülük kimi çıxış etməsinin düşüncə aktına görə müəyyən edildiyi aşkar edilir. Yəni insan dərk edə bildiyi qədər onun üçün mövcudluq "vardır" və insana bu mövcudluq sferasını sonsuza qədər genişləndirmək hüququ verilib. Bu o deməkdir ki, insan həm aktuallaşmış, həm də potensial varlığı idrak qabiliyyətinə malikdir və idrak varlığın gerçəkliyi kimi, subyekt kimi yalnız insana xas olduğundan hər şeyin ölçüsüdür və onun "ölçü tərəzisi" idrakdır. Məhz belə ölçülülük kimi çıxış etdiyinə görə insan süni şeylər kəşf edə bilir. Belə ölçülülükdə idrakda aşkarlanması mümkün olmayan həqiqətlər qeyri-həqiqətlər cədvəlinə düşmüş olur.

2. **Obyektiv ölçülülük:** Obyektiv ölçülülüyün başlıca prinsipi "həqiqətin meyarı təcrübədir" müddəasıdır. Belə ölçülülük, reallığın gizliliyi ilə şərtlənmiş, idrakın nisbiliyinə görə həqiqətin mütləq dərkolunmazlığından meydana çıxır. Belə ki, təcrübədə reallıq tam gerçəkliyə keçmədiyindən, obyektiv gerçəklik subyekt tərəfindən nisbi olaraq idrak edildiyindən, idrakın nisbiliyi ilə münasibətdə obyektdə saxlanan xeyli həqiqət ondan kənarda qalır. Buradan da, idrak obyekt əsasında nisbi həqiqətdən mütləq həqiqətə cəhd etdiyindən obyekt ölçüyə çevrilir. Obyektiv ölçülülük də həqiqətin aydınlaşmasının aydınlığından, təqdim olunan obyektin yəqinliyindən və idrak mühitinin entropiya mühitindən asılıdır. Buradan da obyektiv ölçülülüyün çatışmazlıqları meydana çıxır. Xüsusən obyektiv ölçülülük qeyri-obyektiv olanlar üçün ölçü rolu oynaya bilmir. Məsələn, biz obyektlə psixologiyanı "ölçə" bilmirik. Çünki subyektin həqiqəti obyektdə yox, dərk edən subyektin özündə saxlanır və obyektdən asılı olmadan müstəqil idrak prosesinə daxil olur. Buradan Ruhun və Allahın inkarı meydana çıxır.

Beləliklə, göründüyü kimi, hər iki ölçülülüyün çatışmazlıqları vardır. Bu çatışmazlıqları **metafizik ölçülülüklə** aradan qaldırmaq mümkündür; metafizik ölçülülük özündə hər iki ölçülülüyün vəhdətini təqdim edir. Belə ölçülülüklə həm nizamı, həm də xaosu ölçmək mümkün olur.

METAFİZİKANIN TRANSSENDENTAL FƏLSƏFƏDƏN FƏRQİ

Əsası *İ. Kant* tərəfindən qoyulmuş və sonralar başqa filosoflar tərəfindən inkişaf etdirilmiş transsendental fəlsəfə ilə metafizikanın fərqi nədən ibarətdir? Əgər transsendental fəlsəfə metafizik anlayışlardan başlayıb idrak edərək onun nəticələrini təbiətə tətbiq edib, onun gerçəkliyini müəyyənləşdirirsə, metafizika metafizik aləmi təsvir etməli və transsendental fəlsəfə ilə metafizik aləmin mahiyyətini idrak etməlidir. Buradan da, metafizik həm metafizik predmetlərin yaradıcısı, həm də onu idrak edən kimi çıxış edir.

Metafizika bir müstəqil elm sahəsi kimi özündə nədən ibarətdir?

Haşiyə: *M. Haydeqqer*, "'Metafizika nədir?'ə sözardı"

"Mövcudluğa istənilən münasibət varlığın hansısa bilgisini, amma eyni zamanda bu biliyin həqiqətinin qanunlarında özü-özündə durmaq qabiliyyətinin olmamasını özündə təqdim edir. Bu həqiqət mövcudluğun həqiqəti haqqında həqiqətdir. Metafizika bu həqiqətin tarixidir."

Həqiqətin tarixi varsa, deməli onun tarixi inkişafı vardır. Metafizika iki yolla həqiqətin tarixini öyrənir:

- **a. Başlanğıcdan təbiətə qədər həqiqətin inkişaf tarixi:** Bu üsulla həqiqətin öyrənilməsi əvvəl başlanğıc haqqında noumenin tapılmasını, sonra ondan həqiqətin çıxmasını və təbiətə qədər çatmasını öyrənir. Teoloji yol buna əsaslanır. Bu yolu doqmatik metafizik teologiya da adlandırmaq olar.
- **b. Təbiətdən çıxaraq başlanğıcların başlanğıcının öyrənilməsi:** Bu yolla təbiətin sərhədindən başlayaraq başlanğıca doğru hərəkət edilir və sonda ilk başlanğıc aşkarlanır. Bu da dialektik metafizik yol kimi təyin oluna bilər.

Beləliklə, təbiətin sərhədlərində metafizika ilə transsendental fəlsəfə sintetik biliklərdə birləşir və bir-biri ilə eyniyyət təşkil edirlər. Amma sonrakı dialektik həqiqətlərin aşkarlanmasından bir-birinə əks istiqamətdə inkişaf edirlər ki, buradan da onların bir çox fərqlilikləri meydana çıxır. Belə fərqliliklərə aşağıdakıları aid etmək olar:

1. Transsendental fəlsəfə təcrübədən kənar, xalis zəkadan, yəni subyektin totallığından əldə etdiyi biliklə yenidən təcrübə sahəsinə qayıdır və obyektiv gerçəkliklərin həqiqi mövcudluğunu xalis zəkadan əldə etdiyi bilgilər əsasında müəyyənləşdirir. Metafizika, bunun əksinə, xalis zəkadan aldığı biliklər əsasında təcrübəyə əks istiqamətdə – təbiətdənkənar-metafizik aləmə istiqamətlənərək metafizik aləmdən həqiqətlər əldə etməyə cəhd edir.
2. Transsendental fəlsəfə yalnız transsendental anlayışlar yaradır və həmin anlayışlar əsasında obyektiv varlıqları idrak etməyə cəhd edir. Metafizika həm xalis zəkadan transsendental anlayışlar yaradır, həm də sonra onun əsasında fikrən varlıqları yaradır və daha sonra onların uyğunluğundan metafizik həqiqətləri öyrənməyə cəhd edir. Beləliklə, birinci üç şüur formasında obyekt – Allahın yaratdığı kimi – verilir, həqiqət sonra onlardan aşkarlanır. Metafizik üsulda əvvəl həqiqət mücərrəd yolla subyektdən aşkarlanır, sonra metafizik obyekt subyekt tərəfindən mücərrəd formada yaradılır. Nəticədə, metafizik idrak obyektiv reallıqlarla heç bir formada rabitədə olmur.

Haşiyə: *F. Şelling*, "Transsendental idealizmin sistemi"

"Transsendental bilik cari bilikdən iki üsulla fərqlənir: birincisi, onun üçün xarici şeylərin mövcudluğunun yəqinliyi – xəbərdarlıqdan başqa şey olmadığından, hansı ki onun əsasını tapmaq üçün filosof onun sərhədlərindən kənara çıxır. İkincisi, cari şüurda birləşmiş müddəalar – 'mən mövcudam' və 'məndənkənar şeylər mövcuddur' – transsendental filosof tərəfindən məhz onların eyniliyini sübut etmək və həqiqətən bilavasitə tapmaq ki, cari şüur yalnız hissi edir, onlar bir-birindən ayırır (birini digərinin ardınca qoyur)."

F. Şellinqin bu fikirlərindəki şərhini bir qədər davam etdirərək transsendental fəlsəfə ilə metafizikanın transsendentallığı arasındakı digər fərqləri aşağıdakı kimi şərh etmək olar:

3. Transsendental fəlsəfədə əsas təbiətdən kənarda, nəticə təbiət nahiyəsindədir və transsendental filosof təbiətdən kənarda əsası tapmaqla

yenidən təbiətə qayıdır və həmin əsas əsasında həqiqətin dəqiqliyinə cəhd edir ("təbiəti intelligensiyadan çıxarır"). Metafizik həm əsası və həm də ondan asılı olan nəticəni təbiətdən kənarda axtarır və buna görə heç bir halda təbiət nahiyəsinə qayıtmır. Nəticədə, intelligensiya intelligensiyadan çıxarılır. Biz bunu *ikiqat mücərrədləşdirmə* kimi təyin edirik.

4. Transsendental fəlsəfə cari şüurda paralel birləşmiş müddəaları – "mən mövcudam" və "məndən kənarda şey mövcuddur" – bir-birindən ayıraraq sonra yenidən, amma ardıcıl birləşdirir və bu ardıcıllığa uyğun təbiətdən kənara, təbiətdən kənardan isə yenidən təbiətə daxil olur. Metafizik cari şüurda birləşmiş müddəaları ayırır, onlardan birini – "məndən kənarda şeylər vardır" müddəasını "məndən kənarda olandan kənarda olan vardır" müddəası ilə əvəzləyir və onları ardıcıl birləşdirərək sonsuz olaraq təbiətdən kənarda həqiqəti axtarmaq imkanına malik olur. Buna görə də biz fəlsəfi transsendental üsulu *qayıdan transsendentallıq* kimi təyin edirik. Transsendental fəlsəfə sonsuzdan sonluya qayıdır, buna görə də onun biliyi sonda konkret bilik olur. Metafizika təbiət nahiyəsinə – sonlular aləminə – qayıtmadığından onun bilgisi mütləq mücərrəd, yəni sonsuz bilgi olur (məs: "nə nədən, o da nədən, o da nədən... yaranır?" suallandırılmasına cavab kimi meydana çıxan bilgi kimi). Buna görə də metafizik bilgi heç bir halda konkretləşmir.
5. Transsendental filosof yalnız "mən mövcudam"la bağlı azaddır və "mən mövcudam"ın yaradıcısı kimi çıxış edir, obyektiv olanlara münasibətdə asılıdır, yəni onlarla şərtlənmişdir. Metafizik həm də "məndən kənarda" və "şeydən kənarda" olanın yaradıcısıdır. Ona görə də metafizik tam azad idrakla – xalis zəka ilə idraka cəhd edir.
6. Transsendental fəlsəfə obyektiv olanın reallığına şübhə ilə yanaşır və istənilən obyektiv olan "nəyinsə" subyektiv olana hər hansı bir təsirinə yol verməməyə cəhd edir. Metafizika ümumiyyətlə obyektiv olanı inkar edir və yalnız subyektiv olana subyektiv yaradılanın müdaxilə-

sindən narahat olur. Buradan da Allah, Ruhla bağlı ideyaların aşkarlanmasından çəkingənlik meydana çıxır. Belə çəkingənlik bir tərəfdən də doqmatizmin – dinin təsiri ilə güclənir.

Haşiyə: *F. Şelling*, "Transsendental idealizmin sistemi"

"Transsendental filosof subyektiv olaraq başlanğıc reallığa malik olur, o özünün bilavasitə obyektini yalnız bilikdə subyektivliyi edir, obyektiv onun üçün dolayı şəkildə obyekt olur. Əgər biliyin özü cari bilikdə itirsə, obyektdə örtüldüyündən, transsendental bilikdə əksinə baş verir – obyekt bilik aktı ilə örtüldüyündən elə-belə itir."

Göründüyü kimi, transsendental filosof biliklə obyekti örtür, amma onun mövcudluğu öz aktuallığını saxlayır. Metafizikada obyekt mövcudluqdan məhrum edilir və yalnız onun mahiyyətinin varlığından ideya varlığı əldə edilir. Başqa sözlə, xarici subyektiv olan, daxili subyektiv olanla uzlaşdırılmağa cəhd edilir.

7. Transsendental fəlsəfə subyektdən çıxardığı ideyanı konkret obyektə – mövcudluqlara müncər etməklə onların uyğunluğunu aşkarlayır və bu zaman reallığın həqiqətən şüura təqdim edilib-edilmədiyini yoxlayır və ya sübut etməyə cəhd edir.

Haşiyə: *F. Şelling*, "Transsendental idealizmin sistemi"

"Necə eyni vaxtda predmetlərlə yaradılan təsəvvürləri – təsəvvürlərlə yaradılan predmetləri düşünmək olar? Bu transsendental fəlsəfənin birinci yox, ali vəzifəsidir. Təbiətşünaslıq təbiətin qanunlarını ruhlandıraraq və onları intelligensiyanın qanunlarına çevirərək və ya material formalara birləşdirərək realizmdən idealizm çıxarır; transsendental fəlsəfə intelligensiyanın qanunlarını materiallaşdıraraq onları təbiətin qanunlarına çevirərək və ya formal materiala birləşdirərək realizmi idealizmdən çıxarır."

F. Şellinqin bu fikirlərindən göründüyü kimi, transsendental fəlsəfə hansısa formada obyektlə əlaqəsini itirmir və cari şüurda təsəvvürləri yaradan predmetlərlə, transsendental şüurda predmetləri yaradan təsəvvürləri paralel şəkildə düşünür. Metafizika subyektdən çıxardığı ideyanı mü-

cərrəd varlıqlara – yalnız mahiyyətin varlığına malik varlıqlara – müncər etməklə onların uyğunluğunu aşkarlayır. Yəni metafizikin təsəvvürləri subyektdən yaranır və buna görə də subyektdən yaradılan predmetlərlə paralel düşünülür. Məsələn, məhz buna görə Allah ideyasına paralel Allah subyektiv obyekt kimi düşünülür.

8. Transsendental filosof mövcudluğun sərhədlərində idraka cəhd edir, amma metafizik mövcudluğun sərhədlərindən çıxaraq ilk öncə onun başlanğıcını – Varlığı idrak edir, sonra həmin Varlıqdan əldə etdiyi həqiqət əsasında bir tərəfdən Kainatın totallığından aydınlaşan həqiqəti – yəni mövcudolan varlığın həqiqətlərini, həm də mümkünlüyün varlığının – Ruhun həqiqətlərini aşkarlamağa cəhd edir. Bundan sonra mövcudolanın həqiqəti ilə mümkün varlığın həqiqətinin vəhdətindən İlk başlanğıcı, səbəblərin səbəbini, yəni Allah ideyasını aşkarlayır.
9. Transsendental fəlsəfədə subyekt birincili olduğundan hissi qavrama daxili hissiyyatdan meydana çıxır. Yəni transsendental fəlsəfənin əsası təbiət sferasında saxlanılır. Buradan da, *Kantın* ifadə etdiyi kimi, "istənilən mühakimə təcrübədən başlanır" müddəası meydana çıxır.

   Haşiyə: *F. Şelling*, "Transsendental idealizmin sistemi"

"Transsendental olanın bilavasitə yeganə obyekti subyektiv olandır: belə ki, filosofluğun yeganə orqanı daxili hissdir. Onun obyekti xarici seyrin obyekti belə ola bilmir."

Transsendental olanların subyektdən çıxdığını *Şelling* də təsdiq edir. Amma metafizik subyektin (özünün) subyektə (özünə) müdaxiləsinə yol verməmək üçün həm də daxili hissiyyatı inkar edir. Ona görə də, metafizik obyektlərin heç birinin hissi tərəfi təsəvvür edilmir, yəni onların estetik tərəfi yoxdur. Bunun əvəzinə metafizik görüntü – fikrən yaradılan ixtiyari görüntü metafizik obyektlərə implikasiya edilir.

10. Transsendental fəlsəfə üçün subyekt birincili olduğundan bizim ilk başlanğıc bilgimiz bizim özümüz haqqında bilgidir, və ya özünüdərkdir. Metafizik üçün ilk başlanğıc bilgi bizdən kənarda, bizi yaradan-

dadır. Yəni transsendental fəlsəfə özünüdərkdən subyektiv aləmin dərkinə, oradan obyektiv aləmə keçirsə, metafizik özündənkənar başlanğıcdan idraka başlayaraq həm də özünüdərkə keçir; buradan da, özünüdərkin əsası məhz təbiətdənkənarda saxlandığından, Ruhu müstəqil varlıq kimi qəbul edir və "Məni Allah yaratmışdır" inamı yaranır. Yəni Ruh metafizikada Yaradanla yaradılanlar arasında sərhəd kimi çıxış edir və idrak yalnız Ruhla Yaradan arasındakı həqiqətlərdən bilgi əldə edir.

Metafizika transsendental fəlsəfədən həm də onunla fərqlənir ki, o yalnız passiv seyr yolu ilə transsendensiya etmir, həm də bu zaman xalis zəkada yaranışı təkrarlayır; bunun üçün ilk növbədə yaranışın üsulunu aşkarlamağa cəhd edir. Xalis zəkanı təcrübədən onun sərhədlərinə çıxaran transsendental fəlsəfə bu sərhədlərdə dayanır və oradan təkrar-təkrar təcrübəyə müraciət edərək təcrübə haqqında transsendental dünyagörüşünü genişləndirir. Metafizika transsendental fəlsəfənin durduğu nöqtədən təcrübəyə əks istiqamətdə inkişaf edir və bu istiqamətdə inkişafı təmin etmək üçün özü transsendental varlıqları yaradır. *Kant* metafizikanı dar mənada "transsendental fəlsəfə ilə xalis ağlın fiziologiyası" kimi təyin etmişdir. Biz isə metafizikanı "transsendental fəlsəfə ilə transsendental varlıqların aşkarlanması" kimi təyin edirik, hansı ki bu varlıqların bəziləri "düşünən mən"dən kənarda, bəziləri düşünən məndə aşkarlanır.

METAFİZİKANIN EMPİRİK BİLGİLƏRDƏN FƏRQİ

Metafizika anlayışı yalnız idrak formasını yox, həm də təbiətin əksiliyini – metafizik aləmi özündə ifadə edir. Metafizika təbiətdənkənar – təbiətin əksiliyi kimi yox, təbiətdən fərqli mahiyyəti olan aləmi adlandıran anlayışdır. Metafizik aləmi biz yalnız fiziki aləmin qanunlarının istisnasından anlaya bilərik. Ona görə də təbiətin əsas xarakteristikasını müəyyənləşdirmək lazım gəlir. Beləliklə, təbiət nədir?

1. Təbiət hər bir şeyin bəlli bir qanunauyğunluqda özü-özündə məkanda və zamanda yer tutduğu və həmin şeylərin vəhdətindən əmələ gələn

sistemdir. Deməli, metafizikanın predmetləri məkanda və zamanda bəlli yer tutmur, bir-biri ilə vəhdət təşkil etmir və buna görə də sistemsiz aləmdir.

2. Təbii şeylər bütün insanların münasibətdə olduğu, bütün digər şeylərlə qarşılıqlı təsirdə olduğu şeydir. Metafizik predmetlər bilavasitə heç bir fərdlə münasibətdə, heç bir şeylə qarşılıqlı təsirdə olmur.
3. Təbii şeylər öz mümkünlüklərinin ən sadə mahiyyətinə görə zəruri və bilavasitə mövcudluqlardır. Metafizik predmetlər öz mümkünlüklərinin bütün imkanlarında var olan və buna görə də mövcud varlığı olmayan, xalis varlıq təyini ilə aşkarlanan predmetlərdir.
4. Təbii şeylər yalnız hissi qavranılma ilə idrak olunur. Metafizik predmetlər qeyri-hissi qavrama ilə yalnız xalis zəkada aşkarlanır.
5. Təbii şeylər şüurun bütün formaları ilə idrakı mümkün olan şeylərdir. Metafizik predmetlər yalnız ya kollektiv şüurla, ya da transsendental fəlsəfi şüurla idrakı mümkün olan predmetlərdir.
6. Təbiət şərtlənmiş ağılla, metafizika **azad ağılla** idrak olunur. Azad ağlın iki mənası vardır: birincisi, başqa insanların ağlına ehtiyacı olmamaq və ya onlardan asılı olmadan təklikdə idrak imkanına malik olmaq. İkincisi, təbiətdə mövcud olan heç bir şeydən asılı olmadan təklikdə idrak imkanına malik olmaq. Buradan da, metafizik filosofdan fərqlənir. Filosoflar idrakın ən ümumi qanunauyğunluqlarını öyrənərkən insan ağlının bütün mümkünlüklərinə müraciət edirlər. Metafiziklər idrakın tabe olduğu qanunları öyrənmədiyindən, yalnız öz ağıllarının idrakının xüsusi qanunlarına müraciət edirlər. Birinci azad ağıl peyğəmbərlərə, ikinci azad ağıl metafizikə xasdır. Qeyd etmək lazımdır ki, azad ağıl xalis zəka ilə eyniyyət təşkil etmir.

Haşiyə: *Fridrix Nitsşe*, "İnsani, həddən ziyadə insani"

"Bir dəfə, mənə lazım olanda, mən özüm üçün 'azad ağılları' seçdim, hansı ki 'İnsani, həddən ziyadə insani' adı altında bu melanxolik-cəsarətli kitab həsr olunmuşdur; belə 'azad ağıllar' yoxdur və olmamışdır – amma, təkrar edirəm, onlarla ünsiyyət mənə onda lazım oldu ki, pis əh-

val-ruhiyyələr (xəstəlik, tənhalıq, fəaliyyətsizlik, yadlıq, acedia – ümidsizlik) arasında yaxşı əhval-ruhiyyəmi saxlayım. Belə azad ağıllar mövcud ola bilər, bizim Avropa öz sabahkı və o birisi günlərdəki oğlanları sırasında elə şən və inadkar uşaqlara malik olacaqdır. Mən onların necə yavaş-yavaş gəldiyini görürəm; ola bilsin, onların gəlişinin şərtlərini və yollarını qabaqcadan təsvir etməklə, onları sürətləndirə bilərəm."

Nitsşenin şərhindən görünür ki, "azad ağıl" insanı təbii vəziyyətə düşməkdən xilas edən, onu tənhalıqdan, ümidsizlikdən, bədbinlikdən, fəaliyyətsizlikdən xilas edən ağlın elə rasional hissəsidir ki, insan bu vəziyyətdən başqalarının köməyi olmadan, özü-özündə təklikdə düşdüyü vəziyyətdən çıxır. Əgər ağlın belə bir hissəsi insanları təbiətlə şərtlənməsindən, onların təbiətin əsiri olmasından, idrakın obyektlərinin məhdudiyyətindən doğan "pis əhval-ruhiyyədən" və ya nəhəng əxlaqi pozuntudan xilas etmək üçün meydana çıxırsa, onda ya peyğəmbər, ya metafizik doğulur.

Nitsşeyə görə "azad ağıl" "böyük üzülmə" kimi meydana çıxır. Belə üzülmə insanlığın qəbullandığı və adət etdiklərindən birdəfəlik imtina etməklə – *Nitsşenin* obrazlı ifadə etdiyi kimi, "burada yaşamaqdansa, ölmək yaxşıdır" prinsipinin qəbul edilməsi ilə başlayır. Metafizik "təbiət sferasında idrakdansa (burda doğulma kimi), ondan kənar (ölmək kimi) idrak yaxşıdır" prinsipi əsasında "təbiətdən üzülür". Azad ağlın ikinci mərhələsi azad iradəyə cəhddir, hansı ki insanı başqalarının və şeylərin təsirindən azad olaraq metafizikaya keçməyə kömək edir. Əgər *Nitsşenin* "azad ağıl"ı üçün azad iradə bütün dəyərləri baş-ayaq etmək üçün əsas şərtdirsə, metafizik üçün azad iradə təbiəti tərsinə çevirməyə, ona "astarından baxmağa" kömək edir. *Nitsşenin* "azad ağlı" "yalançı" olmağı – bütün insanlığın kritikasız qəbul etdiyi doqmaların əksinə öz müddəalarını qoymağı nəzərdə tutur. Metafizik də "yalançı" olmağa – təbiət elmlərinin bütün müddəalarının əksinə, onlarla sübut olunmayan həqiqətləri (sübutsuz qəbul edilməsi mümkün olan) aşkarlamağa cəhd edir. "Azad ağıl" yetkin ağıldır, hansı ki insanın təklikdə metafizikanın ənginliklərinə cəh-

dində, *Nitsşenin* dili ilə desək, "ruhun özü-özünü öz xüsusi yolunda itirməsini" istisna edir. Yetkin olmayan "azad ağıl" metafizikanı yalnız xurafat kimi kəşf edə bilər, hansı ki ruhun özünün xüsusi yollarında itməsi kimi təzahür edir.

Azad ağıl xalis zəkadan onunla fərqlənir ki, xalis zəka həqiqəti ruhun təbiətindən aşkarlayır, azad ağıl o ağıldır ki, o təbiətdən kənara çıxmaq gücünə malik olub, metafizik aləmi idrak etmək imkanına malikdir. Ağlın azadlığı onun şeylərdən və başqa fərdlərdən asılı olmadan özündə şey kimi idrak qabiliyyətində olmasıdır. Başqa fərdlərdən asılı olmamaq üçün azad ağıl bütün insanlığın ağlının məcmusu kimi çıxış etmək imkanında olmalıdır. Məsələn, peyğəmbərlərin ağlı azaddır. Onlar bütün insanlığın ağlı ilə dərk edilməsi mümkün olan həqiqəti təklikdə, bütün insanlığın adından dərk edirlər; yəni Vahid İnsanlıq Ruhunun bir Fraqmentar Ruhda qəfil və spontan aydınlaşmasında azad ağıl təzahür edir. Nəticədə, həm keçmişdə yaşamış, həm indi yaşayan, həm də gələcəkdə yaşayacaq insanların dərk edə biləcəklərini dərk edir. Buradan da gələcəkdən xəbər vermə, öncədəngörmə kimi keyfiyyətlər meydana çıxır. Peyğəmbərlər həqiqəti bilavasitə Allahdan aldıqlarından başqa kimsəyə, hətta özlərinə də ehtiyacları yoxdur. Ona görə də dini biliklərdə peyğəmbərlər özlərini yadlaşdırır. Metafizikin isə təbiətdə mövcud olan heç bir şeyə ehtiyacı yoxdur. *Nitsşe* demişkən: "Həqiqətən azad ağla şeylər və elə çox şeylər aid olur ki, artıq onu qayğılandırmır." Metafizikada azad ağıl təbiətdən əvvəli, təbiətin dərinliklərini və təbiətdən sonranı öyrənir. Təbiətdən əvvəl, sonra və onun dərinlikləri insana bu qədər yaxın olmasına baxmayaraq, o, heç vaxt onlara diqqət etmir. Yalnız metafizik "azad ağıl"la yaxına baxır və "o özü-özünü görür"; hansı ki bu günə kimi hər şeyə hamının gözü ilə baxdığından özü-özünə də başqasının gözü ilə baxır. Metafizik də Peyğəmbər kimi təkdir, amma ondan fərqli olaraq əldə etdiyi həqiqətləri yalnız özü-özündən – xalis zəkadan əldə edir. Peyğəmbərlərdə xalis zəka yalnız refleksiya edən vasitə rolu oynayır, metafizikdə xalis zəka həm də metafizik bilginin materiyası kimi çıxış edir.

Azad ağlın əsas problemi "iyerarxiya problemidir". Metafizikada iyerarxiya problemi idrakın mərhələliyi – əvvəl hissi idrak, sonra qeyri-hissi idrakın vəhdətindən həqiqətin dərkidir. Metafizik idrakda iyerarxiya problemini təbiətdən yan keçməklə həll edir və idrakın birinci pilləsini – hissi qavranılan təbiəti tamamilə istisna edir və öz predmetləri sırasında heç bir hissi qavranılan şey saxlamır.

Haşiyə: *Fridrix Nitsşe*, "İnsani, həddən ziyadə insani"

"Dərin həyati müdriklik ondan ibarətdir ki, uzun müddət özünə hətta az dozada sağlamlıq yazır. Bu zaman, 'azad', ağlı azad edən hələ cilovlanmamış qəfil parıltılar, hələ dəyişkən sağlamlıq arasında nəhayət nəhəng üzülmənin o sirri aydınlaşır ki, onun yaddaşında demək olar ki, toxunulmaz, bütünlükdə qaranlıqda və gizli qalmışdır. Azad ağıl indən belə bilir ki, onun tabe olduğu 'sən tabe olmalısan' necədir və həmçinin bilir ki, o nəyə qadirdir və ona nəyə icazə verilir."

Beləliklə, "azad ağıl" özünün yaddaşının qaranlığında saxlanan həqiqətləri aydınlaşdırmağa cəhd edir; hansı ki bu həqiqətlər ona təbiətəqədərki mövcudluğundan – azad ruhi varlıq kimi metafizik aləmdə olduğu vaxtdan məlumdur və təbiətə doğulmaqla təbiətlə kəskin ziddiyyət təşkil edən bu həqiqətlər yaddaşın ən qaranlıq və gizli guşəsinə itələnmişdir. Başqa sözlə, metafizik azad ağılla qabaqcadan xalis zəkada refleksiya etmiş metafizik aləmin biliklərini aşkarlamağa cəhd edir.

Azad ağıl həm də xalis zəka ilə ziddiyyət təşkil etmir. Çünki azad ağlın xalis zəka ilə ziddiyyətindən ağılsızlıq və ya loru dildə dəlilik meydana çıxır. Dəlilik də təklikdə idrakın formasıdır. Amma belə təklikdə dəli hamı kimi yox, ayrıca bir fərd kimi çıxış edir və yalnız özünün inandığı, başa düşdüyü, qəbul etdiyi həqiqətlərə malik olur; hansı ki həmin həqiqətlərin ölçüsü kimi yalnız özü çıxış edir. Nəticədə dəlinin ağlı ümumi ağıldan ayrılır, özündə parçalanır. Belə parçalanmış ağıl şüurun bütün formalarında başqa insanlardan fərqlənir. Azad ağıl isə cari, elmi şüurda başqaları ilə eyniyyət təşkil edir, yalnız fəlsəfi şüurda – ümumi dərketmə-

də başqalarından kəskin fərqlənir və bütün hallarda özündə hamının ağlı statusunu saxlayır.

Haşiyə: *İ. Kant*, "Xalis zəkanın tənqidi"

"İdeyanın öz mövcudluğu üçün sxemə ehtiyacı var. Mən arxitektonika adı altında sistem yaratmaq sənətini düşünürəm. Sistem altında mən bir ideyada birləşmiş çoxformalı biliyin vəhdətini başa düşürəm. İdeya isə bəzi tamın forması haqqında ağlın anlayışıdır, necə ki aprior olaraq onlar çoxformalılığın və bir-birinə münasibətdə hissələrin vəziyyətinin obyekti kimi təyin olunur. Fəlsəfə insan ağlının əhəmiyyətli məqsədinin istənilən biliyə münasibəti haqqında elmdir. Sistematik rabitədə xalis ağla əsaslanmış fəlsəfi biliklər metafizikadır. Metafizikanın bütün sistemi dörd başlıca hissədən ibarətdir: a. ontologiya; b. rasional fiziologiya; c. rasional kosmologiya; d. rasional teologiya."

METAFİZİK STATUSLU OBYEKTLƏR

METAFİZİK STATUS

"Reallıq, İrreallıq və Noumenlər: Varlığın İdrak Statusu"

Obyektin idraka təqdim edilməsi, onun suallandırılması onun statusu ilə sıx bağlıdır. Metafizik suallandırma yalnız metafizik statuslu obyektlərə verilə bilər. "Status" anlayışı özündə idrak obyektinin idrak sistemində daimi, dəyişməz yerini, vəziyyətini, idrak obyekti kimi göstəricilərini, xarakteristikasını, digər idrak obyektləri ilə münasibətini, müəyyənliyinin və təyininin xüsusi metodlarını özündə təqdim edir.

Ümumi şəkildə statusu obyektlərin mənalılığına görə təyin etmək olar. İdrak prosesində həqiqət məna kimi təfəkkürdə refleksiya olduğundan, idrak obyektinin statusu da məna ilə müəyyən olunandır. Məna – idrak olunmuş və ya idrak olunması mümkün olan həqiqətdir. Təcrübədə idrak olunmuş həqiqət təfəkkürün iştirakı ilə aktuallaşdığından, istənilən xarici nəsədən aşkarlanan həqiqətə təfəkkürün özü-özündən aşkarlanan həqiqət qarışır və bu qarışma nəticəsində həqiqət mənaya çevrilir. Nə qədər ki məna insanın özündən idrak olunan həqiqətə nəsənin qarışması ilə meydana çıxır, məna fərdiləşir, orijinallaşır.

Haşiyə: *V. Frankl*, "İnsan məna axtarışında"

"Həqiqət yalnız bir ola bilər, amma heç kəs fəxr edə bilməz ki, bu həqiqətə yalnız başqası yox, məhz o malikdir. Məna – hər dəfə həmçinin konkret vəziyyətin konkret mənasıdır. Bu həmişə "məqamın tələbidir", hansı ki ancaq və həmişə konkret insana ünvanlanıb. Necə ki hər bir ayrıca vəziyyət təkrarolunmazdır, eləcə də hər bir ayrıca adam da unikaldır. Hər gün, hər bir saat yeni məna təklif edir, hər bir adamı başqa məna gözləyir. Məna hər kəs üçün mövcuddur və hər bir adam üçün xü-

susi məna mövcuddur. Bütün bunlardan belə çıxır ki, haqqında söz gedən məna vəziyyətdən vəziyyətə, eləcə də insandan insana dəyişməlidir."

Beləliklə, *V. Franklın* fikirlərindən belə nəticə çıxarmaq olar ki, ümumi həqiqət ayrı-ayrı tək şeylərdən fərdi idraki məna kimi meydana çıxır. Həqiqət istisnasız olaraq fərdi idrak olunduğundan, istənilən həqiqət öncə məna kimi aşkarlanır. Mənadan onun idrakının fərdiliyinin çıxarılmasından xalis məna, yəni həqiqət əldə edilir. Başqa sözlə, xalis məna – təfəkkürün özü-özündən nəsə əlavə etmədiyi məna – həqiqətdir. Mənaya cəhd şüurlu insanın əsas xarakteristikasıdır.

Haşiyə: *V. Frankl*, "İnsan məna axtarışında"

"İnsan mövcudluğunun özünütranssendensiyası: bu anlayışın arxasında o fakt durur ki, insan varlığı həmişə xarici nəyəsə istiqamətlənir, onların özü olmayan nəyəsə və ya kiməsə: həyata keçirilməli mənaya və ya məhəbbətlə cəzb edildiyimiz başqa insana. İnsan özünü nə qədər işə həsr edirsə, bir o qədər o özünü öz tərəfmüqabilinə verir, bir o qədər o insan olur və o, böyük dərəcədə o özü olur. Beləliklə, o, mahiyyət etibarı ilə özünü yalnız o ölçüdə realizə edə bilər ki, o dərəcədə özü haqqında unudur, özünə diqqət etmir. Həqiqət tapılmalıdır, amma yaradıla bilməz."

V. Franklın bu fikirlərindən görünür ki, insan özünütranssendensiya edərək özündən kənarda nəyəsə – metafizik noumenə istiqamətlənir, həmin nəsənin mənasını özündə refleksiya edir və mənanın həcminə və dəqiqliyinə uyğun olaraq özü-özündə həqiqətə malik olur. Başqa sözlə, ruhun həqiqəti insanın idrak prosesində idrak etdiyi mənaların məcmusundan aydınlaşır. Buna görə də, idrak obyektinin statusu, onun mənalılığı mühüm əhəmiyyət kəsb edir.

Ümumi şəkildə mənalılıq olmaqlıq kimi idrak olunur. Olmaq sözünün mütləq mənası – iştirakçılıq, mövcudluqdur, köməkçi mənası – başqa feldən asılılıq, dayanmaq felinə yaxınlıqdır. Biz burada olmağın yalnız mütləq mənasını – idrak prosesində iştirakçılıq mənasını əsas götürərək fikirlərimizi şərh edirik. Beləliklə, status idrak prosesində iştirakçılığı

özündə müəyyən edir. Biz olmaqlığı idrakolunma keyfiyyəti kimi təyin edirik. Hər hansı bir şeyin olmaqlığı həmin şeyin idrak olunma imkanını – özündə mənaya malik olmağı özündə təqdim edir. İki cür olmaqlıq ayırd etmək olar:

a. Var olmaq: Var olmaq yalnız yaranış prosesində yoxdan meydana çıxır. Yaranışın bir və yeganə üsulu refleksiya olduğundan, var olmaq reflektiv həqiqətə malikdir. Reflektiv həqiqət – refleksiya edənin həqiqətinin refleksiya olunana keçməməsini, bununla da refleksiya edənin özündə ən sadə həqiqəti saxladığını bildirir. Var olmaq – varlığın qeyri-mövcudluğudur. Qeyri-mövcudluq olduğundan, var olanın forması yoxdur, buna görə də o, xalis fikirdir, yəni qeyri-hissi, qeyri-maddi, aprior, təfəkkürün özü-özündən idrak olunandır. Var olan xalis subyektiv mənadır, yəni xalis obyektiv mənadan fərqli olaraq, xaricdən, nəsədən əldə edilmiş həqiqətin qarışmadığı, subyektin özü-özündən aşkarladığı mənadır. Var olmaqlıq başlanğıcdır. Biz istənilən mövcudluğun idrakını "vardır" kimi təsdiq edirik. Hər hansı bir mövcudluğun varlığı həmin mövcudluğun başlanğıcı olduğunu və buna görə də özü başlanğıc olmadığını özündə ifadə edir. Var olmaqlıq şərtsiz olmaqlıqdır, ona görə də emanasiyaya məruz qalmayan mənaya – xalis mənaya malikdir. Var olanın mənası yaradıldığından təkdir. Tək olmaq başqa təklərlə vəhdətdən kənar olmaqlığı ifadə edir. Buradan da bir var olandan başqasının mənasına çatmaq mümkün olmur. Var olan təcrübəyə daxil olmadan birbaşa daxildə, təfəkkürün özü-özündən idrak olunur. Burada "təfəkkürün özü" ifadəsi Ruhu bildirir, hansı ki Ruh metafizik varlıq kimi var olandır. Beləliklə, varlıqlar haqqında həqiqət Ruhun özündən təfəkkürə keçir və aşkarlanır.

b. Mövcud olmaq: Mövcud olmaq əmələgəlmə prosesində meydana çıxır. Əmələgəlmə çoxlu sayda müxtəlif üsullarla reallaşdığından, mövcud olmaq özündə emanativ həqiqətə – təhrif olunmuş həqiqətə – malik olur. Mövcudolmanın həqiqəti mürəkkəbdir. Yəni özündə həm əmələ gəldiyi tərkib hissələrinin, həm əmələ gətirəcəyi mövcudluqların həqiqətlərini gizli şəkildə, həm də hazırkı vəziyyətdə aşkar şəkildə öz konkret

həqiqətini saxlayır. Mövcud olmaq şərti olmaqlıqdır. Şərti olmaqlıq vəhdətdə olmaqlığı özündə ifadə edir. Vəhdətdə mövcudluq təkcə mövcudluğu istisna etdiyindən, təcrübədə heç bir mövcudluq təkcə kimi mövcud olmur. Təkcə kimi mövcud olmadığından, cəmdən hər bir ayrıca mövcudluğun həqiqətini aşkarlamaq mümkündür. Mövcud olmaq forma ilə xalis fikrin vəhdətində olmaqlıqdır, hansı ki forma heçlik kimi qeyri-olmaqlıq, yəni mənasızlıqdır.

Haşiyə: *Aristotel*, "Metafizika"

"Dəqiqləşdirilmədən götürülən mövcudluq bir çox mənaya malikdir – belə mənalardan biri təsadüfi mövcud olma mənasında varlıq, digəri – həqiqət mənasında varlıq və yalan mənasında qeyri-varlıq olmuşdur; bundan başqa, özü-özündə mövcudluq haqqında kateqorial deyim formaları mövcuddur (məsələn, bu formalardan biri şeyin mahiyyətini göstərir, digəri keyfiyyəti, kəmiyyəti, yeri, zamanı və, ola bilsin, şeydə nəyisə), sonra bunlardan daha üstün mümkünlük kimi və gerçəklik kimi varlıq vardır."

Biz *Aristotelin* öz metafizikasında şərh etdiyi varlığın formalarını da nəzərə alaraq, idraka təqdim edilmiş istənilən obyekti ümumi şəkildə statusuna görə üç qrupa ayıra bilərik:

1. Reallıq statusuna malik obyektlər (*Aristotelə* görə, təsadüfə görə mövcud olan varlıq): Belə statuslu obyektlər gerçək aləmi təşkil edən, hissi qavranılan, material, forma və mahiyyətin vəhdətindən ibarət istənilən nəsədir. Reallıq statusuna malik varlıqlar şərtləndiyindən əbədilik xarakteristikasına malik deyillər, ona görə də *Aristotel* həmişə və daha çox hallarda mövcud olmayan varlığı təsadüfi varlıq adlandırır. Reallıqlar forma ilə müəyyən olunduğundan, forma heçlik kimi həqiqətə xas əbədilikdən məhrum olduğundan, forma ilə dolayısı ilə idrak olunan reallıq statusuna malik obyektlər də təsadüfə görə varlıqlar hesab edilməlidir. Reallıq statusu özündə mövcudluğun varlığından ibarətdir. Mövcudluğun varlığı mövcud varlıqdan mənanın idrakını özündə təqdim edir. Mövcud varlıq – forma ilə mahiyyətin vəhdətindən – xalis forma heçlik kimi, ma-

hiyyət xalis fikir kimi mövcud olduğundan, reallıq statusunu heçliklə fikrin vəhdətində olmaqlıq kimi təyin edə bilərik, hansı ki idrak prosesində heçliyin dəf edilməsi ilə mövcud varlığın fikir varlığı idrak edilir. İdrak prosesində heçliyin dəf edilməsi ilə həqiqətin idrakına görə *Aristotel* belə qənaətə gəlir ki, təsadüfə görə varlıq "heç bir elmi baxışın predmeti ola bilməz". Elm mövcud varlığın formasından onun mahiyyətini aşkarladığından, təsadüfi mövcud varlıqda təsadüfilik onun forması ilə bağlıdır, hansı ki formanın təsadüfiliyinə görə özündə aşkar və gizli həqiqətlər saxlayır. Aşkar həqiqət – konkret mövcud varlığın keyfiyyətlərindən, formadan dolayısı ilə aşkarlanan həqiqətdir. Gizli həqiqət konkret mövcudluğu əmələ gətirən və ya həmin mövcudluqdan əmələ gələcək mövcudluğa aid həqiqətlər olub, konkret mövcud olmayan, mümkünlükdən aşkarlanan həqiqətlərdir. Reallıq statusuna malik varlıq gerçək varlıq olub kəmiyyətinə, keyfiyyətinə, zaman, məkana görə təyin olunan varlıqdır. Təsadüfə görə varlıq keçici varlıqdır, hansı ki əbədilik xarakteristikasını özündə istisna edir. Belə varlıqlar yalnız əmələgəlmə prosesindən meydana çıxır. Təsadüfi varlıqlar özlərində həm gizlin, həm aşkar həqiqət saxlayır.

2. İrreallıq statusuna malik obyektlər (*Aristotelə* görə yalan mənasında qeyri-varlıq): Belə obyektlərə xalis hissi qavranılan, xəyal aləmini – fikrən uydurulan aləmi təşkil edən, xalis formadan ibarət, qeyri-material obyektlər aiddir. İrreal statuslu obyektlərin mahiyyətləri olmadığından, heçliyi özlərində təqdim edirlər. Məsələn, hallüsinasiyalarda, yuxuda, ilğımda aşkarlanan obyektlər irreal statuslu obyektlərdən təşkil olunur. İrreallıq statuslu obyektlər qeyri-varlığa malikdirlər.

3. Metafizik statuslu obyektlər (*Aristotelə* görə, həqiqət mənasında varlıq): Belə obyektlərə metafizik aləmi təşkil edən, qeyri-hissi qavranılan, özündə istənilən formanı inkar edən, xalis fikir varlığına malik obyektlər aiddir. Metafizik statuslu obyektlər aktuallaşmamış mümkünlüklər olduğundan, onların birbaşa ruhda refleksiyasına mane olan heç bir sədd yoxdur. Buna görə də, istənilən metafizik obyekt bilavasitə təfəkkü-

rün özü-özündə qeyri-hissi yolla qavranılır. Metafizik statuslu varlıq mümkünlükdə varlıqdır və gerçəklikdə olan varlıqdan formadan ayrılıqda xalis mahiyyət olması ilə fərqlənir.

Hər bir statusu müəyyən və təyin edən özünə xas xarakteristikalar vardır. Beləliklə, biz ya xarakteristikalardan idrak obyektinin statusunu müəyyən edirik, ya da statusunun müəyyənliyindən onun hansı statuslu idrak obyektlərinə aid olduğunu təyin edirik.

Metafizik statuslu obyektlərə bilavasitə metafizikada aydınlaşan həqiqətlərin vasitəsi rolunda çıxış edən obyektlər və dolayısı ilə metafizik həqiqətlərin idrakına xidmət edən aprior aşkarlanan obyektlər aiddir. Metafizik statuslu obyektlər təfəkkürün özü-özündə qeyri-hissi qavranılan, qeyri-maddi obyektlərdir. Əgər real şeylər hissiyyatla, maddələrindən dolayısı ilə təfəkkürdə refleksiya edirsə, bundan fərqli olaraq, metafizik statuslu obyektlər birbaşa təfəkkürdə refleksiya edirlər. Buradan da təfəkkürdə bilavasitə, avtonom və spontan refleksiyanı metafizik statusu müəyyən edən əsas, başlanğıc xarakteristika kimi təyin edə bilərik.

Təbii şeylərlə metafizik statuslu obyektlərin təfəkkürdə fərqli qaydada refleksiyası, onların varlığının təbiəti ilə bağlıdır. Hər bir konkret şey mümkün varlığın sonsuz imkanlarından yalnız bir imkanı kimi zərurətə görə artıq aktuallaşmış mövcudluq və təsadüfə görə aktuallaşa biləcək imkanları ilə potensial varlıqdır. Şeylərin özündə potensial mümkünlük saxlaması əsasında insanlar təbii şeylərin əsasında xüsusi süni şərtlər yaradaraq, onların tabe olduğu qanunauyğunluqları dəyişdirməklə, konkret şeylərdə potensial mümkünlüyün digər imkanlarını aktuallaşdırmağa nail olurlar. Məsələn, sintetik maddələr, geni dəyişdirilmiş məhsullar belə əldə edilir.

Ruh şeyin təsadüfə görə potensiallığını özündə refleksiya edərək, ondan konkret şeyin zərurətə görə mümkünlüyünün imkanını tapır. Yəni idrak prosesində şey mümkünlüyünün potensiallığından aşkarlanır, nəinki aktuallığından. Buradan da, *Corc Berkli* yanlış olaraq belə qənaətə gəlir ki, "ruhdan və ya qavrayandan başqa substansiya yoxdur". Əslində ruh

aktuallaşmış şeydə olan substansiyanı yox, şeydə aktual mövcud olmayan, amma onda potensiya kimi saxlanan substansiyanın əksiliyi kimi şeyin substansiyasını dolayısı ilə ondan idrak edir, bu isə *C. Berklidə* belə bir fikir yaradır ki, əgər ruh şeydə bilavasitə olmayan substansiyanı dərk edirsə, deməli, idrak prosesində ruhdan başqa digər substansiya iştirak etmir. Deməli, konkret şey mövcud deyildir.

İmkan – zərurətə görə aktuallaşmış elə mümkünlükdür ki, uyğun şərtlərdə aktuallaşmaması qeyri-mümkünlükdür. Zərurətə görə aktuallaşma – mövcudolma – potensiallığın inkarı kimi, ən sadə, birincili və ən ümumi mümkünlüyün imkanıdır, hansı ki uyğun şərtlərdə bütün digər imkanlardan əvvəl, ilk növbədə, təxirəsalınmaz qaydada, spontan və avtonom aktuallaşır. Mümkünlüyün digər imkanları bundan fərqli olaraq, mürəkkəb, ikincili və başlanğıc imkanla şərtlənmiş şəkildə xüsusidirlər, hansı ki yalnız xüsusi şərtlərdə aktuallaşır. Aktuallaşma şərtlərinin sayı və mürəkkəbliyinə görə şeyin potensial mümkünlüyünün imkanları birbirinə münasibətdə daxili iyerarxiya təşkil edir və bu iyerarxiyaya görə hər bir imkan özündən əvvəlki imkan aktuallaşmadıqca aktuallaşmır. Məsələn, cisim digər mövcudluq sıralarına münasibətdə məkanın istənilən yerində aktuallaşmış və ya aktuallaşa biləcək sadə mümkünlükdür. Ona görə də, yaranışda öncə cisim təzahür edir. Canlılıq ikincili mümkünlük kimi cisim olmadan bilavasitə aktuallaşa bilmir. Canlılıq cismə görə ikincili və mürəkkəb imkandır, buna görə də cisimlərdən çox sonra və xüsusi şərtlərdə və, təcrübədən göründüyü kimi, ancaq digər planetlərdən özündə olan şərtlərə görə kəskin fərqlənən Yer kürəsində, həm də cisimlərdən şərtlənmiş şəkildə yaranır.

Ruh xalis mümkünlükdür. Ruhun mövcudluğu daha mürəkkəb şərtlər tələb etdiyindən, Yerdə belə şərtlər imkansız olduğundan, ruhun bilavasitə mövcudluğu – faktı birbaşa təzahür etmir, yəni müstəqil ruhi mövcudolma meydana çıxmır, biz Ruhu yalnız onun digər mövcudluqlara – cismə və cana münasibətindən, ona münasibət kimi aşkarlayırıq. Mövcudluqların ayrı-ayrı formalarının çoxlu sayda fərqliliklərə ayrılması, müm-

kün varlığın eyni bir mümkünlüyünün imkandan asılılığını özündə ifadə edir. Yəni imkan dəyişdikcə eyni bir mümkünlük fərqli formalarda aktuallaşır. Buradan da, müxtəliflik meydana çıxır. Məsələn, canlılığın mümkünlüyündən çoxlu sayda canlı növlərinin əmələ gəlməsi kimi.

Təbiətdə hər bir şey özündə yalnız mümkünlüyün bir imkanı kimi aktuallaşdığından, reallıq statusuna malik təbii şeylər üçün birtəbiətlilik, nizamlılıq, yəni özündə yalnız eyni vaxtda bir qanunauyğunluğa tabe olmaq xarakterikdir. Canlılar cisimlə şərtləndiyindən həm onların qanunlarına, həm də özlərinin xüsusi qanunlarına tabe olurlar. Belə ikili tabeçilikdə bir qanunauyğunluqlar digər qanunauyğunluqlara təsir edərək onlarda fərqlilik yaradır. Buna görə də, canlılarda fiziki qanunlar dəyişilmiş şəkildə təzahür edir. Canın aktuallığı keçici aktuallıqdır və zamanla şərtlənmişdir. Ruh cisim və canla ikiqat şərtlənmə kimi yaranır, bilavasitəlikdən və birincili şərtlənmədən məhrum olduğundan, cisim və candan şərtlənmiş şəkildə təzahür etdiyindən, canın keçici aktuallığından şərtləndiyindən aktuallıqdan məhrumdur, xalis potensiya kimi, sonsuz təbiətli və ya xaotikdir. Bununla da, Ruh xalis mümkünlük kimi, yəni mümkünlüyün bütün imkanlarına malik aktuallaşmamış varlıq kimi, təbii varlıqlardan mövcudluq üsuluna görə fərqlənir. Bu fərqə görə, heç bir təbii şey Ruhda birbaşa bərabər tərəf kimi refleksiya etmir. Şeyin təfəkkürdə refleksiyası üçün onun potensial varlığının (mümkünlüyünün imkanının) aktivləşməsi tələb olunur. Potensial varlığın aktivləşməsi isə yalnız metafizik təsirlərlə – yəni özündə eyni vaxtda müxtəlif qanunauyğunluqlara tabe olan təsirlərlə mümkün olur. Belə təsirlər obyektiv gerçəklikdə ayrıca bir təsir kimi şeyin mümkünlüyünün imkanına uyğun əks olunaraq təfəkkürə ötürülür. Məsələn, ağ işıq olmadıqca heç bir şeyin xarici görüntüsü yaranmır. Bütün şeylər eyni bir mürəkkəb ağ işıqla işıqlanır, amma şeylər işıqlanmada müxtəlif xarici görüntülər təzahür etdirir. Buradan da demək olar ki, şeyin idrak olunan tərəfləri məhz metafizik təsirə uyğun tərəfidir – potensial təsir eyni vaxtda nə qədər çox qanunauyğunluğa tabe olursa, onun nizamı bir o qədər xaosa keçir, hansı ki ruhun təbiəti ilə ey-

niyyət təşkil edir. Yəni idrak elə işləyir ki, əvvəl metafizik təsirlər obyektə təsir edərək onu öz təbiiliyindən, təktəbiətliliyindən – "özündə şey"liyindən onun potensial mümkünlüyünü çıxarır, onu xaosa salır, sonra həmin mümkünlük yenə də metafizik təsirlər vasitəsi ilə təfəkkürə daşınır və daxildə, təfəkkürdə xarici şeyin mümkünlük imkanı ilə ruhun mümkünlüyü müqayisə olunur və konkret şeydə qalan substansiya şeyin potensial mümkünlüyü ilə ruhun xalis mümkünlüyünün fərqi kimi aşkarlanır.

Təbiətdə hər bir hissi qavranılan maddi gerçəklik hissiyyatla şeyin – maddənin vəhdəti kimi idraka təqdim olunur. İdrak prosesində hissi qavrama ilə gerçəkliyi özündə təqdim edən şey hissiyyatından ayrılır. Maddi şey təbiət sferasında qalmaqda davam edir, təsir isə gerçək aləmdən metafizik aləmə – subyektin daxili aləminə – daxil olur və özünə əks-təsir kimi hissiyyatı yaradır. Hissiyyat canın cismin xarici təsirinə əks təsir forması kimi meydana çıxır. Cisimlərdən fərqli olaraq canlılarda əks təsir iki istiqamətə yönəlir: birincisi, xaricə – bilavasitə təsirə əks istiqamətə, ikincisi, daxilə – özündə olan Ruh istiqamətində. Ruh istiqamətində ötürülən təsir təfəkkürdə müxtəlif metafizik anlayışların yaranmasını stimullaşdırır. Buradan da, demək olar ki, şeylərlə hissiyyat bir-birindən ayrılandır və onların əlaqələnməsinə uyğun müxtəlif statuslu anlayışlar meydana çıxır. Biz hissiyyatla şeyin əlaqəsinə görə üç müxtəlif statuslu anlayış aşkar edirik:

Fenomen: Təcrübədə idraka hissiyyatla vəhdətdə təqdim olunan, reallıq statusuna malik bütün gerçək şeyləri özündə ifadə edən ən ümumi anlayışdır. Belə şeylər hissi qavranılan həqiqi dünyanı və ya fiziki dünyanı təşkil edirlər.

Noumen: Təcrübədən kənar hissiyyatla vəhdətdən çıxarılmış şəkildə idraka təqdim edilən hər nəsə noumenləri təşkil edir. Noumenlər metafizik statuslu obyektləri – fikrən varlıqları ən ümumi şəkildə ifadə edən anlayışdır.

Prafenomen: Şeysiz xalis hissiyyatları biz prafenomen kimi təyin edə bilərik. Prafenomenlər özü-özündə iki qrupa ayırmaq olar: a. İrreallıq statusuna malik obyektləri ifadə edən prafenomenlər məsələn, ilğım, hallüsinasiya və s.; b. Gerçək aləmlə metafizikanın vəhdətini özündə təqdim edən obyektləri özündə ifadə edən prafenomenlər: bura Ruha aid hisslər – məhəbbət, dostluq və s. aiddir. Məsələn, dostluq hissi hər hansı bir şeylə birlikdə idraka təqdim edilmədiyindən, şeysiz hissiyyat kimi mövcuddur. Prafenomenlər ya ruhdan meydana çıxan hissiyyatlar kimi, ya da Varlıq aləmindən fikrən aşkarlanan ayrı-ayrı xalis hisslərdən ibarət hissəciklər kimi mövcuddur. Buradan da məlum olur ki, dostluq, məhəbbət həm də hissəcik təbiətlidir. Xalis hissiyyat olduğundan prafenomenlər "tamamilə intelligibeldir" (anlaşılandır), yəni prafenomenlər eyni zamanda həm vasitə, həm məqsəddir, yəni həm özlərində həqiqəti təqdim edirlər və eyni zamanda təqdim etdikləri həqiqətin aşkarlanmasında vasitə kimi çıxış edirlər. Analogiya kimi işığı götürmək olar. Təbiətdə hər şey işıqla işıqlanmaqla xarici görüntü əldə edir. Əgər fikrən təbiətdə olan hər şeyi idrak sferasından kənarlaşdırsaq, onda işıqlanmada işıq yalnız özünün xarici görüntüsünü təqdim etmiş olacaq. Bu zaman işıq özü həm təqdim olunan "şey", həm də hissiyyat yaradan təsir kimi çıxış edəcək. İşığın belə rol oynaması onun ikili təbiəti ilə bağlıdır. Yəni işığın hissəcik təbiəti təsir kimi, dalğa təbiəti həqiqət kimi çıxış edir. Prafenomenlər də işığın təbiətinə oxşar təbiətlidir, amma metafizik statuslarına görə işıqdan onunla fərqlənirlər ki, işığın mənbəyi özündən kənardadır, prafenomenlərin isə mənbəyi özündədir. Məsələn, ilahi Nur mənbəyi özündə olan işıqdır. Buradan da, prafenomenlərin həqiqətlərini bilavasitə İlahi Nura münasibətdə aşkarlamaq olar.

Ruhi prafenomenlərin "şey" təbiəti şəxsiyyət kimi təzahür edir. Şəxsiyyət – fərddən fərqli olaraq, bədənlə vəhdət təşkil etməyən xalis "Mən"dir.

Haşiyə: *Ditrix fon Qildebrand*, "Məhəbbətin metafizikası"

"Şəxsiyyətin vahidliyi məhəbbətin mənbəyi və səbəbi deyildir, amma bir qayda olaraq, məhəbbətin nəticəsi, onun nailiyyətidir."

D. fon Qildebrandın fikrindən çıxış edib demək olar ki, bilavasitə İlahi Nurla əlaqəli olan prafenomenlərin məcmusu Ruhi mümkünlüyü – şəxsiyyətin vəhdətiyyətini təşkil edir. Prafenomenlər "mövcudluqda nəsə – nəsə tamamilə başqa şey" prinsipinə uyğun təyin oluna bilər. Yəni vəhdətiyyəti Ruh kimi meydana çıxan prafenomenlər, insanın mövcud varlığında olsa da, ondan tamamilə fərqli nəsədir.

Xalis hissiyyat – şeysiz hisslər mümkünlüyün – Ruhun təzahürüdür və buna görə də konkret mövcud şeylə vəhdət təşkil etmirlər. Məsələn, dostluq, məhəbbət, ədalət, azadlıq və s. kimi insani hisslər özlərində heç bir şeyi idraka təqdim etmir. Biz prafenomenləri metafizik statuslu təsirlər kimi təyin edirik, hansı ki məhz belə təsirlərə görə insanlar bütün digər canlılardan fərqli fəaliyyət və qabiliyyətə malik olurlar. Metafizik təsirlərə həm də idrakı stimullaşdıran həqiqət hissi, yəni azad xalis zəkadan, İlahi Ağıldan – Mahiyyətin varlığından – yaranan hiss aiddir. Məhz İlahi Ağlın təsiri altında Ruh həqiqəti sürəkli idrak vəziyyətində olur.

Haşiyə: *Ditrix fon Qildebrand*, "Kommunikasiyanın metafizikası"

"Eqoistik spazmlardan xilas olmaq kimi, hər bir ayrıca adamın özünü yalnız tamın xüsusi momenti kimi hiss etdiyi etos (xalq) müasir dövrün eqosentrizmindən çıxışdır. Bu zaman unudurlar ki, fərd ruhi mövqedən imtina etdikdə, hansı ki şəxsiyyət kimi yalnız hüququ yoxdur, həm də bununla məşğul olmağa borcludur, şəxsi həyat səviyyəsindən də aşağı düşmək olar, xalis vitallıqda əsaslanmış, "ictimailəşmiş şüura" enmək olar. Unudurlar ki, hər bir ayrıca ruh özündə, istənilən yer birliyinin xüsusi dəyərlərinə sonsuz üstünlük edən dəyər təqdim edir, və hər şeydən öncə unudurlar ki, insan eqoistik spazmlardan yalnız Allaha və yaxınlarına sədaqətlə xilas olur."

D. fon Qildebrandın fikirləri də təsdiq edir ki, prafenomenlər ilk növbədə Allaha sədaqət, yəni İlahi Ağılla – yer birliklərinin hər hansı birinin "ictimailəşmiş şüur"undan daha ali dəyərlərə malik ağılla – əlaqələnmək-

lə insan şəxsiyyətinin vahidliyini təqdim edir, hansı ki bütün insanlarda Ruh kimi birdir və yalnız Allaha sədaqətə görə fərdlərdən fərqli təzahür edir.

METAFİZİK STATUSLU OBYEKTLƏRİN ZƏRURİLİYİ

Zərurilik həqiqətin elə vəziyyətidir ki, həmin vəziyyətdə həqiqət aydınlaşmaya bilmir. Gerçək aləmdə zəruriliyi mümkünlüyün bilavasitə, ən sadə, ilkin, spontan və avtonom aktuallaşdığı imkan kimi təyin etmişdik. Yəni, mümkünlüyün birinci imkanının mütləq hansısa formada aktuallaşması özündə zərurətə görə mövcudluğu təqdim edir. Eləcə də, metafizik həqiqətlərin birinci, ən sadə imkanının mütləq aydınlaşma imkanı metafizik anlayışların zərurətə görə varlığını özündə təqdim edir. Metafizik statuslu obyektlərin zəruriliyi mümkünlüyün təfəkkürdə bilavasitə, ən sadə, birincili, spontan və avtonom refleksiyası kimi aşkarlanır. Buradan da, metafizik obyektlərin insan iradəsindən asılı olmadan, təfəkkürdə öz-özünə aşkarlandığı məlum olur. Buna görə də insanlıq yaranan andan şüurun ilk təzahürlərindən metafizik statuslu obyektlər haqqında ən ilkin təsəvvürlər mövcud olmuşdur. Buradan da belə nəticəyə gələ bilərik ki, təfəkkürdə hissi qavramadan kənar, avtonom və spontan, özü-özünə refleksiya edən metafizik anlayışlar zərurətə görə aşkarlanan anlayışlardır, hansı ki insan sadəcə belə anlayışları şərh və izhar etməyə məcburdur. Biz metafizik statuslu obyektlərin insan iradəsindən kənar təfəkkürdə aşkarlanmasını metafizik statuslu obyektlərin zərurətə görə varlığı kimi təyin edirik. Məsələn, Allah anlayışı insan iradəsindən asılı olmadan, idrakın səviyyəsindən asılı olaraq, tarixin başlanğıcından ən müxtəlif formalarda aşkarlanmağa başlamışdır. Hətta biz bu gün tam əminliklə deyə bilmərik ki, metafizik statuslu obyektlər düşünən Məni, yoxsa düşünən Mən metafizik obyektləri təzahür etdirmişdir. Başqa sözlə, metafizik statuslu obyektlərin zəruriliyi ilə bağlı sual belə qoyulmalıdır: insanın düşünməyə başlaması özünü fiziki varlıq kimi – fiziki Mən kimi – düşünməsindən, yoxsa

metafizik varlıq kimi – subyekt kimi, mənəvi Mən kimi düşünməsindən başlamışdır?

Metafizikanın predmetləri təcrübədən bilavasitə hissi qavranılmadığından, yalnız mücərrəd formada – anlayışlar formasında bizə məlum ola bilər. Metafizik anlayışlar empirik anlayışlardan kəskin fərqləndiyindən, idrakın digər formalarının istifadə etdiyi anlayışlarla metafizikanın suallarına cavab vermək mümkün deyildir.

Haşiyə: *İ. Kant*, "Xalis zəkanın tənqidi"

"Transsendental analitika bizim bütün aprior bilikləri xalis mühakimə biliklərinin başlanğıclarına bölməkdir. Bu zaman aşağıdakıları nəzərə almaq lazımdır: 1. Anlayışlar empirik yox, xalis olmalıdır; 2. Onlar düşüncəyə və mühakiməyə aid olmalıdır, nəinki seyrə və hissiyyata; 3. Onlar başlanğıc anlayışlar olmalıdır, ondan ötəri ki, onları yaradılan və ya anlayışların onlardan tərtib olunmasını fərqləndirmək mümkün olsun; 4. Onların cədvəli tam olmalıdır və onlar xalis mühakimənin bütün sferasını doldurmalıdır."

Biz *Kantın* bu fikirlərindəki metafizik anlayışlarla bağlı qoyduğu tələbləri metafizik statuslu obyektlərin zəruriliyinin tələbləri kimi təyin edirik. Beləliklə, *Kantın* fikirlərindən göründüyü kimi, metafizik obyekt kimi çıxış edən anlayışlar aşağıdakı tələblərə cavab verməlidir:

Özü-özündə obyekt statusuna malik olmaq: Empirik anlayış hər hansı təcrübi obyektlə – özü-özündə obyekt olanla uyğunluq təşkil edir və empirik anlayışın mənası özündən kənarda, xarici özündə-şeyin mahiyyətindən çıxarılır. Belə anlayışlar özü-özündə obyekt statusuna malik olanın mənasını ifadə etdiyindən onunla şərtlənmişdir və özünün belə bir statusu istisna olunur. Empirik anlayışların mənaları özündə olmadığından boş anlayışlar kimi, yəni xalis forma kimi təyin etmək olar. Metafizik anlayış özü-özündə obyekt statusuna malik olmayan obyektləri ifadə etdiyindən heç bir xarici şeylə uyğunluq təşkil etmir və mənası özündə olduğundan və özü-özü ilə şərtləndiyindən özü-özündə obyekt statusunda çıxış edir. Yəni "Allah" anlayışı həm özü-özündə obyekt kimi Allahı,

həm də metafizik statuslu obyekt kimi Allahın mənasını eyni vaxtda özündə təqdim edir. Başqa sözlə, Allah anlayışının mövcudluğu, Allahın mövcudluğu ilə eyniyyət təşkil edir, yəni Allah anlayışı mövcud olduğundan, deməli, Allah da mövcuddur. Belə anlayışlar dolu anlayışlardır. Məhz mənası özündə olduğundan, empirik anlayışlardan fərqli olaraq, belə anlayışlar həm də eyni zamanda özü-özündə "obyekt" statusunda çıxış edirlər. Özü obyekt rolunda çıxış etdiyindən, belə anlayışlar xarici şeyə və ya onların insanda yaratdığı hissiyyata aid olmurlar. Onlar yalnız özü-özünə aid olurlar. Burada, özü-özünə aid olmaq, mövcudluğun xarici özündə-şeyliyinə uyğun varlığı – olmaqlığı özündə təqdim edir.

Özündə sonluluq saxlamamaq: Metafizik anlayışlar təcrübədən kənar aprior əldə edildiyindən, təcrübi biliklərə münasibətdə başlanğıc anlayışlardır, hansı ki empirik anlayışlar ya onlarla izah edilir, ya da onlardan tərtib olunur. Özləri başlanğıc anlayışlar olduğundan özlərinin başlanğıcları yoxdur. Yəni özlərində sonluluq saxlamır. Buradan da, başlanğıcların başlanğıcı kimi aşkarlanırlar.

Universal olmaq: Metafizik anlayışlar ruhun özündən yaradıldığından, yəni onun "materiyası"nı ağıl təşkil etdiyindən, mühakimə prosesində ümumi ağılla birlikdə mühakimə sahəsini tam doldurur. Amma empirik anlayışların "materiyası" hissiyyatdan ibarət olduğundan, hissiyyat fərqlilik xarakteristikasına malik olduğundan, mühakimə prosesində ağılla tam qarışmır və mühakimə sferasının yalnız məhdud sahəsində özünə yer tutur. Yəni xüsusi empirik bilgilərin əldə edilməsində iştirak edir. Metafizik anlayışlar isə hissiyyatla qarışmadığından, istənilən bilginin əldə edilməsində universal vasitə kimi istifadə olunur. Başqa sözlə, mühakimə prosesində əldə edilən istənilən bilik metafizik obyektlərin qurulmasından, metafizik anlayışların sıralanmasından əldə edilir. Bu sıralanmanın qanunauyğunluqlarını öyrənən məntiqi *Kant* transsendental məntiq kimi təyin etmişdir.

NOUMENLƏRİN METAFİZİK TƏYİNİ

Hər bir xarici şey mümkünlüyün bir imkanı kimi "özü-özünü düşünən" varlıq kimi, insan isə həm də ruha malik olduğundan, xalis mümkünlük kimi – həm "özü-özünü düşünən", həm də "başqalarını düşünən varlıq" kimi mövcuddur. Burada "başqaları" sözü Ruhun mümkünlüklərinin daxili vəhdət təşkil edən bütün imkanlarına münasibəti ifadə edir, hansı ki gerçəklik aləmində bütün imkanlar bir-biri ilə xarici vəhdətdə mövcud olur. "Başqalarını düşünmək" başqalarına münasibətdə kənarda olmağı özündə ifadə edir. Beləliklə, insan bir tərəfdən fiziki bədəninə görə real mövcudluq kimi onlarla eyniyyət təşkil edən "özü-özünü düşünən"dir, həm də "başqasını düşünən" kimi, o cümlədən, tam təbiəti düşünən kimi, ondan kənardadır. Biz, şeylərin "özü-özünü düşünməsini" mahiyyət, insanın təbiətdən kənarda olan və buna görə də tam kimi təbiəti düşünən tərəfini isə şüur adlandırırıq. Buradan da, tək kimi şüur sonsuz çoxluqda bütün şeylərin mahiyyəti ilə eynilik təşkil etdiyindən, şüurun materiyaya münasibətində, şüurla bütün mahiyyətlərin qavranılmasının mümkünlüyü təkcə kimi aşkarlanır. Fərdi əbədi şeylərin mahiyyəti birtəbiətli olduğundan, onun "şüuru" yalnız özü-özündə öz nizamını sürəkli olaraq dərk etməkdən, yəni özündə bəlli bir qanunla mövcudluğunu davam etdirməkdən ibarətdir. Ruh xaotik təbiətli olduğundan, özünün tabe olduğu bəlli bir qanunauyğunluğu olmadığından, bundan fərqli olaraq, təsadüfə görə, istənilən şeyin həqiqətini düşünmək imkanına malikdir. Şüurun materiyaya münasibəti "özü-özünü düşünənlə" "başqasını düşünənin" münasibətini təqdim edir. "Özü-özünü düşünənlə" "başqasını düşünən"in vəhdətindən "düşünən mən" meydana çıxır, hansı ki Ruhun mahiyyətidir.

Beləliklə, Ruh "düşünən mən" kimi təbiət sferasına aid olmadığından, metafizikdir və özü-özündə təbiətin sərhədlərindən kənara çıxır, hissi qavrama olmadan qeyri-hissi və qeyri-maddi qavramaya cəhd edir, həm də "başqasını düşünən" kimi təbiətlə metafizika arasında mövcud varlıqların bilgisindən dolayısı yolla təbiətdən kənara çıxır. Hər iki halda

şüur metafizik predmetlərin köməyinə müraciət edir. Biz burada metafizik predmetləri başqa ad vermədən *Kantın* təklif etdiyi terminlə noumen kimi adlandırırıq.

Haşiyə: *İ. Kant*, "Xalis zəkanın tənqidi"

"Noumen anlayışı, yəni şeylər, hansı ki hissi predmet kimi yox, özü-özündə (istisnasız olaraq xalis zəkanın vasitəsi ilə) mövcud olan şey kimi düşünülməlidir, özündə heç bir ziddiyyət saxlamır, beləliklə, hissiyyatlılığı haqqında təsdiq etmək olmaz, elə bil onlar seyrin yeganə mümkün üsuludur. Noumen anlayışı hissiyyata iddialılığı məhdudlaşdırmağa xidmət edən və buna görə də neqativ tətbiq olunan demarkasiya anlayışıdır. Buna görə də predmetləri fenomen və noumenə, dünyanı isə – hissi qavranılan və ağılla çatılana ayırmaq müsbət mənada yol verilməzdir, baxmayaraq ki, anlayışlar hissi və intellektual bölgü aparmağa imkan verir."

Beləliklə, noumenlər də fenomenlər kimi "şey"dir, amma onlardan fərqli olaraq hissi predmet kimi yox, buna görə də təbiətdə yox, insan təfəkküründə saxlanılan özü-özündə obyektdir. Burada "təfəkkürdə saxlanılma" ifadəsi özündə-şeyin yalnız düşüncədə aşkarlanmasını təqdim edir. Yəni, noumenlər mövcudolması olmayan mövcudluqdurlar, xalis faktdırlar. Heyvanlarda ruh olmadığından onlar hisslə şeyi bir tam kimi qəbul edir – hisslə predmeti eyniləşdirirlər. Nəticədə, noumenlərə malik olmurlar. İnsan isə fikrən hisslə şeyi bir-birindən ayırdığına görə noumenlərə malik olur, hansı ki bunsuz idrak mümkün olmur. *İ. Kantın* fikirlərini əsas götürərək biz, noumenləri fenomendən fərqli olaraq şey kimi özü-özündə olmaqlıqdan fərqli olaraq, yalnız zəkanın vasitəsi ilə özü-özündə olan, qeyri-hissi, özündə heç bir ziddiyyət saxlamayan, buna görə də mümkünlük sferasına daxil olan şeyləri ifadə edən, formaca anlayış, mahiyyətcə obyekt kimi təyin edirik. Noumenlər bu xarakteristikalarına görə fenomenlərə münasibətdə təbiətdən kənardadır, yəni metafizikdir. Beləliklə, əgər "düşünən mən"dən kənar predmetlər fenomen kimi mövcuddursa, onda "özü-özündə düşünən"dən kənarda, yəni xarici şeylərdən

kənarda və "düşünən mən"də olan predmetlər məhz noumen kimi mövcuddur.

NOUMENLƏRİN YARANMASI

Metafizik anlayışlar necə və haradan əldə edilir, yəni onlar necə yaranır və harada saxlanılır? Fəlsəfədə biliyin əldə edilməsi – obyektlə subyektin uyğunluğu kimi təyin edilmişdir. Beləliklə, istənilən bilik bir tərəfdən obyektdən, yəni təcrübədən çıxarılan ideyalardan, digər tərəfdən həmin ideyalarla üst-üstə düşən və subyektin özündən çıxan ideyalardan ibarət olur. Ona görə də, istənilən həqiqi bilikdə təcrübə ilə heç bir əlaqəsi olmayan, başlanğıcı subyekt olan və subyektin özündən qurulan və təcrübi anlayışları əlaqələndirmək və ya onların sıralanmasından mənanın çıxarılmasına xidmət edən elə anlayışlara rast gəlmək olar ki, həmin anlayışlar empirik anlayışlara qoyulmuş tələblərin heç birinə tam cavab vermir. Belə anlayışlar metafizik anlayışlar – noumenlər kimi mövcuddur.

Bəs noumenlər necə yaranır? İdrak subyektə xas olduğundan, sağlam ağlın idrakı ilə bağlı hər şey subyektə münasibətdə həqiqətdir. Bu baxımdan həqiqətin meyarı təcrübə yox, subyektdir, yəni ağıldır və obyektin reallığı subyektin idrak edə biləcəyi qədər gerçəkdir. Həqiqətin meyarı kimi ağıl özü-özündə strukturlaşaraq elə həqiqətləri aşkarlayır ki, belə həqiqətlər xarici hissi predmetlərin təsirindən fərqlənir. Məhz xalis zəkanın özü-özünün nizamlanmasından əmələ gələn həqiqətləri özündə təqdim edən anlayışları biz noumenlər kimi təyin edirik. Bir qayda olaraq, subyekt gerçək aləmdə həqiqətin nisbiləşməsindən onun mütləqliyinə çatmaq üçün cəhd edir və bu zaman təcrübəni dəf edərək metafizikaya daxil olmağa məcbur olur. Metafizikada isə sonrakı idrak prosesi xalis metafizik statuslu obyektlərin iştirakı ilə davam etdirilir.

Metafizikanın idrakında iştirakçı metafizik statuslu obyektlər, *İ. Kanta* görə, xalis mühakimə anlayışları, aşağıdakı mənbələrdən əldə edilir:

Düşüncənin spontanlığından: Empirik düşüncə empirik predmetlərin simvolları (onların adları və ya təzahürləri) əsasında və bu zaman xa-

rici hissi təsir edən predmetlərin – fenomenlərin – vasitəsi ilə, onların məntiqə uyğun sıralanmasına müvafiq aparılır. Spontan düşüncə – xarici hissi təsir olmadan, təfəkkürün özü-özündə xalis zəkadan mücərrəd obyektlərin yaradılması və onların məntiqi yaradılma ardıcıllığına uyğun baş verir. Beləliklə, qeyri-hissi, qeyri-maddi qavrama prosesində spontan düşüncənin aktuallaşmasına kömək edən obyektlər noumenlər kimi çıxış edir. Spontan düşüncənin klassik forması kimi nəzəriyyələri müəyyən etmək olar və heç bir nəzəriyyədə noumensiz mühakimə baş vermir. Düşüncənin spontanlığından yaranan noumenlərin həm forması, həm mahiyyəti xalis zəkadan çıxır.

Mühakimənin ümumiliyindən: Bu yolla əldə edilən noumenlərə təcrübi düşüncə predmetlərinin sırasından və ya növündən həqiqətin aşkarlanması üçün yaradılan noumenlər aiddir. Bunların klassik forması kateqoriyalardır. Kateqoriyalar varlığın hər hansı bir sırasından ümumi həqiqəti qavramaq üçün xalis zəkada yaranan noumenlərdir. Məsələn, məkan və ya zaman. Məkan və zaman təcrübədə bilavasitə verilməsə də, idrak prosesində biz əbədi fərdi tək şeyləri yalnız məkan üzrə sıralamaqla və zaman üzrə ardıcıllıqla dərk edirik.

Mühakimələrin sonsuzluğundan: Sonsuz mühakimə konkret fenomenlərin mücərrədləşdirilməsi ilə əldə edilən noumenlər vasitəsi ilə reallaşır. Belə ki, hissi qavramanın təfəkkürdə davam etdirilməsi, yəni empirik bilikləri dərinləşdirmək, həqiqəti nisbilikdən azad etmək, onu mütləq həqiqətə doğru sonsuz inkişaf etdirmək üçün, xalis zəkada xüsusi növ noumenlər yaradılır. Belə noumenlərə elmi anlayışları, məsələn, güc, kütlə, yük, qüvvə və s. aid etmək olar. Mühakimələrin sonsuzluğu ilə subyekt sonlu gerçək aləmdən sonsuz metafizik aləmə keçir. Kvant fizikası, Nisbilik və Ehtimal nəzəriyyələri məhz mühakimənin sonsuz davam etdirilməsi ilə gerçək dünyanın sərhədlərindən çıxmağı və metafizikanın tabe olduğu qanunauyğunluqları aşkarlamağın klassik nümunələri kimi mövcuddur.

Müxtəlif sintetik təsəvvürlərin bir idrak aktında birləşdirilməsi kimi xalis sintezdən: Empirik təcrübədə sonsuz çoxluqda təzahür edən əbədi şeylər xüsusi sıralara, növlərə, cinslərə ayrılır və hər bir şey bir sintetik təsəvvürün yaradıcısı kimi meydana çıxır. Təcrübədə gerçək şeyləri bir yerə yığaraq onlardan ən ümumi və tam həqiqəti aşkarlamaq mümkünsüzlükdür. Lakin fikrən həmin şeylərin təsəvvürlərini bir anlayışa yığaraq, onlardan tam həqiqəti – metafizik həqiqəti aşkarlaya bilərik. Məhz bu yolla yaranan obyektlər noumenlər kimi mövcuddur. Bu üsulla sonsuz sayda fərdi şeylər növlərə, cinslərə, sonsuz çoxluqlar sonlu təklərə çevrilir, bununla da ətrafın idrakı sadələşir. Məsələn, cisim anlayışı Kainatda mövcud olan bütün maddi, fərdi əbədi şeylərin hamısının məcmusunu özündə təqdim edir və cisim anlayışı əsasında apardığımız mühakimə ilə istənilən cismi qiyabi olaraq idrak etmiş oluruq. Beləliklə, cisim anlayışı müxtəlif sintetik təsəvvürlərin – bərk maddələrin, mayelərin, qazların təsəvvürlərinin bir idrak aktında – ümumiləşdirmədə birləşdirilməsi ilə – xalis sintezdən əldə edilən metafizik noumendir. Cisim bütün hissi qavranılan hər şeydir, eyni zamanda ayrılıqda götürülmüş tək bir şeydir. Buradan da, cisim anlayışının özündə eyni vaxtda həm ümumi, həm fərdi mənalara malik olduğu aşkarlanır, hansı ki təbiətdə yalnız birmənalı anlayışlarla ifadə olunanlar reallığı təşkil edir.

Transsendental deduksiyadan – təcrübənin mümkünlüyünün prinsiplərindən: Bu cür noumenlər bilavasitə mahiyyətlə formanın vəhdəti kimi mövcudluqlardan yox, onların xalis varlıq təyinindən və ya *Kantın* adlandırdığı kimi, mümkünlüyün varlığından, yəni yalnız formadan fikrən qoparılmış mahiyyətlərindən əldə edilir. Transsendental deduksiya təcrübədə mövcudluğun forma və mahiyyətə parçalanmasından və fikrən ayrılıqda götürülmüş mahiyyət əsasında mühakimə aparmağı özündə təqdim edir. Mümkünlüyün varlığı mütləq təsadüfə görə özündə varlıqdır və ağılla çatıla biləcək istənilən mümkün sıra ilə bağlı yaranan metafizik predmetlər belə noumenlərə aiddir. Allah, mental aləmi təşkil edən obyektlər məhz belə yaranır. Belə noumenlərin əldə edilməsi üsulu

kimi *Kant* deduksiyanın prinsipini, anlayışların əlaqəsini; appersepsiyanın başlanğıc sintetik birliyini – özünüdərki, yəni düşünən məni göstərir. Deduksiyanın prinsipi ilə biz noumenləri ya fenomeni hissi təsirdən fikrən ayırmaqla, ya təzahürləri bir-birindən ayırmaqla, ya da hissi analizatorların qavrayışını vəhdətdən çıxarmaqla əldə edə bilərik. Birinci üsulla, biz özündə-şey (aktuallaşmamış fakt) əldə edirik, hansı ki onun təfəkküründə birbaşa və avtonom və spontan refleksiyasından sintetik sözlər – adlar yaranmışdır, istənilən sintetik ad özündə-şey kimi metafizik obyekt kimi mövcuddur. İkinci üsulla anlayışların əlaqəsindən əldə edilən noumenlərə varlıqların bir-birinə münasibətini ifadə edən noumenlər aiddir. Bura eynilik, oxşarlıq və fərqlilik kimi anlayışlar aiddir. Məsələn, bütün ağ rəngli şeylər rənginə görə eynilik təşkil edir. Buradan da, ağ rəng fikrən ayrılıqda götürülmüş sonsuz çoxluqda mövcud olan şeylərin tək bir təzahürüdür. Bu cür noumenlər dünyanı bir tam kimi dərk etməyə imkan verir, hansı ki özündə ən ümumi həqiqəti aydınlaşdırır. Üçüncü üsulla, Düşünən məndən əldə edilən noumenlər bilavasitə subyekti xarakterizə edən noumenlərdir. Belə noumenlər bədəndən ayrılmış mən kimi mövcuddurlar. Bura mən, sən, o, şəxsiyyət və s. kimi noumenləri aid edə bilərik. Düşünən Məndən əldə edilən noumenlərin yaranmasında hissi analizatorlar iştirak etmir. Yəni Mən özümü gördüyümə, eşitdiyimə, taktil hissimə və s. görə yox, yalnız düşünən varlıq kimi idrak edirəm, hansı ki obyekt-subyekt əlaqəsini ifadə etmək və idrakın harada, necə baş verməsini müəyyənləşdirmək üçün istifadə olunur. Əgər belə olmasaydı, onda heyvanların da Məni olardı.

Biz *Kantın* noumenlərlə bağlı fikirlərini əsas götürməklə, metafizik anlayışların – noumenlərin – yaranma yollarının aşağıdakı növlərini müəyyən edə bilərik:

1. **Qarışıq anlayışların bir-birindən ayrılması:** Bir qayda olaraq, insan düşüncəsi empirik və metafizik anlayışların birgə iştirakı ilə aktuallaşır. İstənilən əqli nəticədən empirik anlayışları fikrən çıxarsaq,

yerdə qalan anlayışlar metafizik anlayışlar – noumenlər kimi qalacaqdır.

2. **Empirik anlayışların bir-biri ilə əlaqələndirilməsi:** Empirik anlayışları mühakimə aktında bir-biri ilə əlaqələndirmək üçün ağlın özü tərəfindən mühakiməyə daxil edilən anlayışlar kimi. Belə anlayışlar xalis zəkada yaranır və sonra təcrübənin idrakında istifadə edilir.
3. Fenomenlərə münasibətdə noumenlərin əldə edilməsi: Bura aşağıdakılar aiddir:

a. **Təcrübədən nəzəriyyə ilə noumenlərin əldə edilməsi:** Bu, elmlərin nəzəri sahəsi ilə mümkün olur. Məsələn, fizikanın xüsusi bir sahəsi kimi kvant fizikası təcrübi bilikləri dərinləşdirməklə – nəzəriyyə ilə yaradılmışdır. Kvant fizikası xalis nəzəri yolla, fikrən atomun parçalanması ilə təbiətin sərhədlərindən çıxır və metafizikada ehtimallar kimi müxtəlif predmetlər kəşf edir. Belə predmetlər fizika elminin bir sahəsi kimi kvant fizikası tərəfindən müəyyənləşsə də, sırf nəzəri yolla və təbiətin sərhədlərindən – maddiliyin başa çatdığı nöqtədən o tərəfdə əldə edildiyindən, metafizik predmetlər və hadisələr kimi mövcuddur.

b. **Təcrübədən fikrən aparılan əməliyyatlarla noumenlərin əldə edilməsi:** Təbiətdə bütün reallıqlar fenomen kimi mövcuddur. Fenomen – reallığın təzahürləri nəticəsində bizim tərəfimizdən gerçəklik kimi qəbul edilən ikincili reallıqdır. Yəni biz yalnız ətraf aləmi fenomenlər kimi – reallıqların hissi təsirləri əsasında qavrayırıq. Halbuki özüözündə bizim qavradığımız fenomenlərdən fərqli reallıqlar kimi mövcuddur. Əgər biz fikrən hər hansı bir gerçəkliyin bütün təsirlərini – görüntüsünü, iyini, dadını, səslənməsini və taktil hissəsini – kənarlaşdırsaq, onda biz qeyri-hissi maddi varlıq haqqında anlayışı – noumeni almış oluruq, hansı ki əqli əməliyyatlar yalnız bu cür qeyri-hissi maddi varlıqlar – biz bunları ideal varlıqlar kimi də təyin edə bilərik – əsasında aparılır. Belə noumenlər xalis faktlardır, hansı ki aktuallaşmadığından heç bir təzahürə malik deyil və xalis ağıldan yaranır.

b. **Təcrübədənkənar fikrən aparılan əməliyyatlarla noumenlərin əldə edilməsi:** Biz hissi analizatorların köməyi ilə fenomenləri qavrayırıq. Əgər biz subyektin bütün hissi qavrama qabiliyyətlərini – görməsini, eşitməsini, iy, dad bilməsini və ya taktil hiss etməsini fikrən yox etsək, onda subyektin özü-özündə təfəkkürdən xalis şəkildə əldə etdiyi obyektlər noumen kimi meydana çıxacaq. Başqa sözlə, biz fenomenləri təzahürlərdən idrak etdiyimizin əksinə, noumenləri təzahürləri olmadığından, onları yalnız mahiyyətindən – xalis fikrindən aşkarlaya bilərik. Fenomenlərin ümumi əsası maddilik, noumenlərin əsası ağıldır. Fenomenlər forma ilə mahiyyətin vəhdətindən, noumenlər formasız xalis mahiyyətdən əldə edilir.

c. **Fenomenlərin parçalanmasına görə əldə edilən noumenlər:** Biz fenomenləri təzahürlərin məcmusu kimi dərk edirik. Hər bir fenomen beş hissi təsirin müxtəlif kombinasiyaları kimi mövcuddur. Təbiətdə yalnız siqnallar sadə tərkibli olub, bir ötürücü dalğa kimi mövcuddurlar. Məsələn, səs və ya işıq siqnalı. Siqnal özündə yalnız həqiqəti ən qısa şəkildə çatdırır və siqnaldan heç bir konkret predmeti aşkarlamaq mümkün deyildir. Əgər biz fikrən hissi təsirin təzahürlərini ayrı-ayrılıqda ayrıca bir varlıq kimi təsəvvür etsək, yəni bir predmetin təzahürünü ayrı-ayrı siqnal dalğalarına ayırsaq, onda əldə etdiyimiz hər bir anlayış özündə yalnız tək bir mütləq keyfiyyəti – təzahürü və ya əlaməti təqdim edər, hansı ki yaranış prosesində belə noumenlərin birləşməsi nəticəsində ayrı-ayrı təzahürlər vəhdətdə reallığın ümumi təzahürünü təmin edir, yəni noumenlərin məcmusu fenomeni özündə ifadə edir.

NOUMENLƏRİN NÖVLƏRİ

Noumenləri funksional statusuna görə dörd qrupa bölmək olar:

1. **Transsendental noumenlər – qavrama noumenləri:** İnsan necə ki, təcrübə sahəsindədir, təcrübəni bilavasitə dərk edə bilmir, o, təcrübəyə daxil olub hissi qavramadan sonra təcrübədən çıxmaqla həqiqəti

aşkarlayır. Bunun əksinə, hissi qavrayış fasiləsiz davam etdikcə idrak yalnız qavrayış mərhələsində qalır və özünün digər mərhələlərinə keçməklə həqiqəti dərk edə bilmir. Məsələn, tutaq ki, biz əlimizə dəyən isti bir predmetin istiliyini qavramaqda davam edirik. Buradan biz həmin predmet haqqında heç bir ideyaya malik ola bilmirik, yalnız istilik haqqında ən sadə ideya əldə edirik. Məsələn, "istidir", amma istidən onun predmetinin mahiyyətinin aşkarlanması üçün idrak sonrakı mərhələlərə keçməli və mürəkkəb əqli əməliyyatlarla istilik hissini yaradan predmetdə aydınlaşan həqiqəti aşkarlamağa cəhd etməlidir. Buna görə də, bir qayda olaraq, biz isti predmetə toxunduqdan sonra qavrayışdan obrazların, təsəvvürlərin yaranmasına, sonra yaddaşın iştirakı ilə assosiativ ideyaların yaranmasına keçirik və hissi təcrübədən bizə aydınlaşan həqiqəti idrak edirik. Beləliklə, insan idrak prosesində hissi qavramadan kənara çıxmaq üçün elə predmetlər əldə etməyə cəhd edir ki, onlar ona təcrübənin sərhədlərindən çıxmağa kömək etsin. Belə predmetləri biz təcrübədən çıxan transsendental noumenlər adlandırırıq. Transsendental və ya qavrama noumenlərinə o anlayışlar aiddir ki, hissi qavramada onlar birdəfəlik xarici predmetdən "çıxıb" şüura daxil olmaqla şeyin həqiqəti haqqında məlumatı təfəkkürə ötürürlər. Belə noumenlərə şeydə saxlanan, amma şeyə mənsub olmayan və idrak prosesində şüura keçən əhəmiyyətlər aiddir və şeyə aid olmadığından və onlardan kənara çıxdıqlarından metafizikdirlər. Transsendental noumenlərin əsas vəzifəsi məlumat daşımaqdan, təcrübə ilə metafizikanı bir-biri ilə əlaqələndirməkdən ibarətdir. Transsendental noumenlər təbiətdəki obyektlərdən fərqli olaraq fikrən varlıqlar, yəni konkret anlayışlar şəklində mövcud olurlar. İnsan belə noumenlərin köməyi ilə gerçək aləmdən metafizikaya və ya əksinə metafizikadan gerçək aləmə keçə bilir.

2. **Mühakimə noumenləri:** Təfəkkürün özü-özündə yaranan və təcrübədən çıxan noumenləri bir-biri ilə əlaqələndirib idrak etmək üçün əlverişli vəziyyətə gətirən noumenləri biz mühakimə noumenləri adlan-

dırırıq. Mühakimə noumenlərinin son mənası, yəni xalis mənası metafizik statuslu obyektlərin ən ümumi xarakteristikalarını özündə təqdim edir. Mühakimə prosesində insan təcrübi bilikləri elə dərinləşdirməyə cəhd edir ki, həmin biliklərin son sərhədinə çatsın və oradan metafizik bilgilərə keçə bilsin. Mühakimə noumenlərinə metafizik statusu müəyyənləşdirən anlayışlar kimi kateqoriyalar aiddir.

3. **Metafizikanı şərh edən idrakın başlanğıc noumenləri:** Gerçək aləmdə sonsuz çoxluqda olan müxtəlif şeylərin idrakında çoxlu sayda adlardan, anlayışlardan, kateqoriyalardan, ideyalardan, fikirlərdən, təsəvvürlərdən, obrazlardan istifadə edilir. Lakin metafizik aləm təklərdən və eyniliklərdən təşkil olunduğundan metafizik statusu şərh etmək üçün çox az sayda anlayış mövcuddur. Belə anlayışlar idrakın başlanğıcında meydana çıxaraq ümumiyyətlə elə belə idrakın başlanğıcını təşkil edirlər. Bununla da, metafizika ilə təbiətin sərhədində yaranan belə noumenlər bir tərəfdən metafizik aləmin idrakında, digər tərəfdən gerçək aləmin idrakının başlanmasında iştirak edir. İdrakın başlanğıc noumenləri metafizik statuslu obyektlərin dərk edilməsində iştirak edən ən sadə, ən birinci, ən ümumi, universal anlayışlardır. Metafizika təcrübənin başlanğıclarının başlanğıcını özündə təqdim etdiyindən, təcrübədə idrak prosesində aşkarlanan bütün ideyaların da başlanğıc anlayışları metafizik noumenlərdən ibarətdir. Belə noumenlərə var, yox, nəsə, heçlik və s. kimi anlayışlar aiddir. Bu cür noumenlərsiz idrakın başlanması mümkün deyil. Belə noumenlər bir tam kimi təcrübəni, subyekti, təcrübə ilə subyektin və metafizikanın ən ümumi əlaqələrini özündə ifadə edir.
4. **Həqiqətin başlanğıc noumenləri:** Həqiqətin başlanğıc noumenlərinə həqiqətin başlanğıcını təşkil edən metafizik statuslu obyektlər – mümkünlüyün totallıqları aiddir. Həqiqətin başlanğıcı o noumenlərdir ki, onların iştirakı olmadan ümumiyyətlə idrak boş və mənasız fəaliyyətə çevrilir, yəni yalnız heçlik haqqında mühakimə kimi meydana çıxır. Belə mühakimələr isə əqli nəticəyə gətirib çıxarmır. Belə nou-

menlər həqiqətdən əvvəl olduğundan hətta həqiqətin mütləq dərkində belə, həqiqət onlarda qurtardığından, idraka təqdim olunmur. Başlanğıc noumenlərə metafizik aləmi təşkil edən özü-özündə var olan (mövcud olan yox) obyektlər aiddir. Belə noumenlərin anlayışı ruhda, əhəmiyyəti metafizik aləmdə saxlanılır, buna görə də, bilavasitə idrak prosesindən yox, özü-özündə yaranmış amma idrak tərəfindən tutulan təbiətdən kənar predmetləri özlərində təqdim edirlər. Bura Varlıq, Kosmos, Ruh və Allah aiddir. Başlanğıc noumenlər birbaşa idraka təqdim edilmədiyindən biz onlar haqqında yalnız statusları ilə mühakimə apara bilərik.

A. Transendental Noumenlər

Transsendensiya – təcrübədən xalis zəkaya, o cümlədən, metafizik aləmə keçid – özündə ölçülülüyün dəyişilməsi kimi aktuallaşır. Təbii şeylər zaman və məkan vəhdətindən əldə edilən sabit ikiölçülüdür, bu mənada, metafizik statuslu obyektlərin ölçülülüyü bir və ya ikidən çox dəyişkən ölçülüdür – yəni, belə ölçülülük ya ayrıca xalis məkani ölçülülük, ya xalis zaman ölçülülüyü, ya da məkansız və zamansız ölçülülük kimi təsəvvür oluna bilər. Beləliklə, biz təbiətin ölçülülüyünü inkar edən istənilən başqa bir ölçülülükdən idrak edərkən, transsendensiya ilə metafizik aləmə keçmiş oluruq. Yəni transsendensiya sabit ikiölçülülükdən dəyişən qeyri-ikiölçülülüyə keçidi özündə təqdim edir.

Metafizikanın hər bir xüsusi ideyası özünəxas xüsusi ölçülülüyə malikdir, ona görə də, həm də öz növbəsində metafizik ideyalar bir-birindən fərqli üsullarla idrak olunur. Təbiətdə aşkarlanan məkan və zaman asılılığında meydana çıxan istənilən ölçülülük sonludur. Sonluluq əbədiliklə sonsuzluğun bir-biri ilə şərtlənməsindən meydana çıxır, belə ki, sonsuzluq əbədiliyi faniliyə, əbədilik isə sonsuzluğu sonluluğa çevirir, nəticədə məkan və zaman şərtində əbədilik və sonsuzluq sonluluq və faniliklə inkar olunur. Bunun əksinə, özü-özlüyündə fikrən məkandan ayrılıqda götürülmüş zaman əbədi, zamandan ayrılıqda götürülmüş məkan sonsuzdur.

Buradan da deyə bilərik ki, istənilən metafizik ölçülər üçün sonsuzluq və əbədilik xarakterikdir. Buna görə də, təbii ölçülülüyü sonluluqdan azad etməklə, sonsuz metafizik ölçülülüyə keçmək mümkün olur. Sonluluqdan azad olmağın iki formasını ayırd edə bilərik:

1. **Özü-özünə sonluluqdan azad olma – xalis can:** Özü-özündə sonluluqdan azad olmaya canlılığı aid etmək olar. Təcrübə obyekt-subyekt əlaqəsindən meydana çıxdığından təcrübəyə obyektiv gerçək aləmlə həyatın vəhdəti kimi baxmaq lazım gəlir. Öz növbəsində həyatı canlılığın daxili və xarici vəhdəti kimi təyin etmək olar. Canlıların xarici vəhdətindən biosfera – canlılığın təzahür etdiyi ətraf mühit, daxili vəhdətindən canlı orqanizmlər – canın təzahür etdiyi daxili biofiziki struktur meydana çıxır. Təcrübədə biostrukturlarsız biosfera, biosferasız biostrukturlar təzahür etmir. Beləliklə, həyat – canlı orqanizmlərin biosferada ümumi mövcudluq forması kimi təyin oluna bilər. Bəs can nədir? Biz, xalis canı cisimlərdən fərqli olaraq, daxili hərəkətliliyə malik, müstəqil mövcudluq üsulu olmayan, mahiyyəti zamandan, forması həm zamandan, həm də məkandan asılı olaraq dəyişən, buna görə də, cisimlə və ətrafla xüsusi xarici şərtlərdə təzahür edən mümkünlüyün xüsusi imkanı kimi təyin edirik. Xalis canın özündə-şeyi olmadığından, buna görə də, təcrübədə müstəqil və daimi mövcud olmadığından, ayrıca canlı fərddən yox, həmin canlının məxsus olduğu ümumidən – yəni növdən aprior kimi aşkarlandığından biz onu transsendental noumen kimi təyin edirik. Canlılıq zamanla çoxparametrli asılılıqdan meydana çıxan mümkünlüyün imkanıdır. Başqa sözlə, xalis canın zamanda çox, məkanda tək ölçülülüyü vardır. Buna görə də, canlılıq zamanla müəyyənləşən – zaman ölçülülüyünə malik idrak obyektidir. Zamanla çoxölçülü şərtləndiyindən, məkan isə zamanla birölçülü olduğundan canlılar zamanla şərtlənmənin çoxölçülülüyünə görə məkandan çıxırlar, yəni ölürlər, bununla da təbiətdən metafizikaya keçirlər. Hər bir canlı fərd yalnız zamandan asılı olaraq təcrübəyə daxil olur və buna görə də, canlılığın əvvəli – doğum, ortası – hə-

yat, sonu – ölüm kimi təzahür edir. Doğum, həyat və ölüm bir-birindən fərqli üç mürəkkəb proses olmasına baxmayaraq, bir-biri ilə vəhdətdə eyni bir mövcudolma üsulunu təqdim edirlər. Burada, doğum – metafizikadan təcrübəyə, ölüm – təcrübədən metafizikaya keçidi, həyat isə təcrübədə mövcudolmanı özündə təqdim edir. Metafizika "təsadüfə görə" var olmaqlığı özündə təqdim etdiyindən, hər bir canlı fərdin doğumu və ölümü də buna görə təsadüfə görə, yəni xarici vəhdətə görə – həyata görə – mövcudolmanı özündə təqdim edir. Canlı fərd keçici və ya müvəqqəti təcrübə sahəsində qaldığından və dəyişkən qanunlara tabe olduğundan cisimlərdən fərqli olaraq əbədi tək şey kimi çıxış edə bilmir, buradan da, canlı fərddən yalnız orijinal həqiqət – emanativ həqiqət aşkarlamaq mümkündür. Canlılıq həm də mümkünlüyün ikincili şərtlənmiş imkanı olduğundan, ondakı həqiqət xalis canın həqiqəti olmur. Yəni canlı fərd cisimdən və candan ibarət mümkünlüyün iki imkanının vəhdəti kimi mövcuddur. Beləliklə, xalis canın həqiqəti yalnız fikrən təcrübədən çıxmaqla, fərdi mövcudolmanı və fərdi canlılıqda cismin həqiqətini istisna etməklə, onun mənsub olduğu növün təbiətindən, aprior yolla əldə edilir. Buradan da növü xalis canın idrak forması kimi təyin etmək olar. Həqiqətin aprior əldə edilməsi canı metafizik noumen kimi təyin etməyi tələb edir.

2. **Fikrən sonluluqdan azad olma – xalis zəka:** Biz noumenlərin əldə edilmə üsullarından biri kimi mühakimənin sonsuzluğunu qeyd etmişdik. Mühakimənin sonsuzluğu təcrübi ölçüləri sonluluqdan azad etməklə əldə edilir. Məsələn, *Eynşteynin* Nisbilik nəzəriyyəsi yalnız təcrübədə bizə məlum olan son təbii sürətin – işıq sürətinin – ölçülərindən fikrən kənara çıxmaqla meydana çıxmışdır. Eynilə məkanın, zamanın, kütlənin, gücün, qüvvənin və s. sonsuzluğundan metafizik aləmə keçid mümkün olur.

Gerçək aləmdən metafizikaya keçid hər şeydən öncə bir çox sualların cavablandırılmasını tələb edir. Metafizik ölçülülüyü necə əldə etmək olar? Təcrübi ölçülülüklə metafizik ölçülülük bir-birindən nə ilə fərqlə-

nir? Gerçək aləm metafizik aləmdən hansı məsafədədir? Bu ölçülülüklərdə transsendensiya ilə yerdəyişmə bir-birindən nə ilə fərqlənir? və s. Məsafə və ölçülülüyün mahiyyətinin, onların bir-birinə münasibətinin şərhindən transsendental noumenlər haqqında bilgi əldə etmək olar.

ÖLÇÜLÜLÜK

Ümumi şəkildə ölçülülüyü obyektiv gerçəkliklərin təfəkkürdə proyeksiyalaşdırılmasının üsulu kimi, yəni hissi predmetlə onun reflektiv obrazının uyğunluğu kimi təyin etmək olar. Məsələn, biz təbiətdə müxtəlif ölçülülüyə uyğun olaraq müxtəlif obrazlar kimi idrak edirik. Əgər belə ölçülülük olmasaydı, onda biz xarici predmetlərin fərqliliyini idrak edə bilməzdik. Buradan da, ölçülülük fərqliliyin idrak üsulu kimi çıxış edir. Hissi qavranılan fərdi şeylərin xarici görüntüsü haqqında bilgi iki üsulla əldə edilir:

1. **Abstrakt olaraq götürülmüş tək fərdi şeydən – ideal şeydən:** Heç bir şey tək bir fakt kimi bilavasitə mövcud olmadığından, biz belə şeyi yalnız abstraksiya ilə ideal fərdi şey kimi təyin edə bilərik. Belə şeydən qeyri-hissi yolla əldə etdiyimiz məlumat özündə vəhdətdə mövcud olduğu başqa şeylərin təsirinə məruz qalmadığından, şey haqqında mütləq bilgidən – dəyişməyən subyektdən və başqa şeylərdən asılı olmayan mütləq bilgidən ibarət olur.
2. **Başqa şeylərlə vəhdətdə konkret fərdi şeydən – real şeydən:** Heç bir şey məkanda başqa şeylərdən ayrılıqda mövcud olmadığından görmə ilə məkanla şərtlənmə haqqında əldə etdiyimiz istənilən məlumat yalnız ayrılıqda götürülmüş hissi qavranılan maddi şeydən bilavasitə əldə edilmir. Belə ki, fərdi şeyin təzahürləri digər şeylərin təsirlərinə məruz qalaraq entropiyaya uğradıqdan sonra idrak olunur. Nəticədə, şey haqqında hissi qavrayışla əldə etdiyimiz məlumat nisbi bilgidən – subyektdən və şeylə vəhdət təşkil edən digər şeylərlə münasibətdən asılı olan bilgidən – ibarət olur. Buna görə də, biz görmə-

də real fərdi şeyin məkanla şərtlənməsi haqqında bilgini bir-biri ilə vəhdət təşkil edən şeylərin məcmusundan əldə edirik.

Fərdi şeyin məkanla şərtlənməsindən əldə etdiyimiz mütləq və nisbi bilgilərin müqayisəsindən mühakimədə şeyin məkanda vəziyyətini, hərəkətini, bir-birindən və ya bizdən olan məsafəsini, başqa sözlə məkanla şərtlənməsinin xarakteristikalarını təyin edirik. Təbii ölçülülük konkret predmetlərdən hissi yolla, bundan fərqli olaraq metafizik ölçülülük qeyri-hissi, təbiətdən kənar mücərrədləşdirilmə ilə əldə edilir. Buradan da, hiss təbiətdən metafizikaya keçidi təmin edən noumen kimi çıxış edir.

Xalis hissin mahiyyəti nədən ibarətdir? Hiss canla cismin qarşılıqlı əlaqəsindən təzahür edir. Xalis hiss xarici şeyin təsirindən canlı orqanizmlərdə yarandığından, özü-özündə keçici olduğundan, obyektiv gerçəkliyə münasibətdə metafizik statuslu obyekt kimi təyin olunmalıdır. Heç bir xarici təsir özü-özündə hiss yarada bilmir. Heç bir canlı orqanizm də təcrübədən kənar hissi təsirə məruz qalmır (daxili hissiyyat ikincili xarici hissi təsir kimi meydana çıxır, ona görə də bədən də xarici şey kimi qəbul edilməlidir). Beləliklə, biz hissi – xarici şeylə bədənin arasında, hər ikisindən kənara çıxan, metafizik statuslu obyekt kimi müəyyən edirik. Ümumiyyətlə, hissin əmələ gəlməsi iki cür təsirlə baş verir: a. Görmə və eşitmə hissi dalğa funksiyası ilə işıq və səs dalğaları kimi; b. Dad, iy və taktil hissiyyat maddə vasitəsi ilə – xüsusi kimyəvi maddələrin və enerjinin iştirakı ilə. Bu iki növ hissiyyat əmələgəlmə və təsir mexanizmlərinə görə bir-birindən fərqlənir. Biz, dalğa funksiyası ilə əmələ gələn hissiyyatı xalis metafizik, digər üç hissiyyatı isə empirik hissiyyat kimi təyin edirik.

Hissin metafizik əhəmiyyətinin təyininin altı səbəbi vardır:

1. İstənilən heyvani hiss konkret predmetin təsiri ilə yarandığından fenomenlə, yaranma yerinə görə bədənlə əlaqəlidir. Amma subyektdə meydana çıxan hiss həm də özlüyündə Ruhla əlaqələndiyindən subyektin təbiətdən kənara çıxmasına və təbiətin kənarından təbiətə qayıtmasına kömək edən, transsendent fakt kimi mövcuddur. Hissin

Ruhla əlaqəsi hissi obyektin həqiqətinin təfəkkürə ötürülməsindən ibarətdir. Beləliklə heyvani hiss ikili, subyektiv hiss üçlü təbiətlidir. Hissin üçlü təbiətə keçməsi onun konkret obyektlə təqdim edilmə zərurətini, yəni bilavasitəliyini ixtisara salır. Nəticədə, heyvanlardan fərqli olaraq, insanlarda xarici obyektin iştirakı olmadan da hiss – prafenomenlər meydana çıxır. Hissin bu keyfiyyətinə görə onu transsendental – daşıyıcı noumenlərin sırasına aid etmək lazım gəlir. Yəni canlılıq özü-özlüyündə transsendental olduğundan onun bütün təzahürləri də transsendentaldır.

2. Hiss – təsirin qıcığa, qıcığın impulsa keçməsi ilə yarandığından və bu keçidlərin hər hansı biri baş vermədikdə, bilavasitə meydana çıxmadığından, özü-özündə transsendental faktdır. Digər tərəfdən, hiss obyektin ideyasını təfəkkürə keçirərək onların obrazlar, təsəvvürlər və ideyalar kimi refleksiya olunmasını, yəni obyektiv gerçəkliyin həqiqətinin subyektə keçirilməsinin vasitəsi – daşıyıcısı kimi mövcuddur. Beləliklə, hiss həm də təfəkkürdə obrazların, yaşantıların, təsəvvürlərin meydana çıxmasının başlanğıcıdır. Beləliklə, "hiss" – metafizik anlayış kimi Varlıqla Ruhun elə əlaqəsini özündə ifadə edir ki, bu əlaqə bir tərəfdən xarici cismin – mövcud olanların – cana təsiri kimi, digər tərəfdən hissi idrakın başlanğıcı kimi mümkün olanın mövcud olanı özündə refleksiya vasitəsi kimi mövcuddur.
3. Hiss – canlılığın əsas təzahürlərindən biridir və yalnız insana yox, istənilən canlıya xasdır. Canlılıq – mütəmadi olaraq təbiətə daxil olan və ondan çıxan əhəmiyyətdir. Buna görə də, canlılığın keçiciliyinin bütün təzahürləri də transsendental noumenlərə aid edilməlidir.
4. Hər bir konkret şey hissi qavrayışla dərk edilir. Bəs şeydən kənar xalis hisslər necə hissi qavranıla bilər? Məsələn, hər şey işıqda görünür və hər şey səs dalğası ilə səslənir. Bəs biz işığı və səsi bilavasitə əşyanın iştirakı olmadan necə hissi qavrayışla idrak edə bilərik? Yəni səsin və işığın özünü necə "eşidə və görə" bilirik? Əgər, fikrən kainatda olan hər şeyi kənarlaşdırsaq, yəni işıqlana bilən hər şeyi istisna etsək,

onda işıq nədə və necə təzahür edə bilər? Beləliklə, məlum olur ki, xalis hisslərin hissi qavranılması mümkünsüzlükdür və buna görə də, şeydən ayrılıqda götürülmüş xalis hissi metafizik noumen kimi təyin etmək lazım gəlir. Məsələn, acı, şirin, isti, uzaq, yaxın, sevinc, kədər və s. kimi anlayışlar xalis hiss kimi noumen statusundadırlar.

5. Hər bir hiss həm xarici təsirə cavab kimi yaranaraq xaricə istiqamətlənir, həm də daxilə – bilavasitə təfəkkürə istiqamətlənir. Təcrübədə birli istiqamətlənmə xarakterikdir. Məsələn, bir şey eyni zamanda həm irəli, həm geri hərəkət edə bilmir.

Haşiyə: *L. Feyerbax*, "*Leybnitsin* fəlsəfəsinin tənqidi"

İnsanda hiss, həyat tələbatları ilə əlaqədən fərqli və müstəqil, daha ali məna alır – yaradıcılıq mənası. Hiss burada artıq nəzəri qabiliyyətin başlanğıc emanasiyasıdır. İnsan nəzəriyyə üçün doğulub. Hiss – onun idrakının vasitəsidir: amma elə vasitə ki, həqiqətən daxili məqsədi mövcud olması şərtində, düşüncəyə, nəzəri yaradıcılığa qabil olduqda vasitə ola bilir.

L. Feyerbaxın şərhindən göründüyü kimi, hiss ikili təbiətlidir: daxili məqsədinə görə düşüncəyə, nəzəri yaradıcılıq qabiliyyətinə görə vasitəyə aiddir. Burada, daxili məqsəd – təbiət sferasına, nəzəri yaradıcılıq qabiliyyəti – metafizikaya aiddir. Metafizika hissin iştirak etmədiyi aləmi özündə təqdim etdiyindən və bizim "hissi hiss etməmizin" mümkün olmamasına görə də, predmetsiz xalis hissi metafizik noumen kimi təyin edə bilərik. Metafizik hiss empirik hissdən – heyvani hisslərdən fərqli olaraq, bədən tələbatları ilə yox, idrak tələbatı – anlamaq, başa düşmək, həqiqəti tapmaq tələbatı ilə bağlıdır. 6. Predmetsiz meydana çıxmasına görə də hiss metafizikdir. Məsələn, ruhi hisslər özlərində heç bir obyektlə idraka təqdim olunmurlar. Digər tərəfdən mücərrəd obyektlərdən də hiss yaranır.

Haşiyə: *Corc Berkli*, "Görmə nəzəriyyəsi, və ya İlahinin bilavasitə mövcudluğunu və bəsirətini göstərən, görmə dili; Anonim müəllifə cavabda müdafiə və izah olunan"

"İstənilən hissiyyatın (sense) xüsusi obyekti, baxmayaraq ki onlar düzdür (truly) və bir mövcud hisslə (that sense) dəqiq qavranılandır, bəzi başqa hisslər tərəfindən təsəvvürlərin təsirlərinin məhsulu ola bilər. Ona görə bütün hisslərin obyektləri təsəvvürlərin obyekti ola bilər, bütün hissi şeylər belə qabiliyyət təqdim edir (represents). Buradan da rəng həqiqətdə yalnız görmə ilə qavranılsa da, əgər biz rəngin adını eşitsək, təsəvvürlərlə də qavranıla bilər. Rəng birincili və xüsusi şəkildə görmə obyektidir, ikinci şəkildə təsəvvürlərin obyektidir, onu eşitmənin xüsusi obyekti hesab etmək olmaz. Bilavasitə qavranılan şeylər, hissi obyektlər, həmçinin ideya adlanır. Bu ideyaların səbəbi və ya onları yaradan güc – hissiyyat obyekti deyil; özü-özünə qavranılmır, yalnız ağılla onun fəaliyyətindən çıxarılır, hissiyyatla qavranılan obyektləri və ya ideyaları nəzərdə tuturam."

C. Berklinin gətirdiyimiz sitatdan göründüyü kimi, təcrübədən görmə ilə hissi qavranılma, təfəkkürün özü-özündən təsəvvürlərlə hissi qavramaya keçir. Beləliklə, hiss, yalnız xarici obyektlərin təsirindən yox, həm də daxili noumenlərin – hissi obyektləri özündə ifadə edən obrazların, təsəvvürlərin, ideyaların, sözlərin, işarələrin təsirindən də canlana bildiyindən onu metafizik predmet kimi qəbul etməliyik. 7. Empirik hissiyyat zərurətə görə, metafizik hissiyyat təsadüfə görə xarici predmetlə şərtlənir. Məsələn, hər hansı bir şeyin istiliyi zaman və məkan şərtlərindən asılı olmayaraq bəlli ölçüdə şeyin özü ilə mütləq şərtlənmiş şəkildə təzahür edir. Amma şeyin xarici görüntüsü – həndəsi forması, rəngi, sayı, səslənməsi xarici mənbələrin iştirakı olmadan təzahür etmir. Empirik hissiyyat maddi təsirdən yarandığından, təbiətin ümumi qanunlarına – sonlu ölçülülüyə tabe olurlar. Amma metafizik hisslər bundan fərqlənir. Empirik hisslər şeyin özündən hazırlanıb ətrafa yayılan təsirlərdən meydana çıxır, buna görə də, tədricən hissi predmetin ölçülülüyünü dəyişdirir. Məsələn, hər hansı iyli maddənin miqdarı iylənmə nəticəsində bir müddətdən sonra azalmağa başlayır və sonda bütünlüklə hissi təsirə çevrilərək tükənir. Eləcə də, taktil təsirlə yaranan hiss tədricən təsir edən şeyin istiliyini azaldır

və s. Metafizik təsirlər bilavasitə yalnız hissi obyektlə şərtlənmir. Buna görə də, təcrübədə bir şeyin xarici görüntüsünü və ya səsini bir nəfərin və ya milyon nəfərin eyni vaxtda və ya müxtəlif vaxtda hissi qavramasında həmin şeyin nə özü, nə də təsiri dəyişmir. Buradan belə çıxır ki, metafizik təsir empirik təsirdən fərqli olaraq, şeydən hazırlanıb kənara göndərilən "nəsə" deyildir. Şeyin ölçülülüyündə fərq yaratmadığından ondan kənardır, qavrama nəticəsində artıb-azalmadığından əbədi və sonsuzdurlar. Əksinə, şeyin təsirləri şeyin halından – onun mümkünlüyündən asılı olaraq dəyişildiyindən, sonlu və keçicidirlər. Məsələn, bərk şeylərin xarici görüntüsü – forması maye halına keçəndə itir. Empirik təsirlər isə itmir, sadəcə hissi obyektdən subyektə keçir. Buradan da, xalis hissləri mümkünlüyün təzahürü kimi təyin edirik. Mümkünlük metafizikaya aid xarakteristika olduğundan, elə belə, təsir də metafizik olur.

Hissi qavramanın ikinci tərəfi hissiyyat orqanlarıdır. Biz təsiri hisslərlə qavrayırıq. Əgər təsir metafizikdirsə, onda ona ekvivalent, onunla səbəb-nəticə əlaqəsində olan hisslər də metafizikdir. Hisslərin təsirlərə ekvivalent olmasını, yəni ideyaların bir-birinə bağlılığını belə bir fakt da sübut edir ki, hər hansı bir təsir yalnız bir uyğun hiss yarada bilər. Əgər hissi obyekt konkret təsirə malik deyilsə və ya konkret təsiri qəbul edən analizator yoxdursa, onda həmin təsir qəbul edilməmiş qalır və ya təsirə müvafiq hiss yaranmır. Məsələn, kor insan rəng və forma haqqında heç bir məlumat almır, eləcə də şəffaf və qaz halında olan maddə görmə hissi yaratmır.

Xalis hisslər metafizik statuslu obyektlərin ölçülülüyünü yaradır. Bura aşağıdakı təsir-hiss əlaqələri aiddir:

Görüntü – forma – Schein və görmə: Hissi qavramanın böyük bir həcmi və digər hissi orqanlara nisbətən daha dəqiq və geniş məlumat əldə etməyə imkan verən görmə analizatoru ilə həyata keçirilir. Görmə analizatorundan asılı tərəf – görmə, hissi predmetdən asılı tərəf – varlığın xarici görüntüsü. İnsan gördüyü qədər, görüntüsü olanları cari şüurla idrak edir. Şeyin ayrılıqda yalnız məkanla şərtlənmiş tərəfi görüntünü təşkil

edir. Görüntü bir-birindən fərqli qavranılan üç elementin – həndəsi forma-ölçülülük, rəngin və sayın vəhdətindən ibarət mürəkkəb metafizik anlayışdır. Görmə – anlayışı şeylərin xarici görüntüsünün təfəkkürdə daxili obraza çevrilməsindən, yəni hissi qavranılan maddi şeyin xarici görüntüsünün təfəkkürdə refleksiyasından ibarətdir. Əgər xarici görüntü yoxdursa və ya xarici görüntü daxili obraza çevrilmirsə, görmə baş tutmur. Beləliklə, şeylərin xarici görüntüsü görmə prosesində təfəkkürdə refleksiya edərək obrazları yaradır. Xarici görüntü isə öz növbəsində hissi qavranılan maddi şeylərin yalnız məkanla şərtlənməsini özündə təqdim edir. Biz görmə hissi ilə xarici görüntünü təşkil edən elementlər haqqında, yəni şeyin məkanla şərtlənməsini özündə ifadə edən tərkib hissələri haqqında eyni vaxtda məlumat alırıq. Görüntünün idrakı – mövcud olanın təfəkkürdəki abstrakt obrazlarıdır.

Haşiyə: *İ. Kant*, "Xalis zəkanın tənqidi"

"Biz dialektikanı görüntünün məntiqi kimi adlandırmışıq. Əsl həqiqətdə seyr edildiyi qədər və predmet haqqında mühakimədə isə düşünülən qədər həqiqət və görüntü predmetdə yerləşmir. Biz istisnasız olaraq əsas müddəaya təsir edən, tətbiqi heç də, ən çoxu onların həqiqətini bizə verə biləcək təcrübə sferasına hesablanmamış, transsendental görüntü ilə məşğul olacağıq; transsendental görüntü tənqidin bütün xəbərdarlıqlarına baxmayaraq kateqoriyaların empirik tətbiqinin sərhədlərindən tamamilə çıxarmır və xalis mühakimənin genişlənməsi şəffaf ümidlərlə tamahlandırır."

Beləliklə, xarici predmetlərin görüntüsü, *Kantın* da təsdiq etdiyi kimi, predmetlərin özündə deyil və həm də təcrübə sahəsində xarici predmetlərdən kənarda xalis şəkildə mövcud olmadığından, həm də onlarla şərtlənmişdir. Predmetdən xarici görüntünün şərtlənməsi – onun özündə predmetin mahiyyəti haqqında məlumatı daşımasını, şeydən kənar mövcud olması həmin məlumatı özü ilə şeydən kənara çıxarmasını təqdim edir, hansı ki bu keyfiyyətinə görə transsendental olur. Görüntü predmetdə yerləşmədiyindən onu predmetdən kənar noumen kimi təyin edə bilə-

rik. Görüntü seyr edilən predmetdən seyrlə "çıxan" və mühakimə aktı ilə təfəkkürə "daxil olan" metafizik obyektlərdəndir. Biz görüntünü metafizikanın əsas anlayışlarından biri kimi təyin edirik. Görüntü – işıq şüası ilə şərtlənmiş, varlığın xalis varlıq təyini ilə vəhdət təşkil etməyən, özüüçün varlıq təyinindən – xalis formadan ibarətdir. İşıq şüası olmadan görüntü meydana çıxmadığından, görüntünü həm də işıq şüasının təzahürü kimi qəbul etmək lazım gəlir. Görüntü – xalis forma kimi, işığın hissəcik təbiətinin mövcud olanın forması kimi görünüşə açılmasıdır, hansı ki mütləq qaranlıqla dəf olunur. Görüntü, digər tərəfdən görünüşlə – insanın görmə qabiliyyəti ilə şərtlənmişdir. Yəni görünüş olmadan görüntü aşkarlanmır. Görünüş – görüntünün daxili obraz kimi refleksiyasıdır. Beləliklə, görüntü həm də təfəkkürdə refleksiya nəticəsində yaranan abstrakt obrazın eyniliyidir. Buradan da, görünüşü ikili təbiətinə görə metafizik anlayış kimi qəbul etmək lazım gəlir.

Empirik ölçülülük görmə hissi ilə əldə edilir. Ayrı-ayrı təsirlərin məcmusundan görüntü yaranır. Hissi qavramada hər bir ayrılıqda götürülmüş şeyin görüntü kimi təsiri daxildə hissələrə ayrılaraq sadələşdirilmiş formada beyinə ötürülür, beyində müxtəlif analizatorlardan daxil olan sadə hisslərdən assosiativ yolla xarici görüntünün totallığı yenidən, amma bu dəfə daxili görmə kimi birləşdirilərək şeyin obrazına çevrilir. Beləliklə, görmə görüntünün təfəkkürdə obraza keçməsini özündə ifadə edir. Necə ki görüntü təbiətdən təfəkkürə keçir, təcrübədə əbədi qalmır, biz görüntünü metafizikaya transsendensiya edən fakt kimi təyin edirik.

Haşiyə: *C. Berkli*, "Görmənin yeni nəzəriyyəsinin təcrübəsi"

"Görmə ilə tutulan, hər birinin öz ölçüləri və ya məsafəliliyi olan iki növ obyekt vardır. Obyektlərdən biri hiss edilənlərdir, yəni hissiyyatla qəbul edilən və ölçüləndir, görmə hissi ilə dolayısı ilə əldə edilir; digəri – görmə nahiyəsinə ilk dəfə daxil olan xüsusi və bilavasitə görünənlərin köməyi ilə əldə ediləndir. Həm hiss edilən, həm görünən ölçülər, az və ya çox nöqtənin olmasından asılı olaraq böyük və ya kiçik olur. Abstrakt məsafəlilik və ya hissiyyatla daxil olan məsafəlik haqqında deyilməsindən

asılı olmayaraq, sonsuz bölünməzdir. Minimum tangibile (hissi minimum) və minimum visibile (görünən minimum) vardır, hansı ki onlardan kənarda hissiyyat qəbul olunmur. Ruhda olmayan və ondan məsafədə olan obyektin ölçüləri dəyişməz olaraq bir və eyni qalır: amma görünən obyekt ona yaxınlaşdıqca və ya uzaqlaşdıqca dəyişilir, nəticədə o, dəyişməz və müəyyən ölçülülüyə malik olmur."

Biz *C. Berklinin* görmə ilə bağlı dediyi fikirləri necə anlamaq olar? Necə olur ki, insan eyni bir analizatorla bir-birindən fərqli iki cür obyekt aşkarlayır? Yuxarıda qeyd etdik ki, insan digər canlılardan fərqli olaraq hissi şeylərdə hissi maddilikdən ayırır və şeydən ayrılmış hissi təsir görmə hissi ilə qəbul edilir. Buna paralel hissdən ayrılmış özündə-şey qeyri-hissi, bilavasitə, hisslərin iştirakı olmadan birbaşa təfəkkürdə spontan və avtonom refleksiya olunur. Eyni bir şeyin bu cür ikili – hissi və qeyri-hissi yolla qavranılması nəticəsində *C. Berklinin* qeyd etdiyi iki cür ölçülülük meydana çıxır.

Təcrübi ölçülülük və ya hissi-nisbi ölçülülük: Mövcud varlığın ölçülülüyü hissi ölçülülük kimi meydana çıxır. Belə ölçülülük görmə hissi ilə müəyyən olunur və görmənin itiliyindən, görmə obyektinin hissi qavranılma məsafəsindən asılı olduğundan nisbidir və buna görə də, abstraksiya olunmur. Biz bunu özündənkənar ölçülülük – aksidensial ölçülülük və ya başqasına münasibətdə ölçülülük – obyektin ölçülülüyünün ruhda olan ideyasını yaradan ölçülülük kimi təyin edirik. Belə ölçülülük bizim görməmizə görə müəyyən olunur. Məsələn, bizdən bir metr aralı şeyin ölçüsünü, bizdən bir kilometr uzaqlıqda daha kiçik ölçüdə görürük. Belə ölçülülük hissiyyatla müəyyənləşir və maddi şeyin fiqurunu ifadə edir. Hissi nisbi ölçülülükdən maddi şeyin xarici forması aşkarlanır. Xarici forma görünən xətlərin, səthlərin və həcmlərin müxtəlif kombinasiyaları kimi mövcuddur. Hissi nisbi ölçülülük subyektdən çıxdığından – görmədən asılı olduğundan biz bunu şeyin özündənkənar ölçülülüyü kimi təyin edirik. Məsələn, təcrübədə ən müxtəlif ölçülərdə kub formasında fərdi şey mövcuddur və hər bir kub formasında olan eyni fərdi şey başqa hən-

dəsi formalarda da mövcud ola bilər. Belə ki, eyni çəkidə metaldan həm kub, həm silindr, həm kürə formasında şey düzəltmək mümkündür. Eləcə də, ən müxtəlif maddələrdən eyni bir həndəsi formaya malik predmet düzəltmək mümkündür. Buradan da, xarici görüntünün – həndəsi formanın aksidensial olduğu meydana çıxır. Məkanda şeylərin hissi ölçülülüyü – göz ölçüsünü, subyektiv ölçülülüyü özündə təqdim edir və vəhdətdə aydınlaşdığından ümumi anlayışlarla Hissi ölçülülük keyfiyyət ölçülülüyü kimi meydana çıxır. Keyfiyyət ölçülülüyü böyüklük və kiçiklik terminləri ilə ifadə olunan hissi ölçülülükdür. Böyüklük, kiçiklik anlayışları ən ümumi, nisbi ölçülülükdür və özündə fərdi şeyin özü-özünə və ya başqasına nisbətindən aşkarlanır və məkanda şərtlənmənin subyekt tərəfindən aşkarlanmasının keyfiyyətini özündə təqdim edir. Buna görə də, kəmiyyət ölçülülüyündən fərqli olaraq aksidensialdır və şeylərin məkanda təsadüfə görə yerləşməsindən – sıralanmasından asılı olaraq təyin olunur.

Məkanda maddi şeylərin təsadüfə görə sıralanması iki formada meydana çıxır:

1. **Təsadüfə görə paralel – yan-yana sıralanma:** Belə sıralanmada biz fərdi maddi şeyləri eyni vaxtda qavrayırıq, bu zaman onların bir-birinə münasibətdə məkanda necə xüsusi yer tutmasını onların hissi ölçülülüyünün müqayisəsi ilə aşkarlayırıq. Buradan, sabit böyük və kiçik ölçülülüyü təyin edirik. Məsələn, yan-yana durmuş iki şeydən kiçik və böyük olan məsafədən – yaxın və uzaqlıqdan və ya bir-birinin sağında və ya solunda yerləşməsindən asılı olmayaraq sabit olaraq bir-birinə münasibətdə eyni böyük və kiçik kimi görünür. Məsələn, paralel sıralanan böyük A və kiçik B bizdən 10 km uzaqlıqda və ya 100 km uzaqlıqda eyni cür aşkarlanır. Yəni hər iki halda A böyük, B kiçik görünür.
2. **Təsadüfə görə ardıcıl sıralanma:** Belə sıralanmada fərdi maddi şeyin böyük və ya kiçik görünməsi sırada təsadüfə görə yerləşməsindən asılı olur və buradan dəyişən böyük və kiçiklik meydana çıxır. Məsələn, eyni ölçülü A, S, D, Q, K, B sırasında A-dan baxdıqda B-nin A-

ya nisbətən kiçik olduğunu görürük. Əgər həmin sıralanmaya əksinə B, S, D, Q, K, A ardıcıllığına baxırıqsa, onda B A-ya görə böyük görünəcək. Dəyişkən keyfiyyət ölçülülüyü iki cür aşkarlanır: a. Yerdəyişmədən meydana çıxan dəyişən keyfiyyət ölçülülüyü: Belə dəyişkən keyfiyyət ölçülülüyü eyni bir maddi şeyin görmə sahəsində yerdəyişməsindən əldə edirik. Məsələn, A nöqtəsindəki eyni bir şey əgər B nöqtəsinə keçirsə, onun görünən ölçülülüyü dəyişir. b. Müqayisədən aşkarlanan dəyişkən keyfiyyət ölçülülüyü: Belə ölçülülük eyni bir şeyin müxtəlif şeylərlə müqayisəsindən meydana çıxır. Məsələn, A B-dən böyük, B isə C-dən böyükdürsə, onda B-nin keyfiyyət ölçülülüyü müqayisədən dəyişən keyfiyyət ölçülülüyü ilə ifadə olunur.

3. **Abstrakt mütləq ölçülülük – kəmiyyət ölçülülüyü:** Özündə-şeyin təfəkkürdə bilavasitə – hisslərin iştirakı olmadan avtonom refleksiyasından meydana çıxan ölçülülüyünü mücərrəd ölçülülük adlandırmaq olar. Mücərrəd ölçülülük hissi qavranılan maddi şeyin ölçülülüyünün abstraksiyasından, yəni onun riyazi ifadə edilməsindən əldə edilir. Belə ölçülülükdə hissi başqa xarici predmetlər əvəz edir. Yəni ölçülülüyün "aləti" subyektdən – hissi orqanlardan kənara çıxarılır. Abstrakt mütləq ölçülülük hissi qavrayan subyektin görməsindən və maddi şeyin görmə məsafəsindən asılı olmur və bilavasitə hissi qavranılan maddi şeyin özündən, subyektdən xaricdə ölçülmə ilə çıxır. Ölçmə – ölçü vasitəsi, eyni bir standart məsafə ilə istənilən müxtəlif maddi şeyin tutuşdurulmasından əldə edilir. Biz bunu fərdi maddi şeyin özündəölçülülüyü kimi təyin edirik. Özündəölçülülük şeydən aksidensiya etməyən ölçülülükdür. Belə ölçülülük məsafədən asılı olmayaraq sabitdir. Məsələn, bizdən bir metr məsafədə olan şeyin ölçüləri bizdən bir kilometr uzaqlıqda da eynidir. Belə ölçülülük obyektin ölçülülük ideyasını özündə təqdim edir. Özündəölçülülük substansial olduğundan bizim hissiyyatımızdan asılı deyil, ona görə də yalnız mühakimə aktında aşkarlanır, hansı ki bizim görmə hissimizlə yox, ölçü vasitəsi ilə əlaqəni özündə ifadə edir. Ölçü standartına münasibətdən ölçülü-

lüyün riyazi ifadəsi meydana çıxır. Məsələn, biz qabaqcadan standart ölçü kimi götürdüyümüz vasitə ilə iki fərqli maddi şeyi ölçürük. Tutaq ki, şeylərdən birini standartı iki dəfə təkrarlamaqla, digərini on dəfə təkrarlamaqla tutuşdururuq və təkrarlanmanın sayını standartla birgə ifadə etdikdə şeyin abstrakt ölçüsünü alırıq. Məsələn, əgər standart ölçü, tutaq ki, metrdirsə, onda birinci şeyin 2 metr, ikincinin 10 metr olduğunu bilirik. Hər iki ifadədən göründüyü kimi, abstrakt ölçülülükdə ölçülən şeyin özü ifadə olunmur. Buna görə də, abstrakt ölçülülüklə istənilən xüsusi şey ölçülür, amma belə ölçülülük ümumi ölçülülük kimi meydana çıxır, halbuki hissi ölçülülük orijinal ölçülülük kimi mövcuddur, subyektin hissi analizatorlarından, obyektin işıqlanmasından, subyektlə və digər obyektlərlə məsafəsindən şərtlənmişdir. Fərdi şeylərin özündəölçülülüyü özündə-şeyin məkanda yer tutmağını – məkanla xüsusi şərtlənməsini ifadə edir və bu zaman hissi qavranılma təxirə salınır. Məsələn, "5 l həcmi olan kub" və ya "iki məntəqə arasında 10 km məsafə" ifadələrindən biz hər hansı şeyin ölçüsünü və ya məntəqələr arasındakı məsafə haqqında, hissi qavranılmadan kənar, abstrakt mühakimə ilə bilgi əldə edirik. Göründüyü kimi, burada ölçülülük riyazi rəqəmlərlə ifadə olunur, hansı ki bu rəqəmlərin özündə nəyi ifadə etdiyini yalnız abstrakt mühakimə ilə təyin etmək olar. Fərdi şeylərin hissələrinin bir-birinə nisbəti – özündəölçülülüyü konkret olub, kəmiyyətlə ifadə olunur, substansialdır. Yəni, məsafədən, vaxtdan asılı olmayaraq fərdi şeyin özü-özündə eynilik təşkil edir. Şeyin özü-özündə ölçülülüyü xüsusi ölçülülük olub özündə yalnız ayrılıqda götürülmüş şeyin məkanla şərtlənmə qaydalarını təqdim edir və buna görə də xüsusi anlayışlarla en, uzunluq, hündürlük, dərinlik, həcm və s. kimi terminlərlə təsvir olunur. Məsələn, "15 sm hündürlüyündə piramida" dedikdə bizim onu harada, nə vaxt, necə, kimin görməsindən, hansı predmetlərlə vəhdətdə olmasından və ya müqayisə olunmasından asılı olmayaraq, onun mütləq fərdi ölçülülüyünü ifadə edirik.

Göz ölçüsü ilə şeyin özündəölçülülüyü ya hissi qavranılan maddi şeyin subyektə münasibətdə məkanın hansı nöqtəsində yerləşməsini, ya da şeylərin bir-birinə münasibətdə məkanın hansı nöqtələrində yerləşməsini ifadə edir.

MƏSAFƏLİLİK – XALİS ÖLÇÜLÜLÜK

Məkanın müxtəlif nöqtələrində eyni zamanda görünmə məsafə anlayışı ilə ifadə olunur. Məsafə haqqında bilgi hissi qavranılan ölçülülüklə obyektin özündəölçülülüyünün görmədə dəyişilməsindən – özündəölçülülüklə özündənkənar ölçülülüyün fərqi kimi meydana çıxır. Yəni biz özündəölçülülüyünü bildiyimiz şeyi özündənkənar ölçülülüyü ilə tutuşduraraq meydana çıxan faktdan şeyin bizdən məsafəsini təyin edirik.

Məkanla şərtlənmənin digər bir xarakteristikası – xalis məkani ölçülülük yaxınlıq və uzaqlıq kimi təyin olunan – məsafədir. Yaxınlıq və uzaqlıq fərdi maddi şeyin özündəölçülülüyündən asılı olmayaraq məkanın özünün iki nöqtəsi arasındakı məsafədən, yəni subyektin məkana münasibətindən aşkarlanır. Biz bunu məkanın xalis ölçülülüyü adlandırırıq. Yəni məsafə anlayışı obyektlərdən yox, məhz onların yerləşdiyi məkandan əldə edilir. Buna görə də, ən müxtəlif ölçülü şeylər məkanda eyni və, əksinə, eyni ölçülü şeylər məkanda müxtəlif məsafələrdə ola bilər. Buradan da, şeylərin ölçülülüyünün məsafəyə təsir etmədiyi aydın olur, ona görə də biz məsafəni məkanın xalis ölçülülüyü kimi təyin edirik. Xalis məkani ölçülülük istənilən fərdi ölçülülüyə malik şeylər arasında eynidir. Məsələn, diametri bir metr olan iki kürə arasındakı bir km məsafəyə diametri 10 metr olan başqa iki kürə yerləşdirsək, bu zaman onlar arasındakı məsafə eyni qalacaqdır. Göründüyü kimi, xalis məkani ölçülülük hissi qavranılan maddi şeyin özündəölçülülüyündən asılı olmur. Biz bu cür xalis məkani fərqliliyi yaxınlıq və uzaqlıq kimi təyin edirik.

Məkanın xalis ölçülülüyü – yaxın, uzaqlıq dəyişkən böyük-kiçikdən, yəni subyektiv keyfiyyət ölçülülüyündən dolayısı ilə aşkarlanır. Dəyişkən böyük-kiçiklik həm də eyni bir şeyin hissi qavranılmada subyektdən mə-

safəsini təyin etməkdə meydana çıxır. Məsələn, A nöqtəsində gördüyümüz eyni bir şey B nöqtəsində kiçik görünürsə, biz buradan iki nəticə alırıq: 1. Şeyin kiçilməsi onun bizdən uzaqlaşmasını göstərir; 2. Şeyin kiçilməsi iki nöqtənin bir-birindən məsafəsinin dəyişməsini göstərir. Yəni eyni bir şey A nöqtəsində böyük, B nöqtəsində kiçik görünürsə, onda biz B nöqtəsinin A nöqtəsindən daha uzaq məsafədə olduğunu aydınlaşdırırıq. Belə xalis məkani ölçülənmədə şey ixtisara düşür və xalis məkani ölçülük şeylə vasitəli və dolayı yolla müəyyənləşir. Beləliklə, dəyişkən keyfiyyət ölçülülüyü şeydən məkana keçir və məkanın xalis ölçülülüyü kimi yaxın və uzaqlıq meydana çıxır. Daha sonra abstrakt mühakimədə yaxın-uzaqlıq ölçülülüyü ilə istənilən hissi qavranılan maddi şeyin məkani şərtlənməsini abstrakt mühakimə ilə qeyri-hissi yolla müəyyən edirik.

İki cür məsafə ölçülülüyü aşkar etmək olar:

1. **Təsadüfə görə paralel sıralanmada aşkarlanan yaxın və uzaqlıq:** Belə yaxın və uzaqlıqda böyük və kiçiklik eyni qalır. Məsələn, iki xarici obyekti subyektə münasibətdə eyni vaxtda paralel olaraq A nöqtəsindən B nöqtəsinə aparsaq, onlar A nöqtəsində göründükləri kimi B nöqtəsində də eyni böyük-kiçik kimi görünəcəklər, sadəcə hər iki böyük və kiçiyin hissi ölçülülüyü eyni dərəcədə azalacaqdır.
2. **Təsadüfə görə ardıcıl sıralanmadan aşkarlanan yaxınlıq və uzaqlıq:** Belə yaxın və uzaqlıqda fərdi maddi şeyin keyfiyyət ölçülülüyü dəyişir. Məsələn, A nöqtəsində iki maddi fərdi şeydən böyük olanı B nöqtəsinə aparsaq, kiçiyi saxlasaq, bu zaman A nöqtəsindəki əvvəlki kiçik B nöqtəsindəki əvvəlki böyükdən böyük görünəcək.

Belə xalis məkani ölçülülüyü bir şeyin ölçülülüyünün başqa şeyin ölçüsünə nisbətdə dəyişilməsindən aşkarlanan məsafəlilik kimi təyin etmək olar. Məsələn, biz əvvəlki təcrübədə iki müxtəlif şeyin hər birinin məkan ölçülülüyü haqqında məlumata malik oluruq. Sonra həmin şeylərin ölçülərinin bir-birinə münasibətinin dəyişməsindən məsafəliliyi mühakimə yolu ilə təyin edirik. Məsələn, tutaq ki, bir metr uzunluqdakı tirlə, on metr uzunluqdakı tiri eyni məsafədə tutuşdururuq və onlar arasındakı fər-

qin 9 metr olduğunu aşkarlayırıq. Sonra 10 metrlik tiri bir metrlik tirə nisbətən özümüzdən uzaqlaşdırırıq və məsafədən asılı olaraq onlar arasında fərq tədricən kiçilir, sonra bərabərləşir, daha sonra 10 metr daha uzaq məsafədə bir metrdən kiçik olur. Burada, biz məntiqlə bunun mümkünsüz olduğunu bildiyimizdən, 10 metrlik tirin bir metrlik tirə nisbətən məkanda uzaqlaşdığını müəyyən edirik. Hissi qavranılan maddi şeylərin obrazları onların məkanda şərtlənməsinin təfəkkürdə refleksiyası kimi meydana çıxır. Yəni obrazlar görmə nəticəsində məsafə haqqında əldə edilən məlumatları özündə təqdim edir.

Haşiyə: *Corc Berkli*, "Görmənin yeni nəzəriyyəsinin təcrübəsi"

"Belə hesab edirəm ki, hamı razıdır ki, məsafə özü-özündə və bilavasitə görünə bilməz. Belə ki, xətt kimi gözə perpendikulyar olan məsafə gözün dibində yalnız bir nöqtəni proyeksiya edir, bu nöqtə məsafənin uzun və ya qısa olmasından asılı olmayaraq dəyişilməz qalır. Beləliklə, mən belə hesab edirəm ki, bizim kifayət qədər uzaq obyektlərin məsafəsinə verdiyimiz qiymət, təcrübəyə əsaslanmış mühakimə aktıdır, nəinki hissiyyat."

C. Berklinin fikirləri ilə razılaşmaq olarmı? Görmə hissiyyatı nə vaxt əmələ gəlir? Əvvəla, qeyd etmək lazımdır ki, göz özü-özünü görmür və şey gözə yaxınlaşdıqca və sonda gözlə məsafə sıfıra bərabər olduqda o da görünməz olur. Beləliklə, görmə hissiyyatının yaranması üçün mütləq şeyin gözdən bəlli məsafəyə uzaqlaşması lazımdır. Buradan da, biz görünmənin başlanğıcını məsafənin minimumu kimi təyin edirik, hansı ki məsafə sıfıra bərabər olanda görmə baş tutmur. Beləliklə, görmə hissiyyatı ilə məkanla şərtlənmə vəhdət təşkil edir, biri digərsiz meydana çıxmır. Buradan deyə bilərik ki, məkanla şərtlənməyə verilən istənilən qiymətin əsasını görmə hissi – hissiyyat təşkil edir. Məkanla şərtlənmə ayrılıqda görmə hissiyyatı ilə vəhdətin pozulmasından aksidensiya kimi təyin olunur. Ona görə də, hissiyyata əsaslanmamış məkanla şərtlənmə haqqında mühakimənin başlaması mümkün deyildir. Tutaq ki, fikrən məkanı bütün hissi qavranılan şeylərdən boşaldaq. Onda biz məkanda məsafəni necə tə-

yin edə bilərik? Başqa sözlə, məsafəliliyi – məkanla şərtlənməni təyin etməmişdən öncə fərdi şey tələb olunur, hansı ki görməliyik. Yəni görmədiyimiz şeyin məsafəliliyini də mühakimə ilə təyin edə bilmərik. Belə olmasaydı, onda Yoxluqların da məsafəsini təyin etmiş olardıq ki, bu da absurddur.

Xalis məkanla şərtlənmə iki cür mühakimə ilə aşkarlanır. Birincisi hissi qavranılma ilə. Hissi qavranılma bilavasitə təcrübədən əldə edilir. Məkanla şərtlənmənin təyininin ikinci forması abstrakt mühakimə ilədir. Belə ki, bu yolla biz *C. Berklinin* dediyi əvvəlki təcrübəyə əsaslanmış mühakimə aktından meydana çıxan və görmə hissiyyatından ayrılmış, məkanla şərtlənmə haqqında bilgidən istifadə etməklə yeni məkani şərt haqqında bilgi əldə edirik. Bəs, hissiyyat əsasında məsafə haqqında mühakimə necə meydana çıxır? Yuxarıda qeyd etdik ki, məsafə ideyası özündə bir şeyin başqa şeyə və ya bir şeyin bir hissəsinin başqa hissəsinə olan nisbətinin görmə hissiyyatında yaratdığı təəssüratdan əldə edilən ideyadır. Əgər hissi şeyin tamlığı və ya fərdi şeyin hissəsi yoxdursa, onda məsafə ideyası da yaranmır və ya əksinə, şeylər və hissələr arasındakı nisbət dəyişilirsə məsafə ideyası da dəyişilir. Məsələn, atom hissəsi olmayan olduğundan biz onu görmürük. Buradan da, məsafəni fərdi ölçülülüyə münasibətdə aksidensial xarakteristika kimi təyin edə bilərik. Məsafənin aksidensiallığının aşağıdakı səbəbləri vardır: Birincisi, formanın keçiciliyinə görə aksidensiallıq: hər bir forma keçicidir və formanın dəyişilməsi mahiyyəti dəyişdirmir. İkincisi, şüurun şeyə əlavə etdiyi kimi aksidensiallıq. Yəni, şey başqa şeylərə və subyektə məsafəsindən asılı olmayaraq özü ilə eyni ölçülüdür, buna görə də, fərdi ölçülülükdən məsafə ideyası yaranmır. Fərdi ölçülülük haqqında bilgi görmə ilə əldə edilmir. Məsələn, "Bir metr uzunluqda tir" dedikdə biz onun bizə yaxın və ya uzaq olduğunu təyin edə bilmirik, yəni bizdə məsafə ideyası yaranmır, çünki şeyi görmürük, sadəcə şeyin belə ölçüyə malik olması haqqında abstrakt bilgi əldə edirik. Görmə ümumiyyətlə məsafə ilə şərtləndiyindən, biz çox uzaq və ya çox yaxın məsafədən görmürük.

Məsafə özü-özündə iki cür müəyyən olunur:

Haşiyə: *Q. V. Leybnits*, "İdeyalar haqqında"

"İki cismi ayıran uzunluq kimi baxılan məkan məsafə adlanır. Əgər ona uzunluq, en və dərinlik kimi baxılırsa, onda onu həcm adlandırmaq lazımdır. Məsafəyə ya mütləq şəkildə, ya da özündə baxılan şeydən ibarət olan müəyyən fiqura münasibətdə baxıla bilər."

Leybnitsin fikirlərindən görünür ki, görmə zamanı biz bir tərəfdən şeyin hissələrinin bir-birinə münasibətini, digər tərəfdən şeyin başqa şeyə məkanda münasibətini müəyyən edirik. *Leybnits* birincini mütləq, ikincini nisbi məsafə adlandırır.

1. **Mütləq məsafə – fərdi maddi şeyin hissələrinin məkanda eyni zamanda müxtəlif nöqtələrdə aydınlaşmasından aşkarlanan məsafə:** Bu məsafədən şeylərin həndəsi forması meydana çıxır. Maddi şeyin həndəsi forması özündə-şeyin hissələrinin məkanda bir-birinə daxili münasibətini təqdim edir. Belə münasibət daxili olduğundan xarici şeylərin ölçülülüyündən və onlarla məsafəsindən asılı deyil. Məsələn, kürə formalı bir şeyi məkanda istənilən yerdə və istənilən digər şeylərlə birlikdə kürə şəklindədir. Çünki kürəliliyin səbəbi immanentdir. Bu münasibət subyektdən və başqa şeydən asılı olmadığından, bilavasitə maddi şeyin özündən əldə edildiyindən şeyin özü-özündə ölçülülüyünün – immanent ölçülülüyün təzahürü kimi meydana çıxır.
2. Nisbi məsafə – hissi qavranılan maddi fərdi şeylərin bir-birindən ayrılıqda eyni zamanda məkanın müxtəlif nöqtələrində aydınlaşmasından aşkarlanan məsafə: Belə məsafə maddi şeylərin bir-birinə nisbətdə məkanda yerləşməsindən təyin olunduğundan özündənkənar ölçülülüyün təzahürü kimi meydana çıxır və məkanda vəhdət təşkil edən digər şeylərin fərdi ölçülülükləri arasındakı fərqdən əldə edilir.

Beləliklə, görmədə forma fərdi ölçülülük (mütləq məsafənin) və ümumi ölçülülük (nisbi məsafənin) vəhdəti kimi təfəkkürdə refleksiya olunur. Mütləq məsafə ilə nisbi məsafə bir-birinin əksiliyi kimi meydana çıxır. Buna görə də, fərdi şeylərin özündəölçülülüyündən onların əksiliyi

kimi nisbi məsafəni, şeylərin özündənkənar ölçülülüyündən (şeylərarası məsafədən) onun əksiliyi kimi fərdi ölçülülüyü müəyyən edirik. Hər iki ölçülülük əksiliklərin tərəfi kimi həm də vəhdət təşkil edir. Belə ki, nisbi məsafə olmadan fərdi ölçülülük, mütləq məsafə olmadan özündənkənar ölçülülük meydana çıxmır. Məsafəsiz bütün görünən aləm sonsuz ölçülülüyə malik vahid fərdi şey kimi mövcuddur. Buradan da ölçünü və məsafəni sonsuzluğun sonluya keçməsi, vahidin təklərə ayrılması kimi təyin edə bilərik. Məhz məsafəyə görə biz cəmdən fərdi şeyləri görmə ilə ayırırıq.

Haşiyə: *Leybnits*, "İnsanın ağıllanması haqqında yeni təcrübələr"

"İki cismi ayıran, uzunluq kimi baxılan məkan məsafə adlanır. Daha dəqiq ifadə etsək, məlum şəkildə yerləşmiş iki şey arasındakı məsafə, onların birindən digərinə aparılması mümkün olan qısa xəttin vahididir."

Leybnitsin məsafə haqqında fikirlərindən görünür ki, məsafə görmədə iki şey arasında fikrən çəkilməsi mümkün olan xətt kimi təsəvvür olunur, hansı ki belə fikri xətlərin mümkünlüyündən obrazlar və onların qarşılıqlı əlaqəsi təfəkkürə həkk edilir.

Məsafə haqqındakı bilgi ölçülülüyün dəyişilməsindən əldə edilir. Ölçülülüyün dəyişilməsinin aşağıdakı növlərini ayırmaq olar:

1. Özü-özündə ölçülülüyün dəyişilməsi: Belə dəyişilmənin də özü-özündə iki forması var:

a. **Xarici səbəblərdən** özü-özündə ölçülülüyün dəyişilməsi. Məsələn, bir cismi hissələrə ayırdıqda və ya ona başqa hissə əlavə etdikdə onun ölçüsü özü-özündə dəyişilir.

b. **Daxili səbəblərdən** özü-özündə ölçülülüyün dəyişilməsi. Məsələn, canlı fərdlər zamandan asılı olaraq böyüyürlər, özü-özündə ölçülülüklərini dəyişirlər.

2. Özündənkənar ölçülülüyün dəyişilməsi: Belə dəyişilmə şeylərin ölçülərinin görmə məsafəsinə görə dəyişməsini özündə təqdim edir. Məsələn, biz yaxından gördüyümüz şeyi uzaqdan gördükdə bizdə eyni ölçü

hissi yaranmır. Buradan da, özündənkənar ölçülülüyün dəyişilməsinin məsafə hissi ilə bağlı olduğu aşkarlanır.

Bilavasitə görmə hissiyyatından məsafə haqqında mühakimə bir neçə yolla meydana çıxır:

a. Kəmiyyət dəyişilmələri ilə məsafə haqqında təsəvvürün meydana çıxması: Belə mühakimə hissi ölçülülüklə qeyri-hissi ölçülülüyün müqayisəsindən alınır. Hər bir predmet subyektdə elə məsafədə ola bilər ki, onun özü-özündə hissi ölçülülüyü ilə qeyri-hissi ölçülülüyü eyniyyət təşkil etsin. Amma subyektlə münasibətdə hissi predmetin məkanda yerdəyişməsində bu ölçülülüklər məsafədən asılı olaraq bir-birindən fərqlənməyə başlayır. Belə ki, hissi ölçülülük dəyişilir, amma qeyri-hissi ölçülülük özü-özündə sabit qalır. Buradan da, tutaq ki, bir metr qeyri-hissi ölçülülüyü olan şeyin 10 sm hissi ölçülülük kimi görünməsindən mühakimə ilə həmin şeyin bizimlə əvvəlki məsafəsindən on dəfə uzaqda olması haqqında təsəvvür əldə edirik. Belə təsəvvürü biz həm də görmə məsafəsində daha çox şeyin və ya boşluğun daxil olmasından da əldə edirik. Əgər məkanda ümumiyyətlə görünən tək və eyni şey olsaydı, onda biz yalnız həmin şeydən görmə hissiyyatı əldə edərdik və həmin şeyin hansı məsafədə olmasını təyin edə bilməzdik. Amma görünən predmetlər çoxaldıqca onların hər biri digərinin görmə hissi yaratmasını entropiyaya məruz qoyur; nəticədə, görmə sahəsinə nə qədər çox şey daxil olursa, bir o qədər hər bir şeyin dəqiq hissiyyat yaratması azalır və lap uzaqda olan şeylərin hamısı eyni bir şey kimi hissiyyat yaradır. Beləliklə, məsafə hissi görməyə təqdim olunan hissi predmetlərin sayının artmasına uyğun görmə hissiyyatına təsirinin fərqindən alınır. Gözlə görmə hissi yaradan fərdi şey haqqında görüntüyə nə qədər çox başqa şey daxil olursa, həmin şeyin bir o qədər uzaqda olduğu aşkarlanır. Çox şeyin eyni vaxtda gözə görünməsi zamanı sanki onlar öz real ölçülərini kiçildirlər. Əks halda öz real ölçülərində yenə də göz yalnız bir şeyi görərdi, ətrafdakı şeylər isə görünməz olardı. Amma bu, təcrübədə istisna olunur, çünki bütün şeylər məsafədən asılı olaraq görmə hissiyyatının yaranmasında iştirak edir. Tutaq ki, biz

hər hansı bir şeyi elə görmə məsafəsinə yerləşdiririk ki, ondan başqa heç bir kənar şey və ya boşluq görmürük. Sonra tədricən həmin şeyi görmə məsafəsindən uzaqlaşdırmağa başladıqda yeni predmetlərin və boşluğun görmə hissiyyatına daxil olduğunu görürük. Nəticədə, nə qədər çox şey eyni bir şeylə görmə hissiyyatına daxil olursa, biz bir o qədər hissi məsafəni təyin etmiş oluruq.

b. Keyfiyyət dəyişilmələri ilə məsafə haqqında təsəvvürün meydana çıxması: Hissi ölçülülük şeyin keyfiyyət kateqoriyasına daxil olur və böyük, kiçik kimi anlayışlarla ifadə olunur. Böyük və ya kiçik anlayışı özü-özündə heç bir mütləq məna daşımır. Belə ki, böyük və kiçik yalnız obyektin obyektlə və ya subyektlə müqayisəsindən əldə edilir və nisbi məna daşıyır. Məsələn, "beş yaşında uşaq bir yaşında uşaqdan böyükdür, on yaşında uşaqdan kiçikdir". Buradan da beşyaşlı uşağın mütləq ölçülülüyü naməlum qalır, onun yalnız bir və on yaşlı uşaqla müqayisədə nisbi ölçülülüyü əldə edilir. Nisbi ölçülülük keyfiyyət kimi dərk olunur. Beləliklə, biz keyfiyyət dəyişilmələri ilə məsafə ölçülülüyü haqqında təsəvvürləri hissi predmetlərin bir-biri ilə müqayisəsindən əldə edirik.

Görmədə fərdi şeyin keyfiyyət dəyişilmələrinin aşağıdakı səbəblərini ayırd etmək olar:

a. **Obyektin və ya subyektin bir-biri ilə müqayisədə məkanda yerdəyişməsi:** Hər hansı bir kürə şəklində fərdi şey götürək və onu birinci halda elə görmə məsafəsində yerləşdirək ki, gözümüz ondan başqa heç bir başqa şey görməsin. Sonra həmin şeyi gözümüzdən uzaqlaşdırarkən buna uyğun ölçülərini elə böyüdək ki, yenə gözümüz ondan başqa bir şey görməsin. Biz bunu sonsuza qədər davam etdirsək də, şeyin bizdən uzaqlaşdığını – məsafəni təyin edə bilmərik. İkinci halda, eyni şeyi böyütmədən görmə məsafəsindən uzaqlaşdıraq. Bu zaman şey uzaqlaşdıqca, biz əlavə şeylər görməyə başlayırıq və şey nə qədər çox uzaqlaşırsa, gördüyümüz şeylərin sayı da artır. Sonsuz uzaqlığa baxdıqda biz sonsuz sayda şeyləri görmüş oluruq, amma bu zaman fərdi görüntülər ümumi görüntü ilə əvəzlənir, yəni təklər cəm-

də itir. Buradan da məsafə hissi haqqında təsəvvürün görməyə əlavə şeylərin daxil olması, yəni hissiyyatın müxtəlif şeylərdən əldə edilməsi ilə yarandığını deyə bilərik. Beləliklə, hissi məsafə eyni bir şeylə görmə sahəsinə başqa predmetlərin daxil olmasından əldə edilmiş olur. Biz şeyləri elə sonsuz məsafəyədək uzaqlaşdıra bilərik ki, onlar görünməz olar, yəni şeylərin özündəölçülülüyü özündənkənar ölçülülüyə keçər. Məhz bu cür keçid metafizik məsafəni meydana çıxarır. Yəni metafizik məsafə o məsafədir ki, həmin məsafədən bütün mövcudluqların özündəölçülülüyü məsafəyə keçir və konkret şeylər olmadığından belə məsafəni yalnız təcrübədən kənar, fikrən aşkarlaya bilərik. Buradan da gerçək aləmlə metafizikanın məsafəsini aşkarlamış oluruq.

b. **Şeyin hissələri ilə tamının münasibətinin dəyişilməsi:** Görmə məsafəsindəki şeyi özümüzdən uzaqlaşdırmadan, onu tədricən hissələrə ayıraraq həmin şeyin tamının kiçildiyi haqqında təsəvvür əldə edirik. Bu zaman şey kiçilir, sanki bizdən uzaqlaşır, baxmayaraq ki, şey öz əvvəlki yerində qalır. Biz şeyi fikrən elə kiçik hissəciklərədək ayıra bilərik ki, o, bizdən sonsuz uzaqlıqda olanın təsəvvürünü yaratsın. Belə təsəvvürdə şeyin mövcudluğu özü-özündə itir, əvəzində sadəcə fikrən yaradılmış xalis sonsuz məsafəlilik qalır, hansı ki özündə metafizik uzaqlığı (məsafəliliyi) təqdim edir.

c. **Fokus məsafəsində yerdəyişmə:** Belə keyfiyyət dəyişilməsini görmə borusu ilə əyani müşahidə etmək olar. Hər hansı bir şeyə görmə borusunun müxtəlif tərəfləri ilə baxaq. Əgər yaxındakı şeyə görmə borusunun müxtəlif tərəfləri ilə baxsaq, bir halda o, sanki həddən artıq yaxın, digər halda həddən artıq uzaq olduğunu görəcəyik. Eyni ilə uzaqda olan şeyə baxsaq, birinci halda onun daha da uzaqda olduğunu, ikinci halda isə daha yaxında olduğunu görəcəyik. Belə keyfiyyət dəyişilməsi şeyin fokus məsafəsində yerləşdirilməsindən asılılığını özündə ifadə edir. Əgər biz şeyi ümumiyyətlə fokus məsafəsindən çıxarsaq, biz onu görməyəcəyik. Məsələn, bizə yaxın və uzaqlığından

asılı olmayaraq bizdən arxada olan və ya bizimlə yan-yana olan şeyi görmürük. Bu baxımdan metafizik aləm heç bir halda görmə fokusuna gətirilməsi mümkün olmayan şeylərdən təşkil olunmuş aləm kimi təsəvvür oluna bilər. Məsələn, biz sözləri görmürük, çünki onları fokus məsafəsinə yerləşdirmək sadəcə mümkünsüzlükdür.

d. **Görmədə hissələrin bir-birinə münasibətdə ixtisara salınması:** Biz çıxıntıları olan və səthi nahamar olan iki fərdi şeyi görmə məsafəsindən tədricən uzaqlaşdırmağa başlayaq. Uzaqlıqdan asılı olaraq baş verən kiçilmədə çoxçıxıntılı şeydə öncə ən kiçik hissələr ixtisara düşür, sonra tədricən ondan böyüklər ardıcıllıqla ixtisara düşür, lap sonda istənilən forma ən kiçik formaya çevrilənədək ixtisarlaşır, nəticədə istənilən forma sonda kürə şəkli alır. İkinci fərdi şey də gözdən uzaqlaşdıqca onun səthi görmədə kiçildiyindən səthindəki batıqlar sanki doldurulur, yəni hissələr arasındakı məsafə fərqi itir və səth hamarlaşır. Beləliklə, keyfiyyət dəyişilməsi çıxıntıların ixtisara salınması (şeydən uzaqlaşdırılması), batıqların doldurulması (yəni şeyə özündən nəsə əlavə edilməsi) ilə qavranılır.

e. **Görmə məsafəsindən asılı olaraq həndəsi formaların bir-birinə keçməsi:** Biz təcrübədən bilirik ki, müəyyən uzaqlıqda istənilən həndəsi forma kürə şəklində görünür. Bunun da özlüyündə iki səbəbi vardır: birincisi, şeylərin uzaqlaşdıqca kürə şəkli alması fərdi şeyin kənar fərdi şeylər tərəfindən gözə təsirinin sıxışdırılması ilə bağlıdır və həndəsi formalar içində ən kiçik həcm kürə olduğundan, istənilən forma başqa formalar tərəfindən kürə şəklində görünənə qədər sıxışdırılır. İkincisi, məsafədən asılı olaraq fərdi şeylərin kürə şəkli alması həm də gözün quruluşu ilə bağlıdır. Göz alması kürə və göz dibindəki görmə nöqtəsi – işıq şüalarının düşərək qıcıq yaratdığı sahə – dairə şəklindədir. Formalarının eyniliyindən çıxış edib demək olar ki, kürə forması göz almasının və göz dibinin forması ilə eyniyyət təşkil etdiyindən, göz kürə formasını bir cür, qalan formaları başqa cür dəqiqliklə görür. Buradan da deyə bilərik ki, qeyri-kürə formalarında görmə in-

tensivliyi iki cür dəqiqliklə meydana çıxır. Şeyin kürə forması təşkil edə biləcək hissəsi bir, digər qalan hissələr fərqli intensivlikdə hiss yaradır. Buna görə də, göz istənilən formanı görmədə özünə uyğun kürə şəklinə salmağa meyl edir. Biz hər hansı qeyri-kürə formasına baxanda həmin şeydən kürə formasındakı hissə görmədə daha dəqiq görünür, digər hissələr isə şeyin kürə formasına sığan hissəsindən fərqli intensivlikdə görünür. Buna görə də, şeylər uzaqlaşdıqca onların az intensivlikdə görmə hissi yaradan hissələri ilk növbədə ixtisara düşür, məsafə artdıqca az intensivli görmə sıradan çıxır. Sonda istənilən şeydə bərabər intensivlikdə görünən kürə formasındakı hissə qalır ki, bu da istənilən fərdi şeylər üçün eyni formada – yəni kürə formasındadır. Bu məsafədən sonra şey uzaqlaşdıqca yalnız kürə formasının ölçüləri kiçilir. Biz gözün görmə zamanı istənilən formalı fərdi şeydə kürə formasında daha dəqiq gördüyü hissəsini mütləq görmə sahəsi kimi təyin edirik. Ona görə də, görmə zamanı məsafədən asılı olaraq göz istənilən formanın kürə forması yaradan hissəsini görməkdə davam edir. Qalan hissələr isə görmədə nisbi görüldüyündən sıradan çıxır. Kürə forması ən sadə, birincili, spontan və avtonom şəkildə hər şeydən aydınlaşdığından biz kürəni metafizik statuslu forma kimi təyin edə bilərik.

f. **Şeylərin bir-birinə məsafəsinin dəyişilməsi:** Belə dəyişilmə iki şey arasındakı məsafənin subyektdən birlikdə uzaqlaşması ilə meydana çıxır. Məsələn, subyekt yerini dəyişmədən A və B arasındakı eyni sabit ölçü ilk təcrübədə bir metr, ikinci təcrübədə 10 sm görünürsə, (yəni ölçü on dəfə kiçilirsə), onda biz həmin şeylərin əvvəlki yerdən on dəfə uzaqda olduğunu mühakimə ilə aşkarlayırıq. Beləliklə, şeyin real ölçülülüyünün görmədə ixtisara düşməsi təfəkkürdə məsafəliliyə əlavə olunur və biz eyni ölçülü şeyi nə qədər kiçik görürüksə, onun bir o qədər uzaq məsafədə olmasını mühakimə ilə aşkarlayırıq.

g. **Təcrübələrin əvəzlənməsi:** Əvvəlki təcrübədən məkani ölçülülüyü haqqında bizdə dəqiq məlumat olan bir şeyi biz mövcud təcrübədə

həmin ölçüdən kiçik olması dərəcəsindən şeyin bizdən məsafəsi haqqında mühakimə yürüdürük. Bu zaman iki hissi təcrübənin fərqindən məsafə haqqında məlumat yaranır. Belə mühakimə hissi təcrübəyə əsaslanır. Amma hissi təcrübədə ölçülülüyü haqqında məlumatımız olmayan şeyin bizdən məsafəsini görmənin iştirakı ilə təyin edə bilmərik. Məsələn, göydə bir-birindən milyon dəfələrlə fərqli uzaqlıqda olan ulduzları görürük, amma onların hər birinin Yerdən uzaqlığını mühakimə aktı ilə aşkarlaya bilmirik və onları özümüzdən eyni uzaqlıqda hiss edirik. Çünki belə mühakimə hissi təcrübəyə əsaslanmır.

h. **Məsafənin görmənin iştirakı olmadan təyini:** Şeylər elə uzaq məsafədə ola bilər ki, onlar adi gözlə görünməz və yalnız xüsusi cihazların köməyi ilə aşkarlana bilər. Bu zaman fərqli cihazlar fərqli uzaqlıqdakı şeyləri aşkarlamağa imkan verdiyindən, biz cihazların fərqliliyindən məsafəni mühakimə ilə təyin edirik. Məsələn, bir cisim görmə borusu ilə görünmürsə, yalnız teleskopla görünürsə və biz bilirik ki, görmə borusu, tutaq ki, on km uzaqlıqda olan şeyləri görməyə imkan verir, onda deyə bilərik ki, yalnız teleskopla görünən, amma görmə borusu ilə görünməyən obyekt on kilometrdən uzaq məsafədədir. Burada nə təcrübə, nə hissiyyat iştirak edir; məsafə haqqında məlumat abstrakt mühakimə ilə əldə edilir.

Xarici görüntünün ikinci elementi rəngdir. Rəng də həndəsi forma kimi aksidensialdır. Rəngin aksidensiallığı iki tərəflidir. Birincisi, heç bir fərdi şeyin öz rəngi yoxdur. Rəng ağ işığın – mürəkkəb işığın – fərdi şeylərin səthinə düşərkən şeyin onun tərkib hissələrini fərqli bucaq altında sındırmasına görə yaranır. Buna görə də, ən sadə rəng olan qara rəng bütün şeylər üçün eynidir. Yəni ağ işıq olmadıqda bütün şeylər eyni bir qara rəngdə görünür və ya istənilən şeyin üzərinə qara işıq salmaq mümkün olsaydı, onların hamısı qara rəngdə olardı. Bəs təcrübədə qara işıq yoxdursa, onda bütün şeylərin qara rəngdə görünməsi nə ilə bağlıdır? Bizcə, hər bir şeyin təbiətindəki işıq – İlahi nur – mənbəyi özündə olan işıq, həmin şeylərin ağ işıq olmadıqda qara rəngdə görünməsinin səbəbi kimi çı-

xış edir. Yəni qara rəng substansial rəngdir. Elmdə "qara dəlik" kimi istifadə edilən anlayış əslində İlahi Nuru özündə təqdim edir, hansı ki yaranışla bilavasitə sıx bağlıdır. Ağ işığın tərkib hissələrinin yayılma məsafəsi eyni deyildir. Yəni ağ işıq tərkib hissələrinə ayrıldıqdan sonra sadə rənglər fərqli məsafələrə yayılır. Ağ işıqdan sonra ən uzaq məsafəyə yayılan rəng sarıdır. Ona görə də Kainatın dərinliklərindəki cisimlər ya ağ, ya sarı ulduzlar kimi görünür. Digər rənglər isə görmə məsafəsindən asılı olaraq daha qısa məsafələrə yayılır. Məsafə artdıqca cismin rəngini aydınlaşdıran işıq şüası getdikcə öz parlaqlığını itirir, sonda müxtəlif rəngli fərdi şeylər bəlli bir məsafədə qara rəngdə görünürlər. Buradan da rəngin parlaqlığının azalması və itməsinə görə məsafə haqqında mühakimə aparırıq. Bütün həndəsi formaların məsafədən kürə şəklində görünməsinə uyğun olaraq, bütün rənglər uzaq məsafədən eyni bir qara rənglə görünür. Qara rəng ən sadə rəng kimi daxili-immanent rəngdir, hansı ki xarici işıqlanmadan asılı olmayaraq hər bir şeydən aşkarlamaq olur. Buradan da qara rənglə kürə formasını görünən ən sadə görüntülər kimi dəyərləndirmək olar. Qara rəng ən sadə, birincili və spontan aydınlaşdığından metafizik statuslu obyekt kimi təyin edilə bilər.

Ağ işıq öz tərkib hissələrinə reallıq statusuna malik obyektlərin quruluşunun və tərkibinin onun təsirinə – işıqlanmaya – əks-təsirindən, entropiyaya məruz qalmasına görə ayrılır. Beləliklə, rəngin əmələ gəlməsi ikili şərtlənmişdir:

İşıq dalğaları ilə şərtlənmə: Ağ işığın tərkib hissəsini təşkil edən rəngli işıq şüalarının dalğa uzunluğu fərqli ölçülülükdə olduğundan məkanda fərqli məsafələrə yayılırlar və nəticədə onların yayılması ilə məsafə haqqında məlumat əldə edirik. Məsafədən asılı olaraq rənglər bir-birinə keçir və nəhayətdə bəlli bir məsafədə bütün rənglər bir rəngə – qara rəngə keçir. Rənglərin bir-birinə keçməsinə görə biz obyektin məkanda məsafəsini təyin edə bilirik.

Haşiyə: *Epikur*, "Məktublar və fraqmentlər; Təbiət haqqında. XI kitab"

"Əgər Günəş məsafə nəticəsində öz ölçüsünü itirsəydi, onda o, çoxdan rəngini də itirərdi; belə ki, bunun üçün əlverişli bundan başqa heç bir məsafə yoxdur."

Epikurun fikirlərindən bir daha görünür ki, məsafədən asılı olaraq obyektin ölçülərinin dəyişilməsinə uyğun olaraq onların rənginin də dəyişilməsi baş verir. Rənglərin bir-birinə keçməsi həm də dalğa uzunluğundan asılı olaraq fərqli rəngli dalğaların məkanda fərqli sürətlə yayılması ilə bağlıdır. Belə ki, məkanda hərəkət sürətinin müəyyən həddində bir rəng başqa rəng kimi görünür. Məsələn, işıq sürətinə yaxın sürətli hərəkətdə qırmızı işıq yaşıl işıq kimi görünür. Buradan da sonsuz sürətli hərəkətdə bütün rənglərin bir qara rəngə keçdiyini deyə bilərik. Beləliklə, qara rəng və qaranlıq mütləq uzaqlığı özündə ifadə edir, hansı ki metafizikanın təbiətdən məsafəsinin təsvirini yaradır.

Rənglənən obyektlə şərtlənmə: Rənglənən obyektlə şərtlənmə həm obyektin tərkib hissəsindən, həm də strukturundan asılıdır. Belə ki, eyni tərkibli müxtəlif strukturlu maddələr müxtəlif rəngli görünür. Məsələn, bərk halda su buz və ya qar kimi ağ rəngdə, maye halda mavi rəngdə görünür. Eləcə də eyni strukturlu, amma müxtəlif tərkibli maddələr müxtəlif rəngli görünür. Məsələn, şüşə tərkibində müxtəlif elementlərin iştirakından asılı olaraq ən müxtəlif rənglərdə olur. Obyektin rənginin onun tərkibi və strukturu ilə şərtlənməsinə uyğun biz rəng dəyişilmələrindən ölçülülük və məsafə haqqında bilgi əldə edirik. İşıqlanma olmadan bütün predmetlər qara rəngdə görünür. Bu, həmin predmetlərin işıq mənbəyindən mütləq uzaq məsafədə olduqlarını özündə ifadə edir. Burada mütləq uzaqlıq işıqlanmanın mümkünsüzlüyünü özündə ifadə edir. Biz sonsuz fəzaya baxarkən çox böyük ölçüdə qaranlıq görürük; bu həmin qaranlığı təşkil edən milyardlarla sayda olan obyektlərin bizdən mütləq uzaqlıqda olduğunu sübut edir. Buradan da, biz metafizikanın ağ işığın nüfuz edə bilmədiyi məsafədə, mütləq qaranlıqda olduğunu deyə bilərik.

Görüntünün üçüncü elementi saydır. Say fərdi şeyin məkanda təkrarlanmasından meydana gəlir və biz görmə ilə sayı müəyyən edirik. Forma

və rəng kimi say da aksidensialdır. Sayın aksidensiallığı onun başqasından asılı olduğunu göstərir. Məsələn, fərdi şeyin iki şey olması üçün mütləq ikinci fərdi şey zəruridir. Ona görə də fərdi şeyin iki şey olması ondan yox, başqasından asılıdır. Məsafə ilə bağlı mühakimə həm də sayla bağlı meydana çıxır. Sayla məsafə arasındakı əlaqəni biz sıxlıq kimi təyin edirik. Sıxlıq nə qədər böyükdürsə, şeylər arasındakı məsafə bir o qədər kiçik olur və şeylər arasındakı məsafə nə qədər kiçilirsə, (sıxdırsa), onlar bir o qədər tək kimi görünür. Eləcə də məsafə uzandıqca fərdi şeylər arasındakı məsafə getdikcə qısalır və sonda itir. Şeylər sanki subyektlə məsafədən asılı olaraq sıxlaşır; nəticədə subyektlə məsafədən cəm tək kimi görünür. Metafizik statuslu obyektlər məsafədən asılı olmayaraq çoxluq kimi görünməsi istisna olunan obyektlərdir.

Beləliklə, göründüyü kimi, məsafə hissi xarici görüntünün hər üç elementinin yaratdığı hissi dəyişilmələrdən yaranır. Ayrılıqda xarici görüntünün bir elementinin dəyişilməsindən məsafə haqqında mühakimə meydana çıxmır. Məsələn, tutaq ki, hər hansı bir şeyin forması və sayını olduğu kimi saxlayaq, ancaq rəngini dəyişək; bundan məsafə hissi meydana çıxmayacaq. Və ya şeyin formasını və ya sayını ayrı-ayrılıqda dəyişsək belə, xarici görüntüdən məsafə haqqında məlumat əldə etmək olmaz. Hətta xarici görüntünün hər bir elementini bir-birindən ayrılıqda müstəqil dəyişsək, yenə də məsafə haqqında məlumat əldə etmirik. Məsələn, bir şeyin formasını dəyişək, sonra rəngini və daha sonra sayını. Bu dəyişilmə məsafə hissi yaratmır. Yalnız xarici görüntünün hər üç elementi bir-birinə paralel və bir-birindən asılı olaraq dəyişdikdə məsafə hissi yaranır. Yəni formanın dəyişilməsi rəngi və sayı da avtomatik dəyişdirirsə və ya rəngin dəyişməsində say və forma da dəyişirsə, bundan məsafə haqqında bilgi meydana çıxır. Yəni şeyin həndəsi forması məsafədən asılı olaraq getdikcə kiçilir və dəyişilərək kürə şəkli alır, fərdi şeylərin rəngləri məsafədən asılı olaraq tədricən parlaqlığını itirir və sonda qara rəngdə görünür, nəhayət şeylərin sıxlığı məsafədən asılı olaraq artır və sonda cəm tək kimi görünür. Bütün fərdi şeylərin eyni formalı, eyni rəngdə və tək bir

şey kimi görünməsi metafizik təsəvvür kimi mövcud olur. Məhz obrazların bu cür dəyişilmələri ilə biz şeyin yerini, məsafəsini, sayını, ölçüsünü, rəngini və s. təyin edirik. Bu cür dəyişilməyə məruz qalan obrazlar əqli əməliyyatlar üçün zəruri olan obrazların hərəkətliliyini özündə əks etdirir. Görmə zamanı məsafə ilə bağlı baş verən dəyişilmələr başlanğıcı özündə təqdim edir, hansı ki formanın, rəngin və sayın ən ümumi başlanğıcı kimi qaranı, küreni və təki aşkarlayır. Beləliklə, görmə sadəcə hissiyyat deyil, biz görmə ilə – təbii işığın köməyi ilə – əqli mühakimə ilə əldə etdiyimiz bilginin abstrakt reallığını əldə edirik, hansı ki ağlın işığında təfəkkürdəki bilgidən abstraksiya ilə əldə edilən biliyə uyğundur.

B. Xalis Zəka Ölçülülüyü – Mühakimə Noumenləri

Təcrübədən əldə edilən mühakimə noumenləri varlığın ümumiliyindən (mövcudluqdan) çıxarılıb təfəkkürdə noumen kimi saxlanılır və istənilən vaxt zərurətə görə idrak prosesində təfəkkürdən çıxarılıb təcrübədə idrak olunan ayrılıqda götürülmüş istənilən əbədi şeyin xüsusi keyfiyyətinə ən ümumi əsas və ya keyfiyyət kimi spontan əlavə edilir. Metafizikaya mühakimə ilə keçid – transsendensiya – özündə təbii ölçülülüyün xalis zəka ölçülülüyü ilə əvəzlənməsi ilə mümkün olur. Məsələn, *Eynşteyn* təbii sürətin son həddi olan işıq sürətindən fikrən böyük sürəti götürərək nisbilik nəzəriyyəsini yaratmış, bununla da metafizik ölçülülüyə keçmişdir. Buna görə də xalis zəkanın ölçülülüyünü biz həm də mühakimə noumenləri kimi təyin edirik. Biz xalis zəkanın ölçülülüyü dedikdə xarici predmetin hissi ölçülülüyünün proyeksiyalandığı mühakimənin simvolik ölçülərini nəzərdə tuturuq. Üç cür xalis zəka ölçülülüyü ayırd etmək olar:

Ad: Hər hansı bir ayrılıqda götürülmüş tək özündə-şeyin təfəkkürdə avtonom və spontan refleksiyasını özündə ifadə edən özündə-ölçüləndirən sintetik sözlər (adlar) xalis zəkanın ölçülülüyü kimi mövcuddur. Yəni biz hər hansı bir şeyin adı ilə həmin şeyin özündə təqdim etdiyi xarici görüntünü (hissi ölçülülüyünü) tam əhatə edirik. Beləliklə, ad ayrılıqda bir şeyin görüntü kimi ölçülülüyünün təfəkkürdə yerləşdirilməsini özündə

təqdim edir. Bununla da ad təcrübədən kənar mücərrəd ölçülülüyə çevrilir. Təcrübə sahəsində obyekt-subyekt münasibətində hissi təfəkkürlə əvvəlcə mövcudluqdan özü-üçün-varlıq təyini aşkarlanır. Mövcudluğun özü-üçün-varlıq təyinindən həqiqəti aşkarlamağa cəhd edən şüur cari şüur və ya gündəlik adi şüur kimi meydana çıxır. Adi şüurla insanın həyat və yaşam təcrübəsi aktuallaşır. İnsan özünü əhatə edən və ilk baxışdan xaotik görünən çoxobrazlı gerçək aləmi, özünə təsirinə uyğun, təfəkkürdə refleksiyasından çoxformalı obrazlar və təsəvvürlər əldə edir. Obrazlar xalis formanı, təsəvvürlər mahiyyəti özündə refleksiya edir və hər bir təsəvvür idrak ardıcıllığına və həcminə uyğun simvollaşdırılır (adlandırılır). İki cür ad ayırd etmək olar: Sintetik ad və dialektik ad. Təbiət sferasında heç bir predmet hissi təsirlərindən (keyfiyyətlərindən) ayrılıqda mövcud olmur. Amma təcrübədə hissi qavrama zamanı subyekt hissi predmetin hissi təsirlərini onun şeyindən ayıraraq bədənə transfer edir və həmin təsirlər bədən vasitəsi ilə cavablandırılır; nəticədə təcrübə sahəsində hissi təsirlərdən arındırılmış xalis reallıq (özündə-şey) qalır, hansı ki həmin obyektin təfəkkürdə spontan və avtonom hissi təsirin iştirakı olmadan refleksiyası sintetik söz (ad) kimi təfəkkürdə olan obyekt kimi mövcud olur. Buna görə də biz özündə-şeydən hansı həqiqəti dərk ediriksə, sintetik sözlər həmin həqiqətin ideyalarını özündə təqdim edir. Bununla da sintetik sözləri özündə-şeyin mücərrəd eyniliyi kimi təyin etmək olar. Sintetik sözlər təfəkkürdə avtonom və spontan refleksiya etdiyindən, biz bu sözlərin nə vaxt, necə, hansı prinsiplərlə yaranmasını və özündə konkret hansı mənanı daşıdığını təyin edə bilmirik. Varlığın özü-üçün-varlıq təyini (xalis forma) özündə heçliyi təqdim etdiyindən, təfəkkürdə özü-üçün-varlıq təyininin refleksiyası kimi yaranan ad da özü-üçün-varlıq təyininin simvolu kimi abstrakt heçlikdir və xalis fikirlə vəhdət təşkil etmir. Xalis fikirlə vəhdət təşkil etmədiyindən varlığın totallığı ilə bilavasitə əlaqəsi olmur. Buna görə də mövcudluqların sintetik adında məna axtarmaq absurddur. Məsələn, "alma" sözündə səslərin ardıcıllığının və təkrarlanmasının alma adı altında simvollaşdırdığımız meyvənin quruluşu,

keyfiyyəti, mahiyyəti və s. ilə heç bir əlaqəsi yoxdur. Özü-üçün-varlıq təyini orijinal olub, hər bir varlıq faktı üçün ayrıcadır. Buna görə də ad da eynilə özündə orijinallığı təqdim edir. Orijinallıq mütləq nisbi həqiqətin nisbiləşməsinin sonunu özündə təqdim etdiyindən ad ən nisbi həqiqəti simvollaşdırır və buna görə addan məna əldə etmək mümkün deyildir. Yəni sintetik sözlərdə (adda) həqiqət yoxdur. Dialektik sözlər mühakimənin gedişində əldə edilən sözlərdir. Dialektik sözlər mühakimə aktında əldə edilən mənanı simvollaşdıran sözlərdən ibarətdir. Belə sözlərin başlanğıcı sintetik sözlərdən təşkil olunur. Amma özü konkret bir şeyin mövcud varlığından mühakimə ilə əldə edildiyindən sintetik sözlərdən fərqli olaraq mənaya malik olur. Məsələn, "susəpən" – bu sözdə "su" və "səpən" sözləri sintetik olduğundan bilavasitə mənaları yoxdur. Amma susəpən suyu ətrafa səpmək üçün istifadə edilən xüsusi qabı təqdim etdiyindən konkret mənası vardır. Beləliklə, göründüyü kimi, mənası məlum olmayan sadə sintetik sözlər bir-biri ilə birləşdikdə mənaya malik mürəkkəb dialektik sözləri yaradırlar.

Anlayış: Anlayış – eyni mahiyyətli, fərqli formalı çoxlu xarici şeyin bir adda yerləşdirilməsindən əldə edilən xalis zəka ölçülülüyüdür. Varlığın mövcud varlıq təyini xalis fikirlə özü-üçün-varlıq təyininin vəhdətindən ibarət olduğundan, mövcud varlığı ifadə edən simvollar həm də özlərində məna ifadə edirlər. Beləliklə, mövcud varlıq adla assosiasiya təşkil edən adla (anlayışla) simvollaşdırılır. Anlayış – qabaqcadan subyekt tərəfindən mahiyyətə uyğun məna verilmiş addan ibarətdir. Başqa sözlə, adın mənalandırılması ilə anlayış yaranır. Ad məna ilə vəhdət təşkil etmədiyindən idrak prosesində adın izahı tələb olunmur; bundan fərqli olaraq, mövcud varlıq təyinində xalis fikirlə özü-üçün-varlıq təyini vəhdət təşkil etdiyindən, hər bir anlayışın mənasını ifadə edən izahı mövcuddur. Bu baxımdan, izahı verilməyən anlayış da məna ifadə etməyən heçlik kimi çıxış edir. İzah konkret varlığın mahiyyəti ilə adın subyektdə əlaqələndirilməsidir. Addan fərqli olaraq, anlayışla varlıq arasında sıx əlaqə vardır. Yəni anlayış bir tərəfdən adla (abstrakt sözlə), digər tərəfdən varlığın xa-

lis fikri ilə vəhdət təşkil edərək varlıqda aydınlaşan həqiqətin təfəkkürdə refleksiya edilməsi ilə aşkarlanmasında iştirak edir. Anlayış özündə mövcudluğun xüsusi həqiqətini ifadə edir.

Haşiyə: *Corc Berkli*, "Görmə nəzəriyyəsi"

"İdeyanın səbəbi və gücü hissin yox, ağlın obyektidir. Səbəb haqqında bizim bilgimiz fəaliyyətlə, güc haqqında bilik bizim ideyalarla təyin olunur. Bir-biri ilə əlaqədə müşahidə olunan ideya, səbəb və nəticə münasibəti nöqteyi-nəzərindən baxılır; onda ciddi fəlsəfi həqiqətə görə, onlar yalnız şeyləri bildirən işarələrə aid olur. Köməkləri ilə aktual qavranılmayan şeylər bildirilən və ya təsəvvürlər təlqin edən, işarə kimi baxılan, başqa ideyalarla bağlı müşahidə olunan ideyalar onların olduğu obyektlərdir və hansı ki yalnız onları qavrayır. Məsələn, səsləri bəzi başqa şeylər təlqin edir, eyni şəkildə bu səsləri xüsusiyyət yaradır. Bizə aydındır ki, ideyalar onların özündən və bizdən fərqli, başqa gerçək səbəblərə malik olmalıdır. Görmə təbiətin yaradıcısının dilidir."

C. Berklinin şərhindən çıxış edib deyə bilərik ki, əgər görmə təbiətin yaradıcısının dilidirsə, onda şeylərin xarici görüntüsü yaradıcının sözləridir, dil həqiqətin idrakedicisinin (subyektin) sözləri görməsidir. Yalnız hissi qavranılan ideyalar bir-biri ilə assosiasiya təşkil etmir, bu zaman qabaqcadan təfəkkürdə bilavasitə özü-özündən qavranılan ideya ilə də assosiasiya yaranır. Xarici obyektin dərk edildiyinin dəqiqliyini üçüncü ideya müəyyənləşdirir. Biz bu üçüncü ideyanı mümkünlüyün ideyası kimi təyin edirik, hansı ki çoxlu imkandan birinin mövcudluq olmasını müəyyən etməyə imkan verir. Başqa sözlə, hissi obyektlərdən bilavasitə qavranılmayan ideya bəzi hallarda özü anlayış kimi obyektə çevrilir, amma real obyektdən fərqli olaraq təsəvvürdə mövcud olan obyektə. Anlayışların ardıcıllığından şeyin həqiqəti ideya kimi aşkarlanır.

Kateqoriya: Müxtəlif mahiyyətli və formalı istənilən mövcudluğu yerləşdirmək mümkün olan hipotetik konstruktor kateqoriya adlanır. Varlığın xalis varlıq təyinindən həqiqətin aydınlaşmasının aşkarlanması kateqoriyalarla simvollaşdırılır. Xalis varlıq xalis abstraksiya olduğundan, ka-

teqoriyalar da xalis abstrakt simvollardır. Əgər anlayış konkret mövcudluqla şərtlənmiş şəkildə meydana çıxırsa, həqiqətin ümumi xarakteristikasına uyğun kateqoriyalar hər hansı bir mövcudluqla əlaqələnmir və ən ümumi şəkildə bütün mövcudluqların mövcud olmasını (onların öz-özlərində aktuallaşmasının təfəkkürdə refleksiyasını) təmin edirlər. Xalis varlıq özü-üçün-varlıq təyini ilə vəhdət təşkil etmədiyindən, konkret bir varlıq sırasından yox, ən ümumi şəkildə real varlığın bütün sıralarında eynidir. Buradan da real varlığın xalis varlıq təyininin təfəkkürdə refleksiyasının simvolları kimi kateqoriyalar yaranır. Kateqoriyalar nə özü-üçün-varlıq təyinindən, nə mövcud varlıq təyinindən həqiqətin dərk olunmasında iştirak etmədiyindən konkret varlığın tərəflərini inkar edir, əvəzində bütün real varlıqlar üçün ən ümumi olan tərəfləri ifadə edir. İdrakda reallıq statusundan metafizik statusa keçid konkretin abstraksiyalaşdırılması ilə həyata keçirilir. Burada ayrılıqda götürülmüş konkret təcrübəni, abstrakt metafizikanı şərh edən anlayışlar kimi çıxış edir. Kateqoriya yunan sözü olub bir hissənin digər hissədən ayrılması, seçilməsi, sinfə, sorta bölünməsi; nəyinsə qoyularaq qaydalaşdırılması; insanların qapalı yerlərdən fərqli olaraq açıq yerlərdə toplanması, yuxarıdan aşağıya hamı üçün əlçatan olması üçün nəyəsə baxışı; nəsənin mövcudluğunu bildirən, öz xüsusi adı ilə yanaşı şeyin növ adı, bütün keyfiyyətlərin əsası, ağlın kateqoriyaları, ən ümumi olan mənalarını verir. Metafizik olaraq biz kateqoriyaların yalnız idrak obyektlərinin qoyularaq qablaşdırılması (ölçülənməsi), bütün keyfiyyətlərin əsası, ən ümumi olan mənalarından istifadə edə bilərik. Belə ki, hissi qavranılan idrak obyektlərinin hamısını qablaşdırmaq üçün zəruri olan qabaqcadan verilmiş mühakimə obyekti kimi; digər tərəfdən təbiətdə təzahür edən ən müxtəlif keyfiyyətlərin ümumi əsası təbiətdən kənarda olduğundan, metafizika təbiətdən əvvəl gəldiyindən təbiətdə olan ümumilərin ən ümumisi də ondan əvvəl metafizikada olduğundan, ən ümumi olanları özündə təqdim etdiyindən kateqoriyalar yenə də metafizik noumen kimi çıxış edir. Metafizikada kateqoriyalar mövcudluğun idrakının predmetləridir, başqa sözlə, metafizikada kateqoriyaları möv-

cudluğun noumenləri kimi təyin etmək olar, hansı ki istənilən şeyə aiddir, amma heç bir ayrılıqda götürülmüş tək şeydən aydınlaşmır, yalnız təfəkkürün özü-özündən aşkarlanır və idrak prosesində qabaqcadan məlum olan kimi spontan və avtonom şəkildə idrak obyektlərinə implikasiya edilir. Yəni təcrübədən aşkarlanan xüsusi həqiqətlər təfəkkürdə qabaqcadan mövcud olan kateqoriyalarla birləşdirilir; nəticədə həqiqi bilgi "istehsal" olunur. Məsələn, biz hər hansı bir şey haqqında düşünərkən onu yerinə, ölçülülüyünə, hərəkətinə və s. görə müəyyənləşdiririk. Bütün şeylərin yerinin məcmusunu məkan, bütün şeylərin hərəkət və dəyişilmələrinin məcmusunu zaman kateqoriyaları ilə ifadə edirik. Beləliklə, yer və hərəkət qabaqcadan bütün şeylərin ən ümumi yerindən və ən ümumi hərəkətindən çıxarılmış məkan və zaman kateqoriyalarından çıxarılaraq idrak olunan tək şeyə implikasiya edilir, sonra həmin şey təfəkkürdə qabaqcadan mövcud olan məkan və zamana yerləşdirilir; bununla da ümumi məkan və zaman idrak obyektinə uyğun xüsusiləşərək onun yeri və vaxtına çevrilir. Bu zaman biz birbaşa məkan və zamanın bölgüsünü aparmırıq, bu bölgü spontan olaraq şeylərin yeri və hərəkətini aşkarlayarkən özü-özünə ayrılır. Beləliklə, kateqoriyalar təcrübədə olan, amma təcrübədən birbaşa çıxarılması mümkün olmayan, buna görə də təcrübədən kənarda ondan çıxarılan, ümumi şəkildə mövcudluğu özündə təqdim edir, hansı ki elə belə mövcudluq kimi yalnız təfəkkürdə mövcud olur. Beləliklə, mövcudluğun xalis zəka tərəfindən təbiətdən çıxarılıb təfəkkürdə noumen kimi saxlanması və idrak prosesində gerçəkliyin idrakında spontan şəkildə hər bir şeyə aid edilməsi kateqoriyaların metafizik mənasını ifadə edir.

Haşiyə: *M. Haydeqqer*, "Varlıq və Zaman"

"Ağlın kateqoriyalarına inam nihilizmin səbəbidir – biz dəyərlər dünyasını kateqoriyalarla ölçürük, hansı ki xalis uydurulan dünyaya aiddir."

M. Haydeqqerin fikirlərindən çıxış edərək demək olar ki, kateqoriyalar digər metafizik noumenlərlə birlikdə metafizikanın kəşf edilməsində, yəni metafizik ideyaların aşkarlanmasında müstəsna əhəmiyyətə malik-

dir. Yəni əgər təcrübə (reallıqlar aləmi) kateqoriyalarla idrak olunursa, metafizik aləm kateqoriyalarla yaradılır; buradan da kateqoriyaların fəlsəfi əhəmiyyəti ilə metafizik əhəmiyyəti bir-birindən fərqlənir. Yəni fəlsəfədə kateqoriyalar özü-özündə olan şeyin idrakına yardım edir, metafizikada isə özü-özündə şey olmayanı yaradır.

Varlığın gerçəklik kimi təzahürünün xarakteristikası konkretlikdir. Gerçəklik reallığın hissi təcrübəyə daxil olmasını özündə təqdim etdiyindən, konkretlik bir tərəfdən reallığın statusu, digər tərəfdən hissi qavrayışla sıx əlaqələnir. Konkret sözünün mənası sıxlaşmış, bir-biri ilə qovuşub birləşmiş mənasını verir və özündə çoxcəhətli, mürəkkəb, inkişaf etmiş, bütöv olanı təqdim edir. Burada biz konkret anlayışını bir-biri ilə qovuşub birləşmiş mənasından çıxış edib təbiətdə mahiyyətlə formanın vəhdətində mövcud varlığı xarakterizə edən anlayış kimi təyin edirik. Konkret həm də obyektlə subyektin bir-biri ilə qovuşmasını özündə ifadə edir. Beləliklə, konkret – heçliklə (özü-üçün-varlıq təyini ilə) varlığın (xalis varlıq təyininin vəhdətindən meydana çıxan, təcrübədə obyekt-subyekt münasibətində hissi qavranılan mövcud varlığın reallığını şərh edən anlayış kimi təyin oluna bilər. Konkretlik – bir tərəfdən ayrılıqda götürülmüş əbədi tək şeyin reallıq kimi təfəkkürdən asılı olmadan özündə-şey kimi mövcudluğunu, digər tərəfdən təcrübədə obyekt-subyekt münasibətində şey kimi təfəkkürdə refleksiya edərək öz həqiqətini təfəkkürdə aydınlaşdırmasıdır. İki növ konkretlik ayırd etmək olar:

1. **Aydınlaşmanın konkretliyi:** Təcrübədən kənar hər hansı bir şey özündə həqiqəti bilavasitə aydınlaşdırırsa, həmin şey konkretdir. Biz bunu mütləq konkretlik adlandırırıq. Mütləq konkretlik şeydə aydınlaşan həqiqətin aşkarlanıb-aşkarlanmamasından asılı olmayaraq təzahür edən konkretlikdir. Təbii şeylərin hamısı aydınlaşmanın konkretlik xarakteristikasına malikdir.
2. **Aşkarlamada konkretlik:** Təcrübədə subyektlə bilavasitə əlaqədə olub, qavrayış predmeti kimi hissi təfəkkürdə refleksiya edən şeyin konkretliyidir. Biz bunu nisbi konkretlik adlandırırıq. Nisbi konkret-

lik həqiqətin mütləq sonsuzluğu şərtində, onun nisbi idrak olunmasını özündə ifadə edir. Yəni aydınlaşmada konkretlik əldə edən reallıqla, aşkarlamada konkretlik əldə edən gerçəkliyin konkretliyi eyniyyət təşkil etmir. Yəni insan hissi qavrayışla reallıqda aydınlaşan konkretliyi – mütləq həqiqəti aşkarlamaq imkanında deyil. Buna görə də, öz idrakına görə insan həmişə metafizik obyekt kimi çıxış edir.

Abstrakt: Fəlsəfədə abstrakt – mücərrədləşmə mənasında, tamın bir tərəfini, birtərəfli, sadə, inkişaf etməmiş olan hissəni şərh edən anlayış kimi təyin olunmuşdur. Buradan da biz, fikrən ayrılıqda götürülmüş abstrakt anlayışını – sadəni, inkişaf etməyəni, yəni forma ilə vəhdət təşkil etməyən həqiqətləri (tamın bir tərəfini) özündə ifadə etdiyindən metafizikanı şərh edən anlayış kimi təyin edirik. Başqa sözlə, konkretdən fikrən ayrılıqda götürülmüş abstraksiya metafizik statusu müəyyən edən əsas xarakteristikalardan biri kimi mövcuddur. Abstrakt (inkişaf etməyəni – inkişaf formanın təzahürü olduğundan, yalnız forma ilə vəhdət təşkil etməyən varlıq təyini inkişaf etməyən kimi təyin oluna bilər) özündə təqdim etdiyindən, təcrübədə idrak prosesində formanı özündə istisna edən Yoxluq kimi idrak olunduğundan, buna görə də abstraktın Yoxluqla eyniyyət təşkil etdiyini nəzərə alaraq onu metafizik statusu xarakterizə edən anlayış kimi təyin edirik.

Haşiyə: *Herbert Spenser*, "Elmi, siyasi və fəlsəfi təcrübələr"

" Abstrakt sözü hansısa xüsusi təzahürün vəziyyətindən yaradılan ayırmanı, uzaqlaşdırmanı bildirir; ümumi sözü çoxlu hallarda təzahürü bildirir. Abstrakt həqiqət heç vaxt qavrayış predmeti ola bilməz. Məkan mövcudluğun bütün münasibətini qucaqlayan abstrakt ideyadır."

H. Spenserin abstrakt sözünün anlamı ilə bağlı verdiyi izah – ayırma, uzaqlaşdırma – özündə nəyi bildirir? *H. Spenser* abstraktlığın əsas xarakteristikası kimi "qavrayış predmeti olmamaqlığı" müəyyənləşdirir. Əgər qavrayış təcrübədə obyekt-subyekt münasibətində predmetin hiss üzvlərinə təsir edərək onda duyğu əmələ gətirməsidirsə, onda abstraktlığı təcrübəyə daxil olmayan, subyektlə bilavasitə münasibətdə olmayan və duyğu

yaratmaq qabiliyyəti olmayanın xarakteristikası kimi qəbul etmək lazımdır. Buradan da üç cür abstraktlıq aşkarlamaq olar:

1. Nisbi abstrakt: Belə abstrakt keçici olaraq Varlığa çevrilən Yoxluğun xarakteristikasını özündə təqdim edir. Məsələn, hər bir insan anadan olmamışdan öncə Yoxluq kimi olur, anadan olduqdan sonra isə Varlığa çevrilir və öldükdən sonra təkrar Yoxluğa çevrilir. Beləliklə, biz insanı nisbi abstrakt varlıq kimi qəbul edə bilərik. Belə ki, yaşadığı müddətdə konkret varlıq kimi çıxış edir. Nisbi abstrakt yalnız təcrübəyə daxil olmadığı müddətdə subyektlə bilavasitə münasibətdə olmur və buna görə də bilavasitə qavrayış predmeti olmur. Nisbi abstraktlıq zaman-məkan şərtlənməsinin pozulmasından meydana çıxır.

2. Mütləq abstrakt: Heç bir halda Varlığa çevrilməyən Yoxluq. Belə abstraktlıq heç bir halda təcrübəyə daxil olmayan və buna görə də qavrayış predmeti ola bilməyənlərə aiddir. Məsələn, təfəkkürdə refleksiya yolu ilə yaranan obrazlar, təsəvvürlər, ideyalar mütləq abstraktlıq xarakteristikasına malikdir.

3. Konkretlə abstraktın vəhdəti: Fizika ilə metafizika vəhdətdə olduğu kimi, konkretlə abstrakt da vəhdətdədir. Konkretlə abstrakt ayrı-ayrılıqda Varlıqla Yoxluğun xarakteristikası olduğundan, Varlığın Yoxluğa və əksinə çevrilməsində eyni məqamda birlikdə vəhdət təşkil edirlər. Başqa sözlə, yaranışdan aşkarlanan həqiqət konkretlə abstraktın vəhdəti xarakteristikasına malik olur. Belə vəhdətin iki formasını ayırd edə bilərik:

a. Konkret-abstrakt: Varlığın Yoxluğa çevrilməsi prosesində aşkarlanan həqiqətin xarakteristikası konkret-abstraktdır. Belə həqiqətlərə Varlıq əsasında əldə edilən, amma Yoxluğu şərh etməyə imkan verən ümumi həqiqətlər aiddir. Ümumi həqiqətlər haqqında məlumat ayrı-ayrı tək konkret predmetlərdən qavrayış prosesində bilavasitə alınır, sonra konkretlik dəf edilir və əldə edilən məlumatla həmin sıradan olan, qavrayışa bilavasitə daxil olmayan bütün şeylərin həqiqətini abstrakt olaraq aşkarlayır. Məsələn, biz konkret bir cismin ən ümumi həqiqətini bilavasitə təc-

rübədə qavrayışla öyrənirik. Sonra qavramamızdan kənarda olan bütün cisimlərin özündə hansı həqiqəti daşıdığını bilirik. "Dəmir" anlayışının ifadə etdiyi həqiqət konkret-abstraktdır, hansı ki hər hansı bir dəmir predmetindən əldə edilmiş, sonra bütünlükdə ümumiyyətlə mövcud olan bütün dəmir predmetlərinə şamil edilmişdir; hansı ki bütün dəmir predmetlərini bilavasitə qavramaq imkanımız yoxdur. Beləliklə, konkret-abstraktlıq bilavasitə qavrayışın zəruriliyi ixtisara salınmış predmetlərin həqiqətlərini xarakterizə edir. Yəni hər hansı bir dəmir predmetin özündə dəmirə xas həqiqəti aydınlaşdırdığını sübut etmək üçün onun bilavasitə qavrayış predmeti kimi çıxış etməsi zəruri deyil.

Haşiyə: *Herbert Spenser*, "Elmi, siyasi və fəlsəfi təcrübələr"

"Hər hansı bir cismin hərəkəti eyni sürətlə düzxətt üzrə onu hərəkətə məcbur edir – bu abstrakt-konkret həqiqətdir – abstraktdır ona görə ki, o, konkret təzahürləri təşkil edən müəyyən haldan ayrılmışdır. Ümumi həqiqət məlum sayda xüsusi həqiqəti birləşdirir; abstrakt ideya özünə xüsusi həqiqətləri birləşdirmir, amma təzahürlərin müəyyən sayına qoyulmuş, amma həqiqətdə onların heç birindən aşkarlanmayan həqiqəti formalaşdırır. Şeylərin arasında dəyişilməz qayda kimi mövcud olan həqiqət (zamanda və məkanda olan kimi) ümumi abstrakt həqiqətdir."

H. Spenserin də fikirlərindən görünür ki, konkret-abstrakt həqiqət ümumilik xarakteristikası ilə müəyyənləşən konkretlikdir. Belə konkret-abstrakt əlaqəsində əsas konkretin simasında təcrübədə yerləşir; hansı ki təcrübədən əvvəl yaranış prosesində ümumi kimi metafizikadan təbiətə keçir və hər bir xüsusinin arxasında gizlənir. Abstrakt, əksinə, konkretdən ayrılmaqla xüsusini öz arxasında gizlədən ümumini xarakterizə edir.

b. Abstrakt-konkret: Yoxluğun Varlığa çevrilmə prosesində qavrayış predmeti olmayandan həqiqətin aşkarlanması ilə qavrayış predmetinin aşkarlanması abstrakt-konkretliklə reallaşır. Belə həqiqətlərə nəzəri yolla aşkarlanmış həqiqətlər aiddir, hansı ki onların əsasında varlığın kəşf edilməsi özündə abstrakt-konkret həqiqəti təqdim edir. Məsələn, astronomiyada göy cisimlərinin bir çoxunun mövcudluğu həmin cisimlər bilavasitə

kəşf edilməmişdən nəzəri yolla müəyyənləşmiş və onlar haqqında çoxlu məlumatlar verilmişdir. Elm inkişaf etdikdən sonra həmin məlumatlar əsasında konkret varlıq aşkar edilmişdir. Eləcə də kimya elmində *Mendeleyev* cədvəlində bir çox elementlər haqqında (həmin elementlər kəşf edilməmişdən çox qabaq) məlumatlar verilmişdir. Sonralar elmin inkişafı ilə həmin məlumatlar əsasında konkret elementlər aşkarlanmışdır. Bu cür həqiqətlər konkret-abstrakt həqiqətin əldə edilməsinə əks üsulla əldə edilir.

METAFİZİK STATUSLU OBYEKTLƏRİN ÜMUMİ XARAKTERİSTİKALARI

Metafizik statuslu obyektlər reallıq və irreallıq statuslu obyektlərdən fərqli xarakteristikalara malikdir, hansı ki özlərinin idrakının xüsusi metod və üsullarını tələb edir. Metafizik statuslu obyektlərin xarakteristikası dedikdə biz metafizik obyektləri təsvir, təsəvvür, şərh və izhar etməyə imkan verən tərəflərini (əlamət, keyfiyyət, təzahür və s.) nəzərdə tuturuq. Həmin xarakteristikalara aşağıdakıları aid etmək olar:

1. **Əbədilik:** Metafizika başlanğıcların başlanğıcını və səbəblərin səbəbini öyrəndiyindən, metafizik predmetlərin əsas xarakteristikası kimi əbədiliyi təyin edə bilərik. Əbədilik – keçici, təsadüfi obyektlərdən fərqli olaraq qalıcı və təsadüfə görə mövcud olanları xarakterizə edir, hansı ki metafizik bilgilər məhz belə əbədi obyektlərin həqiqətindən ibarətdir. Əbədilik – zaman ölçülülüyünün əksiliyi kimi zamansızlığı özündə ifadə edir. Zamansız olmaq – əvvəli, ortası və axırı olmamaq deməkdir. Beləliklə, əbədilik xarakteristikasına malik obyektlərin nə əvvəli, nə axırı, nə ortası vardır. Buna görə də belə obyektlər özləri hər şeyin əvvəli kimi çıxış edirlər. Buradan da əbədiliyi zamanın başlanğıcı (əvvəli) və sonu kimi təyin edə bilərik. Əbədi obyekt sonuncu fani obyektdən – onun əksiliyi aşkarlanır. Fanilik əbədiliyin əksiliyidir və obyektin müvəqqəti mövcudluq üsulunu özündə ifadə edir. Təcrübədə sonuncu fani varlıq insan, sonuncu əbədi varlıq fərdi şey-

dir. Beləliklə, əbədilik xarakteristikası idrak edən subyektin idrak olunan fərdi şeydən aşkarlanır. Sonuncu obyekt mürəkkəbləşmənin qurtardığı, təkamülün və emanasiyanın sonunu özündə təqdim edən obyektlərdir, hansı ki həmin obyektlərdən son kimi başlayaraq başlanğıca istiqamətlənmək mümkün olur. Əgər obyekt sonuncu deyilsə, onda ondan aşkarlanan həqiqət əbədi ola bilməz, çünki özündən sonrakı həqiqəti ifadə etmək imkanına malik deyil. Məsələn, canlı fərd əbədi obyekt kimi çıxış etmir, çünki fərd özündən sonra nəsil verməklə öz mövcudluğunu davam etdirir və bu zaman yeni nəsildən yeni keyfiyyətlər aşkarlanır (hansı ki ondan əvvəlki nəsillərə xas fərddə təzahür etmir). Bundan fərqli olaraq, fərdi şey əbədidir. Çünki hər bir fərdi şey sonuncudur və özündən sonra olanı özündə istisna edir. Beləliklə, əbədilik sonuncu fani olan insanın sonuncu əbədi fərdi şeydən aşkarlanır. Əbədilik zaman ölçülülüyü əldə etməklə hər şeyin zamanla şərtlənməsini müəyyən edir.

2. **Sonsuzluq:** Əbədilik sonsuzluqla vəhdət təşkil etdiyindən, istənilən əbədi obyekt həm də sonsuzdur. Sonsuzluq – məkani sərhədsizliyi, ölçüsüzlüyü özündə təqdim edir. Məkanda sərhədi və ölçüsü olmayan özündə məkanın totallığını refleksiya edir. Beləliklə, sonsuzluq məkanın totallığından (bütün ölçülü və sərhədli şeylərin ən ümumi ölçüsündən) aşkarlanır. Sonsuzluğun ölçülənməsi sərhədlənməni yaradaraq bütün fərdi şeylərin məkanla şərtlənməsini müəyyən edir. Sonsuzluq reflektiv üsulla yaranmanı özündə təqdim edir. Yəni əbədi obyekt özünün başlanğıcında sıçrayışla başqa bir sıradan yaranır, beləliklə də ilkin başlanğıcın özünün başlanğıcı olmur. Başlanğıcı olmamaq sonsuzluğu təqdim edir.
3. **Totallıq:** Başlanğıc (sıfır mürəkkəbliyə malik) ən sadə əbədi obyektlərdə olduğundan, sadə əbədi obyektlərin hamısı üçün bir və eyni mahiyyət vardır, hansı ki totallıq kimi təzahür edir. Totallıq həmcinsliyin xarakteristikasıdır. Biz eyni statuslu bütün şeyləri öz sərhədlərinə alan və hər şeydən üstün olan və onların hər birini ayrı-ayrılıqda

özündə təqdim edən və əvəzində heç bir ayrı şeydən aydınlaşmayan xarakteristikanı totallıq kimi təyin edirik.

4. **Xarici seyrin mümkünsüzlüyü:** Bu xarakteristika əvvəlki xarakteristikadan çıxır. Xarici seyr sərhədi və müddəti olan, xüsusi xarici görüntü ilə şərtlənmişdir. Beləliklə, əbədi, sonsuz və totallığın xarici görüntüsü mümkünsüzlük olduğundan, xarici seyri (yəni estetik tərəfi) yoxdur. Bu baxımdan təsvirsizlik metafizik statuslu obyektlərin əsas xarakteristikalarından birinə çevrilir. Biz təsvirsizliyi reflektiv obrazı olmayan obyekt kimi təyin edirik. Təsvirsizlik özündə hissi idrakla qavranmanın mümkünsüzlüyünü doğurur. Varlığın mövcud varlıq təyini həm daxili, həm də xarici görüntüyə malikdir. Daxili görüntü təsəvvürlə, xarici görüntü obrazla refleksiya edir. Beləliklə, hər bir varlıq özündə konkret təsəvvür saxlayır, hansı ki idrak prosesində həmin təsəvvürün təfəkkürə refleksiyası ilə bizdə varlıq haqqında məlum təsəvvür yaranır. Mövcud varlıq təyinindən idrak zamanı mövcud varlığın özü-üçün-varlıq təyini cari şüura uyğun xarici seyr yolu ilə (görmə üsulu ilə xarici görüntü vasitəsi ilə) idrak olunur. Amma daxili görüntü xarici seyrlə (görmə ilə) idrak olunmadığından, daxili görüntünü seyrə imkan verən xüsusi vasitələrə ehtiyac yaranır. Mövcud varlıqda həqiqətin daxili görüntüdən dərk edilməsi elmi şüuru meydana çıxarır. Elmi şüur cari şüurdan fərqli olaraq varlığı vasitəli olaraq idraka cəlb edir. Bütün elmlər həqiqəti xüsusi vasitələrlə (aparaturalarla) aşkarlayır. Başqa sözlə, alim obyektlə alətli təmasda olur. Alət özü-üçün-varlıqla vəhdətdə olan xalis varlığın aşkarlanmasını təmin edən xüsusi konkret və abstrakt vasitələrdir.
5. **Çoxtəbiətlilik:** İstənilən metafizik anlayış özündə ikitəbiətliliyi ifadə edir. İkitəbiətlilik eyni vaxtda iki müxtəlif qanunauyğunluğa tabe olmaq xarakteristikasıdır. Halbuki təbiətdəki hər bir real fərdi şey yalnız bir qanunauyğunluğa tabe olmaqla hissi idraka daxil olur. İkili təbiət hissi idraka imkan vermir. Digər tərəfdən, birtəbiətlilik maddiliyin əsas xarakteristikasıdır. İki və daha çox təbiətlilik qeyri-maddili-

yin xarakteristikası kimi çıxış edir. Məhz buna görə metafizik bilgilər ayrılıqda götürülmüş hissi qavranılan maddi şeydən əldə edilmir.

Haşiyə: *Martin Haydeqqer*, "Metafizika nədir?"

"Metafizika yalnız insan təbiətinə xasdır. İstənilən obyektivlik subyektivliyin keyfiyyətidir. İştirakçılığın (idraka cəhdin) mahiyyəti onun ekzistensiyasından ibarətdir."

M. Haydeqqerin fikirlərinə əlavə etmək olar ki, reallıqlar aləmində canlılar (cisim və candan ibarət olduğundan), insan (cisim, can və Ruhdan ibarət olduğundan) və işıq (ikili təbiətli olduğundan) metafizik xarakteristikalara malikdirlər.

6. Analitik xarakter: Metafizik bilgilər hissi yolla maddi şeylərdən qavranılmadığından sintetik yox, analitikdirlər. Yəni yalnız təfəkkürün özündə abstraksiya prosesində əldə olunurlar.

Haşiyə: *A. N. Uaythed*, "Elm və müasir dünya"

"Əbədi obyektlər sferasının analitik xarakteri onlar haqqında ilkin metafizik həqiqətdir. Əbədi obyektlər nahiyəsinin dərəcələr üzrə analitik xarakterini analiz edə bilərik. Əbədi obyektlərin aşağı dərəcəsinə fərdi mahiyyəti sadə olan obyektləri yerləşdirmək lazımdır, bu dərəcə sıfır mürəkkəblikdir. Növbəti dərəcə üzvlərinin sayına görə sonuncu və ya sonsuz obyektlərə baxır. Mürəkkəb əbədi obyektlər özlərində abstrakt vəziyyəti təqdim edirlər. Biz sadə əbədi obyektlərdən daha yüksək mürəkkəblik dərəcəsinə keçdiyimizdən, mümkünlüklər nahiyəsindən daha yüksək dərəcəli abstraksiyaya keçirik. Biz indi mümkünlüklər nahiyəsindən abstraksiyaya müəyyən tərəqqinin ardıcıl pillələrini başa düşə bilərik, hansı ki özünə artan mürəkkəbliyin ardıcıl dərəcələrindən hərəkəti (fikri) daxil edir. Mən tərəqqinin istənilən belə yolunu "abstraktiv iyerarxiya" adlandırıram. Abstraktiv iyerarxiyanın əsası sıfır mürəkkəbliyə malik obyektlər sırasıdır. Abstraktiv iyerarxiyanı təmin edən üçüncü şərt bağlılıq şərtidir. Beləliklə, abstraktiv iyerarxiya öz əsasına malikdir; o, ya qeyri-müəyyən irəliyə hərəkət edən və ya maksimal dərəcəli mürəkkəb olan hər bir sonrakı dərəcəni öz əsasına daxil edir; o, onun daha aşağı pillələrinə məx-

sus olan üzvlərinin istənilən sırasının yeni təzahürləri ilə "bağlıdır". Abstraktiv iyerarxiya əgər son dərəcə mürəkkəblikdə dayanırsa "sonuncu" adlanır, o, mürəkkəbliyin uyğun bütün dərəcələrinə məxsus üzvlərini özünə daxil edirsə "sonsuz" adlanır. Həqiqi təzahür müxtəlif sonuncu iyerarxiyalarla bir yerdə, bir sonsuz iyerarxiya tərəfindən tutulandır."

A. N. Uaythedin yuxarıdakı fikirlərindən görünür ki, metafizik həqiqətlər əbədi obyektlər sırasından analitik yolla əldə edilir. Analitik xarakter özündə müxtəlif pilləli mürəkkəbliklərin müxtəlif dərəcəli idrakını ifadə edir. Belə ki ən sadə və birincili idrak olunan sıfır mürəkkəblikli obyektlərin analitik xarakteri yoxdur. Analitik xarakteri olmadığına görə, onları anlamaq analitik xarakterə malik əbədi obyektləri təhlil etməklə mümkündür. Mürəkkəb dərəcəli əbədi obyektlərin mərhələli idrakı fikirdə tərəqqini (fikir hərəkətini) meydana çıxarır. Mümkünlüklərin (xalis fikir təyinindən) abstraksiyaya (təfəkkürün xalis varlıq təyininə) keçid özündə ağlın tərəqqisini təqdim edir, hansı ki məhz bu tərəqqidə mümkünlüklərdən abstrakt olanlara keçməklə metafizik bilgilər əldə edilir. Metafizik obyektlər başlanğıcı və səbəblər səbəbini təşkil etdiyindən mövcudluqların və idrakın əsasını təşkil edir. Buna görə də metafizik obyektlərin xarakteristikası özündə sonsuz mürəkkəblikdən ilkin başlanğıc (sıfır mürəkkəblikli) əbədi obyektlərə çatmağa imkan verən analitik xarakterdir. Metafizika son dərəcə mürəkkəblikdən son dərəcə abstraksiyaya keçməklə reallıqlar aləminin əksiliyindən başlanğıc haqqında bilgilər əldə edir. Təcrübə həqiqi təzahürlərdən meydana çıxır. Yəni təcrübədə hissi yolla maddi qavranılanlar özlərində həm sonsuz, həm də sonuncu iyerarxiyaların birlikdə mürəkkəb sıralarını təşkil edir. Elm və fəlsəfə son dərəcə mürəkkəb sıralardan idraka başladığından, sonuncu iyerarxiyanı təşkil edən mürəkkəb obyektlərdən (görünən maddi aləmin idrakından) başlayaraq mütləq nisbi həqiqətə istiqamətlənir. Bundan fərqli olaraq, metafizika mürəkkəbliyin uyğun bütün dərəcələrinə məxsus üzvlərini özünə daxil edən sıradan, həm sonuncu, həm də sonsuz əbədi obyektlərin birlikdə təşkil etdiyi iyerarxik sıradan idraka cəhd edir, hansı ki bu sıra

həm də qeyri-maddi və qeyri-hissi qavranılanları da özünə daxil edir. Analitik xarakter həm də bu cür bir yerdə olan iki bir-birinə əks təzahürlərə malik əbədi obyektlərdən birindən (mümkünlüklərdən) digərini (abstrakt idrak olunanı) aşkarlamaq imkanını özündə ifadə edir. Məsələn, biz Kainatın totallığının əksiliyi kimi Allahın totallığını idrak edirik. Və ya bədənin mümkün totallığından ruhun abstrakt totallığına keçirik.

7. "Relyasion mahiyyət"ə malik olmaq: Bu ifadə ingilis filosofu *A. N. Uaythedə* məxsusdur.

Haşiyə: *A. N. Uaythed*, "Elm və müasir dünya"

"Əbədi obyektlər nahiyəsində sonuncu münasibətlərin mövcudluğunun səbəbi ondan ibarətdir ki, bu obyektlərin öz aralarında münasibətləri tamamilə qeyri-seçici və sistematik qurtarmışdır. Biz imkanı müzakirə edirik, ona görə də yalnız mümkün olan hər bir münasibət mümkünlüklər nahiyəsindədir. Hər bir əbədi obyektin istənilən belə münasibəti tamamilə münasibətlərin ümumi sxemində olan kimi obyektin müəyyən statusuna istinad edir. Bu müəyyən status mənim obyektin "relyasion mahiyyət"i termini ilə adlandırdığımdır. Bu relyasion mahiyyət bu obyektlərdən birinə münasibətdə təyin olunur və verilmiş fərdi mahiyyətə spesifik şəkildə daxil edilmişlər istisna olmaqla, onda bu mahiyyət mürəkkəb olur, başqa obyektə istinad etməyi tələb etmir. Əbədi obyektin relyasion mahiyyəti bu obyekt üçün unikal deyil. Sadəcə əbədi obyektin relyasion mahiyyəti relyasion mahiyyətlərin tam unifikasiya olunmuş sxemini təyin edir, belə ki, hər bir obyekt özünün bütün mümkün daxili münasibətlərində olur. Beləliklə, mümkünlüklər sferası əbədi obyektlərin sonuncu sıraları arasında unifikasiya olunmuş münasibətlərin sxemini təmin edir; və bütün əbədi obyektlər onların hər birinin statusunun imkan verdiyi qədər bütün belə münasibətlərdə olur."

Beləliklə, bu sitatdan göründüyü kimi, *A. N. Uaythed* reallıqlar aləmində sonuncu sıraların arasında, bu sıranı təşkil edən hər bir obyektdən aşkarlanan, amma həmin obyekt üçün unikal olmayan unifikasiya olunmuş münasibətləri relyasion mahiyyət kimi təyin edir. Yəni relyasion

mahiyyət o mahiyyətdir ki, o hər bir əbədi obyektdən aşkarlanır və bu zaman həmin obyektin fərdiliyi ilə şərtlənmir. Biz belə münasibətləri metafizik predmetlərin ümumi xarakteristikasına aid edirik.

8. Realizasiyanın şəffaflığı: Bu xarakteristika da *A. N. Uaythedin* müəyyən etdiyi metafizik prinsipdən – təcrübi təzahürlərin ümumi xarakterinin rasional mənimsənilməsi üçün vacib olan "realizasiyanın şəffaflığı" prinsipindən meydana çıxır.

Haşiyə: *A. N. Uaythed*, "Elm və müasir dünya"

"Mən "realizasiyanın şəffaflığı" termini altında istənilən əbədi obyektin özü-özündə istənilən realizasiya üsulunu düşünürəm. Digər əbədi obyekt meydana çıxmadıqca fərdi mahiyyət təhrif oluna bilməz. Hər bir əbədi obyektin mahiyyətinə indeterminantlıq qoyulmuşdur, hansı ki istənilən həqiqi təzahürdən istənilən daxilolma üsuluna münasibətdə laqeyd dözümlülük ifadə edir. Buna görə də idrak təcrübəsində biz həqiqətin təzahürünə daxilolmada bir realizasiya dərəcəsindən çox, bir və həmin əbədi obyektin bir və həmin təzahürünün mövcudluğuna baxa bilərik. Beləliklə, realizasiyanın şəffaflığı və mümkün bir və həmin təzahürə müxtəlif daxilolma üsulu birlikdə qnoseologiyaya uyğun nəzəriyyə üçün əsas formalaşdırır."

A. N. Uaythedin fikirlərini inkişaf etdirərək metafizik predmetlərin realizasiyasının şəffaflığı xarakteristikasını konkretləşdirə bilərik. *A. N. Uaythed* realizasiyanın şəffaflığı termini altında onu nəzərdə tutur ki, kaleydoskopik dünyada istənilən real mövcudluq özündə həm özünün xüsusi həqiqətini, həm də bütün mümkünlüklərin onlardan keçməklə təzahür edən həqiqətini təqdim edir. Elm və fəlsəfə hər bir fərdi obyektə baxarkən məhz həmin obyektin özünəxas təzahürlərindən onun həqiqətini aşkarlamağa cəhd edirlər və bu zaman obyektlərdə ifadə olunan istənilən mümkünlüyün daxilolma üsuluna (həmin obyektlərin özləri laqeyd qaldığından) laqeyd qalırlar. Metafizika, əksinə, məhz realizasiyanın şəffaflığından, obyektin və digər şüur formalarının laqeyd qaldığı daxilolma üsullarından başlanğıc obyektlər haqqında bilgi əldə etməyə cəhd edir.

Belə xarakteristikaya malik olmayan obyektlər başlanğıc obyektlərdir, hansı ki həmin obyektlər təhrif olunmamış fərdi mahiyyətdə mövcud olurlar və buna görə də real mövcudluqlarla eyni sıranı təşkil etmirlər. Başlanğıc obyektlər ya özündən başqası olmayan, ya da özünə başqa realizasiya üsulunun daxil olmasına imkan verməyən obyekt kimi mövcuddur. Məsələn, Allah təkdir və Onun mahiyyətinə Özündən başqa heç bir mümkünlüyün mahiyyəti daxil olmur. Fəlsəfə metafizikanın əksinə, metafizikanı dəf edərək ən ümumi həqiqətləri öyrənir. Metafizikanı dəf etmək – ikilitəbiətə malik başlanğıcı iki müstəqil birtəbiətli başlanğıca (Ruhun və Varlığın başlanğıcına) ayırmaqla mümkün olduğundan, fəlsəfə iki əsas istiqamətdə (Varlığın və ya Ruhun-İdeyanın əsas başlanğıc hesab edilməsi ilə) inkişaf etməyə başlayır. Daha sonralar yeni-yeni başlanğıclar əsasında yeni-yeni fəlsəfi sistemlər meydana çıxır.

9. Təsadüfilik: Metafizik statuslu obyektlərdə immanentlik (zərurətə görə mövcud olma) yoxdur, hər şey mütləq azaddır və buna görə mövcudluq üsuluna malik deyillər. Belə dünyanın tabe olduğu əsas səbəbiyyət xarici səbəbiyyətdir, hansı ki xalis təsadüflərdən ibarətdir. Başqa sözlə, metafizik statuslu predmetlər zərurətə görə yox, təsadüfə görə mövcud olur və həmin obyektlər məhz buna görə də təsadüfə görə idrak olunur.

Haşiyə: "Dovşan yuvası" – təbabət doktoru *Ceffri Satinover*:

"Klassik dinamikada həqiqi təsadüfiliyə yer yoxdur, hansısa mənbəsiz təsadüfiliyin seçimi yoxdur. Fəaliyyətin həqiqi azadlığının yeganə məlum mənbəyi materiyanın kvant təbiətindədir. Beləliklə, seçim və azad iradə yalnız o halda mümkündür ki, kvant səviyyəsinin ehtimalı hansısa şəkildə makrodünyada realizə olunsun."

Başqa sözlə, mexaniki dünyada bütün təsadüflər onların ulu mənşəyindən (kvant fizikasından), bütün zərurətlər isə özündən əmələ gəlir. Beləliklə, biz ehtimal etdiyimiz obyektlərdə həqiqi təsadüfiliyi aşkarlaya bilərik. Həqiqi təsadüfilik xalis təsadüfilik olub zərurətlə heç bir əlaqədə olmur. Amma təbii təsadüfilikdə təsadüf zərurətlə vəhdətdə meydana çı-

xır və bu zaman təsadüf zərurətin təzahür forması kimi çıxış edir. Həqiqi təsadüf özü-özünün təzahür formasıdır.

METAFİZİK STATUSLU OBYEKTLƏRİN XARAKTERİSTİKASININ TƏYİNİ – XALİS KATEQORİYALAR

Metafizik status ayrı-ayrı xarakteristikaların məcmusu kimi meydana çıxır. Bu statusu təşkil edən xarakteristikalar yaranışda bir-birindən ayrılaraq ayrıca gerçəklik aləmini təşkil edən reallıqların statusuna daxil olur; yəni metafizik statusu təşkil edən xarakteristikaların yenidən təşkili ilə reallıqların statusu meydana çıxır. Məhz buna görə də reallıqların statusunun reorqanizasiyası ilə metafizik obyektlərin statusunu təyin etmək mümkündür. Ona görə də metafizik statusu təşkil edən xarakteristikaları (əhəmiyyətləri) gerçəklik aləmindən aşkarlamaq mümkündür. Reallıqların statusu ən ümumi (sonuncu) həqiqəti özündə ifadə edən xarakteristikalardan təşkil olunduğundan və həmin xarakteristikaları kateqoriyalarda idrak etdiyimizdən, metafizik statusu da məhz kateqoriyalardan aşkarlaya bilərik.

Mütləq nisbi həqiqətin vasitəli aydınlaşması istənilən vasitə ilə həqiqət arasında ən ümumi əlaqələr əsasında baş verir. Buna paralel olaraq, hər bir varlıq özünəxas orijinal və xüsusi əlaqələr əsasında təzahür edir. Ümumi əlaqələr mütləq nisbi həqiqət daxilində yarandığından universal və ümumi; xüsusi əlaqələr nisbi mütləq nisbi həqiqət daxilində yarandığından xüsusi və orijinal qanunauyğunluqlara tabe olur. Ümumi qanunauyğunluqları şərh edən mühakimə anlayışlarına kateqoriyalar aiddir.

Kateqoriyalar adaqədərki anlayış olsa da, yaranmasına görə adlandırmadan sonra meydana çıxmışdır. *Aristotelə* görə, ümumi ad müxtəlif təyindir. Yəni kateqoriya müxtəlifliklərin eyni tərəflərini adlandırmaq üçün istifadə edilən anlayışdır. Həqiqətin idrakında kateqoriyanın yerini aşağıdakı ardıcıllıqla ifadə etmək olar: Mütləq nisbi həqiqət – nisbi mütləq nisbi həqiqət – kateqoriya – vasitələr – konkret vasitə – xüsusi nisbi həqiqət (təzahür). Kateqoriyalar varlığın tabe olduğu vəhdətin xarakteristika-

larına aiddir. Hər bir kateqoriya vəhdətin müəyyən tərəfinin kanonunu özündə təqdim edir.

VƏHDƏT

Mövcud olma mövcudluqların bir-biri ilə vəhdətindən meydana çıxdığından, metafizikada vəhdət əsas anlayış kimi önə çıxır. Vəhdətin aşağıdakı səviyyələrini ayırd etmək olar:

1. Daxili vəhdət: Təcrübədə hər bir ayrılıqda götürülmüş şeydə (mövcudluqda) aşkarlanan – tamın hissələrdən təşkil olunması kimi daxili vəhdət. İki cür hissə vardır:

a) **Tərkib hissəsi:** Belə hissə zərurətə görə hissədir və qeyri-aksidensialdır. Belə hissələrin bir-birindən ayrılması (vəhdətdən çıxması) şeyin mövcudluğuna xitam verir; *Kantın* dili ilə desək, şeyi evtanaziyaya məruz qoyur. Tərkib hissələri ayrılıqda şeyin heç bir keyfiyyətini daşımadığına görə şeydən kənarda şeyi təmsil etmirlər. Məsələn, NaCl-da Na və Cl tərkib hissəsidir. Onların bir-birindən ayrılması ilə xörək duzu "evtanaziyaya" məruz qalır. Na və Cl isə təklikdə özlərində xörək duzunun heç bir keyfiyyətini daşımırlar, yalnız öz mümkünlüklərində xörək duzunun tərkib hissəsinə xas keyfiyyəti gizlədirlər.

b) **Quruluş hissəsi:** Hər bir şey müxtəlif çoxluqda mütləq tamın bir-biri ilə birləşməsindən gerçəkləşir. Quruluş hissəsi (mütləq tam kimi) özündə tamın bütün xüsusiyyətlərini daşıdığından şeydən kənarda şeyin keyfiyyətlərini daşımaqla mövcud olur. Biz quruluş hissəsini təsadüfə görə daxili vəhdət adlandırırıq, hansı ki aksidensialdır.

2. Xarici vəhdət: Təcrübədə bütün şeylərin məcmusundan aşkarlanan xarici vəhdət. Təbiətdə heç bir şey başqa şeylərsiz mövcud olmadığına görə biz mövcud olmanı xarici vəhdət kimi təyin edirik. Xarici vəhdət təsadüfə görə mütləq vəhdətdir. Təsadüfə görədir ona görə ki, şeylərin bir-biri ilə mövcudluğu əsas deyil; belə ki, mövcudluq olmadıqca mövcu-

dolma reallaşmır. Mütləqdir ona görə ki, heç bir mövcudluq başqa mövcudluqlardan kənarda mütləq tək kimi aktuallaşa bilmir. Çünki hər bir mövcudluq bir mümkünlüyün müxtəlif mövcud varlığa keçməsi ilə aktuallaşır. Beləliklə, bütün mövcud varlıqlar bir mümkün varlığın aktuallaşması kimi təzahür etdiyindən, öz mümkün varlıqları ilə şərtlənmiş mövcud ola bilir. *Nitsşe* də məqsədi, vəhdəti və varlığı dəyərlər dünyasının (uydurulma dünyanın) əsas kateqoriyaları kimi təyin etmişdir.

a. **Obyektin mümkünlüyü ilə subyektin mümkünlüyünün vəhdəti (və ya düşüncə ilə varlığın vəhdəti):** Təcrübədə obyekt-subyekt münasibətində mövcud olan hər şey (gerçəklik) hissi qavranılandır; hissi qavranılması mümkün olan (reallıq) hər şey mövcuddur. Buradan da hissi qavranılma obyektlə subyektin vəhdətini özündə təqdim edir, hansı ki gerçəklik belə vəhdətdən kənarda yalnız reallıq kimi mövcud olur. Başqa sözlə, obyektlə subyektin vəhdətini gerçəklik kimi təyin etmək olar. Gerçəklik özündə həqiqət aydınlaşdıran obyektin idrak prosesində təfəkkürdə refleksiyası ilə həqiqətinin düşüncədə aşkarlanmasını özündə təqdim edir.
b. **Metafizik vəhdət:** Belə vəhdət həm Varlığın, həm Ruhun, həm də Varlıqla Ruhun ən birinci başlanğıc münasibətidir, hansı ki məhz vəhdətlə mövcudolma və mövcudolmanın idrakı baş tutur. Vəhdətin əksiliyi heçlikdir.

Haşiyə: *L. Feyerbax*, "*Leybnitsin* fəlsəfəsinin tənqidi, inkişafı və əlavələr"

"Leybnits deyir ki, 'substansiya anlayışı dərin fəlsəfəyə açardır'. Mübahisəsiz, münasibət, səbəb və fəaliyyət kimi metafizik anlayışların mənimsənilməsi mühüm əhəmiyyət kəsb edir."

Ümumi qanunauyğunluqlar yalnız varlığın vəhdətindən aşkarlandığından, mütləq nisbi həqiqətin mühüm xarakteristikalarından biri kimi vəhdəti qəbul etmək olar. Mütləq nisbi həqiqətin nisbi həqiqətə çevrilməsi vəhdətin dərəcələnməsinə görə baş verir. Həqiqət özündə nə qədər ən ümumi vəhdəti təqdim edirsə, bir o qədər mütləqləşir.

Bəs vəhdət anlayışı özündə nəyi ifadə edir? Vəhdət – ayrılıqda hər hansı bir aktuallaşmanın mümkünsüzlüyünü və təfəkkürdə başqası ilə tutuşdurma aparmadan idrak prosesinin baş tutmamasını özündə ifadə edir. Beləliklə, vəhdət mövcudluğun prinsipi kimi (bir-biri ilə mövcud olmaq) və idrakın prinsipi kimi (bir-biri ilə müqayisədə idrak olunmağın mümkünlüyünü) özündə təqdim edir. Dörd cür vəhdət aşkarlamaq olar:

1. Həqiqətin özünü aydınlaşdırdığı varlıqların vəhdəti: Belə vəhdət varlığın müəyyən sıralarına aiddir, təfəkkürdən asılı deyil, xaricidir və gerçək aləmi təşkil edir. Varlıqların vəhdəti bütün varlıqların eyni bir mütləq həqiqətdən yaranmasından və ya istənilən varlığın özündə başqaları ilə eyni cür mütləq nisbi həqiqəti təzahür etdirməsindən yaranır.

2. Həqiqətin aydınlaşması ilə onun aşkarlanmasının vəhdəti: Belə vəhdət mütləq həqiqətə istiqamətlənməni təşkil edir. Belə vəhdət "nə"dən ibarətdir. "Nə" həm həqiqətin aydınlaşdığı ən sadə gerçəklik, həm də təfəkkürün aşkarladığı ən sadə ideyadır.

Haşiyə: *İ. Kant*, "Xalis zəkanın tənqidi"

"Aprior sintetik mühakimələrin köməyi ilə elə uzaqlara gedirik ki, təcrübənin özü onu izləyə bilmir (məsələn, dünyanın başlanğıcı olmalıdır kimi)."

Kantın qeyd etdiyi "dünyanın başlanğıcı"nı biz məhz "nə" kimi təsəvvür edirik. Təcrübə (obyekt-subyekt əlaqəsi) yaranışın müəyyən mərhələsindən – şüurlu insan əmələ gəldikdən sonra – meydana çıxıb və mütləq nisbi həqiqətin aşkarlanması təcrübənin vaxtı və həcmi ilə şərtlənib, hansı ki bu şərtlənmə onları vəhdətə gətirir. Belə vəhdətin pozulmasında insan ya sintetik mühakimə ilə həqiqəti aşkarlayır, ya da müəyyən həqiqətlər insanın aşkarlamasından kənarda qalır. Ona görə də başlanğıc və son haqqında bilgilər təcrübədən aşkarlana bilməz. Buna görə də başlanğıc və son haqqında təsəvvürlər, aydınlaşma ilə aşkarlanmanın vəhdətinin pozulması nəticəsində dini şüurla (transsendental şüur, təcrübədən kənara çıxan şüur) meydana çıxır.

3. Həqiqətin aşkarlanmasında təzahür edən vəhdət: Belə vəhdət yalnız təfəkkürün təzahürlərini əhatə edir, idrak prosesindən asılıdır, daxilidir və insanın dünyagörüşünü təşkil edir. Belə vəhdət duyğular, qavrayışlar, obrazlar, təsəvvürlər və fikirlər arasında meydana çıxan vəhdətdir.

4. Mümkün olanla mümkün olmayanların vəhdəti: Varlıq iki birbirini inkar edən keyfiyyətdə təzahür edir: mümkün olan və mümkün olmayan. Mümkün olanlar ümumi və xüsusi qanunlara tabe olur, mümkün olmayanlar heç bir qanuna tabe olmur. Mümkün olanlar reallıqları, mümkün olmayanlar irreallıqları təşkil edir. Reallıq gerçəkliyin özündən, irreallıq isə gerçəklikdən kənarda təzahür edir. Buna görə də, bir varlığın reallığı ondan kənardakı varlıq üçün irreallıqdır. Reallıq özü də iki cür təzahür edir: şərti reallıq və şərtsiz reallıq. Şərti reallıqlar ikili şərtlənmənin təzahürləri kimi meydana çıxır. Məsələn, rəng belə şərti reallıqlardandır. Cisim şərtsiz reallıqdır, amma onun rəngi irreallıqdır. Çünki rəng özü-özlüyündə cismin özündən qaynaqlanan daxili təzahür deyil. Bütün cisimlər rəngsizdir. Rəng yalnız cismin işıqlanmasında təzahür edir və ikitərəfli şərtlənməni (cisim və işıqla) səbəblənir. İşıqsız cismin rəngi təzahür etmədiyi kimi, cisimsiz də rəng təzahür etmir. Hər bir cisim işıqla müxtəlif qarşılıqlı təsirinə uyğun rəng alır. İşıq da cisim kimi özü-özlüyündə "rəngsizdir". İşıq işıqlandırmada (təzahür edəndə) ən sadə rəngdə – qara rəngdə, işıqlandırmadan kənarda ən mürəkkəb rəngdə – ağ rəngdə təzahür edir. Rəng yalnız ağ işığın cisimdə tərkibə ayrılmasından meydana çıxır. Buna baxmayaraq, idrak prosesində rəng mümkünlüyün bir əlaməti kimi qəbul edilir. Həqiqət özü-özündə də müxtəlif vəhdət formalarında təzahür edir.

Haşiyə: *D. fon Qildebrand*, "Fəlsəfə nədir?"

"İstənilən mövcud olan şey ümumilikdir, vəhdətdir və onun təbiəti müəyyən növ vəhdət kimi xarakterizə olunur. Belə vəhdətin iki hüdudi tipi mövcuddur: onlardan biri – daxili mümkün olmayan şey, ikinci – tamamilə mənasız, amorf, xaotik: a. ***Xaotik vəhdət*** *– təsadüfi vəhdət; vəhdət aşağı səviyyədə xaotik və təsadüfidir. b.* ***Həqiqi tiplərin vəhdəti*** *– daha*

ali məna səviyyəsi olan, azmahiyyətli vəhdətdə aşkarlananlardan radikal üstünlük təşkil edən vəhdətə özündə həqiqi tipi təqdim edən mahiyyətin nümunəsində malik oluruq (dayanıqlı strukturu və tərkibi olan rasional mahiyyət). c. ***Mahiyyətinə görə zəruri olan vəhdət*** *– belə vəhdətin aşkarlandığı obyektlər həm azmahiyyətli vəhdətdən, həm də mahiyyətlidən fərqlənir, amma bu zaman şərti baxılan ali vəhdət bir sıra dəqiq əlamətlərlə xarakterizə olunur."*

Beləliklə, *D. fon Qildebrandın* yuxarıdakı fikirləri əsasında həqiqətin vəhdətinin növləri haqqında bir qədər geniş şərh vermək lazımdır:

a. **Formasız varlıqlarda (amorf maddələrdə) vəhdət:** Belə varlıqlarda vəhdət xaotik və təsadüfidir. Həqiqətin aydınlaşma ardıcıllığı da məhz təsadüfi, xaotik olduğundan başlanğıc aydınlaşma haqqında fəlsəfi görüşlər və istənilən fəlsəfi görüşün başlanğıcı təsadüfi və xaotikdir. Müxtəlif fəlsəfi sistemlərin ən müxtəlif ideyalardan başlaması bununla bağlıdır. Xaotik vəhdət yalnız xarici təsirə qarşı əks təsirdə meydana çıxır, amma daxili strukturlaşmada bu vəhdət kifayət qədər zəif olduğundan sərt struktur (qalıcı obrazlar) və daxili nizamlılıq yaranmır.
b. **Zəruri daxili vəhdət:** Prinsipial mümkün olan kimi dərk edilən reallıqlarda təzahür edən vəhdət. Belə vəhdət xaotikdir, amma onun elementlərinin daxili qarşılıqlı əlaqəsi zəruridir.
c. **Mümkün olana aid olan, məna kasıblığı olan vəhdət:** Belə vəhdətin elementlərinin daxili qarşılıqlı əlaqəsi təsadüfidir.
d. **Məna əhəmiyyəti olan vəhdət:** Belə vəhdət aşağı pilləni təşkil edir. Təsadüfi vəhdət dayanıqsız faktların vəhdətidir. Bizcə bu cür vəhdət materiyaönü həqiqətin aydınlaşmasında təzahür edir.

Vəhdət özündə həqiqi universallığı təqdim edir. Belə vəhdət növ vəhdəti yox, ümumi vəhdətdir. Həqiqi tiplərin vəhdəti üç cür olur:

1. **Xarici vəhdət (və ya təzahürlərə görə vəhdət):** Yalnız təzahürlərin eyniliyi ilə yaranan vəhdət. Təzahürlərin vəhdəti nisbi və müvəqqətidir. Fiziki xassələr təzahürünə görə vəhdətə aiddir.

2. **Daxili vəhdət (və ya mahiyyətə görə vəhdət):** Mahiyyətə görə vəhdət daimi və əbədidir. Kimyəvi xassələr mahiyyətə görə vəhdəti təşkil edir. Canlılarda təzahürə görə vəhdət individliyi, mahiyyətə görə vəhdət növləri yaradır. İnsanlarda xarici vəhdət cinsləri, yaşdaşlığı, irqləri; daxili vəhdət sivilizasiyaları, millətləri və insanlığı təşkil edir. Mahiyyətə görə vəhdət – həqiqi tiplərin vəhdəti – dayanıqlı faktların vəhdətidir. Başqa sözlə, dəyişilməyə, inkişafa və tərəqqiyə məruz qalan vəhdət qeyri-həqiqi vəhdətdir.
3. **Fenomenoloji vəhdət:** Əbədi həqiqət – istənilən mümkünlük reallığa münasibətdədir və yalnız buna görə həqiqətin vəhdətdə anlanılması baş tutur. Biz bunu fenomenoloji vəhdət adlandırırıq. Fenomenoloji vəhdətsiz ümumiyyətlə həqiqətin hər hansı formada aşkarlanması mümkün deyildir. Fenomenoloji vəhdət həqiqətin təfəkkürdə aydınlaşmasında meydana çıxan vəhdətdir. Belə ki, hər bir dərk olunan gerçəkliklə onun təfəkkürdə inikası vəhdətdədir. Belə vəhdət həm də özündə həqiqətlə vasitənin vəhdətini refleksiya edir. Bu da aksidensiya kimi təzahür edir. Fenomenoloji vəhdət həm idrak prosesinin vəhdəti kimi (idrakın mərhələlərinin əlaqəsi), həm də onun məhsullarının vəhdəti kimi (idrak mərhələlərində əldə edilən təfəkkür strukturlarının bir-biri ilə vəhdəti) təzahür edir. İdrak prosesinin vəhdəti dedikdə duyğunun, təəssüratın, qavrayışın və s. bir-biri ilə vəhdət təşkil etməsini; idrak məhsullarının vəhdəti obrazların, adların, anlayışların, ideyaların və s-nin bir-biri ilə vəhdətini nəzərdə tuturuq. Birinci mahiyyətə görə, ikinci təzahürə görə vəhdətlərdəndir.

Fenomenoloji vəhdət həm də təfəkkürün varlığa münasibətində aşkarlanır. Bunu şüurun vəhdəti kimi adlandırmaq olar. İdrakın vəhdətinə aşağıdakılar aiddir:

1. **Xarici aqreqasiyadan yaranan vəhdət:** Müxtəlif adamların eyni bir həqiqəti bir-birindən asılı olmadan, eyni vaxtda kollektiv formada aşkarlaması; buradan kollektiv şüur və ya kütlə şüuru meydana çıxır.

2. **Yaşam təcrübəsindən yaranan vəhdət:** Müxtəlif fərdlərin ayrı-ayrılıqda, başqalarından asılı olmadan, müstəqil şəkildə eyni bir həqiqəti aşkarlaması; buradan adi və ya gündəlik şüur yaranır.
3. **Birgəyaşayışdan aşkarlanan vəhdət:** Müxtəlif fərdlərin eyni bir həqiqəti bir-biri ilə əlaqəli, müştərək formada aşkarlaması; buradan ictimai şüur formaları yaranır.
4. **Real varlığın xarici vəhdətindən aşkarlanan vəhdət:** Belə vəhdət bir fərdin təklikdə aşkarladığı müxtəlif nisbi həqiqətlərin özündə ictimai şüurla aşkarlanan həqiqətlərlə vəhdət yaratması kimi təzahür edir. Buradan fəlsəfi şüur meydana çıxır.
5. **Real varlığın xarici vəhdətinin əksiliyindən aşkarlanan vəhdət:** Belə vəhdət real varlığın xarici totallığının əksiliyi kimi bir fərddə aşkarlanan vəhdətdir. Buradan dini şüur meydana çıxır. Belə ki, dini şüur bu dünyanın əksiliyi kimi o dünya haqqında sintetik təsəvvürlərin məcmusundan ibarət həqiqətləri özündə aşkarlayır.

Beləliklə, kateqoriyalar ən ümumi mütləq nisbi həqiqətin aşkarlanmasında fəlsəfənin əsas hipotetik konstruktorları kimi istifadə olunur. Kateqoriyalar həqiqətin artma və azalma meylinin (əksiliklərəqədərki vəziyyətin) təzahürlərinin vahid ümumi anlayışlarıdır. Buna görə də kateqoriyalarla əksiliklərin hər iki tərəfi haqqında mühakimə yürütmək mümkündür. Bundan fərqli olaraq, anlayışlarla əksiliklərin yalnız bir tərəfi haqqında mühakimə yürütmək olar. Əgər varlıqlar əksilikdə idraka cəlb edilirsə, eləcə də həqiqətin aydınlaşması özünün aşkarlanması ilə əksilik təşkil edirsə, onda xüsusi nisbi mütləq həqiqətin (təzahürlər əsasında idrak olunan mahiyyətin) idrakı mümkün olmur. Məsələn, "keyfiyyət" kimi "rəng" anlayışı özündə həm azalmanın rəngini ("qaranı"), həm də artmanın rəngini ("ağı") ifadə edir. Amma "qara" və ya "ağ" rəng anlayışı yalnız bir meylin keyfiyyətini özündə təqdim edir. Eləcə də "kəmiyyət" anlayışı istənilən mənfi və müsbət ədədlər çoxluğunun vəhdətini özündə ifadə edir. Amma "müsbət ədədlər" anlayışı yalnız müsbət ədədlər çoxluğunu, "mənfi ədədlər" anlayışı yalnız mənfi ədədlər çoxluğunu bildirir.

Varlıqda nisbi mütləq nisbi həqiqətin aydınlaşması ilə təfəkkürdə aşkarlanması da vəhdət təşkil etdiyindən, kateqoriyalar həm də dərketməni nizamlayan anlayışlar kimi çıxış edir. Buradan da deyə bilərik ki, kateqoriyalar varlığın vəhdətini və varlıqda aydınlaşan həqiqətlə onun aşkarlanmasının vəhdətini ifadə edərək idrak prosesinin reallaşmasını təmin edən hipotetik konstruktorlardır.

Haşiyə: *Aristotel*, "Kateqoriyalar"

"Eyniadlı o əşyalar adlanır ki, onların yalnız adı ümumidir, buna uyğun olaraq anlayışların adları (təyin) – onların mahiyyəti – fərqlidir. Eyniadlı (eynimənalı) o əşyalar adlanır ki, onların həm adları, həm də anlayışları eynidir. İsmi olanlar (paronimlər) o əşyalar adlanır ki, adlarını onun adına uyğun hansısa əşyadan alırlar. Mövcud olanlardan biri hansısa aidiyyəti bildirir, amma heç bir aidiyyətdə yerləşmir (aidiyyətdə yerləşməyi mən onu adlandırıram ki, nəyinsə hissəsi deyil, onda yerləşdiyindən ayrılıqda mövcud ola bilməz). Başqası aidiyyətdə olur, amma heç bir aidiyyət haqqında heç nə demir. Elə əşyalar vardır ki, aidiyyət haqqında məlumat verir və aidiyyətdə yerləşir. Nəhayət, bəzi əşyalar aidiyyətdə yerləşmir və heç bir aidiyyət haqqında məlumat vermir. Başlıca olaraq söz gedən mahiyyət (birincili mahiyyət) hər şeydən əvvəl və hər şeydən çox heç bir aidiyyətə aid deyil və heç bir aidiyyətdə olmur. İkincili mahiyyət isə onlardır ki, növ kimi ilk növbədə bu növün adlandırılması kimi, eləcə də bu növü əhatə edir. İkincili mahiyyətlərdə növ daha çox mahiyyətdir, nəinki nəsil; o, birincili mahiyyətə yaxındır. İstənilən mahiyyət üçün ümumi cizgi aidiyyətdə olmamaqdır. İstənilən mahiyyət hazırkı əşyanı bildirir."

Aristotelin şərhi əsasında demək olar ki, kateqoriyalar adaqədərki anlayışlardan olub bütün varlıqların "aidiyyətdə yerləşməyən və aidiyyət haqqında məlumat verməyən" birincili mahiyyətini – "hər şeydən əvvəl və hər şeydən çox heç bir aidiyyətə aid olmayan və heç bir aidiyyətdə olmayan" və ya bütün aidiyyətlərə eyni vaxtda aid olan və eyni vaxtda bütün aidiyyətlərdə olan müxtəlifləşməönü mahiyyətini şərh edir. Yuxarıda

biz hər bir gerçəkliyin özündə həm də digər gerçəkliklərlə vəhdətdə təzahür etdirdiyi mahiyyəti olduğunu və bu ümumi, universal, ortaq mahiyyətin mütləq nisbi həqiqəti ifadə etdiyini qeyd etmişdik. Ortaq mahiyyət yalnız vəhdətdə təzahür edən, vəhdətdən kənar hər hansı bir xüsusidə hər hansı bir formada təzahür etməyən mahiyyətdir. Məsələn, məlumdur ki, Na atomu ilə Cl atomunun birləşməsindən xörək duzu əmələ gəlir. Xörək duzu iki bir-biri ilə əksilik təşkil edən metal və qeyri-metalın birləşməsindən əmələ gələn vəhdəti özündə ifadə edir. Xörək duzunda nə natriumun, nə də xlorun heç bir xüsusi keyfiyyəti təzahür etmir; eləcə də xörək duzunu təşkil edən natrium və ya xlor hər biri ayrılıqda xörək duzuna xas heç bir keyfiyyəti təzahür etdirmək imkanına malik deyildir. Beləliklə, xörək duzunun keyfiyyəti ayrı-ayrılıqda nə Na atomunda, nə də Cl atomunda təzahür etməyən ən ümumi keyfiyyətdir ki, onların vəhdətində təzahür edərək hər iki atomun ayrılıqda təzahür etdirdiyi xüsusi keyfiyyətləri inkar edir. Belə birlikdə əksilik təşkil edən xüsusi keyfiyyətlər bir-birini inkar etdiyindən, eyni zamanda hər ikisi yeni vəhdətdə inkar olunur. Vəhdət nə qədər ümumidirsə, onda təzahür edən həqiqət bir o qədər mütləq nisbi həqiqətdir. Buradan da deyə bilərik ki, mütləq nisbi həqiqət bütün kainatın vəhdətində təzahür edən vahid bir həqiqətdən ibarətdir və bu həqiqətin aşkarlanmasının təfəkkür instrumentləri məhz fəlsəfi kateqoriyalardır.

İstənilən fəlsəfi təlim həqiqətin aşkarlanmasında eyni kateqoriyalardan istifadə edir. Beləliklə, fəlsəfənin fəlsəfəsinin digər bir qanunauyğunluğunu "eyni kateqoriyalar əsasında mütləq nisbi həqiqətin müxtəlif tərəflərinin dərk edilməsi" kimi ifadə edə bilərik. Başqa sözlə, kateqoriyalar konkret gerçəkliklərdə təzahür edən mütləq nisbi həqiqəti aşkarlayan anlayışlar kimi yaranmışdır. Məsələn, "məkan" heç bir ayrıca gerçəkliyə aid deyil və onda yerləşmir; hər hansı bir konkret aidiyyət haqqında məlumat vermir. Sadəcə məkan kateqoriyası ilə aid olanın aidiyyət olduğunu inkar edirik və aidiyyətin konkret hansı dərəcəli mahiyyətə malik olması haqqında heç bir məlumata malik olmuruq. Yəni "məkan" şərtlən-

məsinin nə cisim, nə can, nə də ruh üçün heç bir aidiyyəti yoxdur; onların heç birində yerləşmir, onların hər hansı biri haqqında xüsusi məlumat vermir.

Kateqoriyaların xüsusi anlayışlardan bir fərqi də məhdud sayda olması və dialektik mühakimə ilə şərtlənməməsidir. Xüsusi anlayışlar biliyin həcminə uyğun olaraq həm kəmiyyət, həm də dialektik məntiqlə keyfiyyət dəyişilmələrinə məruz qalır. Amma kateqoriyalar min illər bundan öncə müəyyənləşmiş sayda və mənada bu gün də ümumi həqiqətin aşkarlanmasında olduğu kimi istifadə olunur. Təfəkkürün mütləq nisbi həqiqəti varlığın ən ümumi vəziyyətindən dərk etməsi kateqoriyalarla reallaşır. Buna görə də kateqoriyalar xalis fəlsəfi anlayışlardır.

Haşiyə: *İ. Kant*, "Xalis zəkanın tənqidi"

"Bizim düşüncəmizin spontanlığı tələb edir ki, çoxobrazlılıq hər şeydən öncə hansısa şəkildə ondan bilik əldə etmək üçün təkrar baxılsın, qəbul edilsin və əlaqələndirilsin; belə fəaliyyəti mən sintez adlandırıram. Sintez altında ən geniş mənada mən müxtəlif təsəvvürlərin bir-birinə birləşdirilməsini və onların çoxformalılığının vahid idrak aktında başa düşülməsini düşünürəm. Əgər çoxformalılıq empirik yox, aprior verilmişsə, belə sintez xalis adlanır. Bizim təsəvvürlər istənilən analizdən əvvəl verilməlidir və heç bir anlayış məzmununa görə analitik əmələ gəlməməlidir. Ümumi formada verilmiş xalis sintez mühakimə anlayışları verir. Xalis sintez altında mən əsas aprior sintetik vəhdətdə olan sintezi başa düşürəm; bizim hesablamamız anlayışa uyğun sintezdir, belə ki, o, vəhdətin ümumi əsası hesabına aparılır; nəticədə belə anlayışlarda vəhdət çoxformalılığın sintezində zərurətə çevrilir. Analiz yolu ilə müxtəlif təsəvvürlər bir anlayış altında yığılır. Bu xalis sintezin vəhdət bildirən və istisnasız olaraq bu zəruri sintetik vəhdət haqqında təsəvvürlərdən ibarət olan anlayışlar təzahür edən obyektin dərk edilməsi üçün üçüncü səviyyəni təşkil edir və mühakimədə kök salır. Bu funksiya müxtəlif təsəvvürlərin vəhdətini bir mühakimədə bildirməyi və müxtəlif təsəvvürlərin xalis sintezini bir düşüncədə verilməsini bildirir; ümumi formada ifadə edilən bu vəhdət

xalis mühakimə anlayışları adlandırılır. Bu yolla bütün mümkün mühakimələrdə məntiqi funksiyaların sayı qədər xalis mühakimə anlayışları əmələ gəlir ki, aprior olaraq ümumiyyətlə düşüncə predmetinə aid olur: mühakimə bu funksiyalarla tam qurtarır və onun qabiliyyəti onlarla ölçülür. Biz bu anlayışları Aristotelin nümunəsində kateqoriya adlandırırıq."

Kantın kateqoriyalar haqqında izahından kateqoriyaların aşağıdakı kriteriyalarını ayırd etmək olar:

- **Çoxobrazlılıqdan ən ümumi təsəvvürün əldə edilməsi:** Bizi əhatə edən kaleydoskopik dünya sonsuz sayda çoxlu formalardan ibarətdir, hansı ki onların təfəkkürdə refleksiyası çoxformalı təsəvvürlər yaradır. Çoxformalı təsəvvürlər özlərində ən xüsusi həqiqətlər haqqında məlumatlarla bağlı olur. Beləliklə, gerçəkliyin çoxobrazlılığının təfəkkürdə refleksiyası çoxformalı təsəvvürlər yaradaraq təfəkkürü də kaleydoskopik formaya (xaotik formaya) salır. Belə vəziyyətdə həqiqət aşkarlanmır. Nizamlı bilik əldə etmək üçün çoxformalı təsəvvürlərin təkrar baxılmasına, onların qəbul edilməsinə və onların əlaqələndirilməsinə, yəni kaleydoskopik dünyanın çoxobrazlılığının refleksiyası əsasında təsəvvürlərin çoxformalılığını dəf edərək təkformalı təsəvvürün yaradılması ilə ən ümumi həqiqət aşkarlanır, hansı ki bu, kateqoriyaların köməyi ilə mümkün olur. Beləliklə, kateqoriya təsəvvürləri çoxformalılıqdan təkformalılığa keçirən anlayışlardır. Məhz belə keçidlə çoxobrazlılıqdan ümumi həqiqət aşkarlanır. Çoxobrazlılıq eyni mütləq nisbi həqiqətin təkobrazlılığının ən müxtəlif dərəcədə entropiyaya məruz qalması ilə meydana çıxır. Nəticədə çoxobrazlılığın refleksiyasından ən nisbi mütləq nisbi həqiqət aydınlaşır; obraz müxtəlifləşdikcə mütləq nisbi həqiqət – təfəkkürdəki təsəvvürlər də nisbiləşir. İdrak prosesində entropiyanın təmizlənməsi nəticəsində təfəkkürdə başlanğıc təkobrazlılığa uyğun, obyektiv gerçəklik haqqında ən ümumi mütləq nisbi həqiqətin əldə edilməsi (birformalı təsəvvürün əldə edilməsi) kateqoriyalarla reallaşır. Məsələn, məkanda yerləşən sonsuz sayda obraza malik varlığın ən ümumi şərti məkanla şərt-

lənmədir. Bu baxımdan məkan kateqoriyası bu ümumi şərtlənmə nöqtəsində aşkarlanan ümumi həqiqətin anlayışı kimi çıxış edir. Çoxobrazlılıqda vəhdət hər bir forma üçün ümumi olan tərəflə reallaşır. Kateqoriyalar məhz çoxobrazlılıqda əlaqələndirici tərəfin (vəhdətin) aşkarlanmasını ifadə edir.

- **Müxtəlif təsəvvürlərin bir-biri ilə birləşdirilməsi ilə onların çoxformalılığının vahid idrak aktında başa düşülməsi:** Obyektiv gerçəkliyin çoxobrazlılığına uyğun təfəkkürdə çoxformalı təsəvvürlər yaranır. Nəticədə ən müxtəlif anlayışlar meydana çıxır. Anlayışlar xüsusi həqiqəti ifadə edən konstruktorlar olduğundan ümumi həqiqəti dərk etmək üçün onların ümumiləşdirilməsi tələb olunur. Beləliklə, kateqoriyalar ən müxtəlif anlayışların ən ümumi tərəflərini ifadə edərək çoxformalı təsəvvürlərdən təkformalı təsəvvürlərin əldə edilməsinə səbəb olur, hansı ki idrak prosesində bilavasitə çoxobrazlı gerçəkliyin refleksiyası ilə əldə etmək mümkün olmur. Məsələn, məkan kateqoriyası məsafə, ölçü, həcm, en, uzunluq, hündürlük və s. kimi çoxsaylı anlayışları ən ümumi şəkildə özündə təqdim edir.
- **İstənilən analizdən əvvəl verilən olması:** Həqiqətin idrakının üsulu kimi məntiq iki prosesdən – analiz və sintezdən ibarətdir. Analiz qeyri-müəyyən həqiqəti hissələrə ayırmaq, sintez həmin hissələrin nizamlı birləşdirilməsi ilə müəyyən həqiqəti aşkarlamaqdan ibarətdir. Lakin qeyri-müəyyən həqiqətin hissələrə ayrılması elə aparılmalıdır ki, o, sonradan sintez olunmaqla müəyyənlik yarada bilsin. Buradan da kateqoriyalar analizi sintez üçün məqbul istiqamətdə aparılmasını təmin edən konstruktorlar kimi analizdən öncə verilir. Məsələn, biz istənilən analizi bəlli bir zamandan və ya məkandan başlayırıq və sintez nəticəsində əldə etdiyimiz həqiqəti də məhz məkan və zamanla ifadə edərək dərk edirik.
- **Xalis mühakimə anlayışı olması:** Kateqoriya bilavasitə çoxformalı təsəvvürlərdən təkformalı təsəvvürlər əldə etmək üçün istifadə olun-

duğundan, təsəvvürlər isə özlüyündə xalis təfəkkür məhsulları olduğundan, kateqoriyalar da xalis mühakimə anlayışları kimi mövcuddur. Yəni kateqoriyalar obyektiv gerçəkliyin anlayışları yox, onların təfəkkürdə refleksiyasının anlayışlarıdır. Başqa sözlə, kateqoriyaların obyektiv gerçəkliklə bilavasitə əlaqəsi yoxdur; halbuki hər bir xüsusi anlayış diqqəti konkret varlığa istiqamətləndirir. Kateqoriyaların belə xüsusiyyəti olmadığından gerçəklə heç bir konkret əlaqəsi yoxdur.

- **Mühakimənin sonu və ölçüsü olması:** Mühakimə prosesində çoxobrazlılıqdan təkobrazlılıq haqqında təkformalı təsəvvürün alınması sürəkli proses olub, mühakimənin sonunda mümkün olur. Belə ki idrak prosesində çoxformalı təsəvvürlərdən dərhal təkformalı təsəvvürlər alınmır, yəni müəyyən aralıq proseslərdən (təsnifləşdirmədən, sortlaşdırmadan və s.) sonra sonda təkformalılıq əldə edilir. Buna görə də kateqoriyalar mühakimənin sonu – təkformalı təsəvvürün əldə edilməsinin anlayışı kimi çıxış edirlər. Son olduğundan, onların çoxformalılığı olmadığından və buna görə də mühakimə başa çatdığından kateqoriyalar həm də təkformalı təsəvvürlərin ölçüsü kimi çıxış edir. Məsələn, zaman kateqoriyasına an, vaxt, müddət, qərinə, dövr və s. kimi anlayışlar daxildir və bunlar varlığın zamanla şərtlənməsinin müxtəlif dərəcələrini – sürəkliliyin, aktuallaşmanın ölçülərini ifadə edən anlayışlardır. Amma "zaman" kateqoriyası ən ümumi şəkildə ən son anlayış kimi bütün dərəcələnmələri (ölçüləri) özündə ifadə edir. Zamandan daha böyük sürəklilik anlayışı yoxdur. Buradan da deyə bilərik ki, kateqoriyalar özləri ölçü olduğundan ölçüsüzdürlər. Yəni kateqoriyaların ölçüsü kimi çıxış edən anlayışlar mümkün deyildir.

Kateqoriyaların üç xarakteristikasını müəyyən etmək olar:

1. **Kateqoriyalar hipotetik fəlsəfi konstruktorlardır:** Yəni kateqoriyalar təfəkkürdə aprior aşkarlanan, amma təcrübəni idrak etməyə yardım edən xüsusi noumenlərdir. Fenomenlərdən fərqli olaraq kateqoriyaların özlərində təqdim etdikləri şeylər məhz ağıldan təşkil olunur.

2. **Təfəkkürün varlığa (subyektin obyektə) münasibətini şərh edir:** Kateqoriyalar obyekt-subyekt münasibətində təcrübi biliklərin dərk edilməsində iştirak etdiyindən, bu zaman subyektin obyektə münasibətini özündə ifadə edir. Məsələn, məkan-zaman kateqoriyası özündə subyektin idrak obyekti ilə eyni məkanda və zamanda olduğunu təqdim edir.
3. **Mütləq nisbi həqiqətlə nisbi mütləq nisbi həqiqətin əlaqəsini ifadə edir:** Kateqoriyalar özündə həqiqətin idrakının nisbiləşməsini təqdim edir. Məsələn, hər hansı idrak obyektinin ölçülülüyünün dərki məkana münasibətdə reallaşdırılır. Burada idrak obyektinin ölçüsü (məkan mütləq ölçülülük olduğundan) məkan-zaman şərtində obyektin idrakı yerin məkana nisbətində mütləq nisbi həqiqətin nisbi mütləq nisbi həqiqətlə əlaqəsini ifadə etmiş olur. Başqa sözlə, kateqoriyalar mütləqin nisbiləşməsinin əksinə olaraq idrak prosesində nisbidən mütləqin əldə edilməsi üçün zəruri olan konstruktorlardır. Kateqoriyalar vəhdəti ifadə etdiyinə görə demək olar ki, mütləq həqiqətin bilavasitə xarakteristikasını təşkil edirlər. Bundan fərqli olaraq, xüsusi anlayışlar yalnız nisbi mütləq nisbi həqiqətin xarakteristikasını ifadə edir. Buradan da demək olar ki, təzahürlərin məcmusu kateqoriyaları təşkil edir. Məsələn, məkan kateqoriyası ölçü, məsafə, müstəvi, istiqamət və s. kimi xüsusi anlayışları özündə ehtiva edir və bunun əksinə, məhz bu kriteriyalarla varlığın məkanla şərtlənməsi dərk edilir.

Kateqoriyalar simvolik sırada bilavasitə mütləq nisbi həqiqətə aid, anlayışlar isə varlığa aid sintetik simvollardır. Buna görə də həqiqət haqqında ümumi bilgi kateqoriyalarla, varlıq haqqında xüsusi bilgi anlayışlarla əldə edilir. Əgər idrak prosesində simvollaşdırma zəncirini yaranma zəncirinə uyğun təsvir etsək, onda aşağıdakı iki paralel zəncir alınacaq: tək – cins – növ – forma – gerçəklik – nisbi mütləq nisbi həqiqət; orijinal xassə – xüsusi xassə – təzahür – xüsusi qanunauyğunluq – kateqoriya – ən ümumi qanunauyğunluq. Buradan görünür ki, kateqoriya aktuallaşma mərhələsinin qanunauyğunluqlarını aşkarlamaq üçün istifadə edilən sis-

temləşdirici anlayışlardır. Mütləq həqiqəti kateqoriyalarla şərh etmək mümkün deyildir; kateqoriya nisbiləşməni mütləqləşdirmə ilə əlaqələndirən mərhələni şərh etmək üçün məqbul anlayışlardır. Kateqoriya müxtəlif sıraların ümumi tərəflərini ifadə edir. Nisbi mütləq nisbi həqiqətin varlıqda aydınlaşmasını şərh edir. Beləliklə, kateqoriya xassələri vəhdətdə ifadə edir. Kateqoriya varlıqda həqiqətin artma və azalma meylinin ümumi və universal təzahürlərini şərh edən təfəkkürün abstrakt anlayışlarıdır. Fəlsəfə bütün varlıqların tabe olduğu ən ümumi qanunların ən ümumi və universal anlayışlar (kateqoriyalar) əsasında idrak edilməsinə cəhd edir.

İstənilən varlıq özündə özünün başlanğıcı ilə sonunun vəhdətindən ibarətdir. Fəlsəfi kateqoriyalar başlanğıcın və sonun tərəflərini ifadə edən hipotetik konstruktorlardan ibarətdir. Kateqoriyalar həqiqətin meyllərinə (artma və azalma meyllərinə) uyğun olaraq cüt formada mövcud olub, bir-biri ilə vəhdət təşkil edir. Beləliklə, kateqoriyalar bir-biri ilə üfüqi, həqiqətin aydınlaşma meylləri ilə şaquli əlaqədədir. Buradan da biz bir meylin şaquli xətt üzrə bir çox kateqoriyalarla, amma hər bir kateqoriyanın üfüqi xətt üzrə yalnız bir kateqoriya ilə vəhdətini ayırd edə bilərik. Beləliklə, artma meyli – substansiya, keyfiyyət, səbəb, zaman, ümumi kateqoriyaları ilə; azalma meyli – forma, kəmiyyət, nəticə, məkan, xüsusi kateqoriyaları ilə vəhdət təşkil edir. Artma azalma ilə əksilik təşkil etdiyi kimi, azalma meyli ilə vəhdət təşkil edən kateqoriyalar da artma meyli ilə vəhdət təşkil edən kateqoriyalarla əksilik təşkil edir. Buna paralel olaraq artma meyli azalma meylinə (və əksinə) keçdiyi kimi, onlarla vəhdət təşkil edən kateqoriyalar da bir-birinə keçir. Yəni substansiya formaya (və əksinə), kəmiyyət keyfiyyətə (və əksinə), səbəb nəticəyə (və əksinə), zaman məkana (və əksinə), ümumi xüsusiyə (və əksinə) keçir. Fəlsəfədə yalnız kəmiyyətin keyfiyyətə keçmə qanunu müəyyənləşmişdir. Digər kateqoriyaların bir-birinə keçidinin qanunauyğunluqları haqda bəlli bir ideya hələ ki yoxdur. Biz istənilən obyektiv gerçəkliyi hissi qavrayışla dərk edərkən onu kateqoriyalarla dərk edirik; amma kateqoriyalar bilava-

sitə şeyin özü ilə birlikdə təcrübədən bizə verilmir, əksinə, şüur onu əvvəlcədən özündən şeylərə müncər edir.

İdrakın Metafizik Əsasları və Xalis Kateqoriyalar

Hissi idrak obyekt-subyekt münasibətində birtərəfli qaydada, yalnız obyektlə şərtlənmiş şəkildə reallaşmır. Əgər belə olsaydı, onda təfəkkür güzgü kimi obyektiv gerçəkliyin xarici görüntüsünü özündə əks etdirməklə məhdudlaşardı. Amma təcrübə göstərir ki, idrak prosesində, həm də təfəkkürdə, güzgüdən fərqli olaraq, obyektiv gerçəkliyin daxili görüntüsü aşkarlanır, aşkarlanmış məlumatlar uzun müddət yaddaşda saxlanılır və həmin məlumatlar əsasında təfəkkürün özü-özündə sonrakı mühakimə aktında yeni-yeni həqiqətlər meydana çıxır.

Bütün bunlar göstərir ki, idrak prosesi mexaniki əksolunmadan fərqli olaraq, fəal şəkildə subyektin iştirakı ilə aktuallaşır və bu prosesdə təfəkkür özündən obyektiv gerçəkliyin refleksiya prosesinə xüsusi anlayışlar daxil edir. Başqa sözlə, idrak prosesi obyekt-subyekt anlayışlarının vəhdətində mümkün olur. Bəs bu vəhdət necə əldə edilir?

Haşiyə: *İ. Kant*, "Xalis zəkanın tənqidi"

"Biz görürük ki, mühakimə özü-özündən, təcrübədən əldə edilmədən çıxardığı hər şeyin, ancaq təcrübəyə tətbiqindən başqa məqsədi yoxdur. Xalis mühakimənin əsası, aprior konstitutiv və xalis requlyativ əsas özündə mümkün təcrübə üçün xalis sxem saxlayır; əsl həqiqətdə, təcrübə bu sintetik birlikdə vəhdət əldə edir, hansı ki mühakimə ilk başlanğıcda və kortəbii sintezi appersepsiyaya münasibətdə təsəvvürə bildirir və hansı ki mümkün bilik üçün məlumat kimi təzahürlər aprior olaraq rabitədə və razılaşmada olmalıdır..Xalis mühakimə anlayışları yalnız təcrübəyə tətbiq ediləndir, nəinki heç bir şəkildə transsendental; və xalis mühakimənin əsası hissi predmetlərə o zaman tətbiq oluna bilər ki, mümkün təcrübənin ümumi şərtləri ilə əlaqəsi olsun, amma onları şeylərə ümumiyyətlə aid etmək olmaz."

İ. Kantın fikirlərindən görünür ki, mühakimə özündən, yalnız təcrübəyə tətbiq etmək üçün, təcrübə ilə heç bir əlaqəsi olmayan çoxlu anlayışlar çıxarır və bilavasitə təcrübədən əldə edilən anlayışlarla özündən çıxardığı anlayışların vəhdətindən **xalis idrak sxemi** saxlayır. Sonra təcrübədə istənilən təzahür həmin sxemlə bu və ya başqa şəkildə əlaqələndikdə və ona uyğun olduqda, həmin təzahürün vəhdət təşkil etdiyi mahiyyətdən həqiqət aşkarlanır.

Təfəkkürün özü-özündən, təcrübə ilə hər hansı bir şəkildə əlaqəsi olmadan çıxardığı anlayışları *Kant* "xalis mühakimə anlayışları" adlandırır və belə hesab edir ki, həmin anlayışlar yalnız təcrübəyə tətbiq oluna bilər və onların heç bir halda transsendental tətbiqi ola bilməz. Təfəkkürün təcrübədən asılı olmadan özündən çıxardığı və təcrübəyə tətbiq etdiyi xalis mühakimə anlayışlarının mövcudluğu onu göstərir ki, təcrübənin – obyektiv gerçəkliklərin metafizikadakı ilk başlanğıcı ilə xalis özü-özündə başlanğıc kimi subyekt (Ruh) arasında ümumilik vardır (Ruhun özünəməxsus mövcudluq üsulu olmadığından, o həm "ilk başlanğıc", həm də "başlanğıc" kimi çıxış edir və biz bunu "özü-özündə başlanğıc" kimi təyin edirik).

Başqa sözlə, mümkünlük səviyyəsində obyektiv gerçəkliklə Ruh bir və eyni anlayışlarla ifadə olunandır. Bu da xalis mühakimə anlayışlarının transsendental tətbiqinin mümkünsüzlüyü ilə bağlı *Kantın* fikirlərinin həqiqətə uyğun olmadığını göstərir. Amma qeyd etmək lazımdır ki, xalis mühakimə anlayışları o zaman metafizik tətbiq oluna bilər ki, onlar təcrübədən əldə edilən anlayışlarla vəhdətdən çıxarılsın. Biz xalis mühakimə anlayışlarının mümkün təcrübədən əldə edilən anlayışlardan fikrən ayrılıqda götürülməsini **xalis kateqoriyalar** kimi təyin edirik. Kateqoriyaları şüur "özündən" şeylərə əvvəlcədən müncər etdiyindən, biz onların əsasının metafizikada olduğunu deyə bilərik.

Haşiyə: *İ. Kant*, "Xalis zəkanın tənqidi"

"Məkan bizim təcrübəmizdən çıxarılan empirik anlayış deyil. Əsl həqiqətdə məkan haqqında təsəvvür əvvəlcədən verilməlidir ki, bu və ya

başqa hissiyyat məndən kənara aid edilə bilsin, həmçinin onların bir-birindən kənar və bir-birinin ardınca yerləşməsini təsəvvür edim. Məkan, bütün xarici seyrlərin əsasında duran zəruri aprior təsəvvürdür. Məkan sonsuz mövcud ölçü kimi dərk olunur."

Kantın məkanla bağlı fikirləri ümumiyyətlə bütün kateqoriyalara şamil edilə bilər. Ona görə də, məkanın nümunəsində digər kateqoriyalara da aydınlıq gətirmək olar. Beləliklə, *Kantın* fikirlərində "əvvəlcədən verilməlidir" ifadəsi ilə bağlı aşağıdakı suallara cavab vermək lazım gəlir:

1. **"Əvvəlcə" sözü hansı mənanı özündə ifadə edir?** "Əvvəlcə" sözü təfəkkürdə, hissi qavrayışın iştirakı olmadan, onda müəyyən ideyaların potensial şəkildə mövcudluğunu özündə ifadə edir. Bəs belə potensial ideyalar təfəkkürdə necə, nə vaxt və haradan refleksiya olunur? İdrak Ruha xas qabiliyyət olduğundan demək olar ki, Ruhun yaranışda iştirak edən ideyaları xalis şəkildə onun anadangəlmə təbiətini təşkil edir, hansı ki idrak prosesində sonradan mövcudluqdan refleksiya olunan ikincili ideyalar, Ruhda əvvəlcədən mövcud olan birincili ideyalarla müqayisədə dərk olunur. Buradan da, kateqoriyaların əvvəlcədən Ruhun təbiətində verilməsini deyə bilərik. Ruh (Subyekt) təcrübədə obyekt-subyekt əlaqəsində təbiəti hissi qavrayışla dərk etdiyindən, idrak başlanmamışdan əvvəlcədən kateqoriyalar verilməlidir ki, sonra hissi qavrayışla dərk edilənlər həmin kateqoriyalarla əsaslandırılsın. Əgər kateqoriyalar təbiətdən əldə edilirsə, onda onlar əvvəlcədən verilə bilməz, yalnız hissi qavrayışla xüsusi həqiqətlərə paralel təqdim edilə bilər. Onda kateqoriyalar hissi qavranılanlarla eyni hüquqlu olar, bu isə onlara hər şeyin ümumi idrakında iştirak imkanı verməz. Deməli, buradan belə nəticə çıxır ki, kateqoriyalar təbiətdən, hissi qavranılanlardan əvvəl olanlardan əldə edilə bilər. Biz metafizika anlayışını şərh edərkən onu təbiətə münasibətdə "əvvəl" kimi təyin etmişdik. Deməli, əvvəlcədən verilənlər metafizikadan əldə edilənlərdir, hansı ki sonranın – təbiətin idrakında iştirak edir.

2. **Məkan haqqında təsəvvürü kim əvvəlcədən verməlidir?** Təcrübədə obyekt-subyekt münasibətində obyekt yalnız öz məkani ölçülüyünü – məkandakı yeri haqqında təsəvvürü əvvəlcədən, yəni idrak başlamamışdan verir və subyekt sonra onun məkanla şərtlənməsini idrak edir. Deməli, obyekt məkan haqqında təsəvvürü vermir. Buradan da məlum olur ki, məkan haqqında təsəvvür subyekt tərəfindən idrak prosesindən əvvəlcədən verilir və sonra idrak prosesində obyektin yeri haqqında təsəvvürlərlə məkan haqqında təsəvvür spontan tutuşdurularaq şeyin məkani ölçülüyü haqqında məlumat əldə edilir. Beləliklə, deyə bilərik ki, yalnız düşüncə prosesində idrak başlamamışdan əvvəl mühakiməyə daxil edilən və hissi qavrayışdan əldə edilməyən bütün anlayışlar, o cümlədən kateqoriyalar, düşünən "Mən" tərəfindən verilir.
3. **Məkan haqqında təsəvvürlər haradan əldə edilir?** Düşünən "Mən" özündə Ruhla bədənin vəhdətini təqdim etdiyindən, bədən obyektiv gerçəklik olduğundan, düşünən Mənin özü-özündən obyektlərə əvvəlcədən verdiyi kateqoriyalar yalnız Ruhdan – metafizik statuslu obyektdən əldə edilir. Buradan da kateqoriyaları metafizik noumenlər kimi təyin edirik.
4. **Məkan haqqında təsəvvürlər nədən əldə edilir?** Metafizik statuslu obyektlərin nəsnəsi xalis ağıldan təşkil olunur. Beləliklə, məkan haqqında təsəvvür yalnız xalis zəkadan əldə edilir. Digər kateqoriyalar da xalis ağlın məhsuludur.
5. **Hansı mənada əvvəlcədən verilməlidir?** Biz metafizika haqqında ümumi anlayışları şərh edərkən, həm də idrak prosesinə münasibətdə "əvvəl və sonra"nın mənalarına aydınlıq gətirmişdik. Burada təkrara yol vermədən deyə bilərik ki, kateqoriyalar haqqında təsəvvürlər yalnız idrak prosesinə münasibətdə əvvəlcədən verilir. Yəni, idrakdan kənarda elə-belə kateqoriya yoxluqdur. Buna görə də, təcrübi təsəvvürlər kimi meydana çıxmır.

6. **Məkan haqqında təsəvvürlər nəyə münasibətdə əvvəlcədən verilməlidir?** Obyekt öz ölçülüyü haqqında təsəvvürləri subyektin ölçülüyünə münasibətdə təqdim edir. Bunun əksinə, məkan haqqında təsəvvürlər obyektin ölçülüyünə münasibətdə əvvəlcədən verilir. Beləliklə, kateqoriyalar obyektə görə əvvəlcədən verilən noumenlərdir.
7. **Məkan haqqında təsəvvürlər niyə əvvəlcədən verilməlidir?** İdrakın başlanğıcı immanentdir, yəni idrakın özündədir, daxilidir. Düşüncə subyektdən başladığından başlanğıc təsəvvürlər olmadan, ikincili təsəvvürlər əldə etmək olmaz. Digər tərəfdən, bu təsəvvürlər metafizik olduğundan, təbiət metafizikadan sonra gəldiyindən, təcrübəni yalnız təbiətdən kənarda olan – metafizikada olan əsaslardan dərk etmək mümkün olduğundan, kateqoriyalar haqqında təsəvvürlər təcrübədə şərtlənmənin başlanğıc və əsas təsəvvürü olduğundan, gerçəkliklərin kateqoriyalarla ölçülməsindən əvvəl verilir. Gerçəklikdən yalnız xüsusi həqiqətlər dərk edilir. Xüsusi həqiqətlər ümumi həqiqətlərin sərhədlərində mövcud olur. Buna görə də idrak prosesində əvvəlcədən ümumi sərhədlər verilir ki, idrak prosesində məhz həmin sərhədlərin daxilindəki xüsusi həqiqətlər aşkarlana bilsin. Yəni xüsusiyə münasibətdə ümumi kimi kateqoriyalar onların dərkinin hüdudlarını müəyyən etmək üçün əvvəlcədən verilir.

M. Haydeqqerə görə "metafizika mövcudluğu kateqoriyalarda düşünür". Əgər fəlsəfə də gerçəklik aləmini kateqoriyalarla düşünürsə, onda fəlsəfi kateqoriyalarla metafizik kateqoriyalar bir-birindən necə fərqlənir? Bu fərqi ifadə etmək üçün biz metafizik kateqoriyaları **xalis kateqoriyalar** kimi təyin edirik. Burada "xalis" sözü hansı mənada işlədilir?

Metafizika təbiətin başlanğıcını təşkil etdiyindən, hər bir şeyin idrakı onun başlanğıcı da daxil olmaqla onu tam kimi əhatə etdiyindən, istənilən reallığın idrakında təcrübəni şərh edən mühakimə noumenləri spontan və avtonom olaraq idrak prosesində iştirak edən, metafizikadakı başlanğıcı özündə təqdim edən mühakimə noumenləri ilə vəhdət təşkil edirlər. Nəticədə, istənilən təcrübi biliklərin idrakı cüt kateqoriyaların iştirakı ilə

mümkün olur. Bu kateqoriyalardan biri ayrılıqda metafizik statusun xarakteristikasını, yəni başlanğıcı və ilk səbəbi, digəri sonu və nəticəni özündə təqdim edərək bir-biri ilə vəhdətdə başlanğıc və sondan ibarət olan reallığın statusunu təşkil edən xarakteristikasını özlərində təqdim edirlər. Buna görə də, əgər fikrən kateqoriyaları bir-birindən ayrılıqda götürsək, onda özündə başlanğıcı və ilk səbəbi təqdim edən tək halda xalis kateqoriyalar əldə etmiş oluruq, hansı ki yalnız metafizikanın şərhində istifadə oluna bilər.

Beləliklə, "xalis" sözü – təklikdə işlədilən və bu zaman başqa kateqoriyaların mənası ilə əlaqələnməyən müstəqil xalis mənaya malik olmaqlığı bildirir. Biz burada xalis sözünü *Kantın* xalis zəka – hissiyyatdan kənar zəka anlayışına uyğun olaraq işlədirik. Yəni xalis kateqoriyalar təcrübənin cüt şəkildə idrakında iştirak etdiyi digər kateqoriyadan ayrılıqda olmaqlığı ifadə edir.

Təcrübə sahəsində kateqoriyalar cüt şəkildə, bir-biri ilə vəhdətdə həqiqətin idrakını təmin edirlər və buna görə də təcrübədə heç bir kateqoriya xalis olmur. Xalis olmadığından onların son mənasını, yəni mütləq xarakteristikasını reallıqlardan aşkarlamaq olmur. Məsələn, məkan-zaman şərtində mövcud olan hər hansı bir gerçəklik idrak olunarkən onun məkanı haqqında mühakiməyə avtomatik şəkildə vəhdətdə olduğu zaman da daxil olur və əksinə. Buna görə də, reallıqların idrakında nə məkan, nə zaman xalis kateqoriya kimi çıxış etmir. Buradan da məkanın xalis mənası (sonsuzluq), zamanın xalis mənası (əbədilik) hissi qavrayışda heç bir predmetin xarakteristikasına çevrilmir. Başqa sözlə, cüt kateqoriyalar bir-birinin xalis mənasını itirir, əvəzində onların hər birinin ikincili nisbi mənaları meydana çıxır, hansı ki nisbi həqiqətin idrakında istifadə olunur. Bundan fərqli olaraq, metafizik mühakimələrdə kateqoriyalar ayrı-ayrılıqda, bir-biri ilə vəhdətdən kənar tək kateqoriyalar kimi çıxış edirlər və bu zaman digər kateqoriyanın düşüncəyə spontan implikasiyası məhdudlaşdırılır. Yəni metafizik məkanla mühakimə apararkən artıq zaman kateqoriyası heç bir halda mühakimənin gedişində iştirak etmir. Məsələn, Al-

lah ideyasını şərh edərkən heç bir halda zaman ölçülüyündən istifadə olunmur. Buradan da Allahın zamanüstü xarakteristikası – əbədilik meydana çıxır. Biz idrak prosesində tək halda iştirak edən kateqoriyaları xalis kateqoriyalar kimi təyin edirik.

Bir-biri ilə vəhdət təşkil etməyən, fikrən ayrılıqda götürülmüş hər bir xalis kateqoriyanın əhəmiyyəti (son mənası) özündə metafizik statusun bir xarakteristikasını təqdim edir, hansı ki həmin xarakteristikalarla metafizik statuslu obyektlər müəyyən olunur; xalis kateqoriya isə özü-özündə metafizik noumen kimi çıxış edir. Xalis kateqoriyalar, yəni tək kateqoriyalar yalnız metafizikanın – başlanğıcın və səbəbin idrakında iştirak edir.

Kateqoriya termini həm elmdə, həm fəlsəfədə, həm də metafizikada geniş istifadə olunur və ən müxtəlif mənaları özündə təqdim edir. Düşüncə obyektlə subyektin qarşılıqlı münasibətindən meydana çıxdığından, kateqoriyalar bir tərəfdən obyektiv gerçəkliyin qeyri-hissi qavranılan ən ümumi keyfiyyətini, digər tərəfdən həm də subyektin idrak keyfiyyətini, onun hansı səviyyədən, hansı şüurla materiyaya münasibətdə olduğunu, eyni vaxtda birlikdə ən ümumi şəkildə varlıq və düşüncəni özündə ifadə edir.

Beləliklə, xalis kateqoriyalar metafizik aləmdə, yaranış prosesində gerçək dünyanın təşkilində iştirak edən, əvvəlcədən mövcud olan əhəmiyyətlərdir, hansı ki gerçək aləmin yaranışın əks istiqamətində dərkində iştirak edərək həqiqətin idrakına yardımçı olur. Yəni kateqoriyalar həm yaranışın, həm də yaradılmışların idrakının başlanğıc noumenləridir. Yəni, hissi qavranılan gerçək aləmdən əvvəl kateqoriyalar metafizik aləmdən Ruha verilir və subyekt onların vasitəsi ilə yaranışın necə aktuallaşmasını, yəni həqiqətin aydınlaşmasını aşkarlayır. Deməli, kateqoriyalar Düşünən Mən tərəfindən metafizikadan, hissi qavrayışdan əvvəlcədən təfəkkürə verilən əhəmiyyətləri özlərində təqdim edən anlayışlardır.

Yaranışın qanunu – mümkünlüyün aktuallaşma imkanı özündə nəyi təqdim edir?

Təkin cütə və əksinə keçməsində xarakteristikalarda baş verənləri əyani şəkildə əməlgəlmə prosesində baş verənlərlə izah edə bilərik. Məsələn, Na ilə Cl-un birləşməsindən NaCl əmələ gəlir. NaCl-da nə Na-nın, nə Cl-un heç bir birləşmədən əvvəlki xüsusi xarakteristikaları təzahür etmir. Belə ki, xörək duzunun xarakteristikası özünün tərkib hissələrinin özəl xarakteristikalarını özündə "gizlədir". Yalnız onların vəhdətdə təzahür etdirə biləcəyi, amma ayrılıqda özlərində gizlətdikləri xarakteristikaları aydınlaşdırır.

Beləliklə, biz görürük ki, vəhdətə münasibətdə əvvəlcə gizli qalan xarakteristikalar aşkara çıxır, əvəzində əvvəlcədən aşkar olan xarakteristikalar gizlənir. Əgər bunu kateqoriyalara tətbiq etsək, onda aydın olar ki, kateqoriyaların vəhdətində aşkarlanan xarakteristikalar onların ayrı-ayrılıqdakı vəziyyətlərində əvvəlcədən gizlədilmiş xarakteristikalardır, hansı ki metafizik aləmdə həmin xarakteristikaların aktuallaşmasının heç bir imkanı yoxdur. Bunun əksinə, onların vəhdətində gizlənmiş xarakteristikalar əvvəlcədən onların xalis şəkildə özlərində aydınlaşdırdıqları xarakteristikalardır, hansı ki yalnız metafizik aləmdə xalis mümkünlük kimi mövcud olaraq metafizik obyektlərin statusunu təşkil edirlər. Gerçək aləmdə isə aktuallaşmalarının heç bir imkanı yoxdur. Biz bunu – metafizikada aydın olanların gerçəklikdə gizlədilməsini və əksinə, metafizikada gizlədilmişin gerçəklikdə aydınlaşmasını **Yaranışın əsas qanunu** kimi təyin edirik. Buradan da metafizik statusu yaradılmışlardan əvvələ qayıtmaqla, yəni vəhdət təşkil edən cüt kateqoriyalarda gizlədilmiş, amma onların fikrən ayrılıqda götürülmüş təkliyindən aydınlaşan mənalarını aşkarlamaqla müəyyənləşdirə bilərik.

XALİS MƏKAN

Məkan – sonsuz sayda mövcudluğun daxili və xarici həcmlənmələrinin sıralanmasından avtonom və spontan aşkarlanan noumendir. Məkan təcrübəni – təbiəti öz sərhədlərinə aldığından və məkandan kənarda təbiət olmadığından, məkan təcrübə ilə metafizikanın sərhədi kimi çıxış edir.

Ruh insan bədəni ilə vasitəli aktuallaşdığından, məkan həm Varlığı, həm də Ruhu şərh edən eyni bir kateqoriya kimi çıxış edir.

Gerçək aləmdə məkan zamanla vəhdətdədir və bu vəhdətdə hər iki kateqoriya özlərinin mütləq metafizik xarakteristikalarından məhrum olurlar. Məkan özündə həqiqətin azalma meylinin varlıqda aydınlaşmasını, zaman isə vasitədə həqiqətin artma meylinin aydınlaşmasını ifadə edir. Hər hansı bir fakt mövcudluğun məkanda yer tutmasından ibarətdir. Faktın yeri onun həcmi, kütləsi, halı ilə müəyyənləşir. Faktın özü-özündə təkrarlanması gerçəklik aktını təşkil edir. Bütün reallıqlar zaman-məkan şərtində, ancaq onlardan asılılıq qanunauyğunluqlarına görə fərqli qaydalara tabe olmaqla gerçəkləşirlər.

Biz mövcudluğun ayrı-ayrılıqda zaman və məkandan asılı olduğu şərtləri **parametrlər** adlandırırıq. Parametrlər metafizikadakı vəziyyətdə gizlədilmiş, gerçək aləmdə isə aydınlaşan elə xarakteristikalardır ki, onların məcmusu gerçəklikdə gizlədilən, metafizikada aşkarlanan xarakteristikaların əksiliyini təşkil edirlər. Beləliklə, məkani parametrləri məkanın sonsuzluq xarakteristikasının əksiliyi kimi təyin etmək olar. Məkani ölçülüyün aşağıdakı parametrləri vardır:

1. **İstiqamət:** Varlığın məkanda hərəkət azadlığının – məkanda sıralanma qaydasının təzahürü kimi meydana çıxır. İstiqamətinə görə varlığın təzahürləri iki formada, skalyar və vektorial olmaqla meydana çıxır. Hər bir fakt kəmiyyətlə, hər bir akt keyfiyyətlə şərtlənmişdir. Buradan da skalyarlıq kəmiyyətlə, vektoriallıq keyfiyyətlə şərtlənmə kimi təyin edilə bilər. Məkan kəmiyyət və keyfiyyəti özündə aydınlaşdırdığından kəmiyyət və keyfiyyətindən təyin oluna bilər. Keyfiyyət – xassə həqiqətin aydınlaşması kimi meydana çıxdığından, mövcudluq siqnallarının xaricə və ya daxilə şüalandırılması istiqamət kimi təzahür edir. Bütün təsirlər istiqamətinə görə iki qrupa bölünür:
   - **Xaricə:** Konkret varlığa göndərilən xüsusi təsir istiqamətli təsirdir. Belə təsirin göstəriciləri vektorialdır. Məsələn, qüvvə, çəki, sürət, zaman və s. xüsusi vektorial təsir yaradır. Vektorial təsirlər təsirə qarşı

əks təsiri təsir yaradan xətti əlaqə üzrə qaytarır. Vektorial təsirlə məkanda təsir sahəsi meydana çıxır. Təsir sahəsi məkanın elə hissəsidir ki, həmin hissədə sonsuzluq təsirin ölçülüyü ilə dəf edilir. Nəticədə təsir sahəsində gerçəkliyin sonlu ölçülüyü aydınlaşır. Vektorial təsirlər təsirin davametmə müddəti ilə zamanla şərtlənmişdir və zamanın dəyişilməsinə uyğun dəyişkən xarakteristikaya malikdir.

- **Daxilə və ya xaricə:** Bütün varlıqlara eyni güclə göndərilən ən ümumi təsirlər istiqamətsizdir, yəni skalyardır: məsələn, cismin kütləsi, həcmi və s. istiqamətsizdir. Belə təsir sahəsi gerçəkliyin yerinin aşkarlanmasını təmin edir, yəni gerçək faktın sonlu ölçülüyünü yaradır. Skalyar siqnallar qarşılıqlı təsirdə istiqamətləndirici rol oynamır və gerçəkliyin yerləşdiyi məkanı – yeri ifadə edən məlumatları daşıyırlar. Skalyar təsirlərin məkanla şərtlənməsi sabitdir, yəni vaxt keçdikcə skalyarlıqda dəyişilmə baş vermir. Yəni skalyar təsirlərdə zaman asılılığı yoxdur. Skalyar kəmiyyətlər istiqamətdən asılı olmayaraq – sıralanan sükunət halında olan varlığın kəmiyyətləridir. Vektorial kəmiyyətlər məkanda sıralanmanın məhdudluğundan yaranır. İstiqamətdən asılı olaraq kəmiyyətin keyfiyyətə keçməsinə tabe olur. Skalyar kəmiyyətlər özündə həqiqətin aydınlaşma meyllərini bərabər səviyyədə təqdim edir. Vektorial kəmiyyətlər bu meyllərdən yalnız birinin üstünlüyündə meydana çıxır.

2. **Məsafə:** Varlığın özündə aydınlaşdırdığı həqiqətin yayılma imkanıdır. Həqiqətin ayrı-ayrı şüası müxtəlif məsafələrə yayılmaqla müxtəlif qarşılıqlı təsir yaradır. Məsafə – istiqamətin ölçüsüdür. Həqiqətin eyni istiqamətli şüalanması məsafədən asılı olaraq müxtəlif intensivliyə malikdir.
3. **Müstəvi (səth):** Məkanda eyni zamanda bütün istiqamətlərdə üfüqi xətti sıralanma müstəvini təşkil edir. Müstəvi gerçəkliklərin məkanda yerləşdirildikləri sahədir. Sahə – səthin ölçülüyü kimi mövcuddur, yəni müstəvinin sonluluğundan sahə meydana çıxır.
4. **Həcm:** Müxtəlif müstəvilərin bir-biri ilə yaratdığı məkani qapalılıq. Məkanda həm üfüqi, həm də şaquli xətti sıralanma həcm yaradır. Həcm da-

xili sonlu məkandır, hansı ki xarici sonsuz məkanın əksiliyi kimi mövcud olur.

Məkan-zaman vəhdətində gerçəkliklərin idrakı məkan parametrlərinin müxtəlif kombinasiyaları şəklində reallaşır, hansı ki hər bir parametr bir ideya kimi təfəkkürdə refleksiya edir. Buradan da məkanla şərtlənmənin idrakı təfəkkürdə məkan parametrlərini özündə ifadə edən ideyaların assosiasiyası kimi həyata keçirilir.

Gerçəklikdə aşkarlanan məkan parametrləri necə yaranır? Xalis məkandan fərqli olaraq, zamanla şərtlənmiş məkan hissi qavranılan olur. Məkanın hissi qavrayışı gerçəkliyin xarici görüntüsü ilə aktuallaşır. Görmənin ən kiçik vahidi (minimumu) **nöqtədir**, biz nöqtədən kiçik heç bir formanı görmək imkanına malik deyilik. Buradan da nöqtəni şərtlənmiş məkanın ən kiçik görüntüsü kimi təyin edə bilərik. Nöqtənin öz-özündə sıralanmasından, yəni məkanın nöqtələnməsindən **düz xətt** əmələ gəlir. Bir düz xətt məsafəni özündə təqdim edir və biz düz xətlə məkanda şeyin hissələri və şeylər arasındakı məsafəni ifadə edirik. Beləliklə, məsafə məkan minimumunun təkrarlanması, yəni aktuallaşması kimi mövcuddur. Düz xətlərin sonsuz sayda paralel sıralanmasından **müstəvi** əmələ gəlir. Düz xətlərin bir-biri ilə kəsişərək məkanı qapatmasından **səth** əmələ gəlir. Beləliklə, səth ümumi məsafəlikdir, yəni bir şeyin başqa digər bütün şeylərdən məsafəliliyini özündə təqdim edir. Müxtəlif səthlərin bir-biri ilə birləşib sahəni qapatmasından daxili **həcm** meydana çıxır. Həcm fərdi şeyin daxilindəki məkanın xarici məkana nisbətini özündə ifadə edir. Şeyin xüsusi daxili həcminin ümumi xarici həcmə münasibətindən **yer** haqqında təsəvvür meydana çıxır. Yer – gerçəkliyin şərtləndiyi sonlu məkanı özündə təqdim edir. Həcmli fərdi şeyin konkret yerdə görmə hissi ilə qavranılması **fiqur** kimi təyin olunur. Fiqur maddi şeyin həcmi ilə xarici həcmin nisbətinin görmə ilə aşkarlanmasından ibarətdir. İki fiqurun daxili həcmlərini bir-birindən ayıran sahə ara adlanır. Fiqurun abstraksiyası həndəsi fiqur kimi ifadə olunur. Hissi qavranılan maddi şeylərin xətlərinin, səthlərinin və həcminin eyni bir standart şeylə tutuşdurulmasından

alınan nəticələr əsasında onların abstrakt məkani şərtlənməsi, məkani ölçülülük kimi təyin olunur.

Gerçək aləmdə məkan-zaman vəhdətindən fikrən ayrılıqda götürülmüş məkanı xalis məkan kimi təyin etmək olar. Xalis məkanın ölçülüyü metafizik statusun bir xarakteristikasını özündə təqdim edir. Belə ki, məkan kateqoriyası bütün hissi qavranılan hər şeyin yerləşdirildiyi və istənilən xüsusi ölçülüyün məcmusu kimi onların hamısından əvvəl verilən ən ümumi, vahid, sonsuz ölçülülükdür. Hər bir ayrılıqda sonlu ölçülüyü olan şey məkanın sonsuzluğuna, onun vahidliyinə və ən ümumiliyinə münasibətdə xüsusi, çoxluq və sonlu ölçülülükdə idrak olunur. Bu prosesdə məkan birbaşa, əvvəlcədən təfəkkürdə avtonom və spontan aydınlaşan həqiqət kimi qavramadan əvvəlcədən verilir, sonra hissi qavramada şeyin məkanla şərtləri subyekt tərəfindən qavranılır, sonra təfəkkürdə qabaqcadan verilən ölçülüyə proyeksiya olunaraq onda aydınlaşan həqiqət aşkarlanır. Beləliklə, zamandan ayrılıqda fikrən götürülmüş məkan metafizik ölçülüyü özündə refleksiya edən anlayış kimi meydana çıxır.

Məkan necə şüuru təbiətin kənarına – metafizikaya çıxarır? Cari şüurda məkan sonsuz sayda konkret sərhədləri olan, sonlu tək şeylərlə doldurulmuş şəkildə təsəvvür olunur. Buradan, şeylərin sayının sonsuzluğu özündə məkanın sonsuzluğunu refleksiya edir. Belə ki, biz tək şeylərlə sonsuz məkanı fikrən yalnız sonsuz sayda tək şeylə doldura bilərik. Halbuki, bizim şeylərin sonsuz sayda olduğunu təcrübədən bilməyimiz hissi bilgidir, yəni biz konkret olaraq məkanı dolduran şeyləri saymaqla onların sonsuz sayda olduğunu bilmirik, sadəcə sayma prosesinin sonsuz davam etməsinə görə onların sonsuz sayda olmasını elə-belə qəbul edirik. Beləliklə, sonsuzluq bizim imkansızlığımızdan, yəni aktuallaşmamış mümkünlüyümüzdən – metafizik statuslu Ruhumuzdan meydana çıxır. Buradan da məlum olur ki, şeylərin sayının sonsuzluğu ilə məkanın ölçülüyünün sonsuzluğu eyni mənalıdır, yəni hər ikisi metafizikdir. Əgər fikrən təsəvvür etsək ki, məkandan sonlu olan hər bir tək şey çıxarılıb, onda bizdə sonsuz xalis məkan haqqında təsəvvür qalacaqdır. Sonsuzluq mə-

kanın vahid, tək bir ölçüsüdür, hansı ki vahid metafizik ideyaların – metafizik obyektlərin statusunun təşkilində iştirak edir. Beləliklə, sonsuzluğu xalis məkanın sonuncu mənası kimi aşkarlayırıq. Cari şüurda "düşünən Mən" "Məndən kənar şeylə" paralel əlaqədə olduğundan, məkan həm də düşünən Mənlə Məndən kənardakı şeyin əlaqəsini özündə ifadə edir. Beləliklə, əslində məkan ruhla (şeydənkənarı), şeylə (ruhdan kənarı) birləşdirməklə hər ikisindən "kənar"ı uzaqlaşdıran və ruhla birlikdə olan şeyi və şeylə birlikdə olan ruhu, yəni biliyi özündə təqdim edən transsendental metafizik noumen kimi çıxış edir. Beləliklə, biz məkanı şeyin həqiqətini ondan kənara – ruha keçirən və, əksinə, ruhu şeyin məkan ölçülüyünə keçirən transsendental metafizik noumenlərdən biri kimi təyin edirik.

Sonsuzluq xarakteristikası necə aşkarlanır və özündə nəyi ifadə edir?

Ölçülülük, məkanla şərtlənmə – həm mövcudluğun, həm də onun idrakının şərtidir. Biz məkanla şərtlənməmiş nəyisə təcrübədən aşkarlaya bilmərik. Məkanla şərtlənməmə yoxluğun bir forması kimi çıxış edir. Yoxluq xarici görüntüsü olmayanı və ya görünməsi mümkün olmayanı özündə ifadə edir. Buradan da iki cür yoxluq müəyyən edə bilərik: birincisi, xarici görüntüsü olmayan və buna görə görünməyən **mütləq yoxluq**; ikincisi, xarici görüntüsü olan, amma görünməyən yoxluq – belə yoxluq **nisbi yoxluqdur**. Mütləq yoxluğun xarakteristikası **sonsuzluqdur**. Burada məkan vahid olduğundan, məkanın ölçülüyünü müəyyən etməyimiz üçün başqa ölçü olmadığından, belə ölçü sonsuzluq kimi dərk olunur. Sonsuzluq – xarici görüntüsü olmayan və buna görə də heç bir halda heç bir vasitə ilə görünməyən xalis metafizik statusdur. Məkanda hər bir mövcudluq xüsusi qaydada şərtlənir və bu cür şərtlənmədən sərhəd – ölçülülük və ya sonluluq xarakteristikası alınır. Sonsuzluq sonluluğun əksiliyi kimi mövcuddur. Sonsuzluq – vahid məkanın totallığıdır.

Təbiətlə metafizik aləmin məsafəsi nədən ibarətdir?

Biz məsafə anlayışını şərh edərkən qeyd etdik ki, məsafə məkanda yerləşmiş obyektiv gerçəkliklərin məkana münasibətdə bir-biri ilə əlaqə-

sini ifadə edir. Xalis məkan fikrən gerçəkliklərdən boşaldıldığından xalis məkan özü-özündə tək bir məsafə kimi çıxış edir. Beləliklə, təbiətlə metafizikanın məsafəsi məkanın vahid ölçülüyü qədərdir, yəni sonsuzdur.

XALİS ZAMAN

Fikrən məkandan ayrılıqda götürülmüş zaman metafizik zamanı özündə təqdim edir. Məkan kimi zaman da idraka cəlb edilən kənar şeylərə şüurun özü tərəfindən qabaqcadan verilmiş metafizik noumendir. Məkan-zaman şərtində zaman öz metafizik xarakteristikasını istisna edərək **vaxta** çevrilir. Xalis zaman ruhun varlıq şərtidir. Bundan fərqli olaraq, vaxt gerçəkliklərin zaman şərtini özündə təqdim edir. Buna görə də, hər bir şeyin özünəxas mövcudluq və idrak vaxtı vardır. Bütün vaxtların məcmusu – totallığı xalis zamanı təşkil edir. Vaxtın məcmusu fikrən əldə edilir. Yəni əgər biz fikrən gerçəkliyin idraka təqdim olunma vaxtını sıfıra endirsək, onda bütün vaxtlardan zamanı almış oluruq. Başqa sözlə, zaman idrakın sıfır vaxtda gerçəkləşməsidir, hansı ki heç bir məlumat meydana çıxmır. Məlumatsızlıq isə özündə əbədiliyi təqdim edir. Buradan da həqiqət haqqında məlumatın zamanla şərtlənməsi vaxtı, yəni idrak olunan həqiqəti meydana çıxarır. Beləliklə, xalis zaman qabaqcadan Ruhda metafizikadan verilir, subyekt gerçəkliklərin vaxtını idraka təqdim edilmələrinə görə xalis zamana münasibətdə müəyyən edərək onu şeylərin konkret yeri ilə fikrən vəhdətə gətirir və gerçəklikləri idrak olunan vəziyyətə salır, yəni onları mücərrədləşdirilməsi mümkün olan vəziyyətə gətirir. Buradan da vaxt aşkarlanır.

Cari şüurda hər bir şeyin zaman ölçülüyü – vaxt kimi dərk olunur. Vaxt ölçüsü kənar şeyin hissi təsiri ilə ruhun daxili zamanının sonsuzdan sonluya keçməsinə səbəb olur və idrak müddəti şeyin zaman ölçüsünə çevrilir. Əgər biz kənar şeyləri zaman şərtindən azad etsək, onda zamanı da şeylərin şərtindən – onların sonluluğundan, fərqli vaxt ölçülüyündən azad etmiş oluruq, buradan da xalis zaman və onun ölçülüyünü – **əbədili-**

yi almış oluruq. Beləliklə, əbədiliyi digər bir metafizik status kimi təyin etmiş oluruq.

Haşiyə: *İ. Kant*, "Xalis zəkanın tənqidi"

"Zaman hər hansı bir təcrübədən çıxarılan empirik anlayış deyil. Zaman bütün seyrlərin əsasında duran zəruri təsəvvürdür. Zaman hissi seyrin xalis formasıdır. Zamanın sonsuzluğu onu bildirir ki, zamanın istənilən təyin olunan ölçüsü zamanın əsasında olan məhdudlaşdırılması yolu ilə ola bilər. Zaman daxili hiss formasıdır."

Kantın "zaman hissi şeylərin xalis formasıdır" fikrini necə başa düşmək olar? Hissi qavrama xarici şeyin düşünən mənə təsiri ilə baş verir. Və şey o vaxta kimi hissi olunur ki, düşünən mənə təsir etsin. Buradan da zaman hissi təsirin ölçüsü kimi çıxış edir. Təsirlə həmin təsirə münasibət arasında asılılıq vaxt kimi meydana çıxır. Başqa sözlə, vaxt düşünən mənin kənar şeylə hissi əlaqəsinin sürəkliliyindən aşkarlanır. Əgər nəzəri olaraq istənilən kənar şeyin düşünən mənə təsirini kənarlaşdırsaq, onda ruh yalnız özü-özünə təsir edən kimi mövcud olur, yəni xalis daxili vaxt hissi almış oluruq, hansı ki ruh ölümsüz olduğundan ölümsüzün özü-özünə təsiri kimi əbədiliyin mahiyyətidir. Hər bir şey düşünən mənə təsiri ilə onda daxili zamanını ölçüləndirir, bu ölçülülük şeylərin idrakının zaman şərti kimi meydana çıxır. Ruh bilavasitə reallıq olmadığı kimi, onun daxili hissi kimi xalis zaman da metafizikdir. Ruh varlığı təcrübədə tədricən mərhələ-mərhələ dərk edir. Bu tədricilik Ruhun zamanını vaxt kimi hissələrə ayırır. Ruh mövcudluğun hər biri ilə vəhdət təşkil edərək refleksiya edir. Nəticədə mövcudluq Ruha görə zamanla şərtlənir. Ruhun Varlıqla vəhdətindən isə zamanın tamlığı – əbədilik xarakteristikası meydana çıxır. Əbədilik – tam zamandır, yəni totallıqdır. Zaman yalnız Ruhun və Ruhun Varlığa münasibətində şərh olunan kateqoriyadır, hansı ki mövcudluğa münasibətdə vaxtla əvəzlənir. Ruhdan kənarda zaman yoxdur. Varlıqlar zamandan asılılıq şərtlərinə görə də bir-birindən fərqlənir.

- Cisimlərin mövcudluq aktının ölçüsü: **Zaman**

- Canın mövcudluq aktının ölçüsü: **Vaxt**
- Ruhun mövcudluq aktının ölçüsü: **Tarix**

Xalis zamanın xalis məkana münasibətindən **An** təzahür edir. An sonsuzluğun (məkanın), əbədiliklə (zamanla) vəhdətində metafizikadan gerçək aləmə keçidin ən kiçik ölçüsünü özündə təqdim edir. Andan kiçik vəhdət olmadığından, andan kiçik vaxtda metafizikadan gerçək aləmə keçid baş vermir. Anın təzahürü ilə əbədilik statusu zaman ölçülüyü, sonsuzluq statusu sonluluqla əvəzlənir. Buradan da gerçəkliyin statusu kimi məsafəlilik və sürəklilik çıxış edir. Vaxt – əbədilikdən azad edilmiş zamanı özündə təqdim edir. İnsanda başlanğıc zaman hissi öz daxilində gedən bioloji dəyişilmələrin – bioloji aktın hissi təzahürüdür. Mexaniki fiksə olunan və hissiyyatdan kənardakı vaxt – kosmik zaman kainatda baş verən yaranışın ağılda aşkarlanmasıdır.

Tarix insanlıq ruhunun təbiətdə yaratdığı dəyişilmələrin – maddi və mənəvi dəyişilmələrin məcmusudur. Materiyanın sıralanmasına görə cisim bazis şərt kimi çıxış etdiyindən, vaxt zamandan, tarix vaxtdan yaranır. Beləliklə, zaman həm vaxtı, həm də tarixi əhatə edir.

"Özündəşey" zamanın mənası, mövcudluğun özündəşeyinin mahiyyətindən çıxır və daxili mahiyyətdir. Buna görə də, xalis zaman təfəkkürdə bilavasitə aşkarlanmayandır. Fizika elmində vaxtın mücərrədləşdirilməsi t=S/V kimi təyin edilmişdir. Yəni elmi şüura görə zamanın ölçüsü hərəkətlə qət edilən məsafədən ibarətdir. Bu da göstərir ki, təcrübədə zaman məkanla vəhdətdədir. Buradan da hərəkət və məkandan fikrən ayrılıqda götürüldükdə zaman xalis olur. Yəni sürət və məkan sıfıra bərabər olanda vaxt sıfıra bərabər olur, yəni yox olur. Əvəzində mücərrəd xalis zaman meydana çıxır. Heçlik – zamansızlıq, məkansızlıq və hərəkətsizlikdir. Zaman, məkan və hərəkət mövcudluğun üç elə xarakteristikasıdır ki, onlarsız mövcudluq anlayışı boş konstruksiyadır və özündə heç nəyi ifadə etmir.

Zaman, məkan və hərəkət arasındakı əlaqə materiyaönü vəziyyəti özündə ifadə edir. Hər bir materiya özündə materiyaönü vəziyyət saxladığından bu asılılığa tabe olur. Materiyaönü vəziyyətdə xalis zaman, xalis məkan və xalis hərəkət mövcud olur. Yəni metafizik aləmdə zaman, məkan və hərəkət bir-birindən asılı olmur. Materiyaönü vəziyyətin – metafizikanın material vəziyyətə – gerçək aləmə keçidi məkan, zaman və hərəkətin bir-biri ilə əlaqələnməsindən və öz xalis təbiətlərindən uzaqlaşmasından baş verir. Bu keçid *Eynşteynin* sürətlə kütlə arasındakı düsturu ilə ifadə olunur, hansı ki xalis sürət – təbii sürətdən, işıq sürətindən böyük sürətdə enerji kütləyə çevrilir. Enerjinin kütləyə çevrilməsi məkanla zamanın vəhdəti ilə müşayiət olunur. Beləliklə, yalnız metafizik sürətli hərəkətdə metafizik zamanla metafizik məkan vəhdət yaradaraq gerçək aləmin əsasını təşkil edir. Yəni Yaranış baş verir. Bundan fərqli olaraq, vaxt və tarix "Özündənkənar" şeyin aktı ilə bağlı olduğundan, xaricidir, onların mahiyyəti vardır və bu mahiyyət varlıqdan kənardır. Yəni ölçülən, qiymətləndirilən və təfəkkürlə aşkarlanandır. Zaman ikincilidir, aksidensialdır, həqiqətdən funksional asılılıqdadır.

Vaxt prosesdə təzahür edir və hərəkətin məkanda baş verməsinin özündə refleksiyasıdır. Hərəkətsizlikdə mövcudluq olmadığından məkanla şərtlənmə zərurəti yaranmır, yəni xalis zaman özü-özündən təfəkkürdə əbədilik xarakteristikası ilə aşkarlanır. Zamanın vaxta bölünməsi hərəkət və proseslərin bölünməsini, yəni aktın mərhələlərinin bir-birindən ayrılmasını ifadə edir. Xətti proseslər zamanın sonsuzluğunu, qapalı proseslər dövriliyini – vaxtı meydana çıxarır. Vaxt ölçüsü faktın akta münasibətini özündə ifadə edir. Məsələn, "insanın 50 yaşı var" ifadəsi özündə fərdi faktın, mövcudluğun aktuallaşmasının – mövcudolmanın zamandan əlli il vaxt tutduğunu ifadə edir. Beləliklə xalis zaman – mütləq faktın, vaxt – aktın ölçülüyüdür. Proseslərin tabe olduqları qanunlar zamandan asılılıq qanunlarından törəyir. Proseslərin tabe olduqları qanunlara aşağıdakılar aiddir:

1. **Geridönməzlik:** Gerçəklik aktının başlanğıc vəziyyətinə bir daha qayıda bilməməsi zamandan asılılığın əsas qanunudur. Geridönməzlik xalis zamanla mütləq şərtlənmədir.
2. **Dönərlilik:** Gerçəklik aktının əvvəlki vəziyyətinə qayıtması ilə təbiətdə dönərlilik yaranır. Dönərlilik xalis zamanla nisbi şərtlənmədir.

Zamanla şərtlənmə mövcudluğun aktuallaşmasından meydana çıxır. Aktuallaşmayan mütləq fakt yalnız xalis zamanla şərtlənmə kimi mövcuddur və idrak olunmur. Beləliklə, zamanla şərtlənmə həm də idrak aktında meydana çıxır.

Haşiyə: *A. Berqson*, "Materiya və yaddaş"

"Obyektə və subyektə aid olan məsələlər, onların fərqliliyi və birləşməsi, daha çox zamandan asılılıq kimi qoyulmalıdır nəinki məkandan."

A. Berqsonun fikirlərindən görünür ki, zaman gerçəkliyin idrakının ölçülüyü kimi çıxış edir. Mövcudluğun aktuallaşması ilə idrak aktının uyğunluğundan vaxtın həqiqəti aşkarlanır. Buna görə də, zamanla şərtlənmə bir tərəfdən mövcudluğun özünün aktuallaşması, digər tərəfdən idrak aktının aktuallaşmasından asılı olaraq ideyanın dəyişilməsində əks olunur. Məsələn, biz müxtəlif mövcudluqlardan eyni vaxtda onların həqiqətini dərk edə bilmirik, eləcə də, eyni mövcudluğun idrakı üçün müxtəlif idrak vaxtı tələb olunmur. Buradan da çox qısa vaxt ərzində mövcud olan varlığı və ya istənilən varlığı çox qısa vaxt ərzində dəqiq idrak edə bilmirik. Buradan da İdeyanın aşkarlanma müddəti özündə mövcudluğun zamanla şərtlənməsini ifadə edir.

Haşiyə: *Leybnits*, "İnsanın ağıllanması haqqında yeni təcrübələr"

"Ölçülülük sürəkliliyə uyğun gəlir. İdeyanın heç bir dəyişilməyə məruz qalmadığı sürəkliliyi an adlandırırıq. Anın bu anlayışı nöqtənin adi anlayışına bənzər, onun adi anlayışıdır."

Beləliklə, *Leybnitsin* yuxarıdakı fikirlərinə uyğun aşağıdakı zaman vahidlərini təyin edə bilərik:

An: İdeyanın aydınlaşmasının və aşkarlanmasının heç bir dəyişilməyə məruz qalmadığı, məkanın nöqtə görüntüsü ilə vəhdət təşkil edən ən

kiçik zaman sürəkliliyini özündə ifadə edir. Beləliklə, varlığın məkan və zaman şərtlənməsinin başlanğıcını an və nöqtə kimi təyin etmək olar.

Müddət: Nöqtənin sıralanmasından düz xətt əmələ gəldiyi kimi, anların sıralanmasından müddət əmələ gəlir. Müddət məkanın düz xətt görüntüsü ilə vəhdət təşkil edən zaman ölçülüyüdür.

Vaxt: Nöqtənin məkanda sıralanmasından düz xətt əmələ gəlir. Düz xəttə uyğun gələn zaman ölçülüyü "indi"dir. İndi anların bir düz xətt kimi sıralanmasından ibarət zaman parçasıdır və biz indini məkana uyğun zamanın uzunluğu kimi təyin edirik. Məkan ölçülüyündə en kimi təyin etdiyimiz xəttə uyğun dünən, dərinlik kimi təyin etdiyimiz xəttə uyğun sabaha təyin edirik. Məkanda en-uzun və dərinlikdən həcm meydana çıxdığı kimi, dünən-indi-sabahdan zaman həcmi – vaxt meydana çıxır. Biz hər hansı bir varlığın vaxtını müəyyən edərkən onun zamanda ölçülənməsini – dünənə, indiyə və sabaha nə qədər aid olduğunu təyin etmiş oluruq.

Tarix: Üç ölçülülükdən məkanda ən müxtəlif həndəsi formalar meydana çıxır və bu həndəsi formaların məcmusu görünən kaleydoskopik dünyanı təşkil edir. Eləcə də, müxtəlif vaxtlardan təşkil olunan kaleydoskopik zaman – tarix kimi mövcud olur. Tarixilik özündə zamanın fərqli vaxtlar kimi idrakından aşkarlanır.

Əbədilik: Məkanın sonsuzluğuna uyğun gələn xalis zamanın ölçülüyü əbədilik kimi təyin oluna bilər. Əbədilik anın sonsuz sıralanmasını özündə təqdim edir.

Haşiyə: *Leybnits*, "İnsanın ağıllanması haqqında yeni təcrübələr"

"Biz hərəkətin başlanğıcını özümüz üçün təsəvvür edə bilərik, baxmayaraq ki, sürəkliliyin başlanğıcını onu bütün tam kimi götürdükdə başa düşə bilmərik; belə şəkildə biz cismin sərhədlərini müəyyən edə bilərik, amma məkanın sərhədlərini təyin edə bilmərik. Bu, zaman və məkanın mövcud şeylər sərhədlərində mümkün şeyə tətbiqinə görə izah olunur. Zaman və məkan əbədi eyni şəkildə mümkün və mövcud olanlara tətbiq olunan həqiqətin təbiətinə malikdir."

Leybnitsin fikirlərindən görünür ki, əbədilik konkret şeyin zamanını ruha tətbiq edəndə və ya ruhun zamanını konkret şeyə tətbiq edəndə alınan xarakteristikadır. Yəni əbədilik özündə həqiqətin mütləqliyinin zamana yansımasından meydana çıxır. Əbədilik – bütün mümkün və mövcud varlıqların malik olduğu ən ümumi zamandır.

Abstrakt zaman: Xalis zamanda əbədiliyin dəf edilməsi, yəni ən ümumi zamanın təfəkkürdə hissələrə ayrılmasından abstrakt zaman meydana çıxır. Abstrakt zaman – fərdi şeyin idrakı zamanı ruh tərəfindən ona şamil edilən və onunla hüdudlanmış vaxtdır. Zaman hissi özündə bədəndə baş verən dəyişilmələrin şüura təsirindən meydana çıxır. Zamanın abstraksiyası onun hissi sferadan çıxarılıb, yəni bədəndə baş verən dəyişilmələrin bədənə təsirindən yox, bədəndən xaric baş verən və konkret zaman standartı kimi çıxış edən hərəkətlərlə tutuşdurulması ilə mümkün olur, buradan zamanın abstrakt ölçülüyü əldə edilir.

Haşiyə: *Leybnits*, "İnsanın ağıllanması haqqında yeni təcrübələr"

"Düzdür Aristotel deyir ki, zaman hərəkətin ölçüsü yox, rəqəmdir. Doğrudan da, təsdiq etmək olar ki, sürəklilik bilavasitə bərabər periodik hərəkətlərdən idrak olunur, hansı ki biri digəri qurtaranda başlayır. Tək bir hiss, irəliyə hərəkətin mümkünlüyündə sonsuz anlayışını izah etmək üçün kifayət deyildir. Mahiyyətcə demək olar ki, şeylərin təbiətində mütləq ideyası, əlavə edilən sərhəd ideyasından əvvəl gəlir."

Bizcə, hərəkətin ölçüsü məkandır, çünki hərəkət məkanda yerdəyişmədir. Məsələn, A və B nöqtələri arasındakı məsafə bir dəqiqəyə, bir saata, bir günə, bir aya, bir ilə və s. müddətlərə qət edilə bilər. Buradan da, eyni bir məsafənin müxtəlif zamanlarla ifadə olunmasından deyə bilərik ki, eyni məsafənin müxtəlif vaxtlarda qət edilməsi hərəkətin məsafəsini dəyişmir, yəni hərəkət zaman dəyişsə də, qət olunan məsafədə sabit qalır. Ölçülülük isə məhz sabitlikdən aşkarlana bilər. Dəyişkənlik ölçülülük kimi çıxış edə bilməz. Buradan da zaman dəyişkən olduğundan hərəkət üçün sabit ölçü rolunda çıxış etmir. Zaman isə hərəkətdə olanın təcrübə sahəsində olmasının vaxtıdır.

Aristotelin yuxarıdakı fikri aşağıdakı qısa təhlildən də görünür. Fizika elmi məkan, zaman və hərəkətin əlaqəsini aşağıdakı asılılıqlar kimi müəyyən edir: V=S/T; T=S/V; S=V·T. Bu üç düsturu müqayisə etdikdə aydın olur ki, həm hərəkət, həm zaman sabit olaraq eyni bir məkanla şərtlənmişdir. Yəni məkan həm zamanın, həm hərəkətin ölçüsünə daxil olur. Birinci düstura görə əgər zaman hərəkətin ölçüsüdürsə, onda eyni əsasda məkan da hərəkətin ölçüsü olmalıdır, çünki hərəkət həm zamanla, həm də məkanla asılıdır. Bu asılılıqda zaman sıfıra yaxınlaşdıqca hərəkət məkanla üst-üstə düşür (V=S). Amma məkan sıfıra yaxınlaşdıqca hərəkət mənasızlaşır və məkanın sıfıra bərabər olmasında hərəkət yox olur. Çünki sıfıra bölmək (V=0/T) mənasızdır. Yəni məkan sıfıra bərabər olduqda zamanın ixtiyari qiyməti hərəkətə məna vermir. Məna verə bilmədiyindən onun ölçüsü də ola bilmir. Yəni hərəkətin mövcudluğu yalnız məkanla əlaqələnir. Hərəkəti də hissi olaraq yalnız özümüzə nisbətdə idrak edirik və hərəkət bizdən uzaqlaşdıqca o tədricən hissi qavranılmayan olur. Belə hərəkəti yalnız qeyri-hissi qavramaq mümkündür. Hərəkətin qeyri-hissi qavranılması zamanla mümkün olur. Beləliklə, zaman hərəkətin metafizik ölçülüyü kimi çıxış edir. Zamanın hissi qavranılması ya bədənimizdə baş verən dəyişilmələrdən, ya da bizdən xaricdə hissi qavranılan hərəkətdən mümkün olur. Əgər zaman bədən dəyişilmələrinin və hissi qavranılan hərəkətin sərhədlərindən kənara çıxırsa, bu zaman qeyri-hissi abstrakt qavranılan olur. Belə qavranılma nəticəsində abstrakt zaman meydana çıxır.

Həqiqətdə zaman, hissi qavranılan qeyri-maddi olduğundan konkret hissələrdən ibarət deyildir, ona görə onu hissələrə ayırmaq yalnız abstrakt yolla, fikrən, təfəkkürdə, zamandan kənarda mümkündür. Zamanın hissələrə ayrılması özündə məkanın gerçəkliklərlə bölünməsini özündə refleksiya edir. Zaman, hissi qavranılan kimi nisbilik xarakteristikasına malikdir, onun qeyri-hissi qavranılması, yəni abstrakt şəkildə təfəkkürdə hissələrə ayrılması onun mütləqlik xarakteristikasını təşkil edir. Zamanın abstraksiya olunması təcrübədə zamanı standart ölçü ilə – periodikliyə malik,

hissi qavranılan hərəkətlə həyata keçirilir. Hissi qavranılan hərəkətlə zamanın hissələrə ayrılması nəticəsində həm hərəkətdən (xarici hərəkətdən), həm də zamandan hissiyyatın (daxili dəyişilmələrdən yaranan) dəf edilməsi – kənarlaşdırılması ilə, yəni bədəndə baş verən dəyişilmələrdən yaranan zaman ölçülüyü ilə, xarici hərəkətin hissiyyatından əldə edilən zaman ölçülüyünün hissiyyatdan kənar bir-biri ilə tutuşdurulmasından – hiss edilməyən, qeyri-hissi qavranılan standart periodik hərəkətlə hiss edilməyən zamanın tutuşdurulmasından – zamanın abstrakt ölçüsü əldə edilir.

Zamanın abstrakt ölçüsü iki cürdür:

a) Zamanın təbii (insan iradəsindən asılı olmayan) abstrakt ölçüsü: Bura zamanın şeylərin təbii periodik hərəkətlə (Yer kürəsinin, Günəşin, Ayın periodik hərəkəti ilə) tutuşdurularaq əldə edilən zaman ölçüləri (il, ay, gün) aiddir.

b) Zamanın süni abstrakt ölçüsü: Zamanın süni (insan iradəsi ilə müəyyənləşmiş – modelləşdirilmiş) periodik hərəkətlərlə tutuşdurulmasından alınan zaman ölçüsü süni abstrakt ölçü kimi meydana çıxır. Belə ölçü ya periodik dairəvi, ya da periodik yarımdairəvi-rəqsi hərəkətdən əldə edilir. Bura saat, dəqiqə, saniyə aiddir.

Haşiyə: *İ. Kant*, "Xalis zəkanın tənqidi"

"Məkan və zaman idrakın aprior müxtəlif sintetik biliklər çıxardığı iki mənbədir. Məkan və zaman birlikdə götürüldükdə istənilən hissi seyrin xalis formasının mahiyyətidir və məhz buna görə aprior sintetik mühakimələr mümkündür."

Göründüyü kimi, *Kant* məkan və zamanı idrakın sintetik aprior biliklər çıxarılan iki mənbəyi hesab edir, hansı ki hər iki mənbə ruhdadır, yəni şeyə münasibətdə ondan kənardadır, yəni metafizikdir.

Zaman başlanğıcı – ideyanı, məkan sonu – materiyanı təqdim edən kateqoriyadır. Beləliklə, məkan-zaman vəhdəti ideyanın materiallaşmasını, yəni yaranmanın mahiyyətini özündə təqdim edir.

Haşiyə: *Leybnits*, "Cismin təbiəti və hərəkətverici güc haqqında"

"Fasiləsiz çoxluq iki növdür: ardıcıl, zaman və hərəkət kimi; eynizamanlı, başqa sözlə məkan və cisim kimi mövcud olan hissələrdən təşkil olunan. Beləliklə, zaman haqqında danışanda biz davam etmə halında baş verən bir sıra dəyişilmələri və ya vəziyyətin özünü başa düşürük, məkan dedikdə cismin mümkün yerləşməsini başa düşürük."

Varlıqlar məkanda hərəkətə görə yer tutur, yerləşir. Beləliklə, biz zaman və məkan əlaqəsində yertutmanın aşağıdakı növlərini ayırd edə bilərik:

1. Hərəkətin sürəti sıfıra bərabər olan şeylər müxtəlif anlarda məkanda bir və eyni yeri tutur.
2. Hərəkəti sıfırdan sonsuz sürətə qədər olan şeylər məkanda müxtəlif vaxtlarda müxtəlif yerləri tutur.
3. Hərəkətinin sürəti sonsuz olanlar eyni zamanda məkanda hər yerdə olur.

Beləliklə, istənilən varlığın başlanğıcı zamanda, təzahürü sonu məkanda reallığa çevrilməsindən ibarətdir. Hər bir varlıq öz gerçəkliyini saxladıqca məkan və zaman şərtlərində reallığa çevrilir. Reallıq – mövcudluq aktında həqiqətin aydınlaşmasının sürəkliliyini özündə ifadə edir. Hər bir reallıqdakı gerçəklik fakt və akt kimi aktuallaşır. Gerçəkliyin iki halı – fakt və akt özündə məkan və zaman şərtlərini refleksiya edir.

Əgər həqiqətən *Leybnitsin* dediyi kimi, həqiqətin mütləqliyi məkan və zamana keçirsə, onda məkan və zaman şərtlənməsindən (şərtlənmə burada məhdudlaşma mənasında işlənir) mütləq həqiqətə nisbətdə digər səviyyədən həqiqətləri aşkarlamaq olar. Başqa sözlə, məkan və zaman ideyanın səviyyəsini müəyyən edən koordinatlar kimi mövcuddur və bu koordinatların kəsişmə nöqtəsində – fərdi şeyin məkan-zaman şərtində nisbi həqiqəti aydınlaşır və buna uyğun onun dəyişilməsi ideyanın dəyişilməsi kimi idrak olunur. Məkan və zamanın ideyaya münasibətdə dəyişilməsinin üç növünü ayırd edə bilərik:

1. **Məkani şərtlərin ayrılıqda dəyişilməsi:** Hissi qavranılan maddi şeyin faktı özündə məkanla şərtlənməni ifadə edir. Fakt maddi şeyin di-

gər bütün şeylərdən ayrılıqda götürülmüş tək bir gerçəkliyidir. Məkan şərtlərinin dəyişilməsinin ideyaya təsiri bu şərtlərin xarakteri ilə bağlıdır. Cisimlər məkanla çoxparametrli şərtləndiyindən və bu parametrlərin birinin ayrılıqda dəyişilməsindən müxtəlifləşmə baş verir, müxtəlifləşmədən orijinallıq yaranır və bu da ideyanın dəyişilməsində əks olunur. Orijinallıq fərdi şeyin məkanla şərtlənməsini özündə əks etdirir. Müxtəlifləşmənin ideyaya təsiri orijinal həqiqət səviyyəsində baş verir və müxtəlifləşmədə hissi qavranılan fərdi maddi şeyin orijinal həqiqəti dəyişilməyə məruz qalır. Məsələn, hər hansı bir konkret cismin həcminin, rənginin, sayının, həndəsi formasının dəyişilməsi həmin şeyin digər eyni sıradan olan maddi şeylərdən ayrılıqda dəyişilməsinə, yəni orijinallaşmasına səbəb olur ki, bu da həmin orijinallığı ifadə edən ideyanın dəyişilməsini özündə əks etdirir. Orijinal həqiqətin dəyişilməsi məkanda müxtəlif fiziki hərəkətlərin nəticəsi kimi meydana çıxır. Canlılar məkandan birparametrli asılı olduqlarından həmin parametrin dəyişilməsi canlının xüsusi həqiqətini özündə ifadə edən ideyanın dəyişilməsinə səbəb olur ki, bu da növ dəyişilməsi kimi meydana çıxır. Ruh məkanla şərtlənmədiyindən məkanda baş verən dəyişilmələr ruhun ideyasını dəyişmir.

2. **Zaman şərtinin ayrılıqda dəyişilməsi:** Hissi qavranılan maddi şeyin aktı özündə zamanla şərtlənməni ifadə edir. Ona görə də zamanın dəyişilməsi aktuallaşmadan aşkarlanan ideyada dəyişilmə yaradır. Varlıqlar zamandan asılılıq qanunlarına uyğun özlərində zamanla şərtlənmənin dəyişilmələrini əks etdirirlər. Cisimlər zamanla birparametrli şərtləndiyindən zamanın dəyişilməsi cisimlərin xüsusi ideyasının dəyişilməsinə səbəb olmur, amma bundan fərqli olaraq canlılar zamanla çoxparametrli şərtləndiklərindən zaman parametrlərinin dəyişilməsi canlıların orijinal ideyasının dəyişilməsinə səbəb olur. Məsələn, eyni vaxt ərzində iki uşağın böyüməsində hər biri orijinal olaraq dəyişilməyə məruz qalır.

3. **Məkan və zaman şərtlərinin paralel dəyişilməsi:** Məkan və zaman şərtlərinin paralel – faktda və aktda ifadə olunan dəyişilməsi varlığın xüsusi həqiqətini ifadə edən ideyanın dəyişilməsinə səbəb olur.

XALİS HƏRƏKƏT

Fəlsəfədə hərəkət materiyanın mövcudluq üsulu kimi təyin olunmuşdur. Burada "mövcudluq üsulu" ifadəsi özündə mövcudolma formasını ifadə edir. Mütləq faktın akta keçməsi faktın sonsuz sayda proseslərdə iştirak etməsi ilə müşayiət olunur, hansı ki biz bütün bu proseslərin məcmusunu mövcudolma kimi təyin edirik. Hər bir imkan yalnız xüsusi şərtlərdə mövcudluğa keçdiyindən, fərqli imkanlar fərqli qaydalarda mövcud olurlar. Buradan da hərəkət mövcudolmanı özündə təqdim edir. Mövcudluqla mövcudolma vəhdətdə olduğundan hərəkət mövcudluğun – materiyanın mövcudluq üsulu, materiya isə hərəkətin reallığı kimi çıxış edir. Əgər hərəkəti materiyadan fikrən ayırsaq, onda xalis hərəkət alınar, hansı ki materiyadan ayrıldığından reallığından məhrum olur və bununla da metafizik xarakteristika əldə edir. Metafizik hərəkət təbii sürətdən böyük sürətə malik hərəkətdir. Belə hərəkət zamanı təbiətdə müşahidə edilməyən xüsusi hallar meydana çıxır. *Eynşteynin* işıq sürətindən artıq hərəkət zamanı enerjinin kütləyə çevrilməsi ilə bağlı nəzəri hesablamalarını və təbiətdə isə enerjinin hərəkətə sərf olunduğunu nəzərə alsaq, onda hərəkət, enerji və kütlə arasında əlaqəni aşkarlamış oluruq. Bu mənada xalis hərəkət metafizik kütlədir, hansı ki özü-özündə enerjiyə və enerjidən kütləyə keçərək metafizikadan gerçəklik aləmini yaradır.

Gerçək aləmdə hissi qavranılan şeylərin ən sadə birincili hərəkəti – mexaniki hərəkət olub, məkan və zamanla şərtlənmiş şəkildə meydana çıxır. Beləliklə, gerçək hərəkət bir tərəfdən məkanın ölçülüyü ilə (yəni sonluluqla), digər tərəfdən zamanın ölçülüyü ilə (vaxtla) məhdudlaşır. Buradan da metafizik hərəkəti – xalis hərəkəti məkan və zamanla şərtlənməyən və ya xalis zaman və xalis məkan şərtlərində meydana çıxan hərəkət kimi təyin edə bilərik. Mövcud varlıq məkan və zamanla şərtləndiyindən

xalis hərəkət yalnız xalis varlığın – fikir varlığının hərəkəti kimi təyin edilə bilər. Əgər fikrən hərəkəti xalis məkan və xalis zamanla, yəni sonsuzluğun əbədiliyə nisbəti kimi təsəvvür etsək, onda fikrin – ideyanın xalis hərəkətini əldə etmiş olarıq, hansı ki sonsuzluqda əbədi olaraq özüözünə mövcuddur. Əgər xalis hərəkət məkanla şərtlənmirsə, onda belə hərəkəti özü-özündə hərəkət kimi təyin etmək lazım gəlir. Xalis hərəkət bütün gerçək hərəkətlərin başlanğıcı kimi mövcuddur və istənilən hərəkət forması xalis hərəkətdən yaranır. Xalis hərəkətin sürəti mümkün təbii sürətin yuxarı həddindən böyükdür, yəni əgər gerçək aləmdə bizə məlum olan ən böyük sürət işıq sürətidirsə, onda xalis hərəkətin sürəti işıq sürətindən böyük sürət kimi qəbul edilə bilər. Buradan da xalis hərəkəti – fikrən hərəkəti digər metafizik status kimi təyin edə bilərik.

Metafizik hərəkətdə gerçək aləmdən fərqli olaraq yerdəyişmə yox, **yaranma** baş verir. Yerdəyişmədə var olan var olana keçir, yaranmada Yoxluq varlığa keçir. Yəni belə sürətli hərəkətdə enerji kütləyə çevrilir, materiya yaranır. Buradan da xalis hərəkəti yaranma hərəkəti kimi təyin etmək olar. Beləliklə, bizim təfəkkürdə fikrən varlıqları yaratmağımız ilə İlahi ağılda xalis hərəkətdən gerçəkliklərin yaranması oxşarlıq təşkil edir, yəni birinci ikincinin reflektiv təkrarlanması kimi mövcuddur.

Xalis hərəkəti necə təsəvvür etmək olar? Metafizika təbiətdənkənar həqiqəti özündə təqdim etdiyindən, idrak mütləq təbiətdənkənara çıxmalıdır – yəni hərəkət etməlidir. Belə hərəkət yalnız fikrən reallaşdığından biz fikrin hərəkətini xalis hərəkət kimi qəbul edə bilərik. Necə ki, biz fikrimizdə istənilən obrazı yaradırıq, xalis hərəkət də ilahi fikrin – ideyanın hərəkəti kimi, eləcə idrak prosesində fikrin təcrübədən metafizikaya keçidinin əksinə, metafizikadan gerçək aləmə keçiddə yaradılmışlara keçərək təbii hərəkətlərə başlanğıc kimi çıxış edir.

Xalis və ya başlanğıc hərəkət İlahi nurdan sonsuz dalğaların ayrılmasını özündə ifadə edir, hansı ki idrak prosesində sonlu dalğalardan sonsuz dalğalara keçməklə onların özündə daşıdığı həqiqəti aşkarlayırıq. Varlığın məkanla şərtlənməsi formada, zamanla şərtlənməsi hərəkətdə reflek-

siya olunur. Hərəkət zamandan asılı olaraq formanın sabitliyinin saxlanmasını özündə təqdim edir. Xalis həqiqət sükunətin inkarı kimi mövcuddur. Yəni metafizik aləmdə sükunət yoxdur. Sükunət yalnız metafizikadan gerçək aləmə keçiddə xalis hərəkətin əksiliyi kimi meydana çıxır və xalis hərəkətin sükunətlə vəhdətində fikir sürəti itir və təbii sürətli hərəkət meydana çıxır. Təbii hərəkət – sükunətlə vəhdət təşkil edən hərəkətdir.

Haşiyə: *Anri Berqson*, "Materiya və yaddaş"

"İstənilən hərəkət, necə ki o sükunətdən sükunətə keçiddir, mütləq bölünməzdir."

A. Berqsonun hərəkətlə bağlı fikirləri yalnız mexaniki hərəkətlə bağlı düzdür. Lakin fiziki, bioloji və sosial hərəkət bundan fərqli olaraq bir sükunət vəziyyətindən başqa sükunət vəziyyətinə sadə keçiddən ibarət deyildir, həm də bu keçiddə formanın ciddi dəyişilmələri ilə xarakterikdir. Mexaniki hərəkət bilavasitə birincili materiyanın hərəkəti kimi meydana çıxdığından, materiyaönü vəziyyətlə bağlı da düz deyildir. Riyaziyyatçılar hərəkəti "məsafənin dəyişilməsi" kimi qəbul edirlər. Məsafə şeyə görə xarici olduğundan, məsafənin dəyişilməsi şeyin dəyişilməsinə səbəb olmur. Buna görə də mexaniki hərəkətdə forma sabit qalır. Buradan da, mexaniki hərəkəti həm də formanın sabitliyi şərtində baş verən hərəkət kimi qəbul etmək olar. Beləliklə, *Berqsonun* yuxarıdakı fikirləri ilə bizim gəldiyimiz nəticəni nəzərə aldıqda demək olar ki, istənilən mexaniki hərəkət formanın sabitliyi şərtində cismin bir sükunət halından digər sükunət halına keçidindən ibarətdir. Buradan da sükunəti formanın təzahürü kimi qəbul etmək lazım gəlir, onda hərəkət mahiyyətin təzahürü olur. Mahiyyət həqiqəti özündə təqdim etdiyindən, həqiqət mütləq və əbədi olduğundan, hərəkət də mütləq və əbədidir. Buna görə də, deyə bilərik ki, forma həqiqətin azalma meylinin vasitədə aydınlaşmasını (sonu, nəticəni), hərəkət artma meylinin aydınlaşmasını (başlanğıcı, səbəbi) özündə ifadə edir. Determinizmə görə təbiətdə sərt səbəb-nəticə əlaqəsi hakimdir, buna görə də səbəb kimi çıxış edən hərəkət (istənilən səbəb həqiqət-

dir, istənilən həqiqət səbəbdir) "mütləq bölünməzdir". Hərəkət zamanı yaradır. Hər hansı bir hərəkət həqiqəti özündə aydınlaşdırmanın sürəkliliyinin təzahürüdür. Zamanla hərəkət qarşılıqlı determinasiya edir, yəni hərəkət – səbəb, zaman – nəticədir.

Haşiyə: *Q. V. Leybnits*, "Vaxt olmuşdur"

"Dünyada daimi olaraq enerjinin miqdarı yox, potensiyası saxlanılır."

Enerjinin potensiyası harada və nədə saxlanılır? Əgər hərəkət enerji sərfi ilə baş verirsə, onda potensiya kimi enerji xalis hərəkətdən ibarətdir, hansı ki sürətinin dəyişilmələrindən öz potensiallığından enerjinin aktuallığını təzahür etdirir. Beləliklə, *Leybnits* kosmoloji qanunlardan birinin – enerjinin saxlanması və itməməsi qanununun formulyasiyasının düz olmadığını sübut edir. Əgər enerjinin daimi olan miqdarı yoxdursa və yalnız potensiallığı varsa, onda bu qanun metafizikanın qanunudur, çünki potensiallıq yalnız mümkün varlığın başlıca xarakteristikasıdır. Hərəkət bazis keyfiyyətdir və varlığın bütün keyfiyyətləri onun hərəkət üsulundan yaranır. Bu baxımdan fəlsəfə belə hesab edir ki, hərəkət varlığın mövcudluq üsuludur. Hər bir hərəkət bəlli bir enerjinin sərfi ilə icra olunduğundan, enerjinin potensiallığının daimi olmasından və bunun da metafizikada olmasından çıxış edib demək olar ki, hərəkətin ilkin səbəbi metafizikadadır. Təbiətdə isə bir hərəkət digərinin səbəbi kimi çıxış etdiyindən ilkin səbəb yoxdur.

Bütün hərəkət formaları üçün ümumi başlanğıc vahid bir hərəkət varmı? Əgər hər bir xüsusi hərəkətə malik varlığın öz mövcudluq üsulu (hərəkəti) varsa, onda ümumi mövcudluğun, mütləq həqiqətin də öz mövcudluq üsulu, bir vahid hərəkəti vardır. Biz bu hərəkəti başlanğıc hərəkət kimi, mövcudluğun xüsusi hərəkətini son hərəkət kimi qəbul edirik. Son başlanğıcdan yarandığından bütün hərəkət formalarının da uyğun olaraq vahid bir hərəkətdən əmələ gəldiyini deyə bilərik. Bizcə, həqiqətin özünü aydınlaşdırması başlanğıc hərəkəti, yəni onun mahiyyətini, onun müxtəlif formalarda vasitəli aydınlaşması isə hərəkət formalarını təşkil

edir. Beləliklə, istənilən hərəkət forması özündə həqiqətin aydınlaşmasının təzahürüdür. Həqiqət özünü aydınlaşdıran olduğundan, başlanğıc hərəkət həqiqətin özündən çıxır. Həqiqət olan yerdə hərəkət, hərəkət olan yerdə həqiqət vardır. Mütləq həqiqət Allahı refleksiya etdiyindən, məhz bu refleksiya həqiqətdən çıxan hərəkətin mahiyyətini təşkil edir. Mütləq həqiqət mütləq refleksiyadır və onun hərəkəti mütləq hərəkətdir. Mütləqlik əksiliklərin vəhdətini ifadə etdiyindən mütləq hərəkət həm də mütləq sükunətdir. Bunu aşağıdakı mühakimə ilə bir daha təsdiq etmək olar. Səbəb-nəticə əlaqəsində hərəkətin sürəti ona sərf olunan zamanla ölçülür. Beləliklə, hərəkətə sərf olunan zaman azaldıqca, sürət böyüyür. Ən böyük sürət ən az zaman sərf edən hərəkətdir, başqa sözlə, bir anda bütün məkanı mütləq qət edən hərəkətdir. Hərəkət məkanla məhdudlaşdığından mütləq məkanı qət etmək – hərəkətin məkana bərabər olması deməkdir. Yəni mütləq hərəkət elə sürətli hərəkətdir ki, onun zaman ölçüsü "0"-a yaxındır, ona görə də yola – daha geniş mənada məkana bərabərdir. Zamanın sıfıra yaxın olması sürətin yola bərabər olmasına səbəb olur ki, bu da hərəkətin məkana bərabər olmasına, məkan özündə nisbi sükunətdə olduğundan, nisbi sükunət kimi təzahür etməsinə səbəb olur. Beləliklə, mütləq hərəkətlə mütləq sükunət vəhdətdə təzahür edir. Hərəkətlə sükunətin bu cür vəhdətindən nisbi hərəkət (mütləq sükunətdən) və nisbi sükunət (mütləq hərəkətdən) təzahür edir. Forma və hərəkət varlığı aşkarlayan, bir-biri ilə qarşılıqlı asılılıqda olan iki təzahürdür. Mövcudluq faktı və ya mövcudluq məqamı – varlığın məkanda konkret yer tutması (sıralanması), mövcudluq aktı – mövcudluq faktının öz-özündə təkrarlanması (sıralanması) varlığın zamandan vaxt almasını ifadə edir.

XALİS KEYFİYYƏT

Həqiqətin aydınlaşmasının yəqinliyi əməlegəlmənin mümkünlüyü (faktla-başlanğıcla) və əmələ gələnin sürəkliliyi (aktla-sonla) bağlıdır. Mümkünlük və sürəklilik həqiqətin xarakteristikası kimi təcrübə sahəsində təzahür edən iki mühüm əlamətdir.

Həqiqətin aydınlaşması iki formada baş verir: **Təkrarlanma** və **Müxtəlifləşmə**. Təkrarlanma aydınlaşma faktının vasitələnməsini (intensivliyini), müxtəlifləşmə aydınlaşma aktının yayılmasını (həcmini) özündə təqdim edir. Başqa sözlə, həqiqətin aydınlaşması nə qədər təkrarlanırsa, özündə bir o qədər aydınlığı və nə qədər müxtəlifləşirsə, özündə bir o qədər çox yəqinliyi təqdim edir. Təkrarlanma və müxtəlifləşmə öz aralarında qarşılıqlı əlaqədədir. Hər hansı bir fakt təkrarlanmadan müxtəlifləşmir-yayılmır və hər hansı bir müxtəlifləşmə təkrarlanmadan yəqinləşmir.

İdrak prosesində təfəkkürdə həqiqətin aydınlaşmasının təkrarlanması **kəmiyyət**, müxtəlifləşməsi **keyfiyyət** kateqoriyası ilə aşkarlanır.

Keyfiyyət – həqiqətin artma meylinin vasitədə aydınlaşması, hər hansı bir faktı təqdim edən daxili və xarici əlamətlərin məcmusudur. Keyfiyyətin məcmusu gerçəkliyin xalis varlıq təyinini təqdim edir. Ona görə də, xalis keyfiyyət xalis fikir kimi mövcuddur. Keyfiyyət gerçəklik faktının mümkünlüyünün təzahürüdür. Keyfiyyətsiz mümkünlük reallaşmır. Keyfiyyət reallığın bazisidir. Reallığın bütün təzahürləri keyfiyyətin əsasında təzahür edir. Keyfiyyət varlığın zamanda ardıcıllığından yaranır. Gerçəklik nə qədər zamanda qalıcıdırsa, bir o qədər keyfiyyətlidir. Keyfiyyət müəyyənliyin vasitələnməsidir. Başqa sözlə, varlığın təzahürlərinin aşkarlanma imkanıdır. Zamanda qalmayan keyfiyyət xalis keyfiyyətdir və yalnız təfəkkürdə aydınlaşan həqiqətin keyfiyyətini özündə təqdim edir. İnsan təfəkkürü keyfiyyətdən kənarda həqiqəti vasitəli idrak etmək imkanında deyil.

Haşiyə: *Hegel*, "Ensiklopediya"

"Xalis varlıq başlanğıcı təşkil edir. Ona görə də, o, bir və eyni zamanda xalis fikirdir və qeyri-müəyyən sadə bilavasitəlikdir, birinci başlanğıc isə müəyyənlik və vasitəlilikdən başqa şey ola bilməz. Xalis varlıq xalis abstraksiyadır. Deməli, mütləq inkardır, hansı ki bilavasitə götürüldükdə heç nədir. Eləcə də dəqiqliklə heç nə bilavasitə öz-özünə bərabərdir. Əksinə varlıq kimi eynidir. Həqiqət varlıq kimi, eləcə də heçlik kimi

onların vahidliyini təqdim edir. Bu birlik təşəkküldür. Təşəkkülün nəticəsi özündə nəqd varlığı təqdim edir."

Keyfiyyət – xassə, hal, xarakter, vəziyyət, səviyyə və s. kimi parametrlərlə dərk edilən fəlsəfi kateqoriyadır. Keyfiyyət cəmdə refleksiya olunur, kanonikdir. Cəmin bütün əlamətləri təkin keyfiyyətini təqdim edir. Mövcudluq məqamı keyfiyyət kimi təzahür edir. Kəmiyyətlə birlikdə gerçəkliyi şərh edən keyfiyyət bir çox təsirlərin cəmindən ibarətdir, hansı ki kəmiyyətlə əlaqə ilə şərtlənmişdir. Yəni keyfiyyətin çoxlu sayda təsiri özündə təqdim etməsi onda kəmiyyətin olmaqlığını özündə təqdim edir. Amma metafizik keyfiyyət yalnız bir təsiri özündə təqdim etdiyindən, buna görə özündə heç bir kəmiyyət saxlamır, bununla da kəmiyyətdən ayrılıqda mövcud olur. Yalnız yaranış prosesində ayrı-ayrı təsirlər bir-biri ilə birləşərək öz vəhdətlərində immanent kəmiyyətlilik saxlayır, hansı ki təcrübənin idrakında kəmiyyətlə birlikdə iştirak edir.

XALİS KƏMİYYƏT

Kəmiyyət keyfiyyətlə birlikdə gerçəklik faktını şərh edən kateqoriyadır. Kəmiyyət özündə eyni keyfiyyətli gerçəkliyin məkanda sıralanmasını – eyni vaxtda müxtəlif yerlərdə təkrarlanmasını təqdim edir. Kəmiyyət xarici görüntüdən aşkarlandığından "özü-üçün-varlıq" təyinindən aşkarlanan heçlikdir. Kəmiyyət saymaqla aşkarlanır. Saymaq dialektik idrakın ən sadə formalarından biridir. Kəmiyyət həqiqətin azalma meylinin varlıqda aydınlaşmasıdır. Belə ki, şey nə qədər çoxalırsa, onda vəhdət bir o qədər zəif aşkarlanır. Təfəkkür sonsuz sayı idrak etmək imkanına malik deyil. Ona görə də, təcrübə sahəsində daha çox artma meyli – həqiqətin mütləqləşmə istiqamətindəki meyli, yəni daha azsaylı vasitədə aydınlaşması asanlıqla aşkarlanır ki, bu da varlığın sadəliyini və yeganəliyini tələb edir. Kəmiyyət həqiqətin aydınlaşmasının – keyfiyyətin eyni gerçəklik formasında təkrarlanmasıdır. Kəmiyyət say, sıra və s. kimi anlayışlar-

la dərk edilən fəlsəfi kateqoriyadır. Kəmiyyət aydınlaşmanın üstqurumudur.

Haşiyə: *Hegel*, "Ensiklopediya"

"Kəmiyyət xalis varlıqdır, hansı ki müəyyənlik varlığın özü ilə oxşarlıq kimi yox, çıxarılmış və ya fərqsizlik kimi qoyulmuşdur."

Bizcə, kəmiyyət xalis varlıq kimi qəbul edilə bilməz. Yuxarıda qeyd etdik ki, kəmiyyət şeyin xarici görüntüsündən aşkarlanır və kəmiyyətin dəyişməsi mahiyyəti dəyişdirmir. Məsələn, on kitab, bir kitab. Burada bir kitabla on kitabın mahiyyəti eynidir. Buna görə də *Hegellə* razılaşmaq olmaz ki, "kəmiyyət xalis varlıqdır". Biz kəmiyyəti "özü-üçün-varlıq" kimi təyin edirik. Belə ki, varlıqdan ayrılıqda götürülmüş kəmiyyət özündə heçliyi təqdim edir. Məsələn, "beş". Biz beşin hansı həqiqəti özündə ifadə etdiyini deyə bilmərik. Beş eyni zamanda həm cismi, həm canı, həm də hər hansı bir simvolu ifadə edir.

Xalis kəmiyyət aktuallaşmamış mütləq faktdır. Belə ki, biz hər hansı bir şeyi fikrən o dərəcəyədək bölə bilərik ki, onun keyfiyyəti həmin miqdardan təzahür edə bilməz. Onda biz keyfiyyətdən ayrılmış metafizik kəmiyyəti almış oluruq.

Yaranış prosesində metafizikadan təbiətə keçid faktın aktuallaşması ilə müşayiət olunur. Aktuallaşma özündə faktın zamanda sıralanmasını, yəni keyfiyyətin özü-özündə kəmiyyətə çevrilməsini özündə təqdim edir. Buradan da biz aktuallaşmanı **zamanda kəmiyyət** kimi təyin edə bilərik. Zamanda kəmiyyət hər hansı bir şeyin eyni yerdə müxtəlif sayda təkrarlanmasını özündə təqdim edir. Yəni biz hər hansı bir şeyin xarici görüntüsünə baxarkən baxma zamanından asılı olaraq eyni bir şeyin sonsuz sayda xarici görüntüsünü görürük. Bu görüntülər bir-biri ilə fasiləsiz əlaqələndiyindən biz eyni bir yerdə sonsuz sayda zamanda təkrarlanmanı bir şey kimi idrak edirik. Buradan da məlum olur ki, məkanda təkrarlanmadan fərqli olaraq, zamanda təkrarlanmada aşkarlanan kəmiyyət qeyri-aksidensialdır, yəni şeydən ayrılmazdır, buna görə də biz zamanda sonsuz təkrarlanmanı vahid kimi dərk edirik.

Haşiyə: *Anri Berqson*, "Şüurun birbaşa göstəriciləri haqqında təcrübə"

"İstənilən rəqəm vahidin məcmusudur. Digər tərəfdən, istənilən rəqəm özü onu təşkil edən vahidlərin sintezi kimi, vahiddir. Bəs burada, hər iki halda, "vahid" sözü bir və eyni mənaya malikdir? Nə vaxt ki, biz rəqəmin vahid olduğunu təsdiq edirik, biz nəzərdə tuturuq ki, ağlın sadə və bölünməz intuisiyasının köməyi ilə biz onun tamlığını özümüzdə təsəvvür edirik: bu vahid, beləliklə, özündə çoxluğu saxlayır, belə ki, tamın vəhdətidir.

Amma nə vaxt ki, biz rəqəmləri təşkil edən vahid haqqında danışırıq, biz artıq onları xalis, sadə və bölünməz, sonsuz qarşılıqlı birləşmə yolu ilə bir sıra rəqəmləri əmələ gətirməyə qabil vahidlər kimi, cəm kimi düşünürük. Beləliklə, görünür ki, iki növ vahid vardır: özü-özü ilə cəmləşmə yolu ilə rəqəmləri əmələ gətirən, başa çatmış vahid və bilavasitə bizim ağlımızın qavradığı, sadə aktlardan öz birlik xarakterini əldə edən, özündə çoxluq olan, müvəqqəti vahid. Reprezentativ hissiyyat özü-özlüyündə götürüldükdə xalis keyfiyyətdir. Amma məsafəlilik prizmasından baxdıqda, bu keyfiyyət məlum mənada kəmiyyətə çevrilir və biz bunu intensivlik adlandırırıq. Yalnız məkan həmcinsdir, məkanda olan şeylər ayrılan çoxluq təşkil edir, istənilən ayrılan çoxluq isə məkanda açılma yolu ilə alınır. Təhlil bizə göstərir ki, bizim şüurumuzun başa düşdüyü kimi, məkanda sürəklilik və hətta ardıcıllıq yoxdur: xarici aləmin ardıcıl vəziyyəti kimi adlandırılanlar ayrılıqda mövcuddur və onların çoxluğu əvvəlcə onları saxlamaq qabiliyyətinə malik olan və sonra isə bir-birinə münasibətinə görə məkanda xarici görünüşdə sıraya qoymaq qabiliyyətinə malik şüur üçün mövcuddur. Şüur onları xarici aləmin belə müxtəlif vəziyyətlərinin qarşılıqlı nüfuz edən, hiss edilmədən tamda təşkil oluna və bu birləşmənin özünün nəticəsi olaraq keçmişi indi ilə əlaqələndirən şüurun vəziyyətini yaratmasına görə saxlayır. O onları üst-üstə qoymur, belə ki, onların köklü fərqliliklərini xatırlayaraq (belə ki, bu vəziyyətlərdən hər biri əvvəlkinin itdiyi məqamda əmələ gəlir) ayrılan çoxluq formasında tə-

səvvür edir. Nəticədə o onları məkanda hər biri ayrılıqda mövcud olan sıraya düzür. Bu məqsədlə istifadə edilən məkan bizim həmcins vaxt adlandırdığımızdır. İki forma çoxluğu, sürəkliliyin iki tamamilə fərqli təyinini, şüurun həyatının iki tərəfini fərqləndirəcəyik. Həmcins məsafəlilik, bu həqiqi məsafəliliyin ekstensiv simvolu, altında diqqətli psixoloji analiz, müxtəlifcinsli elementlərin qarşılıqlı nüfuz edən məsafəliliyini aşkarlayır: şüurun vəziyyətinin rəqəmsal çoxluğu altında – keyfiyyət çoxluğunu; kəskin sərhədlənmiş "mən" altında – "mən", hansı ki biz çox vaxt birinci "mən"lə, başqa sözlə, məkana atılmış "mən"in kölgəsi ilə kifayətlənirik. Fərqləndirmə arzusunda olan şüur simvolların reallığını əvəzləyir və onları yalnız simvollar prizmasından görür. Belə ki, beləliklə sındırılmış və hissələrə ayrılmış "mən" bütünlükdə sosial həyatın və dilin tələbatlarını daha yaxşı təmin edir, şüur çox vaxt bizim əsas "mən"imizi görünüşdən itirərək ona üstünlük verir."

A. Berqsondan gətirdiyimiz yuxarıdakı sitatdan görünür ki, kateqoriyalar bir tərəfdən varlıq, digər tərəfdən varlığın idrakı ilə şərtlənmiş hipotetik konstruktorlardır. Ona görə də, kateqoriyaların müəyyənləşməsinin bir tərəfi varlıqla, digər tərəfi təfəkkürlə bağlıdır. Təfəkkürün vəziyyətindən asılı olaraq, biz kateqoriyaları bir-birindən ayırır və ya bir-biri ilə birləşdiririk. Cari şüurda kəmiyyət və keyfiyyət iki müxtəlif, ilk baxışdan bir-birinə nüfuz etməyən, varlığın ən ümumi xarakteristikalarıdır. Amma *Berqsonun* təhlilindən göründüyü kimi, fəlsəfi və elmi şüurla yanaşdıqda, onların qarşılıqlı nüfuz etdiyini aşkarlamaq mümkündür.

Beləliklə, kəmiyyət necə keyfiyyətə keçir? *Berqsonun* qeyd etdiyi kimi, rəqəmə nüfuz etmək imkanından asılı olaraq istənilən rəqəm ikili keyfiyyətdə – təklikdə və çoxluqda aşkarlanır. Özü-özündə refleksiyada istənilən rəqəm təklik, başqasında, o cümlədən ruhda refleksiyada çoxluq kimi aşkarlanan kəmiyyətdir. Məsələn, 3 özü-özlüyündə vahiddir. Amma 4 və 2 ilə müqayisədə üç 4-1=3 və 2+1=3-dür. Buradan görünür ki, 3 özlüyündə başqa rəqəmlərlə vəhdətdə 3=1+1+1 kimi parçalana bilir. Yəni özündən böyük və kiçiklə müqayisədə 3 çoxluq kimi meydana çıxır.

Vəhdətdən kənarda özü-özündə refleksiya 3=3 özü-üçün-varlıq təyinindən aşkarlanır və buna görə də özlüyündə heçlikdir və buna görə də, heçlik kimi zamandan asılı deyil. Amma başqasında refleksiya vəhdətdə meydana çıxır, mövcud varlıq təyinindən aşkarlanır. Mənaya – xalis fikrə malikdir və vəhdətin zamanından asılıdır, hansı ki təfəkkürdə refleksiya edir.

Vahidin təfəkkürdə aşkarlanması necə baş verir? Aşağıda idrak prosesində daha geniş şərh verəcəyimizdən, burada qısa şəkildə idrakın necə baş verdiyinə nəzər salaq. Ruh varlığı özündən yadlaşdırma ilə, yəni özü ilə müqayisədə idrak edir. Ruh ictimai varlıq olduğundan istənilən "Mən" "biz" kimi mövcuddur və "biz"dən kənarda "mən" təzahür etmir. "Biz"dən kənar "mən" *Berqsonun* dediyi məkana atılmış "mən"dir, hansı ki təklikdə təzahür etmir. Beləliklə, istənilən idrak prosesində formal "mən", faktiki "biz" kimi iştirak edir. Ona görə də, vahidin ruhda refleksiyası təkin (varlığın) təkdə (məndə) refleksiyası kimi yox, təkin cəmdə (bizdə) refleksiyası kimi meydana çıxır. Yəni, tək kimi istənilən rəqəm ruhda çoxluq kimi refleksiya edir. Başqa sözlə, hər bir rəqəm sonsuz sayda hər bir fraqmentar ruhda tək kimi refleksiya etməklə özündə çoxluq kimi çıxış edir. Hər bir ruhun özündə aşkarladığı rəqəmin təkliyi heçlikdir. Ayrıca bir "biz"dəki mənin təklikdə aşkarladığı rəqəm isə çoxluqdur – mövcud varlıqdır. Amma həmin çoxluq təkliyin içində gizlənmiş vəziyyətdə təzahür etdiyindən fərd onu təklik kimi qavrayır. "Mən" – ruhi vahid, "Biz" – ruhi çoxluqdur. Amma eyni zamanda "Mən" "biz"in içindədir. "Biz" bir-biri ilə eyni keyfiyyətli, yəni bərabər "Mən"lərdən təşkil olunur, hansı ki ayrılıqda hər biri "Mən"ə görə "Sən"dir. Yalnız birlikdə çoxluqda "biz"ə çevrilir. Kəmiyyətin dərki də məhz ruhun özünü bu cür qavramasına paraleldir. Yəni, fərd vahidi özü ilə yadlaşdırmada aşkarlayır. Amma onu "biz" vahid kimi aydınlaşdırdıqda, artıq o özü-özündə çoxluq olan vahid kimi meydana çıxır. Təcrübə sahəsində "mən" "biz" kimi aktuallaşdığından – ayrılıqda bir fərddə ruh təzahür etmədiyindən və ruh ictimai varlıq olduğundan, insan şüurda mütləq vahidi aşkarlaya bil-

mir. “Biz”im aşkarladığımız istənilən vahid özündə sonsuz sayda çoxluqdur, yəni 1=0,1; 0,01; 0,001; 0,0001 və s. azalan vahidlərin sonsuz çoxluğundan ibarətdir. Bu ruhun ictimai təbiətindən meydana çıxır.

XALİS SƏBƏB

Təfəkkürün idrak prosesində həqiqətin aydınlaşmasını aşkarlamaq məqsədi ilə istifadə etdiyi kateqoriyalardan biri də səbəb-nəticə kateqoriyasıdır. İdrak prosesində şüura təqdim edilmiş istənilən şey hissi qavrayış üçün başlanğıc səbəb, eyni zamanda mövcudolma üçün son nəticədir. Kainatda da vəhdətdə mövcud olan hər bir şey və ya əmələgəlmə prosesindən meydana çıxanlar bir-biri ilə səbəb-nəticə əlaqəsindədir. Yəni bir şey başqası üçün səbəb olduğu kimi öz növbəsində özü də başqası üçün nəticədir. Buna görə də, hər bir şey özündə səbəb və nəticə kateqoriyasının mənalarının vəhdətini təqdim edir. Səbəb-nəticə kateqoriyası həqiqətin aydınlaşmasının müxtəlifləşmələri arasındakı əlaqəni özündə ifadə edir. Müxtəlifləşmə olmayan hallarda səbəb-nəticə əlaqəsi meydana çıxmır.

Varlıqların təbiətindən asılı olaraq real varlıqlarda iki cür bir-birindən fərqli – sadə və mürəkkəb sistemlərdə səbəb-nəticə əlaqəsini aşkarlamaq olar. Buna görə də, idrak prosesində həqiqətin aşkarlanması nəticədən səbəbə doğrudur.

Sadə sistemlərdə səbəb-nəticə əlaqəsinin aşağıdakı formalarını ayırd edə bilərik:

a) Birdəfəlik səbəb-nəticə əlaqəsi: Məsələn, mahiyyətlə forma arasındakı əlaqə. Mütləq nisbi həqiqət özündə ilahi gücü refleksiya etdiyindən, onunla səbəb-nəticə əlaqəsində deyil. İdrak prosesində səbəb nəticədən, nəticə isə səbəbdən aşkarlandığından, varlıqdan (nəticədən) Allahı (səbəb olmayanı) aşkarlamaq mümkün olmur. Beləliklə, demək olar ki, yaranışın başlanğıcı səbəb-nəticə əlaqəsinə tabe olmamışdır. Mütləq həqiqət özündə həm səbəb, həm də nəticədən ibarətdir. Belə ki, Allahı refleksiya etdiyindən özü səbəbsiz nəticə, nisbi həqiqətdə refleksiya olundu-

ğundan nəticəli səbəbdir. Mütləq həqiqətin nisbi aydınlaşması ilə səbəb nəticədən ayrılır. Başlanğıc səbəb mütləq həqiqətdə qalır, nəticə isə nisbi həqiqətə keçir. Həqiqətin aydınlaşmasında həqiqət səbəb, onu aydınlaşdıran vasitə nəticə kimi çıxış edir. Beləliklə, sıralanmayan səbəb-nəticə əlaqəsi yaranmada meydana çıxır. Faktla bağlı olub təkrarlanan gerçəkliklə onda aydınlaşan həqiqətlə vasitənin əlaqəsini özündə ifadə edir. Başlanğıcda Mütləq həqiqət nisbi həqiqətin səbəbi, varlıq nisbi həqiqətin nəticəsi kimi aşkarlanır. Səbəb – həqiqətin aydınlaşma cəhdi, nəticə – onun vasitələnməsinin təfəkkürdə aşkarlanmasıdır. Beləliklə, materiyaönü vəziyyətdə sıralanmayan səbəb-nəticə əlaqəsi sonlu proses kimi təzahür edir.

b) Sürəkli səbəb-nəticə əlaqəsi (determinasiya): Obyektlə obyekt arasındakı əlaqə əməlgəlmə ilə meydana çıxır və həqiqətin vasitəli aydınlaşmasında meydana çıxan əlaqəni – gerçəklik aktında (müxtəlifləşmədə) varlıqlar və proseslər arasındakı əlaqəni özündə təqdim edir. Müxtəlifləşmədə varlıqların və hadisələrin bir-biri ilə əlaqəsi səbəb-nəticə əlaqəsinə tabe olur. Mütləq həqiqət nisbi aydınlaşdığından, birinci səbəb mütləq həqiqət, nəticə nisbi həqiqətdir. Nisbi həqiqətin təkrarlanması ilə hər bir səbəb özündən sonrakı nəticə ilə əlaqələnir. Nəticədə, nisbi həqiqətin vasitələnməsində hər bir səbəb nəticəyə, hər bir nəticə də öz növbəsində səbəbə çevrilir. Varlıq aləmində səbəb-nəticə əlaqəsi sonsuzdur.

Sürəkli səbəb-nəticə əlaqəsi də öz növbəsində iki formada – **dönməz** və **dönər** – təzahür edir. Dönməz və ya biristiqamətli səbəb-nəticə əlaqəsi müxtəlifləşmədə meydana çıxır və bu zaman heç bir nəticə öz səbəbinin səbəbinə çevrilmir. Dönməz proseslər belə əlaqə əsasında baş verir. Dönər və ya əksistiqamətli səbəb-nəticə əlaqəsi təkrarlanmada təzahür edir. Yəni, nəticə özünün səbəbinin səbəbinə çevrilir. Məsələn, xörək duzu natriumla xlordan əmələ gəlir. Onun parçalanmasında təkrar natriumla xlor əmələ gəlir. Beləliklə, xörək duzu bu iki elementin birləşməsinin nəticəsidir. Həm də parçalanma ilə bu iki elementin əməlgəlməsinin səbəbidir. Bütün dönər proseslərdə səbəb-nəticə əlaqəsi qarşılıqlı əlaqə kimi meydana çıxır.

Mürəkkəb sistemlərdə səbəb-nəticə əlaqəsinin də aşağıdakı formaları vardır:

1. **Mürəkkəb sistemlərdə səbəb-nəticə əlaqəsi (Real varlıqlarda səbəb-nəticə əlaqəsi):** Real varlıqlar mürəkkəb sistem təşkil etdikdə burada çoxsəbəblilik, çoxnəticəlilik və çoxsəbəbliliklə çoxnəticəlilik kimi üç cür səbəb-nəticə əlaqəsini aşkarlamaq olar. Mürəkkəb sistemlərdə səbəb-nəticə əlaqəsi alternativlidir. Bir səbəb bir neçə nəticəyə və ya bir neçə səbəb bir nəticəyə səbəb ola bilər. Çoxsəbəblilikdə əsas səbəb nəticədə ifadə olunur, amma digər səbəblər əsas nəticənin arxasında gizlənir. Eləcə də bir səbəbdən bir neçə nəticə meydana çıxdıqda o nəticələrdən yalnız biri səbəblə sərt determinasiyaya məruz qalır. Digərləri isə yumşaq determinasiya ilə səbəblə əlaqələnir. Mürəkkəb sistemlərdə paradiqmalardan asılı olaraq çoxnəticəlilikdə nəticələrdən hər hansı biri prioritet təşkil edə bilər. Eləcə də çoxsəbəblilikdə nəticədə paradiqmadan asılı olaraq səbəblərdən biri determinasiya edə bilər. Çoxsəbəb-çoxnəticə əlaqəsində bərabərgüclü çoxsəbəblilik bərabərgüclü çoxlu nəticəyə səbəb olur.
2. Real varlıqla mümkün varlıq arasındakı səbəb-nəticə əlaqəsi (Abstraksiya olunan səbəb-nəticə əlaqəsi – Obyektlə subyekt arasındakı əlaqə): Bu cür səbəb-nəticə əlaqəsi şüurun materiyaya münasibətində meydana çıxır. Belə ki, səbəb məkan və zaman şərtində, nəticə yalnız zaman şərtində təzahür edir. Belə səbəb-nəticə əlaqəsində konkret abstraksiyalaşır. Həqiqətin aydınlaşması ilə onun təfəkkürdə aşkarlanması abstraksiya olunan səbəb-nəticə əlaqəsinə tabe olur. Belə ki, gerçəklik aləminin tabe olduğu səbəb-nəticə əlaqəsində səbəblə nəticə eyni zaman-məkan şərti ilə əlaqələnir. Amma bundan fərqli olaraq abstraksiya olunan səbəb-nəticə əlaqəsində səbəb gerçəklik aləmində, nəticə təfəkkürdə olur. Belə səbəb-nəticə əlaqəsi konkretin abstraksiyalaşmasını və ya obyektlə subyekt arasındakı səbəb-nəticə əlaqəsini özündə ifadə edir. Təfəkkürdə həqiqətin aydınlaşmasının aşkarlanması prosesində yaranan abstrakt gerçəkliklərdən konkret gerçəklik

meydana çıxmadığından, həqiqətlə onun aşkarlanması biristiqamətli determinasiya kimi meydana çıxır.

3. **Mümkün varlıqda səbəb-nəticə əlaqəsi (Abstrakt səbəb-nəticə əlaqəsi):** Təfəkkürdə bir ideyanın başqa ideyanı yaratması və ya bir müddəadan başqa bir müddəanın alınması mümkün varlıqda səbəb-nəticə əlaqəsini təzahür etdirir. Təfəkkürdə idrak prosesində həqiqətin abstrakt aşkarlanması zamanı yaranan, təfəkkürün təzahürlərinin tabe olduğu əlaqədir. Təfəkkürdə əqli mühakimə abstrakt səbəb-nəticə əlaqəsi kimi baş verir, yəni bir müddəa digərinin səbəbi kimi çıxış edir, bu proses düşüncə kimi meydana çıxarır.

Səbəb-nəticə təfəkkürdə həqiqətin aydınlaşmasının vasitələnməsinin sıralanması arasındakı əlaqənin abstraksiyasını təqdim edir. Səbəb həqiqətin artma meylinin, nəticə azalma meylinin varlıqda aydınlaşmasını özündə ifadə edir. Buradan da, xalis səbəbi xalis varlıq təyinini xarakterizə edən kateqoriya kimi, nəticəni xalis formanı xarakterizə edən kateqoriya kimi qəbul etmək lazım gəlir. Xalis forma özündə xarici görüntü kimi təcrübədən aşkarlanan heçlik olduğundan nəticə xalislik keyfiyyətindən məhrumdur. Yəni metafizik nəticə kateqoriyası mənasızlıqdır. Gerçəklik aləmində aşkarlanan səbəb-nəticələrin səbəbi, metafizikada aşkarlanan ayrılıqda tək götürülmüş xalis səbəb isə səbəblərin səbəbi kimi çıxış edir.

XALİS TƏKCƏ

Gerçəkliyin idrakında əvvəlcədən verilən kateqoriyalara həm də təkcə aiddir. Gerçəklik aləmində həqiqət ən müxtəlif səviyyələrdən aydınlaşır və buna görə də **təkcə**, **xüsusi** və **ümumi** kateqoriyaları ilə şərh olunur. Xüsusi və ümumidən fikrən ayrılıqda götürülmüş təkcəni biz **xalis təkcə** kimi təyin edirik. Xalis təkcə təklikdə, hər hansı bir başqa şeylə vəhdət təşkil etmədən, özü-özündə var olmaqlığı özündə təqdim edən kateqoriyadır. Gerçəklikdə vəhdətdən kənar mövcudluq olmadığından, təbiətdə təklik reallıq deyil, yalnız fikrən, aprior olaraq götürülən varlıq təkcə kimi xarakteristikaya malik ola bilər. Beləliklə, xalis təkcə aprior anlayış

kimi metafizik obyektlərin statusuna daxil olan təkliyi şərh edən kateqoriyadır. Buradan da demək olar ki, bütün metafizik obyektlər tək kimi vardır. Təkcə təkin, ümumi cəmin xarakteristikasıdır.

Təkcə – vasitədə həqiqətin aydınlaşmasının azalma meylini (səbəbi və ya başlanğıcı), ümumi yəni cəm – artma meylini (nəticəni və ya sonu) ifadə edir. Ümumi mövcudolmada meydana çıxdığından və buna görə də gerçəklik aləmini şərh edən kateqoriya kimi mövcuddur. Hər hansı bir vasitənin özündə həqiqəti aydınlaşdırmaması ümumidən təkcəyə doğru inkişaf edən prosesdə meydana çıxır. Təkin özündə həqiqəti aydınlaşdırmaması ilə həqiqət konkret vasitədə aşkarlanmır. Yəni varlıq yoxluğa çevrilir. Həqiqətin aydınlaşmasının yəqinləşməsi, əksinə, özündə təkdən cəmə sıralanmasını, həqiqətin dəqiqləşməsi isə təkdə həqiqətin aydınlaşmasını ifadə edir.

Tək – cəmin başlanğıcı və ilk səbəbidir. Təcrübə sferasında mütləq tək mövcudluq reallıq deyil. Yəni heç bir şey təbiətdə mütləq tək şəkildə mövcud olmur. Cəm – təkin təkrarlanmaqla məkanda sıralanmasını özündə təqdim edir. Belə sıralanmadan kənarda təklik təzahür etmir. Beləliklə, cəm kimi təzahür təkin reallıq statusuna daxil olur. Əvəzində cəmsiz varlıq metafizik statusa daxil olan xarakteristika kimi təyin oluna bilər. Ona görə də, biz istənilən təki yalnız aprior olaraq cəmdən aşkarlaya bilərik. Təkin cəmdən aşkarlanması onun təkrarlanmasının fikrən istisna edildiyini özündə təqdim edir.

Təklik çoxmənalıdır:

1. **Təkrarlanmayan mənasında təklik:** Hər hansı bir şey hissi təcrübəyə cəmdən ayrılıqda təqdim olunursa, biz belə təkliyi təkrarlanmayan təklik kimi təyin edirik. Məsələn, bir kitab tək kitabdır, çünki ikinci bir kitab yoxdur.
2. **Bərabəri olmayan mənasında təklik:** Bütün insanlar fərd kimi təkdir. Yəni dünyada elə iki insan tapmaq mümkün deyil ki, onlar bir-birini kopyalamış olsun, yəni bir-biri ilə eyniyyət təşkil etsin.

3. **Qarşılıqsız vahidlə təyin olunan mənasında təklik:** Bütün rəqəmlər vahidin özü-özündə təkrarlanmasından əmələ gəlir. Belə təkrarlanmada iki hal yaranır. Rəqəmdə vahid özü-özü ilə qarşılıq təşkil edir və ya belə qarşılıq təşkil etmədə rəqəmlərin bəzilərində qarşılıqsız vahid aşkarlanır. Vahidin özü-özü ilə qarşılıq təşkil etməsi ilə yaranan rəqəmlər cüt rəqəmləri, qarşılıq təşkil etmədikdə tək rəqəmlər meydana çıxır. Məsələn, 2 və 3 rəqəmlərini vahidin özü-özü ilə qarşılıq təşkil etməsinə görə təsəvvür edək. 2 → 1=1; 3 → 1=1, 1. Göründüyü kimi üçdə vahidin biri qarşılıqsızdır. Yəni təklik vahidin qarşılıqsız olması ilə təyin olunur.
4. **Vəhdətdən kənarda olmaq mənasında təklik:** Bütün mövcud olanlar bir-biri ilə vəhdət təşkil edir. O yerdə ki vəhdət yoxdur, orada xalis təklik aşkarlanır. Biz xalis təkliyi cəmlə vəhdətdən kənarda olan təklik kimi təyin edirik və belə təklik metafizikdir, yəni yalnız aprior olaraq təbiətdən kənarda aşkarlana bilər.

Tək "bir"lə eyni mənalı deyil. Bir cəmin başlanğıcıdır və birin mövcudluğu cəmin potensiallığını özündə təqdim edir. Amma xalis təklikdə belə potensiallıq yoxdur və cəmin başlanğıcını təşkil etmir. "Bir" cəmdən ayrılıqda götürülmüş konkret təklikdir, hansı ki cəmin mövcudluğu şərtində əldə edilir. Məsələn, biz "bir alma" dedikdə əslində sonsuz sayda almadan ayrılıqda birinin götürüldüyünü ifadə edirik. Bir alma tək alma deyil. Çünki bir almanı biz cəmdən ayıraraq əldə edirik. Cəm olmadan bir alma da mövcud olmur. Tək alma isə cəmin iştirakı olmadan əldə edilən almadır. Təcrübədə belə hal istisnadır. Buna görə də, xalis təklik yalnız fikrən, aprior düşünüldüyündən metafizik olur. Metafizikada fakt aktuallaşmadığından heç bir metafizik obyektin cəmi yoxdur. Başqa sözlə, metafizik statusda cəmin xarakteristikası istisna təşkil edir. Buradan da, bütün metafizik obyektlər yalnız tək kimi düşünülür.

XALİS TAM

Mütləq həqiqətin vasitədə aydınlaşmasının təzahürü **tamlıq**, nisbi həqiqətin aydınlaşması **hissəlik** kimi təzahür edir. Nisbi həqiqət mütləq həqiqətdən yarandığı kimi, hissə də tamdan əmələ gəlir. Tam – başlanğıc və ya səbəb, hissə – nəticə və ya sondur. Hər bir hissə özündə tamın müəyyən əlamətlərini ifadə edir. Hissələrin cəmi tamı təzahür etdirir. Həqiqətin aydınlaşmasının azalma meyli hissə, artma meyli tam əlaqəsində ifadə olunur. Hər hissə həm bir-biri ilə, həm tamla, hər bir tam isə ayrı-ayrı hissələrlə və başqa tamlarla əlaqədədir. Hissələrin tamı əmələ gətirməsi hissələr arasındakı əlaqə ilə aktuallaşır. Hər bir hissə özündə nisbi tamdır. Hər bir tam mütləq hissədir. Tam buna görə hissə ilə vəhdətdədir. Hissəsiz tam, tamsız hissə gerçəklik kimi təzahür etmir. Mütləq tam – hissəsi olmayan, hissəyə ayrılmayan tamdır. Hissə tamın keyfiyyətlərini özündə daşıyan, amma tama nisbətən həqiqəti daha az aydınlaşdıran varlığın formasıdır.

Ən kiçik mütləq hissə özü-özündə mütləq tamdır. Biz hissə ilə tamın mütləq eyniliyini **xalis tamlıq** kimi təyin edirik. Xalis tam – hissəsi olmayan və ya özü mütləq hissə olandır. Yəni xalis tam hissə ilə vəhdət təşkil etmir, fərqlilik kimi onunla heç bir əlaqəyə girmir, sadəcə eynilik kimi mövcud olur. Tamdan hissənin əldə edilməsi tamın hissələrə ayrılması ilə mümkündür. Tamın hissələrə ayrılması təbiət sferasında müəyyən həddə qədər aparılır, sonra fikrən davam etdirilir. Fikrən ayrılmanın mümkün olmadığı səviyyə xalis tamı özündə təqdim edir. Beləliklə, metafizik statusa daxil olan xalis tamlıq xarakteristikası, fikrən hissələrə ayrılması mümkün olmayanı özündə təqdim edir.

XALİS TƏSADÜF

Gerçək aləmin idrakı **təsadüf** və **zərurət** kateqoriyaları ilə həyata keçirilir. Həqiqətin aydınlaşmasının azalma meyli – təsadüf, artma meyli – zərurət əlaqəsində təzahür edir. Zərurət həqiqətin formadan aydınlaşmasını, təsadüf elə-belə aydınlaşmasını özündə təqdim edir. Təsadüf müm-

künlüyü xarakterizə edən kateqoriyadır. Zərurət mümkünlüyün mövcudluğa keçmə imkanını özündə təqdim edir. Yaranma təsadüfdən zərurətə keçid kimi meydana çıxır. Beləliklə, təsadüf – səbəb və ya başlanğıc, zərurət – nəticə və ya sondur.

Təsadüf – şərtlənməmiş, zərurət – şərtlənmiş aydınlaşmadır. Şərt – mümkünlüyün gerçəkləşmə imkanıdır. Təsadüf bütün zərurətlərin məcmusudur. Təsadüf azadlıqda, zərurət asılılıqda meydana çıxır. Gerçəklik aləmində mümkünlüyün gerçəkləşmə imkanı təsadüflə zərurətin vəhdəti ilə reallaşır. Zərurət yalnız gerçəklik aləmini xarakterizə edən kateqoriyadır, ona görə də zərurətin metafizik mənası yoxdur. Bunun əksinə, xalis təsadüf gerçəklikdə istisna olunur, çünki gerçəklik yalnız zərurətə görə mövcudluqdan meydana çıxır. Xalis təsadüf mütləq azadlıqda aşkarlandığından və təbiət sferasında hər şey bir-birini şərtləndirdiyindən, biz xalis təsadüfü metafizik kateqoriya kimi düşünürük.

C. İdrakin Başlanğic Noumenləri – Ali Anlayişlar

Hər bir idrak forması fərqli metodlarla reallaşdığından, idrak prosesi ilk növbədə ümumi şəkildə idrak obyektinin statusunu təyin edən anlayışlarla başlayır. Hər bir anlayış özü-özündə sözlə ifadə olunur. Buradan da **“Söz”ü** idrakın ən ümumi başlanğıc noumeni kimi təyin edə bilərik. Bütün mövcud olanlar Varlığı özündə aşkarladığı kimi, Varlığın aşkarlanması da sözlə ifadə olunur. Anlayışlar sözlə simvollaşdırıldığından və “söz” bütün anlayışların ən ümumi adı olduğundan, biz “sözü” ən ümumi metafizik anlayış kimi qəbul edirik. Söz metafizika ilə fizikanı əlaqələndirən noumen kimi mövcuddur. Söz – bir tərəfdən özündə səslərin düzülmə qanunauyğunluğunu, digər tərəfdən həm özündə mövcud varlığın konkret formasını və onun təfəkkürdəki obrazını ifadə edərək, ikitəbiətlilik xarakteristikasına malik olur. Hər bir sözün özündə ifadə etdiyi mənası və özünəməxsus səs düzümü (forması) vardır. Həqiqəti özündə təqdim edən fikir sözün mənbəyidir. Yəni söz idrak olunmuş həqiqəti ifadə edən fikirlərdən meydana çıxır.

Haşiyə: *Martin Haydeqqer*, "Avropa nihilizmi"

"Fikirlərin cavabı – sözün lüğətdə elan olunması kimi, dilin əmələ gəlməsinə imkan verən, insan sözünün mənbəyidir."

Göründüyü kimi, *M. Haydeqqerin* yuxarıdakı fikrindən metafizikanın əsas suallarından birinin – "*cavablar haradan əmələ gəlir?"* sualının cavabını müəyyənləşdirmək olar. Beləliklə, biz deyə bilərik ki, "dünya üzərində fikirlərlə qaldırılmış elmi binanın" – metafizikanın əsas anlayışlarından biri, fikirlərin cavabı – insan sözünün başlanğıcıdır; yəni söz fikrə münasibətdə sondur, eyni zamanda insan sözü fikirlərin ifadə edilməsində yeganə səbəb kimi, fikirlərin başlanğıcıdır, yəni sözə münasibətdə fikirlər sondur. Başqa sözlə, cavablar – sözlə ifadə edilən fikirlərdən meydana çıxır, hansı ki bunun əksinə suallar Varlığın xalis fikir təyinindən meydana çıxaraq Ruhda refleksiya olunmağını – cavaba çevrilməsini tələb edir. Beləliklə, idrak prosesində həqiqətin aşkarlanması özündə Varlıqda yerləşən xalis fikrin sual kimi aydınlaşmasını və təfəkkürdə Ruhun xalis varlıq təyinində refleksiya yolu ilə cavaba çevrilməsini təqdim edir. Sual və cavab xalis varlığın iki müxtəlif təbiətidir, hansı ki müəyyən şərtlərdə bir-birinə (sual cavaba, cavab da suala) keçir.

Ayrı-ayrı söz özündə xüsusi idrakın başlanğıc metafizik noumenlərini təqdim edir. Mühakimə prosesində təcrübə ilə heç bir əlaqəsi olmayan və eyni zamanda həm təcrübi, həm də transsendental tətbiqi mümkün olan, spontan yaranan anlayışları biz **idrakın başlanğıc noumenləri** adlandırırıq. Təcrübədə xarici predmetlərdən həqiqətin çıxarılmasının əksinə, xalis metafizik predmetlərə məna ruhun özü tərəfindən doldurulur. Ona görə də belə predmetlərə hissiyyat qətiyyən qarışmadığından xalis noumenlər kimi mövcud olur.

Haşiyə: *İ. Kant*, "Xalis zəkanın tənqidi"

"Bizim biliklər ruhun iki əsas mənbəyindən çıxır: birincisi qabiliyyət təsəvvür (təəssürata həssas) əldə etmək, ikincisi, bu təsəvvürlər vasitəsi ilə əşyanı (anlayışların spontanlığı) dərk etmək. Bilavasitə birinci ilə predmet bizə verilir, ikinci ilə təsəvvürə münasibətdə düşünülür. Təsəv-

vürlərə hissiyyat qarışdıqda bu empirik, heç hissiyyat təsəvvürə qarışmadıqda xalis olur. Hissiyyatı hissi biliyin materiyası adlandırmaq olar. Bizim ruhumuzun qavraması hansısa təsirə məruz qalmaqla təsəvvürləri əldə etmək qabiliyyəti, mühakimə qabiliyyəti isə təsəvvürləri müstəqil yaratmaq qabiliyyətidir."

İ. Kantın təbirincə, əgər hissiyyat hissi biliyin materiyası kimi çıxış edirsə, onda qeyri-hissi qavramada spontan meydana çıxan anlayışların materiyası kimi ağıl özü çıxış edir. Beləliklə, materiyasını ağıl təşkil edən və təfəkkürdə hissiyyat iştirak etmədən spontan meydana çıxan noumenləri, xalis mühakimədən yaranan noumenləri, başlanğıc noumenlər kimi təyin edirik, hansı ki ağıl özü-özündən heç bir xarici şeyin təsiri olmadan yaradır.

Spontan yaranan anlayışlar iki cürdür: birincisi, əsasında hissi qavrayışdan alınmış təsəvvürlərin şəkildəyişməsi durur, ikincisi, əsasında təcrübədən alınmış heç bir təsəvvürün durmadığı xalis sintetik təsəvvürlər. Xalis sintetik təsəvvürlərdən iki cür noumen – idrakın başlanğıc noumenləri və həqiqətin başlanğıc noumenləri meydana çıxır.

Haşiyə: *İ. Kant*, "Xalis zəkanın tənqidi"

"Adətən transsendental fəlsəfənin başladığı ali anlayışlar mümkün və qeyri-mümkünə bölünmədir. Beləliklə, istənilən bölünmə ayrıca anlayışlar təklif etdiyindən, onda elə daha ali anlayışları qəbul etmək lazım gəlir: bu predmet haqqında ümumiyyətlə anlayışdır."

İ. Kantın fikirlərindən görünür ki, kateqoriyaların tətbiqinə qədər idrakda elə ali anlayışlar mövcuddur ki (və ya mövcud olmalıdır ki), onlar əvvəlcə kateqoriyaların tətbiq edilib-edilməməsinin zəruriliyini müəyyən edir. Bu anlayışları *Kant* mümkünlük və mümkünsüzlüklə bağlı anlayışlar kimi təyin edir. Burada mümkünlük və mümkünsüzlük həm obyektin özü-özündə mövcudluğuna, yəni həqiqətin aydınlaşmasına, həm də obyektin idrak olunmasının mümkünlüyünə və ya mümkünsüzlüyünə, yəni həqiqətin aşkarlanmasına aid edilməlidir. Başqa sözlə, ali anlayışlar universal mümkünlük və mümkünsüzlüyü özündə ifadə edən anlayışlardır.

İdrakın başlanğıc noumenləri təcrübədən əvvəl verildiyindən, onların ideyalarında təcrübədən əldə edilmiş heç bir xüsusi ideya bilavasitə iştirak etmir. Başqa sözlə, hissi qavramadan qabaq belə noumenlər idrak prosesinin başlanğıcında xalis ağıldan əmələ gəlir və həmin noumenlərin iştirakı ilə ilkin idrak prosesi başlayır. Belə noumenləri əvvəl subyekt anlayış kimi özü-özündə yaradır, sonra həmin anlayışları mahiyyətlə doldurur və sonra onlardan idrak prosesində universal anlayışlar kimi istifadə edir. İdrakın başlanğıc noumenlərinin sayı, ən ümumi şəkildə konkret statusa aid olduğundan, idrak obyektlərinin statusunun sayına uyğundur. Belə anlayışlar analoji statusa malik istənilən obyektləri ən ümumi şəkildə özündə şərh edən anlayışlar kimi mövcuddur. İdrakın başlanğıc noumenləri idrak obyektlərinə yox, idrak prosesinin mümkünlüyünə tətbiq edilir.

İdrak obyektlərinin statusuna uyğun olaraq idrakın başlanğıc noumenləri üçdür:

1. Reallıq statusunu özündə təqdim edən – Varlıq (Mümkünlüyün varlığı):

Bu noumen özlüyündə iki yerə ayrılır:

a) Mövcudluğun qeyri-varlığı (və ya hissi idrakın başlanğıc noumenləri): İdrakın başlanğıc noumenləri hər şeydən öncə hissi idrakın başlanmasının mümkünlüyünü, yəni təbiətlə metafizika arasında demarkasion xətti müəyyən edir. Bura iki noumen – **"nə"** və **"nəsə"** aiddir. Hissi qavramanın başlanğıcında bütün mövcudluqlar ya "nə", ya da "nəsə" kimi çıxış edir. "Nə" – hissi təsiri qəbul edilən, amma qavranılmayan obyektləri; "nəsə" – hissi təsiri qəbul edilməyən, amma hissi qavranılması mümkün olan obyektləri ən ümumi şəkildə özündə ifadə edir. *İ. Kant* "nəsə"ni *ens rationis-nihil* kimi şərh edir. Biz "nəsə"ni mövcudluqda saxlanan başlanğıc mümkünlüyün noumeni kimi təyin edirik. "Nəsə" mümkünlüyün aktuallaşma ilə qeyri-müəyyən vəhdətini özündə təqdim edir. Beləliklə, biz "nəsə"ni idrak olunması mümkün olan, amma hazırkı

halda idrak olunmayan kimi müəyyənləşdiririk. Başqa sözlə, "nəsə" idrakın potensiallığını ifadə edir.

"Nəsə" təcrübədən aşkarlanan metafizik noumendir. Buna görə də metafizikanın əsas anlayışlarından biri kimi əksər filosofların tədqiqat obyekti olmuşdur. Belə filosoflardan biri də *M. Haydeqqerdir*. *M. Haydeqqer* nihili "mövcudluğun qeyri-varlığına" aid anlayış kimi izah edir. Burada, qeyri-varlıq ifadəsi idraka münasibətdə, ondan kənarda olan, yəni "indi və burada" prinsipinə tabe olmayan mövcudluğu ifadə edir. Əgər idrak təcrübədə aktualdırsa, onda ondan kənarda olan mövcudluğun qeyri-varlığı metafizikadadır. Mövcudluğun qeyri-varlığı, varlığın qeyri-mövcudluğu ilə – "Var"la əksilik təşkil edir, hansı ki xalis mümkünlüyün varlığını özündə ifadə edir. "Nəsə" idrak obyektində saxlanan aydınlaşmamış həqiqətdir, hansı ki xüsusi imkanda "nə"yə çevrilərək konkret obyekt kimi idraka təqdim olunur.

Haşiyə: *M. Haydeqqer*, "Varlıq və Zaman"

"Metafizika anlayışından varlığın gizlədilmiş mövcudluğu, onun sürüşməsi hər şeydən əvvəl sadə qeyri-varlıq, nəsə kimi ifşa olunur. Amma nəsə mövcudluğun "yox"u kimi boş heçliyə ən kəskin əksilikdir. Nəsə heç vaxt heçlik deyil, bərabər ölçüdə predmet mənasında nəsə deyildir: o, özünü subyekt kimi dəf edən və deməli mövcudluğu obyekt kimi təqdim etmədiyi vaxtda, insana həqiqətini inandıran varlığın özüdür."

Haydeqqerin "nəsə" haqqında şərhindən görünür ki, bir tərəfdən "nəsə" heçlik deyil, yəni onun özündə konkret mənası vardır. Amma bu məna birbaşa aydın şəkildə subyektə təqdim edilmədiyindən o varlığın (həqiqətin) gizlədilməsidir, hansı ki mövcudluq qeyri-idrak obyekti kimi subyektə məlum olur. Beləliklə, "nəsə" forma ilə vəhdətdən fikrən ayrılmış mahiyyətdir. "Nəsə"də varlığın bütün təyinləri gizlədilir. Yəni "nəsə"dən nə özü-üçün-varlıq təyini, nə mövcud varlıq təyini, nə də xalis varlıq təyini aydınlaşmır. Buradan da, "nəsə"ni hər üç varlıq təyininin məcmusu kimi qəbul etmək olar. Mövcudluğun hissi obyekt kimi qavranılmadığı idrak səviyyəsində obyekt elə-belə materiya kimi təqdim olu-

nur, hansı ki eyni zamanda bütün obyektlərin əsasını təşkil edir. Beləliklə, deyə bilərik ki, "nəsə" ümumi şəkildə materiyanı özündə ifadə edən noumendir, hansı ki idraka konkret obyekt kimi təqdim edilmədiyindən gizlədilmiş varlıqdır və bu gizliliyində bütün mövcud obyektlərin mahiyyətini özündə saxlayır. Başqa sözlə, xüsusinin ümumidə gizlədilməsi "nəsə" noumeni kimi ifadə olunur. Subyekt onu yalnız ən ümumi şəkildə idrak edir. Ona görə də, "nəsə"dən insan heç bir konkret məna – xüsusi həqiqət çıxara bilmir.

Haşiyə: *M. Haydeqqer*, "Varlıq və Zaman"

"Özünün lüğəti anlayışına görə "nihilizm" yalnız deyir ki, bütün mövcudluqlar nihildir – "nəsədir" və nəsə kimi ona görə düşünmək lazımdır ki, heç bir dəyərə malik deyildir və hələ ki, – qabaqcadan o özündə heçlik və nəsədir. Öz tərəfindən "nəsə" bu və ya başqa düşünülən predmetin "varı" deyil."

M. Haydeqqerin fikirlərindən görünür ki, nəsə özündə heçlik (forma) və nəsədir. Yəni həqiqət haqqında məlumat daşıyan dalğanın özüdür, hansı ki özündən forma yaratmaqla konkret "nə"yə çevrilir. Formanın heçlik kimi nəsədə gizlədilməsi nəsənin potensiallığıdır, hansı ki nə-nin aktuallığından onu fərqləndirir. Başqa sözlə, "nəsə" müvəqqəti olaraq dəyərə malik olmadığından, indidə heçlikdir (yəni idrak olunmayan həqiqətdir), amma gələcəkdə dəyər olacaqdır (yəni idrak olunacaqdır). Burada heçlik həqiqətin idrakının potensiallığını özündə ifadə edir. Gələcək dəyər nəsədə gizlidir, ona görə də gizli dəyərliliyinə görə nəsə indi heç bir dəyərə malik olmadığından heçlikdir. Burada, heçlik – subyektiv ölçülülük, nəsə – obyektiv ölçülülük kimi çıxış edir.

Nəsə, təsdiq mənasında, həm də "var" deyil, çünki özündə düşünülən predmeti təqdim etmir, hansı ki predmetin düşünülməsində "var" subyekt tərəfindən metafizikadan spontan və avtomatik olaraq alınaraq predmetə implikasiya edilir və konkret predmetin varlığı aşkarlanır. Nəticədə mövcudluğun varlığı meydana çıxır. Mövcudluğun varlığı mövcud varlıq təyinini özündə təqdim edir. "Nəsə" eyni zamanda, inkar mənasında, "yox"

deyil. Nəsənin yox olması üçün ondan "nə" çıxarılmalı, yəni istisna edilməlidir. Beləliklə, nəsə eyni dərəcədə həm var, həm yoxdur. Var – ona görədir ki, özündə gizlədilmiş həqiqətə malikdir; yox – ona görədir ki, dəyərləri gizlədilmiş şəkildə olduğundan, idrakda bilavasitə refleksiya olunmur. Nəsə özünə görə var, idraka görə yox olunanı bildirən noumendir. Metafizik obyektlərin hamısı məhz belə xarakteristikaya malikdir. Yəni özü-üçün var, hissi idrak üçün yoxdurlar. Başqa sözlə, nəsə ağlın antinomiyasından azad olmuş obyekti özündə ifadə edən noumendir.

Var və yox nihilin mümkünlükləridir. Belə ki, "nəsə"də "nə" hissi qavranılan maddiliyini, zərurətə görə mövcudluğunu, "sə" isə sonsuz sayda qeyri-məlum bilavasitəliyi, təsadüfiliyi özündə təqdim edir. Beləliklə nəsə idrak obyektinin subyektdən azadlığını ifadə edir. Buna görə də, *M. Haydeqqer* nəsəni "bu və ya başqa düşünülən predmetin qeyri "var" olması" kimi təyin edir. Beləliklə, biz nəsə ilə mövcud varlığın özünə daşıdığı mümkün varlığını ifadə etmiş oluruq, hansı ki qeyri-müəyyən şəkildə "nəsənin" sərhədlərində mövcud ola bilər.

Nihil sözünün hərfi mənası bütün mövcudluqları özündə ifadə edən "nəsədir". Bütün mövcud olanlarda konkret mövcud olan qeyri-müəyyənlikdir. Ona görə də bütün mövcudluqlardan konkret bir mövcudluğu nəsə kimi idrak edirik. Nəsə mahiyyəti qeyri-müəyyən formada özündə təqdim edir. Qeyri-müəyyənlik hər hansı konkret predmeti istisna edən, yalnız ən ümumi şəkildə onu qəbul edən anlayışdır; nəsəni *Kant* predmetsiz boş anlayış kimi təyin edir. Amma heç nədən fərqli olaraq nəsə mümkünlüyün boş anlayışıdır, çünki müəyyən şərtlər daxilində nəyə çevrilir. Anlayışın predmeti, göstərilməsi mümkün olan heç bir seyrə uyğun deyilsə "nəsə" adlanır. Belə anlayış noumen kimi mümkünlük nahiyəsinə aid etmək mümkün ola biləcək obyektivliyə malik deyil. Buradan, fikrin boş əməlgəlməsi baş verir. Nəsə – ağıl tərəfindən müəyyən edilən mümkünlüyün boş anlayışıdır. Nəsənin aşkarlanması nəzəriyyə ilə mümkün olur. Nəzəriyyə – nəsəni izah edən ideyaların ardıcıllığıdır. Nəsə həm idrakın potensiallığını, həm də idrakolunmazlığı ifadə edir. Faktiki dərk

edilməyən nəsə paradiqmalardan ibarətdir. Hər bir paradiqma yoxlamaya məruz qalmayan ehtimalların yığımıdır. Bu *"modus operandi"* kimi düşünən mənin hissəsidir. Başqa sözlə, ağlın hissəsidir. Paradiqma heç vaxt şübhəyə məruz qalmır, çünki heç vaxt ağla gəlmir, elə-belə ağlın özündən çıxır. Amma buna baxmayaraq paradiqmalar dəyişir. Biz Nəsəni mövcudluğun əsas paradiqması kimi təyin edirik.

b) Varlığın qeyri-mövcudluğu: Bura mövcudluğu olmayan **Var-lıq** aiddir. Var özündə bütün mövcudluqların başlanğıcını təqdim edir. Var-a malik olmayan heç bir real mövcudluq təzahür etmir. Mövcudluğu olmayan varlıq – imkansız mümkünlükdür, hansı ki imkan yaranan anda mövcudluğa çevrilir. Var – istənilən reallığın idrak keyfiyyətini – idrakın hissi qavrama ilə mümkünlüyünü özündə ifadə edir. Biz istənilən real mövcudluğu "var-lıq" anlayışı ilə ifadə edirik. Bununla da, onların reallıq statusunu təsdiq etmiş oluruq. Varlıq – özündə metafizik statuslu obyekt gizlədən mövcudluqdur, yəni təbiətində metafizik həqiqət olan reallıqdır. Var real mövcudluğun ən ümumi şəkildə idrak prosesinə təqdim edildiyini özündə ifadə edir. Vara malik olmayan özündə metafizik xarakteristikadan məhrum olduğundan, metafizik təbiətli subyektdə refleksiya etmir. Beləliklə, metafizik həqiqətə malik olmayan hər şey irreallıq statusuna malik olur. Məsələn, "alma vardır" – bu almanın mövcudluğunun idraka təqdim edilməsinin imkanını bildirir. Amma sadəcə "alma" özündə heç bir məna ifadə etməyən boş anlayış kimi çıxış edir.

2. Metafizik statusu özündə təqdim edən, mövcudluğu və varlığı olmayan – Yoxluq (Mahiyyətin varlığı):

Yox noumeni varlığı və mövcudluğu olmayan – yəni yalnız aprior olaraq xalis zəkadan aşkarlanan metafizik statusu özündə təqdim edən noumendir. Yox idraka təqdim olunmazlıq keyfiyyətini ifadə edir. İki cür yoxluq aşkarlamaq mümkündür:

Birincisi, Nisbi yoxluq – reallığın yoxluğu: Belə yoxluq obyekt-subyekt münasibətində aşkarlanan yoxluqdur və məkan və zamanla şərtlənmişdir. Yəni, nisbi yoxluq obyektlə subyektin məkan-zaman şərtlən-

məsinin uyğunsuzluğunu özündə təqdim edir. Belə yoxluq məkan və zaman şərtlərinin dəyişilməsi ilə mövcudluqla əvəzlənir. Nisbi yoxluq reallıq statusuna malik olan, lakin təcrübə sferasına daxil olmamış obyektləri özündə təqdim edir.

İkincisi, Mütləq yoxluq: Mütləq yoxluq məkan və zaman şərtlərindən asılı olmayaraq idraka təqdim olunmayan obyektləri ifadə edir.

3. İrreallıq statusunu özündə təqdim edən Heçnə – Xalis forma:

Heçnə də özü-özündə iki cürdür:

a) Obyektə münasibətdə heçnə: Belə heçnə boş predmeti – irreallığı ifadə edən anlayışdan ibarətdir. Burada irreallıq statusu yalnız obyektə aiddir. Anlayış isə reallıq statusuna aid olur. Yəni konkret mənaya malik anlayış özündə heç bir mənası olmayan obyekti ifadə edir. Belə heçnə irreal obyektləri özündə təqdim edir. Obyektə münasibətdə heçnə özündə yalnız xalis formaya – özü-üçün-varlıq təyininə malik, heç bir mahiyyətlə vəhdət təşkil etməyən və buna görə də özündə heç bir həqiqət aydınlaşdırmayan obyektləri ifadə edir. *İ. Kant* obyektə münasibətdə heçnəni *nihil privativum* – anlayışın boş predmeti adlandırır. *Kanta* görə, heçnə anlayışın boş predmeti, nəsənin inkarıdır. Başqa sözlə, heçnə forma kimi anlayışdır, hansı ki heç bir məna ilə doldurulmamışdır, buna görə də "boşdur". Heçnə, predmetin mümkünsüzlüyü haqqında anlayışdır. Yəni heçnə heç bir idrak obyekti ilə bilavasitə uyğun olmayan anlayış üçün boş göstəricilərdir. Başqa sözlə, heçnə qeyri-mümkünlüyün anlayışıdır, hansı ki nəsədən fərqli olaraq heç bir şərtlə nəyə çevrilmir. "Heçnə" "nə"-nin əksiliyi kimi, duyğu yaratmaq keyfiyyətinə malik olmamaqlığı özündə ifadə edir.

Haşiyə: *Martin Haydeqqer*, "Metafizika nədir?"

""Heçnə" haqqında elm heç nə bilmək istəmir. Nəhayətdə Heçnənin bu ciddi elmi konsepsiyası olacaqdır. Biz onun haqqında, Heçnə haqqında, heç nə bilmək istəmədikdə bilirik. Elm heçnə haqqında heç nə bilmək istəmir. Ancaq eyni aydınlıqla, öz xüsusi mahiyyətini bildirməyə cəhd edərkən Heçnənin köməyinə əl atır. Ona inkar etdiyi tələb olunur. Əsil

həqiqətdə heçnə varlığın bütün məcmusunun inkarıdır, o – mütləq qeyri-varlıqdır. Heçnə özündə istənilən fərqliliyin tam olmamasını təqdim edir. Heçnə – predmet deyil, ümumiyyətlə hansısa varlıq deyil, o özü-özlüyündə, ona əlavə edilmişə oxşar varlıqla yan-yana rast gəlinmir. Heçnə insan varlığı üçün varlığı olduğu kimi açmağın imkan şəraitidir. Heçnə hətta varlığa antonim təşkil etmir, əksinə onun əsasının özünəməxsus olur. Mövcudluqda varlıq özünün heçliyini Heçnədə həyata keçirir. Heçnə inkarın mənbəyidir, əksinə deyil. Hegelin dediyi "xalis varlıq və xalis heçnə mahiyyətcə bir və eynidir" fikri tamamilə düzdür, varlıq və Heçnə qarşılıqlı bir-birinə məxsusdur. Heçnə metafizikdir."

Elm həqiqəti yalnız faydalanmaq prinsipi ilə aşkarladığından, heçnədən faydalanmaq mümkün olmadığından, elm bilavasitə heçnəyə laqeyddir, yəni *M. Haydeqqerin* dediyi kimi onun haqqında bilmək istəmir. Amma "nə"dənsə faydalanmaq istədikdə "nə"ni təsbit etmək üçün mütləq "heçnə"nin köməyindən istifadə edir. Beləliklə, heçnə özünün inkarı ilə bütün nələrin başlanğıcını təşkil edən metafizik anlayış kimi çıxış edir. *M. Haydeqqerin* yuxarıdakı fikirlərinə istinadən deyə bilərik ki, "Heçnə" metafizikanın minimumunu özündə ifadə edən əsas anlayışlarından biri olub, özündən "nə"ni – fəlsəfənin və elmin minimumlarını yaradan həqiqəti – ideyanı ifadə edir. Buradan da, "heçnə"ni metafizik, "nə"ni fəlsəfi anlayış kimi aşkarlaya bilərik, hansı ki bir-biri ilə vəhdətdə biri varlığın (real aləmdə), digəri yoxluğun (təfəkkürdə) minimumu kimi mövcuddur. Varlıq yoxluğa, yoxluq varlığa çevrildiyi kimi, heçnə nəyə, nə isə heçnəyə çevrilir. Biz, bu çevrilmə məqamını yaranış kimi dərk edirik. Real aləmdə heçnənin nəyə çevrilməsi varlığın yaranışını, təfəkkürdə nənin heçnəyə çevrilməsi ideyanın yaranışını özündə təqdim edir.

Nəsənin heçnə ilə vəhdətindən **nihilizm** meydana çıxır. Heçnənin nəsə ilə vəhdətində "nə" – qeyri-müəyyən maddilik şiddətlənir, amma "heç" – mənasızlıq "sə"nin – mövcudluğa çevrilmiş mümkünlüyünü mənasızlaşdırır, yəni heç edir, nəticədə nihilizm – nəsə təzahür edir. Nihilizm heçnənin nəsənin mümkünlüyünün mövcudluğa keçməsini mənasız-

laşdırması və bunun əksinə mümkünlüyün yeni mənada mövcudluğa keçməsini özündə təqdim edən transsendensiyadır.

Haşiyə: *M. Haydeqqer*, "Varlıq və Zaman"

"Özünün lüğət mənasında "nihilizm" yalnız deyir ki, bütün mövcudluq nihildir – "nəsə"dir; nəsəni yalnız ona görə düşünmək lazımdır ki, heç bir dəyərə malik deyildir və – hələlik – o əvvəlcədən artıq özündə heçnədir və nəsədir. Qiymətli kimi, bahalı və ya dəyərdən məhrum olmuş nəyinsə dəyər təyini və qiyməti onun təyininə əsaslanır ki, nəsə varmı və o necə var və ya o "nəsə"dir. "Nəsə" və nihil beləliklə mövcudluğu onun varlığında bildirir və dəyər anlayışı yox, var olan olur. "Nihilizm" həqiqətin ağalığa gəlməsidir, hansı ki mövcudluğun bütün əvvəlki məqsədləri silkələnmişdir. Amma dəyərlərə aparan əvvəlki münasibətlərin dəyişilməsi ilə nihilizm dolğunluğa çatır, azad olur və yeni dəyərlərin müəyyən edilməsinin xalis vəzifəsi olur. "Nihilizm" klassik anlamda, əvvəlki dəyərlərdən bütün dəyərlərin hansısa yenidən dəyərləndirilməsi kimi azad olmadır."

M. Haydeqqerin fikirlərindən görünür ki, nihilizm transsendensiyanın – bir dəyərdən başqa dəyərə, bir həqiqətdən başqa həqiqətə keçidin formasıdır. Nəsənin "heç bir dəyərə malik olmaması" onun heçlik olduğunu yox, bütün dəyərlərin məcmusunu – ayrı-ayrı dəyərlərə ayrılmadan mümkünlüyün dolğunluğunu özündə təzahür etdirdiyini ifadə edir. Nəsə uzun müddət nihilizmdə qala bilməz, ona görə də, heçnə ilə yaratdığı keçici vəhdətdən ayrılır və bu ayrılma nəticəsində mənasızlaşdırılmış "sə"dən mümkünlüyün yeni məna daşıyan variantını – yeni dəyəri və ya həqiqəti özündə aydınlaşdırır, hansı ki digər dəyərlərdən mövcud olma imkanına görə üstünlük təşkil edir. Biz heçnəni **xalis forma** – *Hegelin* təbirincə *özü-üçün-varlıq* kimi təyin edirik. Xalis forma – xalis varlıqla və ya fikir varlığı ilə vəhdət təşkil etməyən, yəni mənası olmayan, buna görə də ondan ideya çıxarılması mümkün olmayan özü-özündə formadır.

İdrak obyekti haqqında həqiqətin ideyalaşdırılması özündə həmin obyektin formasını refleksiya edir. **İki cür forma ayırd etmək olar:**

a) Mövcudluq üsuluna görə forma (daxili forma): Bütün mövcudluqlar mövcudolma üsuluna görə bir-birindən fərqli formalara malikdir. Bura üç cür forma aid etmək olar: Cisim, can və ruh. Mövcudluq üsuluna görə forma immanentdir, daxilidir və yalnız fikrən seyr ediləndir.

b) Xarici görüntüyə görə forma (həndəsi forma): Belə forma xarici seyr edilən formadır. Həndəsi forma aksidensialdır, yəni şeydən ayrılandır.

Haşiyə: *Epikur*, "Məktublar və fraqmentlər"

"Birləşmələrin əmələ gəldiyi və onların dağıldığı bölünməyən və tam cisim, ucu-bucağı olmayan sayda formaya malikdir; belə ki, mürəkkəb əşyalarda belə çoxlu fərqliliyin bir və sayına görə məhdud eyni formadan əmələ gəlməsi mümkün deyil və hər bir formada belə atomlar sayına görə sonsuz, onlarda forma fərqliliyi isə tamam sərhədsiz deyil, amma ucu-bucağı yoxdur."

Epikurun fikirləri əslində sadə ilə mürəkkəbin əlaqələrini özündə təqdim edir. Hər bir ən sadə şey özündə daha çox mütləq həqiqətə yaxın həqiqəti aydınlaşdırır, hansı ki mütləq həqiqət bütün mümkün nisbi həqiqətlərin totallığı kimi mümkün varlıqdan aydınlaşır. Mümkün varlıq metafizikaya aid olduğundan, biz bölünməyən və tam cismi təcrübədən yox, yalnız metafizikadan aşkarlaya bilərik. Beləliklə, metafizikadan təcrübəyə keçiddə ölçülərin dəyişilməsinin baş verdiyini müəyyən edə bilərik. Yəni, metafizikada bölünməyən və tam, metafizikadan təcrübəyə keçərkən sonsuz sayda mürəkkəb formaların əsasında durur ki, formaların sonsuzluğu mümkünlüyü özündə təqdim edir.

Heçlik (yəni forma) necə yaranır? Forma özündə heç bir məna kəsb etmədiyindən o yaradılmışların yaratdığı kimi təzahür edir. Yəni başlanğıcda həqiqət – mahiyyətin varlığı kimi yaradılan, sonra özündən formanı yaradır və bu zaman ona heç bir həqiqət verə bilmir, çünki özündə olan həqiqət ondan ayrılmazdır. Nəticədə yaradılanın yaratdığı həqiqəti olmayan boş formadan ibarət olur. Bu istər təbii şeylərin özlərində yaratdıqları

formadan, istərsə subyektin reallıqlara proyeksiya etdiyi əsərlərdəki formadan aşkarlanır.

İ. Kant xalis formanı *imaginarium* – predmetsiz boş seyr adlandırır və ona görə *ens imaginarium* predmet üçün formal şərt olan, substansiyasız, özü-özündə predmet olmayandır. Bu da heçnə ilə eyni funksiyaya malikdir. Lakin heçnənin forması yoxdur, amma *ens imaginarium* forma kimi mövcuddur. Məsələn, kölgə. Beləliklə, bu noumen xalis forma kimi heçliyi özündə ifadə edən anlayışdır. Heçlik – həqiqətlə heç bir əlaqəsi olmayan, yəni həqiqətin nə predikatlarının, nə predikabiliyalarının mənbəyi olmayan mənasızlığı özündə ifadə edir. **Heçlik "heçnə"dən fərqli anlayışdır.** Əgər hər iki anlayışı ifadə edən sözlərin tərkibinə baxsaq görərik ki, "heçnə" sözündə "nə" iştirak edir, amma "heçlik" sözündə "nə" iştirak etmir. Yoxluq heçlikdən onunla fərqlənir ki, məkan və zaman şərtlərindən asılı olaraq yoxluq varlığa, varlıq da yoxluğa çevrilir. Bundan fərqli olaraq, heçlik heç bir halda varlığa çevrilmir və ya varlıq heç bir halda heçlik olmur – itmir. Bu xarakteristikasına görə heçlik təfəkkürdə heç bir halda refleksiya etməyəni, yəni mütləq şəkildə intelligibelliyi olmayanı ifadə edir. "Heçlik" varlıqla keçici, yoxluq varlıqla əbədi vəhdət təşkil edir. Keçici vəhdət o vəhdətdir ki, onu pozmaq, vəhdət təşkil edənləri ayrılıqda təsəvvür etmək və ya bir-birindən ayırmaq olur. Əbədi vəhdət pozulmayan və onu təşkil edənləri bir-birindən ayırmağın mümkün olmadığı vəhdətdir. Heçlik özü-özlüyündə heç bir nizam daşımadığından mahiyyətin xalis inkarıdır. Yoxluq isə özündə gizli nizam saxlayaraq xalis formanın inkarı kimi çıxış edir. Bu keyfiyyətinə görə, heçlik Varlıqla Yoxluğun məcmu əksiliyidir.

Hər bir mövcud varlıq – reallıq – forma və substansiyanın vəhdətindən ibarətdir. Ayrılıqda substansiya ilə vəhdət təşkil etməyən forma – özü-üçün-varlıq təyinini, xarici görüntünü təşkil edən heçlikdir. Məsələn, bir parça kub şəklində daşı yonub ondan kürə şəklinə salmaq olar. Bu zaman daş öz əvvəlki mahiyyətini olduğu kimi hifz edir, sadəcə həndəsi forması dəyişir. Yaxud insanın yaşı, cinsi və antropoloji quruluşu ilə bağ-

lı forması heçlikdir. Heçlik mahiyyətlə keçici vəhdət təşkil etdiyindən (əlaqəli olmadığından), belə inkar nəticəsində mahiyyət yeni forma ilə vəhdət təşkil edərək özü-özünü təsdiq edir. Məsələn, insanın uşaqlığı həddi-büluğa çatdıqda inkar olunur. Uşaqlıq antropoloji, psixoloji və s. forma kimi inkar olunur, amma yaşlılıqda həmin insanın mahiyyəti təsdiq olunur.

Heçliyi yoxluqdan fərqləndirən digər bir xarakteristikası suallandırmanın mümkünsüzlüyüdür. Belə ki, heçlikdə "nə" olmadığından onda sual yerləşmir. Biz hər hansı bir şeyə sual verə bilmiriksə, bu o deməkdir ki, o heçlikdir. Sual verə bilmədiyimizin cavabı da, yəni ideyası da meydana çıxmır. Yəni heçlik özündə ideyası olmayan və buna görə də suallandırmanın mümkünsüzlüyünü özündə təqdim edir. Heçlik "nə" və "Heçnə" ilə, yəni mövcudluqla (obyektlə) və ekzistensiya edənlə (subyektlə) hər hansı bir əlaqəsi olmayandır. Yoxluq yalnız başqasına – Varlığa görə yoxluqdur, bundan fərqli olaraq heçlik həm də özü-özünə görə yoxluqdur. Halbuki, "heçnə" "nə"yə münasibətdə yoxluq, özü-özünə münasibətdə varlıqdır. Buradan, heçliyi özü-özü ilə xalis yoxluq münasibəti kimi təyin edə bilərik. Bu münasibətə görə, heçlik eyni zamanda həm Varlığı, həm də Yoxluğu inkar edən anlayışdır. Başqa sözlə, heçlik nə "heçnə", nə də "nə"dir. Heçlik eyni zamanda Yoxluğu və Varlığı inkar etdiyindən, onların əksiliyi kimi çıxış edir. Nəticədə, Varlıqla Yoxluğu özünə münasibətdə vəhdətə gətirir.

b) Anlayışa münasibətdə heçnə: Anlayışa münasibətdə heçnə anlayışın irreallıq statusunu özündə təqdim edir, hansı ki reallığı ifadə edən anlayışlarla heç bir uyğunluğu yoxdur. Yəni belə heçnədə nə anlayışın, nə də onun predmetinin heç bir mənası yoxdur. Belə anlayışlar anlayışların yaranma qanunauyğunluğuna tabe olmur və təsadüf kimi meydana çıxır. Ovsunda istifadə edilən sözlər məhz belə anlayışlara aid edilə bilər. Belə ki, belə anlayışların nə özlərini, nə də ifadə etdikləri predmeti anlamaq mümkün deyildir.

HƏQİQƏTİN BAŞLANĞIC NOUMENLƏRİ

Hər bir idrak obyektinin statusunu müəyyən edən noumenləri biz **həqiqətin başlanğıc noumenləri** kimi təyin edirik. İdrakın başlanğıc noumenləri həqiqətin başlanğıc noumenlərini özündə refleksiya etməklə ümumi şəkildə idrak prosesini aktuallaşdırırlar. Bu baxımdan idrakın hər bir başlanğıc noumeninə uyğun həqiqətin müvafiq başlanğıc noumenini təyin etmək olar. Həqiqətin başlanğıc noumenləri özündə əsas metafizik ideyaları ifadə edir. Həqiqətin başlanğıc noumenləri yaranışın əvvəlində olan predmetləri özlərində təqdim edir. Varlığın başlanğıc noumenləri də varlığın totallığından əldə edilmiş noumenlərin xalis zəkanın ideyaları ilə doldurulması ilə əldə edilir. Belə noumenlər metafizikanın idrakının əsasını təşkil edirlər. Metafizik noumenlər təbiətə tətbiqi mümkün olmayan noumenlərdir. Başlanğıc noumenlər spontan – özü-özünə xalis zəkadan meydana çıxır. Ona görə də onların təcrübə sahəsində olan hər hansı predmetlə eyniliyi, oxşarlığı və fərqliliyi yoxdur. Yəni onlara buna görə də təfəkkür münasibətdə ola bilmir. Ona görə də öz-özlərində idrak olunmazdırlar.

Biz həqiqətin üç başlanğıc noumenini ayırd edə bilərik:

1. Bütün idrak statuslarını vəhdətdə ifadə edən noumen Allah-Var:

Bu anlayış başlanğıcların başlanğıcını özündə ifadə edən əsas və başlıca noumendir. Metafizikanın əsas məqsədi Allah noumeninin mənasına çatmaqdır. Allah noumeni özündə bütün bilgilərin – mümkünlüklər və qeyri-mümkünlüklər haqqında bilgilərin məcmusunu təqdim edir, hansı ki Kainatın və insanın ağlı onun ağlının emanasiyaya məruz qalmış ağlı kimi mövcuddur. Allah anlayışı idraka sığan hər şeyi – varlığın, yoxluğun və heçliyin başlanğıcını özündə ifadə edən metafizik noumendir. Beləliklə, Allah Mütləq, Tam, Həqiqətdir, hansı ki idrakın həqiqətini özündə ifadə etdiyindən idrakın sərhədlərindən kənardadır. İdrak Allahda sona çatdığından Allah anlayışı özündə idrak olunmazlığı təqdim edir. Allah anlayışının mənası **Var**-dır. Var – varlığa varlıq keyfiyyəti verən, yəni is-

tənilən ixtiyari idrak obyektini ən ümumi şəkildə müəyyən edən başlanğıc səbəbdir.

"Düşünən mən" düşünərkən ekzistensiya edir və onu ekzistensiyadan dayandıran istənilən ixtiyari şeyi biz varlıq adlandırırıq. Varlıq idrakın çatdığı və qavradığı həqiqəti özündə ifadə edir. İdrakın çatmadığı və həqiqəti qavranılmayan nəsə varlıq kimi çıxış etmir. Varlıq təbiətində Varla bağlı məlumat saxlayan istənilən şeyin ən ümumi keyfiyyətidir. Var – ən ümumi həqiqəti özündə refleksiya edir. Yəni, əgər hər hansı bir şeyin var olduğunu idrak ediriksə, bu o deməkdir ki, biz ən ümumi şəkildə onda həqiqət olduğunu təsdiq edirik. Başqa sözlə, həqiqətin refleksiyasının aktuallaşması anı varlıq noumeni ilə ifadə olunur. Var obyektlə subyektin vəhdətini özündə təqdim edir. Yəni var bir tərəfdən idrak olunan obyektin, digər tərəfdən idrak edən subyektin iştirakçılığını ifadə edir. Var məkan və zamanın mütləq kiçik ölçülüyündə idrak edilən mücərrəd həqiqətdir. Var eyni vaxtda həm düşünən mənin, həm də düşünülməsi mümkün olanın vəhdətini özündə təqdim edir. Bununla, Var – bütün başlanğıcların başlanğıcı kimi çıxış edir, hansı ki sonrakı başlanğıclar müxtəlif varlıq formaları kimi – ilkin başlanğıcdan fərqlənən və ondan yaranan başlanğıclar kimi təzahür edir. Var bütün başlanğıcların bir vahid başlanğıcı kimi çıxış etdiyindən və Allah ideyası idrakın sonuncu mütləq ideyası olduğundan, idrakın mütləq sonu və yaranışın mütləq başlanğıcı kimi Allah özü-özündə "Var"dır. Digər bütün varlıqlar – istər təfəkkürdə yaranan noumenlər və ya təbiətdə mövcud olan fenomenlər onun tərəfindən yaradılmışdır, hər şey onunla bağlıdır və buna görə də biz idrak etdiyimiz istənilən şeyi "var"dır kimi idrak edirik. "Vardır" – varlığın (mövcudluğun) Var-a (Allaha) münasibətini özündə ifadə edir. "Allah vardır" ifadəsindəki "vardır" feli "Var"ın varlığı yaratmasını ifadə edir. Biz idrak prosesində idrakın baş tutmasını da eyni fellə ifadə edirik. Məsələn, "İnsan vardır", "kitab vardır" və s.

Haşiyə: *M. Haydeqqer*, "Varlıq və Zaman"

"Predmet olmayan və heç vaxt predmet olmayacaq və bunlardan dərhal Nəsənin özü, həm də "boş", o "var"mıdır? sual kimi qalır."

M. Haydeqqerin fikirlərindən görünür ki, o, var noumenini imkansız mümkünlük – yəni predmet olmayan və heç vaxt predmet olmayacaq və nəsənin özü və ondan kənarda həm də predmetsiz boş anlayış kimi aşkarlanan varın təbiətinin sual kimi qaldığını qəbul edir. Beləliklə, əgər "sual varsa cavab da var" prinsipindən yanaşsaq, onda "o varmıdır" sualına "o var kimi vardır" kimi cavab vermək lazım gəlir. Yəni O, Allah – Xalis Vardır.

Xalis Var – istənilən idrak obyektinin ən ümumi başlanğıcı olub onlarla yalnız reflektiv əlaqədədir, buna görə də nə varlıqdan, nə yoxluqdan, nə də heçlikdən Allah bilavasitə müəyyənlik kimi aşkarlanmır. Var noumeni varolmanın elə kiçik vahididir ki, bir tərəfdən predmet deyil və heç vaxt predmet olmayacaq, amma idrakda xalis həqiqət kimi refleksiya olunur. Belə ki, mücərrəd varın təfəkkürdə nə obrazı, nə ideyası, nə təsəvvürü yoxdur. Var yalnız Yoxun inkarı kimi elə-belə idrak olunur. Yoxdan uzaqlaşdıqca var varlığa çevrilərək müəyyənləşir, bilavasitəlik əldə edir və bununla da sonra konkret predmetə çevrilir. Var özü-özündə mütləq qeyri-müəyyənlikdir, çünki ixtiyari varlığı müəyyənləşdirir; mütləqdir, çünki ondan kənarda yalnız heçlik mövcuddur.

Hissi idrakın və ya başlanğıc idrakın mütləq tərəfləri kimi obyekt və subyekt çıxış edir. Obyektsiz nə subyekt hissi qavraya bilir, nə də subyektsiz obyekt hissi qavranılır. Obyektlə subyektin hər ikisinin hissi idrakda bərabərhüquqlu iştirakçılığının zərurəti "Var" noumeni ilə ifadə olunur. Yəni, həm obyekt, həm subyekt var olanda varlığın idrakı aktuallaşır. Başqa sözlə, hər hansı bir şeyin varlığını təsdiq etmək eyni anda həm obyektin, həm subyektin idrakda iştirak etdiyini özündə ifadə edir. Belə vəhdət idrakın ikinci mərhələsində qeyri-hissi qavramada da məhz iştirakçılığı müəyyən etmək üçün istifadə olunur. İdrak obyektlə subyektin münasibətinin ən mütləq səviyyəsindən başlanır, hansı ki subyekt də, obyekt də zərurətə görə və bilavasitə mövcud olur. Yəni, hər hansı möv-

cudluğun "düşünən mən"ə ən dəqiq münasibəti VAR-ENS noumeni kimi mövcud olar. Beləliklə, var əlaqə noumeni idrak prosesində iştirakçılığı ifadə edən noumen kimi təyin oluna bilər. "Düşünürəm, mövcudam"ın vəhdəti kimi subyekti – "özü-özündə düşünən" və "başqasını düşünən"in vəhdətini – biz indi və burada nisbi Var kimi təyin edirik.

Haşiyə: *Martin Haydeqqer*, "'Metafizika nədir?'ə giriş"

""Ekzistensiyanın" düzgün anlanılmasından iştirakçılığın "mahiyyəti" düşüncəyə tabe olur, hansı ki onun açıqlığı varlıq özü-özü haqqında bilgi verir və iştirakçılıqda bu varlığın həqiqətinin tükənməsi olmadan əriyir, özünü verir və sürüşür və ya onunla eyni bir metafizik tezisi təşkil edir: istənilən obyektivlik belə subyektivlik keyfiyyətindədir."

Haydeqqerin fikirlərindən göründüyü kimi, o halda obyekt subyektivlik keyfiyyətində çıxış edir ki, onun iştirakçılığında mahiyyəti subyektdə refleksiya olunaraq ona keçsin, yəni subyektə çevrilsin. Obyektivliyin subyektivlik keyfiyyətində çıxış etməsi hər ikisinin burada və indi mövcud iştirakçılığını özündə təqdim edir ki, buradan da var noumeni yaranır. Var nə ayrılıqda obyektə, nə də subyektə aid deyil, yalnız onların vəhdətinə aiddir. Bu vəhdət mütləq vəhdət olub, özündə Allah ideyasının xarakteristikalarından biri kimi çıxış edir.

Başlanğıc idrak noumeni kimi varlıq idrakın sonrakı mərhələlərində idraka istər hissi, istər qeyri-hissi yolla təqdim edilənlərin müəyyənləşməsi üçün istifadə edildiyindən Var Mütləq Müəyyənliyi özündə təqdim edir. İdrak prosesində subyektlə obyektin münasibəti məkan və zamanla fərqli şərtləndiklərindən keçicidir. Təbiətdən kənarda – metafizikada bütün mövcudluqların mahiyyəti ilə xalis zəkanın mümkün varlığının münasibəti əbədi və daimidir. Biz, bu vəhdəti özündə ifadə edən başlanğıcların başlanğıcını metafizik olaraq Mütləq Varlıq kimi təyin edirik. Beləliklə bütün mövcudluqların varlığı Mütləq Varlığa münasibətlə müəyyənləşir. Beləliklə, deyə bilərik ki, Xalis Var Allahı özündə təqdim edən noumendir, hansı ki varlıq kimi xarakterizə edilə bilən hər növ varlığın (mahiyyətin, mümkünlüyün, mövcudluğun və ideyanın varlığının) Allah-

la əlaqəsini özündə təqdim edir. Hər şey yalnız Vara görə varlıq olduğundan, Var yeganə mütləq həqiqəti özündə təqdim edir.

2. Var-lığın qeyri-mövcudluğu – Yox, NOENS: Əgər Allah Mütləq Var-dırsa, onda ondan istisna olunan mütləq nisbi həqiqətə malik hər nəsə Yox-dur. Mütləq Həqiqətin refleksiyası nəticəsində yeni keyfiyyətli həqiqət – reflektiv həqiqət və ya mütləq nisbi həqiqət meydana çıxır. Mütləq nisbi həqiqəti ifadə edən noumeni biz Yox kimi təyin edirik. Beləliklə, Yox noumenini – Allah noumenində istisna olunan həqiqətlərin başlanğıcı kimi təyin etmək lazım gəlir. Yox özündə Allahdan ayrılmanı, qopmanı, ondan uzaqlaşmanı, ondan kənarda olmaqlığı, ondan fərqlənməni, ona münasibətdə ikincili olmaqlığı, ondan aşağı səviyyəliliyi, pis keyfiyyətliliyi, sonranı, nəticəni və s. özündə ifadə edir. Allahdan ayrılanı, çıxanı biz onun **Nuru** kimi təyin edirik. Nur – metafizik işıqdır. Təbii işıq Nurun reflektiv varlığıdır, ona görə də işığın təbiətindən Nurun təbiətini anlamaq mümkündür. Məlum olduğu kimi, təbii işıq ikili təbiətli – bir tərəfdən dalğa, digər tərəfdən hissəcik kimi reallıqdır. Təbii işığın ikitəbiətliliyi metafizik xarakteristika kimi metafizik işıqdan əldə edilmişdir.

Haşiyə: *F. Şelling*, "Dünya ruhu haqqında"

"Təbiət haqqında ali təlimin bilavasitə obyekti yalnız istənilən hərəkətin müsbət başlanğıcıdır, və ya təbiətin birinci gücüdür. Təbiətin birinci gücünün özü, onu aşkarladığı ayrı-ayrı təzahürlərdən xəsisliklə axtaranın nəzərindən gizlənir. Hər bir sistemdə mərkəzdən ucqarlara gedən materiya – yəni işıq, elə güc və sürətlə hərəkət edir ki, bəziləri hətta materiya ilə ümumi xüsusiyyətləri, inertliyə malik olmadığından onun materiallığına şübhə etmişdir. Ancaq, böyük ehtimalla, biz işığı onun inkişafından bilirik, hər şeydən dəqiq, o işıq keyfiyyətində bizim gözümüzə toxuna bilər yalnız bu keyfiyyətində, bu vəziyyətində başlanğıc hərəkətdir. Amma istənilən inkişaf və materiyanın qurulması özünəxas hərəkətlə müşahidə olunur. İşıq o təəccüblü dərəcədə sürətlə hərəkət edir, buna baxmayaraq, hərəkəti bizim qavrayışımıza əlçatmaz olan istənilən başqa ma-

teriya kimi az və ya çox inertdir. İşığın hərəkəti istənilən materiyaya elə-belə xas olan başlanğıc hərəkətdir və onunla fərqlənir ki, materiya özünün daimi vəziyyətinə çatdıqda bu hərəkət minimal sürətə malik olur, hansı ki işıq da əgər başlanğıc gücü ümumi məqama gəlsəydi, çata bilərdi. Hərəkəti bilavasitə oyandıran və saxlayan təbiətin ümumi gücünün fenomeni, işıqdır."

F. Şellinqin fikirlərindən görünür ki, o işığı bir tərəfdən ucqarlara gedən materiya, digər tərəfdən başlanğıc hərəkət kimi təsəvvür edir. Əgər, fəlsəfədə ümumi qəbul edildiyi kimi hərəkət materiyanın mövcudluq üsuludursa, onda işıq özü-özündə özü-özünün mövcudluq üsulu olan materiyanın elə bir xüsusi formasıdır ki, mövcudluq üsulu özündə olmayan materiya ilə əlaqəsində həm özünün, həm kənar materiyanın mövcudluğunu hissi qavranılan edir. İşıq şüası digər şüalardan onunla fərqlənir ki, o sonsuz yayılma cəhdindədir, amma mənbəyi özündə olmadığından əbədi deyil, mənbə ilə şərtlənmişdir. İşığın məkan-zaman asılılığında məkanla zamanın xarakteristikalarının belə fərqliliyinə görə, başqa hərəkətlərdən fərqli olaraq işığın hərəkət sürəti zamanın istənilən kəsimində eynidir. Yəni işığın sürəti sonsuz olaraq özündəndir. Xarici heç bir şərt işığın məkanda yayılma sürətinə təsir etmir. Halbuki digər istənilən formalı hərəkətlər xarici şərtlərdən asılı sürətə malik olur. İşığın özündə öz hərəkətinin sonsuzluğunu saxlamasına və özündən xaricə sonsuzluğa yayılma cəhdinə görə işığı sonsuzluğun mövcudolma üsulu kimi təyin edə bilərik. İşığın sonsuzluğadək yayılması sonsuz məkanı tutma cəhdidir, hansı ki digər materiyalar işıq təbiətindən məhrum olduqlarından, məkanda sonlu yer tuturlar. Metafizika sonlu məkandan sonsuz məkana, vaxtdan zamanın sonsuzluğuna keçid etməklə bilgi əldə edir. Sonsuzluq metafizik xarakteristika olduğundan biz işığı metafizik təbiətə malik reallıq kimi şərh edə bilərik. Metafizika fərdi şeyin sərhədlərindən kənarda aşkarlanan həqiqətləri öyrəndiyindən, işıq şeylərin həqiqətini onların sərhədlərindən çıxarıb insanın görməsinə ötürdüyünə görə də metafizikdir. Forma necə hərəkətdən yaranır? İstənilən sonsuz hərəkət sonlu hərəkətə keçməklə for-

ma yaradır. Forma daxildə işığın saxlandığı və onun sonsuzadək bilavasitə şüalanmasının qarşısını alır, nəticədə materiyanın başlanğıc işığı adi işıqdan fərqli olaraq həm müxtəlif dalğalar şəklində – təzahürlərin yaranmasında iştirak edir, həm də həmin dalğalar işıq sürətindən qat-qat zəif hərəkət edir. Nəticədə dayanıqlı, görünən materiya meydana çıxır.

Nur təbii işıqdan bir neçə keyfiyyətinə görə fərqlənir. Nur mənbəyi özündə olan işıq kimi mövcuddur və buna görə əbədidir. Nuru biz xalis səbəb kimi təyin edirik, hansı ki başlanğıcla birlikdə yaranışı təşkil edir. Metafizik işığın təbii işıqdan ikinci fərqi ikitəbiətliliyində müxtəlif mümkünlüklər kimi çıxış etmə imkanıdır. Nurun ikili təbiətinin refleksiyası ilə ayrılıqda ilkin məkan və zaman yaranır, hansı ki təbiətdə vəhdətdə reallıqların mövcudluq şərti kimi çıxış edirlər. Nurun hissəcik təbiəti – məkanın başlanğıcını, dalğa təbiəti (yəni hərəkəti) – zamanın başlanğıcını təşkil edir. Mənbəyi özündə olduğundan Nur müstəqil özü-özündə mövcudluğu mütləq faktı yaradır. Mütləq fakt özünün təşkilində iştirak edən məkan və zamanla şərtlənərək mövcudolma əldə edir, yəni aktuallaşır.

Haşiyə: *F. Şelling*, "Dünya ruhu haqqında"

"Qurulma mənim anlamımda səbəb və nəticə axınının öz hərəkətindən dayanmasıdır. O yerdə ki, təbiət onu dayandırmır, o axmaqda davam edir."

İşıq özü-özünün səbəbi – daxili sonsuzluğa malik olduğundan və nəticəsi sonsuzluğa qədər yayılma cəhdində olduğundan təbiət işığın hərəkətini dayandırmır, ona görə işıq materiyanın digər formalarına xas heç bir təzahürə malik olmur və bununla yanaşı onların istənilən təzahüründə iştirak edir.

Hissi idrakla qavranılmayan hər şeyi özündə təqdim edən ən ümumi anlayış Yoxdur. Bu söz iki mənada işlənir.

Birinci mənası, sifət kimi hər hansı əvvəl olmuş şeyin indi ya məkana, ya zamana, ya da hər ikisinə görə olmadığı mənasını verir. Belə Yoxluq – mövcudluğun məkan-zaman əlaqəsinin pozulması, yəni dalğanın ifrat qısalmış hissəsinin öz əvvəlki uzunluğuna qayıtması nəticəsində Var-

lığın təcrübə sahəsindən – idrak prosesindən çıxmasıdır. Yoxluqla Varlığın ruhla əlaqəsi, güzgü ilə güzgüdə əks olunan obyektin əlaqəsinə uyğundur. Belə ki, obyekt güzgünün qarşısında olanda güzgüdə əks olunur (yəni var olur), güzgünün qarşısından çəkildikdə güzgüdə əks olunmur (yəni güzgüdə yox olur), amma özündə var olur.

İkinci mənası, əvvəl olmamış amma özündə olmaq potensialı saxlayan mənasını ifadə edir. Bu mənada, Yoxluq anlayışı özündə *Spinozanın* "mövcud ola biləni" – yəni mümkünlüyün varlığını təqdim edir. Belə Yoxluq özündə xalis ideyadır. Yəni özündə konkret ideya haqqında məlumat daşıyan dalğanın entropiyaya məruz qalmamış vəziyyətidir.

Yoxluğun Nəsəyə münasibəti metafizik ideyaların yaradılmasında müstəsna əhəmiyyət kəsb edir. Beləliklə sual belədir: **Yox əvvəldir, yoxsa Nəsə?** Yəni əvvəl Nəsə, sonra Yox və ya əvvəl Yox, sonra Nəsə gəlir?

İdrak – "mən düşünürəm, deməli, varam"dan başladığından, əvvəl var aşkarlanır. Var düşünən mənin immanentliyidir. Nəsə vardan əvvəl ondan kənar transsendental şeydir, onun üçün qeyri-müəyyəndir. Vardan sonra varın bilgisidir, yəni müəyyənliyidir. Əgər Nəsə Vardan sonra olsaydı, Nəsə olmazdı, yəni o müəyyənlik olardı. Yox vardan sonra yaranan və kənar varın ruhda olan əksiliyidir, hansı ki kənar şeylərdə daxildə olan yoxla tutuşdurmaqla inkara cəlb olunur. Deməli, Nəsə vardan əvvəl, Yox vardan sonra yarandığından **Nəsə yoxdan əvvəldir**. Nəsə yoxdan əvvəl olduğundan, Yox yalnız özündən sonraya münasibət kimi meydana çıxdığından, Nəsəyə münasibətdə ola bilməz. Yəni Nəsənin yoxluğu yoxdur. Tutaq ki, var – düşünən mən yoxdur. Onda öz-özündə Yoxla Nəsənin arasında aşağıdakı üç cür münasibət ola bilər:

1. **Yox Nəsədən əvvəl gələn başlanğıcdır:** Yox özündən əvvələ münasibəti aşkarladığından, özündən sonra özü olduğundan, özü-özündən çıxa bilməz. Əgər yox əvvəldirsə, onda özündən sonraya, özü-özündən çıxa bilmədiyindən münasibətdə ola bilməz, onda ümumiyyətlə idrak mümkün olmazdı. Bunun əksini qəbul etsək, onda yox Nəsəni

təyin edə bilər, ona görə də deyə bilərik ki, Nəsə yoxdur. Onda gərək Yoxun var olduğunu qəbul edək, onda da yox yox olur.

2. **Nəsə Yoxla eyni paralel başlanğıcdır:** Əgər Nəsə Yoxla paralel mövcuddursa, onda Yox Nəsəni, Nəsə isə Yoxu qarşılıqlı inkar etdiyindən, heç biri olmazdı. Bir halda ki, hər ikisi var, onda onların paralel başlanğıc olması mümkün deyil.
3. **Nəsə Yoxdan əvvəl başlanğıcdır:** Bu o deməkdir ki, yox özündən əvvəlki Nəsəni təyin edə bilməz. Yəni Nəsə mütləq vardır. Əgər Nəsə yoxdan sonradırsa, onda yoxun heç bir mənası olmur, çünki yox nəyisə müəyyən edən noumendir. Buradan da deyə bilərik ki, Yox nəsədən sonra mövcuddur və onun nəsəni müəyyən etməsi nisbidir, ikincilidir, dəqiq deyildir. *M. Haydeqqer* də belə hesab edir ki, "Nəsə ilkin başlanğıcdır, nəinki Yox və inkar." Yoxun Nəsəyə görə ikincili olmasını belə bir fakt da sübut edir ki, Yox idrakın daxildə yaratdığıdır, amma Nəsə xaricidir.

İnsan Yoxun inkarı kimi Varı axtarır və tapır. Əgər Yox Nəsəni inkar etmirsə, onda insan necə Nəsəni axtarır? Əksinə Yoxun inkarı kimi onu axtarmadığından sadəcə Varın totallığı kimi özü-özündə onu aşkarlayır. Eləcə də idrak prosesində təfəkkürdə refleksiya edən hər şeyi biz varlıq kimi, təfəkkürdə refleksiya etməyənləri yoxluq kimi dəyərləndiririk. **Üç cür yoxluq aşkarlamaq olar:**

a) Məkanda yoxluq: Obyekt-subyekt münasibətində olanın məkanla şərtlənməsinin pozulmasından yaranan yoxluq. Məsələn, "burada" olan məkanda öz yerini dəyişməklə "buradan yox olur". Cisimlərin yerlə şərtlənməsindən azad olmasından məkanda yoxluq təzahür edir. Belə yoxluq cisimlər üçün xarakterikdir.

b) Zamanda yoxluq: Obyekt-subyekt münasibətində olanın zamanla şərtlənməsinin pozulmasından yaranan yoxluq. Dünən olan bu gün yoxdur və ya bu gün olmayan sabah vardır. Belə yoxluq canlılar üçün xarakterikdir və canlıların zamanla şərtlənmədən azad olmasından təzahür edir. Canlılar müəyyən vaxtda varlıq kimi təfəkkürdə refleksiya olunur, məhv

olduqdan sonra yoxluğa çevrilərək bir daha təkrar təfəkkürdə refleksiya olunmaq imkanından məhrum olurlar.

c) Paralel məkan və zamanda yoxluq: Obyekt-subyekt münasibətində olanın zaman-məkan şərtlənməsinin paralel pozulmasından – paralel olaraq məkan və zamanla şərtlənmədən azad olmaqdan – yaranan yoxluq. Bura mümkün varlığın – ruhun yoxluğunu aid etmək olar. Yəni ruh paralel olaraq məkan və zamanla bilavasitə şərtlənmədiyindən biz onu "yoxluq" kimi dərk edirik. Məkan və zamanda yoxluq təfəkkürdə özü-özündə refleksiya edən varlıqdır. Buna görə də, ruhun varlığı təcrübədən kənar abstraksiya ilə aşkarlanır. Yoxluğun birinci iki forması təcrübə sahəsində subyektə münasibətdə məkan və zaman şərtlərinin dəyişilməsi ilə aydınlaşan həqiqəti xarakterizə edir, belə yoxluq şərti yoxluqdur.

Yoxluq – mövcud varlıqda vəhdət təşkil edən forma ilə substansiyanın eyni vaxtda inkarıdır. Məsələn, insan öldükdə o fiziki cismə çevrilir. Yəni onun bədəninin həm forması dağılır, həm də bədəni təşkil edən üzvi və qeyri-üzvi şey cisim dünyasının tabe olduğu qanunauyğunluqlara tabe olur. Beləliklə, "yaranışda varlıq yoxluqdan yaranıb" fikri onu bildirir ki, mövcud varlıqda aydınlaşan həqiqət onu tam inkar edəndən yaranıb. Bu baxımdan, biz yoxluğu gizli mənaya malik metafizik anlayış kimi təyin edirik. Məsələn, Na və Cl atomları iki müstəqil, xüsusi keyfiyyətlərə malik mövcudluqdur. Onlar bir-biri ilə birləşib NaCl əmələ gətirdikdə, NaCl yeni mahiyyət və forma kimi həm Cl-un, həm də Na-nın müstəqil forma və mahiyyətini özündə inkar edir. Xörək duzunda Na və Cl atomlarının mahiyyətləri yox olur. NaCl parçalandıqda yenidən, yoxluqdan hər biri öz müstəqil forma və mahiyyətini əldə edərək aktuallaşır. Beləliklə, yoxluq heçlikdən fərqli olaraq varlıqla dönər əlaqədədir. Buna görə də, varlıq yoxluğa çevrilə və əksinə, yoxluq varlığa çevrilə bilir. Yoxluğun varlığa çevrilməsi özündə həqiqətin aydınlaşmasının artma meylini, varlığın yoxluğa çevrilməsi azalma meylini özündə təqdim edir. Təfəkkür yalnız bir-biri ilə əksilik təşkil edən həqiqətləri aşkarlaya bildiyindən, həqiqətin

bu vəziyyəti – əksiliklərin ziddiyyət təşkil etmədiyi vəziyyəti ilə bağlı məlumatlar təfəkkürdə aşkarlanmır. Yoxluğu biz əksilmə anlayışı ilə, varlığı artma anlayışı ilə ifadə etsək, onda biz yaranışın başlanğıcını artma və əksilmənin mütləq vəhdət təşkil etdiyi vəziyyət adlandıra bilərik. Başqa sözlə, biz bu vəziyyətə həm yoxluq vəziyyəti və eyni zamanda da varlıq vəziyyəti deyə bilərik. Həqiqətin artma meyli nəticə, azalma meyli səbəblə sonuclandığından yaranışın başlanğıcı özü-özündə həm səbəb, həm də nəticədir.

Mütləq nisbi həqiqət mütləq həqiqətdən fərqli olaraq özündə ikililik xarakteristikası daşıyır. Buradan da mütləq nisbi həqiqətin iki başlanğıcını ifadə edən noumen meydana çıxır:

1. Aydınlaşan həqiqətin başlanğıc noumeni – VARLIQ: Aydınlaşan həqiqət subyektin iştirakı olmadan özü-özündə olan həqiqətdir (burada olmaq – var olmaqlığı və mövcud olmaqlığı istisna edən olmaqlığı özündə ifadə edir). Belə həqiqətlə subyektin heç bir ideyası vəhdət təşkil etmir. Biz bunu **xalis obyektiv ideya** adlandırırıq. Xalis obyektiv ideyanın başlanğıc noumeni Nurdan yaranan Varlıqdır. Varlığın Nurdan yaranması metafizik işığın özünün hər iki təbiətini eyni vaxtda paralel təzahür etdirməsi ilə (işığın ikili təbiətində onun təbiətləri ardıcıl təzahür edir, nəticədə işıq bir təbiətində özü-özündə digər təbiətini istisna edir) baş verir. Nəticədə, həm dalğa, həm hissəcik təbiətlərinin vəhdəti meydana çıxır, hansı ki dalğa təbiəti – mahiyyətin, hissəcik təbiəti – maddi formanın başlanğıcını təşkil edir.

2. Xalis aşkarlanan həqiqətin başlanğıc noumeni – Ruh: Obyektin iştirakı olmadan təfəkkürün özü-özündə aydınlaşan həqiqəti biz xalis aşkarlanan həqiqət adlandırırıq. İdrak prosesinin tabe olduğu qanunauyğunluqlar özündə məhz xalis aşkarlanan həqiqətlərdən ibarətdir. Aşkarlanan həqiqət – aşkarlanma kimi aydınlaşan həqiqətdən ibarətdir. Biz aşkarlanan həqiqətin başlanğıc noumenini Ruh kimi təyin edirik. Ruh – Nurun yalnız bir təbiətini – dalğa təbiətini özündə təzahür etdirən həqiqətin başlanğıc noumeni kimi çıxış edir. Ruhda Nurun digər təbiəti – hissəcik təbi-

əti iştirak etmədiyindən, o, bilavasitəlilikdən və hissi qavranılmadan məhrumdur. Beləliklə, metafizikanın statusunu özündə ifadə edən noumenlərdən biri də Ruhdur. Metafizik noumen kimi Ruh dini şüurda aşkarlanan Ruhdan fərqli mənada Varlığın əksiliyi kimi, onunla vəhdətdə olan başa düşülməlidir. Beləliklə Varlığa aid xarakteristikaların əksiliyi ilə təsəvvür olunanı biz Ruh anlayışı ilə ifadə edirik. Metafizika Varlığın daxili görüntüsünü Ruhun daxili görüntüsündən aşkarlayır. Beləliklə, metafizika üçün həm Varlıq, həm Ruh eyni zamanda bir-birinə münasibətdə həm səbəb, həm də nəticə kimi meydana çıxır. Yəni, varlıq Ruhun səbəbi və öz növbəsində də Ruhun nəticəsi, eləcə də Ruh Varlığın səbəbi öz növbəsində də onun nəticəsidir.

Aydınlaşan həqiqətlə aşkarlanan həqiqət idrak prosesində vəhdət təşkil edir və biz bu vəhdətin təbiətindən başlanğıcların başlanğıcı olan noumen haqqında ideyaya malik oluruq. Aşkarlanan həqiqət başqasını düşünən, aydınlaşan həqiqət özü-özünü düşünən kimi müəyyənlikdir. Başqasını düşünənlə özü-özünü düşünənin vəhdəti düşünən mən – subyekt kimi meydana çıxır. Subyekt özünün başqasını düşünən tərəfinin totallığından Allahın varlığı haqqında ideyanı əldə edir, hansı ki yaradıcı kimi bütün mövcud olan, mövcudluğu mümkün olan və mümkün olmayanların məcmusunun ideyasını düşünür və bu düşüncə, onun düşündükləri ondan əvvəl mövcud olmadığından, yaratmaq kimi meydana çıxır. İnsan isə düşünən mən kimi yalnız yaranışa münasibətdə özündən əvvəl olanları düşünmə imkanına malik olduğundan, onun düşüncəsi idrak kimi meydana çıxır. İnsanın özündən sonranı düşünə bilməməsini onun ölümlə bağlı təcrübə əldə edə bilməməsi də sübut edir. Beləliklə, Allah düşünəndə yaradır, subyekt düşünəndə idrak edir, yəni Allahın yaratdığı fikirləri ideya kimi özündə aşkarlayır. Buradan da, Allahın birinci metafizik təyinini alırıq: **Allah – "var"dır.** Qalan hər şey varlıqdır, yəni var ediləndir.

Ruh düşünülənin totallığından **Kosmosu** – bütün mövcudluqların totallığını əldə edir. Nəticədə, Kosmos mövcudluqların ən ümumi başlanğıcı kimi meydana çıxır. Ümumi şəkildə Kosmos Allahın son reflektiv me-

tafizik təzahürüdür. Beləliklə, metafizik statuslu obyektin Ali anlayışlarından biri kimi Kosmosu təyin edə bilərik.

NİSBİ METAFİZİK STATUSLU OBYEKTİV GERÇƏKLİKLƏR

Metafizika fizika ilə hansısa möhkəm sərhədlə ayrılmadığından metafizikanın bəzi predmetləri təbiətə daxil olur və ondan obyektiv üsullarla aşkarlanır; biz onları transsendental noumenlər kimi təyin edirik. Digər tərəfdən, insan təbiətdə süni təbiət yaradır, hansı ki süni təbiət özü metafizikanın bir forması kimi mövcuddur və süni təbiəti təşkil edən hər şey özlüyündə nisbi metafizik statuslu obyektiv gerçəkliklər kimi mövcuddur. Biz nisbi metafizik statuslu obyektlərə o obyektləri aid edirik ki, özü-özündə reallıq statusuna malikdir, amma özlərində subyektin bilavasitə iştirakı ilə metafizik statusa malik olurlar. Belə obyektlər təcrübə sferasında saxlanılsa da, təbii obyektlər kimi çıxış etmirlər.

Nisbi metafizik statuslu obyektiv gerçəkliklər iki qrupa ayrılır. Birinci qrupa təbii metafizik təbiətli obyektiv gerçəkliklər, ikinci qrupa süni metafizik təbiətli obyektiv gerçəkliklər aiddir.

A. Təbii metafizik təbiətli obyektiv gerçəkliklər:

1. **İki və daha çox təbiətli obyektiv gerçəkliklər – Təbii işıq:** Obyektiv gerçəkliklərin tabe olduğu əsas qanunauyğunluq hər bir şeyin təktəbiətli olması, yəni eyni vaxtda yalnız zərurətə görə bir qanunauyğunluğa tabe olması, yalnız özünü təzahür etdirməsi, cüt kateqoriyalarla idrak olunması, hissi qavranılan olmasıdır. Bu tələblərə cavab verməyən təbii şeylər özlərində metafizik təbiəti təzahür etdirən obyektiv gerçəkliklər kimi mövcuddur. Bunun klassik nümunəsi təbii işıqdır. Təbii işığın təsadüfə görə ikitəbiətlidir, yəni bir şərtdə hissəcik təbiətli, digər şərtdə dalğa təbiətlidir. İşıq yalnız özünü yox, başqa şeylərin xarici görüntüsünü təzahür etdirir və bu zaman özü-özünü təzahür etdirən xarici vasitəyə malik olmur. İşıq kateqoriyalarla idrak olunmur. Belə ki, işığın məkan-zaman şərti yoxdur, yəni məkanda və zamanda əbədi şey kimi mövcud deyil.

İşıq özü xalis nəticədir, özünün heç bir səbəbi yoxdur. İşıq mənbədən asılı olduğundan şərti obyektiv gerçəklikdir.

2. **Canlılar:** Canlılar da işıq kimi obyektiv gerçəkliklərin tabe olduğu qanunlara tabe olmur. Canlılıq – yoxdan vara, vardan yoxa keçid edən metafizik təbiətli obyektiv gerçəkliklər kimi mövcuddur. Canlılıq birtərəfli qaydada zamandan çoxparametrli asılılıqdadır və zamanla şərtlənmiş gerçəklik kimi mövcuddurlar.
3. **Kosmik dalğalar:** Kosmosa yayılan, mənbəyi və mahiyyəti məlum olmayan, təbiətdə elmə məlum olan hər hansı bir dalğa ilə ümumi keyfiyyətə malik olmayan kosmik dalğaları da metafizik mahiyyətli obyektiv gerçəklik kimi təyin etmək olar. Kosmik dalğaların metafizik təbiəti onların qeyri-müəyyənliyi və digər dalğalarla vəhdət təşkil etməməsi ilə bağlıdır.

B. Süni metafizik təbiətli obyektiv gerçəkliklər:

Bu qrupa o gerçəkliklər aiddir ki, onların əsası təbii olsa da, özləri təbiətlə vəhdət təşkil etməyən təbiətə malikdirlər; başqa sözlə, təbii şeylərin tabe olduğu ən ümumi qanunlara tabe olmurlar. Belə gerçəkliklər özlərində olan ikincili mümkünlüklərinin xüsusi imkanda aktuallaşması kimi meydana çıxır, hansı ki həmin imkanlar təbii olmayıb subyekt tərəfindən ruhun müdaxiləsi ilə yaranır. Belə gerçəkliklərin təbiəti özündə həm obyektiv, həm subyektiv mahiyyət daşıyır. Bu qrupa aşağıdakıları aid etmək olar:

1. **Süni radioaktiv maddələr:** Təbiətdə bilavasitə və müstəqil şəkildə mövcud olmayan, yalnız müəyyən proseslərdə zamanla şərtlənmiş şəkildə mövcud olan və mahiyyətləri fikrən aşkarlanan maddələri biz süni radioaktiv maddələr adlandırırıq. Süni radioaktiv maddələr mövcudluğuna görə təcrübə sferasına aid olsalar da, faktlarına görə metafizikdirlər, yəni təbiətdən kənardırlar. Bəzi süni radioaktiv maddələr yalnız insanın iştirakı ilə radioaktiv parçalanma zamanı zamanın çox qısa anında mövcud olur və dərhal da itir, yox olur.

2. **Sintetik maddələr:** Sintetik maddələr təbii maddələrin zərurətə görə aktuallaşmış imkanını dəyişdirməklə onun digər mümkünlüyünün aktuallaşması ilə meydana çıxır. Başqa sözlə, sintetika şeylərin potensial mümkünlükdə aktual mümkünlüyə keçidi özündə təqdim edir.
3. **Maşın texnikası:** Maşın texnikası təbiətdəki proses və mexanizmlərin təbiətdən kənara çıxarıb, texniki vasitələrlə təkrarlamağı özündə təqdim edir.

Haşiyə: *M. Haydeqqer*, "Dünya mənzərəsinin dövrü"

"Metafizikada mövcudluğun mövcudolmasının düşünülməsi baş verir və həqiqətin mövcudolması haqqında qərar çıxarılır. Metafizika, mövcudluğun şərhi və mahiyyətli obrazının əsasını qoymaqla həqiqətin müəyyən dərk edilməsi ilə təyin olunan dövrün əsasında durur. Bu əsasa dövrü fərqləndirən bütün təzahürlər hökmlü olaraq nüfuz edir. Yeni dövrün əhəmiyyətli təzahürü onun elmi, bərabər təzahürlərin ranqına görə əhəmiyyətli olan – maşın texnikası xasdır. Maşın texnikasının özü təcrübənin, təcrübənin riyazi təbiətşünaslığı tətbiqini tələb etməyə başladığı, müstəqil şəkildəyişilməsidir. Maşın texnikası, Yeni Avropa metafizikasının mövcudluğu ilə eyniyyət təşkil edən Yeni Avropa texnikasının bu günə qədər gözə ən çox dəyən qazanılma mövcudluqdur."

M. Haydeqqerin fikirlərindən görünür ki, hər bir tarixi dövrdə həqiqətin dərk edilməsinə uyğun yaranan bütün yeniliklər özündə metafizik təbiəti təqdim etməklə həmin dövrün əsasına nüfuz edirlər. Belə metafizik yeniliklərdən ən mühümü müasir dövrün əsasını zəbt etmiş maşın texnikasıdır. Maşın texnikası təbii proseslərin ondan çıxarılıb süni vasitələrə keçirilməsi ilə yaranmışdır. Beləliklə, hər bir maşın bir tərəfdən təbiətdə mövcud şey kimi təbiidir, digər tərəfdən özünə təbii xas olmayan keyfiyyətlər nümayiş etdirdiyindən metafizikdir. Maşının özündə nümayiş etdirdiyi metafiziklik ruhun metafizikliyidir, hansı ki insan həqiqətin aşkarlanması, onun xarici obyektiv gerçəkliklərə proyeksiyalaşdırılması ilə təbii mövcudluqdan süni mövcudluğa köçürməsini nümayiş etdirir.

4. **Robotlar və kompüterlər:** Müasir dövrün əsasına nüfuz edən əsas yenilik kompüter və robotlardır. Maşın texnikasından fərqli olaraq, robot və kompüter insanın özü-özünün ruhi funksiyalarını təbii mövcudluqlara köçürməsi ilə meydana çıxır. Maşın texnikasında yalnız bədənin funksiyaları köçürülürsə, kompüter və robotlara insanın ruhi təbiəti köçürülür, beləliklə ikiqat metafizik təbiətli varlıqlar meydana çıxır. İkiqat və ya mürəkkəb metafizik mövcudluqlar maşın texnikasına ruhi funksiyaların köçürülməsi ilə meydana çıxan mürəkkəb metafizik mövcudluqlardır.
5. **Sənət əsərləri:** Yalnız insanın məqsədyönlü fəaliyyəti nəticəsində meydana çıxan gerçəklikləri biz sənət əsərləri adlandırırıq. Sənət əsərləri özündə insanın həm təbii funksiyası, həm ruhi qabiliyyəti, həm də obyektiv gerçəkliyin materialının vəhdətində meydana çıxır. Beləliklə, təbiətdə avtonom və spontan əmələ gəlmədiyindən və yalnız insan tərəfindən yaradıldığından (yaranma isə metafizik sferaya xas olduğundan), biz istənilən sənət əsərini metafizik təbiətli obyektiv gerçəklik kimi təyin edirik.

EKSPERİMENTAL METAFİZİKA

Eksperimental metafizika dedikdə biz, fikrən təcrübədən metafizik obyektlərin yaradılmasını nəzərdə tuturuq. Eksperimental metafizika özündə mövcud reallıqlardan başqa reallıqların yaradılmasını, yəni metafizik obyektlərdən mümkün alternativ predmetlərin yaradılmasını təqdim edir. Biz kimyada maddələr üzərində təcrübə apararkən katalizatorlardan istifadə edirik. Bu zaman adi şərtlərdə alınmayan maddələr alınır. Bunu metafizikaya köçürsək, onda metafizik obyektlərə xalis zəkanın iştirakı ilə fərqli reallıqlar ala bilərik, hansı ki kvant fizikasının müəyyən etdiyi "müşahidəçi (katalizator kimi) müşahidə olunana (əməlgəlmə prosesində olana) təsir edir" prinsipinə uyğun baş verir. *Fritjof Kapra* (Fritof Capra) yazır:

"Kvant nəzəriyyəsinin vacib ideyası – müşahidəçi yalnız subatom fenomenlərin xüsusiyyətlərini müşahidə etmək üçün yox, həm də bu xüsusiyyətlərin aşkarlanmasını məcbur etmək üçün lazımdır." Beləliklə metafizikada metafizik yalnız öyrənmir, həm də yaradır. İlk dəfə müşahidəçinin müşahidəyə təsiri ilə bağlı fikirlər Nils Bor və onun həmfikirləri tərəfindən Kopenhagendə verilib və buna görə də "Kopenhagen interpretasiyası" adlanır.

Eksperimental metafizika dalğa funksiyasının hissəciyə keçərkən yalnız bir hissəcik yox, fərqli hissəciklər yaratmasına əsaslanır, yəni maddiliyin bir yox, bir neçə alternativ əsası mövcuddur. İlk dəfə fizik *Hyu Everett* (Hugh *Everett*) belə bir ideya vermişdir ki:

"dalğa funksiyalarının 'əlləşməsi'nin (kvant ölçülməsinin) yerinə yetirərkən bir yeganə nəticə vermir, hissəciyə transformasiyanın bütün mümkün nəticələrini verir. Bu prosesdə Kainatlar 'çoxalır', ölçmənin mümkün nəticələri qədər 'versiyalar' yaradılır."

Buradan da alimlər belə nəticəyə gəlirlər ki, sonsuz sayda paralel Kainatlar vardır, hansı ki orada bütün mümkün kvant ehtimallar həyata keçir. Əgər elm kvant fizikasının mümkün variantları əsasında yeni maddi əsas yarada bilsə, insan yeni eksperimental Kainatların yaradıcısına çevriləcək.

METAFİZİK İDEYALAR

"Xüsusi Metafizika: Allah, Varlıq, Kosmos və Ruhun İyerarxiyası"

Metafizik statuslu obyektləri təsvir, təsəvvür və şərh edən anlayışlar **metafizik ideyalar** kimi mövcuddur. "İdeya" fəlsəfədə idrak obyektlərinin statusuna uyğun olaraq müxtəlif mənalarda işlədilir və biz idrak obyektlərinin statusuna uyğun ideyanın üç mənasını ayırd edə bilərik:

1. **Reallıq statuslu obyektlərin ideyası:** Sadəlövh realizmə görə, belə ideya şüurda hissi predmetlərin inikası kimi əmələ gələn hissi obrazı özündə təqdim edir.
2. **Metafizik statuslu obyektlərin ideyası:** Subyektiv idealizmə görə, belə ideyalara şeylərin subyektin duyğularına və təəssüratına və yaxud aləmi yaradan yaradıcı başlanğıca müncər edilən mənanı özündə ifadə edən ideyalar aiddir.
3. **İrreallıq statusuna malik olan obyektlərin ideyası (İdeyasızlıq):** Şeylərdən və subyektin özü-özündən alınmayan, yalnız xalis formanın refleksiyası ilə təsəvvürsüz obrazların əmələ gəlməsi ilə meydana çıxır. Beləliklə, ideya yaratmaq imkanına malik olmamaq irreallıq statusuna aid ideyasızlığı özündə təqdim edir.

Biz **metafizik ideya** dedikdə subyektiv idealizmin ideya anlayışına uyğun mənanı nəzərdə tuturuq. Yəni, metafizik ideyalar təbii və metafizik aləmi yaradan yaradıcı başlanğıca, reallıqların yarandığı Varlığa, subyektə və reallıqların ən ümumi məcmusuna – Kosmosa müncər edilən mənanı özündə ifadə edir.

Haşiyə: *Aristotel*, "Metafizika"

"İdeyalara aid nəzəriyyə, bütün hissi şeylərin daimi olaraq axıcı, qeyri-sabit, qərarsız olduğuna əsaslanan, şeylərin həqiqətinə görə Heraklit görüşlərinə keçməsi nəticəsində onu ifadə edən deyimdən alınmışdır: ona görə də, əgər bilik və ağıllı fikir hansısa predmetə malik olacaq-

sa, onda başqa reallıq – hissi reallıqların sərhədlərindən kənarda olan dayanıqlı reallıq mövcud olmalıdır; qeyri-sabit şeylərdə bilik olmur. Yalnız Sokrat şeylərin ümumi tərəfləri ilə ayrılmış mövcudluğu təsvir və həm də təyin etməmişdir; bununla yanaşı ideya nəzəriyyəsinin tərəfdarları bu tərəfləri ayırmış və buna uyğun reallığı ideya adlandırmışlar, belə ki, onlarda bir və eyni mühakimənin əsasında belə alınmışdır ki, ümumi bildirilənlə verilən bütün şeylərdə ideya vardır. Əsl həqiqətdə, ideya demək olar ki, tək-tək hissi şeylərdən çox mövcud olur, hansı ki onlar səbəb axtarmışlar, bu yolla şeydən ideyaya gəlmişlər: belə ki, hər bir növ üçün və çoxluğa aid olan birliyin mahiyyətindən başqa, bütün başqaları üçün – buradakı və əbədi şeylərin nahiyəsində nəsə eyniadlılıq vardır."

Aristotelin ideya nəzəriyyəsi ilə bağlı fikirlərindən görünür ki, ideya:

1. Axıcı və qərarsız şeylərin axıcı olmayan, sabit və qərarlı tərəfidir.
2. İdeya hissi reallıqların sərhədlərindən kənardadır.
3. Tək-tək şeylərdən çox olanda, buradakı və əbədi şeylərin nahiyəsində olur.

Sabit və qərarlı tərəf şeyin mahiyyəti, qərarsız və dəyişən tərəf şeyin formasıdır. Məsələn, hər hansı bir şeyin xarici görüntüsünün, aqreqat halının dəyişilməsi həmin şeyin mahiyyətini dəyişmir. Buradan da biz ideyanı **mahiyyətin varlığı** kimi təyin edirik. İkincisi, ideya hissi qavrayışdan kənardır, yəni təfəkkürün özü-özündə qeyri-hissi qavrayışla aşkarladığı noumenlərdir. Nəhayət, ideya əbədi şeylərin nahiyəsindədir, hansı ki əbədilik əvvəlki fəsildə qeyd etdiyimiz kimi, metafizik statuslu obyektlərin ümumi xarakteristikasına daxil olur. Buradan da, ideyanı metafizik statuslu obyekt kimi təyin edirik. Beləliklə, metafizik ideya ilə metafizik statuslu obyekt eynilik təşkil edir.

Haşiyə: *Corc Berkli*, "İnsan biliyinin prinsipləri haqqında traktat"

"Belə bir fikir vardır ki, guya ağıl şeylər haqqında mücərrəd ideyalar və ya anlayışlar yaratmaq qabiliyyətinə malikdir. Xüsusi olaraq məntiq və metafizika adlanan və ümumiyyətlə ən mücərrəd hesab edilən və biliyin yüksək sahəsi olan bütün elmlərin predmetini təşkil edir."

C. Berklinin fikirlərindən görünür ki, metafizika ağlın yaratdığı mücərrəd ideyaların özlərində təqdim etdiyi həqiqətlər haqqında bilgiləri öyrənir. Ağlın yaratmaq qabiliyyəti əsasında istənilən ideyanı metafizik ideya kimi qəbul etmək olmaz. O mücərrəd ideyalar metafizik ideyalar hesab edilməlidir ki, o ideyalar metafizikanı təbiətə əks qoymur, əksinə, təbiətin idrakında zəruri olan başlanğıc və səbəblər haqqında bilgiləri özlərində təqdim edir. Əgər metafizik ideyalar bu keyfiyyətdən məhrum olarsa, onda belə ideyalar xurafatdan başqa heç bir şeyi özlərində ifadə etməzlər.

Metafizik ideyalar iki səviyyədə bir-birinə əksilik təşkil edən ideyalar kimi aşkarlanır. Birincisi, fərdi əbədi şeyin əksiliyi kimi tək əbədi Ruh; ikincisi, bütün Kainatın – Kosmosun əksiliyi kimi onu yaradan Allah. Ona görə də, bir metafizik ideya başqa metafizik ideyanı özündə inkar edir. Buradan da, əgər fərdi əbədi şey və onların təşkil etdiyi Kainat haqqında empirik ideyaları aşkarlayırıqsa, onda Allahın və Ruhun inkarına çatırıq; yox əgər Allahın və Ruhun metafizik ideyalarını aşkarlayırıqsa, onda Kainatın və əbədi fərdi şeyin empirik ideyalarının inkarına gəlib çıxırıq. Metafizik ideyalarla empirik ideyaların qarşılıqlı inkar vəziyyətində olması metafizika ilə fizikanın idrak üsullarının bir-birindən fərqindən meydana çıxır.

Haşiyə: *İ. Kant*, "Xalis zəkanın tənqidi"

"Ağlı təzahürlərin obyektiv sintezinə tətbiq etdikdə insan ağlının yeni fenomeni ilə, məhz tamamilə təbii antitetika ilə üzləşirik, hansı ki toru önniyyətli olaraq ağlın yoluna qoymaq lazım gəlmir, belə ki, o özü-özündə və qaçılmaz olaraq ona düşür."

İ. Kantın bu fikirləri də sübut edir ki, obyektiv gerçəkliyin idrakında ağıl antitetikaya – Allahın varlığını sübut edən doqmatik dini həqiqətlərə – əks nəticəyə gəlib çıxır. Yəni, obyektiv gerçəkliklərin idrakı Allahın varlığını inkar edir. Eləcə də metafizik statuslu obyektlərin idrak prosesində isə ağıl **antifizika** – təbiətin (obyektiv gerçəkliklərin) mövcudluğunun inkarı ilə üzləşir.

Bəs ağıl hansı səbəbdən özü-özündə qaçılmaz olaraq belə bir vəziyyətə düşür? Biz Ruh haqqında şərhimizdə "düşünən mən"i özündə çoxluq saxlamayan təklik kimi təyin etmişdik. Əgər belədirsə, onda eyni bir tək şeyin bir-birinə əks olan iki ideyanın həqiqiliyinə inanması mümkün deyildir. Buradan iki variant meydana çıxır:

- **Birincisi:** Bir ideya düz qəbul edildikdə, digəri spontan olaraq heç bir sübut tələb etmədən avtomatik özü-özündə inkar olunur.
- **İkincisi:** Hər iki ideya eyni vaxtda səhv və ya düz qəbul edildikdə, *İ. Kantın* təbirincə ağıl evtanaziyaya – özü-özünü "öldürməyə" məruz qalır, hansı ki "*birtərəfli görüntü ilə xəyal edilən inamlılığı və ümidsiz skeptisizm və ya doqmatik inadkarlığı qəbul etmək – hər ikisi sağlam fəlsəfənin ölməsini bildirir, hansı ki birinci hadisəni xalis ağlın evtanaziyası adlandırmaq olar"*.

Amma bu antinomiya – qanunların ziddiyyəti, xalis metafizik ideyalarda avtomatik özü-özünə itir, çünki xalis metafizika xalis təsadüfə görə mütləq xaosun ideyalarını aşkarlayır, hansı ki hər bir ideya yalnız özünəxas qanunlarla digər ideyalardan təcrid olunmuş şəkildə idrak olunur. Yəni, Kainatda hökm sürən bir-biri ilə vəhdətdə mövcud olmaq prinsipi, xalis metafizikada öz yerini **birgə var olmağa** verir; hansı ki birinci təzahürlərlə, ikinci metafizik noumenlərlə idrak olunur. Sadəcə metafizika özünün noumenlərinin bir qrupunu təcrübədə təzahürlərin vəhdətindən sintez edir. Belə noumenlər təbiətdən alınsa da təbiəti idrak etməyə kömək etmir, çünki fərdi əbədi şeyi ixtisara salır.

Metafizikanın yuxarıda ayırd etdiyimiz dörd əsas metafizik obyektinin hər birinin ayrılıqda bir ideya kimi öyrənilməsi metafizikanın bölmələrini təşkil edir. Bura, *Hegelin* təsnifatına uyğun aşağıdakılar aiddir:

1. **Varlığın abstrakt təyini – Ontologiya:** *Hegel* ontologiyanı "mövcudluqların abstrakt təyini haqqında təlim" kimi təyin etmişdir. Beləliklə, ontologiya mövcudluqlar haqqında bilginin abstrakt formada təfəkkürün özü-özündən aşkarlaması nəticəsində meydana çıxır. Bu bölmə Varlıq haqqında təsəvvürlərdən ibarətdir. On-

tologiya varlığın qeyri-mövcudluğu haqqında bilgilərdən ibarətdir. Biz bu bölməni Allahın Varlığa münasibəti haqqında bilgilər kimi təsəvvür edirik. Belə münasibət mütləq nisbi həqiqəti özündə təqdim edir.

2. **Kosmologiya:** Mövcudluqlar aləmi haqqında təsəvvürlərdən ibarət bölmə. *Hegel* kosmologiyanı – "təbiəti, ruhu onların xarici dolaşıqlığını, onların təzahürlərini predmet kimi götürən və nəticədə, ümumiyyətcə mövcud varlığı, sonuncunun məcmusunu öz predmeti edən" metafizikanın bölməsi kimi təyin edir. Biz bunu mövcudluqların bir-birinə münasibəti kimi müəyyən edirik. Mövcudluqların bir-birinə münasibəti ümumi qanunları, yəni təbiət qanunlarını – nisbi həqiqəti təşkil edir.
3. **Pnevmatologiya və ya Rasional Psixologiya:** *Hegel* pnevmatologiyanı "bəzi şeylər kimi ruhun metafizik təbiətinə baxış kimi" təyin etmişdir. Ruhun metafizik təbiətinə baxış, ruhu bəzi şeylər kimi qəbul etmək – ruh haqqında təsəvvürlərdən ibarət bilgilərdən ibarətdir. Buradan da, şeyə aid predikatlar ruha aid edilir, ruh şeylərlə eyniləşdirilir. Biz bunu Ruhun materiyaya münasibəti haqqında bilgi kimi təsəvvür edirik.
4. **Rasional və ya Təbii Teologiya:** Allah haqqında metafizik təsəvvürlərdən ibarət bölmə. *Hegel* bu bölməni "Allah anlayışına və ya onun mümkünlüyünə, onun mövcud varlığının sübutuna və onun xüsusiyyətlərinə" baxan bölmə kimi təyin edir. Biz bunu Ruhun Allaha münasibəti kimi müəyyən edirik.

Allahın özünün özünə münasibəti mütləq həqiqəti təşkil edir, hansı ki insan idrakı üçün mümkünsüzlükdür. İdrak prosesi Allahda başa çatdığından insana heç bir halda Allahın həqiqəti – mütləq həqiqət məlum olmur və ola da bilməz.

Biz də bu kitabda *Hegelin* təsnifatına uyğun bölmələr üzrə metafizikanı şərh edirik. Metafizikanın xüsusi bölməsini təşkil edən ideyaların hansı ardıcıllıqla verilməsi mühüm əhəmiyyətə malikdir. Çünki metafizik

ideyalar iyerarxiya təşkil edir və bu iyerarxiyada əvvəl gələn ideya özündən sonrakının şərhi üçün əsas yaradır.

Haşiyə: *Plotin*, "Üç birinci başlanğıc və ya substansiya haqqında"

"Allahın gücünü və təbiətini düşünmək vəziyyətində olmayan insana kim ki kömək etmək istəyir, yəni onun fikirlərini əks tərəfə istiqamətləndirmək və onu ali, tək və birinci başlanğıca gətirmək istəyir, o gərək birincisi, o, onların belə yüksək qiymətləndirdikləri şeylərin hamısının heçliyini göstərsin; ikincisi, onlara ruhun yüksək ləyaqətini və mənşəyini xatırlatsın. İkinci punkt birincidən əvvəl gəlməlidir, belə ki, izah olunan kimi, o birincini də işığa çıxaracaq. Buna görə də biz tədqiqatları ondan başlayacağıq, ona görə ki, hər şeydən əvvəl ondan o ali başlanğıca çatmaq mümkündür ki, ona ruhdan başqa heç kim çatmaq istəmir, hansı ki bundan ötəri hər şeydən əvvəl özü-özünü başa düşməlidir, o ən alini idrak və seyr qabiliyyətinə malikdirmi və nəhayət ona belə tədqiqatın verilməsi yerində və ədəblidirmi."

Plotinin şərhindən görünür ki, Allah ideyasına (bu ideyaya çatmaq istəyən və ya yalnız onun buna qabiliyyəti çatan) Ruhun təbiətindən çatmaq olar. Ruhun təbiətinə isə onunla əksilik təşkil edən şeyin təbiətindən çatmaq olar. Şeyin təbiətinə çatmaq üçün isə hər şeydən əvvəl özü-özünü dərk etmək lazım gəlir. Beləliklə, Allah ideyasını aşkarlamaq üçün birbiri ilə vəhdət təşkil edən üç təkdən birindən digərinə keçməklə çatmaq olar. Bunun üçün, birinci tək şey və ya onun totallığı kimi Kainatın metafizikasını şərh etmək, sonra onun əksiliyi kimi Ruhun totallığını aşkarlamaq, daha sonra Ruhun təbiətindən Ali metafizik varlıq kimi Allah ideyasını aşkarlayırıq.

Bu istiqamətdə mühakimələrin inkişafı göstərir ki, varlıq Kosmosun əsasını təşkil etdiyi kimi, Ruhun təbiəti də Allah ideyasının əsasını təşkil edir. Başqa sözlə, Allah ideyası Ruhun totallığı haqqında bilgilərdən ibarət olmalıdır. Bizim məqsədimiz yalnız Allah ideyasını yox, bütünlükdə ən ümumi şəkildə metafizikanı şərh etmək olduğundan, biz *Plotindən*

fərqli ardıcıllıqla metafizik ideyaların şərh edilməsini düzgün hesab edirik. Metafizikanın bölmələrinin ardıcıllığında iki yol seçə bilərik:

1. **Həqiqətin idrakına uyğun gələn yol:** Bu yolla əvvəl pnevmatologiya, sonra kosmologiya, sonra ontologiya, daha sonra pozitiv teologiya bölmələri verilməlidir.
2. **Yaranışa uyğun gələn yol:** Bu yola uyğun əvvəl rasional teologiya, sonra ontologiya, daha sonra kosmologiya, nəhayət pnevmatologiya şərh edilə bilər.

Biz yaranışa uyğun metafizik ideyaların şərhini düzgün hesab edirik, çünki əgər metafizik ideyaların iyerarxiyasında hər bir ideya özündən sonrakını izah etməyə əsas verirsə, onda Allah ideyası izah edilməz olduğundan, ondan əvvəl heç bir ideyanın verilməsi düzgün olmaz. Beləliklə, bizə görə ilk öncə rasional teologiya haqqında şərhlər verilməlidir. Beləliklə, metafizikanın xüsusi bölməsində metafizik ideyaların şərhinə uyğun bölmələrin aşağıdakı ardıcıllıqla verilməsi məqsədəuyğundur: **rasional teologiya, ontologiya, kosmologiya və pnevmatologiya.**

Biz metafizikanın xüsusi hissəsinin sonunda ayrı-ayrı idrak formalarından metafizik bilgilərin əldə edilmə yolları haqqında şərh veririk. Bu bölməni **Birincili fəlsəfə** adlandırırıq. Biz *Hegeldən* fərqli olaraq birincili fəlsəfənin də metafizikanın xüsusi bölməsi kimi şərh edilməsini düzgün hesab edirik. Buna görə də, burada birincili fəlsəfə xüsusi metafizikanın müstəqil **beşinci bölməsi** kimi təqdim olunur; hansı ki düşüncə instrumenti olan sözün çoxmənalılıqdan onun birinci, yəni metafizik mənasını aşkarlamağa imkan verir.

İDRAKIN METAFİZİKASI

HƏQİQƏT

Varlığın İlahi istəyə uyğunluğunu biz onun həqiqəti kimi təyin edirik. Yəni hər hansı bir idrak obyekti mümkünlüyün varlığının mövcudluq tələbində İlahi İradədən verilən şərtlərlə nə dərəcədə mövcud olursa, o, bir o qədər özündə aydın həqiqət aydınlaşdırır. Beləliklə, aydınlıq həqiqətin aydınlaşma xarakteristikası kimi çıxış edir. İnsanın yaratdığı heç bir süni varlıqda həqiqət aşkarlamaq mümkün deyil. Məsələn, daş insan heykəlində həmin heykəldəki obrazın həqiqəti – ideyası daşda yoxdur.

Həqiqətin meyarı təfəkkürdə refleksiya imkanıdır, yəni onun idrakının aşkarlanmasının mümkünlüyüdür. Buradan da, ruhun nə dərəcədə İlahi istəyi özündə refleksiya etməsi həqiqətin ikinci bir kriteriyasını – dəqiqliyini özündə ifadə edir. Beləliklə, həqiqət həqiqiliyi aydınlaşmada aydınlıqla, aşkarlanmada dəqiqliklə müəyyən edilən olur. Həqiqətin İlahi istəyə uyğunluğu onun aydınlaşması və aşkarlanması ilə müəyyən olunur. Həqiqətin aydınlaşması mövcudluğun mümkünlüyü, reallığı; həqiqətin aşkarlanması onun gerçəkliyidir.

Beləliklə, bütünlükdə həqiqət mümkünlük, imkan və gerçəkliyin şərtlərindən dərk edilə bilər. Həqiqətin aşkarlanması məna kimi meydana çıxır. Məna – mövcudluqdakı İlahi istəyin təfəkkürdə refleksiyası ilə ruhdakı İlahi istəyə çevrilməsidir.

MÜMKÜNLÜK

Həqiqət aydınlığına və dəqiqliyinə görə aydınlaşmadan aşkarlandığından, adi (elə-belə) mümkünlükləri aydınlaşmaya, aşkarlanmaya və həm aydınlaşmaya, həm də aşkarlanmaya görə üç qrupa bölə bilərik. Beləliklə, aydınlaşma və aşkarlanma mümkünlüyü olmayan heç bir şey həqiqi gerçəklik ola bilməz.

A. Aydınlaşmaya görə mümkünlüklər:

- **Məkanda mümkünlük:** Hər bir mövcudluq özündən kənar məkanda təkrarlanmaqla xarici çoxluq yaradaraq aktuallaşır. Kosmosda tək kimi mövcudluq mümkünsüzlükdür. Tək kimi mövcudluq yalnız fikrən götürülə bilər ki, bu da konkret mövcudluğun mücərrədləşdirilməsi ilə mümkün olur. Tək faktın xarici çoxluq yaratmasından məkanla şərtlənmə meydana çıxır. Buradan da, məkanın ən kiçik ölçüsünü faktın iki özündən kənar xarici təkrarlanması arasındakı məsafə kimi təyin etmək olar. Məkan bir tərəfdən birincili məkan kimi ölçülülük, digər tərəfdən ikincili məkan kimi maddiliyin şərtlərinin məcmusundan ibarətdir. Ölçülülük – məkanın məhdudlaşmasından meydana çıxır. Konkret ölçülərə malik olmayan mövcudluq mümkünsüzlükdür. Maddilik bilavasitəliyin və obyektivliyin əsasını təşkil edir. Qeyri-maddi olan bilavasitəliyə və obyektivliyə malik ola bilməz. Buradan da, hər hansı mövcud varlıq qeyri-maddi və ölçüsüz ola bilməz. Məkanla şərtlənmə mövcudluğun həm birincili, həm də ikincili məkan şərtlərini özündə saxladığını ifadə edir.
- **Səbəbə görə mümkünlük (Faktın mümkünlüyü):** Mövcud varlıq son nəticə kimi faktın aktuallaşmasında meydana çıxdığından, özündə həm mövcudluğa, həm də mövcudolmaya xas şərtlər saxlayır. Yalnız mövcudluğun şərtləri İlahi İradə tərəfindən metafizikada mümkünlüyün varlığının mövcudluq tələbinə verildiyindən, özündə başlanğıc və ya əvvəl kimi meydana çıxır. Əvvəlsiz son olmadığından, hər hansı mövcud varlıq nəticə kimi əvvəl olan səbəbsiz mövcud olmur. Beləliklə, səbəbə görə mümkünlük mövcud varlığın mövcudluq şərtlərini özündə ifadə edir.
- **Cəmə görə mümkünlük (Konkretliyin mümkünlüyü):** Hər bir mövcudluq Kosmosda məkanda təkrarlanmaqla, yəni çoxluq yaratmaqla və digər mövcudluqlarla vəhdətdə mövcud ola bilir ki, bu da onların hər birinin cəmə görə mümkünlüyüdür. Cəmə görə mümkünlük bilavasitəlik və obyektivliyin şərtlərini özündə ifadə edir, hansı ki ikisi birlikdə faktiki götürülən obyektin konkretliyini təqdim edir.

Cəm çoxluğun xarakteristikası olduğundan, çoxluq təşkil etməyən heç bir mövcudluq Kosmosda mövcud ola bilməz.

- **Hissəyə görə mümkünlük:** Kosmosda hissəsi olmayan mütləq tam mövcud olmur, ona görə də mövcudolma hissəyə görə mümkün olur. Hissəsiz mütləq tam xalis mücərrədlik kimi yalnız fikrən təsəvvürə gətirilə bilər.
- **Hissi qavranılmaya görə mümkünlük (Refleksiyaya görə mümkünlük):** Faktdan törəyən ideyalar hissi qavrama ilə refleksiya nəticəsində əldə edilir. Bütün maddi şeylər hissi qavranılan idrak obyektləri kimi mövcuddur və onların mövcudluğu hissi qavranılmaya görə mümkünlük kimi çıxış edir. Refleksiya etməyən heç bir mövcudluğun həqiqəti idrak olunmur. Buradan da, refleksiyaya görə mümkünlük hissi qavramaya görə mümkünlüyü özündə ifadə edir.

B. Aşkarlanmaya görə mümkünlüklər:

- **Zamanda mümkünlük:** Hər bir mövcud varlıq zamanla şərtlənmişdir. Zamanla şərtlənmə faktın özü-özünü özündə təkrarlaması kimi meydana çıxır. Zamanın ən kiçik vahidi andır. Biz anı, sadəcə (elə-belə), özündə təkrarlanan faktın ən az sayı – iki təkrar arasındakı məsafə kimi təyin edirik. Anların məcmusu zamanı təşkil etməklə faktın özündə sonsuz sayda təkrarlanmasını ifadə edir. Özü-özündə təkrarlanmasız fakt aktuallaşmaya daxil olmur. Faktın özünü özündə təkrarlamaması metafizik hadisədir və özündə özünü təkrarlamayan fakt mücərrəd olub, yalnız fikrən təsəvvürə gətiriləndir. Yəni, zamana malik olmayan mövcudluq mümkünsüzlükdür. Buradan da, zamanda mümkünlüyü konkretliyin səbəbi kimi də təyin etmək olar. Zaman həm də idrak prosesinin şərtidir. Yəni hər hansı bir həqiqətin dərki bəlli zamanla şərtlənmişdir. Həqiqətin dərkinin zamanla şərtlənməsi faktı təfəkkürdə refleksiya etməklə onu özündə təkrarlamaqdan, saxlamaqdan ibarətdir. Beləliklə, idrakın zamanı mövcudluğun zamanının əksiliyi kimi meydana çıxır. Yəni faktda saxlanan zaman refleksiya edərək təfəkkürə keçir və idraki prosesə çevirir. Proses dəyişilmə-

lərin ardıcıllığından ibarətdir. Buradan da idrak anı ən az saylı iki dəyişilmənin – həqiqətin dəqiqləşdirilməsi arasındakı məsafə kimi meydana çıxır. Zamansız idrak prosesi mümkünsüzlükdür. Mövcudluqlardan həqiqətin aydınlaşması və onların həqiqətinin təfəkkürdə aşkarlanması zamanda mümkünlük kimi təzahür edir.

- **Nəticəyə görə mümkünlük (Aktın mümkünlüyü):** Mövcudluğun aktuallaşmasının nəticəsi mövcudolma kimi meydana çıxır. Buradan da, biz mövcudolmanın şərtlərini nəticəyə görə mümkünlük kimi təyin edirik. Kosmos səbəbin inkişaf edib nəticədə başa çatması ilə meydana çıxır. Bütün mövcud varlıqlar öz mahiyyətlərinin – səbəblərinin son nəticəsi kimi mövcud olurlar.
- **Təkə görə mümkünlük (Mücərrədliyin mümkünlüyü):** Hər bir mövcudluq özü-özündə fakt kimi tək mövcuddur. Kosmosda hər hansı bir mövcud varlığın idrakı fikrən onun tək kimi götürülməsi ilə mümkün olur. Buradan da, mövcudluğun təkə görə mümkünlüyü onun mücərrədliyinin şərtləri kimi meydana çıxır. Mücərrədləşdirilməsi mümkün olmayan mövcud varlıq mümkünsüzlükdür.
- **Tama görə mümkünlük:** İdrak prosesində hər bir hissə tam kimi idraka cəlb olunur. Buradan da, tama görə mümkünlük idrakın şərti kimi meydana çıxır. Tama görə mümkünlük özündə mücərrədliyin mümkünlüyüdür, hansı ki mütləq tam yalnız metafizikadan aşkarlana bilər.
- **Düşünülməyə görə mümkünlük (İdeyaların assosiasiyasına görə mümkünlük):** Faktdan törəyən ideyalar əsasında ağıldan törəyən ideyaların meydana çıxmasını biz düşünməyə görə mümkünlük kimi təyin edirik. Buradan məlum olur ki, ayrı-ayrılıqda müstəqil şəkildə nə faktdan, nə aktdan törəyən ideyaların meydana çıxması mümkünsüzlükdür. Düşünməyə görə mümkünlük mövcud varlığın təfəkkürdə refleksiyasında faktdan törəyən ideyaların ağıldan törəyən ideyalarla assosiasiya təşkil etməsini özündə ifadə edir. Ağıldan törəyən ideyalarla assosiasiya təşkil etməyən faktdan törəyən ideyaların idrakı

mümkünsüzlükdür. Biz aşkarlanmaya görə mümkünlüklərin məcmusunu mücərrədlik kimi təyin edirik.

C. Həm aydınlaşmaya, həm də aşkarlanmaya görə mümkünlük:

- **Məkan və zamanda mümkünlük:** Mövcud varlıqlar ölçülü və maddilik xarakteristikası almaq üçün metafizik təbiətdən – əbədilik və sonsuzluqdan fiziki təbiətə – məhdudluğa və zamanlılığa keçməlidirlər. Sonsuzluq məkanın, əbədilik zamanın metafizik xarakteristikaları kimi metafizikadan fizikaya keçiddə bir-biri ilə vəhdət təşkil edirlər. Nəticədə zamanın əbədiliyi məkanın sonsuzluğunu şərtləndirərək onu məhdudlaşdırır və ölçüləndirir; və əksinə, məkanın sonsuzluğu zamanın əbədiliyini vaxta bölərək onu əbədilikdən məhrum edir. Nəticədə, istənilən mövcud varlıq məkan və zaman şərtində mövcud ola bilir. Başqa sözlə, məkan və zaman vəhdətində mövcudluq mövcudolma mümkünlüyü əldə edir.
- **Tək və cəmə görə mümkünlük:** Mövcudolmanın cəmə görə, mövcudluğun təkə görə mümkünlüyünə görə Kosmosun təşkili, yəni faktların aktuallaşması təkə və cəmə görə mümkünlük kimi meydana çıxır. Beləliklə, istənilən mövcud varlıq özündə konkretliyin və mücərrədliyin şərtlərini saxlamasına görə mümkünlük əldə edir. Burada konkretlik həqiqətin aydınlaşmasından, mücərrədlik həqiqətin aşkarlanmasından meydana çıxır.
- **Səbəb və nəticəyə görə mümkünlük (Faktın aktuallaşmasının mümkünlüyü):** Faktın aktuallaşmasında mövcudluqla mövcudolma vəhdətdə meydana çıxır və bu vəhdət özündə səbəb-nəticə əlaqəsini təqdim edir. Səbəb-nəticə əlaqəsi kosmik determinasiya kimi mövcuddur. Determinasiya mövcudolmanın mövcudluqla və əksinə, mövcudluğun mövcudolma ilə şərtlənməsinin zəruriliyini özündə ifadə edir. Buradan da, səbəb-nəticəyə mövcud varlıqların mümkünlüyü kimi çıxış edir.

- **Tam və hissəyə görə mümkünlük:** Kosmosda mövcudolma və mövcudluqdan həqiqətin idrakı vəhdətdə təkə və cəmə görə mümkünlük kimi meydana çıxır.
- **Hissi qavranılma və düşünülməyə görə mümkünlük (İdrak üsullarının vəhdətinin mümkünlüyü):** İdrakın üç əsas üsulu – hissi, demonstrativ və intuitiv idrak üsulları mövcuddur. İdrak bu üsullardan yalnız birinin iştirakı ilə reallaşmır. Başqa sözlə, idrakın reallığı hər üç üsulun vəhdət təşkil etməsinin şərtlərinin məcmusundan ibarətdir. Biz idrak üsullarının müştərək iştirakı ilə həqiqətin aşkarlanmasını idrak üsullarının vəhdətinin mümkünlüyü kimi təyin edirik, hansı ki hissi qavranılmaya və düşünməyə görə mümkünlüklərin məcmusu kimi meydana çıxır.

BAŞLANĞICLAR

Kosmos sonuncu şeylərdən təşkil olunduğundan və idrak prosesi son şeydən başladığından, hər bir sonun başlanğıcı zərurət olur. Buradan da, zərurətə görə başlanğıclar meydana çıxır. Zərurətə görə başlanğıclar o başlanğıclardır ki, onsuz həqiqət aydınlaşmır və ya aşkarlanmır. Eləcə də, aşağıdakı zərurətə görə başlanğıcları ayırd etmək olar:

1. **Mümkünlüyün başlanğıcı:** Mümkünlük özündə İlahi istəyin refleksiyası kimi meydana çıxır. Buradan mümkünlüyün başlanğıcı kimi biz İlahi istəyi – yaradılanın yaradılması bacarığını təyin edə bilərik.
2. **Mövcudluğun başlanğıcı:** Mövcudluq mümkünlüyün varlığının mövcudluq tələbinə İlahi İradədən verilmiş şərtlərdən meydana çıxdığından, mövcudluğun başlanğıcı kimi mümkünlüyün varlığını təyin etmək lazımdır.
3. **Mövcud varlığın başlanğıcı:** Mümkünlüyün varlığının mövcudluq tələbində mövcudluq şərti verilmiş mümkün varlıq metafizikadan Kosmosa keçərək digər mövcudluqlarla xarici vəhdətdə mövcud varlığa çevrilir. Mövcud varlığın iki əsas xarakteristikası vardır: reallığı

(yəni idrakdan asılı olmayan varlığı) bir də gerçəkliyi (idrakdan asılı olan varlığı) vardır.

- **a. Reallığın başlanğıcı:** Hər hansı bir [varlıq] idrakdan asılı olmadan yalnız o halda mövcud varlığa çevrilə bilər ki, özündə daxili zəruri şərtləri olsun. Biz reallığın başlanğıcı kimi mövcudluğun daxili zəruri şərtlərini təyin edirik, hansı ki metafizikada İlahi İradə tərəfindən mümkünlüyün varlığına verilmişdir.
- **b. Gerçəkliyin başlanğıcı:** Mövcud varlıq mövcudluğun başqa varlıqlarla xarici vəhdət təşkil etməsi ilə idrak obyekti statusu alır. Belə status almış mövcud varlıq gerçəklik kimi çıxış edir. Gerçək varlıq bilavasitə təfəkkürdə refleksiya edən real varlıqdan ibarətdir. Buradan da, gerçəklik mövcud varlığın idrakdan asılı varlığıdır, hansı ki idrak xarici şərtlərin məcmusundan reallığı gerçək varlıq kimi idrak edir. Buradan da, gerçəkliyin başlanğıcını təsadüfi şərtlərin məcmusu kimi təyin etmək olar.

4. **Formanın başlanğıcı:** Forma hərəkətin şeydə saxlanmasını özündə təqdim edir. Buradan da, biz formanın başlanğıcı kimi hərəkəti təyin edə bilərik, hansı ki hərəkət varlığın təzahür forması kimi çıxış edir.
5. **Hərəkətin başlanğıcı:** Hərəkət varlığın mövcudluq üsulu kimi çıxış etdiyindən, hər bir mövcudluğun mahiyyəti həmin mövcudluğun hərəkətinin başlanğıcı kimi çıxış edir. Beləliklə, mahiyyət hərəkətlə özünə forma yaradaraq mövcud varlığa çevrilir.
6. **Əksiliklərin başlanğıcı (Başlanğıcların başlanğıcı):** Əksiliklərin başlanğıcı özündə əksilik saxlamayan başlanğıcdır, hansı ki bilavasitə əksiliklərin hər iki tərəfinin eyni dərəcədə başlanğıcı kimi çıxış edir. Bütün yaradılanlar bir-birinə əksilik təşkil etdiyindən, bütün yaradılanların ümumi başlanğıcı əksiliklərin başlanğıcı kimi çıxış edir ki, biz bunu Mütləq Həqiqət və ya İlahi Güc kimi təyin edirik. İlahi Güc özündə əksilik saxlamadığından başlanğıc tələb etmir. Buradan da, əksiliklərin başlanğıcını başlanğıcı olmayan başlanğıc və ya əsas başlanğıc və ya başlanğıcların başlanğıcı kimi təyin edə bilərik.

7. **Əksiliklərin tərəflərinin başlanğıcı:** Başlanğıcların başlanğıcı eyni zamanda bir-biri ilə əksilik təşkil edən iki müstəqil başlanğıcda refleksiya olunur. Bu başlanğıclardan biri özündə emanasiyanı – İlahi Nurun başlanğıcdan uzaqlaşması ilə həqiqətin azalma meylini, digəri bunun əksinə İlahi başlanğıca yaxınlaşma ilə həqiqətin artma meylini özündə ifadə edir. Beləliklə, əksiliklərin bir tərəfinin başlanğıcını neqativlik, digər başlanğıcını pozitivlik kimi təyin edə bilərik. Neqativlik özündə emanasiyanın sonunu – həqiqətin mütləq pisləşməsini – orijinal həqiqəti ifadə edən Kosmosu təqdim edir. Pozitivlik özündə bunun əksinə Kosmosun mücərrədləşdirilməsi ilə əks-emanasiya prosesində – idrak prosesində nisbi həqiqətin mütləq həqiqətə yaxınlaşmasını ifadə edir, hansı ki idrak ruhun atributu olduğundan pozitivlik Kosmosun əksiliyi kimi Formal ruhun başlanğıcı olur. Əslində əksiliklərin bir tərəfi – neqativlik idrak obyektində, digər tərəfi – pozitivlik ruhda olur və təfəkkürdə idrak prosesində gerçəkliyin özündə ziddiyyət saxlayan əksiliyi gerçəklikdən kənarda ruhdan ona daxil edilir və bununla idrak başa çatır. Məsələn, konkret obyekt əgər acıdırsa, onda idrak prosesində acılıq ruhdan mücərrəd şirinliyin ona daxil edilməsi ilə əksilik yaradılır və acı şirinin əksiliyi kimi idrak olunur.
8. **Əksiliklərin bir tərəfinin bir sırasının başlanğıcı:** Neqativliyə malik varlıqlar iki cürdür: cisimlər və canlılar. Buradan da neqativliyin iki sırası – cisim və canlı sıraları meydana çıxır. Cisimlər birincili mövcudluqlar kimi ölçülülüyə və maddiliyə malikdir. Maddilik və ölçülülük birincili və ikincili məkanda meydana çıxır. Buradan da cisimlərin başlanğıcı kimi məkanı təyin etmək olar. Canlı sıralar birincili mövcudluqlarla şərtlənmiş şəkildə dəyişən zəruri şərtlərdən meydana çıxır. Bu cür daxili dəyişilmə zaman duyğusu kimi meydana çıxdığından biz zamanı canlılığın başlanğıcı kimi təyin edirik. Pozitivliyə malik Formal varlıq təkdir. Biz formal ruhun başlanğıcını onun bütün atributlarını şərtləndirən və eyni zamanda Formal Ruhun

"materiyası" kimi çıxış edən xalis zəkanı, yəni ağlı təyin edirik. Ağıl istənilən ruhi təzahürün başlanğıcı kimi çıxış edir.

9. **Eyni zamanda özünün və başqasının başlanğıcı:** Kosmosda mövcud varlıqlar xarici vəhdət təşkil etməklə mövcud olurlar. Buradan da, xarici vəhdətdə hər bir mövcud varlıq eyni zamanda həm özünün, həm də özündə başqasının başlanğıcı kimi çıxış edir. Biz özünün və başqasının eyni zamanda başlanğıcı kimi mövcud varlığın təsadüfi şərtlərinin məcmusunu təyin edirik. Özü və başqası olmadan Kosmosda mövcudolma mümkünsüzlükdür.
10. **Yalnız özünün başlanğıcı:** Hər bir mövcudluq özündə şey kimi özündə başlanğıca malikdir. Özündə şey yalnız fikrən tək kimi götürülən idrak obyektini özünə ifadə edir və buna görə də mücərrədliyə malikdir. Hər bir mövcudluğun özündə başlanğıcı onun mücərrədləşdirilməsindən, yəni idrakından təyin oluna bilər, hansı ki biz bunu şeyin mahiyyəti kimi qavrayırıq. Beləliklə, hər bir ayrılıqda götürülmüş şeyin özündə başlanğıcı həmin şeyin mahiyyəti, yəni orijinal həqiqətidir.

MƏNA

Məna sözü özündə anlayış, mahiyyət, əhəmiyyətlilik kimi ideyaları ifadə edir. Biz məna dedikdə əhəmiyyətli mahiyyət və ya nisbi həqiqəti nəzərdə tuturuq, hansı ki idrak obyektlərindən idrak olunan orijinal həqiqət təfəkkürdə refleksiya prosesində ideyaya çevrilərək həmin şeyin mənası kimi çıxış edir. Buradan da, nisbi həqiqətin aydınlaşması mahiyyət, onun aşkarlanması məna kimi meydana çıxır. Buradan aşağıdakı ideya meydana çıxır: *Məna – mahiyyətin aşkarlanmasının şərtlərinin məcmusundan ibarətdir.*

Məna entropiya olunmuş nisbi həqiqətdir. Nisbi həqiqətin mənaya çevrilməsində entropiya təfəkkürdən əvvəl, təfəkkürdə və təfəkkürdən sonra baş verir. Təfəkkürdən əvvəl nisbi həqiqətin entropiyası xarici *Maksvel* iblislərinin iştirakı ilə – ətraf mühitin və bədənin entropiya me-

xanizmləri ilə reallaşır, hansı ki təsir əks-təsirlə aktuallaşır. Təfəkkürdə entropiya formal ruhla bədənin əlaqələnmə dərəcəsindən – hissi qavramada meydana çıxır, hansı ki bu cür əlaqənin dərəcələnməsindən fiktiv fərdi ruhlar yaranır. Beləliklə, təfəkkürdə entropiya ruhun bədənə, bədənin ruha təsiri ilə baş verir. Nəhayət, təfəkkürdən sonra entropiyanı biz faktdan törəyən ideyaların ağıldan törəyən ideyalarla assosiasiya təşkil etməsində baş verən entropiya kimi təyin edirik, hansı ki əqli əməliyyatlarda meydana çıxır.

Həqiqətin mənaya çevrilməsində entropiya dərəcələrindən asılı olaraq mənanın eləcə də aşağıdakı formalarını ayırd edə bilərik:

- **a. Heç bir idrak üsulu ilə aşkarlanmayan özündə məna (Yoxluq – Pranoumen):** Biz bu cür mənanı Formal Ruhdan kənarda özü-özündə mövcud olan məna kimi təyin edirik, hansı ki heç bir halda təfəkkürdə refleksiya etmir. Biz bu cür mənanı yoxluğun varlığı və ya varlığın mövcudluğu kimi təyin edirik. Allah – qeyri-müəyyənlik – düşünülməyən və hiss edilməyən yoxluğun varlığıdır. Beləliklə, Allah özü-özündə idrakı inkar olunan mütləq mənadır. Mütləq məna hər hansı entropiyaya məruz qalmayan mənadır. Bu o deməkdir ki, Allahın mənası Kosmosa keçməyən, qavranılmayan və əqli mühakimələrlə aşkarlanmayan özündə-həqiqətdir, hansı ki bizim üçün mütləq yoxluqdur. Yoxluq xarakteristikaya münasibətdə yox – inkardır. Yoxluq təsdiqi olmayan, mövcudluğa və idraka münasibətdə sonsuz inkardan ibarətdir.
- **b. Hər üç idrak üsulu ilə aşkarlanması mümkün olan ən ümumi məna – Varlıq (Noumen – Varlığın mövcudluğu):** Biz bunu Düşünən Mənin mənası kimi təyin edirik. Düşünən mən idraka münasibətdə təsdiqə, mövcudluğa münasibətdə inkara malikdir. Yəni Düşünən Mən özünü özündə düşünməsi ilə təsdiqlə, mövcud varlıqları özünün əksiliyindən inkarla, eyni zamanda özü ilə obyektiv gerçəkliklərin əlaqəsindən idrak prosesindən özünüdərketmənin tərəfi kimi aşkarlayır.

- **c. Yalnız intuitiv idrakla qavranılan məna – Varlığın mövcudluğu – Nəsə (Prafenomen – Mövcudluğun yoxluğu – Ruh):** Bura nəsə düşünülən, amma hissi qavranılmayan varlıq aiddir. Belə məna idraka münasibətdə təsdiq, mövcudluğa münasibətdə inkari olan mənadır.
- **d. Yalnız hissi idrakla qavranılan mövcudluğun varlığı – Nə (Fenomen):** Mövcudluğun Varlığı – Kosmos: bura "nə" – hiss edilən, amma nəsə kimi düşünülməsi mümkün olan varlıq (Kosmos) aiddir. Belə məna idraka münasibətdə həm inkari, həm təsdiqi olandır.
- **e. Yalnız demonstrativ idrakla qavranılan gerçəklik – Heç nə:** Demonstrativ idrak intuitiv idrakla idrakı yetərincə olmayan, buna görə də ağıldan törəyən ideyalarla vəhdətdə idrak olunan məna aiddir. Buna görə də belə məna həm mövcudluğa, həm idraka münasibətdə nə inkari, nə təsdiqi olandır.

ŞƏRTLƏNMƏK

Metafizika həqiqəti şərtlərdən idrak üsulu ilə aşkarlayır. Şərt sözü özündə bir şeyin var olması, həyata keçməsi üçün lazım olan amillər; əsas, zəmin, qarşılıqlı əlaqəli tərəflərin qarşı tərəfə irəli sürdüyü tələb, tərəflərin öhdəliklərini müəyyənləşdirən müddəa, uzlaşma, bağlaşma və s. mənalarını verir. Biz şərti vəhdətin zəmini kimi təyin edirik, hansı ki vəhdətdənkənar heçlikdir. Buradan da nə, nəsə, varlıq, yoxluq şərtlə idrak oluna bilər. Kosmosun zəmini metafizikada olduğundan metafizika bütünlükdə zəmin kimi təyin oluna bilər. Metafizika bir zəmin kimi Kosmosun mövcudluğu üçün onun üzərinə öhdəlik qoymaqla onu şərtləndirir. Yəni əsası metafizik olmayan heç bir kosmik həyata keçmə, var olma mümkünsüzlükdür.

Şərtləndirmənin aşağıdakı formalarını aid edə bilərik:

- **a. Öz-özünə öhdəlik qoyma (İlahi istəyə uyğun olma – Həqiqət):** Həqiqətin öz-özünə öhdəlik qoyması bilavasitə İlahi İradə ilə reallaşır. Buradan mümkünlüyün varlığının mövcudluq tələbi meydana çıxır. Varlığı yoxluqdan fərqləndirən şərt həqiqətin İlahi istəyə uyğun

olmasıdır, hansı ki ruh tərəfindən aşkarlanır. Buradan da, idrakı heç bir halda və heç vaxt mümkün olmayanların kosmik həyata keçməsi mümkünsüzlükdür.

- **b. Obyektə öhdəlik qoyma – Aydınlaşma:** Həqiqət Kosmosda konkret obyektdən aydınlaşa bildiyindən həqiqət obyekt tələb edir. Obyektə öhdəliyi mahiyyət qoyur, hansı ki formadan aydınlaşmanı tələb edir. Buradan mövcudluğun mahiyyətinin forma tələbi meydana çıxır. Mövcudluq həqiqətə şərtlənir, hansı ki mövcudluq özündə ona uyğun forma yaratsın.
- **c. Təfəkkürə öhdəlik qoyma – Aşkarlanma:** Təfəkkürə öhdəliyi obyekt qoyur, hansı ki özündən aydınlaşdırdığı həqiqətin hissi qavrama ilə aşkarlanmasını tələb edir. Buradan fəaliyyətin əsər tələbi meydana çıxır. *Kemp Smit* [?]: "Obyekti subyektdən fərqləndirən xarakterik cizgi ondan ibarətdir ki, bizim şüurumuza onun haqqında müəyyən obrazlar düşünmək öhdəliyi qoyur".

Beləliklə, mümkünlüyün şərtləri – varlığı, imkanın şərtləri – mövcudluğu, gerçəkliyin şərtləri – təfəkkürü müəyyən edir.

MÖVCUD VARLIĞIN ŞƏRTLƏRİ

Mövcud varlıq mövcudluqla və mövcudolmanın vəhdətindən həyata keçir. Burada həyata keçmə Kosmosa daxil olma və Kosmosdan aşkarlanmanı özündə ifadə edir. Mövcud varlıqların mövcudluğundan iki cür şərt ayırd etmək olar.

1. **Zəruri şərtlər – Daxili vəhdətin şərtləri:** Bura varlığın özündə saxladığı və buna görə də, bilavasitə tək kimi onun özündən aşkarlanan şərtlər aiddir. Buna görə də, zəruri şərtlər xüsusidir; hər bir mövcud varlıq özünə xas və ona aid şərtlərdə mövcud olur. Belə şərtlərə o şərtlər aiddir ki, onlar varlığın zəminini təşkil edir və həmin şərtlərsiz zəmin yaranmır, yəni varlıq var olmur. Beləliklə, zəruri şərtlər varlığı var edən şərtlərdən ibarətdir. Zəruri şərtlər iki cürdür:

- **a. Sabit zəruri şərtlər:** Sabit zəruri şərtlər yaranmadan meydana çıxır. Sabit zəruri şərtlər arasındakı əlaqə mövcudolmada, həyata keçmədə bir və eyni qalır. Başqa sözlə, sabit zəruri şərtlər sonsuz olaraq mövcud olan məkan şərtləridir. Bura o varlıqlar aiddir ki, zamandan asılı olmayaraq eyni şərtlərdə həyata keçir. Sabit şərtlərdən və funksiyalardan ibarət mövcudluqları biz cisim kimi təyin edirik. Sabitlikdən funksiya meydana çıxır. Cismin funksiyası – təbii gücləri özündə saxlamaqdan ibarətdir. Cisim – həqiqətin başlanğıc saxlanc yeridir. Cisimlər sabit şərtlərin sayı ilə məhdudlaşıb. Cisim yaranma prosesini özündə təqdim edir: əvvəl yaranış, sonra funksiyalaşma. Funksiyanın əsası şeydədir. Eyni anda üç müxtəlif istiqamətdə hərəkətin saxlanmasından cisimlərin forması meydana çıxır.
- **b. Dəyişən zəruri şərtlər:** Dəyişən zəruri şərtlərə o şərtlər aiddir ki, zamandan asılı olaraq həmin şərtlər arasındakı əlaqə dəyişir. Dəyişən zəruri şərtlər əmələgəlmədən aşkarlanır. Dəyişən zəruri şərtlərdən ibarət varlığı biz can kimi təyin edirik. Canlılıq fəaliyyəti kimi təbii gücü bioloji gücə çevirməkdən, dəyişməkdən ibarətdir. Dəyişilmə funksiyanın fəaliyyətlə əvəzlənməsi kimi baş verir. Can həqiqəti təbiətdən ruha ötürəndir. Canlılar əmələgəlmə prosesini özündə təqdim edir. Canlılar dəyişən şərtlərlə hər cür məhdudluqdan azad olur. *(Haşiyə: Pyer Teyyar de Şarden, "İnsan fenomeni" – Öz mənbəyində həyat bizə eyni vaxtda mikroskopik və saysız kimi çıxış edir. Özü-özlüyündə həyatın belə ikili xarakteri bizim üçün gözlənilməz olmamalıdır. Tamamilə təbiidir, materiyadan təzəcə çıxmış həyat hələ onun molekulyar vəziyyətinin parıltısını daşıyır.)* Həyatın eyni vaxtda mikroskopik və saysız olması birincili mövcudluq əsasında müstəqil başlanğıca malik olması ilə bağlıdır. Buradan da mikroskopiklik özündə cisim dünyasının molekulyar qurulmasını, saysızlıq metafizik xarakteristika kimi sonsuzluğu özündə təqdim edir.

2. **Təsadüfi şərtlər – Xarici vəhdətin şərtləri:** Xarici vəhdətin şərtlərini biz təsadüfi şərtlər adlandırırıq. Belə şərtlər ümumidir və buna görə

eyni zamanda hər şeyə aiddir. Ümumi olduğundan təsadüfi şərtlər varlığın var olmasına təsir etmir. Biz bu şərtləri mövcudolmanın şərtləri kimi də təyin edə bilərik. Zəminə aid olmadığından belə şərtlərin dəyişilməsi ilə mövcudluq dəyişmir.

VARLIĞIN MÖVCUDLUĞUNUN ŞƏRTLƏRİ

Mövcud varlığın əksiliyi kimi varlığın mövcudluğu onunla özündə ziddiyyət saxlayan tərəf kimi təyin oluna bilər. Varlığın mövcudluğu ilə mövcudluğun varlığının ziddiyyəti ondan ibarətdir ki, varlığın mövcudluğu metafizikadan Kosmosa keçiddə İlahi İradədən zəruri şərtlər almır, ona görə də onun zəruri şərtləri yoxdur. Zəruri şərtləri olmadığından daxili vəhdəti yoxdur. Daxili vəhdəti olmadığından bilavasitəliyi və obyektivliyi yoxdur. Kosmosa keçdiyindən varlığın mövcudluğu təsadüfi şərtlərə – mövcudolmanın şərtlərinə malik varlıq kimi meydana çıxır. Buradan da varlığın mövcudluğunu mövcudluqsuz mövcudolma kimi təyin etmək olar. Kosmos mövcudluqla mövcudolmanın vəhdətində həyata keçdiyindən, Kosmosa keçmiş varlığın mövcudluğu xalis təsadüfə görə şərtlərlə vəhdət təşkil edən zəruri şərtlər əldə etməyə, yəni mövcudluq əldə etməyə cəhd edir. Buradan da, mövcudluq üçün xarakterik olan daxili vəhdətin şərtləri varlığın mövcud olması üçün xarici vəhdətin şərtləri kimi çıxış edir. Buradan aşağıdakı definisiya meydana çıxır: *Formal Ruh – təsadüfi şərtlərin məcmusunda mövcudolma – xalis fəaliyyət kimi Kosmosa keçərək mövcud varlıqlarla təsadüfi şərtlərdən özünə zəruri şərtlər əldə edir.* Nəticədə, ruhun mövcudluğunun zəruri şərtləri özündən kənar, təsadüfi şərtləri özündən aşkarlanır. Yəni mövcud varlıqlarda mövcudluq daxili, mövcudolma xarici vəhdətdən; ruhda mövcudluq xarici, mövcudolma daxili vəhdətdən aşkarlanır.

PROSES – ŞƏRTLƏNMƏ

Şərtlərin bir-biri ilə əlaqələnərək vəhdət təşkil etməsini şərtlənmə və ya proses kimi təyin etmək olar. Eləcə də, ən ümumi şəkildə iki proses – qurulma və keçid proseslərini ayırd etmək olar.

1. **Qurulma:** Qurulma – mövcudluğun daxili vəhdətinin həyata keçməsindən ibarətdir. Daxili vəhdət zəruri şərtlərdən təşkil olunduğundan yalnız təkrarlanmaya malik olur. Beləliklə, qurulma zəruri şərtlər arasında qarşılıqlı əlaqəni özündə ifadə edən proses kimi çıxış edir. Üç cür qurulma ayırd etmək olar:
   - **a. Metafizik qurulma – Yaranma:** İlahi Nurun dalğa təbiətinin sıxlaşması ilə ondan ikincili təbiətin – hissəcik təbiətinin qurulması.
   - **b. Təbii qurulma – Əmələgəlmə:** İlahi İradədən mövcudluq tələbinə zəruri şərtlər verilmiş mümkünlüyün varlığı – İlahi nurun ikili təbiətdə varlığı Kosmosa keçməklə həqiqətin obyekt tələb etməsinə görə öz mahiyyətindən forma yaradır. Biz bunu əmələgəlmə kimi təyin edirik.
   - **c. Təfəkkürdə qurulma – Mücərrəd qurulma:** Obyektiv gerçəkliklərin təfəkkürdə refleksiyasından təfəkkürdə obrazların və ideyaların yaranmasını biz formadan obrazın, mahiyyətdən fikrin qurulması kimi təyin edirik.
2. **Keçid:** Xarici vəhdəti təşkil edən şərtlərin məcmusunu biz keçid kimi təyin edirik. Xarici vəhdət təsadüfi şərtlərə görə meydana çıxdığından dayanıqsızdır və şərtlər dəyişildikcə vəhdət də dəyişir. Vəhdətin sürəkli olaraq dəyişilməsini biz keçid kimi təyin edirik. Keçid təsadüfi şərtlərin qarşılıqlı əlaqəsindən meydana çıxan proseslərdən ibarətdir. Eləcə də, altı cür keçid aşkarlamaq olar:
   - **Yoxluqdan varlığa keçid (İdeyadan mümkünlüyün varlığına keçid) – Yaranma – Həqiqət:** Başlanğıcda İlahi varlığın ehtizaza gələrək öz nurunu özündən uzaqlaşdırmaqla yoxluqdan varlıqları yaratmasını, yəni İlahi təbiətdən metafizik təbiətə keçidi biz yaranma kimi təyin edirik.

- **Varlıqdan mövcudluğa keçid (Metafizikadan Kosmosa keçid) – Yaranma – Şey:** Mümkünlüyün varlığının mövcudluq tələbində İlahi İradədən zəruri şərtlərin verilməsi ilə varlığın mövcudluğa, yəni metafizikadan Kosmosa keçidini biz yaradılma kimi təyin edirik.
- **Mövcudluqdan mövcudluğa xarici keçid – Dünya:** Kosmosda bir mövcudluqdan başqa mövcudluğa keçidi biz əmələgəlmə kimi təyin edirik. Əmələgəlmədə bir mövcudluq özünü inkar yolu ilə başqa mövcudluğa keçir. Bu cür əmələgəlmədən dünya yaranır.
- **Mövcudluqdan mövcudluğa daxili keçid – Təbiət:** Hər hansı bir mövcudluğun özü öz daxilində bir formadan başqa formaya keçidini – yəni özü-özündə keçidi doğulma kimi təyin edirik. Doğulmada mövcudluq özünü inkar etmədən yeni mövcudluğa keçir. Buradan təbiət meydana çıxır.
- **Mövcudluqdan təfəkkürə keçid (Refleksiya) – Şeydən ideyaya keçid – Fikir:** Obyekt-subyekt münasibətində obyektin hissi təsiri ilə təfəkkürdə qavranılmasını biz təbiətdən metafizikaya, yəni Kosmosdan ağıla keçid kimi təyin edirik. Yəni həqiqətin Kosmosdan ruha keçidini biz refleksiya kimi qavrayırıq. Refleksiyadan mənəvi aləm və ya taksis meydana çıxır.
- **Kosmosdan metafizikaya keçid – Ölüm:** Varlığın mövcudluqdan çıxaraq Kosmosdan metafizikaya keçidini biz ölüm kimi təyin edirik. İki cür ölüm ayırd etmək olar. Bioloji ölüm: Bu, bədənin yenidən cismə çevrilməsini özündə ifadə edir. Ruhi ölüm: Bu, fiktiv ruhun bədəndən birdəfəlik ekzistensiyasını özündə ifadə edir. Bioloji ölümdə Kosmosdan metafizikaya keçid baş vermir, sadəcə ikincili mövcudluqdan birincili mövcudluğa keçid Kosmosun daxilində baş verir. Amma ruhi ölümdə Kosmosdan metafizikaya keçid baş verir. Metafizikadan fizikaya keçid başlanğıc mövcudluqdan (cisimdən), Kosmosdan metafizikaya keçid son mövcudluqdan (nəsə-insandan) mümkün olur. Beləliklə, insanın ölümü ilə onda olan formal ruh ye-

nidən öz metafizik təbiətinə qayıdır, hansı ki biz bunu ölüm kimi təyin edirik.

METAFİZİK FİZİKİ ANLAYIŞLAR

Metafizikanın şərhində istifadə edilən, amma mənasına görə Kosmosun şərhində istifadə edilən anlayışlardan fərqli anlayışları biz metafizik fiziki anlayışlar adlandırırıq.

- **Metafizik enerji və ya entelexiya:** Ölçüsüz – azad hərəkətlilik – xalis dalğa təbiətinin enerjisi.
- **Metafizik hərəkət:** Obyekt tələb etməyən və buna görə də azad olan hərəkətdən ibarətdir. Obyekt tələb etmədiyindən hər hansı bir məhdudiyyəti yoxdur və buna görə də eyni zamanda müxtəlif istiqamətlərdə sonsuz hərəkət imkanına malikdir.
- **Təbii enerji:** Hərəkətin ölçüsü – məhdud hərəkətlilik – hissəcik təbiətinin hərəkəti. Eyni zamanda yalnız bir istiqamətdə sonlu hərəkət.
- **Psixi enerji:** Metafizik enerjini təbii enerjiyə çevirən enerji – istiqamətsiz hərəkət.

Azadlığın məhdudlaşması ölçüdür. Ölçüsüzlük – metafizik azadlıqdır. Məntiq – idrakın ölçüsüdür, yəni idrakın azadlığını məhdudlaşdıran normadır.

BAŞLANĞIC MÜDDƏA

Yeni fikrin meydana çıxmasının çətinliyi onun başlanğıc müddəasının aşkarlanmasından ibarətdir. O müddəa ki, özündən əvvəl mövcud müddəadan dialektik metodla çıxarılır, o müddəa əsasında tam yeni fikir demək çətindir. Buna görə də, bütün yeni elmlərin və dünyagörüşlərin ilk müddəası sintetik müddəalardan ibarət olub, həmin elmin banisi tərəfindən yeni müddəa kimi müəyyən olunub. Bu mənada, metafizikanın da yeni elm kimi əsas çətinliyi metafizika elminin predmetinin başlıca müddəasını müəyyən etməkdən ibarətdir.

Metafizika da başqa elmlər kimi, həqiqəti öyrəndiyindən, özündə müdrikliyin bir forması kimi meydana çıxır. Beləliklə, metafizikanın predmeti müdrikliyin əsas məsələsinə xüsusi yanaşma ilə müəyyən olunan idrak obyektləridir. Müdriklik həqiqəti tapmaq fəaliyyəti olduğundan, müdrikliyin problemını "həqiqət nədən yəqin aydınlaşır, nədən dəqiq aşkarlanır" məsələsi kimi təyin etmək olar. Həqiqətin aydınlaşmasının yəqinliyi və həqiqətin aşkarlanmasının dəqiqliyi həmin "nə"nin varlıq problemidir. Yəni, var olan nədir? Bu sualın cavabı bir-birinə özündə ziddiyyət saxlayan əksiliyin iki tərəfini təşkil edən obyekt və subyekt və ya mövcudluq və ruh haqqında bilgilərdən ibarətdir. Buradan da aşağıdakı sual doğur: "Həqiqət ruhdan, yoxsa mövcudluqdan yəqin aydınlaşır və dəqiq aşkarlanır?"

Həqiqətin yəqin aydınlaşdığı və dəqiq aşkarlayan idrak obyektini biz ümumi şəkildə varlıq, onun əksiliyini yoxluq kimi təyin edirik. Buradan da, aşağıdakı dilemma meydana çıxır: Əgər obyekt varlıqdırsa, subyekt yoxluqdur; əgər subyekt varlıqdırsa, onda obyekt yoxluqdur. Müdriklik tarixi özündə bu dilemmanın həllindən ibarətdir. Belə ki, müdriklərin bir qrupu "varlıq ruhdur, mövcudluq yoxluqdur" müddəasını, başqa qrupu "varlıq mövcudluqdur, ruh yoxluqdur" müddəasını əsas götürərək həqiqəti tapmağa cəhd etmişlər. Birinciləri ən ümumi şəkildə idealistlər, ikinciləri materialistlər adlandırmaq olar. Daha sonralar yaranmış ictimai şüur formaları da özündə bu dilemmanın tərəfləri kimi yaranmışdır: din başqa idrak üsulu ilə dərk edilən idealizm, elm başqa idrak üsulu ilə dərk edilən materializmi təsdiq etməklə inkişaf etmişdir.

Müdrikliyin müxtəlif istiqamətləri özündə müxtəlif idrak üsulları kəşf etmiş və xüsusi anlayışlarla öz mövqelərinin düzlüyünü, eyni zamanda əks tərəfin səhv etdiyini sübut etmişlər. Nəticədə, materializmin idrak üsulu və anlayışları ilə ruha yanaşdıqda ruhun yoxluğu, əksinə idealizmin idrak üsul və anlayışları ilə yanaşdıqda mövcudluğun yoxluğu sübut olunmuşdur. Hər iki istiqamətin əqli mühakimələrinə ümumi yanaşdıqda məlum olur ki, hər iki tərəf yalnız nisbi həqiqəti tapır. Buradan

müdrikliyin aşağıdakı əsas müddəası meydana çıxır: "Həqiqətin aydınlaşması mütləq, idrakı nisbidir". Burada "nisbi" sözü özündə ruhdan aşkarlanan həqiqətin mövcudluğa münasibətdə, mövcudluqdan aydınlaşan həqiqətin ruha münasibətdə aşkarlanan həqiqətdən nisbi olduğunu göstərir. Başqa sözlə, nisbilik aydınlaşmanın aşkarlamaya münasibəti kimi meydana çıxır. Müdriklik həqiqəti tapmaq olduğundan istənilən müdriklik həqiqətin mütləq tapılmasına, yəni mütləq həqiqəti aşkarlamağa istiqamətlənib.

Müdrikliyin mövcud cərəyanlarının hər ikisi ən ümumi idrak üsuluna – əksiliklərin təsdiq və inkar üsuluna əsaslanır. Belə ki, əgər mövcudluq varlıq kimi təsdiq olunursa, onda spontan onunla əksilik təşkil edən Ruh yoxluq kimi inkar olunur və əksinə. Buradan da məlum olur ki, mütləq həqiqət özündə əksilik saxlamayan varlıqdan aşkarlana bilər.

Təbiətdə əksiliklərin təbiətinə görə onları üç qrupa ayırmaq olar:

1. **Özündə ziddiyyət saxlayan əksiliklər – Zərurətə görə əksilik:** Belə əksilik təkin təklə əksiliyində meydana çıxır. Təkin təklə əksiliyi reallıqda mümkünsüzlük olduğundan, yalnız təfəkkürdə mücərrəd şəkildə təsəvvürə gətirilə bilər. Belə əksiliklərin bir tərəfi başqa tərəfin formasını qurulma və keçidlə özünə keçirərək daxilində onu "gizlədir". Daxilində gizlətdiyinə görə zərurətə görə əksilik kimi çıxış edir. Nəticədə, əksiliklərin vəhdətində hər bir tərəf özündə daxildə öz mahiyyəti ilə onunla vəhdətdə yad formanı – onun öz formasının mahiyyətlə vəhdətində əvəz etmək mübarizəsi aparan formanı saxlayır. Təfəkkürdə əksiliyin tərəfi idrak olunduqda, onun öz formasından daxili seyr yolu ilə mahiyyətinə paralel, bizim iradəmizdən asılı olmayaraq spontan və avtonom həmin formanın daxilindəki ona yad olan forma aşkarlanmış olur, hansı ki inkar üsulu ilə şeyin formasından daxilə itələnmiş və substansiyada saxlanılır. Biz iradi olaraq yalnız konkret idrak obyektindən həqiqəti aşkarlamaq istədikdə, təfəkkürdə onun daxilində öz-özünə aşkarlanan yad forma öz iradəsinə – zəruri şərtlərinə görə idrak prosesindən çıxır. Beləliklə, əksiliyin vəhdətdə və ziddiy-

yətdə aşkarlanan tərəfi idrak prosesində öz şərtlərinə görə girib-çıxdığından idrak prosesindən kənarda qalır, buna görə idrak subyektinə görə yoxluq olur, hansı ki inkarın mahiyyətini özündə ifadə edir. Buradan da aşağıdakı ideya aşkarlanır: *Yoxluq – bizim iradəmizə zidd olaraq, təsdiqlə birlikdə avtonom öz zəruri şərtlərinə görə təfəkkürə keçən, amma idrak prosesinə daxil olmadan yenə avtonom öz zəruri şərtlərinə görə qavranılmadan təfəkkürdən çıxan və əksiliyin onunla zəruri vəhdət təşkil edən digər tərəfinə aid olan həqiqətdən ibarətdir.* Məsələn, ağ və qara. Əgər ağ və qaradan ibarət iki rəngi fikrən bütün rənglərdən ayrılıqda idrak etməyə cəhd etsək, onda ağ varlıqdırsa qara yoxluq, qara varlıqdırsa ağ yoxluqdur kimi qavrayacağıq. Burada ağın qarada yoxluğu – xarici, varlığı – qaranın daxilində boş forma kimi saxlanılır və buna görə də ağın xarici seyrində qara yoxluq kimi, daxili seyrində varlıq kimi qavranılır. Ağın mahiyyəti onun xarici forması ilə vəhdətdə idrak olunduğundan, onun daxilində saxladığı qara vəhdətdənkənar mahiyyətsiz heçlik kimi avtomatik aşkarlanır və təsəvvürdən öz-özünə çıxır. Təsəvvürdən çıxma – yoxluq kimi qavranılır. Buradan aşağıdakı ontoloji ideya aşkarlanır: *Özündə ziddiyyət saxlayan əksiliklərin vəhdətində və mübarizəsində varlıq və yoxluq gerçəklikdən yox, yalnız təfəkkürdə daxildə aşkarlanır. Yəni, əksiliklərin vəhdətindən və mübarizəsindən təfəkkür prosesində aşkarlanan varlıq və yoxluq mücərrəddir.* Yəni, idrak prosesində, özü-özündə avtonom şəkildə, əksiliyinin təsdiqi ilə birlikdə, öz zəruri şərtlərinə görə təfəkkürə keçən və qavranılmadan çıxan həqiqəti biz yoxluq kimi anlayırıq, yəni məlum olur ki, yoxluq həqiqətin gizliliyidir. Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *Mütləq yoxluq – özündə mütləq həqiqətləri saxlayan mütləq varlıqdır.*

2. **Bir-birinə ziddiyyət saxlamayan əksilik:** Bu cür əksilik təkin cəmlə əksiliyi kimi aşkarlanır. Əgər hər hansı bir şey vəhdətdə eyni vaxtda sonsuz sayda şeylə özündə ziddiyyət saxlayırsa, bu zaman həmin şey başqa şeylərlə yalnız xarici vəhdətdən, təsadüfə görə bilavasitə aşkar-

lanır. Bu növ əksiliklərdə sanki bütün mümkün formalar onun mahiyyəti ilə vəhdət təşkil etmək uğrunda bir-biri ilə xaricdə mübarizə aparırlar. Belə mübarizə olmadığından şey onunla əksilik təşkil edən çoxluqdan nəyinsə formasını əksiltmir və özü öz forma ilə mahiyyətin vəhdətindən, əksilikləri isə xaricdən başqa forma ilə mahiyyətin vəhdətindən aşkarlanır. Nəticədə, əksilik onların vəhdətindən və ziddiyyətindən aşkarlanmadığından kənardan aşkarlanır. Buradan aşağıdakı ontoloji ideya aşkarlanır: *Özündə ziddiyyət saxlamayan əksiliklərdə varlıq və yoxluq təfəkkürdən xaricdə aşkarlanır, yəni özündə ziddiyyət saxlamayan əksiliklərin varlığı və yoxluğu konkretdir.* Məsələn, ağ qaradan başqa bütün rənglərə özündə ziddiyyət saxlamayan əksilik təşkil etdiyindən ağdan təfəkkürdə ixtiyari rəng o zaman aşkarlanır ki, o, ağla bərabər başqa şeydən idraka təqdim edilsin. Əksilik saxlamayan əksiliklərdən varlıq və yoxluğu kənardan ixtiyari konkret mövcudluqla müqayisədən aşkarlamaq olar. Özündə ziddiyyət saxlamayan xarici vəhdətdən aşkarlanan əksiliklər bir-biri ilə mübarizə aparmadığından hər biri özü-özündə başqasını inkar etmədən və əksiliklərin tərəfləri kimi müstəqil inkişaf edərək gerçəkləşir. Belə əksilik təbiətdən aşkarlanır və təbiətdə xarici vəhdətdə mövcud varlıqların idrakından aşkarlanır.

3. **Əksiliyin saxlanmaması:** İdrak obyektində təkin təkə və çoxluğa əksilik saxlamaması varlığında həqiqətin təsdiq və inkar üsulu ilə idrakı mümkün olmayan varlığı özündə ifadə edir. Belə varlığın həqiqətini nə ayrıca mövcudluqla, nə bütün mövcudluqlarla müqayisədən aşkarlamaq olmur. Belə təkin həqiqəti buna görə də nə təfəkkürdən, nə təbiətdən təsdiq və inkarla aşkarlanmır. Biz belə tək varlıqları metafizik varlıqlar kimi təyin edirik.

Mövcudluq və varlıq fərqli idrak üsulu və fərqli anlayışlarla idrak olunduğundan biz onları təbiətdə təsdiq və inkar üsulu ilə təyin edə bilmərik. O idrak obyektləri ki, təbiətdən aşkarlanmır, biz o obyektləri metafizik idrak obyektləri adlandırırıq. Buradan da aşağıdakı metafizik ide-

ya aşkarlanır: *Metafizik statuslu idrak obyektləri – eyni vaxtda həm var, həm yox olan, yəni özü-özündə inkar və təsdiqin vəhdətini təqdim edən varlıqlardan ibarətdir.* Belə obyektlərə Allah, Varlıq, Kosmos və Ruh aiddir. Bu obyektlərin hər biri digərinin idrak üsulu ilə idrak olunanda yox, öz idrak üsulu ilə idrak olunanda vardır. Buradan da metafizika bir məntiqi idrak üsulundan imtina edərək hər şeyi fərqli idrak üsulu ilə qavramağa cəhd edir. Həqiqətin bu cür eyni bir məntiqi üsulla idrakdan imtina edərək dərk edilməsi sofistika adlanır. Buradan aşağıdakı metafizik ideya aşkarlanır:

Sofistika – metafizik statuslu idrak obyektlərinin fərqli üsullarla dərkindən tapılan ideyaların məcmusundan ibarət müdriklik formasıdır.

Kosmos *Aristotelin* ardıcıllıq məntiqi adlanan üsulla dərk edilir. Kosmosun idrakı təcrübədə obyekt-subyekt münasibətində Kosmosun sonuncu varlığı – ayrılıqda faktiki götürülən maddi şeylər olduğundan, hissi qavranılan ayrıca maddi şey – mövcud varlıqlar həqiqət kimi tapılır. Buradan aşağıdakı ideya aşkarlanır: *Ardıcıllıq məntiqinə görə həqiqət yalnız maddi şeylərdən – materiyadan yəqin aydınlaşa və dəqiq aşkarlana bilər.*

Buradan da, aşkarlanma ilə aydınlaşma materiyadan həqiqətin müxtəlif formada təzahürü kimi qavranılır. Aşkarlanma ilə aydınlaşmanın eyni bir şeydə təsəvvürə gətirilməsi həmin şeyin mütləqliyini ifadə edir, hansı ki əbədilik və sonsuzluqla şərtlənmə kimi təsəvvür olunur. Buna görə də, materialist baxışa görə mütləq həqiqət materiyadır, materiya əbədi və sonsuzdur, deməli yaranmayıb, məhv olmayacaq. Buradan da Allah ideyasına yer qalmır. Yəni, əgər materiya əbədi və sonsuz həqiqətdirsə, onda ondan kənarda heç bir həqiqət yoxdur və təsəvvürə gətirilən hər şey özlüyündə yoxluqdur.

Ardıcıllıq məntiq üsulunda hissi qavranılan ayrıca şeydən ardıcıllıqla dialektik inkişafla daha mürəkkəb və ümumi həqiqətlər əldə edilir və sonda Kosmosun həqiqəti aşkarlanır. Beləliklə, *Aristotel* məntiqinin hissilik və maddilikdən kənarda, yəni Kosmosdan kənarda davam etdirilməsi mümkün olmadığından, Kosmos kimi tək metafizik statuslu idrak ob-

yektləri – Varlıq, Allah və Ruh bu məntiqlə dərk edilməyə cəhd edildikdə, yoxluq kimi qavranılır. Buradan da, materialist fəlsəfə "Allah, Ruh və Varlıq Kosmosa münasibətdə yoxluqdur" əqli nəticəsinə gəlir. Buradan aşağıdakı metafizik ideya aşkarlanır:

Kosmos – ardıcıllıq məntiqi ilə hissi qavranılan, ayrıca faktiki götürülən maddi şeylərdən aşkarlanan həqiqətlərin məcmusundan ibarət yeganə varlıqdır.

Materializm ideyalarının sonuncusu özündən əvvəlki bütün müddəaları inkar edir. Bu həqiqətin idrakında ardıcıllıq məntiqinin yetərsizliyini göstərir. Ardıcıllıq məntiqi orijinaldan ən ümumi həqiqəti əldə etməyin üsulu kimi istifadə olunur. Orijinal həqiqət ən aşağı keyfiyyətli həqiqət kimi ayrıca götürülmüş şeydən aşkarlanan həqiqətdir. Yəni idrakın başlanğıcını təşkil edən şeyin həqiqəti nisbi şəkildə özündən sonrakı həqiqətə görə yoxluqdur. Məsələn, "bu almadır" müddəasında biz almanı təsdiq edir və almadan başqa onunla özündə ziddiyyət saxlamayan bütün mövcudluqları inkar edirik. Onda belə çıxır ki, almaya münasibətdə hər şey yoxluqdur. "Alma meyvədir" müddəasında artıq həqiqət almadan yox meyvədən aşkarlanır və meyvə özündə digər bütün anlayışların mənasını inkar etdiyindən almanın da anlayışını özündə inkar edir. Buradan, alma meyvəyə münasibətdə yoxluq kimi qavranılır. "Meyvə bitkidir" anlayışı da bitki meyvəni, "bitki canlıdır" müddəasında canlılıq bitkinin yoxluğunu, "canlılar mövcudluqdur" müddəasında canlılıq mövcudluğa görə yoxluq, nəhayət "mövcudluq həqiqətdir" müddəasında həqiqətə münasibətdə mövcudluğun yoxluğu təsdiq olunur. Buradan da əgər "həqiqət varsa" onda "mövcudluq yoxdur" nəticəsi alınır. Bununla da, Kosmosdan ümumi həqiqətin *Aristotel* məntiqi ilə dərki başa çatır və bu məntiq Kosmosun təşkil olunmasının ardıcıllığına uyğun idrak üsuludur. Kosmosun ardıcıl təşkil olunması əsas kosmik qanunlardan meydana çıxır. Biz əsas qanun dedikdə o qanunları nəzərdə tuturuq ki, o qanunlar başlanğıc, digər bütün təbii qanunlar həmin qanunlarla münasibətdə son qanunlardır. Kosmosun əsas qanunlarına görə Kosmos aşağıdakı kimi təşkil olunmuşdur:

1. **Məkanın əsas qanununa görə:** "Maddi nöqtə Kosmosda eyni vaxtda yalnız bir yerdə ola bilər".
2. **Zamanın əsas qanununa görə:** "Maddi nöqtə Kosmosda eyni yerdə, yalnız bir vaxtda ola bilər".
3. **Mövcudluğun özünün əsas qanununa görə:** "Maddi nöqtə eyni yerdə eyni vaxtda ya var, ya yox ola bilər".

Ardıcıllıq məntiqinin əsas müddəası "materiyanın əbədiliyi və sonsuz olması" müddəasıdır.

SONSUZLUQ

Kosmosun təşkil olunmasının əsas qanununa görə mövcudluqlar məkanda eyni zamanda müxtəlif yerlərdə olmaqla Kosmosu təşkil edirlər. Buradan da mövcudluqların eyni zamanda məkanda müxtəlif yerdə olmasından məkanda ardıcıllıq meydana çıxır. Məkanın sonsuzluğu bu ardıcıllığın sürəkliliyini özündə refleksiya edir. Yəni əgər mövcudluqlar eyni vaxtda məkanda müxtəlif yer tutmaqda davam edirsə, deməli Kosmosun məkanı sonsuzdur. Mövcudluqların ardıcıllığının davam etməsi əmələ gəlmənin sonsuzluğu şərtində mümkündür.

Sonsuzluq anlayışı – bütün ölçülərin çıxdığı ölçülüyün mümkünsüzlüyünü bildirir. Buradan da, Kosmosu təşkil edən hər bir mövcudluğun məhdud məkan ölçülərinin çıxarıldığı məkanın öz ümumi ölçüsü mümkünsüzlük kimi qavranılır. İntuitiv olaraq, bəri başdan demək olar ki, Kosmos sonsuz deyil. Belə ki, mücərrəd şəkildə toplananlar ölçülüdürsə, onların cəmi də ölçülü olmalıdır. Yəni Kosmosu təşkil edən sonsuz sayda mövcudluğun xüsusi ölçülərinin məcmusu Kosmosun ümumi ölçüsüdür. Buradan da, Kosmosun sonsuzluğunun mövcudluqların sayının sonsuzluğunu özündə refleksiya etdiyini demək olar. Buradan da, iki cür sonsuzluq ayırd etmək olar:

1. **Sayın sonsuzluğu:** Buradan Kosmosun sonsuz sayda mövcudluqlardan təşkil olunması ideyası meydana çıxır.

2. **Ölçünün sonsuzluğu:** Kosmosun ölçülərinin təyin edilməsinin mümkünsüzlüyü ideyası meydana çıxır.

Bəs sonsuzluq ideyası özündə nəyi ifadə edir? Əgər hər hansı bir şeyin əvvəli varsa, onun sonu da olmalıdır, eləcə də sonu varsa deməli əvvəli də vardır. Əvvəli və sonu olan isə sonsuz ola bilməz. Təfəkkürə münasibətdə Kainatın sonuncu varlığı bilavasitə tək şey kimi idraka təqdim edilən hissi qavranılan gerçəklikdir, hansı ki ondan sonra artıq ondan fərqli qanunlara tabe olan təfəkkür gəlir, hansı ki gerçəkliklə eyni qanunlara tabe olmur. Beləliklə, Kosmosun sonu idraka münasibətdə hissi qavranılan tək şeydir, hansı ki mücərrəd şəkildə vahiddən (+1) ibarətdir. Amma idrakın məhdudluğuna görə vahidlərdən təşkil olunmuş sonuncu sayda mövcudluğu biz idrak edə bilmirik. Buradan da aşağıdakı kosmoloji ideya aşkarlanır: *Kosmosda mövcudluqların başlanğıc sayı idraka münasibətdə aşkarlamaq mümkünlük, son sayı aşkarlamaq mümkünsüzlükdür.*

Biz sonsuzluq dedikdə bu mənada yalnız hissi idrakın məhdudluğunu nəzərdə tutmuş oluruq. Bəs hissi idrakdan kənarda Kosmosun özü-özündə mövcudluqların sayının və Kosmosun öz son ölçüsünün olub-olmamasını necə müəyyən edə bilərik? Təcrübədən hissi idrakla Kosmosun sonunu aşkarlamaq mümkünsüzlük olduğundan, deməli, Kosmosun sonunu yalnız intuitiv, mücərrəd şəkildə aşkarlamaq olar. Mücərrədliyin elmi riyaziyyatdır. Biz riyazi ədədlərə nəzər salsaq, görərik ki, müsbət tam ədədlərin – varlığın mücərrəd sayının – başlanğıcı (+1), mənfi tam ədədlərin – yoxluğun mücərrəd sayının – sonu (−1) bizə məlumdur. Yəni +1 ən kiçik müsbət tam ədəd, −1 ən böyük mənfi tam ədəddir. Və bu iki əks işarəli ədədin cəmi sıfırı təşkil edir (−1 + 1 = 0). Sıfırın daxilində ən böyük mənfi ədəd mənfiliyindən azad olmaqla ən kiçik müsbət ədədə keçir. Buradan aşağıdakı metafizik ideya aşkarlanır:

Yoxluğun ən böyüklüyü itdikdə o ən kiçik varlığa və əksinə varlığın ən böyüklüyü itdikdə o ən kiçik yoxluğa keçir, yəni Kosmos metafizikadan ən kiçik ölçülüklə yaranır, ən son ölçülükdən metafizikaya keçir.

Buradan da, Kosmosun ölçülüyünün metafizika ilə məhdudlaşdığı aydın olur. Yəni, *Aristotelin* də hesab etdiyi kimi, materiya sonsuz deyil, o, müəyyən həddə metafizikaya keçərək ölçülükdən məhrum olur. Əgər belədirsə, onda məlum eyni ədədi qiymətə malik müsbət ədədlər mənfi ədədə 0-dan keçirsə, onda naməlum ən kiçik mənfi ədəd (−x) naməlum ən böyük müsbət ədədə (+x) keçir. Burada mütləq naməlumluq sonsuzluğu ifadə edir. Biz mütləq naməlumluğu idrak edə bilmədiyimizdən "0" əbədi naməlum olaraq qaldığından, naməlum kimi onun haqqında mücərrəd mühakimə apara bilərik. Buradan da, mücərrəd şəkildə Kosmosun ölçüsünü iki sıfırın arasındakı məsafə kimi (0–0) təyin edə bilərik, hansı ki birinci sıfır – ən böyük mənfi ədədlə ən kiçik müsbət ədədin cəmindən (−1+1=0), ikinci sıfır – ən böyük müsbət ədədlə ən kiçik mənfi ədədin cəmindən (−x+x=0) ibarətdir. Buradan aşağıdakı kosmoloji ideya aşkarlanır: *Kosmosun ölçüləri məlum müsbət və mənfi ədədlərin cəmi ilə mütləq naməlum müsbət ədədlərlə mənfi ədədlərin cəmi arasındakı ölçülükdən ibarətdir.*

Buradan da, idrakın imkansızlığını nəzərə alıb deyə bilərik ki, say və ölçü özündə sonsuz deyil, sadəcə sayın və ölçünün elə həddi mövcuddur ki, həmin həddə artıq say və ölçü sayın və ölçünün təbii qanunlarına tabe olmur, yəni ən kiçik mənfi ədəd ən böyük müsbət ədədə, ən böyük mənfi ədəd ən kiçik müsbət ədədə keçərək yox olur. Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *Kosmosda məkan ölçülərinin və mövcudluqların sayının tabe olduğu qanunlar metafizikadan fizikaya keçiddə yaranır və Kosmosdan metafizikaya keçiddə itir.*

Ölçülüyün və sayın qanunlarının itməsi sonsuzluqdan ibarətdir. Buradan aşağıdakı kosmoloji ideya aşkarlanır: *Sonsuzluq – ölçüsüzlük və saysızlıqdan ibarətdir.* Buradan da, təbii sonsuzluq anlayışı özündə sonun olmadığını, yəni sonun özündən kənarda olduğunu ifadə edir, hansı ki Kosmosun metafizikadan yarandığını – başlanğıcın Kosmosdan kənarda olduğunu sübut edir. Buradan məlum olur ki, Kosmosun başlanğıcı və sonu Kosmosda qüvvədə olan qanunlardan fərqli qanunlara tabe olur.

Bütün dediklərimizdən aşağıdakı metafizik ideya aşkarlanır: *Başlanğıc və sonun fərqli aləmdə olmasının və buna görə də fərqli qanunlara tabe olmasının şərtlərinin məcmusu sonsuzluqdan ibarətdir.*

ƏBƏDİLİK

Daxili zamanın kosmik zamanla şərtlənməsini biz əbədilik kimi qavrayırıq. Belə ki, insanın daxili zaman hissi onun həyatı ilə şərtlənmişdir. İnsan həyatı keçicidir. Kosmik zaman isə qalıcıdır. Keçicinin qalıcıya münasibəti əbədilik kimi refleksiya olunur. Bəs əbədilik necə anlaşılır? Məkan obyektlərin hissi təsirindən – faktdan, zaman obyektlərin iştirak etdiyi proseslərin – qurulma və keçidinin – hissi təsiri ilə – aktdan qavranılır. Beləliklə, zamanı aktuallaşmanın hissi təsirinin təfəkkürdə refleksiyası kimi təyin edə bilərik. Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *Zaman mövcudolmanın şərtlərinin məcmusundan ibarətdir.*

Başqa sözlə, mövcudluq məkan ölçüləri, mövcudolma zaman ölçülərini təşkil edir, hansı ki istənilən mövcudluq bu ölçülərin müxtəlif kombinasiyalarının məcmusu kimi mövcuddur. Zaman mövcudolmadan aşkarlandığından birincili mövcudluğa münasibətdə xarici və təsadüfidir. Buradan da, cisimlər İlahi İradədən verilən sabit şərtlərdə mövcud olduğundan, zamanın dəyişilmələrinin cisimlərə təsir etmədiyi məlum olur. Yəni cisimlərin mövcudluğu zamandan asılı deyil. İkincili mövcudluqlar kimi canlılar İlahi İradədən dəyişən şərtlər alaraq yaranır. Beləliklə, canlılar daxili mövcudolma kimi meydana çıxır. Yəni canlılarda cisimlərə xas daxili qurulma ilə yanaşı cisimlərə xas olmayan daxili keçid prosesləri meydana çıxır. Buradan da, zaman həm də canlıların daxilindən – daxili proseslərin refleksiyasından aşkarlanır. Daxili proseslərdən aşkarlanan zamanı biz təbii zaman, xarici proseslərdən aşkarlanan zamanı kosmik zaman kimi təyin edirik. Təbii zaman kosmik zamanla şərtlənmiş ikincili zamandır. Təbii zamanın qavranılması daxili hissiyyatla mümkün olur.

Kosmosun təşkil olunmasının əsas qanununa görə mövcudluqlar eyni yerdə yalnız bir vaxtda ola bilər. Mövcudluqların eyni yerdə müxtəlif

vaxtlarda olmasından özündə təkrarlanma – daxili ardıcıllıq meydana çıxır. Zaman dəyişən zəruri şərtlərdən ibarət olduğundan, dəyişən şərtlər canlılığa verildiyindən, zaman yalnız canlılıqdan qavranıla bilər. Zamanda ardıcıllıq məkanda ardıcıllığa əksilik təşkil edir. Belə ki, zamanda ardıcıllıq məkanın zəruri şərtləri ilə – hər bir canlı orqanizmin məkani ölçülüyü ilə məhdudlaşır. Buradan da, məhdud ardıcıllıq meydana çıxır; məhdud zaman ardıcıllığı – məhdud zaman, vaxt kimi qavranılır. Hər bir canlı məhdud vaxt ərzində var olur. Amma faktiki canlının formal varlığı ondan kənarda növdə olduğundan, növün mövcud olmasının vaxtı daxili ardıcıllığın – məhdud vaxtın təkrarlanması ilə qavranılır. Əgər məkanda sonsuz ardıcıllıqdan məhdud ölçülüyün əksiliyindən onunla vəhdətdə və mübarizədə təfəkkürdə məkanın sonsuzluğu qavranılırsa, bunun əksinə canlılığın mövcudluğunda faktiki canlının sonlu ardıcıllıqdan onun əksiliyi kimi növün dövrülüyündən təfəkkürdə zamanın əbədiliyi qavranılır. Növ formal olduğundan zamanın əbədiliyi də formal məntiqlə təsdiq olunur. Daxildə qavranılan formal əbədilik təbiətin dövrülüyünə köçürüldükdə Kosmosun faktiki əbədiliyi meydana çıxır. Biz əbədiliyin əksiliyi kimi vaxtı təyin edirik. Vaxt – məhdud zamandır. Kosmosda hər bir şey məhdud ölçü ilə şərtləndiyi kimi məhdud zamanla – vaxtla şərtlənmişdir.

Vaxt daxili seyrdən aşkarlandığından insanların xaricdə zamanı vaxta bölməsi mücərrəd vaxt kimi meydana çıxır. Mücərrəd vaxt təbii dövrülüyün təfəkkürdə refleksiyasıdır, hansı ki konkret olaraq ölçüsüzdür. Bura an, gün, ay, il aiddir. Mücərrəd vaxt ölçülərinə təfəkkürdən ikincili süni ölçü verilməsi ilə konkret vaxt ölçüləri – saniyə, dəqiqə, saat meydana çıxır. Vaxt ölçüləri təfəkkürdən necə mücərrəd vaxta verilir? Qeyd etdik ki, mümkünlüyün mövcudluq tələbində özündə mümkünlüyü daşıyan İlahi Nurun İlahi İradədən verilən məkan və zaman şərti ilə metafizik sürəti azalır, mütləq kinetik enerjidən statik enerji ayrılır və statik enerji hissəciyin enerjisi kimi onu yaradır və buradan da fotonlar əmələ gəlir, hansı ki maddi və işıq fotonları olmaqla iki qrupa ayrılır və onlar arasında qarşılıqlı təsirdən işıqlanma meydana çıxır. Mücərrəd zamanın əsası – an –

maddi fotonlarla işıq fotonlarının qarşılıqlı təsirindən – işıqlanmadan ibarətdir. An – təşkil olunmamış Kosmosda meydana çıxan zamandır, hansı ki metafizik qanuna "eyni anda həm var, həm də yox olmaq" qanununa tabe olur. Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *An – eyni vaxtda həm var, həm yox olan zamanın ölçüsüdür.*

Kosmosun təşkil olunması ilə artıq Kosmosun digər əsas qanunu – "eyni vaxtda ya var, ya yox ola bilər" qanunu meydana çıxır. Buradan da anın eyni vaxtda yox olması istisna olunur, nəticədə yalnız var olan kosmik vaxt meydana çıxır. Təşkil olunmuş Kosmosda vaxt yalnız var olduğundan, onun eyni zamanda yox olması istisna olunduğundan, kosmik vaxt meydana çıxır. Kosmik vaxt təfəkkürdə Günəşin (işıq fotonlarının vəhdətinin) planetləri (maddi fotonların vəhdətini) işıqlandırması kimi qavranılır. Yəni insanların xaricdə müəyyən etdiyi mücərrəd vaxt ölçüləri – gün, ay və il Günəşin çıxıb batması ilə obyektiv gerçəkliklərin xarici görüntüsünün görünməsi arasındakı əlaqəyə görə müəyyən edilir.

Daxili zaman xarici zamanın müəyyən edilməsi kimi müəyyən olunur. Formal ruhla bədənin əlaqəsində maddi bədən Kosmos kimi, qeyrimaddi formal ruh daxili günəş kimi çıxış edir. Formal ruhun bədəni daxildən işıqlandırmasını "daxili gündüzü" biz oyaqlıq kimi, işıqlandırmamasını – "daxili gecəni" yuxululuq kimi qavrayırıq. İnsan bədəninin ruhla əlaqəsi özündə işıqla maddənin əlaqəsini refleksiya edir. Beləliklə, xaricdə günəşin iki doğuşu arasındakı vaxt gündüz, Ruhun bədəni daxili işıqlandırması arasındakı vəziyyət oyaqlıq kimi refleksiya edir. Bədənin daxilinin xarici – Kosmosu refleksiyasından konkret zamanla mücərrəd zamanın vəhdətindən ümumi zaman anlayışı meydana çıxır.

Növün daxili formal zaman dövrülüyünün faktiki kosmik zaman dövrülüyünə nisbətindən xarici formal zaman ardıcıllığı aşkarlanır. Yəni xarici formal ardıcıl zaman növlərin təbiətdə təkrarlanmasının sıralanması kimi qavranılır. Başqa sözlə, xarici formal zaman dövrülüklə ardıcıllığın vəhdətindən aşkarlanır, hansı ki faktiki canlılarda daxildə belə vəhdət istisna olunur. Xarici formal zaman ardıcıllığı keçmiş, indi və gələcək

vaxtların ardıcıllığı kimi dərk olunur, hansı ki dövri olaraq gələcək indiyə, indi keçmişə çevrilir və nəticədə bunun əksinə keçmiş indi, indi gələcək olur. Keçmiş, indi və gələcək mövcudluqların xaricdə bir-birinə keçməsinin əksinə daxili keçid kimi baş verir.

Materializmin əksinə olaraq, idealizm başlanğıc varlıq kimi hissi qavranılan idrak obyektini yox, bilavasitə idrak edən varlığı – həqiqəti özündə aşkarlayan varlığı – düşünən məni başlanğıc kimi qəbul edir. Buradan da idealizm faktiki ayrılıqda götürülməsi mümkün olmayan, buna görə də yalnız fikrən ayrılıqda götürülən, maddiliyi olmayan, buna görə hissi qavrama üsulu – *Aristotelin* ardıcıllıq məntiqi ilə qavranılması mümkün olmayan, yalnız intuitiv idrakla qavranılan və obyektiv gerçəkliklə özündə ziddiyyət saxlayan əksilik kimi hissi idrak üsulunda təyin olunan anlayışlardan fərqli anlayışlarla şərh olunan subyekti, yəni Ruhu varlıq kimi qəbul edir və ruhun əksiliyi kimi obyektiv gerçəkliyi yoxluq kimi qavrayır. İdealizmə görə həqiqətin aydınlaşması və gerçəklərdən aşkarlanması ruhdan asılıdır. Yəni faktiki olaraq ruh həqiqəti özündə gerçəklikdən daha yəqin aydınlaşdıran və özündə dəqiq aşkarlayan varlıq kimi gerçəkliklə vəhdətdə ona özündə ziddiyyət saxlayır. Materializmdə olduğu kimi, idealizmin məntiq üsulunda da son başlanğıcı inkar edir. Məsələn, əgər həqiqəti subyekt – fiktiv insan aşkarlayırsa, onda həqiqət fiktiv insandadır və insan öləndə həqiqət də ölür.

Mövcud varlıqlar Kosmosu təşkil etdiyi kimi fikrən dərk edilən varlıqların da aləm təşkil etdiyini təsəvvür etmək olar. Biz bu aləmi ikinci (birincili) Kosmos və ya o dünya və ya metafizika kimi təyin edə bilərik. Metafizikanın həqiqətləri ya xalis zəkadan, ya kvant fizikasından, ya da dini ideyalardan aşkarlana bilər. Dini ideyalar ehkam olduğundan onların inkişaf etdirilməsi yolverilməz olduğundan, metafizik həqiqətləri biz yalnız kvant fizikasının aşkarladığı həqiqətlərdən və ya xalis zəkadan aşkarlanan sintetik ideyaların dialektik mühakiməsindən aşkarlaya bilərik. Buradan aşağıdakı ideya aşkarlanır:

Metafizik aləm – təbiət qanunlarından fərqli qanunlara tabe olan və buna görə məntiq üsulu ilə həqiqətlərinin hissi qavranılması mümkün olmayan, yalnız intuitiv qavranılan qeyri-maddi varlıqlardan təşkil olunmuş aləmdir.

Əgər Kosmosla Varlıq aləmini ardıcıllıq məntiqi ilə özündə ziddiyyət saxlayan əksiliklər kimi götürsək, onda təfəkkürün idrak prosesində onlardan biri digəri ilə mübarizədə idrak prosesindən zərurətə görə avtonom çıxır, yəni yoxluq olur. Buna görə də, Kosmosa görə Varlıq aləmi, Varlıq aləminə görə Kosmos yoxluqdur. Əgər obrazlı olaraq Kosmosu bu dünya, Varlıq aləmini o dünya kimi adlandırsaq, onda *Aristotel* məntiqinə görə bu dünya həqiqətdirsə o dünya yalandır, yox əgər o dünya həqiqətdirsə onda bu dünya yalandır. Bu dünyanı həqiqət, o dünyanı yalan qəbul edilməsi elm; bu dünyanın yalan, o dünyanın həqiqət qəbul edilməsi din kimi meydana çıxır. Din Varlıq aləmini o dünya kimi, elm Kosmosu bu dünya qəbul edir və bu dünyaya münasibətdə o dünya, o dünyaya münasibətdə bu dünya yoxluqdur. Buradan da, din o dünyanı həqiqət, bu dünyanı yalan; elm bu dünyanı həqiqət, o dünyanı yalan kimi qavratmaqdan yaranır. Beləliklə, materializmə görə materiya varlıq, ruh yoxluqdur; idealizmə görə ruh varlıqdır, materiya yoxluqdur. Əgər biz idealizm və materializmin məntiqini fikrən birlikdə götürüb onlarla həqiqəti tapmağa cəhd etsək, onda aşağıdakı müddəa alınır: ruh həm varlıqdır (idealizmə görə), həm yoxluqdur (materializmə görə); materiya həm varlıqdır (materializmə görə), həm yoxluqdur (idealizmə görə). *Kant* həqiqətin bu cür idrak olunmasını ağlın evtanaziyası adlandırır. Yəni ağıl bir-birinə əks məntiq üsulu ilə bir və eyni həqiqəti aşkarlamağa cəhd etdikdə özü-özünü qaranlığa qərq edir – başqa sözlə, özü-özünü həqiqətə öldürtdürür.

Sofistika ağlın özü-özünü öldürtməkdən xilas etməklə həqiqətin tapılmasının sərhədlərini daha da genişləndirir. Bunun üçün hər bir varlıq forması fərqli məntiqlə idrak olunur və sonra bütünlükdə bütün metafizik bilgilər üçün ümumi şəkildə məntiqsizliklə həqiqəti tapır və buradan mütləq həqiqət haqqında aşağıdakı ideyanı aşkarlayır:

Mütləq həqiqət – özü-özünə ziddiyyətsiz əksilik saxlayan, buna görə də eyni zamanda, eyni yerdə həm varlıq, həm yoxluq kimi idrak olunan, metafizik statuslu obyektin – Allahın ideyasından ibarətdir. Özündə əksiliyinə ziddiyyət saxlayan heç bir şey eyni vaxtda eyni yerdə həm var, həm yox ola bilməz. Belə varlıqlar ya var, ya yox olur. Buradan aşağıdakı ideya aşkarlanır: Nisbi həqiqət – özündə başqasına ziddiyyət saxlayan, buna görə də eyni vaxtda yalnız ya varlıq, ya yoxluq kimi idrak olunan, təbii statusa malik obyektlərin – mövcud varlıqların ideyasından ibarətdir.

METAFİZİKANIN İDRAKİ ÜSULU

İdrakın üç üsulu mövcuddur. Birincisi, hissi idrak üsulu – bilavasitə zərurəti olan obyektiv gerçəklikləri onların hissi təsirindən qavramaq üsulu; bu üsulla yalnız faktdan doğan ideyalar aşkarlanır. İkincisi, demonstrativ idrak – bilavasitə hissi təsirləri ilə qavranması yetərli olmadığından qeyri-hissi yolla idrakın davam etdirilməsi ilə həqiqətin idrak üsulu; bu üsulla faktdan və ağıldan doğan ideyalar aşkarlanır. Üçüncü üsul, intuitiv idrak – bu üsulla yalnız təfəkkürün özü-özündən düşüncə prosesində ağıldan törəyən ideyalar aşkarlanır. Birinci üsulda idrak obyekti faktiki xaricdən götürülən olur, üçüncü üsulda idrak obyekti yalnız daxildən fikrən götürülən olur. O idrak obyektləri ki, bilavasitə xaricdən faktiki götürülməsi mümkün deyil, belə obyektlər yalnız intuitiv idrakla təfəkkürdə fikrən götürülərək onların ideyası idrak edilir. Metafizik statuslu obyektlər də təbiətdən götürülməsi mümkün olmayan obyektlər olduğundan, onlar yalnız fikrən götürülən obyektlər kimi təsəvvürə gətirilə bilər. Fikrən götürülən obyektləri ehtimali və ya nəzəri obyektlər də adlandıra bilərik.

Bəs intuitiv qavrama ilə metafizik aləmin tabe olduğu qanunları necə aşkarlamaq olar? Qanun özündə İlahi İradənin şərtlərinin – vahidlərin bir-birinə münasibətini ifadə edir. Vahid dedikdə biz ilk başlanğıcı ifadə edən anlayışı nəzərdə tuturuq. Məsələn, bir rəqəmi riyaziyyatın vahididir,

çünki sonsuz sayda rəqəmlərin başlanğıcıdır. Kimya elminin vahidi hidrogen elementidir, çünki hidrogen ən sadə başlanğıc elementdir və bütün digər elementlər hidrogenin özündə mürəkkəbləşməsi kimi yaranır və s. Bura çəkinin vahidi kimi qram, vaxtın vahidi kimi saniyə, məkanın vahidi kimi sm və s. daxildir. İntuitiv idrak konkretin mücərrədləşdirilməsi ilə bilavasitə təfəkkürün özü-özündə aparıldığından yalnız mücərrəd vahidlərdən istifadə etməklə mümkündür; buna görə elmlərdə konkret vahidlər mücərrədləşdirilərək simvollarla ifadə olunur. Buradan mücərrəd vahidlər meydana çıxır. Məsələn, Zaman – T, Yol – S, Qüvvə – F və s. Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *Metafizik aləmin qanunları mücərrəd vahidlərin nisbətini özündə ifadə edir.*

Biz Kosmosun qanunlarını mövcudluğu idraka təqdim edən məkan, zaman, enerji, hərəkət və onların bir-biri ilə əlaqəsi, nisbəti və keçidinin tabe olduğu qanunlar kimi müəyyənləşdiririk. Metafizika da eyni anlayışlarla dərk edilə bilər. Bəs onda bu anlayışların metafizik mənasını necə təyin etmək olar? Kosmos ölçülüyün tabe olduğu qanunları özündə təqdim edir, yəni təbiət qanunları müxtəlif ölçülər arasındakı nizamı özündə təsvir edir. Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *Metafizik anlayışlar ölçüsüz anlayışlardır.* Biz ölçüsüzlüyün kəmiyyəti kimi "0"-ı təyin edirik. Sıfır – heçlik deyil. Yəni sıfırın mənası vardır. Heçliyin mənası olmadığından, bundan fərqli olaraq, hər hansı bir riyazi ifadəsi mümkünsüzlükdür. Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *Ölçüsü sıfıra bərabər varlıqlar Kosmosda mövcud varlıq kimi yoxluq, metafizikada varlığın mövcudluğu kimi varlıqdır.*

Ölçüsüz vahidlər yalnız mücərrəd ifadə oluna bilər. Məsələn, "sm, metr, km" məkanın ölçü vahidləridir. Əgər məkan ölçüsü S – yol, H – hündürlük kimi ifadə edilirsə, onda ölçüsü olmayan mücərrəd məkan vahidləri əldə etmiş oluruq. Ölçüsü olan vahidlər ədədi qiymətlərinə görə bir-birindən fərqlənir. Buradan da fərqlilikləri aşkarlamaq mümkün olur. Amma mücərrəd ölçüsüz vahidlərdə ədədi qiymət olmadığından belə vahidlər yalnız eyniliyin idrak vahidi kimi çıxış edir. Məsələn, "m" kütlə

vahidi özündə ədədi qiymətindən asılı olmayaraq bütün fərqli ölçüyə malik kütlənin vahidi kimi çıxış edir. Biz ölçüsüzlüyün ədədi qiymətini "0" kimi təyin edirik. Yəni istənilən mücərrəd vahidin ədədi qiyməti sıfırdır. Vahid – istənilən təzahürün başlanğıcını özündə ifadə edən anlayışdır. Yəni əgər biz tutaq ki kütlə haqqında düşünürüksə, mütləq kütlənin başlanğıcından düşünməyə başlayırıq, hansı ki onun ifadəsi mücərrəd kütlə vahidi ilə ifadə olunur. Vahidləri özlərində üç qrupa ayırmaq olar:

1. **Maddiliyin vahidləri:** Ancaq maddəni xarakterizə edən vahidlər. Belə vahidlərə kütlə vahidi ilə müxtəlif münasibətdə olan istənilən vahidlər aiddir.
2. **Universal vahidlər:** Həm maddi, həm qeyri-maddi obyektləri xarakterizə edən və kütlə ilə münasibətdən aşkarlanan vahidlər.
3. **Neytral vahidlər:** Kütlə ilə hər hansı əlaqəsi olmadan da müəyyən edilən vahidlər.

Əgər Kosmos hissi qavranılan maddi şeylərin məcmusudursa, maddilik vəhdətdə iki təbiətdən – dalğa və hissəcik təbiətindən ibarətdirsə və yalnız maddiliyə görə Kosmosu metafizikadan fərqləndirdiyimizə görə, onda biz təbiətin hissi idrak üsulu ilə qavranılmasında istifadə olunan və bilavasitə maddiliyin vahidləri kimi müəyyən edilmiş vahidlərdən və universal vahidlərdən istifadə edə bilmərik. Maddiliyin vahidləri hissi idrak üsulunda, universal vahidlər demonstrativ idrak üsulunda idrak olunan həqiqətləri xarakterizə edən vahidlərdən ibarətdir. Buradan da məlum olur ki, intuitiv idrakla aşkarlanan həqiqətləri yalnız neytral vahidlərlə, yəni kütlə ilə münasibəti zəruri olmadan aşkarlanan vahidlərlə xarakterizə edə bilərik. Beləliklə, yalnız neytral vahidlərin bir-birinə nisbətindən metafizikanın idrakında istifadə etmək olar. Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *Metafizik qanunlar – yalnız təbiətin şərhində istifadə olunan, amma kütlə vahidinin bilavasitə və ya dolayısı ilə iştirakını tələb etməyən neytral vahidlərin bir-birinə münasibətindən aşkarlanır.*

Belə vahidləri tapmaq üçün fiziki düsturlara – fiziki qanunların ifadə olunduğu mücərrəd formalara baxmaq lazımdır. Əgər belə düsturlarda

kütlə vahidinin iştirakı tələb olunmursa, onda həmin vahidlərlə metafizik qanunları ifadə edə bilərik. Məsələn, sürətin və qüvvənin düsturlarına baxaq: V=S:T, F=ma. Burada birinci düsturdan görünür ki, kütlə vahidinin iştirakı zərurətə görə tələb olunmur. İkinci düsturda isə kütlə vahidi zərurətə görə tələb olunur, əks halda qüvvəni mücərrəd ifadə etmək mümkün deyil. Deməli birinci düsturda iştirak edən vahidlər neytral, ikinci düsturdakı vahidlər maddiliklə şərtlənmiş vahidlərdir. Bütünlükdə fizika elmində mövcud olan və təbiətin qanunlarını özündə ifadə edən bütün mümkün düsturlara baxdıqda aşkar olunur ki, yalnız məkanı, zamanı və hərəkəti neytral vahidlər kimi müəyyən etmək olar. Digər vahidlərin – kütlə – m, çəki – P, qüvvə – F, təbii enerji (statik enerji ilə kinetik enerjinin vəhdətindən ibarət enerji) – E və bunların müxtəlif kombinasiyalarının ifadə etdiyi mürəkkəb vahidlərin – iş – A, həcm – H, sahə – S və s. yalnız maddiliyin vahidləri kimi metafizikanın şərhində istifadə edilməsi istisna olunur. Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *Metafizikanın qanunları ədədi qiyməti sıfıra bərabər olan məkan, zaman və hərəkət vahidlərinin bir-birinə münasibətindən şərh oluna bilər.*

Buradan da iki cür məkan, zaman və hərəkət vahidi alınır. Metafizik məkan, zaman və hərəkət vahidləri – hansı ki ölçüsü yoxdur. Fiziki məkan, zaman və hərəkət vahidləri – hansı ki ölçülüdür. Ölçüsüz olmaq azad olmağı, ölçülü olmaq məhdudiyyəti göstərir. Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *Metafizikanın qanunları mütləq azadlıq vəziyyətində metafizik vahidlərlə intuitiv idrakda aşkarlana bilər.*

Metafizik vahidlər aşağıdakı kimi təsəvvür oluna bilər:

1. **Metafizik məkan:** Ölçüsü sıfıra bərabər olan, özündə sonsuzluq kimi dərk edilən məkanı biz metafizik məkan kimi təyin edirik, hansı ki kosmik məkanın bütün ölçülərinin məcmusunun şərtlərini özündə ifadə edir. Metafizik məkan idrak prosesində xalis sonsuzluq – yoxluq kimi qavranılır. Sonsuz olduğundan təfəkkürdə idrakolunmazdır, buna görə ölçülüyü sıfırla mücərrədləşdirilir. Məkan təfəkkürdə ayrılıqda bir obrazın yerləşdirilməsindən – ölçüləndirilməsindən bilavasi-

tə və ya təbiətdə obyektin məkanda hərəkətindən dolayısı ilə qavranılır. Buradan, birinci üsulla qavrama intuitiv, ikinci hissidir. Fiziki məkan maddi nöqtənin, metafizik məkan xəyali nöqtənin hərəkətindən qavranılır. Fiziki nöqtə – kütlə vahidinin zərurətini özündə ifadə edir və ən kiçik maddiliyi özündə təqdim edir, hansı ki bundan kiçilmə yoxluq kimi təzahür edir. Kiçilmə ilə yox olmaq – təbiətin sərhədlərindən çıxma və metafizikaya keçməni özündə ifadə edir. Bunun riyazi ifadəsi müsbət ədədlərin sıfırdan keçməklə mənfi ədədlər kimi davam etməsindən ibarətdir. Bunu aşağıdakı kimi təsəvvür etmək olar: 1−1=(−1+1)=0 (−1;1) Yəni ən kiçik ölçünü 1 kimi təsəvvür etsək, birin kiçilməsi birin özündən çıxılması olacaqdır, yəni (1−1). Burada özündən çıxma özündən formanın çıxarılmasını ifadə edir, hansı ki rəng, həndəsi forma və say vəhdətdə xarici görüntünü – formanı təşkil edir. Formadan sayın çıxılması ilə xarici görüntü dezorqanizasiyaya məruz qalır, rəng və həndəsi forma aksidensial (təsadüfi) olduqlarından itir, say substansial olduğundan daxilə keçərək daxili görüntünün – substansial görüntünün təşkilində iştirak edir, hansı ki ayrılıqda görünməsi mümkünsüzlükdür, amma daxili görüntüdən təsəvvürə gətirilməsi mümkündür. Riyazi ifadədən görünür ki, formanın elementi kimi ən kiçik say, yəni vahid 0-ın daxilində gizlənir. Beləliklə, sıfır daxilində maddiliyin gizliliyini saxlayan varlığı ifadə edən saya çevrilir. Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *Sıfır – daxilində formanın elementini gizlədən metafizik aləmdən fiziki aləmə keçid sərhədində mövcud olan varlığın ölçüsüdür, hansı ki eyni anda həm vardır (+1), həm yoxdur (−1).* Həm var, həm yox olmaq daxildə olmaq, xaricdə olmamaqdır; və ya mahiyyəti olan amma forması olmayan və ya forması olan mahiyyəti olmayan formal varlıq kimi də təsəvvür edə bilərik. Belə varlığın növlərindən biri də formal ruhdur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: *Formal ruh – bədəndən ayrılıqda, maddiliklə heç bir əlaqəsi olmayan, müstəqil şəkildə daxili olan, xarici olmayan, buna görə forması olmayan yalnız*

mahiyyət kimi təsəvvürə gətirilən və riyazi ifadəsi sıfırdan kiçik olan xəyali nöqtədən ibarətdir. Beləliklə, biz xəyali nöqtə dedikdə əslində məhz formal ruhu, ədədi qiyməti (−) olan nöqtəni nəzərdə tutmuş oluruq. Metafizikanı xəyali nöqtənin hərəkəti əsasında idrak etdiyimizdən, buradan aydın olur ki, metafizik qanunlar formal ruhun tabe olduğu qanunlardan ibarətdir. Metafizikanı şərh etmək üçün metafizikaya keçmək lazım gəlir. Əgər biz sıfırı kiçiltməkdə davam etsək, onda 0−(+1)=−1 alınacaq. Mənfilik burada artıq formanın heç bir elementinin saxlanmadığı, maddiliyin inkar olunduğu və buna görə də təbiilikdən kənar metafizik işarə kimi xalis mahiyyəti bildirir. Bununla da, biz metafizikaya keçmiş oluruq. Buradan aydın olur ki, biz metafizikaya yalnız formal ruh kimi keçib onu dərk edə bilərik. Bu zaman bizim dərk etdiklərimiz formal ruhun dərk etdiklərindən ibarət olacaqdır, hansı ki *Kant* bunu xalis zəka adlandırmışdır. Bizim eyni zamanda formal ruh kimi idrakımız intuitiv idrakın mahiyyətini təşkil edir. Formal ruhun metafizikadan aşkarladığı, özünün də tabe olduğu qanunlar mənfi ədədlərin əməllərinin tabe olduğu qanunlardan ibarətdir, hansı ki eyni əməllərin nəticələri müsbət ədədlərdən – maddiliyin tabe olduğu qanunlardan kəskin fərqlənir. Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *Metafizik aləmin həqiqətləri formal ruhun azad idrakı ilə mənfi ədədlərin tabe olduğu əməllərin qanunlarına tabe olan xalis substansiyanın – forma ilə vəhdət təşkil etməyən mahiyyətin – həqiqətlərindən ibarətdir.* Bu prosesi əks istiqamətdə təsəvvür etdikdə metafizikadan fizikaya keçidi və formal ruhun fiktiv ruha keçidinin necə baş verdiyini təsəvvür edə bilərik. Belə ki, əgər mənfi ədədləri çoxaltmağa davam etsək, onda son ən böyük mənfi ədəd olan (−1) özündən çıxarılsa onda o sıfıra keçmiş olacaq, hansı ki sıfırın daxilində gizli mahiyyət kimi gizli saxlanılan forma ilə birlikdə mövcud olacaq. Əgər böyütməni davam etsək, yəni sıfırdan ən kiçik müsbət ədədə keçsək, onda onunla vəhdətdə (−1) daxildə qalaraq görünməz olacaq, bir isə digər aksidensial təzahürlərlə birləşib formanın ən ki-

çik ölçülüyünü – maddiliyi yaradacaq. Beləliklə, formal ruh metafizikadan fizikaya keçəcək və maddiliyin gizliliyində təbiətdə saxlanacaq. Yalnız təbiətin mürəkkəbləşməsinin elə nəhəng ölçülüyündən təzahür edəcək ki, artıq həmin ölçülükdə daxili həcmin gizliliyi pozulacaq. Biz birincili (cisimlərin) və ikincili (canlıların) mövcudluqların inkişafının ən son mümkün həddində daxili gizliliyin pozulması ilə ruhun görünmə cəhdini fiktiv insan varlığı, yəni şüurlu insan kimi qavrayırıq. Daxili gizliliyin pozulmasının aralıq mərhələsi canlılıq kimi meydana çıxır, hansı ki daxillə xaric arasında mübadilə baş verir. Biz mübadiləni müsbət ədədlərlə mənfi ədədlər arasındakı əməllər kimi mücərrəd riyazi təsəvvür edə bilərik. Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *Yalnız müsbət ədədlərin iştirakı ilə aparılan əməllərin tabe olduğu qanunlar maddiliyin, müsbət ədədlərlə mənfi ədədlərin iştirakı ilə aparılan əməllər canlılığın, yalnız mənfi ədədlərin iştirakı ilə aparılan əməllər ruhun tabe olduğu qanunları özündə mücərrəd riyazi ifadə edir.* Maddi nöqtə ədədi qiyməti olmayan və buna görə də idraka gətirilməsi mümkünsüzlük olan maddilikdən ibarətdir. Nə üçün maddi nöqtənin idraka gətirilməsi mümkünsüzlükdür? Biz qeyd etdik ki, təbiət – ölçülü, metafizika – ölçüsüz vahidlərlə xarakterizə olunur. İdrak ruhun xarakteristikası kimi ölçüsüzlükdən ibarətdir və xarici ölçülüyü özündə refleksiya etməklə ölçülənir ki, biz də bunu təsəvvürə gətirmək kimi qavrayırıq. Amma maddi nöqtə ölçüsüz olduğundan, onun təsəvvürə gətirilməsi ilə təfəkkür ölçülənmədiyindən onun təsəvvürə gətirilməsi də mümkünsüzlük olur. Burada "idraka gətirilmə" ifadəsi özü-özündə xaricdə qala-qala, ölçülərini ondan ayırıb təfəkkürə köçürülməsi mənasını verir, hansı ki belə köçürülməni biz refleksiya adlandırırıq. Buradan da məlum olur ki, maddi nöqtə elə kiçik maddilikdir ki, onun təfəkkürdə əksini almaq mümkünsüzlükdür, yəni onun ölçüləri yalnız xaricdə özü-özündə qalması üçün yetərlidir. Xəyali nöqtə – maddiliyi inkar edən və buna görə də maddi nöqtənin kiçilməsi ilə yoxluqdan aşkarlanan ən böyük

mənfi nöqtədir. Xəyali nöqtə yoxluq olduğundan, onun daxildə idraka gətirilməsi mümkünlükdür. Burada yoxluq olmaq təbiətdən çıxmaqla ağılda mövcud olmanı və ya metafizikaya keçməni özündə ifadə edir. Xəyali nöqtə maddi nöqtənin təbiətdən kənara tam çıxarılması ilə, yəni özündə-şey kimi saxlanmasına imkan verməməklə bütünlükdə təfəkkürə köçürülməsi ilə əldə edilir, hansı ki təbiətdə yoxluq kimi aşkarlanır.

Fiziki məkan – üçölçülü, metafizik məkan – ölçüsüzdür. Fiziki məkanda maddi nöqtənin məkanda A nöqtəsindən B nöqtəsinə hərəkət etməsi ilə məkanın bir ölçüsü, A nöqtəsindən bucaq altında C nöqtəsinə hərəkətindən başqa ölçüsü və hər iki ölçü istiqamətinə şaquli hərəkətdən üçüncü ölçüsü alınır. Fiziki nöqtə müxtəlif istiqamətlərdə yalnız ayrı-ayrı vaxtlarda hərəkət edərək üç ölçü yaradır. Buradan təbii məkanın aşağıdakı qanunu aşkarlanır: *Təbiətdə hər hansı bir maddi nöqtə eyni vaxtda yalnız bir yerdə ola bilər.* Təbiətdə maddi nöqtənin bir istiqamətdə hərəkəti digər istiqamətdə hərəkətinin zərurəti ilə şərtləndiyindən, azad deyil, məhduddur və buradan da fiziki məkan ölçülərinin ədədi qiymətləri yaranır. İstiqamətin ölçüyə refleksiyasından müxtəlif istiqamətlərdən fərqli ölçülük əmələ gəlir, hansı ki mücərrəd şəkildə en, uzunluq, hündürlük ölçüləri kimi qavranılır. Məkan ölçülüyü müxtəlif olduğundan, bir ölçü yalnız xaricdə digər ölçüyə keçir. Metafizik aləm maddi təşkil olunmadığından burada məkan maddi nöqtə ilə yox, xəyali nöqtə ilə qavranıla bilər. Xəyali nöqtə – qeyri-maddi nöqtədir. Biz xəyali nöqtəni dalğa nöqtəsi adlandırırıq. Dalğa nöqtəsi – dalğanın bir amplitudası kimi təsəvvür oluna bilər. Müstəqil dalğa amplitudasının ifrat qısalması ilə kvant fizikasının aşkarladığı ayrı-ayrı hissəciklər mövcud olur, hansı ki sürəkli olaraq birbirinə keçməklə təzahür edir; belə əbədi keçid vəziyyətində hər bir hissəcik eyni zamanda var və yox olur. Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *Xəyali nöqtə – eyni zamanda var və yox olan, müstəqil dalğa amplitudasının özündə sıxlaşaraq fasiləsiz bir-birinə keçməklə yaratdığı hissəciklərdən ibarətdir.* Metafizik keçid təbii keçiddən “0” qiymətinə

malik sürətlə fərqlənir, hansı ki sonsuzluğun əbədilikdə mövcudluğundan ibarət olur. Eyni anda həm var, həm yox olmağın mücərrəd vahidi sıfırdır. Əgər biz riyaziyyatda sonsuz ədədlər çoxluğunu fikrən təsəvvürə gətirsək, onda məlum olar ki, son mənfi ədədlə başlanğıc müsbət ədədin və ya başlanğıc mənfi ədədlə son müsbət ədədin cəmi sıfıra bərabər olur. Biz təfəkkürdə yalnız təbiətdə olan müsbət ədədlərin əvvəlini, mənfi ədədlərin sonunu aşkarlaya bildiyimizdən, mücərrəd şəkildə bunu ifadə edə bilirik, amma mənfi ədədlər metafizikadan başladığından və müsbət ədədlər metafizikada qurtardığından onları eyni məntiqlə idrak edə bilmirik və buna görə də mücərrəd ifadə edə bilmirik. Amma ümumi şəkildə deyə bilərik ki, sıfır cəm kimi özündə eyni qiymətli əks işarəli ədədlərin cəmindən ibarətdir. Buradan da sıfırı metafizika ilə fizikanın keçidindən aşkarlanan ölçülük kimi təyin edirik, hansı ki sıfırdan sağa təbiətə keçid kimi müsbət, sıfırdan sola metafizikaya keçid kimi mənfi ədədlər çoxluğunu təşkil edir. Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *Müsbət ədədlərin sonu, mənfi ədədlərin başlanğıcı məhz ilk başlanğıcda, yəni İlahi təbiətdədir, ona görə idrak olunmazdır.*

Təbiətdə hər şey maddiliyi tələb etdiyindən təbii hərəkət də maddiliyi tələb edir, bu tələbə görə təbii hərəkət vasitəlidir. Başqa sözlə, təbii hərəkət birincili məkan kimi materiyanın və ya maddənin hərəkətidir. Metafizikada məkanda hərəkət maddi vasitə tələb etmir və buna görə də vasitə kimi dalğaya malik olur. Metafizik məkanda başlanğıc azadlıq olduğundan dalğa eyni zamanda bütün istiqamətlərə bərabər yayılmaq imkanına malikdir. Yəni metafizik məkan xəyali nöqtənin eyni vaxtda müxtəlif istiqamətlərdə hərəkətindən və ya xəyali nöqtənin azad şəkildə təfəkkürdə yerləşdirilməsindən qavranıla bilər. Buradan metafizik məkanın aşağıdakı qanunu aşkarlanır: *Metafizikada xəyali nöqtə eyni vaxtda müxtəlif yerdə ola bilər.* Eyni vaxtda müxtəlif yerdə olmaq özündə həm varlığı, həm yoxluğu əks etdirir. Xəyali nöqtənin eyni vaxtda müxtəlif yerlərdə olması istiqamətin inkar olunduğunu bildirir. Bu cür məkan əlaqəsi ekzistensiyadır, yəni xəyali nöqtə və ya formal ruh eyni anda hər tərəfə özündə qal-

maqla çıxır. Özündə qalmaqla çıxma həm olmaq, həm olmamaqlıq kimi baş verdiyindən eyni bir xəyali nöqtənin eyni vaxtda müxtəlif yerlərdə olmasına imkan verir. Buradan da, metafizik məkanın ölçüsünün sıfıra bərabər olması aşkarlanır. Əgər riyazi mücərrədləşmə ilə yoxluğu – həqiqətin azalma meylini (−) kimi, varlığı – həqiqətin artma meylini (+) kimi təsəvvür etsək, onda eyni vaxtda həm yox, həm var olmağı aşağıdakı düsturla ifadə edə bilərik: (−1)+1=0. Burada sıfır eyni zamanda həm var, həm yox olmanın ölçülüyü – yəni ölçüsüzlüyü kimi meydana çıxır. Metafizik məkanın ölçüsüzlüyü sonsuzluq kimi qavranılır. Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *Metafizik məkan – xəyali nöqtənin eyni vaxtda müxtəlif yerlərdə olmasından, ədədi qiyməti sıfıra bərabər olan sonsuz məkanın metafizik anlayışıdır.* Metafizikadan fizikaya keçiddə metafizik məkandan İlahi İradədən verilən şərtlərlə ölçülü məkan yaranır, bu zaman metafizik məkanın sonsuzluğu ölçüləri ümumi məkanın ölçülüyünü təşkil edən ölçülü şeylərin sayına keçir. Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *Metafizikadan fizikaya keçiddə, yəni Kosmosun yaranmasında sonsuz məkan, sonsuz sayda mövcudluğun sonlu ölçülüyünün məcmusuna keçir.*

2. **Metafizik zaman:** Ölçüsü sıfıra bərabər, özündə əbədilik kimi dərk edilən zamanı biz metafizik zaman kimi təyin edirik. Metafizik zaman kosmik zamanın bütün ölçülüyünün şərtlərini özündə ifadə edir. Metafizik zaman bütün zaman ölçülüyünü özündə ifadə etdiyindən ayrı-ayrı vaxtlar kimi ölçülük əldə etmiş Kosmik zamana münasibətdə yoxluq kimi idrakda qavranılır və ölçülüyü sıfır kimi mücərrədləşdirilir. Zaman təfəkkürdə fərqli obrazların yerləşdirilməsi arasındakı mücərrəd məsafədir. Buradan məkanın mücərrədliyi zaman kimi qavranılır. Yəni məkan xarici məsafəni, zaman daxili məsafəni bildirir. Məsafə isə idrak obyekti ilə idrak subyektinin, yəni maddə ilə ruhun fərqinin refleksiyası olur. Fizikada zaman Günəşin çıxmasının bir intervalı kimi təyin olunmuşdur. Başqa sözlə, təbii işıqlanmanın bir dövrü zaman kimi dərk olunur. Yəni əslində təfəkkürdə zaman – xari-

ci görüntünün işıqlanması ilə qaranlıqlaşmasının vəhdətindən və ziddiyyətinin mübarizəsindən qavranılır. Bu cür vəhdətdə mübarizədə təbii zamanda işıqlanma qaranlıqlaşmanı, qaranlıqlaşma işıqlanmanı məhdudlaşdırır. Nəticədə məhdud zaman – ölçülü zaman, yəni vaxt meydana çıxır. Vaxt da məkan kimi üçölçülüdür və mücərrəd ölçüləri – keçmiş, indi və gələcək vaxtdan ibarətdir. Dövrülük istiqamətsiz olduğundan, istiqamətin təbii zaman ölçülərinə refleksiyası baş vermir, nəticədə eyni ölçülük yaranır; yəni mücərrəd keçmiş, indi və gələcək vaxt bir-birinə eyniyyət təşkil edir. Bu cür eyniliyə görə zamanın özüözündə daxili keçidi baş verir. Gələcək indiyə, indi keçmişə keçir. Daxili keçidə görə zamanın təbii ölçüləri xarici seyr olunmur. Yəni biz keçmişin, indinin və gələcəyin vaxt ölçülüyünü seyr edə bilmirik. Buradan da zaman ölçüsüz kimi qavranılır. Metafizikada günəş olmadığından metafizik zaman təbii zamandan fərqli olaraq dövri yox, xətti zamandır. Xətti zaman İlahi Nurun Allahdan şüalanması kimi qavranıla bilər, hansı ki başlanğıcı Allahda olduğundan idrak olunmazdır, sonu təbiətə keçib maddiləşdiyindən metafizikadan intuitiv qavranılmayandır. Buradan metafizik zamanı başlanğıcının və sonunun intuitiv idrakla qavranılması mümkünsüzlük olan, xətti zaman kimi təyin etmək olar. Bu cür başlanğıcın və sonun qavranılmasının mümkünsüzlüyü əbədilik kimi qavranılır. Əbədi zaman eyni yerdə müxtəlif vaxtların bir yerdə olmasını özündə ifadə edir. Yəni son və başlanğıc olmadığından ara da olmur. Nəticədə, metafizik zaman həm keçmiş, həm indi, həm də gələcək olur. Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *Metafizik zaman – xəyali nöqtənin başlanğıcı və sonu olmadığından eyni anda müxtəlif zamanlarda olmasına görə ədədi qiyməti sıfıra bərabər olan əbədi zamanın metafizik anlayışıdır.* Metafizikadan fizikaya keçiddə metafizik zaman təbii vaxta keçir. Təbii vaxt hər bir mövcudluğun özündə asılı olduğu vaxtdan ibarətdir, hansı ki mövcudluğun mövcudolması ilə ölçülənir. Mövcudolma dövri proses olduğundan məhdud zaman dövri prosesin zamanı olur.

Metafizik zaman xətti olduğundan – əbədi, təbii zaman dövri olduğundan keçici vaxtdan ibarət olur. Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *Metafizikadan fizikaya keçiddə sonsuz sayda mövcudluğun mövcud olmasına uyğun xətti zaman dövri zamana keçməklə öz əbədiliyini dövrülüyün əbədiliyinə keçirir.*

3. **Metafizik enerji:** Təbii enerji maddilik tələb etdiyindən təbii enerjidə həm maddənin öz enerjisi – statik enerji, həm də maddənin məkan və zamanda hərəkət enerjisi – kinetik enerji vəhdətdə mövcud olur. Metafizikada maddilik tələb olunmadığından, metafizik enerji xalis kinetik enerji kimi mövcuddur. Buradan da, biz enerji nədir sualına cavab tapa bilərik. İlkin hərəkətliliyi Allahın özündə öz iradəsi ilə ehtizaza gəlməsi ilə öz Nurunu şüalandırması kimi təsəvvürə gətirdiyimizdən biz enerjini dalğa təbiətinin forması kimi təyin edə bilərik, hansı ki dalğanın mahiyyəti ilə vəhdətdə qavranıla bilər. Beləliklə, metafizik enerji özündə sonsuz sayda İlahi Nurun dalğa təbiətinin forması kimi mövcuddur, hansı ki vasitə tələb etməyən və ya vasitəsi dalğa kimi özü olan metafizik hərəkətin enerjisidir. Biz enerjini – İlahi Nurun Başlanğıcdan ayrılaraq ayrı-ayrı xəyali nöqtələrə – dalğa amplitudasına keçməsinin refleksiyası kimi təsəvvür edirik. Yəni enerji özlüyündə hər hansı bir təbiətin reorqanizasiyasından yaranır, hansı ki təşkil olunma ilə bu təbiətləri təzahür etdirir. Metafizikada yalnız dalğa təbiəti olduğundan biz metafizik enerjini dalğa təbiətinin reorqanizasiyasını – İlahi başlanğıcdan ayrılmaqla sonsuz sayda xəyali nöqtələrə ayrılmasını özündə refleksiya edən anlayış kimi təyin edirik. Metafizik enerjini təbii enerjidən vəhdətsiz, yəni xalis kinetik enerji – hərəkət enerjisi kimi – İlahi Nurun əbədi və sonsuz şüalanmasının enerjisi kimi təsəvvür edirik. Belə, təbiətinə görə metafizikada yalnız bir enerji olduğundan, təbiətdən aşkarlanan enerjinin çevrilməsi və buna görə də saxlanması qanunu qüvvədə olmur. Buradan da metafizik enerjinin başqa enerjiyə çevrilməməsi və saxlanmaması qanunu aşkarlanır. Başqa enerjiyə çevrilmədiyindən özü-özündə reflek-

siya kimi meydana çıxır və buna görə mahiyyəti qavranılmayan olur. Saxlanmadığından ölçüsü sıfıra bərabər olur. Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *Metafizik enerji – özü-özündə refleksiya edən və buna görə mahiyyəti idraka qapalı olan, ədədi qiyməti sıfıra bərabər, İlahi nurun dalğa amplitudasında ayrılması ilə var olan xəyali nöqtələrin hərəkət enerjilərinin məcmusundan ibarətdir.*

4. **Metafizik hərəkət:** Hərəkət fizikada yerdəyişmə kimi təyin olunur. Yerdəyişmə – bir məkan ölçülüyündən başqa məkan ölçülüyünə xarici keçiddən ibarətdir. Bu zaman maddi nöqtə paralel olaraq özündə həm də daxildə bir zamandan digərinə keçir. Təbiətdə maddi nöqtənin bir yerdən başqasına keçidini xarici seyr edirik, amma bir zamandan digərinə keçidi daxili olduğundan xarici seyr olunmur. Yəni belə keçid görünmür, yəni hissi qavranılmır, yalnız intuitiv qavranılan olur. Nəticədə, təbiətdə məkanla zamanda paralel keçid iki fərqli müstəvidə: məkanda keçid – xaricdə, zamanda keçid – daxildə seyr olunduğundan biri keçid kimi qavranılanda digəri keçid kimi qavranılmır. Buradan da, təbiətdə hərəkət vahid zamanda gedilən yol kimi təsəvvür olunur. Halbuki, əsl həqiqətdə vahid zaman özü-özündə daxili keçid edən eyni üç zaman ölçülüyünün məcmusundan ibarət olur. Maddi nöqtə paralel olaraq məkan və zamanda keçid etdiyindən hərəkət bu iki keçidin vəhdətindən ibarət olur. Bu vəhdətdə məkanla zamanın keçidinin vəhdətindən və mübarizəsindən hərəkət aşkarlanır. Bu mübarizə hərəkətin məkanla düz – xarici keçid kimi, zamanla tərs – daxili keçid kimi münasibətindən aşkarlanır. Nəticədə hərəkət V=S:T düsturu ilə ifadə olunan qanuna tabe olur. Sonsuz məkanda əbədi vaxtda yerdəyişməni biz metafizik hərəkət kimi təyin edirik. Metafizik hərəkətin sürəti sıfıra bərabər olduğundan kosmik sürətli hərəkətə nisbətdə idraka təqdim olunmur, buna görə yoxluq kimi dərk olunur. Kosmik hərəkət məkanda yalnız eyni zamanda bir istiqamətli hərəkət edən cismin qət etdiyi yoldan ibarətdir. Metafizikada xəyali nöqtə eyni vaxtda müxtəlif yerdə olduğundan onun bir yerdən başqa

yerə keçidi istisna olunur. Nəticədə, məkanda yerdəyişmə baş vermir. Yəni məkani yerdəyişmə sıfıra bərabər olur. Buna uyğun, xəyali nöqtə eyni yerdə müxtəlif vaxtlarda olduğundan zamanda daxili keçid istisna olunur, yəni metafizik zamanın qiyməti sıfır olur. Buradan da, aşağıdakı metafizik ideya aşkarlanır: *Metafizik hərəkət – xəyali nöqtənin əbədi vaxtda sonsuzluqda olmasından ibarətdir.*

Biz metafizik məkan və zamanı İlahi İradənin şərtləri kimi, hərəkəti İlahi Bacarığın gücü kimi, mümkünlüyün varlığını isə İlahi Nurun özündə daşıdığı İlahi İstək kimi təyin edirik. Buradan aşağıdakı metafizik anlayış alınır: *Metafizik aləm mümkünlüyün varlığının – mütləq həqiqətin əbədi zamanda, sonsuz məkanda metafizik hərəkətindən təşkil olunur.* Metafizik sürət – varlığın eyni anda müxtəlif istiqamətlərdə – üç istiqamətdə və eyni yerdə (sükunətdə) müxtəlif vaxtlarda eyni hərəkətindən ibarətdir.

METAFİZİKADAN FİZİKAYA KEÇİD – YARANMA

Metafizikadan fizikaya keçidi ölçüsüzlükdən ölçülüyə və ya əbədilik və sonsuzluqdan məhdudluq və faniliyə keçid kimi təyin edə bilərik. Keçid anlayışının çoxlu mənası vardır. Biz metafizikadan fizikaya keçidi bir qanunlar sistemindən başqa qanunlar sisteminə keçid kimi təsəvvür edirik. Təbiətdə çoxlu sayda fərqli qanunlar vardır. Bu qanunlar eyni ümumi əsasdan meydana çıxdığından, bir qanunlar sistemini – Kosmosu özlərində təqdim edirlər. Bu qanunlar müxtəlif kəmiyyətlərin arasındakı münasibəti özündə ifadə edir. Kəmiyyətlərin sayının əvəzlənməsində bir təbii qanun başqa təbii qanuna keçir, hansı ki biz bunları əmələgəlmənin və ya bir mövcudluqdan digərinə keçid qanunları kimi qavrayırıq.

Kosmosun əsas qanunları ən ümumi qanunlar olub, kütlənin iştirakını tələb etməyən kəmiyyətlər arasındakı münasibəti ifadə edən qanunlardır. Kütləni tələb etmədiyindən, həmin qanunlar məhz metafizikada da mövcud olan qanunlardan ibarətdir. Metafizikadan fizikaya keçiddə metafizika ilə Kosmosu birlikdə şərh etməyə imkan verən həmin kəmiyyətlər İla-

hi İradə tərəfindən ölçülənir, yəni onlara şərtlər verilir. Belə şərtləri aldığına görə məkan sonsuzluqdan, zaman əbədilikdən məhrum olur və Kosmosu təşkil edən mövcudluqlar ölçülü məkan və zamanla şərtlənərək yaranır. Kosmosda mövcudluqların təbiətindən asılı olaraq İlahi İradədən iki cür şərt verilir.

1. **Sabit şərtlər:** Sabit şərt – mahiyyəti eyni, forması və ölçüləri müxtəlif olan şərtlərdən ibarətdir. Cisimlərin zaman şərti an, məkan şərti en, uzunluq, hündürlükdən ibarətdir. Buradan da cisimlərin mövcudluğunun "indi və burada" prinsipi meydana çıxır. İndi – anı, burada – konkret sabit ölçülüyü ifadə edir. An metafizik anlayış olduğundan "indi-burada" prinsipi cisimlərin birbaşa metafizikadan yarandığını göstərir. Yəni cisimlərin keçmişi və gələcəyi yoxdur. Onlar yalnız indidə mövcuddur, buradan da şərtlərin sabitliyi meydana çıxır.
2. **Dəyişən şərtlər:** Şərtin öz daxilində bir mahiyyətdən başqa mahiyyətə keçidini biz dəyişən şərtlər adlandırırıq. Məhz İlahi İradədən belə şərtlərin verilməsi ilə cisimlərin daxilində yeni mahiyyətə – canlılığa keçid baş vermişdir. Bir, amma əvəzlənən mahiyyətli, çoxformalı, müxtəlif ölçülü şərtləri biz dəyişən şərtlər adlandırırıq. Müxtəlif forma ilə çoxformalılığın fərqi ondadır ki, eyni bir mövcudluq eyni zamanda bir formadan təzahür edir, çoxformalılıqda eyni bir mövcudluq eyni zamanda müxtəlif formadan təzahür edir. Məsələn, canlıların erkək və dişisi, eləcə də müxtəlif yaş dövrlərində fərqli formalarda meydana çıxır.

Buradan aşağıdakı kosmoloji ideya aşkarlanır:

Canlılar – bir mahiyyətli, çoxformalı, müxtəlif ölçülü mövcud varlıqlardan ibarətdir.

Bunu necə anlamaq olar? Fil – bir canlı növün mahiyyətidir. Amma formasına görə erkək və dişi fil, ölçülərinə görə kiçik və böyük fil differensiasiya edilir. Canlılarda ölçülərin dəyişilməsi ilə forma dəyişir, amma formanın dəyişməsi ilə mahiyyət dəyişmir. Cisimlərdə bundan fərqli olaraq, ölçülərin dəyişilməsi ilə nə forma, nə də mahiyyət dəyişmir. Məsə-

lən, bir ton xörək duzu ilə bir qram xörək duzu eyni formalı maddəni özündə təqdim edir, hansı ki mahiyyəti xörək duzundan ibarətdir. Kiçik fil də, böyük fil də müxtəlif formadan, fərqli ölçülərdən aşkarlanır. Fil formasından onun həm dişisi, həm erkəyi aşkarlanır. Buradan aşağıdakı kosmoloji ideya aşkarlanır:

Cisimlərin mahiyyəti və forması sabit, yalnız xarici ölçüləri dəyişkəndir. Canlıların mahiyyəti sabit, formaları və xarici ölçüləri dəyişkəndir.

Canlılar dəyişən şərtlərin verilməsi ilə yeni qanunlar sisteminə tabe olan ikincili mövcudluqlar kimi yaranmışdır. Buradan da canlılığın ümumi şəkildə birinci şərti sabit şərtlərdən ibarətdir, yəni istənilən canlının bədəni cisimdən təşkil olunur. İkinci şərt, onu cisimlərdən fərqləndirən daxili zamana və ya daxili əməlgəlməyə, başqa sözlə, daxili proseslərə malik olmasını özündə ifadə edir. Məhz daxili zamana görə cisimlərin bir, canlıların iki zaman şərti meydana çıxır. Bu şərtlərdən xarici zaman şərti bütün mövcud varlıqlar üçün eyni, amma daxili zaman şərti konkret canlı fərd üçün orijinaldır. Orijinalın ümumidən fərqi canlılarda "müxtəlif zamanlarda, müxtəlif ölçüdə olmaq" prinsipinə refleksiya edir.

Sabit şərtli mövcudluqda mövcudluğu müəyyən edən şərtlərdən (kəmiyyətlərdən) birinin başqası ilə əvəzlənməsində bir nəticə meydana çıxır və həmin nəticə səbəblə determinik əlaqədə olur. Amma canlılarda şərtlər dəyişən olduğundan bir kəmiyyət iki cür dəyişikliyə, yəni iki fərqli və müstəqil nəticəyə səbəb olur, hansı ki hər iki nəticə paralel olaraq səbəblə determinasiya edir. Buradan da canlıların formaları, fəsilələri, növləri, cinsləri və s. meydana çıxır.

Cisimlərdə hissə anlayışı bir-birindən fərqli iki mənaya malikdir: Tərkib hissə və tamın hissəsi. Tərkib hissə elə hissədir ki, başqa hissə ilə fərqliliyə malikdir və onun digər hissədən ayrılmasından mövcudluq bütünlükdə inkar olunur. Tamın hissəsi o hissədir ki, başqa hissələrlə eyniliyə malikdir, onun ayrılmasından mövcudluq yalnız tam kimi inkar olunur. Məsələn, xörək duzundan Na və ya Cl-u ayırsaq, onda xörək duzu

mövcudluq kimi inkar olunacaq, amma xörək duzu kristalından bir parça ayırsaq, qalan yenə xörək duzu kimi mövcud olacaq. Buradan da görünür ki, hər bir hissə yalnız bir mahiyyətə malikdir və onun dəyişilməsindən yalnız bir fərqli nəticə alınır.

Canlı orqanizmin hissələrini biz üzv kimi qavrayırıq. Üzv – cisimlərin hissələrindən eyni vaxtda iki ölçülü olması ilə fərqlənir. Yəni üzv eyni anda həm canlı fərdin tərkib hissəsi, həm də onun tamlığının hissəsidir. Yəni həm eyniliyə, həm fərqliliyə malikdir. Məsələn, ürək bir bədən üzvü kimi həm siçanın, həm də filin orqanizminin təşkilində iştirak edir. Ürəyin bir ölçüsü onun ürək olmasıdır, buradan da bütün ürəyi olan canlılar daxili mahiyyətinə görə oxşarlıq təşkil edir. Amma ürək həm də hissə olduğundan, filin bədəninin hissəsi kimi siçanın bədəninin hissəsindən dəfələrlə böyük olur. Eyni bir üzvün ölçülərinin dəyişilməsi ilə orqanizmləri təşkil etməsindən antropoloji ölçülük, yəni canlı orqanizmin məkani şərtləri yaranır. Müxtəlif üzvlərdən təşkil olunmasından canlıların sinfi – həşəratlar, suda-quruda yaşayanlar, balıqlar və s., müxtəlif ölçülü eyni üzvlərdən təşkil olunmasından canlıların növü – məsələn, məməlilərin pəncəliləri, təkdırnaqlıları, cütdırnaqlıları və s. meydana çıxır. Buradan da bir üzvün orqanizmdən ayrılmasından iki nəticə alınır. Birincisi, tərkib hissə kimi ayrılmaqla yeni canlı yaranır, tamın hissəsi kimi ölçülərini dəyişdikdə eyni canlı orqanizmin ölçüləri dəyişir.

Canlılıq dəyişən şərtlərdə mövcud olduğundan canlının hər hansı bir xarakteristikasının əvəzlənməsindən eyni zamanda bir-birindən fərqli iki yeni nəticə yaranır. Halbuki cisimlərdə bir kəmiyyətin əvəzlənməsindən yalnız bir nəticə meydana çıxır.

Metafizikadan fizikaya keçidi təsəvvür etmək üçün metafizik vahidlərdən təbii vahidlərin əldə edilməsinə baxmaq lazımdır. Ən ümumi şəkildə metafizikadan fizikaya keçid, metafizik ölçüsüzlükdən fiziki ölçülüyə keçid kimi, yəni mütləq azadlıqdan mütləq məhdudluğa keçid kimi baş verir. Təbii ölçülük aşağıdakı kimi alınır:

1. **Təbii məkani ölçülük:** Fizika elmi metrin uzunluğunu işığın vakuumda saniyənin 1/299 792 458 hissəsində qət etdiyi məsafə kimi təyin etmişdir (əvvəllər metr vakuumda şüalanan dalğanın 1 650 763,73 uzunluğuna bərabər götürülürdü). Beləliklə, İlahi Nurun şüalanmasında İlahidən ayrılma ilə vakuuma keçən dalğanın – işığın hərəkəti məkani ölçüyə refleks olunur, nəticədə məkanın ölçülüyü yaranır. Burada vakuum özündə metafizik məkanı ifadə edir. Yəni İlahi Nurun Başlanğıcdan ayrılmaqla metafizikadan keçidi ilə refleksiyasından məkan ölçüsü yaranır. Göründüyü kimi, məkan ölçüsü işığın yayılmasının refleksiyası kimi yaranır, hansı ki təbii uzunluq dalğa uzunluğundan fərqli olduğu kimi ölçülükdə fərqlənir.
2. **Təbii zaman ölçüsü:** Fizika elmi təcrübi vaxt ölçüsü kimi saniyəni sezium-133 atomunun əsas halının iki ifrat incə səviyyəsi arasındakı keçidə uyğun şüalanmanın 9 192 631 770 periodunun müddəti kimi təyin etmişdir (əvvəllər saniyə 1900-cü il üçün yanvar ayının efemerid vaxtının 0-da, saat 12-də tropik ilin 1/31 556 925,9747 hissəsi kimi təyin olunurdu; burada tropik il günəşin yaz bərabərliyi nöqtəsindən iki ardıcıl doğuşunu, efemerid vaxt isə Yerin fırlanmasının qeyri-bərabər olmasından asılı olmayaraq bərabər keçən vaxtı bildirir). Beləliklə, göründüyü kimi, təbii zaman ölçüsü atomun şüalandırdığı elektromaqnit dalğasının – işığın dövrülüyündən götürülür: bir saniyə həmin şüalanmanın təxminən doqquz milyard dövrünə bərabərdir. İşığın sürəti təbii sürətin mümkün ən böyük ölçüsüdür və bu sürətdən böyük sürətlə yalnız İlahi Nur hərəkət edə bilər. Buradan da saniyə İlahi Nurun refleksiyasından yaranan təbii işığın dövrülüyündən ibarət olur.
3. **Təbii sürətə malik hərəkət:** Xəyali nöqtənin İlahi İradə ilə, yəni məkan və zaman şərtlərinin ona verilməsi ilə əbədilikdə sonsuzluğun qət edilməsinə bərabər sürətlə, yəni sıfır sürəti ilə hərəkət edən xəyali nöqtə – İlahi Nur – özü-özündə xalis dalğa təbiətindən ikili təbiətə – dalğa və hissəcik təbiətinə keçərək kütlənin başlanğıcını yaradır. His-

səcik təbiəti dalğa uzunluğunun ifrat qısalması nəticəsində ikincili, yalnız Kosmosa keçiddə meydana çıxan təbiətdir. Hər bir hissəcik özündə xüsusi sıxılma kimi mövcud olur. Buradan, hissəcik həm də sıxılma haqqında məlumatdan ibarət olur. Beləliklə, İlahi Nur dalğa təbiətindən hissəcik təbiətinə keçməklə özündə ideya daşıyan fikrə malik fotonlara ayrılır. Hər bir fikir fotonu özündə bir xüsusi məlumatı dalğanın sıxlaşması haqqında məlumat kimi mövcud olur. Fərqli sıxlaşma fərqli ideyalar kimi qavranılır.

İlahi Nurun özü-özündə iki təbiətə ayrılması ilə metafizik enerji – kinetik və statik enerjidən ibarət vəhdətdə iki başqa-başqa ölçülüyə malik enerjiyə ayrılır, hansı ki statik enerji dalğa təbiətinin sıxlaşması ilə kütləni təşkil edir. Buradan, İlahi Nur – foton mənbəyi olmayan müstəqil işıq vahidləri kimi təbiiliyin başlanğıcını təşkil edir, hansı ki dalğa təbiəti fotonun daxili görüntüsü, hissəcik təbiəti xarici görüntüsündən ibarət olur. Fotonların bir-birinə təsirindən başlanğıc əksilik meydana çıxır. Bəzi fotonlarda dalğa təbiəti, başqalarında hissəcik təbiəti üstünlük təşkil edir. Dalğa təbiəti üstünlük təşkil edən fotonlar işıq fotonları, hissəcik təbiəti üstünlük təşkil edənlər maddə fotonları kimi mövcud olur. Üstünlük – daxilə, dərinə enmə kimi, əksilik – xaricə çıxma kimi meydana çıxır. Buradan da daxil və xaric yaranır. Daxil – üstünlüyün saxlandığı, buna görə dəyişilməyən, xaric – əksiliyin saxlandığı, buna görə də mübadilə olan olur. İşıqda hissəcik – daxili, dalğa xarici olduğundan işığın daxili qaranlıq, xarici parlaq olur, maddi foton əksinə – daxili işıq, xarici qaranlıq olur. Buradan aşağıdakı kosmoloji ideya aşkarlanır:

İşıq fotonu – daxili görüntüsü olmayan, buna görə daxilində qaranlıq olan, xarici görüntüsü – parlaqlığı olan; maddi fotonlar – daxili görüntüsü olan – parlaqlığı olan, xarici görüntüsü olmayan – xarici qaranlığı olan Kosmosun iki başlanğıc mövcud varlıqlarından ibarətdir.

Mövcudluqlar bir-biri ilə mövcud olduğundan və mövcudolma təsir və təzahürlə meydana çıxdığından, işıq fotonları ilə hissəcik fotonlarının xarici vəhdətdə mövcud olmasından onların aşağıdakı təzahürləri və bir-

birinə təsiri ilə yeni təzahürlərini ayırd etmək olar. Beləliklə, xarici vəhdətdə işıq fotonu parlaqlıq kimi, maddi fotonlar qaranlıq kimi təzahür edir. İşıq fotonunun maddi fotona qarşılıqlı təsiri işıqlanma hadisəsini yaradır. İşıqlanma zamanı işıq fotonu ilə maddi fotonun qarşılıqlı təsir-əks-təsir əlaqəsində birinin xarici digərinin daxilinə və daxili digərinin xaricinə çevrilir. İşıq öz xarici parlaqlığını maddi fotonun xarici qaranlığına verir, nəticədə maddəni işıqlandıran işığın xarici görünməz olur, əvəzində maddiliyin xarici görüntüsü qaranlıqdan çıxaraq görünən olur. Və əksinə, maddilik əks-təsir kimi öz daxilinin parlaqlığını işığa verərək özü onun daxilinin qaranlığına çevrilir, nəticədə maddiliyin daxili görünməz olur, əksinə maddilikdən aldığı parlaqlıqla işıq öz daxili qaranlığından xilas olaraq parlaqlıq əldə edir və görünür. Buradan aşağıdakı kosmoloji ideya aşkarlanır:

İşıq fotonu ilə maddi fotonun xarici vəhdət təşkil etməsi ilə, yəni mövcud olma ilə, qarşılıqlı təsir-əks-təsir əlaqəsində vəhdətdən əvvəl mövcudluq kimi ayrı-ayrılıqda xarici görüntüsü görünən, daxili görüntüsü görünməz olan işıq fotonu maddi fotona təsir etməklə xarici görüntüsü görünməz, daxili görüntüsü görünən olur; mövcud olmadan əvvəl mövcudluq kimi xarici qaranlıq, daxili aydınlıq olan maddi foton öz qaranlığını işığa verməklə xarici görünən, daxili işığını verməklə daxili görünməz olur.

İşığın daxili qaranlığının aydınlaşması ilə daxili görüntüsünün görünməsi işığın (şüanın) qayıtması kimi qavranılır. Əslində işıq şüası qayıtmır, sadəcə işığın daxili görüntüsü üzə çıxaraq görünən olur. Eləcə də işığın udulması udulma kimi baş vermir, sadəcə işığın xarici görüntüsünün görünməz olmasını udulma kimi qavrayırıq. İşığın sınması isə təsir-əks-təsir əlaqəsində entropiyanın yaranması, yəni həm işıq, həm maddi fotonların parlaqlığının azalması kimi baş verir, hansı ki məhz görünən Kosmos buna görə görünən olur. Başqa sözlə, sınma hadisəsi hər iki parlaqlığın azalması ilə görünməsini özündə ifadə edir, hansı ki biz birbaşa belə sınmaya məruz qalmadığından parlaqlığına görə nə işığa, nə də maddi fo-

tonun daxili işığına baxa bilirik. Buradan aşağıdakı kosmoloji ideya aşkarlanır:

Təbiətdə xarici vəhdətdə təsir-əks-təsir əlaqəsində fiziki təsirlər entropiyaya məruz qalmaqla hissi təsirlərə keçərək hiss üzvləri tərəfindən qavranılan olur.

Buradan demək olar ki, entropiyaya məruz qalmayan heç bir fiziki təsir hissi təsirə malik olmur və belə təsirlər məhvedici təsirə malik olur. Buradan həyatın şərtinin məhz entropiya olduğu məlum olur, hansı ki İlahi İradədən verilən şərt kimi təzahür edir.

Biz maddənin daxili parlaqlığını, işığın daxili qaranlığını təbiətdən necə müşahidə edə bilərik? Bunun üçün eyni təbiətli fotonların qarşılıqlı təsirinə baxmaq lazımdır. Əgər iki müstəqil işıq mənbəyindən düşən şüalarla işıq fotonlarının bir-birinə təsirinə nail olsaq, onda hər iki işıq fotonu entropiyaya məruz qalaraq eyni vaxtda öz xarici görüntülərindən (parlaqlıqdan) məhrum olacaq və hər ikisi eyni zamanda öz daxili qaranlığında təzahür edəcək. Bu fizikada işığın interferensiyası adlanır, hansı ki bu hadisədə üst-üstə düşən iki işıq qaranlıq yaradır, yəni öz daxili qaranlıqlarını görünən edir. Eləcə də, iki eyni maddi fotonun qarşılıqlı təsirindən hər iki fotonun xarici qaranlığı eyni vaxtda itir, hər ikisinin daxili parlaqlığı eyni vaxtda görünür. Bunu əyani şəkildə bərk şeylərin bir-birinə fiziki təsirindən görmək olar. İstənilən bərk maddələrin bir-birinə fiziki təsirində əks-təsir kimi qığılcım çıxır. Qığılcım hər iki maddi fotonun daxili parlaqlığı kimi görünür. Eləcə də atomun başqa atomla toqquşmasından atom parçalanır və atomun daxili parlaqlığı görünən olur. Bu da nüvə partlayışında nəhəng parlaqlığa malik işıqlanma kimi xarici seyr olunur. Buradan aşağıdakı metafizik ideya aşkarlanır:

İşıqlanma zamanı maddi fotonlarla işıq fotonlarının öz təbiətlərini mübadilə etməsi nəticəsində, işığın dalğa təbiətinin maddəyə, maddənin hissəcik təbiətinin işığa keçməsi ilə maddə işıqlanaraq xarici görüntü əldə edir, işıq qaranlıqlaşaraq görünməz olur.

İşıq fotonu ilə maddi fotonların qarşılıqlı təsiri sadə təsir, onların qarşılıqlı təsiri nəticəsində meydana çıxan entropiyaya məruz qalmış təsirin hissi orqanlara hissi təsiri mürəkkəb təsir kimi təzahür edir. Sadə təsirlər nəticəsində həqiqət aydınlaşır, mürəkkəb təsirlərdə həqiqət aşkarlanır. Yəni aydınlaşmada yalnız kosmik varlıqlar, yəni obyektlər; aşkarlanmada həm də metafizik varlıq kimi ruh öz təbiəti ilə iştirak edir.

Entropiyaya məruz qalmış fiziki təsirlər hissi orqanizmlərə təsir etdikdə görmə zamanı işıqlanmış maddə özündə qaranlıq olan və özündən kənar işıqlanan xarici görüntüsünü, işığın özündə görünməyən amma işıqlanma ilə görünən daxili görüntüsünü vəhdətdə təfəkkürə ötürür və təfəkkürdə hər iki təbiət iki ayrı-ayrı formada refleks olunur. Nəticədə, maddənin xarici, işığın daxili görüntüsündən – obraz, maddənin daxili, işığın xarici görüntüsündən – ideya, fikir yaranır. İdeya işığın interferensiyasına uyğun meydana çıxır. Belə ki, ruh xalis dalğa təbiətli, işıq ikili təbiətli olduğundan ruhla işığın qarşılıqlı təsirində daxildə hər ikisinin dalğa təbiətindən qaranlıq meydana çıxır, amma işığın hissəcik təbiəti kənarlaşdırılmır, təfəkkürdə müstəqil təbiət kimi qalır. Məhz ideyanın şeyini təfəkkürdə öz dalğa təbiətindən vəhdətdən kənar, yəni özünün yaranmasında əsas təşkil etmiş dalğa təbiətindən azad olmuş hissəcik təbiəti təşkil edir. Yəni, ideya və ya fikir – işığın xalis hissəcik təbiətindən təşkil olunmuş, xalis dalğa təbiəti ilə təfəkkürə daşınan hissəcik təbiətli şeydir. Beləliklə, görmə ideyaların xaricdən təfəkkürə daşınmasından ibarət prosesdir. İntuitiv idrakda daxildə ruh özü-özündə dalğa təbiətini sonsuz sıxlaşdırmaqla müxtəlif hissəcik təbiəti əldə edir ki, həmin hissəcik təbiətinin daşıdığı informasiya əsasında intuitiv qavrama baş tutur. Buradan müxtəlif anlayışlar arasında aşağıdakı əlaqəni aşkarlaya bilərik:

- Yoxluq – qaranlıq – forma – qaranlıqlaşma – obraz
- Varlıq – parlaqlıq – mahiyyət – aydınlaşma – ideya

Yoxluqla varlığın əlaqəsindən aşağıdakı metafizik ideya aşkarlanır:

Yoxluq – əsası dalğa təbiəti olduğundan, öz xüsusi başlanğıc təbiəti olmayan ayrıca hissəcik təbiəti kimi mövcudluqdur. Varlıq – əsası özü olan, başlanğıcı ilahi təbiət olan ayrıca dalğa təbiəti kimi həqiqətdir.

Metafizikadan fizikaya keçiddə İlahi Nurun fotonlara çevrilməsindən sonsuz sayda maddi və işıq fotonları yaranır, sonra eyniliyə görə fotonların sıxlaşmasından bir-birindən fərqli iki cür təbii varlıqlar – yalnız daxili görüntüsü olan və xaricdən işıqlanmaqla aşkarlanan maddə və yalnız xarici görüntüsü olan və maddənin təsiri ilə daxildən qaranlıqlaşan təbii işıq meydana çıxır. Bununla da fotonlardan ibarət Kosmos maddə və işıqdan ibarət dünyaya keçir, hansı ki işığın bir yerə toplanmasından günəşlər – fotonlardan ibarət reallıq və maddələrdən ibarət fəza cisimləri meydana çıxır.

Metafizik enerjinin iki yerə ayrılması ilə metafizik hərəkətin sürəti milyard dəfələrlə azalaraq təbii hərəkətə – fotonların hərəkətinə keçir. Hərəkətin refleksiyası xəyali nöqtənin enerjisinə, o isə kütləyə keçir. Bu cür keçidlə, xəyali nöqtənin kütləyə keçməsi ilə metafizik hərəkət təbii hərəkətə, yəni İlahi Nurun hərəkəti təbii işığın hərəkətinə keçir.

Yaranışın ən vacib məsələsi metafizikadan fizikaya keçidin necə baş verməsidir, yəni mümkünlüyün varlığı İlahi İradədən mövcudluq şərtləri aldıqdan sonra necə mövcud varlığa çevrilir, yəni Kosmos necə meydana çıxır?

Biz metafizikanı şərh etmək üçün Kosmosun şərhində istifadə edilən anlayışlardan, onların metafizik mənasını təyin etməklə Yaranmanı izah etməyi düzgün hesab edirik. Əks halda biz metafizikanı Kosmosun əksiliyi kimi aşkarlamış olarıq ki, bu da metafizika ilə Kosmosun eyni qanunlara tabe olması demək olardı. Əgər metafizika da Kosmosla eyni qanunlara tabe olsaydı, onda birindən digəri yaranmazdı. Buradan aşağıdakı metafizik ideya aşkarlanır:

Metafizikadan fizikaya keçid – bir qanunlar sistemindən başqa qanunlar sisteminə keçid kimi baş vermişdir.

Biz metafizikadan Kosmosa keçidi ehtimaldan reallığa keçid kimi təyin edirik, hansı ki ehtimalın tabe olduğu qanunlar ölçüsüz kəmiyyətlərlə, reallıqların tabe olduğu qanunlar ölçülü kəmiyyətlərlə ifadə olunur, nəticədə fərqli qanunlar sisteminə tabe olan iki aləm – metafizika və Kosmos aşkarlanır.

Biz ehtimaldan reallığa keçidi *Eynşteynin* nisbilik nəzəriyyəsinə uyğun şərh edilməsini düzgün hesab edirik. Həmin nəzəriyyəyə görə, işıq sürətindən artıq hərəkət zamanı enerji kütləyə çevrilir. Biz bu nəzəriyyəni yarımçıq təsəvvür kimi təyin edirik, hansı ki tam təsəvvürdə həmin nəzəriyyədən aşağıdakı metafizik ideya aşkarlanır:

İşıq sürətindən böyük sürətlə hərəkət zamanı hərəkət (dalğanın hərəkəti) enerjiyə (hissəciyin enerjisinə), enerji isə kütləyə (hissəciklərin konsentrasiyasına) çevrilir və nəticədə metafizikadan – qeyri-maddi aləmdən fizikaya – maddi aləmə keçid baş verir.

Metafizik hərəkətin enerjiyə çevrilməsi ilə metafizik sürət işıq sürətinədək azalır, buradan təbii hərəkətin ölçülüyü meydana gəlir, metafizik hərəkətin, İlahi Nurun dalğa təbiətinin hərəkətdən qalması ilə hərəkət təbii enerjiyə çevrilərək ölçülənir, nəhayət enerji metafizik kəmiyyət olmayan kütləyə keçir, hansı ki maddi aləmin əsas kəmiyyəti kimi Kosmosun metafizikadan fərqli qanunlara tabe olmasına səbəb olur.

Riyaziyyatda mənfilik metafizikanı, müsbətlik təbiəti mücərrəd ifadə edir. Buradan da biz metafizikanın qanunlarını mənfi ədədlər arasındakı əməllərlə, təbiət qanunlarını müsbət ədədlər arasındakı əməllərlə mücərrəd ifadə edə bilərik. Metafizikadan fizikaya keçidin qanunlarını isə mənfi ədədlərlə müsbət ədədlər arasındakı əməllərlə mücərrəd ifadə etmək olar. Beləliklə, metafizikadan fizikaya keçidin dörd mücərrəd qanunu vardır.

$$-6 - 2 = -8$$
$$-6 + (-2) = -8$$
$$-6 : (-2) = 3$$
$$-6 \times (-2) = 12$$

1. **Metafizikadan fizikaya keçidə hazırlanma qanunu:** Mənfi ədədlərin toplanmasından məlum olur ki, mənfi ədədlər toplandıqda cəm hər iki toplanandan kiçik olur. Məsələn:

   $-6 + (-2) = -8$

Beləliklə, metafizik aləmdə metafizik varlıqların bir yerə yığılması, summasiya olunması ilə kiçilmə baş verir, hansı ki ən ümumi şəkildə sonsuzluğun sonluluğa keçidi kimi təyin oluna bilər. Biz sonsuzluğun məhdudiyyətə və ya böyüklüyün kiçilməsini metafizikadan fizikaya keçidin başlanması kimi təyin edirik. Bu qanunu biz metafizikadan fizikaya keçidə doğru istiqamətlənmə kimi adlandırırıq. Metafizikadan fizikaya keçiddə metafizikada var olan hissəciklər bir-biri ilə birləşərlər və mövcud varlıqların substansiallığını təşkil edirlər. Belə birləşmə nə qədər çox olursa, metafizik sonsuzluq bir o qədər kiçilərək sonlulaşır.

2. **Metafizikadan fizikaya keçid:** Biz bunu mənfi ədədlərin bir-birinə vurulması qanunundan aşkarlayırıq. Məsələn:

   $-3 \times (-3) = 9$

Yəni summasiya olunmuş metafizik varlıqlar özü-özündə təkrarlanmaqla metafizikadan fizikaya keçid üçün tələb olunan şərtləri əldə edirlər. Özü-özündə təkrarlanmaq "eyni vaxtda həm var, həm yox olma" metafizik qanununun pozulması kimi meydana çıxır. Belə ki, özü-özündə təkrarlanma ilə "eyni vaxtda yalnız ya var, ya yox olmaq" olur.

$-3 \times (-3) = 9 = 3 + 3 + 3$

3. **Faktın əmələ gəlməsi:** Metafizikadan fizikaya keçiddə öncə ayrı-ayrı faktlar meydana çıxır. Ayrı-ayrı faktlar ümumi metafizik cəmin digər metafizik cəmlərə təsirindən meydana çıxır. Biz bunu mənfi ədədlərin bölünməsindən təsəvvürə gətirə bilərik:

   $-6 : (-3) = 2$

Göründüyü kimi, metafizik cəmlərin qarşılıqlı təsirindən metafizik müxtəliflik alınır.

4. **Faktın aktuallaşması, yəni keçid:** Hər hansı bir fakt metafizikadan digər faktlardan çıxmaqla fizikaya keçir. Buna görə də, metafizikadan

fizikaya keçid mənfi ədədlərin çıxılması ilə təsəvvürə gətirilə bilər. Belə ki, mənfi ədədlər bir-birindən çıxıldıqda istənilən halda fərq azalandan sıfıra doğru – keçidə doğru – meyl edir.

$-6 - (-3) = -3$

Metafizika ilə fizikanın əlaqə qanunları:

Metafizika ilə fizika özündə ziddiyyət saxlayan əksiliklərin tərəfi kimi həm də vəhdət təşkil edir və bu vəhdətdə metafizikadan fizikaya, fizikadan metafizikaya keçid aşkarlanır. Biz metafizikadan fizikaya keçidi yaranma kimi, fizikadan metafizikaya keçidi ölüm kimi təsəvvür edirik. Buradan aşağıdakı metafizik ideya aşkarlanır:

Metafizikadan fizikaya həm mövcud varlıqlar (obyektiv gerçəkliklər), həm də varlığın mövcudluğu (Formal Ruh) keçir, əksinə fizikadan metafizikaya yalnız varlığın mövcudluğu (formal Ruh) keçir.

Buradan da aydın olur ki, İlahi İradədən mümkünlüyün varlığının mövcudluq tələbində ona verilmiş şərtlər mövcud varlığın təkrar metafizikaya keçməsini mümkünsüz edir. Buradan da mövcud varlığın mümkünlüyü ilə onun metafizikaya keçməsinin mümkünsüzlüyü metafizika ilə fizika arasında əlaqənin xüsusi formasını yaradır. Amma mümkünlüyün varlığının mövcudluq tələbində ona İlahi İradədən zəruri mövcudluq şərtləri verilmədiyindən formal Ruhun metafizikaya təkrar qayıtmasının mümkünsüzlüyü istisna olunur.

Metafizika ilə fizika arasındakı əlaqənin qanunlarını – Kosmosun qanunları ilə metafizikanın qanunları arasındakı əlaqəni – müsbət ədədlərlə mənfi ədədlər arasındakı əməllərdən təsəvvürə gətirə bilərik. Buradan da üç qanun aşkarlamaq olar.

1. **Metafizikadan fizikaya və əksinə keçid qanunu:** Bu qanun müsbət ədədlərlə mənfi ədədlər arasındakı summasiyadan aşkarlanır. Buradan iki hal meydana çıxır.

   Birinci hal:

   a) $-3 + 4 = 1$

   b) $-3 + 2 = -1$

c) −3 + 3 = 0

Metafizik ölçülüklə təbii ölçülüyün summasiyasında metafizikadan fizikaya keçid o zaman baş verir ki, metafizik ölçü təbii ölçülükdən ədədi qiymətinə görə kiçik olsun (a). Əgər metafizik ölçülük təbii ölçülükdən böyük və ya ona bərabər olursa, onda fizikadan metafizikaya keçid baş vermir (b). Əgər metafizik ölçülük təbii ölçülüyə bərabər olursa, onda keçid vəziyyəti meydana çıxır (c).

İkinci hal:

a) −4 + (+3) = −1

b) −4 + (+4) = 0

c) −4 + (+5) = 1

Əgər təbii ölçülük metafizik ölçülükdən ədədi qiymətinə görə kiçikdirsə, onda onların fərqindən təbiətdən metafizikaya (a), yox ondan böyükdürsə metafizikadan təbiətə (c) keçid baş verir. Metafizik ölçülük təbii ölçülüyə bərabərdirsə onda keçid vəziyyəti (b) yaranır.

2. Metafizik ölçülüyün təbii ölçülükdə təkrarlanmasında təbiətdən metafizikaya keçid baş verir:
   −9 × 3 = −27 = ((−9) + (−9) + (−9))
3. Metafizik ölçülük təbii ölçülükdə təkrarlanmadıqda metafizikadan təbiətə doğru keçid baş verir:
   −9 : 3 = −3

Təbiətin qanunları:

1. **Mürəkkəbləşmə və ya birləşmə qanunu:** Təbiətdə iki sadə maddənin summasiyasından daha mürəkkəb maddə əmələ gəlir.
   2 + 3 = 5
2. **Sadələşmə və ya azalma qanunu:** Buradan iki hal meydana çıxır.
   Birinci hal: a) 6 − 3 = 3

Təbiətdə mürəkkəb maddələrin miqdarı azaldıqca təbiətdən metafizikaya doğru yerdəyişmə olur.

İkinci hal: b) 6 − 6 = 0

Hər hansı bir maddənin miqdarı özü qədər azalırsa, yəni kütlədən məhrum olursa, onda maddə keçid vəziyyətinə keçir. Buradan görünür ki, Kosmosdan metafizikaya keçid mümkünsüzlükdür, yəni keçidlə məhdudlaşmışdır. Yəni maddənin miqdarı özündən artıq azala bilmədiyindən müsbət ədəddən özündən böyük ədəd çıxılmır və fərq mənfi ədəd ola bilməz.

3. **Dağılma qanunu:** Buradan iki hal meydana çıxır.

Birinci hal:

$9 : 3 = 3$

Təbiətdə özündə təkrarlanmanın intensivliyinə uyğun dağılma baş verir. Yəni hər hansı bir mövcudluq nə qədər az özü-özünü təkrarlayırsa, bir o qədər dağılır.

İkinci hal:

$9 : 9 = 1$

Təbiətdə dağılma məhdud prosesdir, yəni təbiət daxilindədir. Dağılma ilə təbiətdən metafizikaya keçid baş vermir.

4. **Çoxalma qanunu:** Burada iki hal meydana çıxır.

Birinci hal:

$3 \times 3 = 9$

Təbiətdə mövcudluqlar məkanda təkrarlanmaqla çoxluq təşkil edir.

İkinci hal:

$3 \times 0 = 0$

Keçid vəziyyətində olan varlıq nə qədər özündə keçid vəziyyətində təkrarlansa da, keçid vəziyyətində qalır və bu vəziyyətdən çıxmır.

KOSMOSDA HƏQİQƏTİN AYDINLAŞMA ÜSULLARI

Kosmosu təşkil edən mövcud varlıqlardan həqiqət bir-birindən fərqli iki üsulla aydınlaşır: Təsir və təzahür.

a. Təsir: Biz təsiri sadəcə xalis mövcudluqdan, mahiyyətdən, həqiqətin aydınlaşma üsulu kimi təyin edə bilərik. Beləliklə, buradan aşağıdakı kosmoloji ideya aşkarlanır:

Təsir – mövcudluqdan, yəni daxili sabit zəruri şərtlərdən həqiqətin aydınlaşmasının şərtlərinin məcmusundan ibarətdir.

Daxili vəhdətin, qurulmanın təsdiqi, yəni başa çatması – təsirdir. Qurulma prosesində olan hər hansı bir mövcudluq təsirə malik deyil. Yəni təsir qurulmanın başa çatmasından sonra meydana çıxır. Buradan da, qurulma daxili proses olduğundan, təsir substansial olur və obyektdən ayrılmaz daxili xarakteristika kimi çıxış edir. Hər bir təsir konkret təşkilatlanmaya uyğun olduğundan, xüsusidir. Buradan aşağıdakı kosmoloji ideya aşkarlanır:

Təsir – ayrıca bir mövcudluqdan aşkarlanan, yalnız ona aid olan, mahiyyətlə formanın vəhdətinin – qurulmanın başa çatmasının şərtlərinin məcmusundan ibarətdir.

Qurulma mahiyyətlə formanın vəhdətini özündə əks etdirir. Hər hansı bir mövcudluq daxili təşkilatlanmanı başa çatdırıbsa, onda həmin təşkilatlanma səviyyəsinə uyğun təsir edir. Təsir – təbiətdə keçid prosesində bir mövcudluğun öz daxili vəhdətinin şərtlərini bütün mövcudluqlara keçirmək cəhdindən meydana çıxır. Başqa sözlə, təsir etməklə hər bir mövcudluq başqa mövcudluqları öz təşkilatlanmasının şərtlərinə uyğun təşkilatlandırmağa cəhd edir. Bu zaman eyni zamanda başqa mövcudluqların belə təsirinə məruz qalır. Biz, konkret mövcudluğa münasibətdə başqa mövcudluqların təsirini əks-təsir kimi təyin edirik. Sabit zəruri şərtlərə malik mövcudluqlarda – cisimlərdə təsir əks-təsirlə eyni ölçülü, amma əks istiqamətli olur. Burada, təsirin əks-təsirə eyni ölçülü əks istiqamətdə olması özündə ziddiyyət saxlamayan əksiliyin təzahüründən ibarətdir. Fizikada bu qanun $F = -F$ kimi mücərrəd düsturla ifadə edilir, hansı ki vektorial kəmiyyət kimi təsirin istiqaməti əks-təsirə əks olur. Əgər təsir əks-təsirə bərabər olmazsa, onda bir mövcudluq xarici vəhdətdə başqa möv-

cudluğu başqa mövcudluğa – yeni təşkilatlanmaya keçməyə məcbur edir. Buradan dəyişmə meydana çıxır.

Sabit zəruri şərtlərdə mövcud olan varlıqlarla dəyişən zəruri şərtlərdə mövcud olan varlıqlar arasında təsir-əks-təsir iki sabit şərtə malik mövcudluqlar arasındakı təsirdən fərqlənir. Başqa sözlə, cisimlərin canlılara təsirində əks-təsir dəyişilmiş fərqli formada meydana çıxır. Bu fərqə aşağıdakılar aiddir:

- Əks-təsir təsirə müxtəlif istiqamətli olur.
- Əks-təsir təsirdən kəmiyyət və keyfiyyətinə görə dəyişkən olur.

Biz canlılarda əks-təsirin təsirlə müxtəlif istiqamətli, dəyişən kəmiyyət və keyfiyyətdə meydana çıxmasını cavab kimi təyin edirik. Müxtəlif istiqamətlilik onu göstərir ki, canlı ona təsir edən cismə əks-təsir göstərməyə cəhd etmir və cismin təsirinə uyğun olaraq həmin təsirin istiqamətində özündə dəyişilməyə məruz qalır. Buradan inkişaf meydana çıxır. Cavabı aşağıdakı kimi mücərrəd ifadə etmək olar:

$F = F(H + m + E)$

Burada H – hərəkət və ya fəaliyyət, m – kütlə, E – enerjidir. Yəni düsturdan göründüyü kimi, cisimlərin canlılara ən müxtəlif təsirlərində canlılar hərəkətlə – fəaliyyətlə, bədən kütləsini azaldıb-artırmaqla – maddələr mübadiləsi ilə, və ya enerji balansını dəyişməklə – enerji mübadiləsi ilə cavab verir.

Cisimlərin ruha təsirində əks-təsir daha mürəkkəb transformasiyalarla meydana çıxır. Ruhun təşkilatlanması olmadığından və təşkilatlanma xarici olduğundan cisimlər ruha təsir etmir. Cismin təsirləri bədən vasitəsi ilə ruha ötürülür, sonra bədən-ruh əlaqəsindən cavab ruhda refleksiya olunur. Yəni təsirin cavaba keçməsi, sonradan cavabın ruha ötürülməsi ilə ruhda "əks-təsir" yaranır. Ruhun əks-təsiri artıq təsirə yox, dəyişilmiş təsirə – cavaba əks-təsir kimi meydana çıxır. Biz bunu təsirdən və cavabdan fərqləndirmək üçün münasibət adlandırırıq. Buradan da, cisimlərin ruha təsirini aşağıdakı mücərrəd düsturla ifadə etmək olar:

F = F(H + m + E) = O + I

Bu düsturda O – obraz, I – ideyanı özündə ifadə edir. Beləliklə, cisimlərin ruha təsiri aşağıdakı ardıcıllıqla əks-təsirə səbəb olur:

Təsir – Cavab – Münasibət.

Cismin təşkilatlanmasının üç əsas xarakteristikası vardır – kütlə, enerji və hərəkət. Kütlə – cismin maddəsinin, enerji – mahiyyətinin, hərəkət – maddə ilə enerjinin əlaqəsini özündə ifadə edir. Cisimlərdə kütlə, enerji və hərəkət arasında qarşılıqlı sabit əlaqə mövcuddur, hansı ki həmin əlaqə daxili vəhdət kimi təzahür edir. Bu əlaqədə bir xarakteristikanın dəyişilməsi avtomatik digər xarakteristikaları zərurətə görə dəyişir və cisim yenə də öz sabit quruluşunu amma başqa ölçüdə saxlayır. Canlılar dəyişən zəruri şərtlərdə mövcud olduğundan cismin sabitliyindən çıxan təsir canlıda dəyişən əks-təsirə səbəb olur. Dəyişən əks-təsir özündə həm ölçülərin, həm də xarakteristikaların paralel olaraq fərqli qaydada dəyişilməsinə səbəb olur. Nəticədə, cisimdə vəhdətdə olan hərəkət, enerji və kütlənin sabit əlaqəsi canlıda pozulur və hər bir xarakteristika ayrı-ayrılıqda əks olunur. Yəni canlı təsiri üç müxtəlif istiqamətə: H – fəaliyyətə, E – enerjiyə və m – bədən kütləsinə yönəldir. Beləliklə, cavab – təsir obyektinin daxili vəhdətini özündə pozmaqla, onu öz daxilində təşkilatlanmasının dəyişilməsi ilə cavab verməsindən ibarətdir. Cavabın təsiri ayrı-ayrı elementlərə ayırması nəticəsində təsir obyektinin in-formasiyalaşması baş verir. İn-formasiyalaşma – təsir obyektinin formasının mahiyyətdən ayrılması ilə formanın daxilinə keçməyi özündə ifadə edir.

Cavabın ruha ötürülməsi artıq in-formasiyalaşmış obyektin təfəkkürdə refleksiyası kimi baş verir. Yəni ruh in-formasiyalaşmış obyektin mahiyyətindən informasiya alaraq onu ideya kimi, mahiyyətdən ayrılmış formanı isə obraz kimi özündə refleksiya edir.

Münasibət təsirdən aşağıdakılara görə fərqlənir:

- Münasibət xarici təsirlə istiqamətsiz və ölçüsüz olur.
- Münasibət daxildə saxlanılır və buna görə də mücərrəd olur.

Ruhda xarici obyektlərin təsirinə münasibətin yaranması ilə təsir itir. Münasibət təsir obyektinin formasını mahiyyətindən ayırmağı və hər birini bir-birindən fərqli üsulla özündə saxlamağı ifadə edir. Münasibəti biz idrak kimi təyin edirik.

Varlıqların təbiətindən asılı olaraq aşağıdakı təsir formalarını ayırd etmək olar:

a. Obyektin obyektə təsiri:

İdrak prosesində obyekt-subyekt əlaqəsində həqiqət mövcudluqların təsir və təzahürlərinə görə qavranılır. Buna görə təzahür və təsirlərin mahiyyəti həqiqətin idrak problemi üçün müstəsna əhəmiyyət kəsb edir. Təzahür – faktiki varlığı (formanı), təsir – formal varlığı, hər ikisi vəhdətdə isə özündə mövcud varlığın həqiqətini qavramağa xidmət edir.

Bəs təsir və təzahür anlayışları özündə nəyi ifadə edir və nədən yaranır?

Yaranış İlahi Nurun Başlanğıcla əlaqəsinin kəsilməsi, hərəkətdən qalması və təbiətlərinin bir-birindən ayrılıqda və vəhdətdə eyni bir şeydə aydınlaşması ilə başladığından istənilən mövcud varlıq formal varlıqla faktiki varlığın daxili vəhdətindən təşkil olunur. Burada, formal varlıq İlahi Nurun dalğa təbiətini, faktiki varlıq hissəcik təbiətini özündə təqdim edir. Beləliklə, formal varlıq – dalğa təbiəti, başlanğıc təbiəti; faktiki varlıq – hissəcik təbiəti, dalğa təbiətindən yaranan ikincili və ya sonuncu təbiəti ifadə edir. Əksiliklərin tərəfləri kimi onların gerçəklikləri təfəkkürdə obyektiv varlığı təşkil edən formal varlığın özündə faktiki varlığa və əksinə faktiki varlığın formal varlığa vəhdətindən və özündə saxladıqları ziddiyyətindən qavranılır. Ziddiyyət saxlamaq – özündən əksiliyini itələməyi, inkar etməyi, özündən kənara çıxarmağı ifadə edir. Buradan da, faktiki varlığın özündə formal varlığa saxladığı ziddiyyətə görə onu özündən çıxarması – həyəcansız vəziyyətindən həyəcanlı vəziyyətə keçirməsi – mövcud varlığın həyəcana gəlməsi, dalğalanması, yəni dalğa təbiətinin mövcud varlıqdan ətrafa – başqa mövcudluqlara keçidi baş verir. Mövcud varlıqdan hissəciklərlə vəhdətinə görə ondan ayrılmayan, amma

ziddiyyətinə görə ondan itələnmə vəziyyətində ondan keçid edən dalğa təbiətini biz təzahür kimi qavrayırıq. Təzahür – dalğa təbiətinin hissəcik təbiəti ilə vəhdətdən itələndiyindən şeydən birdəfəlik çıxmır, yəni şeydə saxlanmaqla şeydən çıxma kimi meydana çıxır. Buradan aşağıdakı ontoloji ideya alınır:

Təzahür – İlahi Nurun hissəcik təbiətinin dalğa təbiətini mövcud varlıqdan, şeydə saxlanmaqla şeydən çıxma kimi, kənara itələməsinin – keçidinin şərtlərinin məcmusundan ibarətdir.

Dalğa təbiətini hissəcik təbiəti itələdiyindən təfəkkürdə təzahürlərdən onu itələyən varlıq – faktiki varlıq aşkarlanır. Faktiki varlıq – mövcud varlıqdan formalaşmış maddilik kimi aşkarlanır. Mövcud varlıqda hissəcik təbiətinin təzahürlərə görə qavranılması forma haqqında təsəvvür yaradır. Beləliklə, mövcud varlığın faktiki varlığı özündən formal varlığı itələməklə özünü idraka təqdim edir və buna görə də, təzahürlər şeydən kənara çıxıb subyektə daxil olduqda şeyin forması obraz – mücərrəd forma kimi qavranılır. Təzahürün şeydən kənara itələnməsi həm də özündə keçid kimi – şeyin daxilindən xaricinə keçid kimi meydana çıxır. Buradan aşağıdakı ontoloji ideya aşkarlanır:

Təzahür – təbiətdə xarici vəhdətdə bir mövcudluğun başqa mövcudluğa keçidinin şərtlərinin məcmusundan ibarətdir.

Təzahür təşkilolunmadan – daxili qurulmadan çıxmadığından, təşkil olunmayan və buna görə də, ən sadə həqiqəti aydınlaşdırır. Bir mövcudluq başqa mövcudluğa təzahürlərinin eyniliyinə görə keçə bilər. Eyni bir təzahürün müxtəlif mövcudluqlarda eyni olması aksidensiallıq kimi qavranılır. Aksidensiallığı olmayan mövcud varlıqlar bir-birinə keçmir. Buradan aşağıdakı ontoloji ideya aşkarlanır:

Cisimlərlə canlılar eyni aksidensiallığa malik olmadıqlarından, təbiətdə əmələgəlmə ilə cisimlərin canlı mövcudluqlara keçidi baş vermir.

Yəni, canlılar əmələgəlmədən yox, yaranmadan meydana çıxır. Başqa sözlə, canlılar da cisimlər kimi bilavasitə metafizikadan fizikaya keçməklə mövcud olurlar. Nəyə görə canlılar məhz yeni başlanğıc kimi yara-

dılmışdır? Onda həyatın cisimlərdən – inkişaf prosesində əmələ gəlməsi haqqında müddəaları necə təkzib etmək və canlılığın müstəqil başlanğıc olduğunu izah etmək olar? Bizim dünya cisim əsasında təşkil olunub və cisimlər canlılardan fərqli qanunlara tabe olur. Cisimlər İlahi İradədən zəruri şərtlər alaraq mövcudluq əldə etdiyindən hər bir cisim öz şərtlərini saxlamaq meylində mövcud olur. Buradan aşağıdakı kosmoloji ideya aşkarlanır:

İnkişaf prosesində canlıların sabit şərtlərinin dəyişən şərtlərlə əvəz olunması canlılığın mövcudluq üsuluna zidd olduğundan, canlılıq dəyişən zəruri şərtlərlə, mövcudolma sabit zəruri şərtlərlə mövcudolmadan əmələ gələ bilməz.

Bəs canlılıq cisimlərdən kənarda yoxsa cismin daxilində yaranır?

Fizikanın ətalət qanununa görə hər hansı bir cismə xarici təsir olmadan o özünün sükunət vəziyyətini və ya düzxətli bərabərsürətli hərəkətini hifz edir. Bu qanun cismin mövcudluğunun tabe olduğu qanun olduğundan onun forması ilə mahiyyəti vəhdətdə bu qanuna tabe olur. Buradan da mahiyyətin dəyişilməzliyi ilə bağlı aşağıdakı kosmoloji ideya aşkarlanır:

Cisim kimi mövcudluğa – sabit zəruri şərtlərdə mövcudluq üsuluna kənardan – cisimlərin xarici vəhdət təşkil etdiyi Kosmosdan kənar onun daxilinə hər hansı təsir olmadan, cisim mövcudluq üsulunu saxlayır və Kosmosda yeni mövcudluq üsulu əmələ gəlmir.

Buradan da, belə nəticəyə gəlmək olar ki, cisimlərdə həyat daxili sabit zəruri şərtlərə metafizikadan yeni təsirlərin olması ilə, dəyişən zəruri şərtlərdə mövcudluq üsulu – həyat əmələ gəlmişdir. Canlılığın cisimlərin ümumi inkişafının nəticəsi olmaması həyatın Kosmosda ümumi təzahür olmaması və cisimlərin canlılarda öz mövcudluqlarını saxlamasıdır. Əgər canlılar cisimlərdən əmələ gəlsəydi, onda bu yalnız xarici keçid prosesi kimi – bir mövcudluqdan başqasına keçid kimi olardı, hansı ki cisim canlıda mövcud olmazdı və təsirlər xarici vəhdətdən, yəni Kosmosun özündən – cismin özündən meydana çıxmalı idi. Bu isə cismin mövcudluq

üsuluna – onun əbədi və sonsuz mövcudluq üsuluna zidd olduğundan düz deyil. Cisimlərlə canlıların xarakterik xüsusiyyətləri də canlıların cisimlərdən əmələ gəlmədiyini göstərir. Hər bir cisim daxili qurulma, xarici keçid prosesinə malikdir. Canlılar daxili keçidlə valideyndən balaya keçmə kimi dünyaya gəlir və sonra xarici qurulma ilə artır, böyüyür, çoxalır. Cisimlər bir mövcudluqdan digərinə keçməklə dəyişir, canlı özü-özündə özünün bir formasından digərinə keçməklə dəyişir. Cisimlərdə heç bir halda tangensial enerji radial enerji ilə mübadilə etmir. Canlılarda enerjilər açıq sistem təşkil edir, daxili tangensial xarici varlıqların radial enerjisi ilə mübadilə edir. Buradan aydın olur ki, canlılıq cismin tabe olduğu qanunların pozulması ilə aşkarlanır. Başqa sözlə, canlılarla cisimlər fərqli qanunlara tabe olur.

Təbii mövcudluqlar necə fərqli qanunlara tabe ola bilər? *Nyuton* fizikası ilə *Eynşteynin* nisbilik nəzəriyyəsini tutuşdurduqda aşağıdakı həqiqət aşkarlanır. *Nyuton* fizikasında cisimlərin işıq sürətinə yaxın sürətlə hərəkət etdiyi təsəvvür olunur və bu zaman maddə enerjiyə, enerji hərəkətə sərf olunaraq bir-birinə xarici keçid edir. *Eynşteynin* nisbilik nəzəriyyəsi ehtimali sürətə, yəni təbiətdən aşkarlanmayan yalnız ehtimal olunan sürətlə hərəkətin qanunlarını özündə ifadə edir. Belə sürət təbiətdən aşkarlanmadığından biz onu təbii hərəkətin əksiliyi kimi metafizik sürət adlandırırıq.

Nisbilik nəzəriyyəsinə görə, fikrən işıq sürətindən böyük sürətə malik hərəkətin təbiətinə nəzər salsaq bu qanunun tam əksinə işlədiyini görərik. Belə ki, işıq sürətindən artıq sürətlə hərəkət zamanı enerji maddəyə çevrilir. Əgər enerji maddəyə çevrilirsə, onda təbiət qanununun ikinci hissəsinin də əksiliyinin baş verdiyini ehtimal etmək olar. Buradan aşağıdakı metafizik ideya aşkarlanır:

İşıq sürətindən artıq sürətlə hərəkət zamanı hərəkət enerjiyə çevrilir.

Bəs *Eynşteyn* nəyə görə ehtimal nəzəriyyəsində qanunun bu hissəsini şərh etməmiş və ya onun düsturundan bu aşkarlanmır? Metafizik hərəkət ölçüsüz məkan və zaman asılılığında, təbii hərəkət ölçülü məkan və za-

man asılılığında təzahür edir. Metafizik hərəkətin ölçülüyü olmadığından, ondan enerjinin yaranmasını göstərmək mümkünsüzlükdür. Riyaziyyatda bu "sıfırdan çıxma mümkünsüzlükdür" kimi ifadə olunur. Yəni işıq sürətindən böyük sürətdə enerjinin hərəkətdən əmələ gəlməsi ölçüsüzlükdən ölçünün əmələ gəlməsi kimi baş verir, hansı ki təbii qanunlara görə mümkünsüzlük, amma metafizik qanunlara görə mümkünlükdür. Beləliklə, təbii sürətlə ehtimali sürətə malik hərəkət bir-birinə əks qanunlara tabe olurlar. Buradan da, yalnız cisim mövcudluq üsulunun daxilində metafizik təsirdən tamamilə yeni, cismin mövcudluq üsuluna əks, canlılığın mövcudluq üsulunun yarandığını təsdiq etmək lazım gəlir, hansı ki bu təsirlə bu üsulun qanunları cisimlərin tabe olduğu qanunlardan fərqli olaraq bioloji qanunlar kimi qüvvədədir.

Buradan aşağıdakı kosmoloji ideya aşkarlanır:

Canlılar inkişaf prosesində cisimlərdən əmələ gəlməmişdir, canlılar cisimlər kimi metafizik başlanğıca malik olub İlahi güc tərəfindən yaradılmışdır. Canlılar cisimlərdən daxili keçidlə metafizikadan fizikaya keçməklə, cisimdən xaric qurulma kimi yaranır.

Canlılıqla ruhi potensiya da öz aralarında aksidensiallığa malik olmadıqlarından, canlılıq xaricdə şüurlu insana, fiktiv insan varlığına keçmir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Aksidensiallığı olmadığından əmələgəlmə prosesində canlıların təbii şəkildə şüurlu insana keçidi mümkünsüzlükdür.

Yəni, fiktiv insan yaranma ilə bilavasitə metafizikadan təbiətə keçmişdir. Yəni fiktiv insanda cisim və canlıdan fərqli müstəqil başlanğıc vardır.

Təsir qurulma prosesində meydana çıxır və özündə təşkilatlanma – qurulma haqqında həqiqəti ifadə edir. Buradan aşağıdakı ontoloji ideya aşkarlanır:

Təsir – daxildə hissələrin (hissəciklərin) bir-biri ilə vəhdət təşkil etməsinin şərtlərinin məcmusundan ibarətdir.

Təşkil olunmadan meydana çıxdığından, təsirdən aşkarlanan həqiqət də təşkil olunmuş, qurulmuş mürəkkəb həqiqətdir. Mürəkkəb olduğundan müxtəlif mövcudluqlarda eynilik təşkil etmir. Yəni, müxtəlif mövcudluqlarda qurulma müxtəlif nizama tabe olur.

Canlılar dəyişən zəruri şərtlərin məcmusu olduğundan faktiki varlığı dəyişkən olur. Faktiki varlığın dəyişkənliyinə görə eyni bir mövcudluqda daxilə itələnən substansiya müxtəlifləşir. Buradan aşağıdakı ontoloji ideya aşkarlanır:

Canlılar – daxildə bir substansiyadan başqa substansiyaya keçidin – dəyişkən təsirlərin – şərtlərinin məcmusundan ibarətdir.

Təsir faktiki varlığın formal varlığa əksiliyindən aşkarlanır və daxildə faktiki varlığın – formanın formal varlığı, mahiyyəti özündə itələməsi nəticəsində qavranılır. Forma mahiyyətə görə xarici olduğundan forma mahiyyəti yalnız daxilə itələyir. Buradan da, təsir daxilə itələnən, daxildə saxlanan əlamət – aksidensiallığın əksiliyi kimi substansial olur. Daxildə saxlandığından və qurulmadan meydana çıxdığından biz təsirlərdən mövcudluğun daxili substansiyası – onun mahiyyəti, yəni qurulma nizamı haqqında həqiqəti aşkarlayırıq. Buradan aşağıdakı ontoloji ideya aşkarlanır:

Cisimlərdə forma sabit olduğundan daxili zərurətə görə substansiya dəyişməzdir, sabitdir. Yəni zamandan asılı olmayaraq eyni bir cisim eyni bir həqiqəti özündən aydınlaşdırır.

Mövcud varlıqda eyni zamanda dalğa təbiəti də özündə hissəcik təbiətinə ziddiyyət saxladığından, onu özündən itələyir. Bu zaman hissəcik təbiətinin əsasında dalğa təbiəti dayandığından, təzahürdən fərqli olaraq, onu özündən kənara çıxara bilmir, nəticədə təsir xaricə çıxmır, beləliklə, təsir – daxili təzahür kimi meydana çıxır. Daxili təzahürün təfəkkürdə refleksiyasından obyektin daxili obrazı – mahiyyəti təsəvvür kimi yaranır.

Buradan aşağıdakı ontoloji ideya aşkarlanır:

Təsir – İlahi Nurun özündə dalğa təbiətinin hissəcik təbiətini mövcud varlıqdan itələməsinin şərtlərinin məcmusundan ibarətdir.

Təsir təzahürdən fərqli olaraq şeyin xaricinə itələnmədiyindən, biz təsirləri xarici seyr edə bilmirik. Təsir – varlığın dalğa təbiətinin hissəcik təbiətini özündən itələməsindən yarandığından təsirdən onu itələyən haqqında təsəvvür əldə etmək olur. Buradan, təsir təsəvvürlərin yaranması kimi qavranılır. Hər bir varlıq faktiki varlıqla formal varlığın vəhdətində mövcud olduğundan, mövcud varlıqların həqiqəti qavranılan təsirlə təzahürün vəhdətindən aşkarlanır. Faktiki varlıq təzahürlərinə görə obrazı – mücərrəd formanı, formal varlıq təsirlərə görə təsəvvürləri – mücərrəd təsirləri yaradır. Təfəkkürdə ayrı-ayrı üsulla refleksiya edən faktiki və formal varlığın subyektdə refleksiyası yenidən sintez olunaraq varlığın daxili vəhdətinin nizamı – yəni həqiqəti aşkarlanır.

Təzahürsüz varlıqlar buna görə yalnız təsəvvürdə ideya kimi obrazsız – intuitiv, təsirsiz varlıqlar xalis obraz kimi təsəvvürsüz yalnız hissi qavranılır. Təsirlə təzahürdən qavranılan varlıqların qavranma üsulu qarışıq, yəni həm hissi, həm intuitiv qavrama ilə baş verdiyindən demonstrativ idrak üsulu ilə qavranılır.

İdrak obyektlərinin təsir və ya təzahürlə qavranılmasını varlıq kimi təyin edirik. Buradan aşağıdakı ontoloji ideya aşkarlanır:

Var – səbəbi özündə olan təsir və təzahürlə qavranmanın şərtlərinin məcmusundan ibarətdir.

İdrak obyektləri səbəb və nəticə əlaqəsinə görə iki yerə ayrılır. Təzahür və təsirlərinin səbəbi və nəticəsi özündə olan obyektləri biz obyektiv varlıq kimi təyin edirik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Obyektiv varlıq – özündən aşkarlanan təsir və təzahürün – daxili determinizmin şərtlərinin məcmusundan ibarətdir.

Subyektiv varlığın səbəbi özündə, nəticə kimi təsir və təzahürləri özündən kənardan aşkarlanır. Yəni belə varlıqların daxili determinizmi yoxdur. Buradan aşağıdakı ontoloji ideya aşkarlanır:

Subyektiv varlıq – özündən kənar aşkarlanan təsir və təzahürlərin – daxili determinizmi istisna edən şərtlərin məcmusundan ibarətdir.

Hər hansı bir idrak obyekti yalnız faktiki varlıqdan ibarət olursa bu zaman həmin varlıq xalis təzahür kimi mövcud olur və onun təfəkkürdə refleksiyası təsəvvürsüz boş obrazlar yaradır. Belə şey "nə" kimi qavranılır. Buradan aşağıdakı ontoloji ideya aşkarlanır:

Nə – səbəbi özündə olan, yalnız təzahürlərinə görə təfəkkürdə refleksiya edərək obraz yaradan varlıqların şərtlərinin məcmusundan ibarətdir. Nə – mövcudluğu məlum, mənası naməlum varlıqdır.

Əgər hər hansı bir idrak obyekti yalnız formal varlığa malikdirsə, bu zaman həmin obyekt xalis təsir kimi mövcud olur və onun təfəkkürdə refleksiyası xalis təsəvvür kimi meydana çıxır. Obrazsız təsəvvürlər "nəsə" kimi qavranılır. Buradan aşağıdakı ontoloji ideya aşkarlanır:

Nəsə – yalnız səbəbi özündə olan təsirlərinə görə təfəkkürdə refleksiya edərək təsəvvür yaradan varlıqların şərtlərinin məcmusundan ibarətdir. Nəsə – mənası məlum, mövcudluğu naməlum varlıqdır.

İdrak obyektində təzahür və ya təsirlərin şərtləri inkar olunursa, belə obyekti biz yoxluq kimi qavrayırıq. Buradan aşağıdakı ontoloji ideya aşkarlanır:

Yoxluq – özündə təsir və təzahürlərin olmasını istisna edən şərtlərin məcmusundan ibarətdir. Yox – nə mövcudluğu, nə mənası olan varlıqdır.

Hər hansı bir idrak obyektinin ya təsiri, ya təzahürü özündən kənar səbəbdən meydana çıxdıqda belə obyektləri biz heçlik kimi təyin edirik. Buradan aşağıdakı ideya aşkarlanır:

Heçlik – səbəbi özündə olmayan təsir və ya təzahürlərin şərtlərinin məcmusundan ibarətdir. Heç – təsir və təzahürləri başqasında olan varlıqdır.

Heçliklərin qavranması nəticəsində təfəkkürdə bilavasitə idraka təqdim edilməyən varlıqlar haqqında həqiqət aşkarlanır. Məsələn, kölgə heçlik kimi varlıqdır, hansı ki biz kölgəni qavramaqla işıq və kölgə salan mövcudluq haqqında təsəvvür əldə edirik.

Varlıqların mövcud olması təzahür və təsirlərin şərtlərindən ibarətdir. Obyektiv gerçəkliklər təsir-əks-təsir əlaqəsi ilə bir-biri ilə xarici vəhdət təşkil edir və bu vəhdət yarandıqdan sonra, hər bir gerçəklik təzahür edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Təsir – daxili vəhdətdən, təzahür – xarici vəhdətdən aşkarlanır.

Yəni qurulma təsir kimi, keçid təzahür kimi baş verir.

Obyektiv gerçəkliklər təsir və təzahür etməklə xarici vəhdətdən təsirlə təzahürlərin məcmusundan qavranılır.

Birincili mövcud varlıqların – cisimlərin təşkil etdiyi Kosmosdan onların dörd əsas xarakteristikasını aşkarlamaq olar.

1. **Sadəlik:** Eyni bir mahiyyətin vahid sayda bir ölçüdən aşkarlanmasını biz sadəlik kimi təyin edirik. Məsələn, "H" yalnız bir sabit zəruri ölçüyə malik olduğundan biz hidrogeni sadə maddə kimi qavrayırıq. Mümkünlüyün varlığının mövcudluq tələbinə İlahi İradədən verilmiş vahid ölçüdən sadəlik meydana çıxır. İstənilən mövcudluq sırasının ən sadə ölçüsünü həmin sıranın başlanğıcından, yəni vahiddən təyin etmək olar. Buradan da, sadəlik ilk başlanğıca verilmiş sabit məkan və zaman ölçülüyündən ibarətdir. Sadə ölçü vahidə verildiyindən, hər üç məkan ölçüsü və zaman ölçüsü vahidə bərabərdir. Buradan aşağıdakı kosmoloji ideya aşkarlanır:

Sadəlik – bir anda, yalnız bir məkani ölçüdə mövcudluğun – maddi nöqtənin sabit şərtlərinin məcmusundan ibarətdir.

Maddi nöqtə təfəkkürdə xəyali nöqtə kimi refleksiya edir. Buradan da xəyali nöqtəni – məkan və zamanın ölçüsüz başlanğıcını ruhun başlanğıcı kimi təyin edə bilərik. Belə sadə hissəsi olmayan mütləq tamdan ibarətdir.

2. **Fərqlilik:** Eyni bir mahiyyətin iki və daha artıq sayda bir ölçüdən aşkarlanmasını fərqlilik kimi təyin edirik. Məsələn, "He" atomunun nüvəsi iki protondan, hidrogen atomunun nüvəsi isə bir protondan təşkil olunub. Buna görə də, helium hidrogen kimi sadə, amma ondan fərqlidir. Beləliklə, fərqlilik mahiyyətcə eyni, formaca müxtəlif olan

mövcudluqlardan aşkarlanır. Forma xarici görüntü ilə qavranıldığından, xarici görüntüyə say daxil olduğundan fərqlilik sayın daxili dəyişilməsindən aşkarlanır. Buradan aşağıdakı kosmoloji ideya aşkarlanır:

Fərqlilik – bir anda, iki və daha artıq məkani ölçüdə mövcud varlığın sabit zəruri şərtlərinin məcmusundan ibarətdir.

Məsələn, xörək duzu müxtəlif ölçülü kristallar təşkil edirsə, onda həmin kristallar özlərində fərqlilik təzahür etdirir. Fərqlilik hissəsi olan nisbi tamdan aşkarlanır, hansı ki hissələr mütləq tamdan ibarət olur.

3. **Mürəkkəblik:** Eyni bir mahiyyətin vahid sayda iki və daha artıq ölçüdən aşkarlanmasını biz mürəkkəblik kimi təyin edirik. Məsələn, xörək duzu Na və Cl-un ölçülərindən təşkil olunduğundan onu iki ölçüdən qavrayırıq. Buradan da aşağıdakı kosmoloji ideya aşkarlanır:

Mürəkkəblik – bir anda, ən azı iki və daha çox məkani ölçüdə mövcud varlığın sabit şərtlərinin məcmusundan ibarətdir.

Mürəkkəblik tərkib hissələrdən – iki və daha artıq mütləq tamdan təşkil olunur.

4. **Müxtəliflik:** Eyni bir mahiyyətin iki və daha artıq məkani ölçüdən və iki və daha artıq saydan aşkarlanmasını biz müxtəliflik kimi təyin edirik. Başqa sözlə, müxtəliflik mürəkkəbin fərqliliyidir. Buradan da aşağıdakı kosmoloji ideya aşkarlanır:

Müxtəliflik – bir anda, iki və daha artıq məkani ölçüdə və iki və daha artıq sayda mövcud varlığın sabit zəruri şərtlərinin məcmusundan ibarətdir.

Canlılar cisimlərin əsasında yarandığından cismi xarakteristikaları canlılığa keçir, nəticədə sadəlik, fərqlilik, mürəkkəblik və müxtəliflik dəyişən şərtlərdə canlılarda siniflər, növlər, fəsilələr, cinslər və s. kimi təzahür edir. Biz dəyişən zəruri şərtləri müxtəlif vaxtlar kimi qavrayırıq.

Canlılıq – eyni bir mövcudluğun müxtəlif vaxtlarda zəruri ölçülərini dəyişməsindən aşkarlanır. Beləliklə, canlı o mövcudluqlardır ki, onlar eyni yerdə, müxtəlif vaxtlarda, müxtəlif ölçülərdən aşkarlanır. Buradan aşağıdakı kosmoloji ideya aşkarlanır:

Canlılıq – eyni bir mövcudluqda, müxtəlif vaxtlarda, müxtəlif məkan ölçülərinin şərtlərinin məcmusundan ibarətdir.

Canlıların mövcud olması həyat kimi təzahür edir. Bütün canlılar birlikdə təbiəti təşkil edir. Təbiət cisimlərlə birlikdə dünyanı – Kosmosu təşkil edir.

1. **Sadə canlılar – mikroorqanizmlər:** Eyni bir canlının vahid sayda bir dəyişən ölçüdən aşkarlanmasını biz mikroorqanizmlər kimi təyin edirik. Mikroorqanizmlər yalnız formanın dəyişilməsi ilə aşkarlanan canlılardır. Yalnız forma dəyişikliyinə məruz qaldığından mikroorqanizmlərdə mahiyyətcə fərqlilik onların formasından aşkarlanır. Məsələn, kürəşəkillilər, çöpşəkillilər, spiralvarilər və s.
2. **Mürəkkəb canlılar:** Eyni bir orqanizmin müxtəlif ölçüdə dəyişən üzvlərdən təşkil olunmasını makroorqanizmlər kimi təyin edirik. Buradan da, orqanizmin üzvlərə ayrılması və üzvlər arasında əlaqənin xarakterinə görə makroorqanizmlər aşağıdakı siniflərə bölünür:
   - **a. Təkhüceyrəlilər:** Təkhüceyrəlilərdə eyni bir orqanizm eyni bir hüceyrədən, amma müxtəlif orqancıqlardan – orqanellalardan təşkil olunur. Orqanella müstəqil dəyişilmə şərtlərinə malik olmayan, yalnız digər orqanellalarla dəyişən şərtlərdə əlaqələnən üzvi hissələrdən ibarətdir.
   - **b. Çoxhüceyrəlilər – makroorqanizmlər:** Müxtəlif sayda müxtəlif hüceyrədən ibarət, müxtəlif dəyişən zəruri şərtlərə malik orqanların, yəni üzvlərin təşkil etdiyi canlı orqanizmləri biz çoxhüceyrəlilər kimi təyin edirik.
3. **Müxtəlif canlılar:** Makroorqanizmlər bir tam kimi üzvlərin sabit sayına, dəyişən ölçülərinə və üzvlərin orqanizmdə əlaqə və vəhdətinə görə müxtəlifləşir. Canlıların müxtəlifliyinin məcmusu onların həyat təcrübəsini təşkil edir. Buradan da istənilən canlı eyni həyat təcrübəsinə görə, yəni müxtəlifliyinə görə aləmlər, siniflər, növlər, cinslər təşkil edir.

- **Aləmlər:** Üzvlərə ayrılmasına və üzvlərin əlaqələrinin dəyişilməsinə görə makroorqanizmlərin müxtəlifliyi aləmlər kimi təyin olunur. Makroorqanizmlər iki böyük aləmə ayrılır. Birincisi, bitkilər aləmi: Bitkilər üzvlərə ayrılan, üzvlər arasında dəyişən əlaqə olan, buna görə vəhdətdə olmayan makroorqanizmlərdir. Üzvlərin dəyişən əlaqəsinin müxtəlif ölçülüyündən bitkilər də öz-özlüyündə otlar, kollar, ağaclara, onlar da daha aşağı növlərə, cinslərə bölünür. İkincisi, heyvanlar aləmi: Heyvanlar aləminə üzvlərə ayrılan, üzvlər arasında sabit əlaqə olan, buna görə vəhdətdə olan, amma üzvlərin sayına və ölçülərinin dəyişilməsinin hədlərinə görə fərqlənən, yəni müxtəlif həyat təcrübəsi ilə bir-birindən ayrılan makroorqanizmlər aiddir.
- **Təzahür:** Biz, sadəcə təzahürü mövcudolmadan həqiqətin aydınlaşma üsulu kimi təyin edə bilərik. Buradan aşağıdakı kosmoloji ideya aşkarlanır:

Təzahür – mövcudolmanın təsadüfi şərtlərindən həqiqətin aydınlaşmasının şərtlərinin məcmusundan ibarətdir.

Təzahür mövcudluqların xarici vəhdət təşkil etməsindən, yəni aktuallaşmadan meydana çıxır və formaların bir-birinə nisbətini özündə ifadə edir. Buna görə də xaricidir və ümumidir. Beləliklə, mövcud varlıqların xarici vəhdət təşkil etməsi təzahür kimi meydana çıxır. Xarici vəhdət ən azı iki müxtəlif mövcudluğun iştirakını tələb etdiyindən təzahür ümumidir və xarici vəhdətdə olan mövcudluqların heç biri ilə ayrıca şərtlənməmişdir, buna görə aksidensialdır, yəni hər bir ayrıca mövcudluqdan ayrılan xarakteristikadır. Burada ümumilik eyni zamanda vəhdəti təşkil edən bütün mövcudluqlara aid olmağı, aksidensiallıq vəhdəti təşkil edən hər bir ayrıca mövcudluqdan ayrı olmağı özündə ifadə edir. Buradan aşağıdakı kosmoloji ideya aşkarlanır:

Təzahür – hər şeyə aid, amma ayrılıqda heç bir şeydə olmayan, mövcudluqların xarici vəhdətinin şərtlərinin məcmusundan ibarətdir.

Təzahür mövcudluqdan xaricdə, vəhdətdən aşkarlandığından təzahürlər aksidensialdır. Yəni daxili səbəbdən meydana çıxmır. Əgər fikrən hər hansı bir mövcudluğu xarici vəhdətdən çıxarsaq, həmin mövcudluq təzahürdən məhrum olacaq və yalnız təsirlə aşkarlanacaq. Beləliklə, buradan da demək olar ki, təzahür faktiki götürülən mövcudluqdan aşkarlanır. Mövcudluğun faktiki götürülməsi onun xarici görüntüsündən ibarətdir. Görüntü – sadəcə xarici vəhdətin şərtlərinin məcmusundan ibarətdir. Təzahür xarici vəhdətdən aşkarlandığından hər bir təzahür özündə varlıqların sayına uyğun üç müxtəlif başlanğıca malik olur: Cisim başlanğıcı, can başlanğıcı və ruh başlanğıcı. Bunlardan birinci ikisi zərurətə, üçüncüsü təsadüfə görə başlanğıc təşkil edir.

Zərurətə görə başlanğıclar mövcudluqdan asılı olur, hansı ki onların hər hansı birinin olmamasında təzahür "nəsə insan" tərəfindən aşkarlanmır. Məsələn, əgər mövcudluqlar xarici vəhdət təşkil etməsə və ya bədən bu vəhdətdən görüntü əldə etməsə, ruh təzahür haqqında bilgi əldə edə bilməz.

Təsadüfə görə başlanğıc o başlanğıcdır ki, mövcud təzahürün aşkarlanıb-aşkarlanmaması ruhdan asılıdır. Məsələn, heyvanlarda ruh olmadığından heyvanlar təzahürləri aşkarlaya bilmirlər. İnsan yatdıqda təzahürlər haqqında heç bir məlumat əldə etmir və s. Zərurətə görə başlanğıcda mövcudluqlar vəhdət təşkil etməklə xarici görüntü yaradır və bu görüntü müxtəlif təzahürlər kimi bədənə göndərilir, bədən – görmə ilə görüntünü qəbul edir, onu öz daxilində tərkib hissələrinə ayırır. Bədəndən görmənin ruha daxil olması ilə Ruhda görmədən görünüş yaranır. Görünüş obyektivsizləşdirilmiş təzahürlərdən ibarətdir, hansı ki ayrı-ayrılıqda rəng, say, həndəsi forma kimi qavranılır. Bunu aşağıdakı ardıcıllıq kimi təsəvvür etmək olar:

Görüntü – Görmə – Görünüş

Mövcudluqlar eyni zamanda həm təsir, həm də təzahür göstərdikdə Ruhda həm onların daxili, həm də xarici vəhdəti haqqında, yəni onların reallıqları haqqında informasiya yaranır. Belə informasiya təfəkkürdə ob-

raz və ideyaların assosiasiyası ilə onlara müvafiq görünüş – say, rəng, həndəsi forma verməklə sintez olunur. Buradan da reallıqların təfəkkürün sintezindən meydana çıxdığını demək olar. Təzahür mövcudluqların bir-birinə nisbətini özündə ifadə edir.

VARLIQ

Təbii varlıqlar – İlahi İradədən zəruri şərt alaraq mövcud olan varlıqlar. Belə varlıqlar iki cürdür:

1. **Zəruri, sabit, daxili şərtlərdə mövcud olan varlıqlar:** "Zəruri" sözü özündə o mənanı bildirir ki, həmin şərtin olmamasında konkret mövcud varlıqdan həqiqət aydınlaşmır. Buradan da, zərurət həqiqətin aydınlaşmasının əsasını özündə ifadə edir. "Sabit" sözü özündə zamandan asılı olmayaraq eyni məkanda eyni zəruri şərtlərin olmasını özündə ifadə edir. Nəhayət, "daxili" sözü şərtlərin varlığın özündən – mövcudluqdan aşkarlanmasını özündə ifadə edir, başqa sözlə mövcudolmadan və ya aktuallaşmadan asılı olmadan tələb olunan şərtləri biz daxili şərtlər kimi təyin edirik. Bura cisimlər aiddir. Cisimlər – müxtəlif zamanda, eyni məkanda, eyni daxili zəruri şərtlərə malik mövcud varlıqlardır.
2. **Zəruri, dəyişən, daxili şərtlərdə mövcud olan varlıqlar:** Burada "dəyişən" sözü zamandan asılı olaraq məkan şərtlərinin eyniliyində varlığın daxili şərtlərinin bir-birini əvəzləməsini özündə ifadə edir. Biz bura canlıları aid edirik. Canlılar – müxtəlif zamanda, müxtəlif məkanda, müxtəlif daxili zəruri şərtlərə malik mövcud varlıqlardır.

İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT

Abbagnano, Nicola. *Ekzistensializmə giriş* (*Introduction to Existentialism*).

Ayer, Alfred Jules. *Dil, Həqiqət və Məntiq* (*Language, Truth and Logic*), 1936.

Aristotel. *Metafizika* (*Metaphysics*). *Poetika* (*Poetics*).

Bekon, Frensis. *Yeni Orqanon* (*Novum Organum*), 1620.

Berkli, Corc. *İnsan biliyinin prinsipləri haqqında traktat* (*A Treatise Concerning the Principles of Human Knowledge*), 1710. *Görməyə dair yeni nəzəriyyə haqqında esse* (*An Essay Towards a New Theory of Vision*), 1709.

Bor, Nils. *Atom nəzəriyyəsi və təbiətin təsviri* (*Atomic Theory and the Description of Nature*), 1934.

Bruno, Cordano (Giordano Bruno). Səbəb*, başlanğıc və tək haqqında* (*De la causa, principio et uno*), 1584. *Başlanğıc və son* (Şellinqin təhlil etdiyi əsər).

Kapra, Fritjof. *Fizikanın Tao-su* (*The Tao of Physics*), 1975.

Kont, Oqyust. *Pozitiv fəlsəfə kursu* (*Cours de philosophie positive*), 1830−1842.

Dyui, Con. *Fəlsəfədə yenidənqurma* (*Reconstruction in Philosophy*), 1920.

Dekart, Rene. *Birinci fəlsəfə haqqında düşüncələr* (*Meditations on First Philosophy*), 1641. *Ağlın rəhbərliyi üçün qaydalar* (*Rules for the Direction of the Mind*), 1628. *İradlara cavablar* (*Replies to the Objections*).

Eynşteyn, Albert. *Dünyam* (*The World as I See It*), 1934.

Engels, Fridrix. *Anti-Dühring*, 1878.

Epikur. *Menoikə məktub*. *Məktublar və fraqmentlər*.

Everett, Hyu. *Kvant mexanikasının çoxlu dünyalar interpretasiyası* (*Many-Worlds Interpretation*), 1957.

Feyerbax, Lüdviq. Leybnits *fəlsəfəsinin tənqidi* (*Darstellung, Entwicklung und Kritik der Leibniz'schen Philosophie*), 1837.

Frankl, Viktor. *İnsan məna axtarışında* (*Man's Search for Meaning*), 1946.

Hegel, Georg Wilhelm Friedrich. *Ruhun fenomenologiyası* (*The Phenomenology of Spirit*), 1807. *Məntiq elmi* (*Science of Logic*), 1812. *Fəlsəfi elmlər ensiklopediyası* (*Encyclopedia of the Philosophical Sciences*), 1817.

Haydeqqer, Martin. *Varlıq və Zaman* (*Being and Time*), 1927. *Metafizika nədir?* (*What Is Metaphysics?*), 1929. *Texnika haqqında sual* (*The Question Concerning Technology*), 1954.

Heraklit. *Fraqmentlər*.

Herodot. *Tarix* (*The Histories*), e.ə. 440.

Qildebrand, Ditrix fon. *Məhəbbətin metafizikası* (*Metaphysics of Love*), 1927.

Yum, Devid. *İnsan təbiəti haqqında traktat* (*A Treatise of Human Nature*), 1739.

Ceyms, Uilyam. *Praqmatizm* (*Pragmatism*), 1907.

Jan Pol. *Estetika məktəbi* (*Vorschule der Ästhetik*), 1804.

Kant, İmmanuel. *Xalis zəkanın tənqidi* (*Critique of Pure Reason*), 1781.

Karnap, Rudolf. *Dünyanın məntiqi strukturu* (*Der logische Aufbau der Welt*), 1928.

Leybnits, Qotfrid Vilhelm. *Kombinasiya sənəti haqqında* (*On the Art of Combination*), 1666. *Metafizik mühakimələr*.

Lokk, Con. *İnsan zəkası haqqında esse* (*An Essay Concerning Human Understanding*), 1690.

Maksvel, Ceyms Klerk. *İstilik nəzəriyyəsi* (*Theory of Heat*), 1871.

Mendel, Qreqor. *Bitki hibridləri üzərində təcrübələr*, 1866.

Mendeleyev, Dmitri. *Kimyanın əsasları* (*Osnovy khimii*), 1869.

Nitsşe, Fridrix. *Zərdüşt belə deyirdi* (*Thus Spoke Zarathustra*), 1883. *İnsani, həddən ziyadə insani* (*Human, All Too Human*), 1878. *Şən elm* (*The Gay Science*), 1882.

Nyuton, İsaak. *Təbiət fəlsəfəsinin riyazi prinsipləri* (*Philosophiae Naturalis Principia Mathematica*), 1687.

Piko della Mirandola, Covanni. *İnsanın ləyaqəti haqqında nitq* (*Oration on the Dignity of Man*), 1486.

Platon. *Dövlət* (*The Republic*). *Fedon* (*Phaedo*). *Apologiya* (*Apology*).

Plotin. *Enneadlar* (*The Enneads*). *Üç ilkin başlanğıc haqqında* (*On the Three Primary Hypostases*).

Protaqor. *Həqiqət* (Fraqmentlər).

Radin, Din. *Şüurlu Kainat* (*The Conscious Universe*), 1997. *Dolaşıq Zəka* (*Entangled Minds*), 2006.

Şlik, Morits. *Ümumi idrak nəzəriyyəsi* (*General Theory of Knowledge*), 1918.

Şellinq, Fridrix. *Transsendental idealizmin sistemi* (*System of Transcendental Idealism*), 1800. *Bruno və ya ilkin başlanğıc haqqında* (*Bruno*), 1802.

Smit, Norman Kemp. *Kantın "Xalis zəkanın tənqidi" əsərinə şərh* (*A Commentary to Kant's Critique of Pure Reason*), 1918.

Spinoza, Benedikt. *Allah, insan və onun xoşbəxtliyi haqqında qısa traktat* (*Short Treatise on God, Man and His Well-Being*), 1662.

Teyyar de Şarden, Pyer. *İnsan fenomeni* (*The Phenomenon of Man*), 1955.

Vaqif, Molla Pənah. *Seçilmiş əsərləri*.

Uaythed, Alfred Nort. *Elm və müasir dünya* (*Science and the Modern World*), 1925. *Düşüncə üsulu* (*Modes of Thought*), 1938. *Spekulyativ fəlsəfə*. *Kosmologiya ideyası*.

Vitgenşteyn, Lüdviq. *Məntiqi-fəlsəfi traktat* (*Tractatus Logico-Philosophicus*), 1921.

TERMİNLƏR LÜĞƏTİ (QLOSSARİ)

A

- **Akt:** Mövcudolma (Nəticəyə görə mümkünlük). Faktın reallaşması.
- **Aporiya:** Həlli çətin olan məsələ, çıxılmaz vəziyyət. (Aristotelin metafizikasında istifadə olunan suallandırma forması).
- **Aydınlaşma:** Həqiqətin obyektdə üzə çıxması (Mümkünlük/Reallıq).
- **Aşkarlanma:** Həqiqətin subyektdə (təfəkkürdə) dərk olunması (Gerçəklik).

B

- **Başlanğıc:** Özü törənən olmayan, lakin başqasını törədən. Birinci olan, prosesin əsası.

C

- **Canlı:** Müxtəlif zamanda, müxtəlif məkanda, müxtəlif daxili zəruri şərtlərə (dəyişən şərtlərə) malik mövcud varlıq.
- **Cisim:** Müxtəlif zamanda, eyni məkanda, eyni daxili zəruri şərtlərə (sabit şərtlərə) malik mövcud varlıq.

E

- **Emanasiya:** Həqiqətin (İlahi Nurun) mənbədən uzaqlaşaraq dərəcələnməsi, maddiləşməsi və keyfiyyətini itirməsi prosesi.
- **Enerji (Metafizik):** Entelexiya. Xalis kinetik enerji, ölçüsüz, azad hərəkətlilik.
- **Enerji (Təbii):** Kütlə ilə əlaqəli, statik və kinetik enerjinin vəhdəti.
- **Entropiya:** Həqiqətin və ya enerjinin nizamlılıqdan nizamsızlığa doğru dəyişməsi. (Kitabda: Məna – entropiya olunmuş həqiqətdir).
- **Əbədilik:** Zamanın başlanğıc və sonunun olmaması; xətti zaman.

- **Əməlgəlmə:** Təbiət daxilində bir mövcudluğun digərinə keçməsi.

F

- **Fakt:** Mövcudluq (Səbəbə görə mümkünlük).
- **Faktiki Varlıq:** Xarici, bilavasitə və zərurətə malik varlıq. Təzahürlərə əsaslanan son nəticə.
- **Fenomen:** Hissi qavranılan, təzahür edən obyekt.
- **Fiktiv Varlıq:** Öz xüsusi mövcud varlığı olmayan, yalnız təfəkkürdə başqa varlıqların sintezindən yaradılan "uydurma" varlıq (Məsələn, söz, cin, fiktiv ruh).
- **Formal Varlıq:** Daxili bilavasitəliyi olmayan, amma özündə zərurəti olan varlıq. Nizam və formallıq yaradan əsas (Məsələn, mahiyyət, növ, təfəkkür).

G

- **Gerçəklik:** İdrak obyekti statusu almış, təfəkkürdə refleksiya edən mövcud varlıq.

H

- **Heçlik:** Səbəbi özündə olmayan təsir və ya təzahürlərin şərtlərinin məcmusu (Məsələn, kölgə).
- **Həqiqət:** Varlığın İlahi istəyə uyğunluğu.
- **Hərəkət (Metafizik):** Obyekt tələb etməyən, azad, işıq sürətindən yüksək (ehtimali) hərəkət.
- **Hərəkət (Təbii):** Yerdəyişmə, vasitəli (maddi), işıq sürətinə qədər olan.

İ

- **İdrak (Demonstrativ):** Sübutlar və əqli mühakimələr vasitəsilə qavrama.
- **İdrak (Hissi):** Duyğu orqanları vasitəsilə bilavasitə qavrama.
- **İdrak (İntuitiv):** Vasitəsiz, birbaşa daxili seyr (bəsirət) yolu ilə qavrama.
- **İmmanent:** Daxili, təcrübənin daxilində qalan.

M

- **Metafizika:** Təbiətdənkənar, fizikadan sonrakı elm. Başlanğıcları, səbəbləri, təcrübədənkənar həqiqətləri və mümkün varlıqları öyrənən sahə (“Alt-üst edilmiş fəlsəfə”).
- **Məkan (Fiziki):** Ölçülü, maddi.
- **Məkan (Metafizik):** Ölçüsüz (sıfıra bərabər), sonsuz.
- **Məna:** Mahiyyətin aşkarlanmasının şərtlərinin məcmusu. Entropiya olunmuş nisbi həqiqət.
- **Mövcudluq:** Varlığın məkanda və zamanda aktuallaşması, reallaşması.

N

- **Noumen:** Hissi qavranılmayan, yalnız ağılla dərk edilən “özündə şey”. Metafizik statuslu obyekt.

R

- **Reallıq:** İdrakdan (şüurdan) asılı olmayan, obyektiv mövcud olan varlıq.
- **Refleksiya:** Obyektiv gerçəkliyin təfəkkürdə əks olunması; mövcudluqdan təfəkkürə keçid.

S

- **Səbəb:** Mövcudluğa təsir edərək onu mövcudolana çevirən xarici amil.
- **Səbəblərin Səbəbi:** Özü nəticə olmayan və özü-özünə münasibətdə səbəb olan Xalis Səbəb (Allah).
- **Sıfır (0):** Metafizikadan fizikaya keçid sərhədində mövcud olan varlığın ölçüsü. Eyni anda həm var (+1), həm yox (−1) olmağın cəmi.
- **Sofistika:** (Müəllifə görə) Metafizik statuslu idrak obyektlərinin fərqli üsullarla dərkindən tapılan ideyaların məcmusundan ibarət müdriklik forması.
- **Sonsuzluq:** Ölçüsüzlük və saysızlıq.

- **Status:** Obyektin idrak sistemindəki yeri, vəziyyəti, reallıq və ya irreallıq dərəcəsi.

T

- **Təsir:** Daxili vəhdətdən (mahiyyətdən) aşkarlanan, daxildə saxlanan xarakteristika.
- **Təzahür:** Xarici vəhdətdən (mövcudolmadan) aşkarlanan, xaricə itələnən əlamət.
- **Transsendensiya:** Təcrübədən kənara çıxma, sərhədləri aşma.

V

- **Varlıq:** İlahi İradədən mümkünlüyün şərtlərini almış, lakin hələ maddi mövcudluğa keçməmiş əsas (Mümkünlüyün varlığı).

X

- **Xalis Zəka:** Təcrübədən asılı olmayan, aprior biliklərə malik ağıl vəziyyəti.
- **Xəyali Nöqtə:** Maddiliyi inkar edən, dalğa təbiətli, ölçüsü olmayan nöqtə (Ruhun riyazi ifadəsi).

Y

- **Yaranma:** Metafizikadan fizikaya keçid. Yoxluqdan varlığa, dalğa təbiətindən hissəcik təbiətinə keçid.
- **Yoxluq:** Özündə təzahür və təsirlərin olmasını istisna edən şərtlərin məcmusu. Nə mövcudluğu, nə mənası olan varlıq.

Z

- **Zaman (Fiziki/Vaxt):** Məhdud, dövri, ölçülü.
- **Zaman (Metafizik):** Ölçüsüz, əbədi, xətti.

MÜNDƏRƏCAT

MÜƏLLİFDƏN 4
BÜTÜN ELMLƏRİN ŞAHI 9
METAFİZİKA 29
METAFİZİK BİLİKLƏRİN FORMASI 43
METAFİZİK PROBLEMLƏR 87
METAFİZİK SUALLANDIRMA 126
METAFİZİK METOD – TRANSSENDENSİYA 180
METAFİZİK STATUSLU OBYEKTLƏR 217
METAFİZİK İDEYALAR 378
İDRAKIN METAFİZİKASI 385
İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT 461
TERMİNLƏR LÜĞƏTİ (QLOSSARİ) 464
MÜNDƏRƏCAT 468